**FAİQ ƏLƏKBƏRLİ**

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN SOSİAL-FƏLSƏFİ GÖRÜŞLƏRİ: MİLLİ HƏMRƏYLİK VƏ AZƏRBAYCANÇILIQ

**"Elm və təhsil"**
**Bakı- 2022**

**Bu kitab M.Ə.Rəsulzadənin 138-ci doğum gününə ərməğandır!**

**Elmi redaktoru:** **Mübariz Süleymanlı**
Fəlsəfə elmləri doktoru, professor

**Rəyçilər:** **Əli Abasov**
Fəlsəfə elmləri doktoru, professor

**Rəfail Həsənov**
Sosiologiya elmləri doktoru, professor

**Faiq Ələkbərli. Məhəmməd Əmin Rəsulzadənin sosial-fəlsəfi görüşləri: milli həmrəylik və azərbaycançılıq.**
**“Elm və təhsil”, Bakı, 2022, 414 səh.**

Monoqrafiya Azərbaycan və Türk dünyasının böyük oğlu, Azərbaycan Cümhuriyyətinin qurucusu, politoloq, sosioloq, filosof-mütəfəkkir Məhəmməd Əmin Rəsulzadənin sosial-fəlsəfi görüşlərinə, milli həmrəylik (solidarizm) və azərbaycançılıq təlimlərinə həsr olunub. Öncə, monoqrafiyada M.Ə.Rəsulzadənin sosial-fəlsəfi görüşləri kontekstində sosial-demokratiya, milli demokratiya, liberalizm, islamçılıq, müsavatçılıq cərəyanları hərtərəfli şərh edilib. Əsərdə M.Ə.Rəsulzadənin sosial-fəlsəfi görüşləri ilə birbaşa bağlı olan milli həmrəylik (təsanüdçülük-solidarizm) təlimi dünyəvilik və türk fəlsəfəsi kontekstində araşdırılmış, bu cərəyanla bağlı sosial-fəlsəfi fikirləri şərh olunmuşdur. Monoqrafiyada M.Ə.Rəsulzadənin azərbaycançılıq təliminin banisi kimi “Azərbaycan” milli ideyasının sosial-fəlsəfi və ideoloji yönləri də əsaslı şəkildə tədqiq edilmişdir. Eyni zamanda, monoqrafiyada M.Ə.Rəsulzadənin qafqazçılıq, türkçülük, ya da yeni turançılıq və Türk federasiyası məsələlərinə dair baxışları da geniş şəkildə öz əksini tapmışdır.

Monoqrafiyadan fəlsəfə, sosial fəlsəfə, sosiologiya, siyasətşünaslıq və başqa elm sahələrində çalışan mütəxəssislər – alimlər, tələbələr, magistrlər, doktrantlar, eyni zamanda geniş oxucu kütləsi faydalana bilər.

**İSBN:**

**© Faiq Ələkbərli, 2022**

# İÇİNDƏKİLƏR

Giriş..........................................................................................5

## I FƏSİL

## Məhəmməd Əmin Rəsulzadə: dövrü, həyatı və yaradıcılığı

1.1. M.Ə.Rəsulzadənin Azərbaycan Cümhuriyyətinin yaranma-sınaqədərki dövrdə həyatı və yaradıcılığı.............................23
1.2. M.Ə.Rəsulzadənin Azərbaycan Cümhuriyyəti və mühacirət dövrlərində həyatı və yaradıcılığı..........................................49

## II FƏSİL

## Məhəmməd Əmin Rəsulzadənin sosial-fəlsəfi görüşləri

2.1. M.Ə.Rəsulzadə sosial-demokratiyaya münasibətdə milli sosial-demokrat və marksizm-leninizmin tənqidçisi kimi.....67
2.2. M.Ə.Rəsulzadənin milli demokratiyaya aid görüşləri: müsavatçılıq təlimi və milli istiqlalçılıq..............................135
2.3. M.Ə.Rəsulzadənin baxışlar sistemində maarifçilik ideyaları........................................................................168
2.4. M.Ə.Rəsulzadənin görüşlərində din məsələsi....................183

## III FƏSİL

## Məhəmməd Əmin Rəsulzadə milli həmrəylik təliminin banisi kimi

3.1. Solidarizm cərəyanının yaranması səbəbləri, fəlsəfi mahiyyəti və istiqamətləri...............................................207
3.2. M.Ə.Rəsulzadə yaradıcılığında milli həmrəylik təliminin səciyyəvi xüsusiyyətləri..................................................226
3.3. M.Ə.Rəsulzadənin milli həmrəylik təlimində milli sosial dövlət anlayışı..........................................................................250

## IV FƏSİL

## M.Ə.Rəsulzadənin yaradıcılığında milli-fəlsəfi ideyalar: azərbaycançılıq, türkçülük, qafqazçılıq

4.1. M.Ə.Rəsulzadənin dünyagörüşündə etnos, xalq, millət və milliyyət anlayışlarının fəlsəfi şərhi..............................263
4.2. M.Ə.Rəsulzadə azərbaycançılıq təliminin banisi kimi...................................................................................293
4.3. M.Ə.Rəsulzadənin yaradıcılığında türkçülük/turançılıq məfkurəsinə yeni baxış..................................................337
4.4. M.Ə.Rəsulzadə qafqazçılıq ideyası və Qafqaz Konfederasiyası haqqında.............................................362

**Nəticə...........................................................................383**

**İstifadə olunmuş ədəbiyyat.....................................................387**

*Təsanüdçülük milli istiqlal anlamı*
*ilə təzad deyil, tam bir ahəng təşkil edir!*
**M.Ə.Rəsulzadə**

## GİRİŞ

Bütöv Azərbaycan xalqının, Azərbaycan türklərinin fəlsəfə və sosial-siyasi fikir tarixində mühüm yer tutmuş, Azərbaycan Cümhuriyyətinin qurucusu, onun ilk cümhurbaşqanı, tanınmış politoloq, sosioloq, filosof-mütəfəkkir Məhəmməd Əmin Rəsulzadədən (1884-1955) istər dissertasiya, istərsə də kitab və məqalələr yazmaq, bir müəllif kimi, mənim üçün hər zaman qürurlu və məsuliyyətli iş olmuşdur. Bu dünyada qürurla gördüyüm bir neçə əməl-iş varsa, şübhəsiz, bu işlərin başında M.Ə.Rəsulzadədən yazmaq, onun milli, dini və bəşəri ideyalarını təbliğ etmək gəlmişdir. Fəxr edirəm ki, bu böyük insanın elmi-fəlsəfi, siyasi-ideoloji, sosial-fəlsəfi yaradıcılığı ilə bağlı 1999-cu ildə magistr işi ("XX əsrdə Azərbaycan xalqının fəlsəfi fikir tarixində Məhəmməd Əmin Rəsulzadənin rolu"), 2005-ci ildə isə fəlsəfə üzrə fəlsəfə doktorluğu dissertasiya işi ("XX əsrdə Azərbaycanın ictimai-siyasi və fəlsəfi fikir tarixində Məhəmməd Əmin Rəsulzadənin yeri və rolu") yazıb müdafiə etmişəm. Eyni zamanda, 2007-ci ildə "Məhəmməd Əmin Rəsulzadənin dünyagörüşü" kitabımız öncə Quzey Azərbaycanda, daha sonra 2014-cü ildə Türkiyədə nəşr olunmuşdur. Bütün bunlarla yanaşı, böyük filosof-mütəfəkkir, tanınmış dövlət xadimi M.Ə.Rəsulzadədən onlarla elmi və publisistik məqalələr yazmış, bir çox konfrans və simpoziumlarda məruzələr etmişəm. Bundan böyük xoşbəxtlik isə Azərbaycan xalqının bütövlüyünü və Türk xalqlarının birliyini görmək ola bilər. Əslində, bu ideya-ideaların hər birində də Məhəmməd Əmin adı və ruhu var.

M.Ə.Rəsulzadədən yazmaq, Azərbaycandan, özü də, Bütöv Azərbaycandan, eləcə də Türklükdən və İnsanlıqdan yazmaq deməkdir. M.Ə.Rəsulzadə yalnız Azərbaycan türkləri, azərbay-

canlılar üçün deyil, bəşəri anlamda da birliyin, diriliyin, ədalətliyin, insanlığın və azad cəmiyyətin simvoludur! Bu baxımdan onun adı Azərbaycan, Bütöv Azərbaycan anlayışları çərçivəsinə sığışmayaraq, Türk-İslam dünyasını da öz içinə almaqla ümumiyyətlə, bəşəri bir mahiyyət kəsb etməkdədir. Biz də, bu monoqrafiyamızda M.Ə.Rəsulzadənin sosial-fəlsəfi görüşləri əsasında onun sosial-demokrat, maarifçi-demokrat, milli demokrat, təsanüdçü-solidarist, azərbaycançı, türkçü-turançı, qafqazçı baxışlar sistemini tədqiq etməyə çalışmışıq.

Qeyd edək ki, bu günə qədər M.Ə.Rəsulzadə haqqında yazılmış dissertasiyalar, kitablar, məqalələr, publisistik yazılar onun yaradıcılığının üzə çıxmasında müəyyən rol oynamışdır. Ancaq hələ də M.Ə.Rəsulzadənin irsini, xüsusilə də sosial-fəlsəfi görüşləri çərçivəsində milli həmrəylik, azərbaycançılıq, yeni turançılıq, qafqazçılıq ideyalarını hərtərəfli və bir əsər daxilində ərsəyə gətirmək mümkün olmamışdır. Doğrudur, biz, 2005-ci ildə qələmə aldığımız "XX əsrdə Azərbaycanın ictimai-siyasi və fəlsəfi fikir tarixində Məhəmməd Əmin Rəsulzadənin yeri və rolu" adlı dissertasiya işimizdə, eləcə də 2007-ci ildə nəşr olunan "Məhəmməd Əmin Rəsulzadənin dünyagörüşü" monoqrafiyamızda xeyli dərəcədə bu məsələlərə aydınlıq gətirməyə cəhd göstərmişik. Ancaq həmin əsərləri yazmağımızdan ötən on beş (15) il ərzində gəldiyimiz qənaətə görə, M.Ə.Rəsulzadənin sosial-fəlsəfi görüşlərinin, o cümlədən milli həmrəylik, azərbaycançılıq, yeni turançılıq, qafqazçılıq ideyalarının ayrıca və bir bütün şəkildə tədqiqinə ciddi ehtiyac vardır.

Əsərin **ilk fəslində** ilk növbədə, əsasən 20-ci əsrin birinci yarısında yaşayıb yaratmış M.Ə.Rəsulzadənin həyat və yaradıcılığını dövrünün mühiti ilə birlikdə araşdırmışıq. Həmin dövrdə çar Rusiyasında, o cümlədən müstəmləkə altında olan Quzey Azərbaycanda baş verən ictimai-siyasi proseslərin yönlərini (milli-demokratik, sosial-demokratik, liberal-demokratik, maarifçilik, şərqçilik-mühafizəkarlıq və b.) təhlil etmişik. Belə bir mühitdə siyasi-ideoloji və mədəni proseslərə qoşulan M.Ə.Rəsulzadə ilk

növbədə, gənc türk-müsəlman iniqlabçısı kimi özünü ifadə etmişdir. Belə ki, o, daha çox türk-müsəlman iniqlabçısı olaraq sosial-demokratizm təlimini müdafiə etmiş, bununla bağlı bir sıra ictimai-siyasi təşkilatların ("Türk-Müsəlman gənc inqilabçılar dərnəyi", "Hümmət" və b.) yaradılmasında yaxından iştirak etmişdir.

Daha sonra iki il Qacarlar dövlətində ictimai-siyasi fəaliyyətinə davam edən M.Ə.Rəsulzadə burada İran Demokrat Partiyasının (İDP), "İran-nou" ("Yeni İran") qəzetinin təşəkkülündə böyük xidmətlər göstərmişdir. Bizcə, M.Ə.Rəsulzadə Qacarlar dövlətinin yeniləşərək konstitusiyalı və parlamentli bir ölkəyə çevrilməsi prosesinə ciddi şəkildə təsir göstərmiş, eyni zamanda onun çağdaş bir dövlət olaraq meydana çıxmasına çalışmışdır. Ancaq onun verdiyi milli-demokratik mücadilələr imperialist qüvvələrdən Böyük Britaniya və çar Rusiyasını narahat etdiyi üçün, 1911-ci ilin payızında onların təzyiqi ilə Qacarları tərk edərək Osmanlıda ictimai-siyasi fəaliyyətinə davam etmişdir.

İstanbulda olarkən türkçülük məfkurəsinin tərəfdarları ilə bir arada olan M.Ə.Rəsulzadə milli demokratik cərəyanı daha dərindən mənimsəmiş, az sonra Bakıya dönərək ruhi-mənəvi deyil, artıq maddi-fiziki anlamda da yalnız "Müsavat" partiyası başqanı olmaqla kifayətlənməmiş, az bir müddət ərzində Qafqaz müsəlmanlarının-türklərinin, o cümlədən Quzey Azərbaycan xalqının liderinə çevrilmişdi. Zaqafqaziya Seymində də Güney Qafqaz müsəlmanlarını-türklərini fraksiya lideri kimi layiqli şəkildə təmsil edən M.Ə.Rəsulzadənin Milli Şuraya başqan seçilərək Azərbaycan Cümhuriyyətinin ilk cümhurbaşqanı olması da tarixi zərurətdən başqa bir şey deyildi.

M.Ə.Rəsulzadə Azərbaycan Cümhuriyyətinin qurucusu, ilk cümhurbaşqanı olaraq öz vəzifəsini layiqli şəkildə yerinə yetirmiş, onun müstəqil varlığı və əbədiliyi üçün siyasi-praktiki, ideoloji-nəzəri baxımdan böyük işlər görmüşdür. Bu kimi fəaliyyətini Cümhuriyyətin süqutundan sonra Türkiyə, Fransa, Almaniya, Polşa və digər ölkələrdə mühacir həyatı sürən zaman da davam

etdirən M.Ə.Rəsulzadə onlarla kitablar, yüzlərlə məqalələrin müəllifi kimi fəlsəfə, sosiologiya, tarix, politologiya, ədəbiyyat və digər sahələrə ciddi töhfələr vermişdi.

M.Ə.Rəsulzadənin mühacirətdə olduğu dövrdə yalnız Azərbaycan deyil, bəşəriyyət qarşısında ən böyük xidmətlərdən biri solidarizm cərəyanına uyğun olaraq milli həmrəylik (təsanüdçülük) təliminin əsasını qoymasıdır. Eyni zamanda, o, bu dövrdə azərbaycançılıq təlimi üzərində də ciddi elmi-fəlsəfi tədqiqatlar aparmaqla onu bitkin və bütöv bir hala gətirmişdir. Mühacirət dövründə onun türkçülük, yeni turançılıq və qafqazçılıqla da bağlı dəyərli fəlsəfi mülühizələri olmuşdur.

Monoqrafiyanın **ikinci fəslində** isə, onun sosial-demokratiya, maarifçi-demokratiya, demokratiya, milli demokratiya ilə bağlı baxışları tədqiq olunmuşdur. Gənc M.Ə.Rəsulzadənin *sosial-demokratizm*ə müsbət münasibət göstərməsi və onun prinsiplərini təbliğ etməsi bir tərəfdən bu təlimin populyarlığından, cəlbediciliyindən irəli gəlsə də, digər tərəfdən "insanlara azadlıq və millətlərə istiqlal" inamı da özünü əsaslı şəkildə büruzə vermişdi. Başqa sözlə, M.Ə.Rəsulzadə üçün daha çox önəmli olanı insan azadlığının və millətlərin istiqlalının təmin edilməsi idi. Bu baxımdan həmin dövrün də şərtləri altında ilk olaraq sosial-demokratizmi münasib, sosial-demokratları isə ən yaxın müttəfiq kimi görən türk-müsəlman inqilabçısı kimi M.Ə.Rəsulzadə bir müddət marksizm prinsiplərini müdafiə etmişdir. "İnsanlara hürriyyət, millətlərə istiqlal" şüarını özü üçün hədəf götürən M.Ə.Rəsulzadənin bu zaman insaniyyət naminə islamiyyəti və türkçülüyü onunla uzlaşdırmağa çalışması da anlaşılandır. Sosial-demokratizmdə insaniyyət məsələsi, özü də cəmiyyətlər daxilində əzilən insanların müdafiəsi və onların insani azadlığa qovuşması naminə verilən mücadiləsi daha cəlbedici olduğu üçün M.Ə.Rəsulzadə məhz imperiyanın əzdiyi, müstəmləkə altında saxladığı bir məmləkətdə türk-müsəlman olaraq hərəkət etmişdi.

Əlbəttə, M.Ə.Rəsulzadə üçün ən önəmli əzilən və müstəmləkə altında yaşamağa məhkum edilən müsəlmanların-türklərin insani azadlığı və milli istiqlalı idi. Bu yolda da tamamilə olmasa da, xeyli dərəcədə onun sosial-demokratlarla yolları kəsişirdi. Bizcə, bu üst-üstə düşən məqamlar hətta, M.Ə.Rəsulzadədə milli-demokratik cərəyanının hakim olduğu dövrlərdə belə davam etmişdi. Sadəcə, M.Ə.Rəsulzadənin sosial-demokratizmdən demokratizmə və ordan da milli demokratizmə keçidin baş verməsi çarlıq mühitindən çıxaraq Tehranda və İstanbulda daha fərqli mühitlərə daxil olması gətirib çıxarmışdı. Başqa sözlə, Bakıda beynəlmiləlçi bir mühitdə sosial-demoklratizmi çox cəlbedici görüb, bütün əzilən millətlərin nümayəndələri ilə birlikdə insanlıq adına ortaq bir mücadilə verən M.Ə.Rəsulzadə, Tehran və İstanbul mühitlərində isə bunu demokratik və milli demokratik bir qəlbdə davam etdirməyi münasib görmüşdü. Əslində demokratizm və milli demokratizmə meyillilik heç də sosial-demokartizmin bəzi ümdə prinsiplərindən, o cümlədən ictimai məsələnin həllinə yönəlmiş prinsiplərindən əl çəkməsi anlamına gəlmirdi.

Məsələn, Bakıdakı beynəlmiləl inqilabi mühitdə sosial-demokratlarla müttəfiqliyi ən münasib yol kimi görən Rəsulzadə bu zaman müsəlmanların-türklərin də onun əldə edəcəyi uğurlar-dan, o cümlədən əzilməkdən, müstəmləkəçilikdən qurtulub digər millətlər kimi bərabərhüquqlu bir millətə çevrilməsinə ümid etmişdir. Bu anlamda Bakıdakı beynəlmiləl inqilabi mühitdə Rəsulzadənin sosial-demokratlarla müttəfiqliyi və insaniyyət prinsipini milliyyət, islamlıqdan nisbətən üstün tutmasına səbəb heç də sonunculara əhəmiyyət verməməsindən deyil, əksinə sosial-demokratizmin beynəlmiləl insaniyyətçi prinsipindən yapışaraq müsəlmanalrın da digər millətlərlə bərabərhüquqlu ola bilməsi inamından irəli gəlmişdi.

Ancaq Tehrandakı dinçi, milliyyətçi və beynəlmiləlçi mühitin əsasən Bakıdakı beynəlxalq inqilabi mühitdən xeyli dərəcədə fərqli olmasından dolayı Rəsulzadənin burada özünü

sosial-demokratdan çox demokrat kimi ifadə etməsi anlaşılandır. Hər halda Qacarlar dövlətində sosial-demokratizm nə qədər populyar, cəlbedcisi olsa da, onun çar Rusiyasında olan mövqeyi ilə müqasyisə etmək doğru deyildi. Üstəlik, Qacarlarda sosial-demokratizmi təbliğ edənlərin və geniş xalq kütlələri arasında yayanların da çoxu Qafqaz müsəlman-türk sosial demokratları idi. Həmin Qafqaz müsəlman-türk sosial-demokratları, eləcə də Rəsulzadə də siyasi-sosial məsələlərlə bağlı apardıqları bütün təbliğatlarla yanaşı, Qacarlardakı müsəlman xalqların, o cümlədən türklərlə farslar arasında bu məsələyə münasibətdə ciddi təzadları da görməmiş deyildilər. Hər halda Qacarlarda pis-yaxşı hakim bir millət olan türklərə qarşı hakimiyyəti ələ keçirmək üçün hər cür fürsət gözləyən farsların-irançıların sosial-demokratizmdən, onun inqialbi ideyalarından öz maraqları üşün istifadə etdikləri sirr deyil. Başqa sözlə, türk sosial-demokratları sadəcə, dövlətin konstitusiyalı və parlamentli bir ölkəyə çevrilməsini istədikləri halda, farslar isə onu süquta uğratmaq yolunu tutmuşdualr. Bu kimi incəlikləri Rəsulzadə yalnız Tehranda olduğu iki il müddətində dərindən anlaya bilmişdi. Hər halda qurucularından biri olduğu İran Demokrat Partiyası (İDP) və onun əsas orqanı olan "Yeni İran" qəzetində verdiyi bütün mücadiləyə rəğmən, onun buradan uzaqlaşdırılmasında sözdə demokrat olan farsçılar-irançılar səbəbkar oldular.

Rəsulzadə Qacarlar dövlətində sosial-demokratdan çox demokrat olaraq bu dövlət üçün, yəni onun konstitusiyalı, parlamentli və çağdaş ölkə olması adına çalışdığı halda, fars-iran millətçiləri isə gah ingiislərin, gah da rusların dəstəyi ilə Türk hökumətini, Türk xanədanlığını aradan qaldırmaqdan başqa bir şey düşünmədilər. Bu baxımdan Rəsulzadənin Tehrandakı demokratik ruhlu mücadiləsi yarımçıq qalsa da, ancaq sosial-demokratizmdən demokratizmə və milli demokratizmə keçid yolunda mühüm bir mərhələ, dönüş nöqtəsi oldu. Hər halda Bakının beynəlxalq inqilabi mühiti ilə müqayisədə Təbriz və Tehranın milli-dini mühitinin bir qədər ağır basması onun demo-

kratik, hətta milli demokratik baxışlarının formalaşmasına ciddi təkan verdi. Bu anlamda 1911-ci ilin sonlarına doğru Rəsulzadənin təşəbbüsü ilə Bakıda "Müsavat" partiyasının yaranması da təsadüfi deyildi. Belə ki, "Müsavat"da sosial məsələ ilə yanaşı, milli-dini xüsusiyyətlərə önəm verilməsi Rəsulzadənin Təbriz və Tehrandakı fəaliyyətinin sosial-demokratizmdən demokratizmə, milli demokratizmə meyillənməsinin nəticəsi idi.

Bizcə, İstanbulda oldğu təxminən iki illik dönəmdə (1911-1913) isə onun *demokratik* və *milli demokratik* baxışlarının daha da gəlişməsinə səbəb olmuşdu. Tehrandakı mühitdə demokrat adı altında çıxış edənlərin bir çoxunun əslində fars-aryançılığı, ya da ərəbçiliyi və digərini önə çəkməsi, istər-istəməz Rəsulzadə də milli demokratizmə meyil yaratmışdı. Başqa sözlə, Rəsulzadə Tehrandakı mühitdə milli ayrı seçkilik etmədən nə qədər özünü demokrat adına sadiqlyini qoruyub saxlasa da, ancaq ətrafındakı bir çox "demokrat"ların, özəlliklə də fars "demokrat"ların buna əməl etməyib aryançılığı, zərdüştçülüyü önə çəkmələri ona təsirsiz ötüşməmişdi. Rəsulzadə sosial-demokrat və demokrat mövqeyini müdafiə edərkən beynəlmiləl mahiyyətli inaniyyət fəlsəfəsinə inanaraq milliyyətçilik prinsipini önə çıxartmadığı halda, ancaq digər mlillətlərə aid sosial-demokratların, demokratların əsasən, fərqli yol izləməsi öz sözünü deməyə bilməzdi. Bizcə, "Müsavat" Partiyası da məhz dövrün şərtlərinə uyğun olaraq, xüsusilə də milliyyət hissinə bağlı milli azadlıq hərəkatlarının genişlənməsi anlamında sosail-demokratizm prinsiplərindən çox demokratizmi, ya da milli demokratizmi müdafiə etmək zərurətindən meydana çıxmışdı. Şübhəsiz, Azərbaycan türkləri arasında bunu, həmin dövrdə daha dərindən dərk edən Rəsulzadənin "Müsavat" Partiyasının yaranması üçün Bakıdakı əqidədaşlarını hərəkətə keçirməsi təsadüfi olmamışdır.

Osmanlıda olduğu müddətdə buradakı türkçülük cərəyanının tərəfdarları ilə daha yaxından təmasda olması Rəsulzadənin milli-demokratik cərəyanına bağlığını daha gücləndirmiş, onun düşüncələrində yalnız Qafqaz müsəlmanalrının, o cümlədən

Quzey Azərbaycan türklərinin özlərini yeni dövrün tələblərinə uyğun şəkildə, ayrıca bir milliyyət olaraq dərk edərək milli istiqlala qovuşması hissini gücləndirmişdi. Başqa sözlə, Tehrandakı mühit onun türklük hissini türkçülük düşüncəsinə doğru hərəkətə keçirdiyi halda, İstanbuldakı mühit isə bunu daha da inkişaf etdirmişdir. Bununla da, Rəsulzadənin baxışlar sistemində sosial-demokratiyadan milli sosial demokratiyaya, islami maarifçilikdən milli maarifçiliyə, demokratiyadan milli demokratiyaya ciddi dönüş baş vermişdi.

O, Romanovlar sülaləsininm 300 illiyi ilə bağlı verilən amnistiyadan dolayı Bakıya qayıtdıqdan sonra milli demokratizmə əsalanan *müsavatçılıq* təlminin başlıca prinsiplərini, yəni türkçülüyü, çağdaşlığı və islamçılığı müəyyənləşdirmiş və son hədəf olaraq da Azərbaycan milli muxtariyyətini, ya da Azərbaycan milli istiqlalını görmüşdür. Rəsulzadənin düşüncəsindəki müsvatçılıqda, əslində insaniyyət prinsipi heç də arxa plana keçirməmiş, sadəcə milliyyətin varlığı üzərində milli istilala sahib olmaq anlamında öz mövcudluğunu davam etdirmişdir. Bizcə, insaniyyət və demokratiya idealları da çağdaşlıq-müasirlik şüarı adı altında türkçülük və islamçılıqla bərabər milli demokratizmin əsas mahiyyətindən biri olmuşdu. Başqa sözlə, Rəsulzadənin görüşlərində millətçi demokratiklik özündə türkçülüyü, çağdaşlığı və islamçılığı birləşdirmiş, Azərbaycan milli demokratiyasının başlıca şüarlarını təşkil etmişdir. Azərbaycan milli demokratiyasında isə sosial məsələ olaraq nə mütləq liberalizm, nə də mütləq sosial-demokratizm deyil ortaq bir yol, öncə müsavatçılıq, daha sonra da solidarizm-milli həmrəylik təlimi yönündə inkişaf etdirilmişdir.

Monoqrafiyanın **üçüncü fəslində** isə solidarizm cərəyanı, onun Azərbaycanda təşəkkülü və inkişaf yolları təhlil olunmuşdur. Bu vaxta qədər Rəsulzadənin sosial-fəlsəfi görüşləri çərçivəsində *milli həmrəylik təlimi* ilə bağlı çox az sayda elmi araşdırma aparılıb ki, bu da sistemli və tam şəkildə olmamışdır. Halbuki bu

sahədə araşdırılması zəruri olan kifayət qədər maraqlı problemlər mövcuddur.

İlk növbədə, monoqrafiyamızda *solidarizm* cərəyanının Avropada yaranması və inkişaf yönləri tədqiq olunmuşdur. Burada göstərilir ki, solidarizm Fransada müəyyən qədər Kontun, ancaq əsaslı şəkildə isə Emil Dürkheymin cəmiyyətin strukturlaşması nəzəriyyəsi çərçivəsində təşəkkül tapmışdır. Belə ki, Dürkheym liberalizm və sosial-demokratizm təlimlərindən bir qədər fərqli yol tutaraq hər hansı cəmiyyətdə həm liberal dəyərlərin, həm də sosial məsələnin həllinin tapılmasının mümkünlüyündən bəhs etmişdir. Sadəcə, Dürkheymin sosial məsələnin həlli ilə bağlı nəzəriyyəsində liberal baxışlar bir qədər üstünlük təşkil etmişdi. Bunun da nəticəsində ondan sonrakı fransız solidaristlər də sosial məsələnin həlli ilə bağlı daha çox liberal baxışlara üstünlük vermişlər.

Ancaq Almaniyada və İtaliyada isə sosial məsələnin həllindəki solidarist baxışlar daha çox liberalizm deyil, də milli sosial-demokratiyaya (nasiyonal-sosializm) bağlı olaraq inkişaf etdirilmişdir. Almanların ilk milli-sosial demokratları (Lassal, Bebel, Libknext və b.) bir tərəfdən marksizmin əleyhinə çıxaraq milli dövlətin məhvini deyil, islahatların aparılmasını müdafiə edir, digər tərəfdən isə ictimai mülkiyyət məsələsinin və sosial-iqtisadi bərabərliyin önəmliliyini də vurğulayırdlar. Ancaq sonralar milli sosail-demokratiyanın İtaliyada və Almaniyada radikal şəkildə inkişafı solidarizmdən əsaslı dərəcədə uzaqlaşmış forması olub, özünü uyğun olaraq faşizm və hitlerizmdə tapmışdı. Belə ki, italiyan və alman milli sosial-demokratları nəinki sosial-demokratizmə solidarizmə də tamamilə zidd yol tutaraq ifrat milliyyətçiliyi ön plana çıxararaq irqçi nəzəriyyələrə üz tutmuşlar. Bizcə, sonralar solidarizmin ən yaxşı nümunələrini qarışıq iqtisadiyyat prinsipinə (yəni xüsusi mülkiyyətlə ictimai müılkiyyətin yanaşı mövcudluğuna) əsaslanan bəzi skandinav ölkələri (İsveç, Norveç və b.) inkişaf etdirə bilmişlər.

Osmanlıda və Azərbaycanda isə liberalizmlə kommunizm arasında aralıq mövqe tutan solidarizm özünü təsanüdçülük adı altında ifadə etmişdir. Təsanüdüçülüyün Osmanlıda ən tanınmış nümayəndələri Alp Tekin, Yusuf Akçura, Ziya Gökalp olmuşlar. Məsələn, Gökalpın düşüncələrindəki təsanüdçülük həm xüsusi, həm də ümüumi mülkiyyəti biri-birinə qarşı qoymur, sosial məsələnin həllində xalqçılığı inkar etmirdi.

Azərbaycanda isə solidarizmin *təsanüdçülük-milli həmrəylik* adıyıla ortaya çıxan forması Rəsulzadə ilə bağlıdır. Rəsulzadə milli təsanüdçülük kimi qiymətləndirdiyi solidarizmi mütləq liberalizm və mütləq sosial-demokratizmə qarşı qoyaraq, milli və sosial məsələdə uzlaşdırıcı yol tapmağa çalışmışdır. Rəsulzadə hesab edirdi ki, hər hansı cəmiyyətdə milli şüarlar qədər sosial şüarların da tərəfdarları var və hər iki tərəf araısnda uzlaşdırmanın olması ən doğru yoldur. Rəsulzadəyə görə ancaq sosial şüarlardan nə kommunistlər kimi ifarata vararaq proletar diktaturasını tətbiq etmək, nə də italiyanlar, almanlar kimi faşizmə, hitlerizmə yuvarlanmaq doğru deyildir. Eyni zamanda, o, mütləq liberalizmin ortaya çıxardığı fəsadlar kimi ingilis, ABŞ imperalizminin müstəmləkəçilik siyasətini göstərirdi.

Rəsulzadəyə görə, ən doğru yol sosial məsələ ilə milli məsələni uzlaşdırmaqdır. Başqa sözlə, onun milli həmrəylik təlimində ifrat solçuluq (mütləq kommunizm) kimi, ifrat sağçılıq (mütləq sağçılıq) da tənqid olunurdu. Onun fikrincə, milli demokratik dövlətdə nə aşırı dərəcədə millətçilik, nə də aşırı dərcədə beynəlmiləlçilik olmamalıdır.

Beləliklə, Rəsulzadənin milli həmrəylik təliminin əsil mahiyyətini milli sosial dövlət təşkil etmişdir. Onun milli sosial dövlət konsepsiyasında milli məsələ ilə sosial məsələ arasında uzlaşdırıcı nöqtələr kifayət qədərdir. Məsələn, milli məsələ dedikdə, milliyyətə və milli istiqlala əsaslanan milli dil, milli ədəbiyyat, milli əxlaq, milli mədəniyyət nəzərdə tutulur. Burada milliyyətin başlıca hədəfləri, onun həyata keçirilmə yolları ön plandadır. Deməli, ilk növbədə milli məsələ öz həllini tapmalıdır

ki, daha sonra sosial məsələyə keçid mümkün olsun. Başqa sözlə, milli məsələnin öz həllini tapmadan yalnız sosial məsələnin həllinə çalışmaq doğru deyildir. Bu baxımdan hal-hazırda olduğu kimi, o zaman da milli məsələ sosial məsələdən bir addım öndə olmuşdur.

Əlbəttə, bütün bunlarla yanaşı sosial məsələnin əhəmiyyətini də azaltmaq doğru deyildir. Sosial məsələ öz əhəmiyyətinə və missiyasına görə nə qədər milli məsələdən sonra gəlsə də, kifayət qədər önəmə malikdir. Sosial məsələni vacib edən ən önəmli amillərdən biri insanlar arasında sosial bərabərliyi və sosial ədaləti gözləməkdir. Əslində sosial bərabərlik dedikdə, heç bir anlamı olmadan hər hansı cəmiyyət daxilində kor-koranə və məcburi şəkildə sosial bərabərliyin təmin olunması nəzərdə tutulmamalıdır. Başqa sözlə, sosial bərabərlik məntiqli və ədalətli bir şəkildə həyata keçirilməlidir. Bu baxımdan sosial ədalətliyin isə əsas mahiyyəti hər bir insanın haqq etdiyi yerdə olması, haqq etmədiyi yerdə isə olmamasıdır. Bizcə, sosial məsələyə bu cür yanaşma hazırda da öz aktuallığını qoruyub saxlamaqla yanaşı, yeni ideyalarla daha da zənginləşə bilər.

Kitabın **dördüncü fəslində** isə öncə millət, milliyyət, xalq, etnos anlayışları Rəsulzadənin irsi baxımından hərtərəfli şəkildə tədqiq olunmuşdur. Burada göstərilir ki, bu analyışlar yeni dövrdə Qərb və Şərq xalqlarında, onların öncül aydınlarında müxtəlif şəkillərdə təfsir olunmuşdur. Ancaq həmin anlayışlarla bağlı daha çox Qərb mütəfəkkirlərinin, o cümlədən ingilis, alman, fransız və başqa Avropa aydınlarının gəldiyi qənaətlər daha ağır basmaqdadır. Bizcə, Rəsulzadə həmin anlayışları təfsir və şərh edərkən Qərb-Şərq dəyərlərinin sintezindən çıxış etməyə çalışmışdır. Belə ki, o, bir tərəfdən millət, milliyyət, xalq anlayışları ilə bağlı Qərb aydınlarının baxışlarını izah etməyə çalışmış, ancaq onlara müəyyən təriflər verərkən Şərq dəyərlərini, o cümlədən islami və türklük dəyərlərini də əlavə etməyi unutmamışdır.

Xüsusilə, Rəsulzadənin milliyyət və millət məsələsini təbii qanunauyğunluqlardan irəli gələn bir şəkildə biri-birindən fərqlən-

dirməyə çalışması, milliyyət dedikdə Azərbaycan türklərini, millət dedikdə Türk millətini ifadə etməsi təsadüfi olmamışdır. Bizim burada ifadə etdiyimiz təbii qanunauyğunluq dünyada böyük bir Türk millətinin və onun milliyyət olaraq ayrı-ayrı qollarının olmasını ortaya qoyur. Azərbaycan türkləri də Türk millətinin içindəki bir milliyyəti – Azərbaycan türklüyünü ifadə etməkdədir.

Ancaq təbii qanunauyğunluqlarla yanaşı, bir də siyasi anlam daşıyan və dövlətçilik prinsipinə uyğun millət anlayışı var ki, bu zaman Azərbaycan türkləri Azərbaycan milləti və azərbaycanlı adını da özündə əks etdirir. Əslində buradakı "Azərbaycan milləti" Azərbayan türklüyü nüvəsindəki bir milləti, "azərbaycanlı" anlayışı isə Azərbaycan türkünün vətəndaşlığını özündə ifadə edir. Sadəcə, bu zaman "Azərbaycan milləti" və "azərbaycanlı" anlayışları özündə yalnız Azərbaycan türklərini deyil, bu dövlətin sərhədləri içində yaşayan ayrı-ayrı etnik qrupları, etnosları və milli azlıqları da vahid dövlət çatısı altında birləşdirir.

Bu analmda 1918-ci ilin 28 mayında qurulan yeni bir Türk Cümhuriyyətinə "Azərbaycan" adının verilməsi səbəbləri, **"azərbaycançılıq"** milli ideyasının mahiyyəti və digər önəmli problemlər milli fəlsəfi yöndən əsərdə dərin şəkildə tədqiq edilmişdir. Bizcə, Rəsulzadənin azərbaycançılıq təliminin əsasını qoyması və onu dövlətçiliyin əsas ideyasına çevirməsi təsadüfi olmamışdır. Burada əsas məqsəd bir tərəfdən Azərbaycan Cümhuriyyəti adı altındakı türk və qeyri türk bütün vətəndaşları birləşdirmək, digər tərəfdən isə Azərbaycan türklərini yalnız Azərbaycanın quzeyi ilə məhdudlaşdırmayıb Azərbaycanın güneyindəki soydaşlarımızla bağlamaq olmuşdu. Bu isə o deməkdir ki, Rəsulzadənin azərbaycançılıq təlimi yalniz milli demokratik mahiyyət daşımaqla kifayətlənməmiş, o, özündə "Bütöv Azərbaycan" ideyasını da daşımışdır. Əslində bununla da Rəsulzadə, Qacarlar və Ruisya arasındakı 1828-ci il Türkmənçay andlaşmasından sonra ayrı-ayrı aydınlarımıızn əsərlərində, o cümlədən onların şeirlərində, məqalələrində ortaya çıxan "Bütöv Azərbaycan" məfkurəsini sisitemləşdirərək siyasi bir ideyaya çevirə

bilmişdir. Bununla da Azərbaycanın bütövləşməsi istiqamətində ilk addım atılmış, bunun bəhrəsi çox keçmədən Bütöv Azərbaycanda əks-səda tapmışdır. Hər halda Güney Qafqazda yaranmış üç dövlətdən birinin özünə "Azərbaycan Cümhuriyyəti" adını verməsi yalnız Qacarlar, Sovet Rusiyası və Osmanlıda deyil, Avropda da maraqla qarşılanmışdır.

Bizcə, ümumiyyətlə yeni dövrdə Qacarlarla Rusiya arasındakı 1828-ci il Türkmənçay müqaviləsi nəticəsində iki yerə parçalanmış Azərbaycanın bütövləşməsi istiqamətində ilk siyasi addım 1918-ci ilin 28 mayında atılmışdır. Şübhəsiz, bu siyasi iradənin müəliifi olaraq Rəsulzadə yalnız Azərbaycan Cümhuriyyətinin qurucusu, ilk cümhurbaşqanı olaraq deyil, eyni zamanda, "Bütöv Azərbaycan" ideyasının siyasi-ideoloji müəllifi kimi də tarixə adını yazdırmağı bacarmışdır. Məhz yeni bir Türk dövlətinə "Azərbaycan Cümhuriyyəti" adının verilməsindən sonra Quzey Azərbaycanla Güney Azərbaycanın birləşməsi, bütövləşməsi məsələsi ciddi şəkildə siyasi gündəmə gətirilmişdir. O zaman Qacarlar dövlətinin yönətimini xeyli dərəcədə ələ keçirməyi bacarmış aryançılar bundan çox narahat olmuş, bununla bağlı irançı-aryançı qəzetlərdə biri-birinin ardınca onlarla məqalələr yazmışlar. Onların bu narahatçılığını çox yaxşı anlayan Rəsulzadə isə heç bir qüvvətin Təbrizli iılə Bakılının, Urmulu ilə Gəncəlinin Azərbaycan türkü, azərbaycanlı olması gerçəyini dəyişdirə bilməyəcəyini ifadə etmişdir. Ona görə sadəcə, çar Rusiyasının işğalı altındakı Azərbaycan türkü burada milli istiqlalını əldə edərək azadlıq bayrağını qaldırmış, ancaq bu zaman Azərbaycanın güneyindəki soydaşlarıyla birləşmək niyyəti güdməmişdir. Rəsulzadənin dövrünün şərtlər altında aryançılara verdiyi bu kimi cavablarla yanaşı, onun necə uzaqgörən bir ideoloq, mütəfəkkir olması da danılmaz bir gerçəklikdir.

Rəsulzadənin "Bütöv Azərbaycan" ideyası ilə bağlı ikinci mərhələ İkinci Dünya müharibəsi dövründə yenidən gündəmə gəlmişdir. Düzdür, bu dəfə milli demokratiyadan çox marksist sosial-demokratiyasının basqısı altında olan Quzey Azərbaycan-

dakı Azərbaycan SSR ilə Güney Azərbaycandakı Azərbaycan Milli hökumətinin vahid dövlət çatısı altında birləşməsi məsələsi var idi. Ancaq istənilən halda Azərbaycanın birləşməsi yolunda ikinci yaxınlaşma məhz 2-ci Dünya müharibəsi dövründə gündəmdə olmuşdur.

Üçüncü dəfə isə "Bütöv Azərbaycan" ideyası siyasi arenada 1991-ci ildə Quzey Azərbaycanın yenidən müstəqilliyini əldə etməsi, yəni bağımsızlığını bərapa etməsiylə gündəmə gəlmişdi. Şübhəsiz, ən yeni dövrdə "Bütöv Azərbaycan" ideyasının gündəmə gəlməsi yenə də Rəsulzadə və onun azərbaycançılıq təlimi ilə bağlı olmuşdur. Biz, zərrə qədər də olsun şübhə etmirik ki, üçüncü mərhələdə azərbaycançılıq təliminin əsas ideya isqiqamətlərindən biri olan "Bütöv Azərbaycan" məfkurəsi öz gerçəkliyinə qovuşacaqdır.

Beləliklə, deyə bilərik ki, Rəsulzadə yeni dövrdə azərbaycançılıq təlimi və "Bütöv Azərbaycan" ideyasının müəllifidir. Onun azərbaycançılıq təlimi əsasında bu gün milyonlarla azərbaycanlı yanlız vahid dövlət ətrafında bir araya gəlməklə kifayətlənməmiş, həm də onu böyük bir dövlətə çevimək yolunda mücadiləyə başlamışlar. Rəsulzadənin biz azərbaycanlılara, Azərbaycan türklərinə miras qoyduğu azərbaycançılıq təlimi və "Bütöv Azərbaycan məfkurəsi" isə hər gün öz əhəmiyyətini daha çox büruzə verməkdədir.

Bu fəsildə Rəsulzadənin baxışlar sistemindəki **türkçülük, turançılıq** məsələsi də hərtərəfli şəkildə tədqiq olunmuşdur. Azərbaycanın Türk dünyasında, Turanda oynadığı rolu çox yaxşı bilən Rəsulzadə Azərbaycan adını əbədiləşdirməklə yanaşı, Türk xalqlarının birliyini yenidən ortaya qoymaq üçün də mücadilə vermişdi. Rəsulzadənin də fəal şəkildə iştirak etdiyi XX əsrin başlarındakı türkçülük ideyası isə iki: 1) özəkçi Türk dövləti, 2) müstəqil Türk dövlətləri birliyi istiqamətində özünü büruzə vermişdi.

Hər bir türk üçün daha çox cəlbedici görünün özəkçi Türk dövləti ideyasının ilk müəlliflərindən biri Azərbaycan kökənli

Türk mütəfkkiri Əli bəy Hüseynzadə olmuşdu. Hüseynzadənin özəkçi Türk dövləti ideyasında mərkəzi Anadolu olmaqla bütün Türk xalqlarının vahid coğrafiya, vahid dil, vahid əlifba, vahid ordu və bu kimi digər vahidliyi özündə əks etdirən bir çatı altında olmaq idi. Hüseynzadənin bu ideyalarını Ziya Gögalplar, Xalidə Ədibəvarlar, Hüseyn Cavidlər, Əhməd Cavadlar, Abdulla Şaiqlər, Sultan Qaliyevlər və başqaları arzulasalar da, ancaq zamanla dövrün real şərtləri altında arxa plana keçmişdir. Xüsusilə, Osmanlı dövlətinin parçalanması fonunda meydana çıxan Türkiyə Cümhuryyətinin belə bir gücə sahib olmaması, üstəlik müstəqilliyini yenicə qazanmış Türk dövlətlərinin Sovet Rusiyasının sosializm quruculuğu adı altında işğal etməsi özəkçi Türk dövləti ideyasına ciddi zərbə olmuşdur.

Bizcə, həmin dövrdə vahid Türk dövlətindən çox müstəqil Türk dövlətlərinin olmasının tərəfdarı olan Rəsulzadənin və onu kimi düşünənlərin yolu daha doğru olmuşdur. Rəsulzadə çox doğru olaraq vahid Türk dövlətinin deyil də, müstəqil Türk dövlətlərinin tərəfdarı olmuş, bununla da gerçəkçi bir yol izləmişdir. Özəlliklə, Rəsulzadənin ortaya atdığı o mülahizə gerçəkçi idi ki, bir gün müstəqil Türk dövlətləri də Türk federasiyası əsasında birləşəcəklər. Bizcə, böyük milli ideoloqumuzun bu mülahizələri 20-ci əsrin sonlarına doğru müstəqil Türk dövlətlərinin meydana çıxması və 21-ci əsrin əvvəllərində öncə Türk Geneşin, daha sonra da Türk Dövlətləri Təşkilatının (2021) yaranmasıyla gerçəkliyə qədəm qoymuşdur.

Bizcə, Türk Dövlətləri Təşkilatının meydana çıxması Türk birliyinin rəsmi bir formaya düşməsi yolunda çox mühüm addımdır. Əslində vaxtilə Rəsulzadənin hədəflədiyi də məhz müstəqil Türk dövlətlərinin belə bir mahiyyətdə birlik qurması və dünyada əsas güclərdən biri olması idi. Yalnız belə bir formada həm Türk dövlətlərinin hər biri ayrı-ayrılıqda öz müstəqil siyasətlərini yürüdə bilmək imkanlarını özündə saxlayır, həm də Türk birliyi çərçivəsində birgə mühüm addımlar atmağa da malik olurlar.

Dördüncü fəsildə son olaraq **qafqazçılıq** ideyası, Qafqaz konfederasiyası məsələsi tədqiq edilmiş, Rəsulzadənin bununla bağlı mülahizələrinə geniş yer verilmişdi.

Qeyd edək ki, qafqazçılıq ideyası, Qafqaz Konfederasiyası məsələsi 20-ci əsrin əvvəllərində çar Rusiyasının işğalı altında yaşamağa məcbur olan xalqların öncül aydınları tərəfindən gündəmə gətirilmişdir. Onların ilk addımları mühacirətdə atılmış, Qafqaz Komitəsi adı altında toparlanmağa çalışmışlar. Çar Rusiyasının 1917-ci ilin fevral burjua inqilabından sonra tənəzzülü ilə qafqazçılıq ideyasının gerçəkləşməsi üçün ciddi zəmin yarannmışdı. Güney Qafqazı idarə edən ilk rəsmi təşkilat Rusiya Müvəqqəti hökumətinin tabeçiliyi altında yaransa da, daha sonra onun da iflasa uğraması ilə müstəqillik yolunda ciddi addımlar atılmışdır. 1917-ci ilin payızından etibarən yaranan Zaqafqaziya Komissarlığı daha sonra Seym şəklində bir araya gəlməklə Qafqaz Konfederasiyası istiqamətində ik addımları gerçəkləşdimiş olmuşdur. Çox keçmədən müstəqilliyini elan edən Zaqafqaziya hökuməti qısa ömür sürməsinə baxmayaraq Qafqaz Konfederasiyasını gerçəkləşdirən ilk rəsmi qurum olaraq tarixə keçmişdir.

Zaqafqaziya Seymində müsəlman-türk fraksiyasının lideri kimi Rəsulzadə Güney Qafqazın üç xalqının bir arada və konfederativ şəkildə yaşamsının mümkünlüyün ilk günlərdən bəyan etmişdi. Sadəcə, ermənilərin oynadığı riyakar siyasət, xüsusilə də Osmanlı ilə Zaqafqaziya arasında baş verən müharibə Qafqaz Konfederasiyasının güclənməsinə ən ciddi əngəl olmuşdur. Rəsulzadə Seymdəki çıxışlarında əsas diqqəti Zaqafqaziya hökumətini müstəqil siyasət yürüdərək Osmanlı ilə əməkdaşlığa səslədiyi halda, ermənilər isə nə olursa olsun bunun baş tutmamasına çalışmışdır. Çox yazıqlar olsun ki, gürcülərin də sonralar ermənilər kimi Zaqafqaziya hökumətinin qorunmasında, yaşamasında maraqlı olmaması onun sonunu gətirmiş və üç müstəqil dövlətin yaranması ilə nəticələnmişdir.

Ancaq Azərbaycan 28 may 1918-ci ildə müstəqilliyini dünyaya elan etdikdən sonra da yenidən konfederativ dövlət

qurulması yollarını aramışdır. Rəsulzadə bu məsələdə hər daim maraqlı tərəf olduqlarını ortaya qoymuş, bunun üçün Tiflisdə üç tərəfli danışıqlar aparılmasının zəruriliyindən dəfələrlə bəhs etmişdir. Məhz bunun nəticəsi olaraq Tiflisdə azərbaycanlılarla gürcülər arasında danışıqlar olmuş, hətta Dağlılar Respublikasının da bu qurumda olmasının vacibliyi irəli sürülmüşdür. Ancaq yenə də ermənilər nəinki Qafqaz Konfederativ dövlətinin yaranmasına meyil göstərmiş, üstəlik Azərbaycan və Gürcüstana qarşı ərazi iddiaları ilə çıxış etmiş, zaman zaman onlarla müharibə aparmışlar. Bunun da nəticəsində yenidən Qafqaz Konfederasiyasını bərpa etmək mümkün olmamışdır.

Yeri gəlmişkən, üç müstəqil dövlətin varlığına son qoyaraq onların yerində zorla "Sovet Sosialist" respublikaları yaradan Sovet Rusiyası çox keçmədən, buna da son verərək Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası (ZSFSR) yaratmışlar. Çox maraqlıdır ki, 1922-ci ilin dekabrnda Sovetlər Birliyinin tərkibinə həmin üç dövlət ayrı-ayrılıqda deyil, ZSFSR adı altında zorla qatılmağa məcbur edilmişdir. Yalnız 1936-cı ildə SSRİ konstitusiyasında dəyişikiklərdən sonra hər üç dövlət, o cümlədən Azərbaycan SSR ZSFSR-ə son verərək, bu dəfə sözdə də olsa, müstəqil şəkildə SSRİ deyilən imperiyanın tərkibinə qatılmağa məcbur edilmişdir.

Mühacirət dövründə qafqazçılıq, Qaqfaz Konfederasiyası ideyasına ən çox sadiq qalan Azərbaycan Türk mütəfəkkirləri, siyasi liderləri arasında Rəsulzadə fərqlənmişdir. Məhəmməd Əmin bir çox əsərlərində, o cümlədən "Qafqaz türkləri", "Azərbaycan şairi Nizami" və digər kitablarında, məqalələrində qafqazçılığı, Qafqaz Konfederasiyası ideyasını izah etməyə çalışmışdır. Rəsulzadəyə görə Türkiyə ilə Rusiya arasında Qafqaz Konfederativ dövlətinin yaranması bir çox problemlərin də sonunu gətirməli idi. Belə ki, Qafqaz Konfederativ dövlətində iki xristian və bir müsəlman dövlətinin yer alması həm Türkiyənin, həm də Rusiyanın maraqlarına uyğun olmaqla yanaşı, hər üç

dövlətin öz aralarında da bir çox ərazi-mədəni problemlərininin həlli olunması demək idi.

Bizcə, Rəsulzadənin qafqazçılıq və Qafqaz konfederasiyası ilə bağlı irəli sürdüyü mülahizələr bu gün də öz aktuallığını qoruyub saxlamaqdadır.

Bu gün Quzey Azərbaycanda, bütövlükdə Türk dünyasında milli-ideoloji xətt və bəşəri ideyalarla bağlı ümidverici irəliləyişlər olsa da, ancaq hələ də müəyyən boşluqlar da var. Həmin boşluğu isə yalnız xalqımızın və onun böyük övladlarının minilliklər boyu bizə qoyub getdiyi elmi-fəlsəfi, siyasi-ideoloji, sosial-fələsfi irsi üzə çıxarmaq və çağdaş dövrün tələbləri ilə uzlaşdırmaqla doldura bilərik. Rəsulzadə özü də XX əsrdə Türk millətinin əsrlər boyu yaşatdığı milli-ideoloji xəttə, eyni zamanda bəşəri dəyərlərə yeni bir axar verməklə ortada olan boşluğu doldurmaq istəmişdir. Əsasən, Türk millətinin elmi-fəlsəfi dünyagörüşünə söykənən bu yeni xəttin nəticəsində çağdaş Azərbaycan dövlətçiliyinin əsası qoyulub. Bu baxımdan Rəsulzadənin irsinin araşdırılmasında əsas məqsəd də məhz bu məqamları önə çıxarmaqdır.

Rəsulzadənin 1903-cü ildən 1955-ci ilədək olan həyat və yaradıcılığına, sosial-siyasi, sosial-fəlsəfi görüşlərinə, milli həmrəylik və azərbaycançılıq təlimlərinə diqqətlə, obyektiv şəkildə yanaşıldıqda, onun nəinki Azərbaycan, heç Türk dünyası çərçivəsində də məhdudlaşdırmağın doğru olmadığını görə bilərik. Rəsulzadə birbaşa fəlsəfənin başlıca problemləri (varlıq, materiya, idrak, dialektika və s.) ilə məşğul olmasa da, bu sahələrə aid özəl bir əsər yazmasa da, ancaq onun bütün sosial-fəlsəfi, ictimai-siyasi görüşləri, sosial-demokratiya, demokratiya, liberalizm və milli həmrəylik təlimi ilə dərindən tanışlıq, bizə deməyə əsas verir ki, o, böyük müdrik, sosioloq, politoloq və filosof-mütəfəkkirdir.

*TÜRKəm,*
*bu cəhətdən özümü xoşbəxt hiss ediyoram!*
**M.Ə.Rəsulzadə**

# I FƏSİL

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ: DÖVRÜ, HƏYATI VƏ YARADICILIĞI

## 1.1.M.Ə.Rəsulzadənin Azərbaycan Cümhuriyyətinin yaranmasınaqədərki dövrdə həyatı və yaradıcılığı

XIX əsrin ikinci yarısında çar Rusiyasının məcburən apardığı sosial-iqtisadi islahatlar, dünyada elmin sürətlə inkişafı imperiyanın əksər xalqları, o cümlədən Quzey Azərbaycan türkləri arasında da milli oyanışa səbəb olmuşdur. Quzey Azərbaycanın ziyalı zümrəsi öz fikir və ideyaları ilə xalqımızın yeni ideoloji xəttinin, xüsusilə də milli azadlıq, milli dövlətçilik prinsiplərinin formalaşmasında mühüm rol oynamışdır. Qədim dövlətçilik ənənələrinə əsaslanaraq müstəqil, azad Azərbaycan dövləti qurmaq istiqamətində ideyalar ortaya atılmışdır. Bu cür ideyaların formalaşmasında XIX yüzil, XX əsrin əvvəllərində yaşamış aydınlardan Abbasqulu Ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi, Cəmaləddin Əfqani, Seyid Əzim Şirvani, Qasım bəy Zakir, İsmayıl bəy Qutqaşınlı, Mirzə Kazım bəy, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Məhəmməd Hadi, Abbas Səhhət, Hüseyn Cavid, Mirzə Əbdürrəhman Talıbzadə, Zeynalabdin Marağalı, Əhməd Cavad, Ömər Faiq Nemanzadə, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Üzeyir Hacıbəyli, Əlimərdan bəy Topçubaşov, Nəsib bəy Yusifbəyli, Yusif Vəzir Çəmənzəminli və başqaları mühüm rol oynayıblar.

Məhəmməd Əmin Axund Hacı Molla Ələkbər oğlu Rəsulzadə 1884-cü ildə Quzey Azərbaycanın Bakı şəhəri yaxınlığındakı Novxanı kəndində ruhani ailəsində doğulub, əvvəlcə tanınmış

mütəfəkkir Sultan Məcid Qənizadənin müdiri olduğu "II Rus-Türk" məktəbində, daha sonra da Bakı Texniki Məktəbində təhsil alıb. 1902-1903-cü illərdə Bakıda "Türk gənc inqilabçılar dərnəyi" yaradan Rəsulzadə, 1904-cü ilin axırlarında təsis olunan "Müsəlman sosial-demokrat "Hümmət" təşkilatı"nın da banilərindən biri olub. Həmin illərdə onun "Şərqi-Rus", "İrşad", "Təkamül", "Yoldaş", "Dəvəti-Qoç", "Tərəqqi", "Füyuzat" və başqa qəzet-jurnallarda ictimai-siyasi və maarifçilik mövzularında məqalələri çap olunmuş, hətta bir müddət "İrşad", "Təkamül" qəzetlərinin redaktoru kimi də işləmişdir.

O, 1905-1907-ci illərdə 1-cu Rusiya inqilabının verdiyi azadlıqlardan da maksimim faydalanaraq həmin qəzet-jurnallarda çox aktiv şəkildə çalışmış, çox dəyərli məqalələr yazmış, siyasi və maarifçi təşkilatlarda aktivliyi ilə seçilmişdir. Rəsulzadə 20-ci əsrin ilk on illiyində bir çox tanınmış simalarla (H.Zərdabi, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ə.Topçubaşov, N.Nərimanov və başqalarıyla) yaxından təmasda olmuşdur. Həmin illərdə H.Zərdabi, Ə.Hüseynzadə, Ə.Ağaoğlu "Kaspi", "Həyat", "İrşad", "Tərəqqi", "Füyuzat" və başqa qəzet-jurnallarda türklük və islamlıq uğrunda mübarizə aparırdılar.

Qeyd edək ki, Quzey Azərbaycanda "Əkinçi" (1875-1877), "Kəşkül", "Ziyayye-Qafqaziyyə" kimi Türkcə mətbu orqanların nəşrinə son verildikdən sonra 1903-cü ilə qədər yalnız rus dilində qəzetlər çıxırdı. Bunlar isə "Kaspi", "Bakinski vedemosti", "Baku" və başqa mətbu orqanlar idi. "Bu qəzetlərin burjua ideya istiqamətli olmasına baxmayaraq, onlarda Azərbaycanın sosial-iqtisadi və mədəni həyatının bəzi məsələlərinə qabaqcıl nöqteyi-nəzərlə yanaşan məqalələr də nəşr olunurdu".[1] Uzun müddətlik bira aradan sonra Türk dilində qəzetin çıxarılmasına çar Rusiyası yalnız 1903-cü ildə icazə verdi. Məhəmmədağa Şahtaxtlı tərəfindən təsis edilən "Şərqi-Rus" adlı həmin qəzet də təxminən iki il Tiflisdə fəaliyyət göstərmişdir.

[1] Azərbaycan tarixi: Ali məktəblər üçün dərslik /Z.M.Bünyadovun və Y.B.Yusifovun redaktəsi ilə. Bakı: Azərnəşr, 1994, s.618

Prof. İzzət Rüstəmov yazır ki, inqilabi hərəkatın, xüsusilə 1905-1907-ci illərin inqilabi hadisələrinin təsiri altında Bakıda bir-birinin ardınca yeni mətbuat orqanları yaranırdı. Ona görə, müəyyən formal cəhətlərinə baxmayaraq, əldə edilmiş mətbuat azadlığının müsbət nəticələri artıq müşahidə edilməkdə idi: "Bu dövrdə meydana gələn "Şərqi-Rus", "Həyat", "İrşad", "Tazə həyat", "Dəvət-Qoç", "Təkamül", "Bakı" kimi qəzetlər, "Dəbistan", "Füyuzat", "Məktəb", "Dirilik", "Şəlalə" kimi məcmuələr dövrün mühüm, rəngarəng ictimai-siyasi, elmi-fəlsəfi məsələlərini öz səhifələrində əks etdirən tribunalara çevrilir".[2]

XX əsrin başlarındakı Quzey Azərbaycan mətbuatı həm ictimai-siyasi mühitin, həm də milli aydınların formalaşmasında böyük rol oynamışdır. O dövrün mütəfəkkirləri isə əsas istiqaməti xalqın maariflənməsinə yönəltmişdilər. İ.Rüstəmov yazır ki, həmin dövrdə Quzey Azərbaycanda elm və maarifə çağırışlar müxtəlif formalarda edilirdi: "hər bir mühərrir, alim öz əsərlərində, publisist məqalələrində elə priyomlar, ifadə üsulları işlətməyə çalışırdı ki, onun vasitəsilə kütlələrin şüuruna təsir edə bilsin, elmin fəzilətləri və faydaları haqqında onlara daha anlaşıqlı tərzdə məlumat versin. Bu cür maarif çağırışlarına hər bir jurnalistin, ictimai xadimin, mütəfəkkirin yazısında təsadüf etmək olardı".[3]

Həmin dövrdə milli şüurun oyanmasında xüsusi, əvəzsiz rol oynamış mütəfəkkirlərdən biri də böyük təbiətşünas alim Həsən bəy Zərdabi idi. Onun dünyagörüşü müəyyən ictimai-iqtisadi şərtlərlə yanaşı, Türk-İslam mədəniyyətinin təsiri altında formalaşmışdır. H.Zərdabinin tədqiqatçılarından prof. İzzət Rüstəmovun o fikrilə razılaşırıq ki, "Zərdabi Azərbaycanda, o cümlədən bütöv Rusiyada, Şərqdə XIX əsr reallıqlarının doğurduğu titanlardan-nəhənglərdən biridir".[4] Deməli, Zərdabi hələ

---

[2] Rüstəmov İ.Ə. XX əsrin əvvəllərində Azərbaycanda təbii-elmi və fəlsəfi fikrin vəhdəti. Bakı: Azərnəşr, 1992, s.9

[3] Rüstəmov İ.Ə. Azərbaycanda təbii-elmi biliyin inkişafının fəlsəfi problemləri (XIX əsr-XX əsrin əvvəli). Bakı: Diplomat, 2001, s.287

[4] Rüstəmov İzzət. Həsən bəy Zərdabi. Bakı, Turan nəşrlər evi, 2012, s.186

Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, Ə.Ağaoğlu, Ə.Topçubaşov və başqalarından öncə türkçü olmuş, ən azı mədəni türkçülüyə xidmət etmişdir. Bunu, vaxtilə M.Ə.Rəsulzadə bir neçə dəfə ifadə etmişdir. Hələ, gənc yaşlarında "Nicat" maarif cəmiyyətinin sədri kimi Rəsulzadə H.Zərdabinin qəbirüstü nitqində onun şəxsində böyük bir maarifçini, ustadı itirdiklərini demişdir: "İştə bu qoca ədib də həmin camaatın hər dərdinə dərman olan irfan toxumlarını səpmişdir. Həmin bu maarif mücahidi olan piri-rövşənzəmizə xitabən camaatın maarifmənd və mütərəqqi olduğunu özünə məslək tutan "Nicat" maarif cəmiyyəti tərəfindən deyirəm ki, yat, Allah sənə rəhmət eləsin!!!".[5] Mühacirət dövründə Həsən bəylə bağlı ayrıca yazdığı bir məqaləsində isə Rəsulzadə göstərirdi ki, 19-cu əsrdə Zərdabi M.F.Axundzadədən sonra Azərbaycan türkləri arasında milli intibah və mədəni hərəkatın ikinci böyük nümayəndəsi kimi liderlik rolunun məsuliyyətini öz üzərinə götürmüşdür: "Bu məsuliyyətli liderlik rolunu Həsən bəy uzun müddət icra eyləmiş Topçubaşıoğlu Əli Mərdan və Ağaoğlu Əhməd bəylər kimi camaat adamları yetişincəyə qədər, Həsən bəy Azərbaycan türklüyünü təmsil edən yeganə mücahid olmuşdur".[6]

İzzət Rüstəmovun fikrincə, Zərdabinin dünyagörüşü öz ideya mənbələri etibarilə istər Şərqin, istərsə də Qərbin mütərəqqi ictimai-siyasi, fəlsəfi və ədəbi ənənələrinə gedib çıxır: "Bu ənənələr içərisində Azərbaycan xalqının uzun illərdən bəri formalaşmaqda olan ictimai-siyasi və fəlsəfi fikrinin nailiyyətləri xüsusi yer tutur. Zərdabi Bəhmənyardan tutmuş M.F.Axundova qədərki Azərbaycan mütəfəkkirləri ilə ideya əlaqəsində olmuşdur".[7] Zərdabinin zəkası, maarifçiliyi, əxlaqi irsi, zəngin mənəviyyatı, təbiət elmlərinə dərindən bələdliyi onu həm Azərbaycanın görkəmli maarifçisi etmiş, həm də Azərbaycan xalqının ictimai fikrinin inkişafında önəmli yerlərdən birini tutmasına səbəb

[5] Rəsulzadə M.Ə. Əsərləri (1903-1909). I cild, - Bakı, 1992, s.151

[6] Rəsulzadə M.Ə. Mühacirət dövrü ədəbi-elmi irsindən seçmələr. I cild, Bakı, Elm, 2016, s.199

[7] Rüstəmov İ.Ə. Həsənbəy Zərdabi. Bakı: Gənclik, 1969, s.31

olmuşdu. Həyat gerçəkliklərini rasional şəkildə dərk edən Zərdabi Qərbin mütərəqqi ideyaları ilə yanaşı, Şərqin mütərəqqi ənənələrini də mənimsəmiş, onları sintez etməyə çalışmışdır.

Xüsusilə də, Zərdabinin 1875-1877-ci illərdə təkbaşına ərsəyə gətirdiyi və ilk Türk qəzetlərindən olan "Əkinçi"nin milli oyanış hərəkatında qiyməti əvəzsizdir. H.Zərdabini milli ideoloq kimi görmüş tanınmış ictimai-siyasi xadim, mütəfəkkir Əlimərdan Topçubaşov da doğru olaraq qeyd edir ki, "Əkinçi"nin yaradılması onun öz xalqına pioner xidmətinin ən uca zirvəsi olmuşdu. Bununla o, nişanverici və xilasedici bir mayak yaratmışdı.[8] Türkoloq alim Əhməd Cəfəroğlunun fikrincə də, 19-cu əsr Azərbaycan maarifçilərindən milliyyətpərvər, istiqlalpərvər H.Zərdabi azəri türkləri arasında birinci olaraq çarizmin Güney Qafqazda ruslaşdırma siyasətini sezmiş, "Əkinçi" də milləti hüquq və haqq davasına cəlb etməyə çalışmış və uzun illər ağır mücadilələr apararaq buna nail olmuşdur.[9] Haşım bəy Vəzirovda yazırdı ki, öz müqəddəs təriqəti və məsləki ilə türklər arasında ilk cığır açan Zərdabi bizi düşündürən, bizi ağladan millətimiz içində ürəyi, dili, məsləki bir millət mücahididir.[10] Əgər milli mütəfəkkir Firudin bəy Köçərliyə görə, Həsən bəyin əsas xidmətlərindən biri öz həmməzhəblərinin oyanmasına ilk təkan verməsidirsə,[11] milli şair M.Ə.Sabirin fikrincə, Zərdabi bütün xalq üçün "mənəvi ata" idi.[12] Siyasi türkçülüyün banisi Y.Akçura da doğru olaraq qeyd edir ki, türkçülüyün təşəkkülündə Zərdabi və onun "Əkinçi"si mühüm rol oynamışdır.[13]

XX əsrin əvvəllərində Ə.Ağaoğluna, Ə.Hüseynzadəyə M.Ə.Rəsulzadəyə ciddi təsir göstərən ziyalılardan biri də Azərbaycanın güneyində dünyaya gələn böyük mütəfəkkir, filosof

---

[8] Azərbaycan mətbuat tarixi antologiyası (2 cilddə 1 cild).Bakı,Elm və təhsil, 2010, s.119
[9] Cəfəroğlu Əhməd. Seçilmiş əsərləri. Bakı: Mütərcim, 2008, s.234
[10] Azərbaycan mətbuat tarixi antologiyası (2 cilddə 1 cild). Bakı, «Elm və təhsil», 2010, s.234-235
[11] Yenə orada, 2010, s.307
[12] Sabir Mirzə Ələkbər. Hophopnamə. İki cilddə. II cild. Bakı, 2004, s.169
[13] Akçuraoğlu Yusif. Türkçülüyün tarixi. Bakı, Qanun, 2010, s.87

Cəmaləddin Əfqani (1839-1897) olmuşdur.[14] O, bütün elmi-fəlsəfi yaradıcılığı boyu türklərin əzmkarlığını, azadlıqsevər olmağını, soykökünə bağlılığını və islama hörmətini önə çəkmişdir. Prof. Yusif Rüstəmovun fikrincə, C.Əfqani sübut etməyə çalışmışdır ki, "Quran tamamilə azadlıq, bərabərlik və ədalət prinsipinə əsaslanır, bütün müsəlmanları tərəqqiyə çağırır. Quranın mahiyyətini düzgün başa düşmək və ona riayət etmək islam dünyasının nicat yoludur".[15] C.Əfqaninin milli azadlıq fəlsəfəsində islamla milli dəyərlər bir yerdə götürülmüş və hər ikisi milli ideyanın əsasında dayanmışdır. Əfqaninin fikrinə görə, islam dini və milli azadlıq problemi bir-birini tamamlayır: "Quranın həqiqi ruhu azadlıqdır və həm də müasir fikirlərə uyğundur. İndiki nizam-intizamsızlığın islam qanunlarına qətiyyən dəxli yoxdur. Bunlar nadan və cahil təfsirçilərin islama etdikləri əlavələrdir. Tarixi təkamül və inkişaf onların bu səhvini islah edəcək. Demək, bir müsəlman ziyalısı və alimi Avropa demokratik məfkurəsinə tamam aşina olsa, o, Quranın təlimlərinə əsaslanaraq xalqı müasir mütərəqqi demokratik məfkurələrlə tanış edə bilər".[16] Bir müddət islama zülmə, müstəmləkə işğalına qarşı dura bilən yeganə ideya kimi baxan C.Əfqani onu yüksəlişin həqiqi zəmanətverici ideyası kimi göstərmək istəmişdir.[17]

Azərbaycan Türk mütəfəkkiri Əhməd Ağaoğlu yazırdı ki, İslamın və Quranın özündə "İttihadi-islam"ın inkişafı üçün əlverişli zəmin olmasına baxmayaraq, o yalnız Əfqaninin ideyaları sayəsində meydana çıxmışdı. Çünki Əfqani müsəlman xalqlarını ilkin İslama qayıtmağa, ləyaqətsiz hökmdarlara qarşı açıq mübarizəyə qoşulmağa çağırmışdı. Eyni zamanda o, ikiüzlü ruhaniləri amansızcasına tənqid edir, onların "boş dialektika və sxolastikasını" məsxərəyə qoyur,

---

[14] Nəsibli Nəsib. Şeyx Cəmaləddin Əfqani (Fikir və əməl böyüklərimiz). Bakı, "Nurlar" NPM, 2014, s.27-36

[15] Rüstəmov Y.İ. Fəlsəfənin əsasları. Bakı: «Azərbaycan Universiteti» nəşriyyatı, 2004, s.147

[16] Qurbanov Ş. Cəmaləddin Əfqani və türk dünyası. Bakı: Azərnəşr, 1996, s.206

[17] Mürşüdlü Qəmər. C.Əfqaniyə görə dinin fəlsəfəsi. //İlahiyyat fakültəsinin Elmi Məcmuəsi. №09, aprel, Bakı, 2008, s.248

riyakarlıqlarına və həyasızlıqlarına gülürdü. O, öz mühakimə və mülahizələrini Qurandan gətirilən iqtibaslarla, müsəlman tarixinə aid misallarla əsaslandırırdı. Onun bütün gücü də məhz belə "uyğunlaşmaq" bacarığında idi. Əfqaninin bu ideyalarını müsbət dəyərləndirən Ə.Ağaoğlu yazırdı ki, Şərqdə nümunəvi ictimai xadim olan bu şəxs, eyni zamanda özünün gələcək davamçılarının fəaliyyəti üçün proqram tərtib etmiş və bu davamçıların inkişaf etdirməli olduqları ideyaları göstərmişdir.[18]

Əfqani xüsusilə də, "Təfsirçinin təfsiri" məqaləsində İslamın əsil mahiyyətinin hansı anlamda təfsir edilməsinin prinsiplərini ətraflı olaraq şərh etməyə çalışmışdır. Əfqaniyə görə, müsəlman xalqları ilk növbədə, təhsil məsələsinə ciddi yanaşmalıdır, çünki hər hansı toplumun dini nə dərəcədə başa düşmələrinin başlanğıcı elm və təhsildir. Onun fikrincə, heç bir bəşər övladı, hətta ən vəhşi insan belə, təhsildən tamamilə təcrid olunmadığı halda, hazırda müsəlmanların çoxunun təhsilsiz olması onların əsas problemidir.[19]

Zərdabi, Əfqani ilə eyni əsrdə yaşamış, ancaq onlardan bir qədər tez dünyasını dəyişən M.F.Axundzadə dövrünün ictimai-siyasi, dini-fəlsəfi problemlərinə daha cəsarətlə, tənqidlə yanaşmışdır. Onun başlıca əsəri olan "Hind şahzadəsi Kəmalüddövlənin İran şahzadəsi Cəlalüddövləyə məktubları və Cəlalüddövlənin ona cavab məktubu" öz dövrünə görə realist, tənqidi, düşündürücü xarakter daşımışdır. Ancaq onun irsi heç də həmin dövrdə və sonralar birmənalı qarşılanmamış, Axundzadənin yaradıcılığını təqdir edənlərlə yanaşı, tənqidi mövqe tutanlar da olmuşdur.

Qeyd edək ki, M.Ə.Rəsulzadə ömrünün son vaxtlarında qələmə aldığı "Mirzə Fətəli Axundzadə" məqaləsində və digər yazılarında onun 19-cu əsrdə Azərbaycan türklərinin milli-mədəni oyanışnın ilk siması adlandırmışdır.[20] Rəsulzadəyə görə

---

[18] Ağaoğlu Əhməd. İran və İnqilabı. Seçilmiş əsərləri. Bakı, «Şərq-Qərb», 2007, s.332

[19] Əfqani Cəmaləddin. Təfsirçinin təfsiri. //Fəlsəfə və sosial-siyasi elmlər. № 2(30), Bakı,"Azərbaycan Universiteti",2010,s.195 (Əfqaninin bu məqaləsini ingilis dilindən Azərbaycan türkcəsinə çevrib nəşrə hazırlayan dos., dr. Qəmər Mürşüdlüdür)

[20] Rəsulzadə M.Ə. Mühacirət dövrü ədəbi-elmi irsindən seçmələr. I cild, Bakı, Elm, 2016, s.198

kommunizmin ana fikri olaraq göstərilən allahsızlıqdan bəhs edilərkən, bolşeviklərin dəfələrlə Mirzə Fətəliyə müraciət etmələri, onun ateistliyindən bəhs etmələri iftiradır: "Mirzə Fətəli Allah fikrinə, yəni mütləq həqiqət idealına qarşı qətiyyən mücadilə etmirdi. Onun mücadilə etdiyi şey, iman və düşüncəyə müsəllət olan sxolastik təfəkkür tərzi idi. Bu növ düşünüş tərzi indi bütün mütləqçiliyi ilə Sovetlərdə hakimdir. O Sovetlərdə ki, kommunizm xaricində kimsəyə özəl bir dünyagörüşünüə sahib olmaq haqqı tanınmamaqdadır". [21]

Sözün açığı, 2007-ci ildə nəşr olunmuş "Məhəmməd Əmin Rəsulzadənin dünyagörüşü" kitabımızda, yenə də Rəsulzadənin ideya sələflərindən bəhs edərkən biz də, mövcud ədəbiyyatın və bir çox mütəfəkkirlərimizin Axundzadə ilə bağlı müsbət düşüncələrinin təsiri altında onun yaradıcılığına çox yüksək münasibət bəsləmişdik.[22] Hazırda isə hesab edirik ki, Axundzadənin fəlsəfi və ictimai görüşlərini dərindən təhlil etmədən hər hansı mütləq nəticələr çıxartmaq doğru deyildir. Bu anlamda onun maarifçilikdən tutmuş fəlsəfi düşüncələrinə qədər hər bir məqam diqqətlə təhlil olunmalı, Axundzadənin Azərbaycan Türk fəlsəfəsindəki yeri obyektiv şəkildə dəyərləndirilməlidir. Bütün bu fikirlərimizi ümumiləşdirərək, onu qeyd etməliyik ki, Axundzadənin dünyagörüşündə ortaya çıxmış "farsçılıq-irançılıq" və "avropaçılıq" təsadüfi olmamış və onu buna sürükləyən siyasi-ideoloji motivlər olmuşdur. Çox böyük ehtimal ki, Axundzadə avropa-rus ideoloqlarının təsiri altında ona aşılanan irançılığı və qərbçiliyi təbliğ etmişdir. Belə ki, hələ XIX əsrdən başlayaraq (yalnız bu əsrdənmi?) Azərbaycan türkünün şüuruna zorla yeridilən "sən türk deyil, farssan", "sən türk deyil, tatarsan" ideolojisi Axundzadədən yan ötməmişdir. Bunun da nəticəsində Axundzadənin yaradıcılığının əsas hissəsində farsların tarixini, mədəniyyətini, dövlətçiliyini tərənnüm etmək, hətta farsların dini saydığı zərdüştlüyü öyrənmək başlıca yer tutmuşdur. Doğrudur, bütün bunlar Axundzadənin nə fars olması, nə də fars-iran millətinin

---

[21] Yenə orada, s.236

[22] Ələkbərov F.Q. Məhəmməd Əmin Rəsulzadənin dünyagörüşü. Bakı, "Elm", 2007, s.12

nümayəndəsi kimi tamamilə farslara xidmət etməsi anlamına gəlməsə də, ancaq ortada olanları da inkar edə bilmərik.

Demək istədiyimiz odur ki, Axundzadənin fəlsəfi dünyagörüşü, hətta onun materialist baxışları belə Qərb fəlsəfəsi və İran-Zərdüştlük adət-ənənələri üzərinə köklənmişdir. Yəni Axundzadənin fəlsəfəsinin əsasında bir tərəfdən İslamın, Ərəb və Türk mədəniyyətinin bu və ya digər anlamda inkarı, digər tərəfdən isə Qərb materialist fəlsəfəsinin müdafiəsi və İran-Zərdüştlük ənənələrinin dirçəldilməsi dayanmışdır. Bu o deməkdir ki. Axundzadə də bir fəlsəfə varsa (şübhəsiz, az-çox var), bu fəlsəfə sırf ontoloji və qnoseoloji problemlərlə bağlı olub, onlara aid əsərlər yazmaqla deyil, daha çox Qərb fəlsəfəsini və irançılıq-zərdüştlük ideyalarını tərənnüm etmək, bunu müqabilində isə İslam fəlsəfəsini və bu fəlsəfəyə inanan xalqların, ən çox da öz təbrincə desək, farsdilli müsəlman xalqların dini-fəlsəfi inamlarını sarsıtmağa, aradan qaldırmağa yönəlmişdir. Hər halda, bu bizim Axundzadənin dünyagörüşü ilə bağlı gəldiyimiz bir nəticədir. Ancaq bütövlükdə bu nəticə Axundzadənin Azərbaycan Türk mədəniyyətində və fəlsəfəsində oynadığı müsbət rolu da inkarı anlamına gələ bilməz. Bütün hallarda Axundzadə, son dövr Azərbaycan xalqının fəlsəfəsinə xeyli dərəcədə öz dərin təsiri ilə yadda qalmışdır. Bizcə, bunu da gözardı etmədən, ancaq istənilən halda Axundzadənin Azərbaycan Türk fəlsəfə tarixində obyektiv qiymətini də verməyi bacarmalıyıq.[23]

Bütün hallarda A.A.Bakıxanov, M.F.Axundzadə, H.Zərdabi, C.Əfqaninin ideyaları, ötən əsrin əvvəllərində yaşamış, fəaliyyət göstərmiş mütəfəkkirlərdə - M.Ə.Rəsulzadə, Ə.Hüseynzadə, Ə.Topçubaşov, Ə.Ağaoğlu, N.Yusifbəyli və başqalarında türküçülük, islamçılıq, azərbaycançılıq ideyalarının formalaşmasında çox mühüm rol oynamışdır.

Türkçülüyün, turançılığın əsas ideoloqu, yeni dövrdə Türk birliyi ideyasının elmi-nəzəri cəhətdən müəllifi, dahi mütəfəkkir, filosof Əli bəy Hüseynzadə yalnız Bütöv Azərbaycanda deyil,

[23] Ələkbərli Faiq. Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər). I hissə. Bakı, "Elm və təhsil", 2018, s.348-349

Türk dünyasında islamçılığın, türkçülüyün, çağdaşlaşmağın yeni prinsiplərinin müəyyənləşməsində və inkişafında mühüm rol oynayıb. 20-ci əsrin əvvəllərində Quzey Azərbaycanın əsas mərkəzlərindən biri olan Bakıda nəşr olunan "Kaspi", "Həyat" qəzetlərinə və "Füyuzat" jurnalına redaktorluq edən Hüseynzadə türkçülük və islamçılıq uğrunda savaş vermişdi. Xüsusilə, Ə.Hüseynzadə Türk xalqlarının milli özünüdərk yolunda çox mühüm rol oynamış bir mütəfəkkirdir. Ziya Gökalp yazırdı: "Rusiyadan İstanbula gələn Hüseynzadə Əli bəy Tibbiyyədə (Tibb məktəbində-F.Ə.) türkçülüyün əsaslarını başa salırdı. "Turan" adlı şeiri "Turançılıq" ülküsünün ilk ortaya qoyuluşu idi... Hüseynzadə Əli bəy Rusiyadakı millətçilik axımlarının (cərəyanlarının) təsiri ilə türkçü olmuşdu".[24] 20-ci əsrin ilk on illiyində milli işləri Bakıda da görən zaman Ə.Hüseynzadə artıq tək deyildi. Onunla yanaşı başqa mütəfəkkirlərimiz də türkçülüyü Quzey Azərbaycanda yayırdı. Ziya Gökalp yazırdı: "Bu vaxt (1905-1906-cı illər nəzərdə tutulur - F.Ə.) Hüseynzadə Əli bəy İstanbuldan və Ağaoğlu Əhməd bəy Parisdən Bakıya gəlmiş və orada fikir savaşı üçün əl-ələ vermişdilər. Topçubaşov da bunlara qoşuldu. Bu üç şəxs orada o zamana qədər hakim olan sünnilik və şiəlik anlaşılmazlıqlarını ortadan qaldıraraq türklük və islamlıq fikirləri çevrəsində bütün azərbaycanlıları toplamağa çalışdılar".[25]

Hüseynzadə Türk millətinin dünya tarixi və mədəniyyətinin inkişafında oynadığı önəmli rolu yaxşı bildiyi üçün həmin ənənələrin yenidən dirçəlməsinə çalışırdı. Ona görə Türk millətini hərəkətə gətirmək üçün, onu əvvəlcə öz iç mahiyyətində yüksəltmək, özünə dönüş etmək lazımdır. Ə.Hüseynzadə tərəfindən "Türk hissiyyatlı, İslam imanlı və Avropa qiyafəli" şəklində formulə edilib bir ideya halına gətirilən,[26] daha sonralar "Müsavat" Partiyasını başlıca şüarını, Azərbaycan Cümhuriyyəti

[24] Göyalp Z. Türkçülüyün əsasları. Bakı: Maarif, 1991, s.28
[25] Yenə orada, s.29
[26] Hüseynzadə Ə. Qırmızı qaranlıqlar içində yaşıl işıqlar. Bakı, Azərnəşr,1996,s.180

bayrağının əsasını təşkil edən bu məfkurə böyük Türk milləti ilə yanaşı, Azərbaycan Türk milliyyətçiliyinin də bir ifadəsi idi.

Əli bəy Hüseynzadənin türkçülük məsələsində milli ideoloq kimi öncüllüyünü M.Ə.Rəsulzadə isə bu cür ifadə etmişdir: "“Füyuzat” jurnalı “Türk Yurdu”nda olduğu kimi aydın, ardıcıllıqla olmasa da türkçülük mövzusunu daha öncə işə salmış, hətta mərhum Ziya bəyin son çağlarda “Türk millətindənəm, İslam ümmətindənəm, Qərb mədəniyyətindənəm” çağırışı ilə göstərdiyi anlamı Əli bəy Hüseynzadə “Türk qanlı, islam imanlı və firəng geyimli olaq” formulu ilə açıqlamışdı. Azərbaycan mətbuatının, eləcə də Azərbaycan ədəbiyyatının şüurlu metodik bir biçimdə milli türk ideologiyasını işə salmaq düşüncəsi isə I Dünya savaşı öncəsində, illərində daha çox gəlişmişdir”.[27] Onun fikrincə, beləliklə, balkan və dünya müharibələri dövrü türk milli ideyasının inkişafında dönüş nöqtəsi olmuşdu. [28]

Avropanın mədəniyyət, sosiologiya, fəlsəfə mərkəzlərindən olan Parisdə təhsil almış böyük Türk aydını, filosofu Əhməd bəy Ağaoğlu da islamçılıq, türkçülük və çağdaşlamaq yolunda müstəsna xidmətlər göstərmişdir. O, "Həyat", "Kaspi" və başqa qəzetlərdə xalqın milli şüurunun oyanması, milli özünüdərk istiqamətlərində məqalələr yazır və “İslam millətçiliyi” ideyasını təbliğ edirdi. M.Ə.Rəsulzadənin təbrincə desək, ilk dövrlərdə “milliyyətpərvərliyin ən addı-sanlı mürşidləri, başda Ağaoğlu Əhməd bəy olmaqla, islamçılıqla türkçülüyü çox da ayırmır, türklük namına deyil, müsəlmanlıq namına mübarizə aparırdılar”. [29] Ancaq bütün hallarda onun bir tərəfdən qələm, digər tərəfdən qılıncla apardığı mücadilə də “islam millətçiliyi” ilə yanaşı, Azərbaycan milli istiqlalına xidmət də var idi. Bunu, Rəsulzadə Ağaoğlunun vəfatı münasibətilə yazdığı məqalədə də ifadə etmişdir: “...Ağaoğlu Əhməd bəyin o zamankı fəaliyyəti Azərbaycanın oyanış tarixində kəndi başına bir dövrdür. Sadəcə

[27] Rəsulzadə M.Ə. Qafqaz türkləri. Bakı, Təknur, 2012, s.48
[28] Rəsulzadə M.Əmin. Panturanizm. Qafqaz sorunu. Bakı, “Təknur”, 2012, s.49
[454] Rəsulzadə M.Ə. İstiqlal məfkurəsi və gənclik// «Azadlıq» qəz., 1990, 31 dekabr

Qafqaziya müsəlmanları və bütün Ruisya türk-tatarları deyil, qonşu İran ilə Türkiyədəki hərəkatlarla dəxi yaxından və candan əlaqədar olan Əhməd bəy sadə qəzetəçi deyil, eyni zamanda, camaat adamı, maarifçi və inqilabçıdır!”. [30]

Beləliklə, Ağaoğlu əvvəlcə, islamla türkçülüyün (“İslam millətçiliyi”) bir-birini tamamlaması, daha sonra İslam-Türk birliyi ideyasını irəli sürməklə yanaşı, ancaq həddən artıq avropalılaşmaq tərəfdarı kimi çıxış etmişdir. [31] Yenə də Rəsulzadə çox doğru yazırdı ki: “Onun fransız məktəbinin məhsulu su götürməz liberalizmi ilə münaqişə etmək qabilsə də, milliyyət, hürriyyət və insanlıq şərəfinə verdiyi əməyi təqdis etməmək qabil deyildir. Hələ, içdən gələn qüdsi bir həmlə ilə 70 yaşının son gününə qədər sönməyən bir atəşlə durmadan yanan qələmini dəyərsizləndirməyə kim cəsarət edər?!.”[32] Bu isə o deməkdir ki, Ağaoğlu sosial-demokratizm, liberalizm və solidarizm təlimləri arasında ən çox üstünlüyü liberalizmə vermişdi.[33]

Bu dövrdə türkçülüyə, islamçılığa əsasən zidd kimi qəbul olunan sosial-demokratiya, liberalizm təlimləri də mövcud idi. Fəhlə və kəndli sinfinin müdafiəçisi kimi çıxış edən, ictimai bərabərliyi irəli sürən sosial-demokratizm XIX əsrin sonlarında bütün çar Rusiyasında olduğu kimi, Quzey Azərbaycanda da geniş yayılmışdır. Bu əqidənin həmin dövrdə azərbaycanlılar-türklər arasında əsas tərəfdarları M.Ə.Rəsulzadə, S.M.Əfəndiyev, A.Axundov, M.Mövsümov, M.Əzizbəyov və başqaları olmuşdur.

Sovetlər Birliyi dövründə Quzey Azərbaycanda sosial-demokratizmin tanınmış nümayəndəsi sayılan Nəriman Nərimanova gəlincə, əslində o, ilk dövrlərdə əsasən, milli məsələyə yaxın mövqedə dayanıb, bu təlimə ciddi meyil göstərməmişdir. Görünür,

---

[30] Rəsulzadə M.Ə. Mühacirət dövrü ədəbi-elmi irsindən seçmələr. I cild, Bakı, Elm, 2016, s.243

[31] Ələkbərli Faiq. Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər). II hissə. Bakı, “Elm və təhsil”, 2020, s.239-240

[32]Rəsulzadə M.Ə. Mühacirət dövrü ədəbi-elmi irsindən seçmələr. I cild, Bakı, Elm, 2016, s.245

[33] Rüstəmov Y.İ. Türk fikir tarixi haqqında mülahizələr. Bakı: «Çaşıoğlu», 2005, s.99

bunu nəzərə alaraq Rəsulzadə mühacirət dövründə yazırdı ki, Nərimanov 1906-cı ildə nəşr olunan "Qara qartallar" adlı məqaləsində marksizmi və sosializmi rədd etmiş, həmin dövrdə bir çox əsərlərində isə İslamın əsaslarını əsrin elm və fənlərinə qarşı qoymuşdur.[34] Sovetlər Birliyi dövründə Ə.Qarayev, M.D.Hüseynov və H.Cəbiyev də Nərimanov haqqında yazırdılar ki, o, 1917-ci ilə qədər bolşevik hərəkatından uzaq olmuşdur.[35]

Belə bir şəraitdə, yəni islamlıqla, türkçülük və ona əsasən zidd görünən marksizm (sosial-demokratizm), liberalizm, liberal-demokratizm təlimlərinin yayıldığı XX əsrin ilk onilliyində Azərbaycanda siyasi partiyaların formalaşması bir neçə istiqamətdə gedirdi ki, bu prosesdə də Rəsulzadə ən fəallardan biri olmuşdur. Rəsulzadə və onunla həmfikir olanlar 1904-cü ilin payızında yaranmış sosial-demokrat "Hümmət" təşkilatını daha çox milli yöndə və mümkün qədər RSDFP-dən uzaq, müstəqil şəkildə formalaşdırmağa çalışırdılar. Ancaq M.Əzizbəyov, N.Nərimanov, S.M. Əfəndiyev və başqaları buna qarşı çıxırdı. "Hümmət"in fəallarından biri olan S.M.Əfəndiyev sonralar bununla bağlı yazırdı: "Bizim partiyamız "Hümmət" məsələsində öz əsas prinsipinə, yəni partiyanın və fəhlə hərəkatının vahid və bölünməz olması prinsipinə sadiq qaldı".[36] Lakin 1905-ci ildə Rusiyada başlanan birinci inqilabın nəticələri "Hümmət"ə də təsirini göstərdi. "M.Ə.Rəsulzadə və silahdaşları bolşeviklərin məram və məqsədlərindən Azərbaycana heç bir fayda olmayacağını başa düşüb onlardan uzaqlaşdılar. 1907-ci ildə "Hümmət"in bağlanmasına qərar verildi".[37] Professor Yusif Rüstəmov yazır: ""Hümmət" təşkilatında iş aparan M.Ə.Rəsulzadə qrupunun üzvləri – gələcək "Müsavat" partiyasının üzvləri xalqın milli mübarizə yolunu müəyyən etməyə çalışırdılar. Bu yol Azərbaycanın gələcək milli

---

[34] Resulzade M.E.Hatıralar ve Kafkasya. İstanbul, 2011, s.193

[35] Həsənov H.Ə. Nəriman Nərimanov–milli təmayüllü kommunist. Bakı: Pedaqogika, 2004, s.59

[36] Əfəndiyev S.M. Azərbaycan proletariatının inqilabi hərəkatı tarixindən. Bakı: Azərnəşr, 1957, s.16

[37] Mehmet Saray. Azerbaycan Türk Tarihi. İstanbul: 1993, s.32

istiqlaliyyət yolu idi. Milli ruhlu gənclər öz mövqelərini sərbəst surətdə müəyyənləşdirmək üçün "Hümmət" təşkilatından ayrıldılar".[38]

Bununla da milli sosial-demokratlardan Rəsulzadə, Kazımzadə, M.H.Hacınski bir müddətdən sonra milli demokratik cəbhəyə keçdikləri halda, bunun əvəzində sosial-demokratizmin bolşevizm (marksizm-leninizm) mövqeyini müdafiə edənlərın sırasına S.M.Əfəndiyev, M.Əzizbəyov, M.Q.Mövsümovla yanaşı N.Nərimanov, D.X.Bünyadzadə, H.H.Sultanov və başqaları da qoşulmuşlar. Sosial-demokratizmin tanınmış menşevik nümayəndələri hesab olunan S.Ağamalıoğlu, R.Axundov, Ə.Pepinov, İ.M.Əbilov, H.K.Sanıyev, M.M.Heydərzadə, Q.Camalbəyov, Ə.Yüzbaşov və digərləri isə qismən Cümhuriyyət dövründə (1918-1920), əsasən də, Quzey Azərbaycan zorla sovetləşdirildikdən sonra bolşevizm mövqeyinə keçmişlər. 1930-cu ildə Əziz Ubeydullin yazırdı ki, Azərbaycan sovetləşəndən sonra marksizmlə idealizm, millətçiliklə beynəlmiləlçilik arasında mübarizə başlamışdır: "Bu mübarizə axırıncı illərdə qəti bir yola girib, indi millətçilik, idealizm, pluralizm məfkurələrinin tarix səhnəsində məğlub olduqlarını görürük".[39]

H.Baykara yazır ki, Azərbaycan tarixində ikinci siyasi partiya 1905-ci ildə Qafqazda ermənilərin Türk-müsəlman əhalisinə qarşı törətdikləri qırğın zamanı Əhməd bəy Ağaoğlu tərəfindən yaradılan "Difai"dir. "Difai"nin Mərkəzi Komitənin sədri Ə.Ağaoğlu 1909-cu ildə Osmanlıya mühacirət etdikdən sonra, onun əksər üzvləri "Müsavat"ın sıralarına qoşulublar.

H.Baykaraya görə Azərbaycanın siyasi tarixində yer alan üçüncü siyasi qurum isə əsas liderlərindən biri Əlimərdan bəy Topçubaşov olan "Rusiya Müsəlmanları İttifaqı" idi.[40]

1907-ci ildə çarlığın istibdadı güclənib siyasi partiyalar, o cümlədən "Hümmət" fəaliyyətini məhdudlaşdırmağa məcbur

---

[38] Rüstəmov Y.İ. Siyasi-Hüquqi təlimlər tarixi (mühazirə kursu). Bakı: «Azərbaycan Universiteti» nəşriyyatı, 2000, s.295

[39] Ubeydullin Ə. Əsərləri. Bakı, Şərq-Qərb, 2010, s.261

[40] Baykara Hüseyn. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı: Azərnəşr, 1992, s.71

olduğu bir vaxtda M.Ə.Rəsulzadə "Tərəqqi" qəzetində məqalələr yazmaqla yanaşı, bir müddət (1907-1909-cu illər) "Nicat-Maarif" cəmiyyətinə, rəhbərlik etmişdir. Yeri gəlmişkən, XIX əsrin sonu, XX əsrin əvvəllərində Quzey Azərbaycanın ictimai-siyasi həyatında mədəni-maarif cəmiyyətlər olan "Nicat", "Nəşri-maarif", "Səadət", "Qeyrət", "Səfa" və başqaları da milli oyanışda mühüm rol oynamışlar. "Nicat" cəmiyyətinin sədri kimi M.Ə.Rəsulzadə 1908-ci ildə "Tərəqqi" qəzetində "Xeyriyyə və Maarif cəmiyyətlərimiz" məqaləsində bu kimi təşkilatları birləşib "Müsəlman mədəni ittifaqı" əmələ gətirməyə çağırmışdır.[41]

Rəsulzadə 1909-cu ilin əvvəllərində Qacarlar dövlətinin əsas şəhərləri olan Təbrizə, daha sonra Tehrana getmişdir. Tehranda bir qrup ziyalı ilə birlikdə 1910-cu ilin sentyabrında əsasən Azərbaycan türklərinin öncüllük etdiyi İran Demokrat Partiyasının (İDP) əsasını qoyanlardan biri olan Rəsulzadə onun əsas mətbuat orqanı olan "İrani-nou" qəzetinin də baş redaktoru olub.

1911-ci ildə çar Rusiyasının Tehran hökumətinə basqısı nəticəsində Osmanlıya gedən Rəsulzadə İstanbulda "Türk ocağı"na aid "Türk yurdu" jurnalında çalışıb. Rəsulzadə bu barədə sonralar "Yeni Kafkasya" dərgsində yazırdı: "Qüvvətim yetdiyi qədər İran istiqlalına xidmət eylədim halda, məətəəssüf, İran bayrağı məni himayə edə bilmədi və Rus səfirliyinin cəbiranə müdaxiləsi üzərinə, bir həftə içində, İranı tərk etmək zərurətində qaldım, İstanbula isə Rus təzyiqindən sığınmaq üçün gəldim". [42]

1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi münasibəti ilə çar tərəfindən elan edilən amnistiyadan sonra Bakıya dönən Rəsulzadə 1911-ci ildə onun təlimatı əsasında Bakıda yaradılmış "Müsavat" Partiyasını aktivləşdirmişdir. "Müsəlman Demokratik Partiyası-Müsavat" gizli bir təşkilat olaraq qurulmuş, onun ilk proqramının "Ciddi xəbərdarlıq" başlığında yazılmışdı: ""Müsavat" Partiyasının Bakı şöbəsi öz üzvlərini rus hökumətinin və

---

[41] Rəsulzadə M.Ə. Xeyriyyə və maarif cəmiyyətlərimiz. "Tərəqqi" qəz., Bakı, 1908, 17 oktyabr

[42] Resulzade M.E. Yeni Kafkasiya yazıları (1923-1927). Ankara, TTK, 2017, s.54

onun agentlərinin özünə hökumətin diqqətini çəkməmək üçün açıq tənqiddən çəkindirir, çünki tənqid edənlər və onun həmfikirləri bundan ziyan çəkirlər”.[43] O, “Müsavat”ın, 1915-ci il oktyabrında həmin qurumun orqanı kimi əsas şüarı türkçülük, islamçılıq və müasirlik olan “Açıq söz” qəzetini təsis edib.

1917-ci ildə çar Rusiyasında baş verən fevral burjua inqilabından sonra Quzey Azərbaycanda ictimai-siyasi durum yeni bir dövrə qədəm qoyur, milli hərəkat güclənərək geniş xarakter alırdı. fevral burjua inqilabından sonra Petroqrada qurulmuş Müvəqqəti hökumətin qərarı ilə Güney Qafqazda hakimiyyət yeni yaradılmış orqana - Xüsusi Güney Qafqaz Komitəsinə verildi. Çox keçmədi ki, 1917-ci ilin martın 17-də Azərbaycanın bir qrup ziyalıları yığışaraq Bakı müsəlman ictimai təşkilatları və kooperativlərinin nümayəndələrindən ibarət büro yaratdılar. Bakı Şəhər Dumasının həyətində keçirilən qurultayında Rusiyadakı Müvəqqəti Hökumətə etimad göstərilməsi barədə qərar qəbul edildi. 1917-ci il martın 27-də bu büro Bakıda Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsi ilə əvəz olundu. Müvəqqəti Komitənin sədri M.H.Hacınski, müavini M.Ə.Rəsulzadə seçildi. Martın axırlarında yaradlımış Bakı Fəhlə və Hərbçi Deputatları Soveti isə solçu inqilabi qüvvələrin orqanına çevrildi. Bununla da Rusiyada olduğu kimi, Quzey Azərbaycanda da ikihakimiyyətlilik yarandı.

1917-ci il aprelin 15-20-si arasında Bakıda keçirilən Qafqaz müsəlmanlarının I qurultayı Quzey Azərbaycanın milli hərəkatında mühüm rol oynadı. Qurultayda “Türk Ədəmi-Mərkəziyyət” Partiyası adından çıxış edən Nəsib bəy Yusifbəyli türklərin tapdalanmış hüquqlarından danışıb və onların birləşməsini vacib sayıb. Qurultaydan sonra siyasi, dini, təşkilati, məktəb və milli məsələlər üzrə komissiyalar yaradılıb. “Qurultayda Gəncədə Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi “Türk Ədəmi-Mərkəziyyət”lə “Müsəlman Demokratik Partiya-Müsavat”ın qiyabi olaraq birləşdirilməsi razılığına gəlindi. Çünki qurultayda “Müsa-

[43] Yaqublu. N. Müsavat Partiyasının tarixi. Bakı: Ay-ulduz, 1997, s.40

vat"la "Türk Ədəmi-Mərkəziyyət" eyni mövqedən çıxış edirdi. Hər iki təşkilat millətlərə ərazi muxtariyyəti tələbi ilə çıxış edir və Rusiyanın federal əsaslar üzərində qurulmasını tələb edirdi".[44]

Bunun ardınca 1917-ci il mayın 1-dən 11-dək Moskvada Ümumrusiya müsəlmanlarının I qurultayının keçirilməsi proseslərin qarşısıalınmaz olduğunu ortaya qoyurdu. Qurultayın gündəliyinə bir sıra önəmli məsələlər salındı. Bunlardan dövlət forması, mədəni-milli təyini-müqəddərat, Müəssislər Məclisi və onun seçki kampaniyasının taktikası, Ümumrusiya Müsəlmanlar Şurasına seçkiləri göstərmək olar. Rəsulzadə yazırdı: "Rusiya türklüyünün bütün əqvamını təmsil edən min mürəxxəsli bu böyük qurultayda şiddətli mübahisə və münaqişələrdən sonra Rusiyanın milli və məhəlli muxtariyyətlər üzərinə qurulu mütəhhid xalq cümhuriyyətindən ibarət olması tələb olunmuşdu. Bu tələb Rusiya müsəlmanlarının böyük inqilabdan bəslədikləri siyasi əməli tamamilə əyan eləmişdi".[45]

Ümumrusiya Müsəlmanlarının I qurultayı da bir daha göstərdi ki, azsaylı azərbaycanlı-türk bolşeviklər deyil, milli demokratik ideyaların çoxsaylı təmsilçiləri doğru yol tutublar. Qurultayda iki əsas təklif səsləndi. Birinci təklifi irəli sürən Rəsulzadə deyirdi ki, Rusiya Xalq Cümhuriyyəti kimi federativ şəkildə idarə olunmalı, qeyri-rus millətlərə – Azərbaycan, Türküstan, Tatarıstan, Başqırdıstan, Qırğızıstan və başqa Türk ellərinə milli-məhəlli muxtariyyət verilməlidir. Bu fikrin əleyhinə çıxış edən tatar Əhməd Salihov isə Rusiyanın unitarlığını saxlanmaqla milli-mədəni muxtariyyət ideyasını təklif edirdi. Son nəticədə Rəsulzadənin irəli sürdüyü milli-ərazi federasiya prinsipləri əsasında yaradılmış qoşma respublika, ya da milli-məhəlli muxtariyyət ideyası 271 səsə qarşı 446 səslə qəbul edilib. [46]

Quzey Azərbaycanın öncə muxtariyyəti daha sonra da milli istiqlalını irəli sürmüş milli demokratik cərəyana (türkçülük, is-

---

[44] Məmmədzadə M. B. Milli Azərbaycan hərəkatı. Bakı: Nicat, 1992, s.56
[45] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, s.27
[46] Azərbaycan tarixi. 7 cilddə, V cild (1900-1920-ci ilər). Bakı: Elm, 2001, s.277

lamçılıq və yenilikçilik) arxalanan "Müsavat" və "Türk Ədəmi-Mərkəziyyət"in 1917-ci ilin iyununda birləşməsi Quzey Azərbaycan türklərinin taleyində mühüm rol oynadı. Bu prosesdə yaxından iştirak etmiş M.Ə.Rəsuloğlu sonralar "Müsavat Partiyasının quruluşu" məqaləsində yazırdı: "Bir sıra müzakirələrdən sonra bu iki partiyanın birləşməsi qərarına gəldik. Partiyanın adı haqqında məsələyə gələndə Nəsib bəy, partiyanın adının "Türk Ədəmi-Mərkəziyyət Firqəsi-Müsavat" qoyulmasını təklif etdi, biz də qəbul etdik".[47] Birləşmiş partiyanın Mərkəzi Komitəsi (MK) yaradılıb və sədr də M.Ə.Rəsulzadə seçilib.

Ancaq 1917-ci il fevral inqilabından sonra RSDFP-nin Bakıda məsul təbliğatçılarından ibarət büroya üzv olan Məşədi Əzizbəyov hesab edirdi ki, dünyada ən doğru cərəyan bolşevizmdir və nəyin bahasına olursa-olsun o, bu əqidəsindən dönməyəcəkdir: "Qoy menşevik və eser jandarmaları bizimlə mübarizə aparsınlar, qoy bizi zindanlara salsınlar, sürgünə göndərsinlər, biz əvvəlki kimi yenə də öz ideallarımıza sədaqətlə xidmət edəcəyik". [48] Əzizbəyov Şəhər dumasına seçkilərlə əlaqədar olaraq, Bakı müsəlman ictimai təşkilatları komitəsinin mitinqində (1917, 28 iyul) deyirdi: "Biz sosialistlər deyirik ki, siz fəhlələri seçməlisiniz. Bu barədə bizim proqramımızda cənab Rəsulzadənin elan etdiyi proqramından daha aydın və daha çox deyilmişdir. Bizim fəaliyyətimizin əsası öz proqramımızdır". [49]

Çünki həmin dövrdə M.Ə.Rəsulzadə, İ.Aşurbəyov və başqa milli demokratlar Əzizbəyovu seçkilərdə müsəlman türklərinin səsini və birliyini parçalamaqda, eyni zamanda şəhər Dumasına sinfi mübarizə məsələsini gətirməkdə ittiham edirdi. O da, cavab verirdi ki, müsəlmanların səsinin azalması ilə bağlı səslənən fikrin nə bir əsası var, nə də burada millət üçün heç bir təhlükə yoxdur.[50]

---

[47] Resuloğlu M.E. Müsavat Partisinin kuruluşu // Müsavat, Münhen, 1962, №4, s.13
[48] Sovet hakimiyyəti uğrunda alovlu mübariz Məşədi Əzizbəyov. Nitqlər, sənədlər və materiallar. Bakı, Azərnəşr, 1976, s.39
[49] Yenə orada, s.40
[50] Yenə orada, s.41

Bununla da, milli demokratik cərəyana qarşı çıxan, milli istiqlal ideyasını qəbul etməyən Əzizbəyov Azərbaycanın xoşbəxt gələcəyini yalnız Sovet Rusiyasında görmüşdür: "Bütün hakimiyyət sövetlərə! Yaşasın çarizm zəncirini qırmış inqilabi Rusiya proletariatı ilə Azərbaycan zəhmətkeşlərinin inqilabi dostluğu və həmrəyliyi! Azərbaycan zəhmətkeşləri onlara azadlıq vermiş inqilabçı Rusiya xalqına qarşı müharibə etmək istəmirlər. Türk və erməni zəhmətkeşlərinin qardaşlığı və həmrəyliyi var olsun!" [51] Fikrimizcə, o dövrdə, 1918-ci ildə "Kaspi" qəzetində Əzizbəyovla bağlı səsləndirilmiş bir fikir, bu gün də öz aktuallığını əsasən, itirməmişdir: "Məşədi Əzizbəyov bolşevikdir, hakimiyyəti zəbt edənlərdən biridir. O, senzli Dumanın sabiq üzvü və Leninin Qafqazda gələcək canişinidir".[52] Bütün bunlar doğru olsa da, ancaq Lenin xristian erməni Şaumyan olduğu halda, heç vaxt bir müsəlman türkünə, yəni Əzizbəyova Qafqaz canişini vəzifəsini verməzdi və verməmişdir də.

1917-ci ildən Sovet Rusiyası türk-müsəlman bolşevik kimi öz müstəmləkə maraqları naminə, daha çox N.Nərimanova dəstək vermişdi. Rəsulzadənin də təbrincə desək, Nərimanov üçün artıq ümid yeri, çıxış yolu yalnız bolşevik Rusiyası və onun lideri Lenin idi: "O zaman müsəlman sosialistlərin ələmdarı bulunan "Hümmət" firqəsi başda doktor Nəriman olmaq üzrə Azərbaycan muxtariyyətinin ədəvv-canı idi. "Hümmət"ə görə biz milləti fəlakətə çəkir və mən qeyri həqq millət naminə söz söyləyirmişik. Azərbaycan fikri, türklük iddiaları xalqın deyil, bir sıra burjuapərəst "boşboğazlar"ın imiş. Müsəlmanların mənfəəti "qırmızı əmələ bayrağı"nın altına toplanmaq və "Rusiya demokratiyası"ndan ayrılmamaqda imiş". [53]

Bütün hallarda bu dövrdə məhz "Müsavat" və "Türk Ədəmi-Mərkəziyyət"in birləşməsi Azərbaycan xalqının taleyində mühüm rol oynadı. Milli ideologiyaya söykənən bu iki aparıcı partiyanın birləşməsi başqa siyasi qurumları, hərəkatları kölgədə

---

[51] Yenə orada, s.57-58

[52] Qazıyev M.A. Məşədi Əzizbəyov: həyat və fəaliyyəti. Bakı, Azərnəşr, 1976, s.82

[53] Rəsulzadə M.Ə. Əsərləri. IV cild (1917-aprel, 1918). Bakı, «Təhsil», 2014, s.14

qoydu. Xalq arasında böyük nüfuza malik olan şəxsiyyətlərin bir partiyada birləşməsi Azərbaycanın gələcək taleyinə müsbət təsir göstərdi. Bunun nəticəsi olaraq 1917-ci il oktyabrın 22-də keçirlən Bakı Sovetinə seçkilərdə "Müsavat" qələbə qazandı. "Müsavat 25 min seçicidən 10 min nəfərin-yəni bütün seçicilərin 40 faizinin (9617) səsini qazanmışdı, halbuki, özləri üçün əlverişli şəraitdə keçirilən bu seçkilərdə bolşeviklər cəmisi 4 min seçicinin səsini toplaya bilmişdi".[54] Bolşeviklərin lehinə Bakı şəhəri əhalisinin 15,4 faizi səs vermişdi.[55] Seçkilər göstərdi ki, xalq arasında "Müsavat"ın nüfuzu başqa siyasi qüvvələrlə nisbətdə xeyli yüksəkdir: "Müsavat Partiyası 9617, Daşnaksutun 5288, bolşeviklər 3823...".[56]

Bu, yalnız "Müsavat"ın deyil, milli məfkurənin də böyük qələbəsi idi. Bunu, bolşeviklər, sosialistlər, daşnaklar və başqa siyasi qurumlar yaxşı anlayırdılar. Ona görə də bununla razılaşmayan bolşeviklər və daşnaklar seçkilərin nəticələrini ləğv etməyə çalışdılar. R.Xudiyev yazır: "1917-ci ilin noyabrın 2-də Bakı Soveti hakimiyyətini elan etmiş sovetin tərkibinə "Müsavat" Partiyasından 22 deputat daxil edilmişdi".[57] Rəsulzadə Bakı Şəhər Sovetinin iclasında çıxışında deyirdi: "Müsavat Partiyası hökumətin təşkilinə ehtiyatla yanaşır və bütün Qafqazı yandıracaq bir ziddiyyətin yaranmasından çəkinir. Bax belə bir toqquşma təhlükəsinə görə şəhər Sovetinin hökumətinə etiraz etmir".[58]

1917-ci ilin oktyabrın 25-də rus bolşeviklərinin inqilab edərək Rusiyada hakimiyyətə gəlməsini də, ilk dövrlərdə müsavatçılar müsbət qarşılayıblar. M.Ə.Rəsulzadə bunu, belə izah

---

[54] Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920). Bakı: Azərnəşr, 1993, s.31

[55] Беленький А., Манвелов А. Революция 1917 в Азербайджане (хроника событий). Баку: 1927, s.181

[56] Балаев А. Азербайджанское национальное движение в 1917-1918 гг., Баку: Элм, 1990, s.93

[57] Xudiyev R. Türk Ədəmi-Mərkəziyyət Firqəsi-Müsavat // Elm və Həyat, Bakı, 1990, s.2

[58] Ратгаузер А. Революция и гражданская война и Баку, Ч.1. 1917-1918 г., Баку: Красный Восток, 1927, s.123

edir: “Lenin “torpaq köylünün, muxtariyyət də millətlərin” dedi və bununla müvəffəqiyyətini təmin eylədi".[59] Məhz bundan sonra Azərbaycanın muxtariyyəti geniş şəkildə gündəmə gəldi. Bununla bağlı Gəncədə müşavirə də keçirildi. “Açıq söz” qəzetinin yazdığına görə, müşavirədə iştirak edən 48 nümayəndənin 11-i sosialist fraksiyasından idi. "Müsavat" isə 24 nümayəndə ilə təmsil olunub. “Nicat” və “Difai” təşkilatları da "Müsavat" fraksiyası ətrafında birləşmişdilər. [60]

Bu müşavirədə iştirak edənlər Azərbaycan ictimai hərəkatı üçün koalisyon proqram qəbul etmək razılığına gəliblər. “Müsavat” Partiyasının təqdim etdiyi proqram müzakirə edilib. Proqramda M.Ə.Rəsulzadənin irəli sürdüyü kimi, Rusiya federativ dövlət olmaqla muxtariyyətin verilməsi məsələsi qoyulub. Muxtar respublikaların ərazilərini Müəssislər Məclisi müəyyənləşdirməli idi. “Müsavat”ın irəli sürdüyü tələblərə görə, torpaqlar kəndlilərə pulsuz paylanmalı, fəhlələr üçün 8 saatlıq iş günü qoyulmalı idi. Bu tələblər daha çox sosial xarakter daşısa da, sosialistər müşavirəni yarımçıq tərk ediblər. Bunun nəticəsində yeni siyahı tərtib edilib. Bu siyahıya M.Cəfərov, Ə.Topçubaşov, M.Ə.Rəsulzadə, N.Yusifbəyli və başqaları daxil olub. Bu siyahını Gəncə Milli Komitəsi Tiflis Komitəsinə təqdim etməli idi. Bu müşavirə bir çox məsələlərə də aydınlıq gətirib. Məlum olub ki, sosialistlər müsavatçılarla bir yerdə işləmək istəmirlər. Bundan sonra müsavatçılar proseslərə nəzarəti öz əllərində cəmləşdirməyə başlayıblar. Bunun üçün isə onlar ilk növbədə qarşılarına qoyduqları məsələləri dəqiqləşdirməli idilər.

Bu məqsədlə 1917-ci oktyabrın 26-dan 31-nə kimi “Müsavat” Bakıda ilk qurultayını keçirib. Bu qurultayda “Türk Ədəmi-Mərkəziyyət Partiyası-Müsavat” öz proqramını elan etməli və onun ilk bitkin sənədi məhz bu proqram olmalı idi. [61] “Açıq söz”

---

[59] Süleymanova S. Azərbaycanda ictimai-siyasi hərəkat (XIX əsrin sonu, XX əsrin əvvəlləri). Monoqrafiya, Bakı: Azərbaycan Dövlət Kitab Palatası, 1999, s.346

[60] Yenə orada, s.346-347

[61] Azərb. Respublikası DSPİHA: f.276, s.7, iş. 168, v.1

qəzeti bu qurultayı tərkibinə görə bütün müsəlman Şərqində ilk demokratik qurultay adlandırıb. Qurultayda "Müsavat"ın 76 maddədən ibarət proqramı- dövlət quruluşu, milli məsələ, dini, fəhlə, iqtisadi, məhkəmə və digər məsələlər müzakirə edilib. Həmin müddəalardan bəzilərinə toxunmamaq olmur. Birinci maddə də qeyd edilirdi ki, "Rusiyanın dövlət quruluşu milli-məhəlli muxtariyyət olmalı və onlar da xalq cümhuriyyəti şəklində qurulmalıdır".[62] Proqramın 3-cü maddəsində isə göstərilirdi ki, məhəlli-muxtariyyətə Azərbaycan, Türküstan, Qırğızıstan, Başqırdıstan sahib olmalıdır. 32 və 35-ci maddələrdə torpaqların pulsuz kəndlilərə verilməsi nəzərdə tutulurdu. Qurultayın sonunda tələb qoyulub ki, muxtariyyətin verilməsi üçün bütün tədbirlərin keçirilməsini Mərkəzi Komitəyə həvalə etmək, Mərkəzi Müsəlman Komitəsindən Azərbaycanın Müəssislər Məclisini çağırmağı israr etmək lazımdır. Məhz bu dövrdən sonra Azərbaycanda istiqlal mübarizəsinə başlanıb.

O, 1917-ci ilin oktyabrında Bakıda keçirilən "Müsavat"ın I qurultayında həmin partiyaya sədr, az sonra da Qafqaz və Türküstandan Rusiya Müəssisələr Məclisinə millət vəkili seçilib.

1917-ci il oktyabrın 25-də bolşeviklərin Petroqradda hakimiyyəti ələ keçirməsindən sonra, Bakıdakı bolşevik-daşnak ünsürləri daha da fəallaşdı. 1917-ci ilin noyabrın 2-də bolşeviklər öz tərəfdarları ilə "Bakı Sovet"inin iclasını çağıraraq Bakıda Sovet hakimiyyətinin qurulduğunu bəyan etdilər və sədri də erməni mənşəli Stepan Şaumyan oldu.[63] Sovet hakimiyyətini elan etmiş qurumun tərkibinə "Müsavat" Partiyasından 22 deputat daxil edilmişdi. Meneşevik və eserlərdən fərqli olaraq, müsavatçılar başda Rəsulzadə olmaqla ilk dövrlərdə bolşeviklərin hakimiyyətinə ciddi etiraz etmirdilər. Xüsusilə Leninin bütün xalqların öz müqəddəratını təyin edə bilməsi ilə bağlı verdiyi bəyannaməni müsavatçılar müsbət dəyərləndirirdilər. Ona görə də eser-menşevik blokunun Sovetdən birgə çıxmaları ilə bağlı təklifini Müsavat Partiyası

---

[62] Azərb. Respublikası DSPİHA: f.894, s.10, iş.39, v.2

[63] Azərbaycan tarixi. Yeddi cilddə, V cild (1900-1920-ci ilər). Bakı: Elm, 2001, s.289

müzakirə edərək qəbul etmədi.[64] Ancaq 1917-ci ilin dekabrın 12-13-də bolşeviklərlə müsavatçılar arasında münasibətlərin gərginləşməsi ilə Bakı Sovetinə yeni seçkilər keçirildi. Bolşeviklərin iradəsi altında keçirilən seçkilər nəticəsində yeni İcraiyyə Komitəsinə 6 nəfər bolşevik, 5 daşnak, 4 sol eser, 3 sağ eser, 2 müsavatçı daxil oldu. Dekabrın 18-də Lenin Saumyanı Qafqaziya işləri üzrə xüsusi komissar təyin etdi. Bolşeviklərin ikibaşlı oyun oynadığını xüsusilə də, Türküstanda türk-müsəlman əhaliyə qarşı onların qırğın törətmələrinə etiraz olaraq "Müsavat" rəhbərliyi Bakı Sovetindəki deputatlarını geri çağırdılar.

Belə bir mürəkkəb dövrdə, 1917-ci il noyabrın 11-də RSFSR XKS-inə tabe olmaq istəməyən gürcü menşeviklər, türk müsavatçılar, erməni daşnaklar və sağ eserlərin nümayəndələri Tiflisdə keçirdikləri müşavirədə Rusiya bolşevik hökumətinin hakimiyyətini tanımaqdan imtina etdilər və "Müstəqil Zaqafqaziya hökuməti" yaratmaq haqqında qərar qəbul etdilər. Güney Qafqazı idarə etmək üçün noyabrın 15-də Tiflisdə Y.P.Gegeçkorinin sədrlik etdiyi Zaqafqaziya Komissarlığı yaradıldı. Komissarlığın nazirləri arasında üç nəfər azərbaycanlı türk var idi.[65]

1917-ci il dekabrın 5-də Zaqafqaziya Komissarlığı ilə Türkiyə arasında imzalanmış Ərzincan müqaviləsinə əsasən rus qoşunları Qafqaz cəbhəsindən geri çəkilməyə başladı. 1918-ci ilin fevralında Güney Qafqazdan Ümumrusiya Müəssisələr Məclisinə seçilmiş deputatların yığıncağında Zaqafqaziyanın ali hakimiyyəti orqanı olan Zaqafqaziya Seymi (parlamenti) açıldı və bu bölgədə əsas güc mərkəzinə çevrildi. Fevralın 23-də öz işinə başlayan Seymdə əsasən üç partiyanın - Müsavat (Azərbaycan türkləri), Daşnaksutyun (ermənilər) və Sosial-Demokrat (gürcülər) nüma-

---

[64] Yenə orada, s.290

[65] Qasımlı M., Muradova B., Qafarov V. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. 1-2 cildlər. Bakı, Mütərcim, 2018, s.87-88

yəndələri təmsil olunurdular. Seymdəki 44 millət vəkilindən ibarət Azərbaycan milli fraksiyasının rəhbəri M.Ə.Rəsulzadə idi.[66]

Bu dövrdə Türkiyə gürcü və ermənilərin Seymdə apardığı siyasəti qəbul etməyərək onlara qarşı müharibə elan etdi. Müharibə 8 gündən artıq çəkmədi. Türkiyə ordusu aprelin 15-də Batumu tutdular, Qarsı isə mühasirəyə aldılar.[67] Azərbaycan nümayəndələrinin təkidilə Zaqafqaziya Seymi aprel ayının 22-də Zaqafqaziyanın suverenliyini elan etdi.[68] Ancaq Seymdə vəziyyət heç də normal deyildi və ermənilər mürəkkəb vəziyyətdən istifadə edərək müsəlmanlara-türklərə qarşı təxribatlarının miqyasını genişləndirmişdilər. 1918-ci ilin martında erməni daşnakları böyük qardaşları, himayədarları rusların yardımı sayəsində müsəlman türklərin kütləvi şəkildə soyqırımına başladılar. Bununla əlaqədar olaraq Rəsulzadə bolşevik qılıqlı daşnak Stepan Şaumyanın mövqeyini kəskin tənqid edirdi. Çünki 1918-ci ilin mart hadisələri zamanı “Bakının və ətraf rayonların İnqilabi Müdafiə Komitəsinə başçılıq edən Şaumyan”[69] qırğında bilavasitə məsuliyyət daşıyırdı.

Quzey Azərbaycanın milli-məhəlli muxtariyyəti ideyasına qarşı barışmazlıq göstərən "bolşevik" S.Şaumyan 1917-ci ilin dekabrında Leninin imzaladığı “Türkiyə ərazisində Ermənistana muxtariyyət verilməsi” dekretinə də nail olmuşdu.[70] Şaumyan “Bakinski raboçi” qəzetinin 1918-ci ilin 17 fevralında “Vətəndaş Rəsulzadəyə cavab” yazısında isə açıq-aşkar Azərbaycan muxtariyyətini tələb edənləri terrorla hədələmişdir: “Tutaq ki, Rəsulzadənin özü inqilabi qayda-qanunun bərpası naminə milli polkların təşkilində iştirak etsin, tutaq ki, onun obyektiv niyyətləri

---

[66] Балаев А. Азербайджанское национальное движение в 1917-1918 гг., Баку: Элм, 1990, s.130

[67] Yenə orada, s.183

[68] Yenə orada, s.184-185

[69] Большевики в борьбе за победу социалистической революции в Азербайджане. Документы и материалы 1917-1918 гг., Баку: Азернешр, 1957, s.327

[70] Насиров Т. Борьба за власть в Азербайджане (1917-1920). Баку: Азербайджан, 1993, s.22

billur kimi safdır, lakin obyektiv surətdə onun fəaliyyəti əks nəticə verəcəkdir, ona görə ki, sinfin siyasəti bu və ya digər şəxsiyyətin yaxşı niyyətlərindən deyil, sinfi niyyətlərindən irəli gəlir”.[71] Şaumyanın davam etdirdiyi qorxulu, riyakar siyasəti isə Lenin 1918-ci ildə ona göndərdiyi teleqramda müdafiə etmişdi: “Sizin möhkəm və qəti siyasətiniz bizi sevindirir”.[72]

1918-ci il martın 15-də Şaumyan BXKS-nin iclasında bəyan etdi ki, “Bakı Soveti” Güney Qafqazda vətəndaş müharibəsinin başlıca istehkamına çevrilməlidir. Soyqırım ərəfəsində "Daşnaksutyun" Partiyası və Erməni Milli Şurası “Bakı Soveti”nin tərəfinə keçdi. 30-31 martda Bakıda 12 mindən çox Türk-müsəlman əhali rus-erməni hərbi birləşmələri tərəfindən soyqırıma məruz qaldı. Üstəlik, rus-erməni hərbi birləşmələri Quzey Azərbaycanın Şamaxı, Quba, Lənkəran, Kürdəmir, Salyan və başqa qəzalarında da on minlərlə Türk-müsəlman əhalini qətlə yetirdilər. "Uzun müddət menşeviklərə qarşı mübarizə aparan bolşeviklərin menşevik və eserlərlə, hətta kadet və daşnaklarla mart günlərində birləşməsi dini və milli zəmində baş verdi".[73] Maraqlıdır ki, sonralar Sovet tarixşünasları mart soyqırımını ciddi-cəhdlə vətəndaş müharibəsi kimi qələmə verərək, bunun məsuliyyətini “Müsavat” Partiyasının üstünə atırdılar. Ancaq danılmaz faktlar da sübut edir ki, mart hadisələri zamanı rus bolşeviklərlə erməni daşnakları birlikdə Quzey Azərbaycan türklərinə qarşı soyqırım həyata keçiriblər.

1918-ci il 30-31 mart Türk-müsəlman soyqırımından sonra, bolşevik-daşnakların rəhbərlik etdiyi Bakı Soveti aprelin 1-də keçirilən "sülh kofnransı"ndan sonra Bakıda hakimiyyət tamamilə ələ keçirdi. [74] Bakı Soveti erməni (daşnak) və rus (bolşevik) siyasi mətbu orqanları və təşkilatları istisna olmaqla, bütün qəzet və jurnalların, milli şuraların fəaliyyətinə qadağan qoydu. Aprelin 25-də

---

[71] Шаумян С. Ответ гражданину Расулзаде. Газ., «Бакинский Рабочий», Баку, 1918, 17 феврал.

[72] Quliyev C. Lenin və Azərbaycanda sovet hakimiyyətinin qələbəsi və möhkəmlənməsi uğrunda mübarizə. Bakı: Azərnəşr, 1957, s.26.

[73] Azərbaycan tarixi. 7 clilddə, V cild (1900-1920-ci ilər). Bakı: Elm, 2001, s.301

[74] Yenə orada, s.303

S.Şaumyanın sədrliyi ilə Bakı Xalq Komissarları Soveti (BXKS) yaradıldı və onun rəhbərliyinə əsasən erməni daşnakları və rus bolşeviklər daxil idilər. Bu anlamda, sonralar daşnak Ermənistanın liderlərindən Xatisov BXKS-ni "erməni sovet hökuməti" adlandırmışdı. Üstəlik, BXKS özünü Sovet Rusiyasının ayrılmaz tərkib hissəsi hesab edir və Azərbaycana nəinki müsətəqillik, heç muxtariyyətin də verilməsi ideyasını qəbul etmək istəmirdi.

Bu kimi qəbuledilməz hadisələr Zaqafqaziya Federativ Demokratik Respublikasının da dağılmasına səbəb oldu. 26 may 2018-ci ildə Gürcüstan Zaqafqaziya Respublikasının tərkibindən çıxdıqdan sonra, mayın 27-də Türk-müsəlman millət vəkillərinin "Müsəlman" fraksiyasının fövqəladə iclası keçirildi və iclas Quzey Azərbaycanın idarə olunması vəzifəsini öz üzərinə götürərək, Azərbaycan Milli Şurasını elan etdi. Milli Şura Seymdə iştirak edən qırx dörd millət vəkilindən ibarət olduğu üçün, onların yaratdıqları qurumu həm də yeni yaranmış Azərbaycan Cümhuriyyətinin ilk parlamenti kimi də qəbul etmək olar.

Azərbaycan Milli Şurasının ilk toplantısında onun Rəyasət Heyəti və başqan seçildi. Seymdə Azərbaycanı təmsil edən əksər partiyalar – "Müsavat", Müsəlman Sosialist Bloku, Müsəlman Sosial-Demokrat-Menşeviklər və "Hümmət" M.Ə.Rəsulzadənin Milli Şuraya sədr seçilməsinin lehinə səs veriblər.[75] Rəsulzadənin Milli Şuraya başqan seçilməsinə dörd partiyadan yalnız "İttihad" əleyhinə səs verib. Milli Şura öz dövrü üçün ölkənin ən yüksək idarəetmə orqanı olduğu üçün, Rəsulzadə Azərbaycan Cümhuriyyətinin ilk dövlət başçısı, cümhurbaşqanı olub.

[75] Yaqublu N. Məmməd Əmin Rəsulzadə. Bakı: Gənclik, 1991, s.79

*Heç bir zaman bilmədiyim şeydən*
*bilirəm kimi bəhs etmək adətim deyildir!*
**M.Ə.Rəsulzadə**

## 2.2. M. Ə. Rəsulzadənin Azərbaycan Cümhuriyyəti və mühacirət dövrlərində həyatı və yaradıcılığı

Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də dünyaya elan edilən Azərbaycan İstiqlalı Bəyannaməsində deyilirdi: “1. Bu gündən etibarən Azərbaycan xəlqi hakimiyyət həqqinə malik olduğu kibi, Cənubi-Şərqi Zaqafqaziyadan ibarət olan Azərbaycan dəxi kamiləl-hüquq müstəqil bir dövlətdir. 2. Müstəqil Azərbaycan dövlətinin şəkli-idarəsi Xəlq Cümhuriyyəti olaraq təqərrür ediyor…”.[76] Azərbaycan Cümhuriyyətinin varlığı yalnız burada yaşayan türklər üçün deyil, bütün Türk dünyası, müsəlman Şərqi üçün böyük əhəmiyyət kəsb edirdi. Eyni zamanda, bu cümhuriyyətin qurulması çar Rusiyasında baş verən inqilabların nəticəsi deyil, millətin özünün ortaya qoyduğu milli ideyasının qanunauyğun sonluğu idi. Azərbaycan türkləri sübut etdilər ki, yeni dövrdə də demokratik cümhuriyyət qurmağa qadir və layiqdirlər.[77]

Quzey Azərbaycanın istiqlalı mayın 30-da dünya dövlətlərinə bəyan edildikdən sonra Milli Şuranın qərarı ilə Cümhuriyyətin ilk hökumətini təşkil etmək Fətəli xan Xoyskiyə tapşırıldı. Cümhuriyyətin dövlət quruluşu parlamentli respublika idi. Müvəqqəti hökumət ilk gündən öz proqramında elan etmişdir ki, hökumət başlıca olaraq işçi və kəndli kimi əkinçi insanlara istinad etməli və Azərbaycan azadlıq ölkəsi olmalıdır. Bu məsələ ilə bağlı Rəsulzadə yazırdı: “Azərbaycan Cümhuriyyətinin əsas idarəsi bütün vətəndaşlarının bərabər hüquqla yaşaması üzərində qurulmuşdu. Burada hər bir insanın möhtərəm şəxs, Azərbaycan vətəndaşı olduğu üçün hüququ saxlanırdı. Kişi-qadın, müsəlman-xristian, Türk-türk olmayan, cins və milliyyət fərqi qoymadan varlı-kasıb,

[76] Azərbaycan Respublikası Dövlət Arxivi: f.894, s.10, iş. 12, v.1-2
[77] Azərbaycan tarixi. 7 clilddə, V cild (1900-1920-ci ilər). Bakı: Elm, 2001, s.317

sahibkar-işçi, torpaq sahibi-muzdur, öyrətmən-tələbə, möhtərəm-cahil, sinif, məslək, təbəqə, rütbə, vəzifə, nəsil, bilgi imtiyazı aramadan bütün vətəndaşlar girmək haqqına da sahib idilər. Burada bir sinif digər sinfə hakim deyildi. İnsan nə varına görə haqlı, nə də yoxsulluğuna görə haqsız görünürdü”.[78] Azərbaycan Cümhuriyyəti dövründə insan hüquq və haqlarının qorunmasına da xüsusi diqqət yetirilirdi.[79]

Çox mürəkkəb bir dövrdə azadlığa qovuşan Quzey Azərbaycanın milli hökuməti yenicə yaranmış dövlətin dayaqlarını möhkəmlətmək üçün Osmanlı ilə 4 iyunda hərbi müqavilə bağldı. Müqaviləni Azərbaycan tərəfindən Milli Şuranın sədri M.Ə.Rəsulzadə, xarici işlər naziri M.H.Hacınski, Türkiyə tərəfindən isə xarici işlər naziri Xəlil bəy və Qafqaz cəbhəsinin baş komandanı Vehib paşa imzaladılar. Həmin müqavilə əsasında Nuru Paşanının başçılığı ilə Qafqaz İslam Ordusu Azərbaycana yardıma göndərildi. "Batumda haziranda (iyun) dövlət əleyh namına ədliyyə naziri və birinci mürəxxəs Xəlil bəy ilə Şərq orduları komandanı və ikinci mürəxxəs Vəhib paşa həzrətləri Azərbaycan namına Şurayi-Milli rəisi Rəsulzadə Məhəmməd Əmin və xariciyyə naziri Məhəmməd Həsən bəylər tərəfindən bir müxadinət əhdnaməsi imza edildi. Bu müxadinətin 4-cü maddəsinə binaən məmləkətin əmniyyət və asayişini iadə etmək üzrə Azərbaycan Cümhuriyyəti Türkiyədən müavinəti-əsgəriyyə istəmək həqqinə caiz idi".[80]

Ancaq Gəncədə Nuru paşa ilə Azərbaycan hökuməti arasında narazılığın yaranması böhrana səbəb oldu. “Belə bir tarixi-siyasi və hərbi şəraitdə Nuru paşanın müşaviri, əslən azərbaycanlı, XX əsrin görkəmli fikir və siyasət adamı Əhməd bəy Ağaoğlunun vasitəçiliyi ilə aparılan gərgin danışıqlardan sonra Milli Şuranın buraxılması və bütün hakimiyyətin Fətəli Xan Xoyskinin rəhbərliyi ilə

[78] Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991, s.40
[79] Azərbaycan Cümhuriyyəti (1919-1920). Bakı: Elm, 1998, s.145
[80] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, s.39

yenidən təşkil edilən Müvəqqəti Milli Hökumətə verilməsi şərti ilə müvafiq razılığa gəlmək mümkün olur”.[81]

1918-ci ilin iyunun 17-də F.Xoyskinin başçılığı ilə Gəncədə yaranan 2-ci hökumət iyunda milli dövlət bayrağı (24 iyun), milli ordunun yaranması (26 iyun), Türk dilinin dövlət dili olması (27 iyun) kimi ümummilli məsələlərlə bağlı qərarlar qəbul etdi.

Cümhuriyyətin yaranışının ilk dövrlərində bəzi daxili ziddiyyətlər mövcud idi. İlk vaxtlarda “… Nuru paşa Azərbaycanın Milli Şurasına və hökumətinə etimadsızlıq göstərərək onlara şübhə ilə yanaşır. Azərbaycanın müstəqilliyi “olum və ya ölüm” dilemması qarşısında qalır. Belə bir tarixi-siyasi və hərbi şəraitdə Nuru paşanın müşaviri, əslən azərbaycanlı, XX əsrin görkəmli fikir və siyasət adamı Əhməd bəy Ağaoğlunun vasitəçiliyi ilə aparılan gərgin danışıqlardan sonra Milli Şuranın buraxılması və bütün hakimiyyətin Fətəli Xan Xoyskinin rəhbərliyi ilə yenidən təşkil edilən Müvəqqəti Milli Hökumətə verilməsi şərti ilə müvafiq razılığa gəlmək mümkün olur”.[82] Rəsulzadə isə vəziyyətdən çıxış yolu axtarırdı: “Bu gün firqə ehtiraslarını, şəxsi qərəzləri və bütün bu kimi vətən və millət qayəsi qarşısında səqit qalan qərəzlər atılmalı, vətən qayğısı millət duyğusu hər şeydən yüksək tutulmalıdır”.[83] Bu ideyaları irəli sürən və onun gerçəkləşməsi yolunda milli istiqlal savaşına, milli qurtuluş mücadiləsinə başçılıq edənlər Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ə.Topçubaşov, M.Ə.Rəsulzadə və başqaları idi. [84]

Qafqaz İslam Ordusunun komandanlığı ilə yaşanan problem aradan qaldırıldıqdan sonra Nuru paşanın başçılığı ilə birləşmiş Türk-Azərbaycan, yəni Turan ordusu Azərbaycan torpaqlarında, Azərbaycan əsgərləri ilə birlikdə rus-erməni hərbi birləşmələrinin məhv edilməsində çox mühüm rol oynadı. Məqsəd hər cür vasitə

---

[81] Mərdanov M.C; Quliyev Ə.Q. Azərbaycan Respublikasının dövlət rəmzləri. Bakı: Çaşıoğlu, 2001, s.49
[82] Yenə orada, s.49
[83] Yenə orada, s.57
[84] Yenə orada, s.69

ilə Azərbaycan adlı bir ölkənin varlığını sübut etmək və bunu, dünya ictimaiyyətinin diqqətinə çatdırmaqdan ibarət idi.

1918-ci ilin iyunun 17-də İstanbulda keçirilən beynəlxalq konfransda iştirak edən Azərbaycan nümayəndə heyətinin rəhbəri Rəsulzadə İstanbuldan yazdığı məktublarda narahatlıqla bildirirdi ki, "nəyin bahasına olursa-olsun Bakını tutmaq lazımdır". [85] Bakı düşmənlərin – daşnak və bolşeviklərin əlində olduğu bir zamanda ölkənin xarici siyasətini düzənli şəkildə aparmaq problemlər yaradırdı. Rəsulzadə bu problemlərlə bağlı qəti və kəskin mövqeyini belə ifadə edirdi: "Bakısız Azərbaycan- başsız bədəndir".[86] Bu vaxt Bakıda ermənilərdən, ingilislərdən, ruslardan ibarət silahlı qüvvələr vardı. 1918-ci ilin iyul-avqust aylarında Bakıda eser-daşnak-menşevik ittifaqı əsasında "Sentrokaspi və Sovetin Müvəqqəti İcariyyə Komitəsinin Rəyasət Heyəti Diktaturası" adlı mürtəce hökumət də təşkil olunmuşdu. N.Yaqublu yazır: "Alınan məlumatlardan aydın olurdu ki, onlar şəhəri döyüşsüz verməyəcəklər. Sentyabrın 14-dən 15-nə keçən gecə Türk qoşunları sürətli hücumla Bakıya girdilər. Düşmən təslim oldu. Bakı xain qüvvələrdən xilas olundu. Gecə saat üçdə başlanan bu əməliyyat qısa bir vaxtda türklərin qələbəsi ilə qurtardı. Sentyabrın 15-i günü Qafqaz Müsəlman ordusunun komandanı general-leytenant Nuru Paşa Gəncəyə - Azad Azərbaycan hökumətinin başçılarına xoş xəbərli teleqram göndərdi".[87] Sentyabrın 17-də Azərbaycan Cümhuriyyətinin milli hökuməti Gəncədən Bakıya köçürüldü.

1918-ci il sentyabrın 23-də Tələt paşa ilə Almaniya arasında gizli protokol imzalandı. Həmin protokola əsasən, "Türkiyə qoşunları Azərbaycandan çıxır, Almaniya isə Azərbaycanın istiqlalını Rusiya tərəfindən tanınmasını təmin edirdi. Lakin sonrakı vəziyyət Almaniyanı bu prosesi təmin etməsinə imkan yaratmadı. Məlum oldu ki, Almaniya, Avstriya-Macarıstan və Osmanlı dövləti ilə Bolqarıstan məğlub olmuş, hadisələrin istiqaməti dəyişmiş

[85] Azərb. Respublikası DSPİHA: f.277, s.2, iş.1, v.37
[86] Rəsulzadə M.Ə. Stalinlə ixtilal xatirələri. Bakı: Elm, 1991, s.43
[87] Yaqublu N. Məmməd Əmin Rəsulzadə. Bakı: Gənclik, 1991, s.88

və Azərbaycan üçün yeni bir imtahan dövrü başlamışdı”.[88] 1918-ci il oktyabrın 30-da Lemnos adasının Mudros limanında imzalanan müqavilənin 11-ci maddəsində göstərilirdi ki, Osmanlı dövləti Qafqazda və Cənubi Azərbaycanda olan ordularını geri çağırmalıdır. Bu müqaviləyə görə Güney Qafqaz Böyük Britaniyanın nüfuz dairəsi elan olunur və Bakıya ingilis qoşunları yeridilirdi. “Meydana gələn yeni vəziyyətlə əlaqədar olaraq Azərbaycan hökumətinin nümayəndələri İranda olan və müttəfiqləri təmsil edən ingilis general Tomson ilə vəziyyəti aydınlaşdırmaq üçün Ənzəlidə görüşsələr də, o, Azərbaycan adında bir hökumət tanımadığını söylədi və danışıq aparmağa razılıq vermədi. Bu hadisə Azərbaycanın siyasi tarixində yeni bir dövrün başlanğıcı oldu”.[89]

1918-ci il noyabrında ingilislərn Bakıya daxil olması ərəfəsində Azərbaycan Milli Şurası fəaliyyətini bərpa edərək Azərbaycan Parlamentinin yaradılması ilə bağlı qanun qəbul etdi. Bu qanuna görə, hazırda “Ümumazərbaycan Müəssisələr Məclisini çağırmaq mümkün olmadığından qərara alındı ki, Milli Şura dövlət qanunvericilik orqanına - Azərbaycan Parlamentinə çevrilsin”.[90] Eyni zamanda, həmin qanuna görə, ölkə əhalsinin milli tərkibinə müvafiq olaraq Azərbaycanda yaşayan bütün millətlərin nümayəndələri daxil olmaqla, parlamentdə 120 millət vəkili təmsil olunmalı idi. Noyabrın 29-da Milli Şura "Bütün Azərbaycan əhalsinə" adlı müraciət yaydı: "Bu ayın 19-da qəbul etdiyi qanunnaməyə görə Şurayi-Milli dekabrın 3-nə qədər 120 əzalıq bir Məclisi-Məbusan halına gələcəkdir. Bu məclisə azlıqda qalan millətlərdən nümayəndələr cəlb olunduğu kimi, məmləkətin vilayətlərindən də vəkillər çağırılmışdır. Bu surətlə yığılacaq məbusan irəlidə ümumi intixab üsulu ilə Azərbaycan Məclisi Müəssisanı

[88] Mehmmetzade M.B. İstiklalın diplomatik cebhesi // Azerbaycan, Ankara, 1955, №12 (36), s.17-18
[89] Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992, s.246
[90] Məmmədov İ. Azərbaycan tarixi. Dərslik, Bakı, Adiloğlu, 2005, s.347

yığışıncaya qədər yurdumuzun sahibi olacaq, onun müqəddəratını həll, hökumətini təşkil və mənafeyini müdafiə edəcək".[91]

Qeyd edək ki, erməni daşnakları, rus bolşevikləri və başqa siyasi, ictimai qruplar bütün vasitələrlə general Tomsona təsir edərək ya Azərbaycan parlamentinin reallaşmasına imkan vermək istəmir, ya da onların da maraqlarının burada da təmin olunması tələblərini irəli sürürdülər. “Parlamentə Azərbaycanda yaşayan milli azlıqların nümayəndələri də daxil edilməli idi və yalnız bu şərtlərə əməl edildikdən sonra parlamentin çağırılmasına icazə verilirdi. Sonrakı danışıqlar üçün Milli Şuranın M.Ə.Rəsulzadə, M.Y.Cəfərov və Ə.C.Pepinovdan ibarət nümayəndə heyəti seçildi”.[92] Beləliklə, bu dövrdə müstəqil Azərbaycan dövlət quruculuğu prosesində ilk uğurlu addımlardan biri də böyük tərkibli Azərbaycan Parlamentinin yaradılması oldu.[93] [94]

1918-ci il dekabrın 7-də H.Z.Tağıyevin Nəcib Qızlar Gimnaziyasını binasında Azərbaycan parlamentinin ilk təsis iclası oldu. İclası giriş sözü ilə açan Azərbaycan Milli Şurasını sədri, dövlət başçısı M.Ə.Rəsulzadə "bir kərə yüksələn bayraq, bir daha enməz" şüuarını səsləndirdi.[95] Parlamentin ilk iclasında bitərəf Ə.M.Topçubaşov parlamentin sədri, "Müsavat"ın üzvü H.b.Ağayev isə onun müavini seçildi. Parlamentin ilk iclasında F.Xoyski Müvəqqəti hökumətin istefa verdiyini və hakimiyyətin bütövlükdə, parlamentə verildiyini bəyan etdi. Üçüncü hökumətin təşkil edilməsi də F.Xoyskiyə həvalə olundu və 1918-ci il dekabrın 26-da yeni hökumət kabinəsinin tərkibi elan edildi. Bu arada, general Tomsonla danışıqlar aparan Azərbaycan hökuməti sonda istəyinə çatdı və general Tomson onu yeganə qanini hökumət kimi tanıdı.[96] Parlamentin rəhbərliyi seçildikdən sonra Milli hökumətin başçısı Fətəli Xan Xoyski çıxış etdi: “Bu gün böylə böyük və

---

[91] Azərbaycan Respublikası Dövlət Arxivi: f.895, s.3, iş. 187, v.1-2
[92] Əfəndiyev E. Məmməd Əmin Rəsulzadə (oçerk). Bakı: Şərq-Qərb, 1994,s.16
[93] «Азербайджан» газ., Баку, 1918, декабр, №54.
[94] Azərb. Respublikası DSPİHA: f.895,s.3,iş.187,v.1-2
[95] Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. Bakı: Elm, 1990, s.92
[96] Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992, s.247-248

mübarək gündür ki, bunu biz azərbaycanlılar yuxumuzda da görə bilməzdik”.[97]

Parlamentin komissiyalarının təşkilinə 1918-ci ilin 15 dekabrında keçirilən üçüncü iclasında baxılmışdı.[98] Parlamentin işində 10 fraksiya iştirak edirdi ki, bu fraksiyalar arasında üstünlük “Müsavat”ın əlində idi. Parlamentdə “Bitərəflər”, “Əhrar”, “İttihad, “Hümmət” və Müsəlman Sosialist blokunun üzvlərindən ibarət olan sosialistlər fraksiyası, erməni icması və "Milli azlıqlar" fraksiyalarının nümayəndələri var idi. Azərbaycan parlamenti fəaliyyət göstərdiyi 17 ay müddətində 270-dən çox qanun layihəsini müzakirəyə çıxararaq, 230-a yaxın qanun qəbul etmişdir. Bu qanunlar arasında ən mühümləri - "Azərbaycan Cümhuriyyətinin Müəssisələr Məclisinə seçkilər haqqında Əsasnaməsi", "Azərbaycan vətəndaşlığı haqqında qanun", "Mətbuat haqqında nizamnamə", bələdiyyələrin yaradılması, təhsilin inkişafı, Xəzər Dəniz Gəmiçiliyinin, Dövlət sərhəd qoşunlarının yaradılmasıdır.

Parlamentin yaranması Azərbaycan üçün çox böyük bir hadisə oldu. Bu, Azərbaycan xalqının demokratik rejimdə, ədalətli bir quruluşda yaşamasını istəməsinin ən bariz nümunəsi idi. Əslində Azərbaycanın müstəqilliyini bəyan edən Milli Şura kiçik parlament olub, onun da başçısı Rəsulzadə idi. Bu baxımdan Rəsulzadənin sədri olduğu Milli Şura öz dövrü üçün ölkənin ən yüksək idarəetmə orqanı rolunu oynayıb. Kiçik parlament böyük parlamentə çevildikdən sonra da Rəsulzadə yalnlız millət vəkili, “Müsavat” fraksiyasının lideri deyil, eyni zaamnda dövlət başçısı sifəti ilə də fəaliyyətinə davam etmişdir. “… parlament dövrü Rəsulzadənin tərcümeyi-halında xüsusi yer tutur. Onun parlamenti ən mürəkkəb vəziyyətlərdən çıxara bilmək bacarığı, ən vacib məsələlər ətrafında müzakirə apara bilmək qabiliyyəti, rəhbərlik etdiyi “Müsavat” fraksiyası adından təqdim etdiyi qərar

---

[97] Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti (1918-1920). Bakı: Gənclik, 1990, s.7

[98] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). 1 c., Bakı: Azərbaycan, 1998, s.94

və qətnamələri olduğu şəkildə qəbul etdirə bilmək məharəti indi də adamı heyran qoyur”. [99] Respublikanın birinci ildönümü münasibəti ilə bağlı çıxışında Rəsulzadəni "sağlar" və "sollar" da hərarətlə qarşılayıblar.[100]

Nəsib bəy Yusifbəylinin başçılığı ilə sayca dördüncü hökumət 1919-cu ilin aprelin 14-də fəaliyyətə başladı. Yeni hökumətin proqramına Azərbaycanın dövlət müstəqillyinin dünyanın aparıcı ölkələri tərəfindən tanıdılması, ölkənin ərazi bütövlüyünün təmin olunması, qonşu dövlətlərlə əməkdaşlıqların yaradılması, milli təhlükəsizliyin gücləndirilməsi, ordunun inkişafı, təhsil müəssisələrinin yaradılması daxil idi.

Qafqazda yeni yaranan Azərbaycan və Gürcüstan dövlətləri Birinci Dünya müharibəsinin qalibləri Antanta adı altında birləşən Qərbin hegemon dövlətlərinə özlərinə qəbul etdirmiş və de-fakto tanınmışdılar. Bununla bağlı Paris sülh konfransında iştirak edən Azərbaycan nümayəndə heyətinin əməyini xüsusi qiymətləndirmək lazımdır. “Hələ 1918-ci ilin sentyabrında Türkiyəyə-İstanbula gələn Əlimərdan bəy Topçubaşov Azərbaycanın mövcudluğu, əhalisinin sayı, tərkibi, hazırkı durumu, milli müstəqilliyini elan etməsi ilə bağlı memorandumu müxtəlif dövlətlərin buradakı nümayəndələrinə təqdim etmişdi”. [101] Ə.Topçubaşovun başçılıq etdiyi nümayəndə heyəti bir müddət İstanbulda qaldıqdan sonra Versala yola düşmüşdü. Versal sülh konfransında başlıca olaraq Almaniya ilə sülh nizamlanması nəzərdə tutulsa da, əvvəldən böyük dövlətlərin liderləri “rus məsələsini” müzakirəyə başladılar.[102] Topçubaşovun istər Versaldan göndərdiyi məktublardan, istərsə də hələ İstanbulda ayrı-ayrı dövlətlərin nümayəndələri ilə keçirdiyi görüşlərdən aydın olurdu ki, Azərbaycanın müstəqil bir dövlət

[99] Əfəndiyev E. Məmməd Əmin Rəsulzadə (oçerk). Bakı: Şərq-Qərb, 1994, s.17
[100] «Азербайджан» газ., Баку, 1919, май, №111.
[101] Топчибашев Е.М. Меморандум. Баку: Азербайджан, 1993, s.76
[102]Международние отношение на Дальном Востоке. Москва: Мысль, 1973, s.15

kimi tanıdılması çox mürəkkəb və çətin olmuşdu. [103] Müttəfiq dövlətlərin Ali Şurasının 1920-ci ilmin yanvarın 11-də keçirilən iclasında Azərbaycan de-fakto tanındı. [104] Rəsulzadə bu münasibətlə yazır: “Cümhuriyyətlərin dövlətlər tərəfindən tanınması qafqasiyalı xalq kütlələrində böyük bir sevinc doğurdu. Azərbaycan ilə Gürcüstanda xalq günlərlə şadlıq nümayişləri keçirdi”. [105]

Bakı Dövlət Universitetinin yaranmasında da Rəsulzadənin danılmaz xidmətləri var. Bu məsələ ətrafında o, bir neçə dəfə Azərbaycan parlamentində çıxış etmiş və universitetin açılmasını qəti surətdə tələb etmişdir. Universitetin ilk rektoru olmuş V.İ.Razumovski xatirələrində yazır: “M.Ə.Rəsulzadənin sayəsində, onun gücü, maarifçilik köməyi ilə "Müsavat" Partiyasında universitetin açıq və gizli düşmənləri partiyanın qərarına tabe olmağa məcbur olmuşlar, biz öz tərəfimizdə artıq iki partiyaya malik idik, “Müsavat” və sosialistlər, bu da parlamentdə çoxluğu təmin edirdi”.[106]

Azərbaycanın müstəqilliyi Antanta tərəfindən tanındığı bir zaman başının üstünü Sovet Rusiyası təhlükəsi alırdı. 1920-ci ilin yanvarın 2-də RSFSR xarici işlər komissarı G.V.Çiçerin Azərbaycan xarici işlər naziri F.Xoyskiyə ilk nota göndərərək, Denikinə qarşı müharibəyə qoşulmağı tələb etdi. Xoyski yanvarın 14-də cavab notası göndərərək bildirdi ki, vətəndaş müharibəsi Rusiyanın daxili işidir. Yanvarın 19-da "Antanta"nın Azərbaycana ordu yox, yalnız hərbi sursat yardımı etmək haqqında qərarı ilə bağlı məlumatı əldə edən Rusiya Azərbaycana qarşı diplomatik təzyiqləri gücləndirdi. Yanvarnı 23-də Azərbaycana ikinci nota göndərən Çiçerin bildirirdi ki, Azərbaycanın Rusiyanın daxili işinə qarışma-

[103] Топчибашев Е.М. Дипломатические беседы в Стамбуле (1918-1919). Баку: Эргюн, 1994, s.17

[104] Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920). Bakı: Azərnəşr, 1993, s.320

[105] Resulzade M.E. Azerbaycan devletinin büyük devletler tarafından tanınması // Azerbaycan, Ankara, 1995, s.3

[106] Razumovski V.İ. Bakı şəhərində universitetin əsasının qoyulması. Bakı: Bakı Dövlət Universitetinin xəbərləri, 1922.

ması Denikinə qarşı mübarizədən imtina etmək deməkdir. Xoyski isə cavabında deyirdi ki, Rusiya Azərbaycanın müstəqilliyini tanıdıqdan sonra bu məsələlərə rəsmi Bakı baxa bilər. Əslində Rusiyanın 1920-ci ilin martınadək Azərbaycana göndərdiyi notalar ona qarşı hazırlanan müdaxiləni pərdələmək məqsədi güdürdü.

Sovet Rusiyası Azərbaycana hərbi müdaxilə etmək üçün ölkə daxilində "beşinci kolon"un – yerli bolşeviklərin güclənməsinə diqqəti artırırdı. Çox yazıqlar ki, azsaylı azərbaycanlı-türk bolşeviklər də Azərbaycan Cümhuriyyətinin Sovet Rusiyası tərəfindən işğalında yaxından iştirak etdilər. 1919-cu ilin sonlarına qədər ayrı-ayrılıqda fəaliyyət göstərərək xalq arasında ciddi nüfuza malik olmayan eserlər, bolşeviklər, menşeviklər ruslar tərəfindən bir araya gətirildi. 1920-ci ilin fevralın 11-12-də Bakıda RK(b)P-nin Bakı Komitəsi, "Hümmət", "Ədalət" və başqa sol yönlü təşkilatlar I qurultay keçirərək Azərbaycan Kommunist Partiyası (AKP) adı altında birləşdilər. Sovet Rusiyasının siyasətinin daşıyıcısı olan AK(b)P "Azərbaycanda dövlət çevrilişi xəttini əsas götürdü. Yerli bolşeviklər milli hökumətə qarşı fəal təbliğat aparırdılar. Ancaq aydın idi ki, Azərbaycan kommunistləri öz qüvvələri ilə dövlət çevirilişi etmək iqtidarında deyildilər. Onlar daha çox Rusiyanın təcavüzünə ümid bəsləyirdilər".[107]

1920-ci ilin aprelin 1-də Yusifbəylinin başçılıq etdiyi hökumət istefa verdi və yeni hökumətin təşkili M.H.Hacınskiyə tapşırıldı. Hacınski kommunistlər də daxil olmaqla sol qüvvələrdən ibarət koalsiyon hökumət yaratmaq istəsə də, bolşeviklər bundan imtina etdi. Yeni hökuməti yarada bilməyən və hökumətin təşkili üçün əsas vaxt itirdikdən sonra, aprelin 22-də bu barədə Hacınski parlamentə məlumat verdi. Sovet Rusiyası Cümhuriyyəti devirmək üçün diplomatik təzyiqlərlə yanaşı, yerli bolşeviklərlə erməni daşnaklarından və Türkiyəyə yardım bəhanəsindən istifadə etdi. AK(b)P-ni birmənalı şəkildə öz əlində saxlayan Sovet Rusiyası martın ortalarında ermənilərin əli ilə Qarabağda yerli türklərin qır-

[107] Məmmədov İ. Azərbaycan tarixi. Dərslik, Bakı, Adiloğlu, 2005, s.350

ğınına rəvac verdi. Martın 22-də Moskvanın razılığı ilə erməni quldur hərbi dəstələri Xankəndində yerləşən qarnizona, Qazax və Gəncə qəzalarına basqın etdilər. Azərbaycan hökuməti məcbur qalıb milli ordunu təcili Dağıstan sərhədindən və Bakıdan Qarabağda baş verən erməni qiyamını yatırmağa yönəltdi. Bununla da cümhuriyyətin şimal sərhədi müdafiəsiz qaldı.

Sovet Rusiyası təbliğat vasitəsilə Ankaranı da inandıra bildi ki, XI Qırrmızı ordu Bakıdan keçərək "Antanta"ya qarşı vuruşan Türkiyənin yardımına gedəcək. XI Qırmızı ordunun tərkibindəki müsəlman hissələrinə Xəlil paşa və başqa Türk zabitləri rəhbərlik edirdilər. Qafqaz cəbhəsi İnqilabi Şurası S.Q.Orconikidzenin başçılığı ilə 21 və 23 aprel tarixində XI Qırrmızı orduya aprelin 27-də Azərbaycan Cümhuriyyətinin sərhədini keçib bütün ərazini tutmaq əmrini vermişdi. Həmin əmrə əsasən də aprelin 26-dan 27-nə keçən gecə Levandovskinin başçılığı ilə XI Qırmızı ordu hissələri Quzey Azərbaycanın Yalama-Xaçmaz tərəfdən dövlət sərhədlərini keçmişdi. Bu o demək idi ki, Azərbaycan Cümhuriyyəti 27 aprel tarixində işğala məruz qalmış, XI ordu aprelin 28-də isə zirehli qatarla Bakıya daxil olmuşdur. N.Yaqublu yazır: “Beləliklə, bolşeviklər məhz 28 Apreli Azərbaycanda Sovet hakimiyyətinin yaradılması günü elan edərək “28 Aprel inqilabı” olaraq dünya ictimaiyyətinə yaydılar. Yəni 27 aprel işğalı yox, yalan və saxta bir təqvim yaratdılar – 28 Aprel inqilabı”.[108]

Sovet Rusiyasının XI ordusu dövlət sərhədlərini pozub Bakıya üz tutmasından maksimim yaralanmağa çalışan Azərbaycan Türk bolşevikləri RKP (b) Qafqaz Diyarı Komitəsinin Bakı bürosu və AK(b)P adından hakimiyyəti təhvil vermək haqqında parlamentə ultimatum vermişdi. M.Ə.Rəsulzadə və bir neçə millət vəkilinin kəskin şəkildə etirazlarına baxmayaraq, Parlament aprelin 27-də keçirilən son iclasında səs çoxluğu ilə hakimiyyətin Azərbaycan Türk kommunistlərinə verilməsi şərtilə 6 maddədən ibarət qərar qəbul etdi. Bu qərarda deyilirdi ki, milli hökumət

---

[108] Yaqublu N. Azərbaycan Milli Azadlıq Hərəkatı Ensiklopediyası, Bakı, Qanun nəşr. 2018, s.17-18

Azərbaycan Cümhuriyyətinin tam müstəqilliyinin qorunub saxlanılması, yeni yaranan hökumətin müvəqqəti orqan olması, hökumət idarələrindəki köhnə qulluqçuların tutduğu vəzifələrində qalması, hökumət və parlament üzvlərinin həyat və mülkiyyətlərinin toxunulmazlığının təmin edilməsi, Milli ordunun saxlanılması, siyasi partiyaların sərbəst şəkildə fəaliyyət göstərməsi, XI ordunun dəmiryolu ilə birbaşa Türkiyənin yardımına getməsi şərtlərlə hakimiyyəti Azərbaycan Türk bolşeviklərinə təslim edir.

27 aprel faciəsindən sonra 1920-ci ilin avqustun 17-də Lahıcda həbsə alınıb Bakıya gətirlən Rəsulzadənin tutulması xəbəri həmin ilin noyabrında Stalinə çatdırılıb. M.Əliyev yazır: "Stalin heç kəsə xəbər vermədən Bakıya gələrək, XI Ordunun xüsusi şöbəsinin rəisi V.Pankratova RSFSR-in Millətlər Komissarlığı adından göstəriş verdi və özü şəxsən həbsxanaya gedib M.Ə.Rəsulzadəni azad etdi. Bununla, İ.V.Stalin 1905-ci ildə onu ölümdən qurtaran keçmiş inqilabçı dostu Rəsulzadənin qarşısında öz tarixi vicdan borcunu yerinə yetirdi. O, Rəsulzadəni özü ilə birlikdə Moskvaya apardı və RSFSR Millətlər Komissarlığında mətbuat müvəkkili vəzifəsinə təyin etdi. M.Ə.Rəsulzadə RSFSR Millətlər Komissarlığına tabe olan Moskva Şərqşünaslıq (keçmiş Lazarev) institutunda fars dilində dəsr demişdir... Onun oradan Moskvadan rəhmətlik tatar maarifçilərindən Musa Cərullah Bigiyevin müyəssər yardımı ilə qayıqla Fin körfəzi üzərindən keçərək Finlandiyaya qaçırılması təmin edilmişdir".[109]

M.Ə.Rəsulzadənin ailəsi sovet rejiminin qurbanı oldu. "Oğlu Rəsul güllələndikdən sonra M.Ə.Rəsulzadənin bütün ailəsini, əksər qohumlarını Qazaxıstana sürgünə göndərdilər. Sürgündə Rəsulzadənin analığı, həyat yoldaşı vəfat etdi. Bir qızı Lətifə soyuqdan donub öldü. Digər qızı Xalidə isə Bakıya qayıtdıqdan sonra itkin düşdü. Yeganə sağ qalan oğlu Azər isə 1993-cü ildə Qazaxıstanda- Karaqandada vəfat etdi".[110]

---

[109] Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991, s.12-13

[110] Yaqublu N. Azərbaycan milli istiqlal mübarizəsi və M.Ə.Rəsulzadə. Bakı: 2001, s.77

M.Sadıxlı Rəsulzadənin ailəsinin həbsi haqqında erməni R.Makaryanın belə bir sənəd tərtib etdiyini yazır: "Azərbaycan SSR Xalq Daxili İşlər Komissarı DT-nin 3 ranq komissarı Sumbatov -Topuridze Yuveoyan Davidoviçə DT-nin 7-ci bölmənin rəisi baş leytenant Makaryandan təqdimat: "M.Ə.Rəsulzadənin və M.Ə.Rəsuloğlunun həbs olunmuş ailələri Bayıl həbsxanalarına salınıblar. İndiki halda şərait daxilində onların deyilən həbsxanada qalmasını arzuedilməz sayıram və xahiş edirəm ki, siyahıda adı olanların (siyahı əlavə olunur) Kirovabad həbsxanalarından birinə göndərilməsinə icazə verəsiniz. Onlar oradan Qazaxıstan SSR-in Çimkənd vilayətinə göndəriləcək və orada, xüsusən M.Ə.Rəsulzadənin ailəsi ciddi nəzarətdə saxlanılmalıdır. Bununla əlaqədar Qazaxstan SSR-in XDİK-ni, DT-nin əməkdaşlarına məlumatlandırmağı lazım bilirəm".[111]

1922-ci ilin sonlarında Rəsulzadə Sovet Rusiyasının əsarətdən qaçıb İstanbula gələndə, burada Azərbaycandan gələn mühacirlər arasında bir dağınıqlıq vardı, hətta mühacirlər arasındakı fikir ayrılığı nəticəsində konsulluq bağlanmışdı. Onun rəhbərliyi ilə əvvəlcə Müsavatın xarici Bürosu təşkil olundu.

O, 1924-cü ildə İstanbulda fəaliyyət göstərən Azərbaycan Milli Mərkəzini yaratdı. Mühacirət dövründə də yalnız "Müsavat"ın azərbaycançılıq, istiqlalçılıq, türkçülük və cümhuriyyətçilik prinsiplərinə sadiq qaldığını qeyd edən Mirzə Bala yazırdı ki, M.Ə.Rəsulzadə İstanbula gələnə qədər Azərbaycan istiqlal dövrünün keçici və təsadüfi bir hadisə olduğu qənaətinə hər yerdə təsadüf olunurdu. Rəsulzadənin açdığı milli dava, xüsusilə onun bu yöndə yazdığı "Azərbaycan Cümhuriyyəti" əsəri yenidən bütün dünyanı Azərbaycandan bəhs etməyə məcbur etmişdi.[112]

Azərbaycan mühacirləri Avropada fəaliyyət göstərmək məqsədilə 1924-cü ildə Azərbaycan İstiqlal Komitəsini də təsis etdilər. Mühacirlər müstəqillik ideyalarını yaymaq üçün Rəsulzadə-

---

[111] Садыхлы М. Трагедия семи Расулзаде // Литературный Азербайджан, Баку, 1994, s.71

[112] Məhəmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992, s.181

nin başçılığı ilə Türkiyədə müxtəlif vaxtlarda "Yeni Qafqaziya" (1923-1925), "Azəri-Türk" (1928), "Odlu Yurd" (1929-1931), məcmuələrini nəşr etdirmişdilər. 1923-25-ci illərdə İstanbulda Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti", "Əsrimizin Səyavuşu", "İstiqlal məfkurəsi və gənclik" əsərləri çap olundu. Onun "Azərbaycan Cümhuriyyəti" kitabı Sovet Rusiyasında geniş rezonansa səbəb oldu. Stalin 1923-cü ilin sentyabrında Azərbaycandakı kommunistlərə "R.Zadənin mürtəce kitabçası barədə" adlı məktub yazaraq Rəsulzadəni ifşa etməyə səslədi. "Stalin M.Ə.Rəsulzadəni "reneqatçılıqda (o, əvvəl bolşevik olub), "Türkiyə xalqının mənafeyinə xəyanətkarlıqda" (o və onun partiyası Türkiyə xalqına köməyə gedən Qızıl ordunun Azərbaycana gəlməsinə müqavimət göstərirdilər…), "Azərbaycan xalqının mənafeyinə…" və başqa sahələrdə - cəmi altı tezisə uyğun "Rəsulzadəyə hücuma keçməyə, onu ittiham etməyə" çağırırdı". [113]

1931-ci ilin sonlarında Sovet Rusiyasının təzyiqi nəticəsində mühacirlər Türkiyəni tərk etdilər. Almaniyaya gələn M.Ə.Rəsulzadə, M.B.Məhəmmədzadə Berlində əvvəlcə "İstiqlal" (1932-1934) qəzetini, 1934-cü ildən etibarən isə "Qurtuluş" (1934-1938) jurnalını nəşr etdirdilər.

1934-cü ildə Qafqaz Konfederasiyası aktını Azərbaycan adından M.Ə.Rəsulzadə ilə Ə.Topçubaşov imzalamışdılar. Bu ərəfədə isə bəzi mühacirlər, o cümlədən Şəfi bəy Rüstəmbəyli, Xəlil bəy Xasməmmədli, Nağı Şeyxzamanlı və başqaları bu iki görkəmli şəxsiyyət arasında narazılığın olmasına, eyni zamanda "Müsavat" daxilində parçalanmanın baş tutmasına çalışıblar.[114] Mühacirətdəki bu kimi intriqalara son qoymaq üçün də Rəsulzadə 1934-cü ildə "Şəfibəyçilik" kitabçasını yazıb. Rəsulzadəyə görə "şəfibəyçilik" yalnız bir şəxsə aid olmayıb, bu, "milli Azərbaycan hərəkatına qarşı atılan şübhəli intriqalar" idi.[115]

---

[113] Yenə orada, s.78
[114] Şeyhzamanlı N. Biz ve Onlar. İstanbul: 1934, s.40
[115] Resulzade M.E. Şefibeycilik. İstanbul: 1934, s.3

1930-cu illərdə Polşada mövcud olan "Prometey" təşkilatı SSRİ-dəki rus olmayan millətləri birləşdirirdi. N.Yaqublu yazır: ""Prometey" təşkilatında ilk vaxtlar aşağıdakı xalqları təmsil edən partiyalar toplaşmışdı: gürcü sosialistlər, azarbaycanlıların "Müsavat" Partiyası, Krım tatarlarının "Milli firqəsi", türküstanlıların "Milli Türküstan Birliyi" və müxtəlif Şimali Qafqaz və tatar qrupları. Erməni qrupları təşkilatda türk tatarlarının çoxluğunu görüb yaxın durmadılar. "Prometey" təşkilatının Parisdə ki, orqanı "Prometey" jurnalı çap olunurdu. Məmməd Əmin Rəsulzadə jurnalda yazılar, məqalələr dərc etdirirdi". [116]

Əhməd Qaraca yazırdı ki, Rəsulzadənin yurd xaricində önəm verdiyi mühüm işlərdən biri "fikir və dava arkadaşları olan Krım, İdil, Ural, Şimali Qafqaz və Türküstan liderləriylə"[117] bir araya gəlib kommunizmə qarşı aparılan milli mücadilədə "Türk birliyi"nə çalışması olmuşdu.

Rəsulzadənin 1936-cı ildə Berlində "Çağdaş Azərbaycan ədəbiyyatı" və Varşavada (polyak dilində) "Azərbaycan ədəbiyyatı" məqaləsi yayınlanıb. Onun 1938-ci ildə Berlində almanca "Azərbaycan poblemi" və 1939-cu ildə Varşavada polyakca "Azərbaycanın hürriyyət savaşı" kitabları nəşr olunub.

1938-ci ildə Varşavada "Müsavat" partiyasının 3-cü qurultayı keçirilərək "Yeni proqram Əsasları" qəbul edilib. 1938-1939-cu illərdə Polşa hökumətində məsləhətçi işləyən Rəsulzadə SSRİ-nin və Almaniyanın bu ölkəni işğal etməsilə əvvəlcə Fransaya, daha sonra da İsveçrəyə üz tutub. İsveçrədən sonra qısa müddət Londonda yaşayan Rəsulzadə 1940-cı ildə Buxarestə-Rumıniyaya getməyə məcbur olub.

2-ci Dünya müharibəsi başlanandan az sonra, yəni 1941-ci il dekabrın 22-də Hitler türküstanlı, gürcü və qafqaziyalı müsəlman legionlarının yaradılması əmrini vermişdi. Qafqasiyalı müsəlman legionu sonradan azərbaycanlı və quzey qafqasiyalı legio-

---

[116] Yaqublu N. Məmməd Əmin Rəsulzadə. Bakı: Gənclik, 1991, s.218

[117] Karaca E. Kafkasya Federasyonu Kafkasya Cümhuriyetinin emniyet kalkanı ola biler mi? // Azerbaycan, Ankara, 1995, №305, s.19

nu olmaq üzrə iki yerə ayrılmış, 1942-ci il yazın sonlarında Volqa tatarlarının da regionu təşkil edilmişdi. Azərbaycan legionunda "Bozqurd", "Aslan" kimi batalyonlar olmaqla yanaşı, "Azərbaycan" və "Hücum" adlı qəzetləri də var idi. Həmin dövrdə Rəsulzadə də Hitlerin "Şərq nazirliyi" tərəfindən Almaniyaya dəvət olunub.[118] Belə ki, Stalinqrad cəbhəsində Sovet ordusuna ağır məğlubiyyətdən sonra Almaniya hökuməti bəzi güzəştləri nəticəsində 1943-cü ilin yazında Berlində Milli Azərbaycan Komitəsi və azad türk diviziyası yaradıldı. Bu komitənin başlıca vəzifəsi milli Azərbaycan davasını alman hökumətinə qəbul etdirmək idi. Hitlerin planı belə idi ki, müharibədən sonra Bakı birbaşa Berlinə tabe olunacaq, Azərbaycan xanlıqlar dövründə olduğu kimi əyalətlərə bölünəcək, başda isə almanlar oturacaq. Hitlerçilərin bu fikri ilə birmənalı olaraq razılaşmayan Rəsulzadə onlara qarşı ciddi mübarizə aparıb Azərbaycana müstəqil bir dövlət hüququ qazandırmaq istəmişdir.[119] Onun müstəqil Azərbaycan tələbi və digər antifaşist çıxışları sonda Rəsulzadənin Berlini tərk etməsilə nəticələnmişdi.

O, 1943-cü il avqustun sonlarında Berlini tərk edib Rumıniyaya üz tutmuşdur. Sovet qoşunlarının Rumıniyaya yaxınlaşması ilə əlaqədar olaraq Rəsulzadə Buxarestdəki Türkiyə səfirliyinin qonaq evindən çıxmağa məcbur olub. Daha sonra Buxarestdən Vyanaya gedən Rəsulzadə bir müddət burada qaldıqdan sonra Qərbi Almaniyaya-Münhenə köç etmişdir. Rəsulzadə Münhendəki azərbaycanlıların problemlərini həll etmək məqsədi ilə Azərbaycan Demokrat Birliyi adlı təşkilat qurub.

1947-ci ilin sonlarında Türkiyəyə qayıtmasına icazə verilən Rəsulzadə 1949-cu il fevralın 1-dən etibarən "Azərbaycan Kültür Dərnəyi"ni qurmuşdu. O, 1951-ci ildə Ankarada "Azərbaycan şairi Nizami" adlı sanballı monoqrafiyasını çap etdirməklə dünya nizamişünaslığına da bir çox yeniliklər gətirmişdir. İkinci Dünya müharibəsi zamanı qələmə aldığı bu əsəri ilə müəllif nizamişünaslığa olduqca dəyərli elmi bir töhfə vermişdir. Nizami

[118] Patrik fon Z.M. Camali Haç ile Kızıl yıldız arasında. Ankara: 1984, s.109
[119] Yaqublu N. Məmməd Əmin Rəsulzadə. Bakı: Gənclik, 1991, s.224

Gəncəvini özünməxsus, təkrarolunmaz bir şəkildə tədqiq edən Rəsulzadənin böyük şair-filosofumuzla bağlı gəldiyi elmi nəticələr bu günün özündə də aktuallığını qoruyub saxlamaqdadır.

O, 1952-ci ildə Münhendə Ümumqafqaz Konfransının keçirilməsinə nail oldu. Konfransda çıxış edən Rəsulzadə təklif edirdi ki, “Qafqaz Mərkəzi” yaradılsın və Sovet imperiyasına qarşı mübarizə Birləşmiş Konfederativ Qafqasiya formuləsində davam etdirilsin. 1953-cü ildə isə onun başçılığı ilə hələ 1924-cü ildə təməli qoyulmuş Azərbaycan Milli Mərkəzini bərpa olunub. O, 1955-ci ilin martın 6-sında Ankarada vəfat etmişdi.

Məhəmməd Əmin Rəsulzadənin əsas əsərləri aşağıdakılardan ibarətdir:

1. “Nagahan bəla” (1907, Bakı),
2. “Qaranlıqda işıqlar” (1908, Bakı),
3. “Səadəti-bəşər” (1911, Tehran),
4. “Tənqidi-firqeyi-etidaliyyun” (1911, Tehran),
5. “İran türkləri” (1913, İstanbul),
6. “Milli dirilik” (1914, Bakı),
7. “Azərbaycanın təşəkkülündə “Müsavat”” (1919, Bakı),
8. “Əsrimizin Səyavuşu” (1924, İstanbul),
9. “Azərbaycan Cümhuriyyəti” (1923, İstanbul),
10. “İstiqlal məfkurəsi və gənclik” (1925, İstanbul),
11. “Rusiyada siyasi vəziyyət” (1926, İstanbul),
12. “Milliyyət məsələsində bolşevik nəzəriyyə və əməliyyatları” (1926, İstanbul),
13. “Bolşeviklərin Şərq siyasəti” (1926, İstanbul),
14. “İxtilalçı sosializmin iflası və demokrasinin gələcəyi” (1928, İstanbul),
15. “Millət və bolşevizm” (1927, İstanbul),
16. “Qafqasiya türkləri” (1927, İstanbul),
17. “Azərbaycan istiqlaliyyəti” (1930, Paris),
18. “Qafqaz problemi ilə əlaqədar olaraq panturanizm haqqında”(Paris, 1931),

19. "Azərbaycan milli hərəkatı" (1933, Berlin),
20. "Azərbaycan Respublikası haqqında bəzi qeydlər" (1933, Berlin),
21. "Çağdaş Azərbaycan ədəbiyyatı" (1936, Berlin),
22. "Azərbaycan poblemi" (1938, Berlin),
23. "Azərbaycanın hürriyyət savaşı" (1939, Varşava),
24. "Çağdaş Azərbaycan tarixi" (1949, Ankara),
25. "Çağdaş Azərbaycan ədəbiyatı" (1949, Ankara),
26. "Azərbaycan Kültür gələnəkləri" (1949, Ankara),
27. "Azərbaycan şairi Nizami" (1951, Ankara),
28. "Stalinlə ixtilal xatirləri" (1954, İstanbul) və b.

*İnsanlara hürriyyət, Millətlərə istiqlal!*
**M.Ə.Rəsulzadə**

# II FƏSİL

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN SOSİAL-FƏLSƏFİ GÖRÜŞLƏRİ

## 2.1. M.Ə.Rəsulzadə sosial-demokratiyaya münasibətdə milli sosial-demokrat və marksizm-leninizmin tənqidçisi kimi

Məlum olduğu kimi, sosial-demokratizm, ya da marksizm təlimi ilk dövrlərdə əsasən, Qərb ölkələrində geniş yayılmış, Avropa xalqları (alman, fransız, ingilis, italyan və b.) onunla daha erkən tanış olmuşlar. Özəlliklə də, sosial-demokratizmin baniləri Karl Marksla F.Engelsin Avropanın güclənməkdə, imperiyaya çevrilmək niyyətində olan ölkəsi Almaniyada və alman xalqı arasında bu təlimin əsasını qoymaları təsadüfi olmamışdır. Hər halda marksizmin müəlliflərinin Avropada (o cümlədən də Almaniyada) milliyyətçiliyin, milli dövlətlərin və liberalizmin ön planda olduğu bir dövrdə fərdiyyətçiliyə qarşı cəmiyyətçiliyi, milliyyətçiliyə qarşı beynəlmiləlçiliyi, mənəvi sferaya qarşı iqtisadi sferayı ortaya atmaları, üstəlik bunu sinfi mübarizə kimi qələmə verib "istismar olunanları" (proletariatları) "istismarçılara" (kapitalistlərə) qarşı açıq-aşkar üsyana, inqilaba çağırmaları zahirən cəlbedici görünsə də, bütün bunlar onların təliminin əsil mahiyyətini əks etdirmirdi. Xüsusilə də, klassik alman fəlsəfəsi, ingilis siyasi iqtisadı və fransız utopik sosializmi əsasında meydana çıxan marksizmdə cəmiyyətin inkişafına yanaşmada iqtisadi əsasların irəli çəkilməsi təsadüfi olmamışdır. Hər halda marksizmə görə birinci, əsas olan iqtisadi sfera, buradakı iqtisadi münasibətlər olduğu halda, insanların düşüncələri, mənəvi sfera isə ondan sonra gəlib ikinci pillədə dayanırdı.

Bizcə, burada əsas məsələ sinifsiz cəmiyyət, sosial bərabərlik, ictimai mülkiyyət, siyasi iqtisadi sistem ideyaları fonunda mümkün olduğu qədər dünya xalqlarında milli və dini hissləri, xüsusiyyətləri, identiklikləri aradan qaldırıb müəyyən qüvvələrin öncüllüyündə vahid "dünya milləti" yaratmaq və onu idarə etmək idi. Bunun üçün də, marksizm müəllifləri ən ideal variant olaraq bir tərəfdən xüsusi mülkiyyətə qarşı ictimai mülkiyyəti qoyur, digər tərəfdən hər hansı cəmiyyətin bir hissəsini digər hissəsinə qarşı ayaqlandırırdı. Marksla Engels "Kommunist Partiyasının Manifesti" əsərində yazırdılar: "Azad insanla qul, patrisi ilə plebey, mülkədarla təhkimli, usta ilə şagird, müxtəsər zalımla məzlum arasında əbədi bir antoqonizm olmuş, onlar gah gizli şəkildə, gah da açıq şəkildə daim bir-biri ilə mübarizə aparmışlar və bu mübarizə nəticəsində həmişə bütün cəmiyyət binası inqilabı yol ilə yenidən qurulmuş və ya mübarizə edən siniflərin hamısı məhv olmuşdur... Lakin bizim dövrün burjuaziya dövrünün fərqi ondadır ki, o, sinfi ziddiyyətləri sadələşdirmişdir. Cəmiyyət getdikcə daha artıq parçalanaraq, bir-birinə qarşı duran iki böyük sinfə: burjuaziya ilə proletariata ayrılmışdır." [120]

Marksizm təliminə görə, bununla da, iki hissəyə parçalanaraq qarşıdurma içində olan hər hansı xalqın daxilindəki insanlardan ən azı bir qismi milli-dini bütövlüyün sarsılması nəticəsində nicat yolunu artıq milli, dini ideyalarda deyil sosializmdə, yəni sinfi mübarizədə arayacaqdırlar. Bir sözlə, dini anlamda "müsəlmanlar qardaşdırlar", "xristianlar qardaşdırlar", "iudaistlər qardaşdırlar", "buddistlər qardaşdırlar" milli anlamda "alman birliyi", "ingilis birliyi", "fransız birliyi", "türk birliyi", "fars birliyi" və digərlərinin yerini "proletariatlar qardaşdırlar", "proletariat birliyi"" tutmali idi ("Bütün dünyanın proletariatları birləşin!"). Beləliklə, sosializm ideyası əslində allahsızlığı yaymaqdan çox dini şüur birliyini parçalamağa, millətləri tamamilə sıradan çıxartmaqdan çox da milli şüur birliyini aradan

[120] Marks K., Engels F. Kommunist Partiyasının Manifesti. Seçilmiş əsərləri, 1-ci cild. Bakı, Azərnəşr, 1953, s. 9

qaldırmağa yönəlməli və son nəticədə milliyyətsiz, dinsiz, sinifsiz kommunist vahid "dünya milləti" yaradılmalı idi. Bunu təsirli etmək üçün ateizmin, antimillyyətçiliyin, sinfi mübarizənin təbliğatı çox önəmli idi ki, hər hansı xalqın içindəki "əzilənlər", "qara fəhlələr" dini və milli hissləri tamamilə bir kənara qoyub, ancaq sinfi mübarizəni əsas tutaraq "ağalara" qarşı çıxsınlar və inqilab yoluyla mövcud dövlətin yıxılıb yerində "sosialist" dövlətin yaranmasında maraqlı olsunlar.

Sosialist inqilabları zahirən "qara fəhlələr" etsələr də, mahiyyət etibarilə bu işin arxa planında dayananlar var idi və onları isə heç də "əzilənlər"dən hesab etmək olmaz. Bununla bağlı haqlı olaraq fransız mütəfəkkir Qustav Lev Bon yazırdı ki: "Sosializm hər şeydən artıq qara fəhlə sinfinə bel bağlaya bilər. Birinci ona görə ki, o, əqli cəhətdən daha az inkişaf edib, ikincisi isə, daha az təmin olunub və buna görə də vəziyyətini yaxşılaşdırmağı vəd edən bütün doktrinalarla maraqlanır. Bu sinif heç vaxt özü başlamayacaq, ancaq hər cür inqilaba itaətlə qoşulacaqdır". [121] Bona görə sosializm ideyasının fəhlələr arasında daha çox yayılması isə onların şüurlanması, savadlanması ilə deyil, əksinə az şüura sahib olması və savadsızlığı ilə bağlı olmuşdur. [122]

Lev Bona görə fransız nəzəriyyəçi üçün sosializm sözü cənnət təssüratı yaradır, orada bütün insanlar bərabərdir, ədalətlidir, xeyirxahdır və hamı işçi olduqdan sonra dövlətin himayəsi altında ideal xoşbəxtlikdən zövq alacaqlar. Ancaq alman fəhlə üçün isə təsvir edilən obraz siqaret çəkiln meyxana şəklində canlanır, orada hökumət hər ziyarətçiyə turşuya qoyulmuş kələmdə nəhəng sosiska piramidası və sonsuz sayda pivə parçı təklif edir. O, yazırdı: "Aydındır ki, turşuya qoyulmuş kələm və bərabərlik haqda arzular quran həmin xəyalpərəstlərdən heç biri bölünməli olan şeylərin həqiqi qiyməti və yaxud həmin bölgüdə iştirak edənlərin sayını öyrənməklə bağlı özünə əziyyət verməyib. Həmin ideyann özəlliyi ondadır ki, o, qəti şəkildə təsir edir və

---

[121] Bon Lev Qustav. Sosializm psixologiyası. Bakı, 2011, s.45
[122] Bon Lev Qustav. Kütlə psixologiyası. Bakı, 2006, s.274

qarşısında istənilən etiraz gücsüzdür. İdeya tədricən hissə çevrildikdən və ehkam olduqdan sonra, təntənəsi uzun dövr üçün artıq təmin edilir və onu sarsıtmağa yönələn bütün cəhdlər uğursuzluğa məhkumdur. Şübhəsiz, yeni ideyanı da sonda özündən əvvəlkilərin aqibəti gözləyir. Bu ideya da köhnələcək və tənəzzülə uğrayacaq; lakin tamamilə yararsz olana qədər bir çox reqressiv dəyişikliklər və anlaşılmaz təhriflərə məruz qalacaq və həyata keçirilməsi üçün çoxlu nəsillər tələb olunacaq. Tam yox olmazdan əvvəl o, uzun müddət köhnə irsi ideyalarn bir hissəsini təşkil edəcək, hansılar ki, xurafat adlandırılır, amma biz onlara hörmətlə yanaşırıq”. [123]

Lev Bonla eyni fikirdə olan alman filosofu Fridrix Nitsşeyə görə də sosializm ideyasına inanalar əsasən, anarxistlər və başıpozuq qruplardır. Nitsşe yazırdı: “Sosializm sadəlövhlərin, mistiklərin, yəni səthlərin, paxılların, dörddə üç hissəsi aktyorlardan ibarət olan axıra qədər düşünülmüş istibdad üsul-idarəsi, “müasir ideyaların” və onların gizli anarxiyasının son nəticəsidir. Ancaq demokratiya, xoşbəxtliyinin isti atmosferində nəticə çıxarmaq, ümumiyyətlə hər hansı müəyyən bir sonluğa gəlmək qabiliyyəti zəifləyir. İnsanlar axının istiqaməti ilə gedirlər, amma nəticə çıxarmırlar. Ona görə də sosializm turş və çarəsiz bir şey kimi təsəvvür edilir”. [124] Ümumiyyətlə, Nitsşeyə görə sosializmin təbiətin bərabər yaratmadığı insanları bərabərləşdirmək istəyi axmaqlıqdan başqa bir şey deyildir.

Marksizmin hədəfində əsas məsələ milli identikliyi (burada millət tam sıradan çıxmır, ancaq milli şüur birliyi tədricən aradan qalxır) və dini identikliyi (burada isə Yaradana inanc tamamilə sıradan çıxmasa da, ən əsası dini şüur birliyi tədricən ortadan qaldırılır) aradan qaldırıb, onu yerinə sinifsiz cəmiyyəti – kommunizmi qoymaq idi. Bunun üçün də ən mükəmməl prinsip kimi siniflərarası mübarizəni önə çəkən marksizmin müəllifləri iddia edirdilər ki, dünya yaranandan bu günə qədər bütün cəmiyyətlərdə

---

[123] Yenə orada, s.62

[124] Nitsşe F. Külliyyatından qızıl seçmələr. Bakı, 2014, s.219-220

iki sinif: 1) əzilənlər, və 2) əzənlər olmuşdur. Üstəlik, bütün bunların indyə qədər belə olmasının əsas səbəbkarları da milli və dini ideyaların təbliğatçıları olmuşdur. Guya, bütün zamanlarda "ağalar" dini və milli ideyalardan istifadə etməklə "qulları" istismar altında saxlayıblar və indi də "qullar" ayağa qalxaraq buna son verməlidirlər. Başqa sözlə, onların iddiasına görə, artıq bütün xalqların əzilənləri, yəni "qullar", ya da yeni adıyla "proletarlar" milli və dini xüsusiyyətləri bir kənara qoyub onları əzən bütün istismarçılara (öz dinindən, millətindən olsun ya da başqa dindən, millətdən olsun fərq etməz) qarşı baş qaldırıb üsyanlar, inqilablar etməli, bu yolla da yeni dövlətlər, yəni sinifsiz cəmiyyət olan sosialist dövlətlər yaratmalı idilər. Guya, bu sosialist dövlətlər isə artıq milli və dini hisslərlə, xüsusiyyətlərlə deyil, yalnız "beynəlmiləl" dəyərlərlə və ən əsası ictimai mülkiyyətə əsaslanan iqtisadi bərabərlik prinsipləriylə idarə olunacaqdı. Marks yazırdı: "Kapitalizm dövründə sinfi mübarizə daha da kəskinləşmiş, bunun sonu sosialist inqilabı, proletariatın diktaturası, sinifsiz kommunizm cəmiyyəti olacaq. Proletariat kapitalizmin qəbirqazıyanıdır, o, kapitalzimi devrib öz diktaturasını yaradacaq. Bu isə nəticə etibarilə bütün dünyada kommunist formasiyasının qələbəsinə gətirib çıxaracaq."[125]

Xəliyəddin Xəlilli haqlı olaraq hesab edir ki, bununla da Marks sosializmi-kommunizmi formasiya olaraq proletariatın mübarizəsinin nəticəsi kimi doğulacağını aksiomatik bir formada "əsaslandırdı". X.Xəlilli yazır: "K.Marksın iqtisadi nəzəriyyəsi özünü doğrultmasa da, kütlə üçün kifayət qədər cazibədar idi. K.Marksın sinfi mübarizə nəzəriyyəsi bütün dünyanı düşünmək, dərk etmək, tarixi qanunauyğunluqdan baş çıxarmaq səviyyəsi olan insanları atom təhlükəsinin bəşəriyyəti təhdid etməsi qədər qorxuya saldı, həyəcanlandırdı. Avropanın mütərəqqi, uzaqgörən dahi və alimləri bu ideyanın kütlələrə sirayət edib, bəşər

---

[125] Marksizm-Leninizm fəlsəfəsinin əsasları. Bakı, Azərnəşr, 1980, s. 276

mədəniyyəti üçün dağıdıcı bir qüvvə olduğunu dərk etdilər, ona qarşı mübarizə üsullarını axtardılar”.[126]

Marksizm təliminin müəllifləri ilə onlara arxa planda dəstək verənlərin əsas niyyəti “sinfi mübarizə” adı altında həmin dövrdə mövcud olan milli dövlətləri, böyük imperiyaları aradan qaldırmaqla “qulların”, yeni adla “proletariat”ın “sosialist” dövlətlərinin, daha sonra da vahid “dünya milləti”nin ortaya çıxmasına zəmin yaratmaq olmuşdu. Ancaq marksistlərin xüsusilə də, imperiyalardan (Böyük Britaniya, Fransa, Avstriya-Macarıstan, Osmanlı, çar Rusiyası və b.) sonra meydana çıxması gözlənilən dövlətin, ya da dövlətlərin “milli dövlətlər” olması variantına qarşı, “sosialist dövlətlər” ideyasını irəli sürməsi “insanlıq” naminə, “sosial bərabərlik” naminə çalışmaları ola bilməzdi. Çünki əslində həmin ana qədər Qərb-Avropa zehniyyətində “milli dövlət” adı altında İslam-Türk dövlətlərini (Osmanlı, Qacarlar və b.) parçalamaq, zəif vəziyyətə düşürmək nə idisə, marksistlərin “sosialist dövlət” ideyası ondan çox da fərqlənməmişdir. Ona görə də qərbsayağı “milli dövlət”də olduğu kimi, “sosialist dövlət”də də ifratçılıq, radikalizm özünü büruzə verirdi. Hər halda qərbsayağı “milli dövlət” olaraq liberalizm, liberal-demokratiya adı altında pərdələnmiş Böyük Britaniya və Fransa “imperiya” xislətinə sadiq qaldığı kimi, “sosialist dövlət”, ya da “milli sosialist dövlət” adı altında eyni imperiya hisslərini Rusiya, İtaliya, Almaniya davam etdirmişdir.

Bu baxımdan əvvəlcə liberalizm, demokratiya qılığında “milli dövlət”, daha sonra ona paralel olaraq sosial bərabərlik, sinfsiz cəmiyyət fonunda “sosialist dövlət” ideyalarını ortaya atan Avropa-Qərb zehniyyəti yalnız İslam-Türk dünyası üçün deyil, bəşəriyyət üçün də çox zərərli “ideya” mənbəyidir. Qərb zehniyyətinə görə yeni dövrdə Avropada meydana çıxan ya liberal, liberal-demokratik “milli dövlət”, ya da ondan sonra gəlib sosial bərabərliyə, kommunizmə əsaslanan “sosialsit dövlət” ideyaları

---

126 Xəlilli Xəlyəddin. Sosializm ideologiyasının mənbələri, inkişafı və faciələrinin tarixinə giriş. Bakı, Xan nəşriyyatı, 2022, s. 13

olsun, dünyada yalnız bunlardan biri bəşəri anlamda doğru ola bilərdi. Ümumilikdə Qərb zehniyyəti sonuncudan uzaq durub daha çox liberal, liberal-demokratik "milli dövlət" anlayışına sahib çıxsa da, ancaq 20-ci əsrin əvvəllərində çar Rusiyasının süqutunun ardından yaranan Sovet Rusiyasını və onun başını çəkdiyi Sovetlər Birliyini, eləcə də "Varşava paktı"na daxil olan "sosialist dövlətləri"n varlığını da inkar etmək mümkün deyildir.

XX əsrin başlarında Asiya ilə yanaşı Avropanın da bir hissəsi olan çar Rusiyasında isə marksizmin, başqa Avropa ölkələrindən fərqli olaraq daha tez və geniş kütlələr, təbəqələr arasında yayılmasını və çox keçmədən qalib gəlməsini müxtəlif yöndən izah edənlər var. Bəzi tədqiqatçılara görə, bunun başlıca səbəbləri imperiyanın geniş müstəmləkə torpaqlarına sahib olması, "xalqlar həbsxanası" adlanan Rusiya imperiyasının daxili ziddiyyətlərinin rəngarəngliyi, feodalizmdən kapitalizmə keçidin tam baş tutmaması və digər təbii məsələlər olmuşdur. Digər mütəxəssislərə görə marksizmin çar Rusiyasında gerçəkləşməsi qeyr-təbii şəkildə baş vermiş, bu məsələdə müəyyən dövlətlər və təşkilatlar maraqlı olmuş, buradakı marksistlərə siyasi və maddi dəstəklər verilmişdir.

XX əsrin əvvəllərində yalnız çar Rusiyasında deyil eyni zamanda Qacarlarda, Osmanlıda mövcud olan müxtəlif cərəyanlar, inqilablar, milli və sinfi mübarizə məsələləri M.Ə.Rəsulzadənin gənclik illərinə təsadüf etmiş, bu da onun siyasi fəaliyyətinə, dünyagörüşünə mühüm təsir göstərmişdir. Onun ilk dövrlərdə sosial-demokratizm təliminə yaxınlığına, rəğbətinə başlıca səbəb imperiya daxilində sosial bərabərsizlik, ədalətsizlik, müstəmləkə siyasəti, milli-dini ayrı-seçkilik olmuşdur. Özəlliklə, çarlığın müstəmləkə halında saxladığı xalqların milli hüquqlarını tapdalaması, onlarla hüquqsuz vətəndaş kimi davranması, sosial-iqtisadi gerilik imperiyanın bütün yerlərində olduğu kimi, Quzey Azərbaycanda xalqın müxtəlif təbəqələri arasında geniş narazılığa gətirib çıxarmışdır. Bu anlamda, həmin dövrdə sosial bərabərliyi, sosial ədaləti, əmək hüququ və haqlarının bərpasını təbliğ edən sosial-demokratizm təliminə bir qisim Azərbaycan Türk ziyalı-

larının, o cümlədən gənc Rəsulzadənin rəğbət bəsləməsində qeyri-adi heç bir şey yox idi. Çünki çar Rusiyası ilə mübarizə aparmağın çətin, mürəkkəb olduğu, qaçaqçılıq hərəkatının heç bir nəticə vermədiyi dövrdə, Azərbaycanın bir qisim azadlıqsevər, açıqfikirli gənclərin, milli məfkurəli mütəfəkkirlərinin o cümlədən də Rəsulzadənin, sosial-demokratizmə müsbət münasibət bəsləmələri, sol yönlü təşkilatlarda fəaliyyət göstərmələri bəlli bir zərurətdən irəli gəlirdi.

Bu dövrdə islamçılıq - şərqçilik, qərbçilik - avropaçılıq və türkçülük - milliyyətçilik cərəyanları Quzey Azərbaycanda, onun sənaye və elm mərkəzi Bakıda yayılsa da, sosial-demokrat təlimi imperiya ilə mübarizədə nisbətən daha cəlbedici təsir bağışlayırdı. Hər halda islamçılıq-islam xalqlarının birliyi, türkçülük-Turan ideyası imperiyaya qarşı mübarizədə əvvəllər olduğu qədər, hələlik geniş xalq kütlələrinə lazimi qədər təsir edə bilmirdi. Azərbaycanda şərqçilik - islamçılıq daha çox islam dininə, Şərq adət-ənənələrinə söykənir, əsasən mühafizəkarlıq prinsipini önə çəkirdi. Bu dövrdə Azərbaycan xalqının şüuruna da əsasən, islamçılıq məfkurəsi hökmran kəsilmişdi. İslamçılıq-mühafizəkarlıq, xüsusilə güneyli azərbaycanlılar üçün xarakterik olduğu halda, Qərbə meylli bəzi quzeyli azərbaycanlılar isə avropalaşmaq və türkçülük ideyalarını da irəli sürür, milli maarifçiliyə, milli şüurun oyanmasına çalışırdılar. Ancaq türkçülük tərəfdarları ilk dövrlərdə pərakəndə şəkildə fəaliyyət göstərir, xalq arasında lazımi səviyyədə önə çıxa bilmir, daha çox "ümmətçiliy"ə meyil göstərirdilər.

Belə bir vəziyyətdə dünyada ictimai bərabərliyi, sosial ədaləti təmin etmək ideyaları ilə ortaya atılmış sosial-demokratizm təlimi Quzey Azərbaycanda yayıldığı ilk dövrlərdən başlayaraq islamçılıq və türkçülük cərəyanları ilə rəqabət içində olmuşdur. Düşüncəsində, şüurunda islamçılıq, türkçülük ideyalarını daşıyan Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu kimi mütəfəkkirlərimiz də, sosial-demokratizmə əsasən müxalif mövqedə dayanmış olsalar da, geniş kütlələr arasında cəlbediciliyi

baxımından onlarda bəzi hallarda bu təlimə müraciət etmiş, onun mənfi tərəfləri ilə yanaşı, bəzi müsbət cəhətlərini də izah etmişlər.

Məsələn, islamçılığı müsəlman-türk xalqlarının nicatı kimi görən, bir növ onu "İslam birliyi"nə zərər verə biləcək ayrıca götürülmüş nasionalizmə və kapitalizmə qarşı qoyan Əli bəy Hüseynzadə, eyni baxışın sosial-demokratizmdə olmasından dolayı, onu təqdir etmişdir. O, "Milliyyət və insaniyyət" məqaləsində yazırdı ki, sosial-demokrtlar bütün xalqların çıxış yolunu nasiyonalizmdə-millətçilikdə, milli müxtariyyətlərdə deyil, sosializmdə, internasiyonalizmdə, bir sözlə beynəlmiləliyyətdə gördüyü kimi, müsəlmanlar da bunu, islamiyyət daxilində ittihad və ittifaq etməkdə görürlər. [127] Ə.Hüseynzadə daha sonra yazırdı ki, sosializmin mahiyyəti milliyyətdə deyil, insanlığın istiqlalına müsaid olduğu kimi, islamiyyətin də məqsədi insanlığın istiqlalıdır. O, yazırdı: "Bu gün Avropanın qismi-əzəmini təhdid etməyə başlayan "sosializm"ə, "internasiyonalizm"ə və "marselyoz" nəğməsi müqabilinə çıxan "internasiyonal" mahnısı muxtariyyəti-milliyyələrə deyil, istiqlalati-insaniyyəyə müsaiddir!.. İslamiyyətin məqsədi isə istiqlalati-insaniyyədir. Çünki islamiyyət bir dindir ki, millət və milliyyət tanımaz, kəlmeyi-şəhadət gətirib onunla mütədəyyin olanlara rəsmsiz, şəklsiz, yoldaşsız bir Allaha iman gətirənlərə bir nəzərlə, bir ümmət nəzərilə baxar!".[128] Beləliklə, Hüseynzadə bu məqaləsində nasyonalizmlə müqayisədə sosial-demokratizm beynəlmiləl mahiyyət daşıdığı üçün, onun islamçılıqla oxşar cəhətlərindən dolayı təqdir etmişdir. Onun fikrincə, sosializmdəki ədalət, hürriyyət, bərabərlik və məhəbbət prinsipləri islamiyyətin həmişə əsas amallarından olub ki, Həzrət İsa və Həzrət Məhəmmədin (s.) qanunları da bu həqiqətə aiddir.[129]

O, "Həqayiqi-ictimaiyyə, yer və insan" məqaləsində isə tövsiyə edirdi ki, sosializmin mahiyyətini olduğu kimi dərk etmək lazımdır. Onun fikrincə, nasionalizmdə hər hansı bir millətin

---

[127] Hüseynzadə Ə. Seçilmiş əsərləri. Bakı, «Şərq-Qərb», 2007, s.113
[128] Yenə orada, s.113-114
[129] Yenə orada, s.199

problemlərinin həlli mühüm sayıldığı halda, sosializmdə bütün xalqların probleminə eyni nəzərlə yanaşma vardır. Hüseynzadə yazırdı: "İstimlaki-milli dediyimiz nasiyonalizasiyanın mənası cəmi əraziyi dövlət mülkü qılmaqdır. Bu isə cəmaətin əraziyi nasıl təsərrüf edib ondan nasıl istifadə edəcəyini həll etmiyor. Sosializasiya, yəni istimlaki-ictimai isə işin bu cəhətini dəxi təyin etmiş oluyor. Sosialistlər sadə istimlaki-milliyyə qənaət etməyib ərazinin cəmaəti amiyə namına istimlakını tələb ediyorlar. Demək olur ki, istimlaki-milli bir mərkəziyyət sifətilə müttəsif olduğu halda istimlaki-ictimai ədəmi-mərkəziyyəti icab ediyor".[130] O, hətta proletariatı əfsanəvi hökmdar Zöhaka qarşı mübarizə aparan dəmirçi Gavə və onun silahdaşları nəzərində dəyərləndirirdi: "Proletariat, yəni füqərayi-kasibəyi-millət isə Gavə və muinləridir. Bunların rəf etdikləri qırmızı bayraqlar da dirəfşi-Gavəyanıdır. Tarixin də və ülumi-təbiyyənin öz qanunları vardır".[131]

Bizcə, Hüseynzadə Marksın sosial-demokratizm təlimi ilə daha yaxından tanışlıqdan,[132] xüsusilə də onun törəməsi olan marksizm-leninzmin, yəni rus bolşevizminin əsil mahiyyətini gördükdən sonra kommunizmə qarşı olmuş, onların "qırmızı inqilab" ideyasını kəskin şəkildə tənqid etmişdi. Artıq "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar" məqaləsində Hüseynzadə yazırdı ki, hər hansı inqilabların baş verməsi üçün zəruri şərait olmalı, bütün inqilablar təkamül yolu ilə baş verməli, hər bir xalqın milli ruhuna, dininə, mədəniyyətinə uyğun olmalıdır. Bu mənada Hüseynzadə rus bolşeviklərin radikal qırmızı-inqilab ideyalarını rədd edir, marksizm-leninzmi zərərli bir təlim adlandırır və ona qarşı çağdaş ruhlu milli-dini birliyi – "yaşıl inqilab" ideyasını irəli sürürdü.[133]

Əhməd bəy Ağaoğlunun özü də ilk dövrlərdə, ümumilikdə heç də marksizmi islam dininə zidd saymamış, hətta 1905-1906-cı illərdə yazdığı bəzi məqalələrində onların elmi sosializm ideyasını

---

130 Yenə orada, s.146

131 Hüseynzadə Ə. Türklər kimdir və kimlərdən ibarətdir? Bakı, Mütərcim, 1997,s.126

132 Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. Bakı, «Şərq-Qərb», 2007, s.127

133 Yenə orada, s.185

təqdir etmiş, sosializmin əsas qayəsinin bəşər övladının mənəvi və maddi səadəti olduğunu bəyan etmişdi.[134] Ancaq çox keçmədən Ağaoğlu marksizmi, xüsusilə rus bolşevizmini kəskin şəkildə tənqid etmişdir. Ona görə, hər hansı cəmiyyətdə əsas məsələ kimi sinfi mübarizəni görmək doğru deyildir. O, yazırdı: "Sinfi mübarizə müxtəlif xalqlar arasında münasibətləri izah etmək üçün həddindən artıq elastik, həddindən artıq uzun, dumanlı haldır. Əgər bu termin altında əhalinin müxtəlif, maddi cəhətdən bir-birindən asılı təbəqələri arasında maraqlar toqquşması başa düşülürsə, onda sinfi mübarizə ilk növbədə, eyni millətin ayrı-ayrı qrupları arasında meydana gəlməlidir".[135] Beləliklə, Ağaoğlu onun sosializmlə bağlı bəzi yazılarına istinad edilərək "sosialist" adlandırılmasını isə səhv hesab etmişdi.[136] Hətta, "Materializmin təntənəsi və əsassızlığı" (1908) məqaləsində fəlsəfədə materializm cərəyanının əsassızlığını sübut etməyə çalışan Ağaoğlunun fikrincə, müəyyən bir dövrdə "qalib" durumda olan Marksın materialist təlimi hazırda öz əhəmiyyətini itirmişdir.[137]

Ağaoğlunda sosial-demokratizm, ya da marksizm ideyalarına yenidən maraq Malta sürgünü (1919-1921) zamanı yaranmışdır. Belə ki, sürgündən azadlığa çıxdıqdan az sonra Sovet Azərbaycanının başçısı Nəriman Nərimanova məktubunda Ağaoğlu yazırdı ki, Vətənə qayıtmaq və marksist-leninçilərlə bir yerdə sosializm uğrunda mübarizə aparmaq istəyir. Çünki Qərb "demokrat"ları, xüsusilə də ingilislər ikiüzlü oyunlar oynayaraq yalnız Şərq xalqlarını istismar etməyib, eyni zamanda Qərb xalqlarını da əsarət altında saxlayırlar.[138] Məhz bu hisslərin təsiri altında Ağaoğlu daha sonra məktubunda yazırdı ki, bolşevizm Şərq üçün də yeganə qur-

---

[134] Mustafayev Qədim. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı, Maarif, 1973, s.172

[135] Ağaoğlu Əhməd. Qafqazda milli məsələ. Bakı, Mütərcim, 2019, s.118

[136] Ağaoğlu Ə. Millət və millətçilik. "Tərəqqi" qəz., 1909, 22 yanvar №16, 26 yanvar №19

[137] Ağaoğlu Ə. Materializmin təntənəsi və əsassızlığı. «Kaspi» qəz., №3, 4 yanvar 1908-ci il

[138] Hüseynov Ş. Mətbu irsimizdən səhifələr. Bakı, «Çənlibel» NPM, 2007, s.78

tuluş yoludur.[139] Nərimanovun onun bu istəyinə müsbət cavab verməsinə baxmayaraq, az sonra Ağaoğlu Azərbaycana dönmək fikrindən daşınmışdır. O, Nərimanova yazdığı ikinci məktubunda Quzey Azərbaycana qayıtmamasına üç səbəb: 1) bolşeviklərlə həmfikir olmamasını; 2) türklər üçün qurtuluş imkanının təkcə Osmanlı türklüyündə qalmasını; 3) onu əsarətdən qurtaran Ankaraya (Atatürkə) namus borcunun olmasını göstərmişdir.[140]

Ancaq onlardan fərqli olaraq gənc Rəsulzadə nəinki sosial-demokratizmin müsbət cəhətlərini təbliğ etmiş, hətta, Quzey Azərbaycanda "sosial-demokrat" əqidəli təşkilatların yaranmasında və fəaliyyətində yaxından iştirak etmişdir. Rəsulzadə ilk dövrlərdə əsasən sosial-demokratik, qismən də liberal-demokratik fəaliyyəti və görüşləri ilə fərqlənmişdir. Rəsulzadənin yaxın silahdaşı, mütəfəkkir Mirzə Bala Məmmədzadə bununla bağlı yazırdı: "…qurulmasında, işlənməsində və inkişafında bilavasitə iştirak etdiyi liberal-demokratik məfkurənin mücadiləçi bir taktika ilə mahiranə surətdə həyata keçirilməsini gözəl bilən Rəsulzadə, Azərbaycanda inqilabçı bir azadlıq ordusunun yetişməsinə daha gənc yaşlarından başlamışdı". [141] Doğrudan da, Rəsulzadə bir müddət istər bəşəri, istərsə də hər hansı cəmiyyətin problemlərinin həllini sosializmin kapitalizm üzərində qələbəsində, siniflərarası mübarizədə görmüşdü. Bütün bunları nəzərə alaraq tanınmış fəlsəfə tarixçisi, prof. Yusif Rüstəmov yazırdı: "M.Ə.Rəsulzadə fəaliyyətinin başlanğıcında islamçılıq tərəfdarı olmaqla bərabər, sosial-demokratiyaya meyil göstərmişdir".[142]

Qeyd edək ki, Məhəmməd Əmin Rəsulzadə özü də sonralar bəzi əsərlərində 20-ci əsrin əvvəllərində Quzey Azərbaycanda islamçılıqla, türkçülüklə (Ə.Ağaoğlu, Ə.Hüseynzadə) yanaşı, ondan kənarda marksistlərə meyil göstərən radikal Türk inqilabçıla-

---

[139] Yenə orada, s.78-79

[140] Ağaoğlu Əhməd. Ataşkəs və sürgün xatirələri. Bakı, «Kitab Klubu», 2018, s.171

[141] Mehmetzade M.B. M.E.Resulzade. "Azerbaycan" mecmuesi, №12 (36). Ankara, 1955

[142] Rüstəmov Y.İ. Siyasi-Hüquqi təlimlər tarixi (mühazirə kursu). Bakı: «Azərbaycan Universiteti» nəşriyyatı, 2000, s.295

rından (M.Ə.Rəsulzadə və b.) və kadetlərə rəğbət bəsləyən Türk liberalistlərin (Ə. Topçubaşov və b.) olmasından söz açmışdır.[143] Rəsulzadə onu da əlavə edirdi ki, çarlıq Rusiyası türkləri arasında ilk dəfə milli-mədəni muxtariyyətdən, milli hüquqlardan çıxış edən Ə.Topçubaşov,[144] "islam millətçiliyi"ndən Ə.Ağaoğlu, türk-islam birliyindən Ə.Hüseynzadə, türk inqilabçılığından isə özü çıxış etmişdir. Bu o deməkdir ki, H.Baykaranın da qeyd etdiyi kimi, həmin dövrdə "sosial-demokrat" Rəsulzadə Türk inqilabçılığını, "panislamist" Ə.Ağaoğlu geniş və dərin, teoretik şəkildə "islam millətçiliyi"ni, "pantürkist" Ə.Hüseynzadə turançılığı-türkçülüyü təbliğ etdiyi zaman, "milli liberalist" Ə.Topçubaşov "Rusiya müsəlmanlarının birliyi" devizi altında, imperiya xalqlarının, o cümlədən Quzey Azərbaycan xalqının milli-mədəni muxtariyyəti üçün çalışmışdır.[145]

Beləliklə, ilk dövrlərdə Rəsulzadə daha çox sosial-demokratizmə meyilli Türk inqilabçısı kimi meydana çıxmış, onunla bağlı təşkilatların yaranmasında, ideyalarının təbliğatında birbaşa və ən fəal şəkildə iştirak etmişdir. Bu baxımdan Rəsulzadənin sosial-demokratik baxışlarını şərh etməzdən öncə, həm çarlıq daxilindəki "sol" və "sağ" yönlü təşkilatların hansı ictimai-siyasi şəraitdə meydana çıxmasına, həm də onun "sol" yönlü milli təşkilatlara ("Türk gənc inqilabçılar dərnəyi", "Hümmət") bağlılığının səbəblərinə və roluna nəzər salmaq zəruridir.

**Rəsulzadə "Türk gənc inqilabçılar dərnəyi" və "Hümmət"ün qurucusu kimi.** Məlum olduğu kimi, 1903-cü ildə Uzaq Şərqdə çar Rusiyasına qarşı müharibəyə başlayan Yaponiyanın əldə etdiyi qələbələr nəticəsində imperiya daxilindəki hürriyyətçilər, inqilabçılar hərəkətə gələrək, çarlıqdan narazı olan xalq kütlələrini inqilablaşdırmağa başlamışdılar. Çox keçmədən bu məqsədlə imperiyanın hər bir tərəfində hürriyyət, demokratik fikirlər yayan onlarla gizli təşkilatlar meydana çıxmışdır ki, belə

---

143 Rəsulzadə M.Ə. Qafqaz türkləri. Bakı, Təknur, 2012, s.54-55

144 Rəsu lzadə M.Ə. Azərbaycanda Milli Hərəkat. Bakı, Elm, 2009, s.25

145 Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi.Bakı,Azərnəşr, 1992, s.112-118

qurumlardan biri də Rəsulzadənin başçılığıyla proqramında qismən milli-dini xüsusiyyətləri, əsasən isə sosial-demokratizmi daşıyan "Türk-Müsəlman gənc inqilabçılar dərnəyi" olub. Bununla bağlı M.B.Məmmədzadə yazırdı ki: "Heyvanın insandan daha çox qiyməti olan orta əsr dərəbəylik və köləlik nizami ilə idarə olunan çar Rusiyasında hüdudsuz istibdadiyyə ilə ağıllara durğunluq verən "millətlər həbsxanası" dövlətinə qarşı üsyan bayrağı qaldıran gənc Rəsulzadəni 1903-1904-cü illərdə, özünün təşkil etdiyi "Türk gənc inqilabçılar dərnəyi"nin başında görürük. İmperiyanın ruslaşdırma, rusçuluq və müstəmləkəçilik siyasətinə qarşı protest mahiyyəti daşıyan ilk məqaləsi də 1903-cü ildə nəşr olunmuşdur".[146]

Rəsulzadə özü də 1950-ci illərdə yazdığı "Bir Türk millyyətçisinin Stalinlə ixtilal xatirələri" əsərində 20-ci əsrin əvvəllərində Bakıda müxtəlif millətlərin oxuduğu "rus-tatar" liseylərində və başqa orta məktəblərdə Türk şagirdlərindən ibarət gizli yaratdığı sosial-demokrat əqidəli "Türk gənc inqilabçılar dərnəyi"nin fəaliyyət istiqamətlərini, səbəblərini şərh etmişdir. O, yazırdı: "Bu dərnək mənsublarının milli hisslərini təhrik etmək, rus məktəblərində oxudulmayan türkcəni öz-özünə irəlilətmək, yerli ədiblərin əsərlərini oxumaq, çarlıq əleyhinə yazılmış ixtilal şerlərini əzbərləmək və arada-sırada mətbəə üsulu ilə basılmış bəyannamələr dağıtmaq, işçilər arasına gedərək hürriyyət və inqilab fikirlərini bunların arasında sistemli surətdə yaymaq kimi fəaliyyətlər də olurdu". [147]

Qeyd edək ki, Rəsulzadənin başçılığı ilə "Türk gənc inqilabçılar dərnəyi"nin yarandığı ərəfədə, eləcə də onun fəaliyyəti dövründə (1903-1904-cü illər) çarlığa qarşı mübarizə aparan müxalif siyasi qüvvələr əsasən iki cəbhəyə ayrılmışdı. Rəsulzadə özü bununla bağlı yazırdı: "Çarlığa qarşı mücadilə edən siyasi zümrə və siniflər çarlığı təşkil edən millətlər, zümrələr və siniflər qədər hər cür rəng və ahəng daşıyan bir çox partiyalara ayrılmış-

---

[146] Mehmetzade M.B. M.E.Resulzade. "Azerbaycan" mecmuesi, №12 (36). Ankara, 1955
[147] Rəsulzadə M.Ə. Stalinlə ixtilal xatirələri. Bakı: Elm, 1991, s.13-14

dılar. Fəqət bütün müxalifət və ixtilal partiyası və qruplarını müşətərək bir bölünmə xətti ilə iki cəbhəyə ayırmaq qabildi. Bunlardan bir qismi Rusiyada parlamentli bir idarə təsisi ilə kifayətlənir, mütləq çarlıq rejimi yerinə məşruti bir krallıq qurmaq istəyirdi. Bunlar liberal-burjua partiyaları idi. Radikal-demokratlarla sosialistlər ikinci qismi təşkil edirdilər. Bunlar çarlığın devrilməsini, yerində demokratik bir cümhuriyyət rejiminin qurulmasını tələb edirdilər. Eyni zamanda siyasi bir inqilabla kifayətlənməyən bu qrupa daxil olan sosialist partiyaları Avropa kapitalizmindən fərqli sosial bir reform proqramının tətbiqini də vacib görürdülər. Sosialist partiyaları idealist-xalqçı ideologiyasında sosialist-devrimçilərlə (qısaca eser), tarixi materializm ideologiyası daşıyan sosial-demokrat (qısaca esde) zümrələrinə ayrılırdılar.” [148]

Məlum olduğu kimi, 1903-cü ildə tarixi materializm ideologiyası daşıyan sosial-demokrat firqəsinin, yəni RSDFP-nin (Rusiya Sosial-Demokrat Fəhlə Partiyası) 2-ci qurultayında bu təşkilat Lenin başda olmaqla, inqilabı dərhal həyata keçirmək istəyən çoxluğa (bolşeviklərə) və Martov başda olmaqla, inqilaba zərurət yarananda onu həyata keçirmək istəyən azlıqda qalanlara (menşeviklərə) parçalanmışdı. Menşeviklər çarlığı siyasi yolla devirmək yolunu tutduqları üçün əvvəlcə, sosial bünövrəni kapitaizm şərtləri altında təkamüllə gəlişdirməyi, bu məqsədlə burjua sinfinin liberal və radikal zümrələriylə əməkdaşlıq etməyi və daha sonra zamanı gələndə kapitalizmin yerinə cümhuriyyət idarəsini qoyub sosializm prinsiplərini sosial quruluşda gerçəkləşdirməyi və nəzərdə tuturdular. Bolşeviklər isə burjua sinfinin əməkdaşlığının əleyhinə olmaqla yanaşı, çarlığın sadəcə siyasi rejimini deyil, iqtisadi sistemini də aradan qaldırıb mövcud imperiya dövlətini tamamilə dağıtmaqla yalnız proletariatın diktaturasını qurmaq istəyirdilər.

---

[148] Rəsulzadə M.Ə. Mühacirət dövrü ədəbi-elmi irsindən seçmələr. I cild, Bakı, Elm, 2016, s.132

Rəsulzadə yazırdı ki, bolşeviklər və menşeviklər belə bir şəraitdə "Türk-müsəlman gənc inqilabçılar dərənəyi"ni öz tərəfinə çəkməyə çalışırdılar. Həmin dövrdə də RSDFP-nin Qafqazdakı bolşevik fraksiyası Tiflisə nisbətən Bakıda daha qüvvətli olub, həmin fraksiyaya da, sonralar uzun illər Sovetlər Birliyi imperiyasının başçısı olmuş İ.V.Stalin rəhbərlik edirmiş. Stalinlə ilk dəfə əmisi oğlu Məhəmməd Əli Rəsulzadənin vasitəsilə Balaxanıdakı neft ocaqları məhəlləsində bir fabrikanın işçilərinə məxsus evlərin birində tanış olduğunu Rəsulzadə yazırdı ki, Bakının da içində olduğu bolşevik və menşevik mühitində "Təkamül" qəzetinin redaktoru kimi "milli müxalifət"in (Türk inqilabçılığının) adından orada bulunub. Hətta, o, bolşevik və menşeviklərə aid toplantıların birində "milli müxalifət" cərəyanının (Türk inqilabçılığının) taktikasını bolşevik mövqeyindən üstün tutan bir ifadə işlədib. "Rus dilini zəif bilir" bəhanəsi ilə menşevik Andrey Vışınski onu tənqid etməyə cəhd etsə də, bolşevik Stalin Rəsulzadəni müdafiə edib.[149] Bizcə, Rəsulzadənin sosial-demokratizm prinsiplərinə bəzən milli mövqedən yanaşması Vışınski kimilərin xoşuna gəlməsə də, çünki onlara görə fəhlə-kəndli sinfinə aid olanların hamısı millətindən, dinindən asılı olmayaraq "proletar" zümrəsi idi, Stalin isə onun sosial-demokratizmlə yanaşı milliliyə meyilliliyinə daha təmkinlə yanaşmışdır.

Hər halda Rəsulzadənin özü də yaxşı dərk edirdi ki, türk-müsəlman sosial-demokratlarla birgə əməkdaşlıq etmək istəyən Stalin və Vışınski kimləri ilə yolları sonuna qədər bir olmayacaq. Bunu, Rəsulzadənin yaxın silhadaşı, əmisi oğlu Məhəmməd Əli Rəsuloğlu da yazdığı xatirələrində təsdiqləmişdir: "O tarixlərdə çar rejimini devirmək üçün Qafqaziyada çalışan inqilabçı sosialistlər, bolşeviklər və menşeviklərlə təmas halında idik. Bu partiyaların üçü də bizi öz tərəflərinə çəkməyə çalışırdı, amma biz əsla yanaşmırdıq. Günlərin bir günü Stalin məni və Məhəmməd

---

[149] Yenə orada, s.15-16

Əmin bəyi dəvət etdi və onlarla ittifaq etməmizi istədi. Biz ona bolşevik nəzəriyyə və ruhunun məmləkətimizin ruh və yaşayış tərzinə uyğunlaşmayacağını söyləyərək təklifini rədd etdik".[150]

Bütün bunlar ona dəlalət edir ki, Rəsulzadənin dövrün sosial-siyasi şərtləri altında meyil göstərdiyi sosial-demokratizmə bağlılığı müvəqqəti idi. Çünki onun sosial-demokratizmə bağlılığı yalnız bir tərəfdən çar Rusiyasına qarşı mübarizədən münasibliyindən, başqa tərəfdən isə həmin təlimdə sosial ədalətin, sosial bərabərliyin başlıca yer tutması prinsiplərindən irəli gəmişdi. Bununla bağlı olaraq M.B.Məmmədzadə də yazırdı ki, Rəsulzadə "çarizmə qarşı mübarizədə inqilabçı sosializmi ən sadiq olmasa da, ən münasib bir müttəfiq, bir ortaq gördüyündən",[151] sosial-demokrat kimi bəlli dövrdə onlarla çarizmə qarşı mübarizədə birgə fəaliyyət göstərmişdir. Məhz bu amillərə əsaslanan fəlsəfə tarixçisi Müstəqil Ağayev də hesab edir ki, ilk dövrlərdə Rəsulzadənin sosial-demokratizmə bağlılığında bu təlimin bir çox prinsiplərinin digər təlimlərə nisbətdə üstünlüyü ilə bağlı olmuşdur: "Bu təlim gənc Rəsulzadənin arzularına, düşüncə və məqsədinə çox yaxın və uyğun olduğu üçün onu qəbul etmişdi. Marksist təlimin məzmunu və qarşıya qoyulan məqsəd və vəzifələr digər cərəyan və təlimlərə nisbətən daha geniş, dolğun və ümumbəşri xarakter daşıyırdı. M.Ə.Rəsulzadə tez bir zamanda bu təlimin fəal təbliğatçısına çevrildi".[152]

Yuxarıda qeyd edilənlərdən belə bir nəticə çıxarmaq olar ki, Rəsulzadə sosial-demokratizmə meyilli olub, hətta ilk yaratdığı təşkilatların proqramlarında sosializm inqilabçılığı ön planda olsa da, orada milli-dini xüsusiyyətlər də öz əksini tapmışdır.

**Rəsulzadə Çarlığa qarşı mübarizədə sosial-demokratizmin təbliğatçısı kimi.** Mütəfəkkirin sosial-demokrat baxışlarının təşəkkülü və formalaşması dövrü Bakı (1903-1908) və Tehrandakı (1909-1911) yaradıcılığına təsadüf edir. Bu dövrdə

[150] Resuloğlu M.E. Müsavat Partisinin kuruluşu // Müsavat, Münhen, 1962, №4, s.9
[151] Məmmədzadə M. B. Milli Azərbaycan hərəkatı. Bakı: Nicat, 1992, s.30
[152] Ağayev M. Məhəmməd Əmin Rəsulzadə. Bakı: "Nurlan", 2006, s.26

Rəsulzadə sosial-demokratizmə gənc Türk-müsəlman inqilabçısı kimi yanaşmış, onun mütərəqqi ideyalarını təbliğ etmişdir. Dövrünün bir sıra mətbu orqanlarında ("Şərqi-Rus", "Təkamül", "Dəvət-Qoç", "Füyuzat", "Yoldaş", "Hümmət", "İrşad", "Tərəqqi", "İraninou" və s.) elmi-publisist, tənqidi, maarifpərvər məqalələr yazan sosial-demokrat əqidəli Rəsulzadə əsas diqqəti maariflənməyə, elm öyrənməyə, islam dini, həqiqi milliyyət ilə sosial-demokratizmin bir-birinə zidd olmamasına, imperiyanın müstəmləkəçilik siyasətinə, hökumətin müsəlmanlarla hüquqsuz vətəndaş kimi davranmasına, insanların hürriyyət və azadlıq probleminə, çar Rusiyasında, Osmanlı dövlətində, Qacarlarda və bütövlükdə dünyada kapitalizmə qarşı mübarizəyə, erməni-müsəlman münaqişəsinə, inqilabi mətbuata, inqilabi dramatrugiyaya, məktəblərin açılmasına, mətbuat və söz azadlığına, sosial-demokratizmin təbliğinə, təşviqinə yönəltmişdir. [153]

Sosialist inqilabçılığına xidmət edən mətbu orqanların yaranmasını sevinclə qarşılayan[154] Rəsulzadə əsasən marksist, ya da "sol" yönlü qəzet-jurnallarda ("Hümmət", "Təkamül", "Yoldaş", "Dəvət-qoç" və b.) sosial-demokratizmlə bağlı görüşlərini təbliğ etmişdir. M.B.Məmmədzadə bununla bağlı yazırdı: "Çox keçmədən onu, (M.Ə.Rəsulzadəni-F.Ə.) 1906-cı ildə nəşrə başlayan "Təkamül" (1906-1907) qəzetinin başında görürük. İnqilabçı, millətsevər gəncliyin fikirlərinə tərcüman olan bu qəzet proqram məqaləsində "Millətlərin, qövmlərin, heyətlərin siniflərin və şəxslərin hüquq və ixtiyaratda azad və bərabər olmalarını", hər növ təcavüzdən qorunmalarını müdafiə edən gənc və inqilabçı mütəfəkkir Rəsulzadə bu tezisi həyatı boyunca işlədəcək: "İnsanlara hürriyyət, millətlərə istiqlal!" şəklində ifadə etdiyi milli məfkurə halına gətirəcəkdir".[155]

Bizcə, M.Ə.Rəsulzadə sosial-demokrat olaraq "İnsanlara hürriyyət, millətlərə istiqlal!" şüuarını ortaya atmaqla doğru bir

[153] Mehmetzade M.B. M.E.Resulzade. "Azerbaycan" mecmuesi, №12 (36). Ankara, 1955
[154] Rəsulzadə M.Ə. Əsərləri (1903-1909). I cild, Bakı: Azərnəşr, 1992, s.43, 46, 47
[155] Mehmetzade M.B. M.E.Resulzade. "Azerbaycan" mecmuesi, №12 (36). Ankara, 1955

yol tutmuşdu. Belə ki, onun bu şüarının mahiyyətində fərdin, (şəxsin, insanın) azadlığı, əmək-çalışma azadlığı və millətlərin azadlığı kimi üç əsas prinsip təşkil etmişdir. Bunu, vaxtilə doğru görən M.B.Məmmədzadə yazırdı: "Fərdin, (şəxsin, insanın) azadlığı, əmək və çalışma azadlıqları və millətlərin azadlığı kimi üç ana ünsürdən ibarət olan bu Qərbi Avropa azadlıq ideyasının Şərq dünyasına yayılmasına və yerləşməsinə qarşı çətin bir cəhalət səddi təşkil edən Rusiya imperatorluğunu, inqilabçı həmlələrlə yıxıb ortadan qaldırmağın mümkün olacağına inanan Rəsulzadə "insanlara hürriyyət, millətlərə istiqlal" şüarı ilə milli Azərbaycan məfkurəsinin insani, mədəni və aləmşümul mənasını da qısa bir şəkildə ifadə etmişdir".[156]

Sadəcə, ilk dövrlərdə yazdığı məqalələrin ana xəttində inqilabçılıq dayanan Rəsulzadə sinfi mübarizə, sosial ədalət, ictimai bərabərlik məsələlərinin daşıyıcısı kimi sosial-demokratizmi göstərmiş və bunu da "İnsanlara hürriyyət, millətlərə istiqlal!" çərçivəsində görmüşdür. Bizcə, bu şüarın özündə isə əvvəlcə "insanlara hürriyyət" prinsipi daha çox öndə olmuşdur.

Məsələn, sosial-demokrat kimi fəhlələrə səkkiz (8) saatlıq iş günü tələbi ilə çıxış edən Rəsulzadə 1906-cı ildə "Fəhləyə dair" başlıqlı silsilə məqalələrində bunun mahiyyətini, tarixini, fəhlələrin birləşməsi baxımdan əhəmiyyətini, islam dini ilə səsləşməsini, xam xəyal olmamasını, mənafeyini, iqtisadi əhəmiyyətini, ailəyə təsirini izah edirdi. Rəsulzadə fəhlə üçün 8 saatlıq iş gününün mahiyyətinə belə açıqlayırdı: "Səkkiz saətlik iş günü cəmaət tələbi, cümlə dünyanın fəhlələrinin xahişi oldu. Cəmaət ixtiyarının qabağına isə heç bir qüvvə, heç bir şey dayanmaz. Bu səkkiz saətlik iş gününü ki, beynəlmiləl bir mütalibə hökmünə girmişdir ki, biz müsəlmanlara çoxdan təbliğ və təklif olunmuşdur".[157]

Rəsulzadə fəhlə, işçi üçün səkkiz saatlıq iş gününün müəyyənləşməsini islamla da əsaslandırmağa çalışırdı. Onun fikrincə, islam dinində də işçilər üçün səkkiz saat iş məqbul görülmüşdür.

---

[156] Yenə orada.

[157] Rəsulzadə M.Ə. Əsərləri (1903-1909). I cild, Bakı: Azərnəşr, 1992, s.35

O, yazırdı: "Dini qanunlardan yetişən əhadəsi-mötəbərdən olub da günü (24 saatı) üç yerə təqsim etməliyiz ki, səkkiz saat işləyib, səkiz saat istirahət edib, səkkiz saat da ibadət və mərifət yolunda çalışmalıyız. Bəs böylə olduqda səkiz saatlıq iş günü beynəlmiləl hökmünə girməmişdən biz hökmi-illahi və əmri-şare ilə bu binagüzarlığa mükəlləfmişiz".[158] Rəsulzadəyə görə ümumiyyətlə, yanlız şəriət deyil, heç bir qanun, əql, elm, kitab da fəhlələrin müəllimlərdən, ruhanilərdən və məmurlardan ixtiyarlarının az olmasına işarə eləməyib və eləməz.[159]

Rəsulzadənin gənc olmasına baxmayaraq sosial nəzəriyyələri, sosiologiyanı, siyasəti dərindən bilməsi açıq qəkildə hiss olunur. Belə ki, o, sosial məsələlərə toxunarkən, onların tarixinə nəzər salır, əsaslandırmağa çalışır, uyğun olaraq sosial utopik, sosial-demokrat baxışlı mütəfəkkirlərdən sitatlar gətirirdi. Səkkiz saatlıq iş günü üçün fəhlələlərin on illər boyu əməli mübarizə aparmasını, bəzi mütəfəkkirlərin (Tomas Mor, Tomazzo Kampanella, Kompenius, Qiyavanski və b.) əsərlər yazmasını xatırladan Rəsulzadə, buna, xam xəyal kimi baxılmasına etiraz edirdi: “Səkkiz saat iş günü xəyal deyil, yəni bu fikir, indi əmələ gəlməyibdir. Xəyalat və mövhumat qəblindən deyil. Bu qəsdin diriliyi məişəti, qanı, bədəni var və gündən günə dəxi böyüyüb artmaqdadır". [160]

Fəhlələrin səkkiz saatlıq iş günü ilə bağlı tələblərini Rəsulzadə onunla izah edirdi ki, bəzi məmurlar, müəllimlər, ruhanilər gündə səkkiz saat işləyirlər və bundan əlavə həftədə neçə gün də tətilləri var. O, yazırdı: “Hər gün səkkiz saat iş günü bu cənablar üçün nizam və qanun üzrə caiz görülürsə, niyə fəhlələrə yaramasın ki, onların işləri, onlardan daha ağır, daha səbidir (çətindir)… Bunların cümləsini nəzərə alıb da fəhlə sinfi hər gün çəkdiyi zəhmət vasitəsilə məcburən öz ömrünü qəsdinə duran fəhlələrdən ötrü həmin səkkiz saat iş gününü tələb ediyoruz. Fəhlələr ilə bərabər biz də həmin ədaləti, həqqaniyyəti tələb

---

[158] Yenə orada, s.35
[159] Yenə orada, s.38
[160] Yenə orada, s.46-47

ediyoruz. Çünki, ədalət vasitəsilə cəmaətin qədri ucalar, yüksəklərə çıxar".[161] Rəsulzadə səkkiz saat iş gününə keçiləcəyi təqdirdə, işsizliyin azalacağına, maaşların artırlacağına, keyfiyyətli məhsullar istehsal olunacağına inanırdı: "Gündə 8 saat işləyən və lazımi qədər də məvacib alan fəhlə çox işləyib, az məvacib alan fəhlədən bir çox məhsulat hüsula verər. Çünki yaxşı bəstlənmiş və vaxtlı-vaxtında rahətlik etmiş fəhlə 8 saat işlədikdə həvəs və huş ilə işlədiyi üçün işi əldən tez, həm də əla vəchilə çıxardar". [162]

Daha sonra Rəsulzadə səkkiz saatlıq iş gününün fəhləyə, onun ailəsinə təsiri baxımından əhəmiyyətindən yazırdı. Onun fikrincə, ailə içində güzəranı düz bir yola salıb, məişəti rahatlandırmaqdan, ailənin tərəqqi və təkamülü üçün, yəni bədənən və ruhən, mənən və maddən irəli getmək üçün səkkiz saat iş gününün olunması təbiidir. O, yazırdı: "İctimaiyyun-ammiyyunları ailəni dağıtmaq fikrilə ittiham ediyorlar. Lakin bu töhmətin bica və biəsil olmasını həmin hal-hazırda mövcud sərmayə dövründə tələf olmuş, pərakəndə düşmüş ailə göstəriyor. Zəmanə ki, səkkiz saat iş günü qərar verildi, ailənin hər fərdi gündə iki saat rahat qalıb, əfradi ailənin tərbiyəsinə bədənən və mənən tərəqqisinə səy edir. Atanın və ananın uşaqlarının dalınca müvazib olub, tərbiyələrinə layiqincə məşğul olmağa vaxtları olar. Bu minval ilə ailə tərəqqi edib, insaniyyətə böyük bir nəfi gəlmiş olur". [163]

**Rəsulzadənin milli sosialist inqilabçılığı.** Rəsulzadə fəhlələrin haqlarını tələb etməklə yanaşı, çarizm istibdadını lənətləyir və belə bir ölkədə insan kimi yaşamağın mümkünsüzlüyünü yazırdı. Onun fikrincə, mütləqiyyətçi istibdadla mübarizə aparmağın tək nicat yolu da sosialist inqilabdan keçir. Bu baxımdan "Dəhşətli məbər" ("Dəhşətli yol") məqaləsində Rəsulzadə yazırdı ki, çar Rusiyasını bürüyən anarxiya buradakı millətlər mövqeyindən inqilablar edib azadlığa çıxmaq üçün bir yoldur: "Bu bir yoldur ki, bunu cəmi milləli-qərbiyyə getmişlər və

[161] Yenə orada, s.38
[162] Yenə orada, s.39
[163] Yenə orada, s.40

yerdə qalan millətlər də gedəcəklər. Bu bir keçiddir ki, tarix hamısını buradan sürüb keçirdəcəkdir. Bu bir dəhşətli yoldur ki, istər-istəməz hər kəs buradan keçməyə məcburdur. Bu bir məbərdir ki, istibdad dağlarından axan bulanlıq zülm sellərindən tərkib tapmış dəhşətli bir nəhr içində ittifaq düşmüşdür". [164]

Rəsulzadə hesab edirdi ki, Rusiyada baş verən 1905-ci il 17 oktyabr inqilabı bu yolda başlanğıc olub fəhlə və füqərayi-kasibənin inqilabıdır. Onun fikrincə, çarlıqda zülm və istibdadla hürriyyət və səadət arasında mübarizə gedir, bu da həmin dəhşətli yoldur ki, bunun üçün çaydan, göldən keçmək lazımdır: "Rusiya camaatı təyyi-mənzil edib, indi bu nəhri (çayı, gölü) keçib çəmənzara çıxmaq istiyor. Məlum olduğu üzrə bu da asan bir şey deyildir. Bu yolda fədakarlıq lazımdır. Cürət, himmət, qeyrət gərəkdir. Buradan geri qayıtmaq olmaz. Bu yolu labüd və naçar keçməlidir. Bu yolu keçdikdə insan tələfatı, mal zərəri və qeyri qəzalar olacaq. Kimini su aparacaq, kimi ayaq altında qalıb şikəst olacaq, bir-birindən yol almaq üçün mübahisə, mücadilələr də olacaq". [165] Çarlıqda əzilən bütün zümrələrin artıq ayağa qalxdığını deyən Rəsulzadə inanırdı ki, imperiya camaatının tamamı dəhşətli yoldan, yəni inqilab yolundan keçməkdə israrlıdır.[166]

Rəsulzadə 17 oktyabr inqilabının ildönümünə həsr etdiyi məqaləsində isə çarlıqdakı inqilabın bir il ərzində doğurduğu nəticələri göstərərək hökumətin verdiyi vədlərin boşa çıxdığını yazırdı. Çar Rusiyasında vəziyyətin inqilabaqədərki şəraitdən daha dözülməz olduğunu yazan Rəsulzadəyə görə 17 oktyabrda çox vədələr verilsə də, hamısı yarımçıq qalmışdı: "Həm mətbuat hürriyyəti, həm danışıq, ittifaq və ictimalar azadlığı, hürriyyəti-din və vicdan, insani ondan mən eləmək olmayacaq bir taqım hürriyyətlər, cümləsi vəd edilmişdi. Bəli, vəd edilmişdi. Yalxu (yalqız) vədə olub da vədəliyində qaldı, yəni qövldən felə keçmədi. Qövldən felə keçmədi səhihdir, tərəqqiyi məkus edib

[164] Yenə orada, s.55
[165] Yenə orada, s.56
[166] Yenə orada, s.56

oktyabrdan qabaqki dövrdən daha betər, daha acraq olaraq zülm və təəddilər rəsmi cəbr və təkdirlər çoxaldı".[167]

Rəsulzadə adıçəkilən məqaləsində, qeyri-müsəlmanların çarizmin verdiyi az-çox hürriyyətdən istifadə etdiyi zaman müsəlmanların bundan kənarda qalmasına da biganə yanaşa bilmirdi. Müsəlmanların bu məsələdə də geri qalmasına təəssüf edən Rəsulzadə yazırdı ki, hər kəs öz hüququnu yaxşıca bilsə də, biz müsəlmanlar öz hüququmuzu heç yamanca da olsun belə bilmirik: “Cümlə millətlər vəkil göndərəndə, o vəkilin nə əqidədə, nə yolda işlədiklərini bilib seçirdilərsə, biz əlli iki min hiylə və təzvir qurub öz aşnamızı, dostumuzu, "millət necə tarac olur olsun, nə işim var" - deyib, vəkil etməyə çalışdıq. Ümumi adətimizə görə hər kəsin pulu varsa, arxalı isə, qolu güclü isə ondan qoruxub, öz hüququmuzu bir taqım "millətpərəst" naminə cibpərəstlərə qruban etdik. Vəkil seçəndə onun istedadına, bacarığına, əqidəsinə, tutduğu məsləkinə etina etməyib, fəqət filankəs oxumuş adamdır, filan ağa onu təklif edir - deyə qoyun sürüsü kimi birimiz hürükdükdə qeyrilərimiz də həmin tərəfə qaçışdıq. Dəxi Rusiyanı bürüyən bu təlatüm və həyacanın həmin bu hüquqpərəstlikdən öz qədr və heysiyyəti-insaniyyəsini özgələrə qurban etməmək xahişində olmadan nəşət etməsini qanmadıq".[168]

Çar Rusiyasını apardığı politika nəticəsində assimilyasiya təhlükəsi ilə üzbəüz qalan müsəlmanları-türkləri bir daha belə ciddi səhvlərə yol verməməyə çağıran Rəsulzadə hesab edirdi ki, onların nicat yolu isə imperiyanın süquta uğrayıb sosial-demokratizm təliminin qalib gəlməsi ilə bağlıdır. Bu baxımdan o, müsəlman-türk əhalini Rusiyada seçkiyə çalışan, öz işini meydandan aparmağa əlləşən iki böyük üz-üzə durmuş tərəflər, yəni “sol”lardan və “sağ”lardan birinciyə dəstək verməyə çağırırdı. Rəsulzadə yazırdı: “Onlardan əvvəlincisi həqiqi hürriyyət tərəfdarı olub, insaniyyət, həqqaniyyət, füqəra və züəfa tərəfdarı olub, məmləkətin bir girdabi-həlakətə döndərən bürokratiya və

[167] Yenə orada, s.64
[168] Yenə orada, s.65

üsuli-istibdadiyyə və keyfəmayəşa düşmən olanlar, o biri tərəf isə "həqiqi rus" və "17 oktyabr" firqələri kimi köhnəpərəst olan bədəndişə pis fikirlilərdən ibarətdir ki, Rusiyanı azadlıq və səadətə hələ qabil bilməyib, bir az da onu zənciri-əsarətdə saxlamaq tərəfdarlarıdırlar".[169]

Rəsulzadənin fikrincə, yalnız sosial-demokratlar hürriyyət və azadlıq tərəfdarı olub, hökumətin camaatın, xalqın əlinə keçməsində israrlıdır. Ona görə də, hökumətin seçkilərdə “sol” yönlü sosial-demokratların deyil, bürokrat və istibdad tərəfdarları olan “sağ”ların seçilməsinə çalışmalarını təsadüfi saymayan Rəsulzadə yazırdı ki, bununla da hökumət nə yolla olursa-olsun, Çarlıqda az-çox mövcud olan hürriyyəti və azadlığı boğmaq istəyir. Ona görə də çar hökuməti yalnız “sol” firqələri, onların üzvlərini deyil, hətta onlara yaxın olan təşkilatların da tərafdarlarını təqib etməkdədir. Bu baxımdan Dövət Dumasını "sağ"laşdırmaq, hökumətyanlı "sağ"larla doldurmaq istəyənlərə qarşı mübarizə aparan Rəsulzadə müsəlman türkləri, bütün azadlıq sevənləri buna yol verməməyə çağırır və bundan çıxış yolunu da göstərirdi: "İndi ey azadlığı sevən, cəmaət, ey hökumət cəbr və təəddisinə dübarədən mübtəla olmaq istəməyənlər, ey Rusiyanın anarxiya halından cana gəlib bir rahi-səadət arayanlar, iki yoldan birini qəbul edin: ya sol tərəfə gedib gözlədiyiniz hürriyyət və azadlığa, səadət və rəfahətə çıxınız. Ya da istibdad və zülmə alışdığınızdan ondan ayrıla bilməyib sağ tərəfə yollanınız ki, ölkəni, cəmaəti tazədən zəncirə çəkəsiniz". [170]

Deməli, Rəsulzadə üçün çarlıq hökuməti ilə “sağ”çı siyasi qüvvələrin, onların millət vəkillərinin mahiyyəti bir olub, bütövlükdə imperiya daxilindəki insanların azadlığının və millətlərin istiqilalının düşməni mövqeyində idi. Ancaq “sol” qüvvələrlə onlara aid millət vəkilləri isə tam tərsinə, insanların azadlığı və millətlərin istiqlaları yolunda əsasən, onun düşüncələri ilə həmrəylik təşkil etmişdi. Çünki həmin dövrdə birincilər-“sağ”lar

---

[169] Yenə orada, s.79
[170] Yenə orada, s.80

daha çox imperiyanın mütləqiyyətçiliyindən, bütövlüyündən yana göründükləri halda, ikincilər- "sol"ların isə imperiyanın inqilab yoluyla süquta uğradılaraq buradakı insanların və millətlərin azadlığından, sosial bərabərliyindən çıxış etmələri təəssüratı daha güclü idi. Hər halda imperiya daxilindəki müxtəlif millətlərin sosialist inqilabından sonrakı milli və dini xüsusiyyətlərsiz, sinifsiz "kommunizm" cəmiyyətində taleyinin konkret necə olacağı ilə bağlı tam dəqiqi təsəvvür olmasa da, bütün hallarda "sol"ların prinsipləri hökumətin yürütdüyü, "sağ"ların da dəstək verdiyi mövcud siyasətə münasibətdə daha cəlbedici olub, əsas nicat yolu kimi özünü ifadə edirdi.

Bu baxımdan 2-ci Dumanın açılışına bir neçə gün qalmış Rəsulzadə hələ də ümid edirdi ki, "sol" cəbhədə dayanan hürriyyətçi, azadlıqsevər millət vəkilləri camaatın tələblərini çarizm cəlladlarına yetirib onların hökumət başından rədd olmalarına nail ola biləcəklər. Birinci Dumanı buraxmaqla əhalini "sağ"laşdırmaq niyyəti güdən stolıpinlərin səhvə yol verdiyini yazan Rəsulzadə inanırdı ki, camaat artıq ikinci Dumanın məhvinə razı olmayacaqdır. Bu baxımdan "insanlara azadlıq, millətlərə istiqlal" carçısı olan Rəsulzadə yazırdı: "Cəmaət qoymayacaqdır ki, bir dəxi o, bir gün də olsa Dumasız qalsın. Cəmaət Dumanın təbdilinə, özündən ali bir idarə təbdilinə razı olar, lakin qovulmasına bir dəqiqə olsun, səbr edəməz… Duma bədəndir, cəmaət onun ruhu! Bədənə ruh verilməlidir, vətəndaşlar! Duma bir idarədir ki, onun vasitəsilə cəmaət tamam ixtiyarlar el məclisinə müvəffəq ola bilər. Duma intihayi-amal deyildir. Lakin ona yetməyə bir alətdir! Duma həqiqi cəmaət nümayəndəsi deyildir. Lakin onun vasitəsi ilə həqiqi cəmaət nümayəndəliyinə çatmaq olar!". [171]

Buradan görünür ki, Rəsulzadə əsas məqsədə, yəni "insanlara azadlıq, millətlərə istiqlal"a çatmaq üçün "sol"ların Dumada güclü mövqeyə sahib olmasını, bununla da imperiyanın dağılmasının sürətlənməsinin tərəfdarı olmuşdur. O, hesab

---

[171] Yenə orada, s.117

edirmiş ki, hazırda yalnız “sol” qüvvələr, xüsusilə də “sosial-demokrat”lar imperyanın yalnız “ağa” xalqı olan rusların deyil, bütün imperiya xalqlarının azadlığı və sosial bərabərliyini tələb etdiyi üçün, nicat yolu da onlara dəstək vermək və Dumada güclü mövqeyə sahib olmasına çalışmaqdır.

Ancaq çox keçmədən 2-ci Duma da stolıpinlərin əlində oyuncağa çevrilir ki, “sol”ların hökumət və hökumətyanlı “sağ”lar tərəfindən məğlub duruma düşməsinin canlı şahidi olan Rəsulzadə, digər sosial-demokratlar kimi bu hadisəni böyük üzüntü ilə qarşılamışdır. Üstəlik, “sol”ların öz varlığını nisbətən hiss etdirə bildiyi 2-ci Dumanın ömrünün qısa olması, daha sonra da çarlığın istibdadı yenidən gücləndirib 3-cü Dumanı tam şəkildə öz əlində cəmləşdirməsi, azad mətbuatın bir-birinin ardınca bağlanması, "Hümmət"in siyasi fəaliyyətinə qadağa və bəzi üzvlərinin həbsxanalara atılaraq Sibirə sürgün olunması və digər amillər Rəsulzadəyə də mənfi anlamda psixiloji təsir göstərmişdi. Bu baxımdan 3-cü Dumadan heç nə gözləməyən Rəsulzadə yazırdı ki, artıq bu Duma millətin deyil, ancaq hökumətin işinə yarıyır. Rəsulzadə yazırdı: "Sol tərəf geriləndi, iştə qanuni-təbii olaraq, gerilənən sol tərəf yerini doldurmaq üçün Stolıpindən sağda duran "sağ xilafdarlar hərəkətə gəldilər"".[172]

Bu isə o demək idi ki, “sol” qüvvələrin zəifləməsindən sonra “sağ” daxilindəki bəzi dairələr hökumətə münasibətdə müxalif davranmağa başlamışdılar. Hər halda “sol”ların əsasən sıradan çıxmasının nəticəsi olaraq “sağ”lar içində müəyyən məsələlərdə sosial-demokratlarla həmrəy olanları da narazı salan və narahat edən məsələlər var idi. Xüsusilə də, müsəlmanlar-türklər arasında “sağ”lara meyilliyi ilə seçilənlər (İ.Qaspıralı, Ə.Topçubaşov və b.), 3-cü Dumada “sol”ların tamamilə sıradan çıxması ilə əslində müsəlman xalqların milli-mədəni haqları məsələsində geriyə çəkilmək kimi məcburiyyətlə üzbəüz qalmalarına razılaşa bilmirdilər.

---

[172] Yenə orada, s.160

Bütün hallarda 3-cü Duma dövründə çarizm istibdadının güclənməsi ilə “sol” qüvvəllər böyük zərbə almış, onlara aid partiyalar və qəzetlər bağlanmış, “sağ”lar daxilindəki “xilafdar-lar”da əsasən, bundan yan qaça bilməmişdilər. Əslində 1907-ci ildən sonrakı dövrdə “sol”a meyil edənlərin və “sağ xilafdarlar”ın fəaliyyəti tamamilə qadağan edilib hamısı həbs edilməmişdirsə, ilk dövrlərdə bu, az-çox 17 oktyabr inqilabının qalıqlarının nəticəsi idi. Görünür, bunu nəzərə alaraq Rəsulzadə 1908-ci ilin payızında 17 oktyabr inqilabının üçüncü ildönümünə həsr etdiyi bir məqaləsində yazırdı ki, inqilabın əlamətləri hələ də qalmaqda, az da olsa inqilabi ümidlərin yaşmasını saxlamaqdadır. O, yazırdı: "Rusiya cəmaəti o günləri bir ayrı məişətə, bir ayrı rüzigara girmək istəyirlərdi. Rusiya övzai-ictimaiyyəsi köhnə qəvaidən qurtarıb tazə əsrül-güzəran və rəftara keçmək istəyirdi. Bu təşəbbüs ona əl vermədisə ürəklərdə, ağıllarda, evlərdə, binalarda, havada belə məhv olunmaz əsərlər buraxdı…". [173]

Ancaq çox keçmədi ki, çar Rusiyasının güclənən istibdadı, təhdidləri yalnız birbaşa “sol”çuluqla fəaliyyət göstərənləri deyil, ona Rəsulzadə kimi dəstək verənləri və “sağ xilafdarlar”ı da hədəf aldı. Belə ki, Ə.Topçubaçov Vıboruq bəyannaməsinə imza atdığı üçn həbs edildiyi halda, Ə.Ağaoğlu və Ə.Hüseynzadə Osmanlıya, Rəsulzadə isə Qacarlar dövlətinə üz tutmağa məcbur oldular.

**Gənc Rəsulzadənin baxışlarında sosial-demokratizm və milliyyət.** İlk dövrlərdə Rəsulzadə sosial-demokratizm tərəfdarı kimi həqiqi milliyyətin sosial-demokratiyaya əks olmadığını sübut etməyə çalışmışdı. Milliyyət məsələsinə sosial-demokratların bəslədiyi münasibəti ən doğru taktika kimi qəbul edən Rəsulzadə "Milliyyət məsələsi" adlı məqaləsində yazırdı ki, milli ədavət toxumunu, milliyyət məsələsini çarizm istibdadı ortaya salıb: "Rusiya məmləkətində hökm sürən istibdadın ən qədim və köhnə olan üsullarından biri budur ki, istibdad (yəni bir nəfərin, yaxud bir dəstənin keyfi istədiyi kimi edilən idarə) özünə tabe olan

---

[173] Yenə orada, s.242

millətləri bir-biri ilə yağılaşdırıb və tutuşdurub və bununula müxtəlif millətlər arasında ziddiyyət və düşmənçilik salıyordu, hökumət tamam qərinə özünü öz təhti hökumətində olan millətləri bəzi-bəzi xüsusi qanunlar verməklə və özünün nökərləri-qulluqçuları vasitəsilə və bəzi öz millətini, qövmini hər bir irz və namusunu satan "rəislər"in köməyi ilə cümlə Rusiya təbəəsi millətləri: müsəlmanları, ermənilər, gürcüləri, polyakları və qeyrilərini təqib edib sıxırdı".[174]

Rəsulzadəyə görə partiyalar arasında milliyyət məsələsi ilə bağlı sağlam, doğru xətti tutan sosial-demokratlar olub, onların bu mövqeyi bir çox yanlış izahlara baxmayaraq, demokratikliyi və konstruktivliyi seçilməkdədir. O, yazırdı: "Ən sol firqələr cümləsindən ictimaiyyun-ammiyyun (sosial-demokratizm – F.Ə.) hal-hazırda mövcud olan bir millətin o biri millətə olan hökmranlığında haman sərmayə binasının səmərəsini görür, necə ki, bir sinfin o biri sinfə ağa olub onun zəhmətindən nəfbərdar olmasında vardır. Bir millətin o biri millətin üstündə ağalığını və birinin o birinə olan tabeliyini yerli-dibli puç etmək ancaq bu sərmayə əsasını uçurub, zatən nifaq və müsavatsızlıq deyil, ittihad, ittifaq, müsavat və qardaşlıq əsası üzrə bina olunan, ictimaiyyət əsasını quranda olar - deyib əlavə edir ki, "həmin bu zamanda, yəni sərmayadarlıq əsası durduğu halda ictimaiyyun-ammiyyun təzyiqə-milliyyə, yəni millətlərin zülm və cəbr altında qalması qarşısına şiddətlə cihad ediyor. İndiki Rusiyada millət təzyiqini rəf etməkdən ötrü hökuməti-istibdadiyyəyənin kökünü bilmərrə aradan götürüb el hökumətilə bərabər elə müəssisələr icad etməlidir ki, hər millətin həyati-ruhaniyyəsinə azadlıq ilə tərəqqi etmək yollarını təmin eləsin"". [175]

Rəsulzadə inanırdı ki, sosial-demokratlar bütün millətlərin problemlərinə eyni prizmadan yanaşır və onların milli mədəniyyətinə, dilərinə yüksək dəyər verir. Başqa sözlə, o, sosial demokratizmdə milli məsələyə dəyər verilməməsi fikrinin yanlış

---

[174] Rəsulzadə M.Ə. Əsərləri. I cild (1903-1909). Bakı, "Təhsil", 2014, s.83
[175] Yenə orada, s.84

oldğunu yazırdı: "Bu da əvvəl və biləvvəl milləti təzyiq və yox etmək niyyəti ilə olmuş olsa da, verilən qanunların götürülməsindən sonra cümlə Rusiya məmləkətində olan millətlərin öz dillərini hər bir ümumi və xüsusi dairələrdə, məsələn, sudlarda, divanxanalarda, upravalarda, kontorlarda işlətmək imkanından və həmçinin öz uşaqlarını ana dilində oxutdurmaqdan və cümlə vətəndaşlara bilatəfriq millət hər bir qulluq xidmətlərə mümanətsiz girməkdən ibarətdir. Budur, o əsaslar ki, onun üstündə sosial-demokratiya milliyyəti gözləyir. İctimaiyyun-amiyyun düşmənləri bu firqəni ləkəyərək deyirlər ki, guya ictimaiyyət əfkarı milliyyəti bilmərrə götürüb millətlərin mədəniyyət, ədəbiyyat və dillərinə əsla qədr vermiyor". [176]

O, yazırdı ki, sosial-demokratlar "milliyyət"ə düşməndirlərsə, bu həqiqi milliyyət deyil, dırnaqarasına keçirilən "milliyyətçi"likdir: "... bu da ancaq milliyyət maskası (niqabı ilə) örtülmüş cibpərəstlikdən ibartədir ki, millət sözünü hiyləgər sərmayədarlar əllərində aləti-kəsbi ruzi eləmişlər. Sosial-demokratiya külli millətlərin özü üçün tərəqqi edib mədəniyyətləşməsinə zidd deyildir. Onların zidd olduğu o "millət"dir ki, özgə millətləri məhv və müzməhlil (assimilyasiya) etmək istiyor".[177]

Əlbəttə, dövrün şərtləri altında "sosial-demokrat"lar milliyyətə tamamilə əks olmasalar da, ancaq onların cəmiyyətin gələcəyinə doğru planlarına görə gec-tez millət anlayışı ortadan qalxmalı idi. Sadəcə hələlik, mövcud sosialist dövləti olmadığı üçün, sinifsiz cəmiyyətdə millətin taleyinin necə olacağı haqqında da qəti bir mülahizə yürütmək mümkün deyildi. Bu baxımdan ilk mərhələdə "sosial-demokrat"lar sinfi mübarizə aparmaqla yanaşı, imperiya daxilindəki xalqların dil, mədəniyyət və digər haqlarını da müdafiə edirdi. Şübhəsiz, Rəsulzadə kimi xalqı əsarət altında olan mütəfəkkirlərdə bunu görərək sosial-demokratizmi təqdir edir, onun xalqların milli haqlarını müdafiə etməsi mövqeyini əlində əsas tutaraq çarizmə qarşı mübarizədə müsəlman-türk

[176] Yenə orada, s.84
[177] Yenə orada, s.84

əhalini oyanaraq maariflənməyə, azadlığa, inqilaba dəstək verməyə çağırırdı. Rəsulzadə yazırdı: "Millətimiz bir cəhl içində yaşayıb, ömrünü qəflət və xəbərsizlikdə keçirməkdədir. Ətrafını tutan heç bir hərəkətləri sənələr ilə istibdadın və hökuməti-mütləqinin çəkdiyi zəncirlərdən keyimiş bədəni hiss etməyib havayı-havayı sözlər ilə cəfəngiyyat və mövhumata həkayə və vəzlərilə dolmuş qulaqları külli Rusiyanı çuğlayan hürriyyət və inqilab sədalarını eşitmiyor. Alimnüma mollaların göz heyrətləndirən şəbədələri və sərmayədarların hər bir şeyi əsildə olmadığı bir rəngdə göstərmələrindən naşi pərdeyi-zəlam və qəflət ilə örtülən gözləri hürriyyət, insaniyyət və həqqaniyyət yolunda tökülən qanları, onu (özünü) əhatə edən rəzalət və zəlaləti görmiyor. Və daha doğrusu əvarizi-siyasiyyə ilə məyub olan gözləri əhvəl adamlar kimi hər bir şeyi başqa bir rəngdə, başqa bir ədəddə görür. Elmə həvəs etmiyor, mərifət kəsb eləmiyor, kəsb-ruzi yolunda lazım olan səy və kuşiş etmiyor, Allah özü yetirər diyor. Giriftar olduğu fəqir və faqəyə təhəmmül ediyor. Sahibkar və dövlətlinin hər bir gövr və sıxıntısına səbr ediyor. İnsana yaraşmaz ağırlıqlarda ən alçaq bir məvacib və şərtlər üzrə işliyor. Hər cəbr və zülmü, nə qədər ağır və şiddətli olsa da çəkiyor. Hər ədalətsizliklərə səbr edib dinmiyor, göydən belə yazılıb - diyor".[178]

Rəsulzadə özünə bir nicat yolunu tapa bilməyən millətin oyanmasına sosial-demokratizmin dəstək verdiyi halda, riyakar mollaların, "millətiçilər"in isə ona əngəl olduğuna inanırdı. O, yazırdı: "O biri yandan isə hallı mollalar, rövzəxanlar və qeyri bu kimi şəbədəbazlar, o zülm və zülmətin əmirləri, o şəriət və millətin xadimləri, o pula səcdə edən dənilər bu biçarəni səbrə, təhəmmülə, hər bir şeyə razı olub "Allah tərəfindən müqəddərdir razı olmaq gərək" - deməyə alışdırıb və bu zəifin, bu məzlumun başaltını yastıqlayıb, onu yatırdırlar".[179]

Beləliklə, Rəsulzadə türk-müsəlman xalqların cəhalətdən oyanıb Avropa, Amerika xalqları ilə birlikdə Rusiya imperiyasına

[178] Yenə orada, s.89-90

[179] Yenə orada, s.90

qarşı hürriyyət və milli azadlıq uğrunda mübarizə aparmasını istəyirdi. O, insanlara hürriyyət, millətlərə azadlıq uğrunda mübarizə aparmaqda, inqilabçılıqda daha çox ümidini gənclərə bağlayırdı. Bu məqsədlə o, cavanlara üz tutaraq onları cəhalətdən əl çəkməyə çağırırdı: “Ey millət, millət deyib bar-bar bağıranlar, ey öz elm və bilikləri ilə fəxr və mühabat edən cavanlar, ey tələbəlik və studentlik faxir libası ilə müzəyyən ziyadarlar, ey cəmaət müəllimi adlanan zəvati-kiramlar, ey təbən hürriyyət və azadlıq məftunu olan millət balaları! Biçarə füqəra ürəyinin ən dərin guşəsindən gələn bu səda və fəryadı, millətimizin çox qismi olan bu füqəra və kəsəbənin yanğılı fəryadlarına guş veriniz. Giriniz bunlarnı içinə, göstərin onlara o yolu ki, onunla mənzilə yetişə bilsinlər… Bir baxın özgələrə, bir baxın ətrafınıza, bir görün qeyri-millət cavanları nə qayırırlar, nə yolda iş görüyorlar. Necə gör hürriyyət və füqəra yolunda candan və başdan keçiyorlar”. [180] Rəsulzadə yaxşı anlayırdı ki, məhz gənclər inqilabın avanqardı rolunu oynaya bilər. O, inanırdı ki, dünyagörüşü inkişaf edən müsəlman gəncləri sosial-demokratizm ideyalarının həyata keçirilməsində yaxından iştirak edəcək və hansı ideyanın arxasınca getdiklərini də anlamış olacaqlar.

1906-cı ildə, Dövlət Dumasına seçkilərə həsr etdiyi "Bakı, 10 dekabr" adlı başqa bir məqaləsində “ictimaiyyun-ammiyyun (sosial-demokrat) müsəlman firqəsidir” - deyə, Rəsulzadə yazırdı ki, nə "həqiqi rus", nə daşnaksutyun, inqilabçı-sosialistlər və kadetlərin bloku, nə də ki, müsəlmanların bloku sağlam, azadlıqsevər xətt seçməyib. Rəsulzadəyə görə yalnız sosial-demokratlar həmişə camaat və onun səadəti yolunda çalışıb, onun mənafeyinin mühafizə və qarovulçusu olub: “Bu firqeyi-ammə cəmaətindir. Bu firqə hüquqsuzların, məzlum və məfluqların firqəsidir. Bu firqənin amalı və əfkarı fəqət füqərayi-kasibənin əmniyyətini təmin edib, ümum insanları nəzərində bir tutub, bilafərq millət, məzhəb, arvad və kişilərin hər bir hüquq və

---

[180] Yenə orada, s.91

ixtiyaratda müsavi olmalarıdır. Bu firqə beynəlmiləldir. Bunun üçün milliyyət filan yoxdur. Bunun nəzərində əhəmiyyət qazanan fəqət sinifdir. Bir-biri ilə zidd olan iki sinfin ki, onları heç bir rabitə müttəhid edə bilməz…. Əsil həqiqətinə baxsaq, biz müsəlmanlar ümumən bir məzlumlarıq. İctimaiyyun-ammiyyunda məzlumlar firqəsidir. Kəmali-cürətlə demək olar ki, ictimaiyyun-ammiyyun müsəlman firqəsidir. Bəli, müsəlmanlara, müsəlman füqəra və məzlumlarına, o ixtiyarsız və hüquqsuz füqəralara bir firqəyə mülhəq olmaq, bir heyətə mənsub olmaq münasibət və məravə yavuq isə o da "ictimaiyyun-ammiyyun firqəsidir"". [181]

Bizcə, Rəsulzadənin "sosial-demokrat" firqəsini müsəlmanları müdafiə edən əsas partiyalardan biri kimi göstərməsi həmin dövrün tələbləri, gerçəklikləri ilə bağlı idi. Yuxarıda da qeyd etdiyimiz kimi, hələlik rus "sosial-demokrat"ları əsil üzlərini açıb ortaya qoymamışdılar. Onlar çarizmi yıxıb yerində Sovet imperiyası qurmaq üçün qeyri-rus millətlərin, o cümlədən də müsəlmanların məzlumlarına ehtiyacı vardı. Bu anlamda rus "sosial-demokratlar" ilk dövrlərdə qeyri-rus xalqların məzlumlarının da müdafiəçisi kimi çıxış edirdi ki, Rəsulzadə də bunu nəzərə alaraq onların partiyasını əzilən müsəlmanların tərəfdarı adlandırırdı.

Bu baxımdan türk-müsəlman əhalini Dumaya seçkilərə səsləyən Rəsulzadə millət naminə, millət üçün işləyən "sol" qüvvələrə seçməyə çağırırdı. Onun fikrincə, aşkarda və gizlində "millətçilik"lə, "ümmətçilik"lə məşğul olan partiyalardan isə xalq uzaq durmalıdır: "Müstəqilən çalışmaldır ki, ictimaiyyun-ammiyyun keçsin. Yox, bu mümkün olmaz isə "Yer və ixtiyar" ilə müsəlman blokunun arasında heç bir təfavüt yoxdur! Təfavüt yoxdur, deyiriz. Zira, həqiqətən millətçi olub üzünü dürlü-dürlü maskalar ilə örtən bir millətçinin, aşkara millətçilik edən ilə heç bir təfavütü olmasın gərək". [182] O, "sosial-demokrat" firqəsinə fəhlə, kəndli, kasıb və məzlumların partiyası kimi üstünlük verirdi. Bütün məzlumları birgə və bərabər şəkildə istibdada qarşı

[181]Yenə orada, s.102
[182] Yenə orada, s.106

səsləyən Rəsulzadə yazırdı: “... ictimaiyyun-ammiyyun üçün milliyyət - filan yoxdur. Fəqət məzlumların haqqını himayə etmək, həqiqəti açıb, aləmə bildirmək vardır”.[183]

Beləliklə, “milliyyət məsələsi”nə sırf sosial-demokrat nəzəriyyəsindən baxan Rəsulzadə "Milliyyət məsələsi", "Milliyyət və ticarət" və digər məqalələrində Rəsulzadə bunu geniş şəkildə şərh etmişdi. "Milliyyət məsələsi" məqaləsində Rəsulzadə daha çox sosial-demokrat əqidəsinin milliyyətə zidd olmamasından yazır ki, bunu, bir qədər geniş şəkildə yuxarıda, mütəfəkkirin sosial-demokrat baxışlarını izah edərkən qeyd etmişik. Rəsulzadə "Milliyyət və ticarət" məqaləsində isə "millətpərəst"lərin iç üzünü açmağa cəhd göstərir və onların əsl simaları haqqında yazırdı: “Milliyyəti təbliğ edənlər həmişə sinfiyyətə göz örtüb onu görmək istəməyənlərdir. Bir millətpərəst millət dedikdə dövlətli-kasıb, mülkədar-rəncbər, iş verən və işçiliyi nəzərə almayıb, fəqət bir dildə danışan bir adətdə olanları nəzərə alır. Milliyyət müqəddəsdir, qeyri mütacavizdir, hüququ mühafizə edilməlidir, hər bir xarici sədəmədən saxlanılmalıdır kimi iki mənalı sözlər diyor. Bir mülkədar ilə rəncbəri, bir sərmayədar ilə fəhləni, bir iş verənlə işçini nəzərində "bərabər" tutub onları ayrılmaz bir heyət, firqələnməz kilit hesab ediyor. Millətin içində sinifləri və bu siniflər arasında birləşən təbayün və təbii ziddliyi görmiyor və daha doğrusu görmək istəmiyor”.[184]

O, yazırdı ki, adını millətpərəstlər qoyanlar, öz ağır həyatlarına dözməyib tətil edən öz soydaşlarına qarşı heç bir insanlığa sığışmayan hərəkətlər edir, döydürür və həbsxanalara saldırır: "Yəni həqiqət göstərmişdir ki, millətdən hesab olunan bir taqım məzlum fəhlələrin cüzi də olsa əhvallarını dərc edən qəzetəyə fabrikasını millət üçün qayıran sərmayədar necə hərbələr gəlib, nə biabırçılıqlar eləmişdir!! Hər kəscə məlum və aşkardır ki, müsəlman firmaları ki, onlarda işləyənlərin çoxusu (dəcəl olmadıqları üçün) müsəlmandırlar. Həmin fəhlələr hamıdan ucuz və ağır

---

[183] Yenə orada, s.117

[184] Rəsulzadə M.Ə. Milliyyət və ticarət. «Təkamül» qəz., Bakı, 1906, 30 dekabr

şəraitdə işləyirlər. Onların qayğısına qalan yoxdur məsələsi o yanda dursun, həmişə tərbiyyət və inqiyyada qalmaqları üçün "millətpərəsət" ağalar tərəfindən saxlanan qoçular vardır… Xülasə, sözümüz oradadır ki, dili bir olmaq, adəti bir-birinə oxşamaq ilə ittihad, birlik lazım görünür isə də, şərh etdliyimiz iqtisadi cəhət bu ittihadı hər bir halda "nifaqa" döndərir".[185]

Deməli, bu dövrdə milliyyət məsələsinin önə çəkilməsinə əngəl olan əsas amillərdən biri də saxta "milliyyətçi"lərin hərəkətləri olub. Hər halda özlərini milliyyətçi adlandıranların bəzilərinin əməlləri ilə sözlərinin üst-üstə düşməməsi Rəsulzadəni nəzərindən yayınmırdı. Rəsulzadə yazırdı ki, sahibkarlar öz fəhlələrinə qeyri-millətdən olan fəhlələrə qoşulmamağı tövsiyə etdiyi bir halda özləri müxtəlif millətlərin sahibkarları və ya tacirlərinin ittifaqlarına daxil olur, can-başla qulluq edirdilər: ""Özgə fəhlələrin ittifaqına qoşulmaq müsəlman fəhləsinə yaramaz"-diyor da cənab millətpərəst tacir özü tacirlərin bilafərq millət təşkil olunan ittifaqına girib, can-başla qulluq ediyor. İndi müsəlman "millətpərəstləri" də müsəlman fabrikantçıların mallarını rəvac vermək üçün həmin gömrükə oxşar bir vəsiləyə əl atıyorlar ki, o da milliyyət hissindən istifadə etmək istəyib, məzkur malları millət mətai - deyə satdırmaqdadır. Lakin bu zəvatə deyilməlidir ki, əzizim, nə ticarət və nə müştərilik milliyət qanmayır, hərgah beləlalri tapılarsa, o da onların fanatizminə mərbutdur". [186] Rəsulzadə bununla demək istəyir ki, "millətpərəstlər"in milliyyət məsələsini ortaya atmaqda məqsədləri heç də millətin halına yanmaq deyil, daha yaxşı ticarət etməkdir: "Yox cənab "millətpərəstlər", bu yol ilə sənaye və ticarət irəliyə getməz, heç vaxt da tərəqqi eləməz… camaat də heç öz əli ilə özünə quyu qazımaz, qurd balasını tutub, öz əli ilə bəsləməz!". [187]

Bu cür hallar, mütərəqqi milliyyətpərvərliyə olan münasibəti mənfiləşdirirdi. Rəsulzadə kimi milli ziyalılarımız isə, bu cür

[185] Rəsulzadə M.Ə. Əsərləri. I cild (1903-1909). Bakı, "Təhsil", 2014, s.94-95
[186] Rəsulzadə M.Ə. Milliyyət və ticarət. «Təkamül» qəz., Bakı, 1906, 30 dekabr
[187] Rəsulzadə M.Ə. Əsərləri. I cild (1903-1909). Bakı, "Təhsil", 2014, s.95

"millətpərəstlik" etməkdənsə, nicat yolunu sinfi mübarizədə, dünyada sosializmin qələbəsində görürdülər. Çünki Rəsulzadə saxta "millətpərəstliy"i heç bir cəhətdən qəbul etmirdi: "Bax iki cür "millətpərəstlik var. Biri qoçaq, biri də maymaq. O ki qoçaq millətpərəstdir - gedib bir dükan açır, yainki karxana bina eləyir. Adın qoyur "millət dükanı", yainki "millət fabrikası", başlayır yavaş-yavaş "millət qarpızı"; "millət papirosu"; "millət bezi" satmağa. Bu "millətpərəst"in mətai də həmişə qeyrilərinkindən bir az baha olur. Bu da məlumdur ki, nə üçün, ondan ötrü ki, özgələrinin yalxu (təkcə) papiros, qarpız, bez və flan isə, bunun ki, "millət qarpızı", "millət papirosu"; "millət bezi" və "millət flanı"dır. O ki, maymaq millətpərəstdir, o da bu qoçaqların sözlərinə inanıb, bir şahılıq qarpızı altı qəpiyə, acı "papirosu" "şirin" əvəzinə, 8 qəpiklik bezi 10 qəpiyə "millət" naminə alıb işlədir".[188]

Bütövlükdə Rəsulzadə millətçilik məsələsində heç də milli xüsusiyyətlərin əleyhinə çıxmırdı. Sadəcə, bir millətin başqa millət üzərində ağalığına etirazını bildirən Rəsulzadə inanırdı ki, cəmi dünya ölkələrinin xoşbəxtliyi isə bir millətin işi deyil: “Biz öz əqidəmizin göstərdiyi həqiqi yollarından kənar çıxmadığımız üçün müqəddəs əsas və binalarımızın rəxnədar olmadığına inandığımızdan hər bir millətçilik asarına qarşı dururuz. Biz deyiriz ki, hürriyyət, azadlıq, gələcək səadət və rəfahət bir şəxsin işi olmadığı kimi, bir millət, bir taifənin işi olmayıb, hamı insanların müttəhid, müttəfiq olaraq görəcəkləri bir əmri-əzimdir. Ona görə də “tək əldən səs gəlməz” zərbül-məsəlni ünvan edib, cümlə millətlərin füqəralarını ki, onların bir qismdə olan övzayi-iqtisadiyyə və haləti-ictimaiyyələri birləşdirib müttəfiq ediyor, çağırırız ki, birləşib birlikdə əlbir olaraq dəhşətli bir sitvəti ilə üstlərinə düşən istibdad zəncirini qırsınlar. Və bu nöqteyi-nəzərdən olaraq, hər bir firqə, hər bir heyəti ilə ki, bu əsasa ziddiyyət göstərib, bu binanın üstündə deyildir. Biz ümumi azadlıq naminə mübarizə ediyoruz”.[189]

[188] Yenə orada, s.100-101
[189] Yenə orada, s.111

Rəsulzadə əsil millətsevərliyi milli məktəblərin açılmasında və onun inkişafına köməkdə görür. Deməli, bu dövrdə Rəsulzadə üçün milliyyətsevərlik ana dilinin inkişafı, türk dilində məktəblərin olması, mətbuatın yaranmasıyla bağlı idi. "İbtidai yerli məktəblər" adlı məqaləsində M.Ə.Rəsulzadə milli məktəblərin açılması və təliminin ana dilində tədris olunmasına yüksək qiymət verir: "İbtidai məktəb gərək ki, milli olsun. İbtidai məktəb gərək ki, yerli cəmaətə doğma olsun. Burada təlim ana dilində olsun. Bu məktəblər gərək cəmaətin məişətinə uyğun olsun… İştə bu nəzərlər həmişə maarifi politika aləti deyil, cəmaət ümidgahı etmək istəyənlərin xahişi idi. Hər kəs ki, məktəbi azad bir Maarif İdarəsi bilirdisə,... mütləq onun fikri yerli məktəbləri yerli etmək idi... Ancaq bəzi surətnümalar, məktəblərə məktəblikdən irəli bürokratizm idarəsi və missionerxanalar nəzəri ilə baxanlar bu fikirlərin əleyhinə idilər".[190]

Rəsulzadə yazırdı ki, çar Rusiyasında baş verən 17 oktyabr manifestinə qədər "rus-müsəlman" adı ilə türk-müsəlmanlar üçün açılmış olan məktəblərdə millilik və islamlığın əsasən adı var idi. Belə ki, onıar müsəlman və yerli məktəbi hesab olunsalar da müsəlmanlıq və yerlilikdən fəqət bir ad var idi O, yazırdı: "Həftədə 25-30 dərs arasında 3 saat türk dili və 2 saatı şəriət dərsinə vaxt ayrılması bunu türk və müsəlman məktəbi ediyormuş". [191] Ona görə, yalnız çar manifestindən sonra "ibtidai məktəbləri milli olmaq surətinə salmaq istəyən" sağlam fikir zəfər çalmış oldu. Lakin bu da uzun sürmədi. O yazır ki, birinci rus inqilabı məğlubiyyətə uğrayandan sonra 1907-ci ilin noyabrından etibarən yenidən 1881-ci ilin təlim layihəsi elan və təsdiq edildi: "Mənən və maddən əhaliyə köməkçi olmaq və gələcək məişətlərində onlara rəhbər olmaq üçün "ana dilinə həftədə 6-ca saat verilir". "Rus milləti ilə tanış olub birləşmək üçün" isə rus dilinə 2 dəfə artıq olaraq həftədə 12 saat veriliyor".[192]

---

190 Rəsulzadə M.Ə. İbtidai yerli məktəblər. «Tərəqqi» qəz., Bakı, 1908, 20 noyabr
191 Rəsulzadə M.Ə. Əsərləri. I cild (1903-1909). Bakı, "Təhsil", 2014, s.265
192 Yenə orada, s.267

Rəsulzadə çar Rusiyasının müsəlmanlara qarşı bu cür rəftarını təsadüfi saymırdı. Rusiyanın siyasi həyatının ən ağrılı yerinin milli məsələ olduğunu qeyd edən M.Ə.Rəsulzadə "Milliyyət və əyalət məsələsi" adlı məqaləsində yazırdı: "Milliyyət və ya əyalət məsələsi; iştə Rusiya həyatının, həyati-siyasiyyəsinin ən azarlı, ən ağırlı yeri!.. Rusiyanın hər bir əyaləti, Rusiyada sakin olan hər bir millət, hökumət başında olan heyətə və ya Dumada olan əksəriyyətə öz əlaqə və münasibətini bu məsələnin surəti-həllinə nisbətlə müəyyən edir".[193]

Rəsulzadə yazır ki, Dövlət Dumasında da Qafqaza, qafqazlılara, xüsusilə müsəlmanlara ögey münasibət bəslənilir. Onun fikrincə, Fon-Anrep kimi oktyabrist deputatlar yerli əhalinin, daha doğrusu müsəlmanların ana dilində tədris almasına qarşı çıxırlar: "Öylə bir əyalətlərdən və təlimi-ibtidaisi ana dilində "ola bilənlərdən" biri də məlum olduğu üzrə Qafqazdır. Əcaba Qafqazda mümkün olacaqmı ki, tədrisi-ibtidai ana dilində olsun? Əcaba Fon-Anreplərin xüsusi mülahizat və siyasiyyatı bu zavalı əyalətə aid olmayacaqmı?..".[194]

"Qafqaz barəsində" məqaləsində isə o, Dumanın üzvü Purişkeviçin Qafqaz millətlərini Rusiyadan ayıraraq xüsusi idarə hazırlamaq fikrində olduqları mülahizəsini şərh edir: "Purişkeviçin fikrincə, bütün Qafqaz millətləri hamısı Rusiyadan ayrılmaq üzrə olub özlərinə xüsusi idarə hazırlamaq fikrindədirlərmiş… Qafqaz millətlərindən hökumətə və Rusiyaya sadiq, doğru qalan ancaq bir müsəlman milləti imiş ki, bunlar da Qafqaz hökuməti tərəfindən daima təqib olunmaqda imişlər. Böylə bir politikada da təqsir canişin həzrətlərinin üzərində deyil,...onu əhatə etmiş olan ermənipərəst rüşvətxor amirlər imiş".[195] Rəsulzadə Purişkeviçin bu sözlərini Qafqaz müsəlmanlarının qayğısına qalmaq kimi deyil, "qeyri-Qafqaz vətəndaşları... ilə düşmən surətində göstərib

[193] Yenə orada, s.277
[194] Yenə orada, s.278
[195] Rəsulzadə M.Ə. Qafqaz barəsində. «Tərəqqi» qəz., Bakı, 1908, 14 dekabr

canişin həzrətlərinin də tərəfdar bir hakim olduğunu isbat etməyə çalışmaq" mənasında qəbul etmişdir.

Milli məsələnin qabardılmasının əleyhinə olmasına baxmayaraq çar Rusiyasının millətlər arasında ayrı-seçkilik salmasını Rəsulzadə aydın şəkildə görürdü. Bu baxımdan milli və dini ayrı-seçkilik Rəsulzadənin fikirlərində getdikcə dəyişikliklərə səbəb olurdu. O, 1905-1906-cı illərdə baş vermiş erməni-müsəlman münaqişəsini də sosial-demokrat kimi çarizmin ucqarlara səpdiyi milli ədavət toxumu olaraq görmüşdür. Rəsulzadənin fikrincə, inqilabdan qoruxan çar Rusiyası millətlər arasında nifaq toxumu səpməklə əsas məsələdən-kapitalizmə, çarizmə qarşı mübarizədən xalqları yayındırmaq məqsədi güdmüşdü. Bu baxımdan Rəsulzadə "Bəlayi əzim", [196] "Kənddə müsibət", "Yenə də müsibətmi!? məqalələrində erməni-müsəlman münaqişəsinin əsil mahiyyətini xüsusilə də çar Rusiyasının bundan sosial-demokratizm əleyhinə işlər çevirməsini göstərməyə çalışmışdır.[197]

O, bəlli bir vaxtdan sonra erməni-müsəlman münaqişəsinin səbəbkarının yalnız çar Rusiyası deyil, terrorçu "Daşnaksutyun"-çuların və "sosial-demokrat" qılıqlı ermənilərin olduğunu da dərindən anlamışdır. Xüsusilə də, "İki nüktə" ("İki incə məna") məqaləsində "sosial-demokrat" qılıqlı erməni fəhlələrinin riyakarlığını ifşa edən Rəsulzadə yazırdı ki, Tağıyevin fəhlələri tətil edib erməni fəhlələrini işə qəbul edilməsini tələb etdiyi halda, erməni fəhlələri sahibkarlarına müsəlmanları fabrikdən çıxartmağı təklif edirlər: "Hacı Zeynalabdin Tağıyev cənablarının fəhlələri öz əhvali-iqtisadiyyələrini yaxşılaşdırmaq üçün tətil edib, sair tələbləri ilə bərabər bunu da tələb etdilər ki, fabrikaya hər bir millətdən, xüsusən erməni millətindən də fəhlələr qəbul olunsun. Həmin bu tələb bir böyük mətləbə sərçeşmə olub, həqiqətgüstər bir vaqiə oldu. Həmin bu tələb fəhlə sinfi üçün milliyyət, qövmiyyət mövcud olmadığını açıqca bildirib, fəhlə sinfinin sülhpərvər olduğunu faş etdi. Həmin bu tələb bildirdi ki, gələcək

---

[196] Rəsulzadə M.Ə. Bəlayi əzim. «Dəvət» qəz., Bakı, 1906, 20 iyul

[197] Rəsulzadə M.Ə. Kənddə müsibət. «İrşad» qəz., Bakı, 1906, 5 yanvar

sülh və səlahın rəhni, girovu həmana fəhlə sinfinin üzviyyəti-orqanizasiyasıdır. Həmin bu tələb göstərdi ki, sülhün qərarını verən, onu payəndə edən bir qüvvə varsa, o da fəhlə ictimaiyyun dəstəsidir. Həmin bu tələb hər bir cəhətcə geriyə qalmış bir millət fəhlələrinin ki, adları bu vaxtadək "tətilçilər ziddi", "qara qüvvə" ilə yad edilirdi. İbraz etdikləri bu ali fikir, bu müqəddəs tələb mədəni insaniyyətli adlanan bir millətin fəhlələrini və ya doğrusu bir üzviyyətini yada saldı. Əcaba bu fəhlələr hansıdır? Bu üzviyyət nərədədir? Bu fəhlələr qonşumuz erməni millətinin bir qism fəhləléridir ki, tətil edib öz sahibkarlarına təklif etdilər ki, müsəlman fəhləléri fabrikadan çıxsınlar”.[198]

Rəsulzadə “sosial-demokrat” qılıqlı ermənilərin bu hərəkətlərindən dəhşətə gəlir və yazır ki, bu cür erməni xisləti heç bir əqidəyə, o cümlədən də sosial-demokratizmə sığışmır. Müsəlmanların erməni fəhlələrini işə düzəltmək üçün çalışdığı bir zaman, “marksist tərbiyəli” erməni fəhlələrinin açıq-aşkar vəhşlik nümayiş etdirməsinə dözə bilməyən Rəsulzadə yazırdı: “Öz mənafeyini layiqincə fəhm edən, marksizm fikrilə tərbiyələnmiş bir fəhlədən böylə bir hərəkət hərgiz görükməz. Erməni fəhlələrini bu işə vadar edən haman erməni ictimaiyyun-ammiyyun qəzetəsi “Kayts”ın yazdığı “Sosialist-Daşnaksutyun firqəsidir”. Haman Daşnaksutyun firqəsidir ki, “sağ olsun sosializm, yaşasın fəhlə sinfinin mühafizi Daşnaksutyun!” qışqırdığı bir halda erməni firmalarından müsəlman fəhlələrinin qovulmasına fərman veriyor!”.[199]

Rəsulzadə bu çıxışı ilə marksizm adı altında pərdələnmiş erməniləri ifşa edir, ermənilərin fitnəkarlığını, onların yalançı sosial-demokrat olmalarını yazırdı: “Müsəlman və erməni fəhlələrinin iki müxalif olan ibrətnüma əsərləri həmana iki fikrin, iki üzviyyətin nəşəsidir. Yəni erməni fəhlələrinin etdikləri bu dəni iqdam, sosializm maskası ilə üzünü örtmüş, millətçi bir ədna firqənin təbliğati-şeytaniyyəsinin meyvəsidir. Amma müsəlman

---

[198] Rəsulzadə M.Ə. Əsərləri (1903-1909). I cild, Bakı: Azərnəşr, 1992, s.50

[199] Rəsulzadə M.Ə. İki nüktə. «İrşad» qəz., Bakı, 1906, 4 iyul

fəhlələrinin hərəkətləri pak, müqəddəs, dövriyyəlik və vəvasdan azad olan fəhlə sinfinin müvizi (kasıb)-mütəəssiranəsindən nəşət edən insaniyyətgəranə bir təşəbbüsüdür".[200]

O, açıq şəkildə yazır ki, müsəlman fəhlələr sosializm, sinfi mübarizə uğrunda çalışdığı halda, "sosial-demokrat" ermənilər fəhlə hərəkatına zərbə vururlar. Buna dözməyən ermənilər də öz qəzetlərində ("Kayts", "Hnçak" və s.) Rəsulzadəni "panislamist" kimi qələmə verir və onu sosial-demokratizmə xəyanətdə ittiham edirdilər. Onlar Rəsulzadəyə cavab olaraq yazırdılar ki, müsəlman "inteligentlər"in məqsədi bütün erməniləri qırmaq, "Daşnak-sutyunu" məhv etməkdir. Rəsulzadə isə "Daşnaksutyunçuya rəddiyyə" məqaləsində, onu tənqid edən erməni "Alik"ə belə cavab yazırdı: "Qəddar daşnaksutyunçu öz cahil mütərciminin səhvinə düçar olub, müqəddəs ləfzini ki, ictimaiyyun-ammiyyun əqidəsinə təbir edilmişdir ki, müsəlman fəhlələrinə məxsus edib, həyasızlığından, cəmi ictimaiyyun-ammiyyunları gop vurmaqda müttəhim ediyor. Müttəhim etmək istədiyi yerdə biçarə hiyləgərin hiyləsi öz ayağına düçar olub, köhnə böhtançılıq və iftiraguluğunu indi də büruzə verir. Ey həqiqəti görmək istəməyən qəddar! Biz adını və müqəddəs ibarələri eşitmişiz, fəqət fəhlələrə deyil, əqidələrə təbir etmişiz, biz Daşnaksutyun millətçiliyinin adını deyib, ictimaiyyun-ammiyyun insaniyyətpərvərliyini müqəddəs bəyan etmişiz. Sözün məzmununu dəyişib, sonra məzəmmət etməyi ancaq daşnaksutyunçu "Alik" kimi həyasızlar bacarарlar. Lap axırda "Alik" bizim cümlə fəhlə sinfi tərəfdaranasinə olan müraciətimizi dərc edib, Daşnaksutyunun maskası götürülmək təklifinə xeyli acığı tutub diyor ki: "...Hərgah məqalə yazan sosial-demokrat cənabın maskasını götürsək, görərsən atltından nə çıxar?! Kramolni (hökumət əleyhdarı) panislamisti, yainki, müsəlman feodalizminin bir layiqli nümayəndəsi? Bəlkə bunların xahişi budur ki, Daşnaksutyunu puç etsinlər…"".[201] Rəsulzadə "daşnak"çı "Alik"ə cavab olaraq yazırdı ki, bütün bunlar "köhnə

---

[200] Rəsulzadə M.Ə. Əsərləri (1903-1909). I cild, Bakı: Azərnəşr, 1992, s.51

[201] Rəsulzadə M.Ə. Daşnaksutyunçuya rədiyyə. «İrşad» qəz., Bakı, 1906, 21 iyul

zurnalardır". M.Əminə görə hansı vaxt kimsə "daşnaksutyunçu-"lara əks durar isə, onlarca o saat "daşnaksutyunçu"ların nəzərində Sultan Həmidin, panislamizmin və müsəlman feodalizminin nümayəndəsi elan olunurlar. [202]

Rəsulzadə erməni vəhşiliyinə, onların yalançı sosial-demokrat olmalarına Təbrizdə və Tehranda yazdığı məqalələrində də toxunmuşdur. Ancaq bu zaman Rəsulzadə yalnız erməni daşnaklarını, sosial-demokratlarını deyil, bütün ermənilərin riyakarlığından yazırdı: "Siz elə bilirsiniz bu hərzə ermənilər… börkləri yanıb bizdən ötrü İrana hürriyyət almağa gəlmişlər. Vallah İran milləti sonra biləcəkdir ki, kimdir onun dostu və kimdir onun düşməni… İran millətindən əmin bir millət yoxdur. Bu cür şeytanlar aralığı pozub, öz ciblərini doldurmaq üçün bunların məişətinə zəhər qatıyorlar". [203] Əvvəllər erməni-müsəlman münaqişəsində daha çox çar Rusiyasını günahkar hesab edən Rəsulzadə Təbrizdə ermənilərə aid bir bağda müsəlmanların istirahət edə bilməsinin mümkünsüzlüyünü onların dilindən eşidəndə, bunu, erməni vəhşiliyi kimi dəyərləndirmişdir.[204]

**Rəsulzadənin Qacarlar və Osmanlıdakı inqilablara sosial-demokrat baxışları.** XX əsrin əvvəllərində Osmanlıda, Qacarlarda və dünyanın digər ölkələrində baş verən inqilabları dəyərləndirərkən də Rəsulzadə sosial-demokrat əqidəsindən çıxış etmişdir. Bakı fəaliyyəti dövründə Qacarlarda, Osmanıldа baş verən inqilabi hadisələri izləyən, sonralar Qacarlar inqilabının həyatında yaxından iştirak edən Rəsulzadə, türk-qafqazlı hürriyyətsevərlərin bu məsələlərdə rolunu da xüsusilə qabardıb.

Rəsulzadə 1906-cı ildə Qacarlar dövlətində baş verən inqilabi hadisələri müsbət qiymətləndirir və qısa bir zaman kəsiyində Tehranda "Ədalətxana" məclisinin açılmasını mühüm bir iş kimi dəyərləndirirdi: "Hürriyyət, azadlıq və sərbəstliyin nə əndazədə ziqiymət olmağına hər bir yerdə dəlil, sübut istəsələr də

---

[202] Yenə orada.
[203] Hüseynov Ş. Müstəqilliyin çətin yolu...Biz hara gedirik. Bakı: Azərnəşr, 1996, s.230
[204] Rəsulzadə M.Ə. Əsərləri (1903-1909). I cild, Bakı: Azərnəşr, 1992, s.378

rusiyalı bir nəfərin cümlə Rusiyanı tutan iğtişaş və ixtilali və bu yolda tökülən qanları, dağılan xanimanları görüb də dəlil istəməsi əqldən kənar, fəhmdən xaric bir şey olduğunu hər kəs uca bir səslə şəhadət verib, böylə bir şəxsdən nifrət edəcəkdir. Böylə bir bahalı, qiymətli, iranlıların mövhumi kimyaları dərəcəsində qiymətdar olan hürriyyət, bir elə hürriyyət ki, onu ələ gətirmək üçün Avropa dövlətlərinin hamısında zəhmətlər çəkib, qanlar töküb, xanimanlar dağıdıb, yüz illərcə, min illərcə səy və kuşişdən sonra hasil etdikləri hürriyyəti İran milləti bir cüzi təşəbbüs ilə almağa müvəffəq oldu".[205]

Qacarlarda hürriyyətin baş verməsinə heç kəsin inanmadığını, "çoxları, bu millət öldü dəxi dirilməz" deyib, - durduğu fikrini vurğulayan Rəsulzadə yazırdı ki, əslində Qacarlar dövlətindəki xalqlara bu cür yanaşmaq düzgün deyil. Ona görə Qacarlardakı hürriyyət çar Rusiyasındakı hürriyyətə bənzəməsə də, onun hürriyyəti, sərbəst və azadlığı kimi olmasa da, yenə də millətin inkişafına doğru bir addımdır. Rəsulzadə Qacarlarda da inqilabın baş verdiyini, ancaq çar Rusiyasından fərqli olaraq pərakəndə şəkildə olduğunu göstərir. Rəsulzadə "İran" inqilabçılarını məqsədləri uğrunda mübarizəni axıra qədər davam etməyə çağırır. Qacarlarda həyatın ölmədiyini, Qacarların tamamilə viran qalmadığını, burada da sinfi mübarizənin getdyini əsaslandırmağa çalışan Rəsulzadə "İranda inqilab" adlı məqaləsində yazırdı ki, Rusiya inqilabı "iranlı"ları da ayıltmağa başlayıb: "Rusiya inqilabının cəmi aləmləri titrədən bir zərbeyi-iqtisadiyyə və siyasiyyəsinin bərəkətindən iranlılar da ayılmağa başladılar. Başladılar da qəribə bir sürət, əcibə bir himmət ilə iş görməyə təvəssül etdilər". [206]

Rəsulzadə Rusiya və Qacarlar inqilablarının oxşar və fərqli cəhətlərinə də toxunur: "Rusiya inqilabının İran inqilabı ilə bir çox oxşarlığı varsa da, böyük bir təxəllüfi də vardır ki, o da İran

---

[205] Yenə orada, s.28
[206] Yenə orada, s.48

inqilabının başında ruhani qisminin olmasıdır. Görünür ki, islamiyyəti abad edən də mollalar olacaqlar - deyilmi?".[207]

Rəsulzadənin bu iki ölkədə baş verən inqilaba verdiyi dolğun, dürüst qiymət, Qacarlarda ruhanilərin inqilaba başçılıq etməsi ilə bağlı söylədiyi fikir, olduqca maraqlıdır. İslam dininə bağlılığına baxmayraq, Qacarlarda inqilaba ruhanilərin başçılıq etməsinə və mollaların islamiyyəti abad etməsinə sualla yanaşan Rəsulzadənin bu məsələdə, ruhani inqilabçılara etimadsızlığı hiss olunur. Ancaq Rəsulzadə bu dövrdə bunu, Qacarlar dövləti üçün məqbul variant kimi qəbul edir və Allahın da iranlı inqilabçılarla bir yerdə olduğunu deyir: "Haydı iranlı qardaşlar, yeriyiniz, yeriyiniz də heç bir şeydən vahimə etməyiniz. Allah cəmaət ilədir. Bərkət də cəmaətdədir. Cəmaət öylə bir qüvvədir (müttəhid olsa) ki, heç bir maneə və işavıllıq qabağında dayanmayıb, tutduğu yol ilə gedəcək, gedib də sərmənzilə yetişəcəkdir. Ey iranlı qardaşlar, meydani-mübarizəyə qədəm qoydunuz, cəhl ilə əql müqabilə etdi. Bir az da cürət ediniz. Bir az da ibrət. Ta hürriyyət işi həll olunub, İran və iranlılar səadətmənd olsunlar. Rusiya hökumətinin istibdad və zülmü altında inləyən hürriyyətpərəstlər adından İran hürriyyətpərəstlərinin bu əvvəlinci qədəmləri münasibətilə təbrik edib deyiriz ki, ey hürriyyət yolunda çalışan iranlılar, başladığınız işdə möhkəm durunuz! Füqəra və məsakin xanların, vəzirlərin icbaranə və qəddaranələrindən qurtarmaq üçün candan, maldan müzayiqə etməyiniz, var olunuz, sağ olunuz yoldaşlar! İştə burada bir arzu: Neçə vaxt bundan iləri hürriyyət gününün tüluini İran üfüqündən görəcəyin, "İranda hürriyyət" - deyə bir bənd yazdıq. Şükr Allaha ki, İran hürriyyətpərvərləri bizi aldatmadılar, indi də "İranda inqilab" - deyə yazmağa səbəb oldular. İnşallah vaxt gələr "İranda qanuni-əsasi" - naminə bir bəndi yazmağa dəxi müvəffəq olarız".[208]

Qacarlardakı inqilabın Rusiya inqilabından fərqli olaraq başqa bir siyasi rəngdə olmasını yaxşı anlayan və bunu, dəfələrlə

[207] Yenə orada, s.49

[208] Yenə orada, s.49-50

vurğulayan Rəsulzadə ümidini itirmir və Qacarlarda idareyi-məşrutə elan edilməsini sevinclə qarşılayır. Çar Rusiyasından fərqli olaraq Qacarlarda qanunların hökumətin deyil, millətin qəbul edəcəyini Rəsulzadə böyük bir iş adlandırır: "Bu günlərdən bəri İran azad bir məmləkət hesab olunur. Azad məmləkətin də azad rəiyyətləri gərək olsun. Rəiyyətlər gərək öz hakimlərinin əhval və vəziyyətlərini miqyasa çəkib hər vaxt gözətçi olsunlar ki, məbadə qəsbkarlar hüquqi-milləti qəsb edib, hürriyyətə zərər vurarlar ki, məbada əmirbahadırlar yenə də meydan edərlər". [209]

Rəsulzadə doğru olaraq qeyd edir ki, Qacarlar qanunlarını qəbul edəcək Məclisi-Millinin kimlərdən təşkil olunması ən vacib məsələdir: "İran qanuni əsasisi hələ məlum deyil ki, nədən ibarətdir. Çünki onları təyin və aşkar edən Məclisi-Milli olacaq. Əgər Məclisi-Milli hürriyyətpərəstlərdən mütəşəkkil oldu, onda arzu olunan bir surətdə qanun əsası həll olunub qərar veriləcəkdir. Yox əgər əmirbahadırlar tərəfdarları çox olub istibdadxahlar qələbə etdilər, onda Allah göstərməsin". [210] Rəsulzadə nə yolla olursa-olsun iranlı inqilabçıları geriyə çəkilməməyə çağırır. Onun fikrincə, əsil mübarizə iranlı inqilabçılar üçün bundan sonra başlayır: "Bu günədək əlləşdiniz, idareyi-məşrutə qurulmaq üçün dəst-xətt aldınız. Əsil işləmək bundan sonradır. Zira indi işləməyib məqsudinizi apara bilməzsiniz. Onda sizin hakimləriniz hər bir məşrutə və hürriyyətinizi əlinizdən alıb uca səs ilə küll aləmə deyəcəklər ki: Biz hürriyyət verdik, lakin millət hazır olmadığı üçün idarə edə bilmədi". [211]

Rəsulzadə Qacarlarda baş qaldıran inqilabın mərkəzində dayanan, Səttarxanın başçılıq etdiyi Azərbaycan-Təbriz hadisələrinə yüksək dəyər verirdi. O, Qacarlar Məclisi-Millisinə Azərbaycandan-Təbrizdən olan millət vəkillərinin qatılmasını böyük sevinclə qarşılayırdı: "Bu məşrutiyyət ki, eşidirsiz, bu o məşrutiyyətdir. Üləmayi-həqqə qabağa düşüb boyunlarına qanlı

[209] Yenə orada, s.59
[210] Yenə orada, s.60
[211] Yenə orada, s.61

kəfən geyib öz canlarını fəda etdilər, tainki bu əqdi-əzmin sadir olmasına, yəni məşrutiyyət verilməsinə müvəffəq oldular. Tehran inqilabından sonra Təbriz hadisələri aralığa düşüb cümlə Azərbaycanı bir həycani-əzim bürüdü. Cəmaət və el təşəbbüsü burada da zühura gəldi. İran millətinin tələbləri müəyyən olunmağa başladı. İran milləti-nəcibəsinin istədiyi, onnu tələb etdiyi müsavat küll olub, bilafərq millət və məzhəb, arvad, kişi hamısının bərabər hər hüquq və ixtiyarda bilafərq olmasıdır. İndi Təbriz şəhəri bizləri küll Azərbaycandan məbus olaraq seçib, Millət Məclisinə göndərirlər ki, orada onların hüquqi-bəşəriyyələrini mühafizə və müdafiə edək. İndi biz də cəmaət yolunda canımızı əlimizə tutub gedirik və hər müaminə və müqabiləyə müqavimət edib hər bir mühaimət ilə çalışıb vuruşacağız. Siz də müttəhid olub, bizim tərəfimizə durun, ittifaq edin. Müttəhid olun ki, fəqət ittihad və ittifaq ilə oların, müstəbidlərin, zalımların əleyhinə dura bilərsiniz, nuqəti-ittihad ilə məramə çatarsınız!". [212]

Başda Səttarxan olmaqla Azərbaycan-Təbriz inqilabçılarının, Tehranda toplanmış Millət Məclisinin qərarlarını hökumətin əməl etməyəcəyi təqdirdə, yeni hökumət seçəcəklərini bəyan etməsinə Rəsulzadə təbii hal kimi baxırdı. Onun fikrincə Qacarlarda hürriyyətin mahiyyətini anlayan Təbətəbai kimi ruhani alimlərlə yanaşı, bəzi adlarını alim qoyub, özləri mal, var-dövlət düşkünü, istibdad tərəfdarı olan alimlərdə var: "Xoşbəxtlik buradadır ki, qədrşünas olan əhali əvvəlincilər kimi cəmaət fədailərinin qədrini bildiiyi halda, axırıncıların da cəzasının yaxşıca düşünüb, onları layiq olduqları vəsilələr ilə cəzalandırırlar".[213]

Rəsulzadə Qacarlar inqilabında türklərin böyük rol oynadığını, Təbrizin əsas inqilab mərkəzinə çevrildiyini fəxrlə qeyd edirdi. Onun fikrincə, Qacarlardakı türkləri Rusiyada fəhləlik, hambalıq edərkən hürriyyət və azadlıq ideyalarını da mənimsəyiblər: "Qafqaz vilayətlərində fəhləlik və hamballıq etməklə kəsb-

---

[212] Yenə orada, s.94-95
[213] Yenə orada, s.119

ruzi edən iranlıların əksəri Azərbaycan türkləridir ki, burada Rusiya fəhləlәlri arasında işləməklə, yoldaşlıq təsiri olaraq, hürriyyət və fədakarlıq işlərinə alışmışlar! "İran bahadırları türklərdir"-demək İran inqilabının əsası ilə, əsasi-elmiyyəsi ilə isbat edilmiş bir həqiqətdir ki, bu barədə heç danışıq belə olmaz".[214]

Qeyd edək ki, Rəsulzadə Qacarlarda məşrutiyyətin baş verməsində və onların müəyyən bir yola istiqamətlənməsində Güney Azərbaycan türklərinin rolunu xüsusilə önə çəkib. Səttarxanın başçılığı ilə Təbrizdə başlanan inqilaba seyirçi qala bilməyən Rəsulzadə üçün, Bakı ilə Təbriz, Gəncə ilə Ərdəbil, Şəki ilə Urmu və s. birdir. Bütövlükdə, Azərbaycan anlayışı var ki, burada onun Quzeyi ilə Güneyi, Qərbi ilə Şərqi arasında heç bir fərq yoxdur və ola da bilməz. Vətənimizin bir adı var: Azərbaycan. Azərbaycanımızın istənilən bir yerində baş verən hadisə, eləcə də Təbrizdə baş verənlər Rəsulzadə üçün eyni dərəcədə önməli idi. Bu, başqa cür də ola bilməz. Bəlkə də, çar Rusiyasının irticasından, həbsxanaya düşməkdən daha çox, Rəsulzadəni 1909-cu ildə Təbrizə getməyə, burada Qacarlarda baş verən inqilab olmuşdu. Təbrizdə olarkən inqilabın rəhbəri Səttarxanla görüşən Rəsulzadə bir jurnalist kimi, onun inqilabla bağlı fikirlərini bölüşür: "Sərdar qayətdə qanı isti bir adam, hərəkəti xeyli cəlddir, danışığı çox ciddidir. Məşrutəpərəstiliyi din dərəcəsində qəvidir. Bu adam məşrutə tərəfdarı olmaqda fanatizm ediyor. Bütün hərəkətini, vücudunu, zori-bazusunu millətə sərf etmiş olan bu adam özünü təkrarən bəyan etdiklərinə görə Nəcəf üləması hökmi-müqəddəslərinə tabe olub, onlar nə əmr edirsə, bir an təxir etməsizin icrayə hazırdır.

- Rus və ingilis konsulları yanıma gəldiklərində: məşrutə sənin əlindədir - dedilər. Mən isə cavab verdim ki, siz böyük bir səhv edirsiniz, mən məşrutənin iti işli bir pasibaniyəm. Sahibləri isə Nəcəf üləmayi-əlamdır. Onlar nə əmr edirlərsə, mən o saatdaca icraya hazıram". [215]

---

[214] Yenə orada, s.120

[215] Yenə orada, s.335

Rəsulzadəyə görə, Qacarlardakı inqilab iki böyük qüvvətli ruhla ruhlanır: "Biri məmləkəti qanuni bir ölkə edib əsil məşrutiyyət yoluna salma, digəri isə xarici təxti-nüfuzundan çıxıb istiqlali-mülki-milləti bilmərrə təmin etmək". [216]

Rəsulzadə Güney Azərbaycanda olduğu müddətdə demək olar ki, bütün şəhərləri, bir çox qəsəbə və kəndləri gəzmişdi. Sonralar Rəsulzadə bunu "İran türkləri" başlıqlı silsilə məqalələrində geniş şərh etmişdi. "İran türkləri» əsərində ayrıca olaraq Güney Azərbaycan türklərinin həyatına və onların mübarizə üsullarına toxunan Rəsulzadə yazır: "… İran türklərini farslara nisbətilə daha müsaid bir halda bulunduran bir səbəb dəxi vardır ki, o da səciyyeyi-zatiyyələridir. İran türkü, başqa Türk qardaşı kimi bir az mühafizəkardır. Azərbaycanlı bir Türk, Şirazi bir farsdan daha mütəssisibdir, Türk fars qədər hürrnədiş deyil, fəqət onun qədər əzimsiz və laübal deyildir. Türk daha mətin və daha səbatkardır"». [217]

Rəsulzadə Qacarlar inqilabında türklərin daha böyük rol oynadığını, onun istiqamətlərinin müəyyənləşməsində səy göstərdiyini ortaya qoyur: "İran türkləri, inqilabın yalnız maddiyyatını deyil, mənəviyyatını da idarə etmişlərdir. Təbriz adətən İran əfkarı-əhraranəsinin bir nazimi-mütləqi olmuşdur, məşrutiyyətin bir dərəcə istiqrarından və Məclisi-Millinin güdaşından sonra da türklərin həyati-siyasiyyədə əhəmiyyətləri artmış və ədədlərinin nisbətindən fəzlə fəaliyyətləri görülmüşdür. Gərək birinci məclisdə və gərək ikinci Azərbaycan vəkilləri nüfuzu-nəzər və həmiyyət-vətəniyyəcə sair arkadaşalrından daima yüksək bir mövqedə bulunmuşlardır".[218]

Rəsulzadə Osmanlıda baş qaldıran inqilabi hərəkatda, "Gənc türklər"in mübarizəsində çar Rusiyasındakı 1905-1906-cı illərdəki inqilabının mühüm rol oynadığını yazırdı. Onun fikrincə Rusiya inqilabı bir çox işlərə rəvac verib ki, bunlardan biri də,

---

[216] Yenə orada, s.416

[217] Rəsulzadə M.Ə. Əsərləri (1909-1914). II cild. Bakı: Şirvannəşr, 2001, s.118

[218] Yenə orada

Gənc türklərə təsiridir: "İllər ilə cəlayi-vətən olub, Alp və Altay dağlarında "vətən-vətən" - deyib nalə edən Gənc türklər sinələri hürriyyət yolunda dağidar olub Türkiyə istibdadından vərəmlənmiş dahiyələr Rusiyanın böylə qeyrətli hərəkətini görüb, cürətləndilər. Himmətləri artdı. Bir az da ümidlə işə girdilər. İnşallah müvəffəq də olarlar".[219] "Gənc türklər" hərəkatını sosial-demokrat nöqteyi-nəzərindən dəyərləndirən Rəsulzadə yazırdı: "Türkiyə cəmaəti bunu başa düşmüyor ki, hürriyyət, səadət ayrılıqla deyil, ittihadi-ittifaq ilə başa gəlib beynəlmiləllik zühuru ilə qələbə edəcəkdir. Hal-hazırda isə Rusiya hərəkati-hürriyyət-pərvanəsinin əsəri-feyzbəxşi olaraq bu nöqteyi-nəzər həqiqi Türkiyə vətəndaşlarının arasında nüfuz olub, istər Gənc türklər, istər erməni və qeyri inqilabiyyunların arasında bu fikri-səadət əsəri özünə tərəfdarlar aramaqda və kəsbi-müvəffəqiyyət göstərməkdədir… "Şurayi-Osmani" cəmiyyətinin qəsdi Türkiyə istibdadından qəsb edilmiş qanuni-əsası iadəsi ilə bəxtiyar etməkdir".[220] Rəsulzadə "Şurayi-Osmani"nin hürriyyət və azadlıq-sevər yolunu alqışladığını, ancaq bir məsələdə onlarla razılaşmadığını yazırdı: "Bizi düşündürəcək bir məsələ varsa, o da cəmiyyətçilərin nöqteyi-nəzərlərinin burada dayanıb bir az da o yanı görməmələridir ki, bu da əsl hürriyyət almağa qabil olan füqərayi-cəmaətə istinad etməyib, sinfiyyət ayırmayaraq "hamı cəmaətə" söykənmələridir".[221]

Sosial-demokrat kimi Rəsulzadə hesab edirdi ki, əsil hürriyyətə nail olmaq üçün, sinifləri nəzərə almadan ümumi halda xalqa söykənmək mənasızdır. Onun fikrincə, bunu hazırda "Şurayi-Osmaniyyə" təşkilatı anlamışdır. O, yazırdı: "Hərgah Türkiyə əhrarları, istər Gənc türklər, istər qeyriləri bu vaxta kimi Şurayi-Osmaniyyənin indi tapdığı olan yol ilə getsəydilər, yəqin ki, bu vaxta kimi bir şeyə nail olmuşdular! Heç eləməməkdən isə gec eləmək yaxşıdır- nöqteyi-nəzərindən baxılırsa biz cümlə Türkiyə

---

[219] Rəsulzadə M.Ə. Əsərləri (1903-1909). I cild, Bakı: Azərnəşr, 1992, s.52
[220] Yenə orada, s.120
[221] Yenə orada, s.121

əhrarına Şurayi-Osmani məsləki dairəsində yığışıb bilafərq millət və məzhəb çalışmalarını Türkiyə hürriyyəti və səadəti naminə olaraq tövsiyə edib, "Şuryai-Osmani" cəmiyyətinin zühurunda Türkiyə üləmasının oyanmağına bir nişanə olaraq meydana gəldiyini təbrik və təhniyyət edib, ona Həqqin yar və mədədkar olmasını səmim qəlb ilə arzu edəriz! Qoy beynəlmiləllik nuri işıqlanıb “millətçilik” və dargözlülük cəhlini yer üzündən məhv edərək səadəti-ümuminin vücudunu təmin eləsin!”. [222]

Osmanlıda da xalqların ayrı-ayrılıqda deyil, istibdada qarşı birlikdə, fəhlə-kəndli sinfi kimi mübarizə aparmalarının doğruluğuna inanan Rəsulzadə bu istiqamətdə artıq ilk addımların atıldığını yazırdı: "Çoxlu məşəqqət və əzabdan sonra cümlə Türkiyə milləti arasında olduğu kimi erməni millətinin arasında da böylə bir xətti-hərəkətin bimənfəət olduğunu hiss edənlər çoxlaşmağa başlayıb, həm türklər, həm də ermənilər bildilər ki, hürriyyət ayrı-ayrı olub, hərə bir tərəfə çəkmək ilə deyil, ittifaq, ittihad ilə başa gələck bir işdir… Bunların bir-birilə yavuqlaşmasından "Şurayi-Osmani" rəayasını mütləqiyyətdən qurtarıb idareyi-məşrutə ilə azad etməkdir. Bu məqsədini əmələ çıxarmaq, tutduğu amala vasil olmaq üçün, hamı Türkiyə təbəələrini hər millət və məzhəbdən olursa-olsun arvadmı, kişimi, - bilatəfavüt-öz səflərinə çağırır və bu yol ilə Osmanlını düşdüyü girdabi-həlakətdən çıxarmaq istiyor". [223]

Beləliklə, 1908-ci ildə Osmanlıda baş vermiş “Gənc türklər” inqilabına xüsusi diqqət yetirən Rəsulzadə yazırdı ki, “Gənc türklər”in "İttihad və Tərəqqi"si Osmanlının yeni bir dönəmə başlamasına rəvac verirdi: "Məlumdur ki, Gənc türklərin xarici siyasətinin məqsədi ölkə daxilində həyatın yenilənməsi və konstitusiya əsaslarının möhkəmlənməsi ilə rahat məşğul ola bilmək üçün, ölkəni hər cür təcavüzlərdən qorumaqdan ibarət idi. Onlar öz işlərinin bu sahəsində fövqəladə qabiliyyət sahibi olduqlarını göstərdiər… "İttihad və Tərəqqi" Partiyası parlament

[222] Yenə orada, s.123
[223] Yenə orada, s.146

seçkilərində parlaq zəfər çalmışdır və məlum olduğu kimi, indi parlamentdə rəhbər rol oynayır".[224]

Ümumilikdə, Qacarlar və Osmanlıda gedən sosial-siyasi, ideoloji prosesləri sosail-demokrat kimi dəyərləndirən Rəsulzadə inanırdı ki, sosializm bütün ölkələrdə bərqərar olmaqla ayrı-ayrı millətlərin problemləri də həll olunacaq. Şübhəsiz, bu zaman Rəsulzadə ayrı-ayrı millətlərin milli ideoloji savaşlarındakı kəskin fərqləri çox da nəzərə almayıb. Hətta Bakının özündə fəaliyyət göstərən erməni, rus və başqa millətlərin şovinist hərəkətləri belə ilk dövrlərdə onun beynəlmiləl inqilab fikirlərinə ciddi şəkildə təsir göstərməyib. Rəsulzadə tutduğu yolun doğruluğuna hələlik, müəyyən mənada inanırdı. Bu inanc isə bütün millətləri sinfi mübarizə yolu ilə xoşbəxt görməkdən başqa bir şey deyil. Ancaq Rəsulzadə unudurdu ki, bir çox millətlərin nümayəndələri sosial-demokratizm pərdəsi adı altında yalnız öz maraqları, mənfəətləri üçün çalışırlar. Bunu daha dərindən dərk etməsi üçün, Rəsulzadənin müəyyən bir zamana ehtiyacı vardı.

**Rəsulzadə sosial-demokratiyadan demokratiyaya doğru.** Rəsulzadənin sosial-demokrat ideyasına nisbətən daha dərin və müqayisəli təhlili, konkret prizmalardan yanaşması, eyni zamandan sosial-demokratiyadan demokratiyaya, daha sonra da milli demokratiya cərəyanına yaxınlaşması onun Qacarlardakı yaradıcılığı dövrünə (1909-1911-ci illər) təsadüf edir. 1909-cu ildə qələmə alıb Bakıya, "Tərəqqi"yə göndərdiyi yazılarında, eləcə də Tehranda Avropa üsulu ilə nəşr olunan və baş redaktoru olduğu "İrani-nou" qəzetindəki məqalələrində Rəsulzadə buradakı yalnız sosial-demokrat deyil, demokrat kimi də çıxış edirdi.

1910-cu ildə Qacarlarda mühafizəkar "Etidaliyyun" ("Mötədillər") partiyasının yaranması ilə bağlı yazdığı "Mühafizəkar və ya sosialist mühafizəkar partiyaların" adlı tənqidi əsərdə və "İrani-nou" qəzetində yazdığı məqalələrində artıq Rəsulzadə sosial-demokratizmi təlimini, sosializmi müxtəlif xalqlara

---

[224] Yenə orada, s.281

nisbətdə müqayisəli şəkildə verirdi. Rəsulzadə hesab edirdi ki, sosializm əqidəsinə Avropa və başqa yerlərdə rəvac verən fəhlə-kəndli və burjua sinifləri arasında gedən mübarizə səbəb olub: "Proletariatın mənafeyinin hamisi olan sosialistlər bütün bəşəriyyətin azadlığını proletariatın kapitalın boyunduruğundan azad olmasında görürlər. Sosialistlərin fikrinə görə təkamül qanunu və texnikanın inkişafı proletariatın zəfərinə kömək edir. Sosialistlərin böyük müəllimi Karl Marksın təxminən 50 il bundan qabaq kəşf etdiyi kimi, kapitalizmin hakim olduğu və inkişaf etmiş sənaye ölkələri dəmir bir iqtisadi qanuna tabedir ki, o da kapitalın mərkəzləşməsi və cəmiyyətin proletariatlaşmasıdır".[225]

O qeyd edirdi ki, bütün millətlərin fəhlə-kəndli təbəqəsi kapitalizmdən azad olarsa, o zaman millətlərin də azadlığı baş verəcək. Bu baxımdan o, sosializmin dünyada bərqərar olmasının tərəfdarı kimi çıxış edir, sosialistlərin mübarizələrini müdafiə edirdi. Rəsulzadə Avropa sosialistlərinin mübarizə üsulunu belə dəyərləndirir: "Avropada sosialist adlanan "ictimaiyyun" elə bir firqədir ki, yalnız Avropanın konservatorlarını deyil, hətta onların demokratlarını, liberallarını və radikallarını da "etadiliyyun" ("mühafizəkar") sayaraq, onlarla mübarizə aparırlar. Bunlar, (yəni sosialistlər) elə firqədir ki, təkcə siyasi bərabərlik deyil, ictimai-iqtisadi bərabərlik də tələb edirlər. Bunlar, Avropa məişətinin bütün kiçik və böyük məsələlərində nüfuzu olan kapitalizm üsüli-idarəsinin əleyhinə çıxıb onu (kapitalizmi) Avropa, Amerika, Yaponiya və s. yerlərdə dağıdıb, sosializm idarə üsulunu bərqərar etmək istəyirlər. Çünki onlar bütün bəşəriyyətin səadətini sosializmdə görür və öz ali məqsədlərinə çatmaq üçün təkamül qanununu sosializm amalına uyğun bilərək, siyasi hakimiyyəti mənafeyi onlarla üst-üstə düşən siniflərə vermək istəyirlər".[226]

O, bu yolun, millətlərə həqiqi azadlıq və xoşbəxtlik gətirəcəyinə inanırdı. Rəsulzadəyə görə, sinfi mübarizənin zəruriliyi sosialistlərin dəyişilməz əsaslarından biridir: "Onlar

---

[225] Rəsulzadə M.Ə. Əsərləri (1909-1914). II cild. Bakı: Şirvannəşr, 2001, s.94
[226] Yenə orada, s.93

hakimiyyətin hər yerdə əksəriyyət təşkil edən proletarların əlində olmasını istəyirlər. Onlar qanunu elə şəkildə tərtib etmək istəyirlər ki, onun sayəsində özlərinin son amalına, yəni kapitalizmin sosializmə keçməsinə nail olsunlar və bu məqsədə çatmaq üçün tam milli hökumətə tərəfdardırlar”. [227] Bu anlamda Avropa sosialistlərinin nəzəriyyədə çox yaxşı səslənən “sosial-demokrat” ideyasıını Rəsulzadənin də qəbul etməsi zamanınca adi hal idi. O, Avropadakı sosialistlərin isə milli hökumət formasında, bərabər şəkildə sosial-siyasi bərabərliklərə nail olma prinsiplərini müsbət dəyərləndirməyə bilmirdi: “Sosialistlər həmişə öz müraciətlərində zəhmətkeş və fəhlə kütləsinə təlqin edirlər ki, yalnız dinləri və dilləri bir olan xalq nümayəndələri və ya bir ölkənin vətəndaşı olanlar sizin qardaşınız deyillər. Sizin həqiqi qardaşlarınız, sadiq yoldaşlarınız sizinlə bir sinfə mənsub olan, sizin milli zəhmətkeş, fəhlə və sizin kimi bir karxana maşınının bir hissəsi olanlardır”.[228]

Avropa sosial-demokratları da bütün millətlərin zəhmətkeş, fəhlə sinfini vahid sinif kimi təqdim edir və qeyd edirdilər ki, onlar üçün fəhlə sinfinin düşməni kapitalizm, istibdad rejimlərdir. Bu məsələdən məharətlə istifadə edən Rusiyadakı sosialistlər (bolşeviklər) sosial-siyasi bərabərliyi, sinfi mübarizəni önə çəkərək ayrı-ayrı millətlərin, xüsusilə də müsəlman xalqların öz milli azadlıqlarını tələb etməsinə əngəl olmağa çalışırdılar. Bolşeviklər sosial-demokrat ideyaları altında pərdələnərək, çar Rusiyası istibdadını devirmək faktorunu önə çəkərək qeyri-rus, qeyri-xristian millətlərin mübarizəsinin milli xarakter almasını əngəlləyirdilər. Bütün millətlərin milli mücadilələrinə zorla da olsa, sosializm donu geyindirməyə çalışırdılar. Onlar öz əməllərini məharətlə pərdələməyi də bacarırdılar. Nəticədə də sözdə çox yaxşı səslənən sosial-demokratizm Rəsulzadənin də sosial-fəlsəfi baxışlarına təsir göstərirdi: “Sosialistlər milli məsələdən yan keçir və bəşəriyyəti müxtəlif millətlərə bölmürlər. Başqa sözlə, onlar beynəlmiləl firqədirlər. Bunu da qeyd etməliyik ki, bu

[227] Yenə orada, s.95
[228] Yenə orada, s.95

beynəlmiləl nəzəriyyə yalnız sosialistlərə məxsus deyildir. Bir çox kapitalist partiyaları da bu fikirdədir. Mədəni millətlərin liberal və demokrat partiyalarının əksəriyyəti də dövlətin ümumi mənafeyinə və insan hüquqlarına uyğun olaraq öz dövlətçilik nəzəriyyələrində heç vaxt müəyyən bir millətə üstünlük vermirlər”.[229]

Avropanın sosialist qurumları kimi, bəzi kapitalist partiyalarının da sosial-siyasi fəaliyyətlərində ayrıca bir millətə üstünlük verməmələri Rəsulzadəni düşündürməyə bilməzdi. Çox böyük ehtimalla bu məsələnin özü də onun sosial-demokratizmə müəyyən mənada etimad göstərməsinə səbəb olub. Bu baxımdan bir çox azərbaycanlı-türk sosial-demokratlar kimi, Rəsulzadə də ilk dövrlərdə məhz çar Rusiyasındakı, ümumiyyətlə, ayrı-ayrı ölkələrdəki istibdadların yıxılıb yerində milli sosialist hökuməti qurulması ilə bəşəriyyətin bəlalardan qurtulacağına inanıb.

Rəsulzadə Təbriz və Tehranda yazdığı məqalələrində də demokratiyanın əsas sütunlarından biri olan mətbuat, söz azadlığına xüsusi diqqət yetirirdi: “Qəzet millətin danışan dilidir. Bir millətin ki, qəzeti yoxdur, elə bil ki, o millətin dili yoxdur. Dili olmayan (millət) isə dilənçi və möhtacdır”. [230] “İran-nou” qəzetində nəşr olunan “Mətbuat azadlığı” məqaləsində mətbuat və söz azadlığını geniş şəkildə şərh edən Rəsulzadə yazırdı: “Hər ölkənin mədəniyyətinin inkişafı onun ədəbiyyatının inkişafı ilə bağlı olduğu kimi, hər millətin siyasi vəziyyəti də onun mətbuat azadlığı ilə bağlıdır. O millət, o məmləkət xoşbəxt və azaddır ki, onların mətbuatı xoşbəxt və azad olsun. Bu məsələləri lazımınca dərk edib anlamaq istəyiriksə, onda gərək mətbuat tarixini oxuyub araşdıraq, onun vəzifələrini və müxtəlif vəziyyətlərini təhlil edək… İnsanın zəkası və fəaliyyəti həmişə irəliyə və yüksəyə can atır. Yaşayan hər şəxs düşünür, daim irəliləyir, dəyişir, onu əhatə edən mühitlə təmasda olur. İctimai həyat- xarici hadisələr və insanlar arasındakı əlaqədən başqa bir şey deyil. Biz bir-birimizlə bağlıyıq, bir-birimizi duyur, bir-birimizlə fikir mübadiləsi edirik.

[229] Yenə orada, s.98
[230] Yenə orada, s.7

Beləliklə, ictimai əlaqə saxlayıb ehtiyaclarımızı ödəyirik... Mətbuat ümumi məsələlərin yazılı şərhidir, ümumi mənafeyə xidmət edir, onu bütün xalqın nəzərinə çatdırır. Mətbuat üçün üç şərt lazımdır: birinci - yazmaq, ikinci - ümumi mənafe, üçüncü - yaymaq. Əgər bunlardan biri yoxdursa, mətbuat da yoxdur". [231]

Rəsulzadə demokratik bir hökumətdə mətbuatın cəmiyyətdə yerinə çox yüksək dəyər verir: "Mətbuat mühüm milli qüvvələrdən biridir. O, milli iqtidarda dördüncü yerdə durur. Yəni iqtidarın üç qüvvəsi, birinci -qanunvericilik, ikinci - idarəedici, üçüncü - hüquq orqanları. Bundan sonra mətbuat gəlir".[232] Azad və ədalətli mətbuatın önəmliliyini yaxşı anlayan Rəsulzadə yazırdı ki, mətbuatı hava kimi fərz etmək olar: "O, hər gün insan zəkasının məhsulunu öz səhifələrində dərc edir. Bir millət ki, müxtəlif ümumi məsələlərdən bəhrələnə bilmir, o, öz təcrübəsi vasitəsi ilə də faydalı məlumat əldə edə bilməz… Mətbuat millət fərdlərinin, jurnalistlərin şəxsi fikirlərini cəmiyyətə çatdırandır. O, dövrünün mədəniyyət carçısıdır, öz dövrü, başqa dövrlər barədə lazımi məlumatı caamata çatdıra bilir. Bir və ya bir neçə nəfərin yeni fikirləri min nüsxələrlə çap olunan mətbuat vasitəsilə ictimaiyyətin malı edilir, yayılır. Əlbəttə, yeni fikirlər, səadət və həqiqətin yolunu kəsən köhnə fikirlərlə toqquşur.

İnsanların ictimai-siyasi və iqtisadi vəziyyəti yüksək səviyyəyə çatdıqda mətbuat daha böyük əhəmiyyət kəsb edir. O, müxtəlif fikirləri yaymaqla milləti bütün siyasi və iqtisadi sahələrdə məlumatlandırmalı, məşrutə dövründə həmin sahələrdəki bütün məsələləri mütləq millətə çatdırmalıdır. Beləəiklə, mətbuatın özü də siyasi və iqtisadi obyektdir. O, ümumi siyasi təşkilatları təbliğata dəvət edən, ümumiyyə icarat verən, siyasət üzərində nəzarətçi kütləvi təbliğat vasitəsidir, ictimai fikri həyacana gətirib formalaşdırandır…

Mətbuat xalqın milli nümayəndəliyini öhdəsinə götürən, onun görüşlərini ifadə edib yayan ictimai nəzarətçidir. Hökuməti

---

[231] Yenə orada, s.69-70

[232] Yenə orada, s.70

nalayiq işlərdən çəkindirən, onun fəaliyyətini bir an belə gözdən qoymayan, ciddi əsaslı tənqidə rəvac verən, nöqsanları açıb göstərən, hakim dairələrin yaramaz hərəkətlərinin qarşısına dəmir çəkən də mətbuatdır. Mətbuatın qayəsi məşrutə hökumətidir… Bu mənada mətbuat mütləq və müstəqil iqtidarlardan üstündür. O, görür, yazır, göstərir, gələcəyə baxır. Öz tənqidi çıxışları, mübahisələri vasitəsilə ictimaiyyəti həyacana gətirir, camaatın təlimini və zəkasını zənginləşdirir, eybləri açır, xəstəlik və yaraları sağaldıb aradan qaldırır”. [233]

Hər bir millətin taleyində və inkişafında mətbuatın yerini xüsusilə önə çəkən mütəfəkkir yazır ki, mətbu sistemi geniş olan millətin zehni, fikri də işıqlı olur: “İnkişaf etmiş millət o millətdir ki, onun mətbuatı azaddır, ciddidir, başqalarına nisbətən çoxuna müyəssər olandır. Bilik və informasiyanın əsas qaynağı həyatdır. Bilik və məlumatsız həyat əsl həyat deyil, cansızdır, ölüdür. Mətbuat bir müəllim vəzifəsini yerinə yetirir. O, xalqın tərbiyəçisidir. O, mənəviyyatdan uzaq ola bilməz. O, təmiz saf olmalı əxlaqdan kənara çıxmamalıdır, kənara çıxsa, öz mənafe və məqsədinə xidmət edə bilməz. Aşağı səviyyəli yazı, abırı aparan yazı, fitnə-fəsadlar törədən yazılar - bax bu cür əxlaqdan kənara çıxışlar mətbuatı hörmətdən salar, əxlaqdan məhrum edər”. [234]

Onun fikrincə, mətbuatın azadlığı hər şeydən önəmlidir Çünki mətbuat o zaman öz vəzifəsini lazımınca yerinə yetirə bilər ki, öz işində tam azad olsun. Rəsulzadə yazırdı: “Öz məqsədinə çatmaq üçün mətbuat azad olmalıdır. Mətbuat azadlığı onun öz işində - yazmaqda, nəşrdə, yaymaqda, insani fikirləri çatdırmaqda tam azad olmasından ibarətdir. Mətbuatın işi insani fikirləri yaymaq, insanların fikirlərinin inkişafını təkmilləşdirmək, mütləqiyyətin özbaşnalığının qabağını almaqdır. Demək olar ki, ümumi inkişaf və yüksəlişin qarşısını almaqda mətbuat azadlığının qarşısını almaqdan zərərli heç nə yoxdur. Bu da təbiidir. Belə olduqda mətbuat öz təlim-tərbiyə vəzifəsini yerinə yetirə bilməz.

---

[233] Yenə orada, s.71-72

[234] Yenə orada, s.72

Çünki deməli olduqlarını deyə bilməz, yazmalı olduqlarını yaza bilməz və öz məsuliyyətinin öhdəsindən gələ bilməz”. [235]

O yazırdı ki, mətbuat azadlığı insan azadlığının əsas sütunudur, çünki o, əqlin, təfəkkürün əsas qüvvəsidir: “Onun varlığı ağla və səbrə əsaslanan qüvvədir. Mətbuata təzyiq göstərmək və ya onu aradan çıxarmaqla ağlın qüvvəsini aradan çıxarmağın fərqi yoxdur. Buradan belə nəticə çıxır ki, mətbuatın azadlığına əl qaldırmaq insan azadlığına təcavüz etməkdir. Adamların ağlı və fikri azad olsa onların fərdi inkişafı da sürətlənər. Azadlığın qarşısını almaq insanın ağlı və təfəkkürünü əlindən alıb onu bir maşına, ya cansız alətə çevirmək deməkdir”.[236]

Mütəfəkkir mətbuatın senzura halında inkişafını qeyri-mümkün sayır: “Senzura şübhələr yaranmasının, mühüm məsələlərin gizlədilməsinin, siyasi zülmün icra olunmasının əsas amilidir. Mümkün olan bütün əyriliklər, oğruluqlar, fırıldaqlar, zülmlər həmin pərdənin arxasında öz işini görür. Mətbuatın əsarəti zəhmətkeşlərin və zülm altında əzilənlərin səslərinin boğulması, onların dərdlərinin xalqa çatmasına mane olmaqdır, bu da əksəriyyətin istədiklərinin qarşısını almaqdır. Siyasi baxışdan əlavə, bir əxlaqi heysiyyət də vardır. Mətbuatın əsarəti əxlaq pozğunluğu törədir, əxlaq gözəlliyi və yaxşı xüsusiyyətləri aradan çıxarır, yalan danışmağı, oğruluğu, əyrilik və casusluğu yayır, ədəbi və qələm pozğunluğu meydana çıxarır”.[237]

Rəsulzadənin fikrincə, milli sosialist hökumətdə isə beş formada hürriyyət olmalı idi: birincisi-söz azadlığı; ikincisi-mətbuat azadlığı; üçüncüsü-cəmiyyət və ittifaq azadlığı; dördüncüsü-vicdan azadlığı; beşincisi-malın və canın mühafizə olunması azadlığı. Onun fikrincə, söz azadlığı insanın öz fikrini, düşündüklərini qorxub çəkinmədən, kimsədən ehtiyat etmədən açıb danışması demək idi. Rəsulzadənin fikrincə, hürriyyətin mövcudluğunu şərtləndirən ikinci amil mətbuat azadlığıdır. O, hürriyyətin üçüncü

[235] Yenə orada, s.75-76
[236] Yenə orada, s.79
[237] Yenə orada, s.80

əlamətini cəmiyyətin və ittifaqların yaradılıb sərbəst fəaliyyət göstərməyində görür. Rəsulzadə hürriyyətin dördüncü əlamətinin vicdan azadlığı olduğunu göstərir. Rəsulzadəyə görə hürriyyətin sonuncu əlaməti şəxsiyyətin toxunulmazlığındadır. Bu cür azadlıqlar bəlkə də Rəsulzadənin təsəvvür etdiyi milli, ancaq mahiyyətində həm də sosial məsələ dayanan bir iqtidarda mövcud olmalıydı. Belə bir ölkədə isə Rəsulzadə demokratik ideyaları milli haqlar kimi bərabər tuturdu.

**Rəsulzadə marksizm-leninizmin tənqidçisi kimi.** Mühacirət dövründə, yəni 1920-ci illərdən başlayaraq qələmə aldığı "Rusiyada siyasi vəziyyət", "Bolşeviklərin Şərq siyasəti", "Milliyyət məsələsində bolşevik nəzəriyyə və əməliyyatları", "İxtilalçı sosializmin iflası və demokrasinin gələcəyi" və başqa əsərlərində Rəsulzadənin sosial-demokrat prinsiplərinə, sosializm və demokratiya anlayışlarına baxışları öz aktuallığını itirməmişdi. Əksinə, Rəsulzadə mühacirət dövründə bolşevik sosial-demokratizmi ilə, marksizmin fərqlərini göstərməyə çalışmış, milli dövlətdə sosializmin yerini izah etmiş və milli təsanüd, yəni solidarizm (həmrəylik) fikirlərini irəli sürmüşdü.

Mühacirəti dövründə də marksist sosial-demokratizmin əleyhinə olmayan Rəsulzadə, sosial-demokrat ideyası adı altında pərdələnərək proletarlar, fəhlə-kəndli sinfi formasında millətləri əsarət altında saxlayan Sovet rejiminə qarşı mübarizə aparıb. Rəsulzadə Sovetlər Birliyinin Azərbaycana tətbiq etdiyi siyasətin, qayda və qanunların iç üzünü açıb göstərir, onları sərt tənqid atəşinə tuturdu. Burada da əsas məqsəd sosial-demokratiya adı altında pərdələnmiş bolşeviklərin əsil mahiyyətini, iç üzlərini açıb göstərmək idi. "İstiqlal" jurnalındakı "Açıq diplomatiya" məqaləsində Rəsulzadə bolşeviklərin növbəti siyasətini açıq diplomatiya fikrini irəli sürməyinin daxili saxtakarlığını izah edirdi. O göstərirdi ki, onlar həmişə zahirən demokratik azadlıq pərdəsinə bürünmüş şüarlar irəli sürüb əslində özlərinin istibdad qanunlarını yeridirlər. Rəsulzadə yazırdı ki, qırmızı imperializm özünün əsil qayəsini təşkil edən dünyada sosializm inqilabından əl çəkmə-

yib. [238] Rəsulzadə yazırdı: "Fəhlə-kəndli hökuməti çalışanların məmləkəti, proletar diktatorluğu, kommunizm hakimiyyəti, bolşeviklərin ağalığı: Bütün bunlar Sovetlər İttifaqı deyilən məmləkət üzərində fərdi hakimiyyətlərini quran qanlı avantüristlərin kefi, istibdadlarını qazanmaq üçün tullanılan bir ulduzlu cümlələrdir". [239]

Bütün bunlara baxmayaraq, Rəsulzadə bolşeviklərin daxilən narahat olduğunu, zahirən isə özlərini sakit göstərdiklərini yazır: "Azərbaycanda "sosializm"in zahirən "türkizm" üzərində qələbəsi təmin olunmuşdu. Rus bolşevizmi Azərbaycan millətçiliyi üzərində qələbəsini bayram edirdi. Yabançı totalitarizm yerli demokratiyaya qələbə çalmışdı. Lakin bu məsələnin, sadəcə, zahiri tərəfidir. Həqiqətdə isə mübarizə hələ bitməmişdir: Onun müqəddəratı müasir şəraitdə dünya miqyasında cərəyan edən böyük mübarizənin müqəddəratı ilə bağlıdır. Azadlıq və demokratiyanın son qələbəsi müqəddərsə, (buna qətiyyən şübhəmiz yoxdur) o zaman 1918-ci ilin 28 mayında hüquqi ifadəsini tapan milli Azərbaycan Respublikasının həyata keçirdiyi azadlıq və istiqlala yenidən qovuşacağı əlbəttə ki, həqiqət və müqəddərdir".[240]

Rəsulzadə mühacirət dövründə Sovet Rusiyasında gedən baş verən prosesləri diqqətlə izləyir, imperiyadakı "demokratiya" və "sosializm"in iç üzünü açıb göstərməkdə davam edirdi. Onun məqsədi əsil demokratiya, sosial-demokrat ideyası ilə, sovetlərin "sosial-demokratiya", "demokratiya"sı arasındakı fərqləri ortaya qoymaq idi. "Rusiyada siyasi vəziyyət" məqaləsində də mütəfəkkir bu fərqləri göstərir və bunun nəticəsində bolşeviklər arasında yaranmış ziddiyyətləri nümunə gətirirdi: "Kommunist firqəsindəki müxalifət eyni cinsdən deyildir. Bunlar bir tərəfdən Zinovyev tərəfindən idarə olunan sollar, digər tərəfdən də Sokolnikov və Medvedyev kimi sağlar arasında müxtəlif fərqlərlə

[238] Yaqublu Nəsiman. Məmməd Əmin Rəsulzadə. Bakı: Gənclik, 1991, s.209
[239] Yenə orada, s.216
[240] Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991, s.111

ayrılan çoxlu zümrəsindən ibarətdir. Bu müxaliflərə görə indiki idarə Rusiyanı sosializmə deyil, kapitalizmə aparır”.[241] Rəsulzadə onların arasındakı fikir ayrılığını belə izah edirdi: “Sağlar deyirlər ki, dünyada sosializm qurmaqdan əl çəkməli, Avropa ilə əməkdaşlıq etməli, demokratiyaya doğru getməli, sollar deyir, Leninə qayıtmalı, bütün dünyanı sovetləşdirməli. Kommunist firqəsi bir tərəfdən həqiqi rus mənafeyini güdən sağlar, digər tərəfdən də beynəlmiləl inqilab iddialarından əl götürməyən sollar arasındakı çəkişmələrə səhnə olmuşdur. Medvedyev və Zinovyev qütbləri arasında müxtəlif şəkil və xüsusiyyətlər daşıyan qruplar çoxalır. Bunlar arasında hakim bir vəziyyəti tutan qrup Stalin zümrəsidir. Bu zümrə mahiyyət həddində zinovyevçilər kimi məmləkətini sağlaşama təmayülatından doğan təhlükəni inkar etməməklə, zinovyevçilərin çarə olaraq göstərdikləri yola girməyi daha çox təhlükə hesab edirdilər. Onlarsa yenidən təhkimləşdirmə və təkcə fəhləyə istinadla kəndli və xırda burjua mənfəətlərinə göz yumulmasına gedilərsə Leninin ən böyük vəsiyyətlərindən olan fəhlə-kəndli ittifaqı pozular, Sovet sisteminin bel sümüyü qırılar”.[242]

Rəsulzadə sovetlərin saxta “demokratiya” və “sosializm” təbliğatına baxmayaraq, qeyri-rus millətləri öz yollarından döndərə bilmədiyini yazırdı: “Bakıda toplanan Türkoloji Konqresin pantürküstlər tərəfindən istifadə olunmamasını təmin üçün yaxşı əməl sərf edilməsinə rəğmən yuxarıda adı çəkilən konqresdə “nə yapsalar da bizi böyük Türk kültür və mədəniyyəti yaratmaq əzmindən döndərəməzlər” mənasında söylənən hərarətli nitqlər iradını qadağan edə bilməmişlərdi”. [243]

Bu baxımdan M.Ə.Rəsulzadə inanırdı ki, sonda bolşevik diktatorluğu məhv olacaq: “Bizcə həyatının böhranlı bir dövrünə girən sovet hökumətinin artıq süqut edib-etməyəcəyindən deyil, necə süqut edəcəyindən bəhs edilməlidir. Mötədillərin qələbəsi ilə kommunist firqəsi sağlaşaraq rəsmi demokratik təsis və təkamül

---

[241] Rəsulzadə M.Ə. Bolşeviklərin Şərq siyasəti. Bakı: Sabah, 1994, s.16
[242] Yenə orada, s.17-18
[243] Yenə orada, s.30

edə biləcəkmi? Yoxsa həyatla barışmaz bir təzad halında olan bu müəssisə əleyhinə, dünən müxalif ünsürlərin təzyiqi nəticəsində partlayaraq yeni bir inqilab zühuru ilə devriləcəkmi?”.[244] O, yazırdı ki, keçirdikləri çox acı təcrübələr nəticəsində birlik lüzumuna bütün mövcudiyyətləri ilə qənaət gətirən bu millətlər nə lazımdır etməlidirlər: “Bunlar arasında Azərbaycan Cümhuriyyətinə və azəri türklərinin üzərinə düşən vəzifə də çox böyükdür”.[245]

Rəsulzadə “Milliyyət məsələsində bolşevik nəzəriyyə və əməliyyatları” əsərində isə milliyyətlə bolşevizm arasındakı əsas ziddiyyətləri göstərməyə çalışmışdır. Onun fikrincə, Vilson prinsiplərində xüsusi mövqe tutan “millətlərin öz müqəddəratlarını həlli səlahiyyətdar olduqları” prinsipi bolşevizmdə heç bir zaman öz mahiyyətində müsbət bir qiymətə malik olmamışdır: “Onların nəzərində bu şüar təqib etdikləri məqsəd uğrunda istifadə etdikləri silahlardan biridir. Digər təbirlə, bu məsələ onlar üçün heç bir zaman bir məqsəd deyil, sadə bir vasitə və alət rolunu oynamışdır.... Milli mədəniyyətə müqabil Lenin “ümumdünya fəhlə hərəkatı və beynəlmiləl demokratiya mədəniyyəti”ni qoyurdu. Bu nöqteyi-nəzərlə də o, Rusiyanın milli-məhəlli muxtariyyətlər əsası üzərində qurulu qoşma cümhuriyyətlər (federasiyon) şəklində təsisinin şiddətlə əleyhinə idi”.[246]

Rəsulzadəyə görə Lenin bolşevik inqilabına qədər öz fikirlərində israr edib. Belə ki, 1917-ci ildə bolşevik konqresi Lenin tərəfindən təklif olunan bu formulu “mərama müvafiq olarsa” qeydi ilə qəbul etmişdi. Yəni onlar demək istəmişdi ki, “bəli bir millət dövlətdən ayrılmaya belə haqlıdır. Yalnız bir şərtlə ki, bu ayrılma mərama müvafiq olsun”. Rəsulzadə yazırdı: “Mərama müvafiq olan ayrılmanın təqlidi isə bolşevik firqəsinə aiddir. Sonralar “bu təqdir”in miqyası da təyin olundu. “Təyini-müqəddərat” haqqı bir millətin ümumi heyətinə deyil, ancaq o

---

244 Yenə orada, s.41

245 Yenə orada, s.43

246 Rəsulzadə M.Ə. Əsərləri (Mühacirət dövrü: Türkiyə, 1922-1929). I cild, Bakı, “OL” npkt, 2016, s.303-304

millətin "proletariat" sinfinə məxsus olundu".[247] Rəsulzadə Azərbaycanın, Gürcüstanın da bu adla işğal edildiyini qeyd etmişdi: "Guya, Azərbaycan və Gürcüstanda "fəhlə üsyan"ları olub və onlar Sovet Rusiyasına ilhaq qərarı veriblər. Moskva bolşevikləri də milliyyət prinsipini pozmadan hərəkət ediblər".[248]

"Sovet federalizmi" və "ayrılma haqqı" məsələsi ilə bağlı Rəsulzadə yazırdı: "Daxili siyasətdə mənfi görülən "təyini-müqəddərat" prinsipi ilə bu prinsipdən çıxan "ayrılma haqqı"nın xarici siyasətdə müsbət bir qiymətə malik olduğu fikri bolşevik siyasətinin milliyyət məsələsində fəaliyyət proqramı qəbul etdiyi çox mühüm bir "tezis"dir. Bu tezisə görə, sovet federalizmi müvvəqəti bir tezisdir".[249] Rəsulzadəyə görə, bununla ikiüzlüyə yol verən sovet rejimi əslində tamam başqa siyasət yürüdürdü: "Sözdə sovetlərə görə ittifaqı təşkil edən üzvlərin hankısı istərsə ittifaqı tərk etmək haqqına malikdir... Ancaq bu xəyali bir istiqlal idi. "Sovetlər ittifaqı" təşkilati-əsasiyyəsi -ölkə ruslar tərəfindən birmənalı şəkildə idarə olunur. MİK "ittifaq şurası" və "millətlər şurası" rusların əlindədir. O birisi cümhuriyyətlərin heç bir səlahiyyəti yoxdur. Sovet federasiyonunu təşkil edən cümhuriyyətlərin yalnız adı cümhuriyyətdir".[250]

O, sovet "sosial-demokratiya"sının mahiyyətini Lenin öz əsərlərində belə büruzə verdiyini yazırdı: "Lenin "Dövlət və inqilab" adlı klassik əsərində xəyali kommunizmi anarxistlər kimi hökumətsiz və cəbri qüvvətdən azad, tamamilə sərbəst insanlar cəmiyyətindən ibarət bilərək hökumətin getdikcə ölməyə məhkum olduğunu təlim etdiyi halda, "proletariya hakimiyyəti" adını verdiyi dünyanın ən şiddətli və ən müstəbid hökumət sistemini işə salmış və əməli şəkildə təsis eləmişdir. Milliyyət məsələsində də öylə: hər milləti tamamilə sərbəst və öz müqəddəratına şəxsən hakim qəbul edərək, sözdə sovet sisteminin ana əsasları daxilində

[247] Yenə orada, s.305
[248] Yenə orada, s.305-306
[249] Yenə orada, s.308
[250] Yenə orada, s.309-310

federalizmə mühüm bir mövqe ayırdığı halda, işdə dünyada tayı olmayan bir sentralizm vücudə gətirmişdir”.[251]

Hətta rusların internasionalarda bütün “milli cümhuriyyətləri” əvəz elədiyini önə çəkən Rəsulzadə bildirirdi ki, bolşevikləri milli istiqlal şüarı ilə federalizmə, sözdə də olsa, güzəştə getməyə məcbur edən bu şərait, daxilinə milli hərəkatları inkar etməklə çox ciddi bir düşmən qazanmamaq olub: “Halbuki, “federalizm” adı altında işlənən yapmacıq bir sistemlə bu hərəkatı bolşevik məqsədinə doğru döndərmək qabildi. Milli hərəkatlara verilən zahiri əhəmiyyətlə onlardan bir qisminin dostluğu qazanılır, şəklən milli birər hökumət halına gəlmələrilə də bu millətlər eyni zamanda “milli məhkumiyyətdən qurtulmayan” digər millətləri təhrik üçün gözəl bir təbib olardı”.[252]

Bolşeviklərin Şərq siyasətini isə o, belə dəyərləndirirdi: “Rus “Lafonten”i məşhur Krılovun “istifadə edə bilmədiyimizi hədiyyə edirik”- deyə bir misrası vardır. Bolşeviklərin Şərq məmləkətləri haqqındakı comərdlikləri də bu yöndəndir. Əlləri çatmadıqlarını hədiyyə edirlər… Bu, parlaq manevr idi. Manevrə idi-deyirik, çünki manevrə olmayıb da Sovet hökumətinin Şərqdəki qonşuları ilə dostluğu həqiqi və hər cürə istismar iştihasından ari həqiqətpərvaranə bir əsasə istinad etmiş olsaydı o zaman biz aradakı siyasi razılıq və uyğunluğa baxmayaraq, Şərq millətləri ilə Sovet arasında sənələrcə davam edən və hələ də bir cürə zəll edilməyən iqtsadi ixtilaflarla ticarət mübarizələrinə şahid olmazdıq”.[253]

Rəsulzadə Stalinə yazdığı məktubunda da onun “demokratiya”sının əsil mahiyyətini göstərirdi: “Bir hökumətin rəsmi ideologiyası zadəgan şovinizmindən fəhlə kosmopolitizminə dəyişərsə, bundan məsələ çox da dəyişməz və ən sonunda geridə qalmış və az inkişaf etmiş millətlərin milliyyətlərindən məhrum olmasına (demasionalizə olması), digər bir milliyyətə təmsilləri (assimilizmə olmaları) kimi bir nəticəyə səbəb olur. Yerli fəhlə

---

[251] Yenə orada, s.317
[252] Yenə orada, s.321-322
[253] Yenə orada, s.326-327

(proletariat) sinfinə istinad iddiası ilə əldə silah Qafqaz və Türküstan kimi ucqar vilayətlərdə əmələ gəlmiş olan demokratik siyasi təşəkkülləri işğal etdiyiniz zaman ümumiyyətlə, sabiq imperiyanın çarizm siyasətilə ruslaşdırılmış müstəmləkə şəhərlərindən rus fəhləsindən ibarət ən kiçik azlığın arzusuna uyğun olaraq böyük bir çoxluq təşkil edən yerli əhalinin ən qanuni bir haqqını kobud bir surətdə çeynəmiş olursunuz. Fəhlənin Azərbaycan və Türküstanda diktatura elan etməsinin Moskva diktaturasından başqa bir şey olmadığı günəş kimi aşkardır”. [254] O, daha sonra yazırdı ki, Moskvada olduğu iki il ərzində Şərq millətlərinin və xüsusilə Türk ellərinin nicatının yalnız özlərində, özünü bir millət kimi tanınmalarından ibarət olduğuna qəti surətdə inanıb: “Bunun üçün sisteminizdə millətin özünə bəslədiyi bu inamın kökündə yox edildiyini və milli anlamının milli inqilab anlamına təbdil edildiyinə soyuqqanlı baxa bilmirdim. Sizin istədiyiniz bu mübadilə baş tuta bilməz. Şərq millətləri kommunist həyatı ilə deyil, öz milli həyatları ilə yaşamaq istəyirlər”. [255]

“Çağdaş Azərbaycan tarixi” (1951) kitabında da Rəsulzadə milli məsələyə diqqət yetirərək yazırdı ki, rus olmayan sovet respublikalarından milli istiqlal fikrinə meyl edənlərə “milli sapıntıçılar” adlandırılır. Bu baxımdan 1924-cü ildə AKP-nin baş katibi Əyyub Xanbudaqovun Azərbaycan sapıntıçılarına başçılıq etməsinə diqqəti çəkən Rəsulzadəyə görə, onların əsas tələbi Moskvanın Azərbaycanın daxili işlərinə qarışmaması idi. Onun sözlərinə görə, bu hərəkat Moskvanın zorakı tədbirləri ilə nəticələndi və Xanbudaqovu Azərbaycandan sürgün etdilər. [256]

Onun fikrincə, bu əməli müqavimət hadisələri ilə bərabər Azərbaycanda siyasi konspirasiya, yəni gizli çalışma aktları da güclü şəkildə davam edir, gizli bəyannamələr, hətta qəzetlər nəşr olunurdu. Şübhəsiz, bu hallar da Sovet hökumətinin görünməmiş təzyiqinə səbəb olub, yaxalanan millətçilərə işgəncələr verilir və

[254] Hüseynov Ş. Müstəqilliyin çətin yolu... Biz hara gedirik. Bakı: Azərnəşr, 1996, s.286
[255] Yenə orada, s.287
[256] Rəsulzadə M.Ə. Əsrimizin Siyavuşu... Bakı, Gənclik, 1990, s.90-95

sürgünlərə göndərilirdi. O, yazırdı: "Solovki və buna bənzər sürgün yerləri ilə bütün sovet zindanlarında iztirab çəkənlər sadəcə müsavatçılar deyil, ümumiyyətlə, bütün milli zümrələrin nümayəndələri idi. Bolşevik leksikonu Azərbaycandakı bütün vətənpərvərləri müsavatçı adlandırır. Müsavatçılıq vətənpərvərliyin sinonimidir. 1932-ci ildə toplanan AKP-nin qurultayının qərarına görə Müsavat Partiyası ilə, sadəcə, daxildə deyil, xaricdə də mübarizə aparılmalıdır".[257]

Sovet Rusiyasının Azərbaycanda apardığı ruslaşdırmanı assimilyasiyanı kimi dəyərləndirən Rəsulzadə yazırdı ki, siyasi və iqtisadi müəssisələrdə Rusiyadan gələn yabançı ünsürlər hökm sürürdülər: "Şəhərlər getdikcə milli özünə məxsusluqlarını itirirlər. Sənaye işçilərinin sayı azərbaycanlıların zərərinə olaraq dəyişir. Bir sözlə, ən demokratik Stalin Konstitusiyası baxımından sözdə müstəqil Azərbaycan Respublikası metropoliya tərəfindən qeyri-mehdud bir miqyasda soyulmaqda və istismar edilməkdədir. Mədəniyyətin ruslaşdırılması Azərbaycanın həqiqi bir faciəsidir. Sovetləşdirmənin ilk dövrlərində bu siyasət mədəniyyəti "formaca milli, məzmunca kommunist" olmasından bəhs edən bolşevik formulu ilə maskalanırdı". [258]

O, yazırdı ki, Sovet İttifaqında milli mədəniyyətlərin getdikcə ruslaşdırılması bolşevizmin idealıdır. Belə ki, "Sovetizm" ilə "nasionalizm" arasında sərt bir savaşın getdiyini deyən Rəsulzadəyə görə, ölkədəki mədəni ənənələri himayə etmək istəyən ən kiçik bir hərəkət belə Sovet rejiminə qarşı edilən bir sui-qəsd hesab edilirdi: "Milliləşdirmək niyyəti xalqın bütün mənəvi dəyərlərini tək bir varlıq halına gətirmək məqsədi güdür. Halbuki ortodoksal kommunizm dini bir millətin müxtəlif təbəqə və siniflərini birləşdirən ünsiyyət yaradan bir vasitə deyil, sadəcə, sinfi mübarizənin silahı sayılır. Bunun üçün də xalq kütlələrinin ədəbi dili anlaya bilmək səviyyəsinə yüksəlməsi deyil, ədəbi dilin işçi xalqın anlayacağı bir səviyyəyə enməsi gərəkdir. Və bu qaydanın yalnız

[257]Yenə orada, s.96
[258]Yenə orada, s.98

Türk dillərinə və rus dillərindən başqa bütün dillərə tətbiq olunmacı da diqqətə layiqdir. Lenin və Stalinin dili isə bu qaydaya tabe deyildir. Burada başqa bir qanun hökm sürür. Bu qanuna görə yalnız rus xalqının müxtəlif təbəqələri deyil, Sovetlər Birliyindəki bütün millətlər də "oktyabr inqilabının müqəddəs dili"ni bilmək səviyyəsinə yüksəldilməlidir... Rusiyada rus vətənsevərliyinin Aleksandr Nevski, Minin Pocarski kimi qəhrəmanları, Suvorov, Kutuzov, Baqration və digər rus imperatorluğunun tarixi sərkərdələri yüksək bir əda ilə öyülərək, göylərə qaldırılarkən, Azərbaycanda vətən və milli istiqlal uğrunda unudulmaz mübarizəsi ilə tanınmış Dağıstanın böyük imamı Şamil ilə Gəncənin igid müdafiəçisi Cavaddan bəhs etmirlər. Bunun yerinə isə Azərbaycan tarixinin dərinlikləri aranaraq, oradan Babək kimi şəxsiyyətlər çıxarılıb ideallaşdırılır... Hər hansı bir şəkil və rəngdə olursa-olsun, Rusiyanı qorumaq vətənpərvərlik nümunəsidir, Rusiyadan qorunmaq isə əks inqilabçıların əməlidir”. [259]

M.Ə.Rəsulzadə 1937-ci ildə Moskvada qurulan bir məhkəmə əsnasında Azərbaycanda baş verənlərə də toxunaraq yazırdı ki, konstitusiyanın tənzimi üçün çağırılan Sovet Azərbaycanının 9-cu qurultayından bir çox məşhur Azərbaycan kommunistləri öncə nümayəndəlikdən çıxarılıblar: “Bu qurultayda keçirilən seçkilər əsnasında söz söyləyən o zamankı Azərbaycan Sovet Hökumətinin baş naziri Rəhmanov Azərbaycanda Sovet hökumətinə qarşı üç cür müxalifətin mövcud olduğunu söyləmişdi: 1. Dindarlığı qüvvətləndirmək məqsədi ilə məscidlər və kilsələr ətrafında birləşən klerikallar, 2. Müsavat Partiyası ətrafında toplanan millətçilər, 3. Kommunist Partiyasından ayrılmış milli əyintiçilər”. [260]

Rəsulzadə yazırdı ki, Sovet istila orqanları uzun müddət Azərbaycanın təhsil sistemində “panturanizm”i təmizləməklə məşğul olmuş, ümumtürk dünyası ilə hər cür münasibətlər yaratmaq istəyən təmayülə "panturanizm" deyilmişdir. O, yazırdı: “Tarixdən gələcək təhlükəni görən Stalin müharibədən əvvəlki illərdə

---

[259] Yenə orada, s.99-100
[260] Yenə orada, s.101

öz rəhbərliyindən müxalifət təşkil edəcəkləri ehtimal olunan bütün ünsürləri "təmizlədi". Azərbaycanda bütün zərbə ictimai və siyasi həyatın hər sahəsində milliyyətçilərlə milli sapıntıçılara dəydi... Azərbaycanda "sosializm"in zahirən "türkizm" üzərində qələbəsi təmin olunmuşdu. Rus bolşevizmi Azərbaycan millətçiliyi üzərində qələbəsini bayram edirdi. Yabançı totalitarizm yerli demokratiyaya qələbə çalmışdı. Lakin bu məsələnin, sadəcə, zahiri tərəfidir. Həqiqətdə isə mübarizə hələ bitməmişdir: Onun müqəddaratı müasir şəraitdə dünya miqyasında cərəyan edən böyük mübarizənin müqəddəratı ilə bağlıdır. Azadlıq və demokratiyanın son qələbəsi müqəddərsə, (buna qətiyyən şübhəmiz yoxdur) o zaman 1918-ci ilin 28 mayında hüquqi ifadəsini tapan milli Azərbaycan Respublikasının həyata keçirdiyi azadlıq və istiqlala yenidən qovuşacağı əlbəttə ki, həqiqət və müqəddərdir”. [261]

Ən azı üç müxtəlif dövrdə - çar Rusiyası, Azərbaycan Cümhuriyyəti və SSRİ (Rəsulzadənin də mühacirətdə olduğu dövr) zamanlarında sosial-demokrat ideyasını dəyərləndirən Rəsulzadənin bu ideologiyaya baxışlarında zamana görə kəskin fikir ayrılıqlarının olduğunu söyləmək mümkün deyil. Düzdür, onun zaman-zaman bu ideologiyaya baxışlarında müəyyən dəyişikliklər olub. Bunu dəyişikliklərdən daha çox Rəsulzadənin formalaşma mərhələlərində bu ideologiyaya yeniləşmiş baxışı kimi dəyərləndirmək olar. Rəsulzadə sosial məsələni milli dövlətin ideologiyası yox, onun daxili siyasətinin bir hissəsi sayıb. Sosial-demokrat ideyasını o, mücərrədə gələcəkdən real bir cəmiyyətin işinə yarayan istiqamətə çevirməyə çalışıb. Bu baxımdan ilk dövrlərdə sosial-demokrat ideyalarını beynəlmiləl hədəfə çevirən Rəsulzadə çox keçmir ki, onu milli dövlətin bir hissəsinə aid edir. Bu cərəyanı sadəcə, insanların xoşbəxt yaşayışını təmin edən bir proqram kimi hökumət çəriçvəsində istifadə edilməsinin zəruriliyini dərk edir, həm də Azərbaycan Cümhuriyyəti

[261] Yenə orada, s.111

hakimiyyəti dövründə sosial-demokrat ideyalarını qisəmən də olsa, həyata keçirməyə çalışır.

Bu, bir daha göstərir ki, Rəsulzadə üçün sosial-demokrat ideyası sadəcə milli hökumətin işinə yarıya biləcək prinsiplərdən başqa bir şey olmayıb. Rəsulzadənin etiraz elədiyi sosial-demokratiya sovetlərin yalançı sosialist ideyaları idi. Sovetlərin ortaya qoyduğu yalançı "sosializm" və "demokratiya"nın mahiyyətini də açmaqdan geri qalmayan M.Ə.Rəsulzadə marksist sosial-demokrat ideyalarının isə müəyyən müddəalarını qəbul edib. Hansı ki, bu müddəalar cəmiyyətin sosial bərabərliyi, maddi rifahı ilə bağlı idi. Ümumilikdə, Rəsulzadənin demokratiyaya və sosializmə baxışlarını üç yöndən qiymətləndirmək olar.

Birinci halda o, sosial-demokrat ideyasını islama zidd saymadan bütün ideyalardan üstün tutur və hesab edirdi ki, bütün millətlərin azadlıqları, yalnız sosializmin beynəlmiləl halda qələbəsindən keçir. Rəsulzadə onlar kimi təklif edirdi ki, bütün ölkələrin fəhlə və zəhmətkeş sinfi birləşərək bərabər şəkildə sosializmin beynəlmiləl qələbəsini təmin etməlidir. O, bu zaman milli dəyərlərə sosial-demokrat baxışlarından yanaşır və hər bir millətin azadlığını da bu cərəyanın prinsipləri çərçivəsində dəyərləndirirdi. Yəni o, ayrılıqda götürülmüş bir millətin müstəqil şəkildə, hətta sosial-demokratizmə söykənsə belə, mübarizə aparıb qalib gələcəyinə inanmırdı. Onun fikrincə, bu, yalnız bütün millətlərin fəhlə-kəndli sinfinin bərabər şəkildə mübarizəsi nəticəsində reallaşa bilər. 1911-12-ci illərə qədər Rəsulzadə də bu fikrin hakim olduğunu görməmək mümkün deyil. Düzdür, o, bəzən bunun özünə də tərəddüdlə yanaşıb. Hətta boş məhculluq içərisində sosial-demokratizmə söykəndiklərini də etiraf edən Rəsulzadənin bütün bunlarla yanaşı müəyyən bir dövrdə ən çox sosial-demokratizmə üstünlük verdiyi bəllidir. Bunun nəticəsidir ki, Rəsulzadə hətta mənəvi baxımından bağlandığı islamı belə sosial-demokrat ideyalarına zidd saymayıb. Əksinə, onlar arasında ideya yaxınlığı tapıb ortaya çıxarmağa çalışıb. Prof. Şamil Qurbanov yazırdı: "Məhəmməd Əmin fəaliyyətinin ilk dövründə

sosial-demokratlarla yaxın olub, sosializm ideyasının təsiri altında idi. Onun gizli imzalarından biri də "sosialist" olmuşdur. Onlar cəmiyyəti inqilab yolu ilə dəyişdirmək, yeniləşdirmək istəyirdilər ki, bu da zamanın tələbindən doğurdu. Məhəmməd Əmində Müsavat fikrinin formalaşmasına və eyni adlı partiya yaranana qədər bu əqidə onda güclü idi". [262]

İkinci halda isə Rəsulzadə sosial-demokrat ideyasını sosial məsələ kimi, ikinci plana salıb. Bu, o vaxt baş verib ki, Rəsulzadə sosial-demokrat ideya əsasında bir millətin azad, müstəqil ola biləcəyinə inanmayıb. Eyni zamanda anlayıb ki, Rusiya bolşevikləri sosial-demokratiya (bolşevizm) adı altında yeni bir imperiya qurmaq istəyirlər. Bu baxımdan müsavatçılıq ideyasını ortaya ataraq milli davanı önə çəkən Rəsulzadə sosial-demokratizmi daha çox sosial nəzəriyyə kimi yanaşıb. Bu nəzəriyyəyə görə isə sosial-demokratizmdə olduğu kimi, bütün millətlər bərabər şəkildə sosial-iqtisadi rifaha, insan haqlarına sahib olmalıdır. Ancaq bundan öncə milli dava aparılmalı və hər bir millət ayrı-ayrılıqda ən azı muxtariyyət şəklində özünü idarəetməyə nail olmalıdır. Sosial məsələdən sadəcə, hər bir millət azad olacağı təqdirdə insanlarının bərabər şəkildə yaşaması üçün istifadə edilə bilər.

Üçüncü halda Rəsulzadə sosial-demokrat və milli məsələyə nisbətən bərabər şəkildə yanaşıb. Milli ideyanı istənilən ideyadan üstün tutmaqla yanaşı Rəsulzadə hesab edib ki, demokratik ölkədə faşizm, hitlerizm kimi mürtəce millətçiliyə yol verilməməlidir. Milli demokratik cəmiyyətdə dövlətin vətəndaşları heç bir milli-dini ayrı-seçkilik olmadan bərabər şəkildə yaşamalıdırlar. Ancaq milli demokratik, ya da milli sosial dövlətdə də milli xüsusiyyətlər, milli mənlik şüuru patriotluq anlamında hər zaman bir addım öndə olmalıdır. Burada nəzərdə tutulan milli mənlik şüuru bütövlükdə toplumu bir tam olaraq görmək, onu milli sosial dövlət anlamında ayaq üstə tutmaqdır.

---

[262] Qurbanov Ş. Məmməd Əmin Rəsulzadə. Bakı: Nurlan, 2001, s.49

*Bir kərə yüksələn bayraq bir daha enməz!*
**M.Ə.Rəsulzadə**

## 2.2. M. Ə. Rəsulzadənin milli demokratiyaya aid görüşləri: müsavatçılıq təlimi və milli istiqlalçılıq

**Azad insan, azad cəmiyyət və milli azadlıq**. M.Ə.Rəsulzadənin yaradıcılığında demokratiyanın əsas prinsiplərindən biri olan insanın, cəmiyyətin və millətin azadlığı məsələləri hər daim mühüm yer tutmuşdur. Onun bu məsələlər ilə bağlı fikirləri, insanın şəxsi azadlığından sosial azadlığa, daha sonra da cəmiyyətin azadlığından özünü tanıyan milliyyətin milli azadlığına qədər yüksələ bilmişdir. Rəsulzadə insan azadlığı və millətin istiqlalı məsələsini isə həm siyasi-fəlsəfi, həm bədii-fəlsəfi ədəbiyyatda kifayət qədər əks etdirə bilmişdi. Buna nümunə olaraq deyə bilərik ki, Rəsulzadə "Təsəvvürati-əhraranə" ("Azadlıq təsəvvürləri") şeirində azad insan və azad cəmiyyətini göstərə bilərik. O, bu şeirində azad insan və azad cəmiyyət məsəsləsini çox doğru təsəvvür etmişdir: "Siyasətcə nə rütbə olsaq azad,// Tamamilə olunmaz rəfi-əfsad,// Cəmaət malı olsa ərzi-abad,// Olur məsud o anda cümlə ahad,// Gedər ol dəmdə dünyadan tənəvvür,// Bu bəndi dinlə qare, et təsəvvür". Prof. Şamil Qurbanova görə Rəsulzadə o zaman dünya insanlarını bütünlüklə azad və məsud görmək istəyirdi: "Bu işdə o aparıcı qüvvəni nədə görürdü? Bu məsələ də onda çox konkret və aydındır. Bu qüvvə əzilən, istismar olunan milyonlarla xalq kütləsi idi. Həyatı dəyişən, yeniləşdirən də onlar olmalı idi".[263] Professor Vaqif Sultanlıya görə isə M.Əmin bədii yaradıcılığı ilə Azərbaycan ədəbiyyatında milli-azadlıq mövzusunun əsasını qoymuş və ədəbiyyatın bu özül ərzində ucalmasına təsir göstərmişdir".[264]

[263] Qurbanov Şamil. Məmməd Əmin Rəsulzadə. Bakı: Nurlan, 2001, s.26-27
[264] Sultanlı Vaqif. Məmməd Əmin Rəsulzadənin ədəbi dünyası. Bakı: Universitetin nəşriyyatı, 1993, s.14

Bizcə, sosial-demokrat olarkən Rəsulzadə daha çox fərdi və cəmiyyət azadlığına üstünlük vermiş, eyni zamanda insanın təmsil olunduğu xalqın və dinin, ümumilikdə isə bəşəriyyət qarşısında daşıdığı vəzifələri əsas kimi götürmüşdür. Xüsusilə də, insan və cəmiyyət azadlığı problemində insanın özünüdərki Rəsulzadənin diqqətini daha çox cəlb etmişdir. Onun fikrincə, əgər insan yüksək mənəviyyata sahibdirsə, özünüdərkdə problemi yoxdursa heç bir zaman əxlaqdan kənara çıxmayacaqdır: "Heç bir zaman bilmədiyim şeydən bilirəm kimi bəhs etmək adətim deyildir". [265]

Ona görə insanın yüksək dəyərlərə malik şüurlu bir canlı, ən ali əşrəfi-məxluq olmasına ən əsas sübut təbiətə və dünyaya qarşı mübarizədə onlara üstün gəlməsi: "İnsan təbiət və qüvayi-ünsüriyyə ilə elədiyi mübarizə ilə, mübarizə eyləyə bilməsi ilə, dünyanın təcavüzatinə müxtəlif alət və ixtiraat qayırmaqla mücadilə edə bilməsilə, bir kəlmə təbiətə, dünyaya qalib gəlməsilə qeyri heyvanatdan bu dərəcə fərqlənmiş, əşrəfi-məxluqat namını almağa nail olmuşdur. Əvət, insan əşrəfi-məxluqatdır. Zira, bütün məxluqat içindən ancaq budur ki, təbiətin hər bir ünsürünü fəth edib özünə tabe etmiş və sərkeşlikdə olanları dəxi fəth etmək üzrədir… Aləmi-insaniyyət bu yolda böyük-böyük rəyasətlər, ali fədakarlıqlar, mühüm kəşflər və ixtiraat etmiş də bu dərəcəyədək naili-kəlam olmuşdur. Bu qədər bir fütuhatilə ki, indiki əsri-təməddündə gördüyümüz və necə tərəqqiyyati-sənaye, ixtiraiyə onun şahidi-güvahidir. Haman bəşəriyyətin heyvaniyyətə etdiyi qələbəsinə, mədəniyyətin bu bütə qarşı göstərdiyi fəth və qələbəsinə bir dəlil və bürhan olmazmı?".[266]

Onun fikrincə, insan öz gücünə, qüvvəsinə inanarsa, çox şeyə nail olar: "Əvət, insanın qüvvətinə, qüdrətinə, cəsarət və rəşadətinə heç bir söz deyilməz, insaniyyət müttəfiq, müttəhid olursa, bütün bacarıqlı düşməni-ümumisi olan qüvvətli ənasiriyyə (elementlər) ilə mübarizə etməyə həsr edərsə, daha artıq müvəffəqiyyətə nail olub, daha ali fütuhata məzhər olar. Fəqət nə edərsən ki, bəşəriyyət,

---

[265] Rəsulzadə M.Ə. Əsərləri (1909-1914). II cild. Bakı: Şirvannəşr, 2001, s.300

[266] Rəsulzadə M.Ə. Əsərləri. I cild (1903-1909). Bakı, "Təhsil", 2014, s.282

mədəniyyət hənuz bunu layiqincə dərk etməmişdir. Bu idraksızlıqdandır ki, bütün qüvayi-inşaiyyə və ixtiraiyyəsini təbiət və ənasir ilə mübarizə və müqabilə etmək əvəzində vəqtinin, təbinin, qüvvətinin çox hissəsini öz əzası arasında olan layəqəlanə (ağılsız) mübarizələrə, müharibələrə, rəqabətlərə tərk ediyor”.[267]

Onun fikrincə, məhz insan azad olanda, əxlaqı da yaxşı olur. Rəsulzadə bu baxımdan insanın azad olmasını çox yüksək qiymətləndirir: “İnsanın azad vaxtı olur isə, ibarəyi-digərlə, insan hürr olur isə, əxlaqı da yaxşı olur, vaxtsız, əsir olur isə bədəxlaq olur. İnsanın azadlığı da onun öz ixtiyarında olmağından naşidir. Qədim əyyamda insanların yaxşılarından hesab olunanlar özlərini dağların mağarasına çəkib hər bir şeydən tərki-əlaqə edib, ancaq özlərinə məşğul oluyorlardı”.[268]

Bu baxımdan Rəsulzadə həyatın çətinliklərindən insanı qaçmamağa çağırırdı. O deyirdi ki, “həyat-müsadimədə, mücadilədə, ittihad və ittifaqdadır”.[269] Mütəfəkkirə görə, “həyat hər bir ehtiyacı təyin ediyor: məşəqqəti-həyat isə bu təyinatı iti bir surətə qoyub hər an, hər dəqiqə, hər saniyədə özünü bildirtdirmək, hiss etdirtdirmək dərəcəsinə vardırıyor”. [270]

O, insanların qəlbində işığın, ədalətin daha güclü olmasına inanırdı: “Fəqət bəşəriyyət heç bir zaman işıq və ədalətin axırıncı qələbəsindən naümid olmamışdır. Ən qaranlıq və ən müşkül dəmlərdə insan övladı səadətli bir istiqbal ümidilə yaşamış və bu ümidindən qüvvət alaraq zülmətpəsəndlərə qələbə çala bilmişdir”.[271] Rəsulzadə xeyrin, ədalətin qalib gəlməsinə nümunə kimi Zərdüştün fəlsəfəsini də göstərirdi: “İranın qədim dini olan sənaviyyət (dualizm) fəlsəfeyi-diniyyəsi insanların bu əqidəsini təsvir edən nə özəl və nə şairanə bir nəzəriyyədir. Əhrimən ilə Hürmüzda hər zaman mübarizədədir. Hürmüzdanın məzalim

---

[267] Yenə orada, s.283
[268] Yenə orada, s.42
[269] Yenə orada, s.49
[270] Yenə orada, s.268
[271] Rəsulzadə M.Ə. Əsərləri (1909-1914). II cild. Bakı: Şirvannəşr, 2001, s.509

olduğu zamanlar çox olmaqla bərabər bu iki hakim qüvvətin arasında daima bir müharibədir gediyor. Fəqət son qələbə yaxşılıq və ədalət rəmzi və əlaməti olan Hürmüzdanındır ki, onun qalib gəlməsi ilə xaliqgil olan Yəzdanın mərhəmət və ədaləti dünyanı cənnət və Allahın xəlqini rahat edəcəkdir”.[272] Bununla da zərdüşt-izmdən gələn bu cür ziddiyyəti önə çəkən Rəsulzadə bu mübarizə-nin sonunda xeyrin, işığın qalib gələcəyinə inanırdı.

M.Əmin insanın zəhmətlə, əməksevrəliklə, biliklə, ağılla ucaldığını görür və bunu da böyük əxlaqi dəyər kimi təbliğ edirdi. Əmək və zəka insan əxlaqının başlıca dəyərləridir. İnsanı ucaldan əmək və ağıldır. Cəmiyyətdə həmişə əməksevər, zəhmətkeş və zəkalı, savadlı insanlar yüksək mövqeyə sahib olmuşlar. Məhəmməd Əmin də məhz insan, cəmiyyət, millət, bəşəriyyət üçün əmək və elmin böyük rol oynadığını görmüş, onları əxlaqi prinsip kimi yüksək dəyərləndirmişdir. Bununla da Rəsulzadə azad, əxlaqlı yaşamağın prinsiplərini də sadalayırdı: “Dünyada yaşaya bilmək, xoşbəxt və məsud yaşaya bilmək üçün böyük bir bəsirət lazımdır. Yaşamaq yollarını bilmək, onun rah və çahını görmək üçün olduğu kimi yaşaya bilməməyin yaşayışdakı ədəmi-müvəffəqiyyətlərin səbəblərini anlamaq, anlayıb da çarəsinə baxmaq üçün də bəsirət lazım”.[273]

Ayrı-ayrı insanların azadlığı, azad düşüncələri öz davamını isə cəmiyyətin azadlığında tamamlayır. Başqa sözlə, öz sözünü deyə bilən və fikirlərini müdafi edən azad insanlar azad cəmiyyəti formalaşdırırlar. Ancaq bunun üçün həmin azad insanların, yenilikçi insanların cəmiyyət daxilindəki naqisliklər qarşı mübarizə aparması vacibdir. Buna nümumə kimi Rəsulzadə “Mütaliələrimdən” məqaləsində yenilikçi bir gəncin azad hisslərinə, düşüncələrinə yer verir, onu mühafizəkar düşüncəli gəncə qarşı qoyurdu. Rəsulzadənin məqsədi ağıllı, mübariz, humanist və camaat üçün işləyən yenilkçi gənc obrazını yaratmaqdır: “Mən gəzib, öz əqidəmi, öz fikrimi deyəcəyəm.

---

[272] Yenə orada, s.509
[273] Yenə orada, s.319

Həmin fikrimi demək üstündə az bəlalar görməmişəm: ata ilə aramız dəyib, bəzi cəmaət hesab olunanların nəzərindən düşmüşəm, uşkoldan qovulmuşam, lakin bunların hamısını qəbul eləyib, bildiyimdən geri qalmayacağam. Mən öz fikrimi deməsəm, özümü günahkar bilərəm. İnsan cəmaət yolunda hər bir şeydən keçsin”.[274]

Yenilikçi gəncin bu fikirləri ilə razılaşmayan mühafizəkar gənc ona cavab olaraq deyir ki, nahaqq yerə həlak olmaq istəyirsən. Onun fikrincə, camaat yolunda candan keçməyin heç bir faydası yoxdur. Əvəzində müsbət qəhrəman (Məhəmməd Əmin) - camaatdan artıq heç bir şey yoxdur deyir: “Doğrusu, cəmaətimiz cahildir, avamdır, xeyrini-şərini bilmir, əmmamələrə, medallara, tapançalara, pula itaət edir, həqq və həqiqətə səbr etmiyor. Bunlar hamısı düzdür. Hərgah bunlar olmayaydı, hər bir şey yerli-yerində olaydı, onda daha bizə nə ehtiyac, onda daha nə lazım gəliyordu ki, cəmaəti öz həqqini bilməyə, qara qüvvələrə itaət etməməyə çağırasan. Sizin dediklərinzdə bilmərrə məntiq yoxdur. Siz diyorsunuz ki, "cəmaət bilmiyor, bildirmə, biləndə deyərsən". Bunu, bir nəfər müstəbidin dilindən eşitsəydim, bir o qədər təəccüb etməzdim. Çünki böylə bir məntiq ilə ancaq onlar razı olarlar. Cəmaətin ziyalı, mərifətli bir üzvü isə gərək desin ki: "Cəmaət bilmiyor, bildir, deməsən, bilməz". Qoy əvvəl dəfə səni döysünlər, vursunlar, sözünü eşitməsinlər, eybi yoxdur. Axırda bilərlər, həqq hər halda qələbə edər».[275]

Rəsulzadə yazırdı ki, Avropa xalqlarında olduğu kimi, müsəlmanlar arasında da azad fikirli insanlar olmalıdır ki, onlar da təmsil olundiqları müsəlman xalqları milli azadlığa doğru səsləsinlər. Sadəcə, müsəlmanların azad fikirli insanlara və azad cəmiyyətlərə çevrilməsi üçün, onları maarifləndirmək, mədəniyyət “ağac”ı əkmək lazımdır. O, yazırdı: “Mədəniyyət əkmək üçün müsəlman cəmaəti necə münbit bir torpaqdır. Ancaq tədbirli əkinçi lazımdır ki, bu yerləri şum eyləyib əksin. O əkinçilər də biz

---

[274] Hüseynov Ş. Müstəqilliyin çətin yolu... Biz hara gedirik. Bakı, 1996, s.216
[275] Yenə orada, s.217

millət cavanlarıyıq. Bizə vacibdir ki, heç bir müaminət və çətinliyə baxmayıb, var gücümüz ilə çalışaq ki, cəmaətimizi düçar olduğu fəlakətdən xilas edək. Hər sahibi-vicdan olan kimsə guşi-ibrət ilə qulaq assa, məzlumların naləsini, yetim uşaqların fəryadını, zülm altında əzilən əhalinin istimdadını eşitməyə bilməz! Bunları eşitməmək üçün kar olmalıdır, gözümüzün önündə aclıq və fəlakətləri görməmək üçün kor olmalıdır, mənəvi kar və mənəvi kor olmalıdır. Hər kəs ki kar deyil, hər kəs ki kor deyil, hər kəsin ki bədənində gizlətdiyi qəlb daş parçası deyil, dövrəmizi tutan bu dəhşətli mənzərə içində sakit otura bilməz”. [276]

**Rəsulzadənin milli demokratik baxışları və “müsavatçılıq” təlimi.** Müəyyən qədər Qacarlar (1909-1911), əsasən də Osmanlı dövründən (1911-1913-cü illər) başlayaraq Rəsulzadənin dünyagörüşündə sosial-demokratizmdən milli demokratizmə, islamlıqdan türkçülüyə keçidi baş vermişdi. Sosial-demokratizmdən milli demokratiyaya, islamlıqdan türkçülüyə keçməkdə Rəsulzadəyə, İstanbulda fəaliyyət göstərən "Türk ocağı" dərnəyinin fəalları, "Türk yurdu" məcmuəsinin müəlliflərinin, yəni Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Z.Göyalp, M.Ə.Yurdaqul, Y.Akçuranın fikirləri mühüm təsir göstərmişdi. Bununla bağlı Mirzə Bala yazırdı: "Rəsulzadənin Bakıya dönüşü, Romanovlar sülaləsinin 300 yübleyi münasibəti ilə elan olunan ümumi əfv üzərinə 1913-cü ildə vaqe olmuşdur. İrandakı fəaliyyəti, hürriyyət yolundakı mücadilə təcrübəsinin, rus imperializminə qarşı kininin artmasına yaradığı kimi, İstanbuldakı təmasları da milli məfkurənin yetişməsi və mənəvi təşəkkülünə qəti şəkil verməsi baxımından çox mühüm bir mərhələ olmuşdu".[277]

Qeyd edək ki, Rəsulzadə 1911-1913-cü illərdən başlayaraq sosial-demokratizmdən və islamlıqdan fərqli, milləti azadlığa aparıb çıxaracaq bir ideyanın axtarışında olub. Əvvəllər doğma xalqının azadlığını çar Rusiyasına qarşı mübarizə aparan sosial-

---

[276] Yenə orada, s.217-218

[277] Mehmetzade M.B. Mehmet Emin Resulzade. “Azerbaycan” mecmuesi, №12 (36). Ankara, 1955

demokratlarla bir yerdə görən Rəsulzadə zaman keçdikcə anladı ki, nə sosial-demokratizm, nə də islam millətçiliyi Azərbaycan türklərinin milli istiqlalına, azadlığına səbəb olmayacaq.

Hər halda 1910-cu illərin əvvəllərində də sosial-demokrat təlimini təbliğ etməyə davam etməsinə baxmayaraq Rəsulzadə özü də etiraf edirdi ki, nə isə çatışmır. O, yazırdı: "Bu təlatümdə biz nə istədiyimizi bilmədik. Bunu bilən tək-tək fərdlərimiz var idisə, bildiklərini bizə bildirməyə vaxt yox idi. O məşhur sənələrdə biz bir təlatümə düçar olan gəmiyə bənzəyirdik ki, hara gedəcəyimizi və sahili-nicatın nə tərəfdə olduğunu bilmirdik. Hər halda bir tərəfə olsa da, sükan saxlamaq lazım gəlirdi. Biz də bizimlə bərabər təlatümə tutulmuş olan digər millətlərin gəmiçilərinə baxdıq, yolumuzu onların getdiyi səmtə düzəltdik. Əlimiz sükanda titrəyir, ürəklərimiz məhcul bir aqibət qarşısında çırpınırdı".[278] Rəsulzadə açıq şəkildə yazırdı ki, sanki boş bir məhculluq üzündən sosial-demokrat ideyası adı altında mübarizə aparıblar. Bu, onu göstərir ki, Rəsulzadə "beynəlmiləl sosializm inqilabı"na bütün varlığı ilə inanmayıb. Bunun əvəzində isə Rəsulzadə sosial-demokratizmdən, "islam millətçiliyi"ndən ("ümmətçilik"dən)" fərqli bir yol axtarırdı.

Çox keçmədən Rəsulzadə bu yolu islamlıq, sosial-demokratizm, liberal-demokratizm, çağdaşlıq və milliyyətçilik (türkçülük) çərçivəsində, yəni "müsavatçılıq"da ("müsavat" sözü ərəbcə müsavi sözündən olub bərabərlik deməkdir) gördü. Doğrudur, "Müsavat"ın fəaliyyətinin ilk illərində (1911-1913) türkçülük digər ideyaların bir az kölgəsində qalırdı. Başqa sözlə, ilk dövrlərdə "Müsavat"ın proqramında türkçülükdən daha çox islam dini və sosial-demokratizm üstünlük təşkil edirdi. Nəsiman Yaqublu yazır: ""Müsavat"ın ilk proqramı islami xarakter daşımış, partiyanın sonrakı fəaliyyəti dövründə işlənib hazırlanmış, dolğunlaşmış, Azərbaycanın istiqlalı və müstəqilliyinə xidmətə yönəldilmişdir".[279]

---

[278] Rəsulzadə M.Ə. Stalinlə ixtilal xatirələri. Bakı: Elm, 1991, s.45

[279] Yaqublu N. Azərbaycan milli istiqlal mübarizəsi və M.Ə.Rəsulzadə. Bakı: 2001, s.29

Əslində "Müsavat" yaranana qədər də sosial-demokrat, islami ideyalar kütlələr daxilində cazibədarlığı ilə türkçülük əsaslı siyasi bir milli qüvvənin yaranmasını əngəlləmiş, millilik ən yaxşı haldda onlara münasibətdə uzlaşdırıcı anlamlarda özünü büruzə vemişdi. Bu baxımdan Rəsulzadə milli sosial-demokrat kimi "Türk gənc inqilabçılar dərnəyi", "Hümmət" təşkilatlarını, Ə.Ağaoğlu və N.Yusifbəyli "türk-islam millətçisi" kimi uyğun olaraq "Difai"ni, "Qeyrət"i, Ə.Topşubaşov müsəlman liberal-demokrat kimi "Rusiya Müsəlmanları İttifaqı"nı ortaya qoymuşdur. Ancaq bunlardan heç biri sırf milli demokratik mahiyyət daşımamışdır. Çünki sosial-demokratlar üçün milliyyətçilikdən daha önəmli sinfi mübarizə-beynəlmiləl sosializm inqilabı, islam millətçiləri üçün "İslam xalqlarının birliyi", liberal-demokratlar üçün "Böyük Rusiya demokratiyası" öncüllük təşkil etmişdir.

Bu baxımdan gənc yaşlarında daha çox sosial-demokratizm və islamın təsiri altında olan Rəsulzadənin "müsavatçılıq" təlimində də ilk dövrlərdə (1911-1912), milliyyətçiliyin-türkçülüyün ön planda olmaması başa düşüləndir. "Müsavat"da sosial-demokratizmdən və islamlıqdan milli demokratiyaya doğru ciddi dönüş Rəsulzadənin Osmanlıdan Quzey Azərbaycana (1913) qayıtdıqdan sonra özünü büruzə vermişdir. Buna əsas səbəb "Müsavat"ın proqramına dəyişiklik edən Rəsulzadənin Azərbaycan türklərini çar Rusiyasının ən azı muxtar bir hissəsi, yaxud da tam müstəqil, azad xalq kimi görməsi mülahizəsi idi. O, yazırdı: "Millətin azadlığı, düşüncənin azadlığıdır. Başqa mənada zülmü güclə aradan götürmək azadlığa bərabərdir. Azadlıqda inkişaf İlahi bəxşişdir". [280]

Millətin azadlığını da gerçəkləşdirə biləcək əsas ideal milli demokratiya idi. Bu baxımdan "müsavatçılığ"ın milli demokratiya əsasında təşəkkülü vacib hala gəlmişdi ki, bunun üçün də türkçülüyün sosial-demokratizm və islamlıqdan önə keçməsi bir şərt olmuşdu. Ona görə də, "Müsavat"da islamlıq və sosial

[280] Rəsulzadə M.Ə. Əsərləri. II cild (1909-1914). Bakı, "Təhsil", 2014, s.82

ideyaların öncüllüyü müvəqqəti xarakter daşımış, xüsusilə də 1-ci Dünya müharibəsinin başlaması ilə türkçülük, onun milli-məhəlli varlığı olan Azərbaycan türkçülüyü ilk sıraya yüksəlmişdir.

Bununla da Rəsulzadə artıq milliyyəti sosial-demokrat, islamçılıq ideyalarına deyil, onları türkçülüyün mahiyyətinə uyğunlaşdırmağa çalışırdı. Çünki Qacarlarda və Osmanlıda olarkən Rəsulzadə yalnız milliyyət baxımından deyil, şüurluluq anlamında da Türklüyü daha yaxşı anlamış, onu milli kimlikdən türklük şüuruna, türk dünyagörüşünə qədər yüksəldə bilmişdi: "Müxtəlif millətlərin arasında bir-birini qanmaq və qandırmaq üzrə ümumi olaraq türk dili işlənir. Türk dili burada (Qacarlarda) beynəmiləl bir dildir. Onu hər kəs bilir. Erməni, kürd, rus, fransız, ingilis, fars, aysor, alman hamısı türkcə danışır. Bu qədər müxtəlif cinsli bir heyətin hamısı ilə danışa bilirəm. Türkəm, bu cəhətdən özümü xoşbəxt hiss ediyoram". **[281]**

Ümumiyyətlə, "İran türkləri" sislsilə məqalələrindən başlayaraq Rəsulzadə artıq Azərbaycan türklərinin hürrnədiş olmasından, milli azadlığa can atmasından, milli hökumət yarada biləcəyindən bəhs edirdi. Osmanlıda olduğu müddətdə türkçülük düşüncələrini daha da inkişaf etdirən Rəsulzadə Bakıya dönənə qədər (1913) öz-özlüyündə həm “müsavatçılığ”ın əsas prinsiplərini müəyyənləşdirmiş, həm də onun əsasında Azərbaycan türkçülüyünün (azərbaycançılığın) təməl daşlarını atmışdır.

“Müsavatçılıq” sözü hərfi bərabərlik deməkdir ki, bu anlamda türkçülük, islamlıq, sosial-demokratizm, liberalizm kimi ideyalar bir yedə cəmiyyətin maraqlarına cavab verməli idi. Ancaq bunun üçün Qafqaz müsəlmanlarına-türklərinə dini inancından, sosial haqlarından, fərdi azadlığından öncə, ilk növbədə türklüyünü, özü də konkret olaraq Azərbaycan Türk kimliyini başa salmaq lazım gəlirdi.

Bu baxımdan Rəsulzadənin 1914-1917-ci illərdə yazdığı məqalələrdə, əsərlərdə, məruzələrində artıq əsas qayəni sosial-

---

[281] Rəsulzadə M.Ə. Əsərləri. I cild (1903-1909). Bakı: Azərnəşr, 1992, s.382

demokrat, islamlıq ideyaları deyil, türkçülüklə bağlı olan milli varlıq (dirilik), Türk dili, milliyyət, türk mədəniyyəti, azərbaycanizm təşkil etmişdi. O, bütün səyini Azərbaycan türklərinin milli varlığına (diriliyinə) yönəltmişdi ki, bu da dar anlamda "müsavatçılıq", geniş anlamda isə milli demokratiya ilə bağlı idi. Digər tərəfdən bolşeviklərin, yəni rus "sosial-demokratları"nın miillətlərin öz müqəddəratını təyin etməsi haqqını onlara verməməsi Rəsulzadənin milli demokratik xətti tutmasındakı haqlılığı bir daha ortaya qoymuşdur. Belə ki, bolşeviklərin lideri Lenin və onun həmfikirləri 1917-ci ildə verdiyi bəyannaməyə, çar Rusiyasının xalqları öz müqəddəratlarını özləri müəyyənləşdirəcək prinsipinə əməl etməmişdilər. Müstəqil Ağayev yazır: "M.Ə.Rəsulzadə sosial-demokratlarla, bolşeviklərlə o vaxta qədər həmfikir, həmrəy oldu ki, artıq millətlərə öz müqəddəratını təyin etmək, hətta ayrılıb müstəqil suveren dövlət yaratmaq hüququ verilməkdə idi. Bu zaman bolşeviklər öz vədlərindən imtina etdilər, sələflərinin tutduqları yolu davam etdirməyi vacib bildilər. Bundan sonra Məhəmməd Əminin siyasi yolu başqa istiqamət yönəldi. Amma bu o demək deyil ki, M.Ə.Rəsulzadə marksist təlimdən üz döndərdi".[282]

**Müsavatçılıq təlimi və Azərbaycan Cümhuriyyəti.** 1918-ci ilin əvvəllərində Azərbaycan türklərinin ortaya qoyduğu mübarizə, milli istiqlala doğru aparırdı. Azərbaycan xalqı nicatını nə bolşeviklərdə, nə də digər qeyri-milli təşkilatlarda axtarırdı. Artıq bu funksiyanı yerinə yetirən milli təşkilat olan "Müsavat" və onun lideri Rəsulzadə var idi. Bu, müstəqilliyə doğru atılan addımlarda özünəqayıdışın nümunələrindən idi. Rəsulzadə yazırdı: "Şurayyi-Milli elanı milli istiqlalla bərabər Azərbaycan hökumətini dəxi təşkil elədi. İlk hökumət Tiflisdə Azərbaycan hərəkati milliyyəsinin düşmənləri tərəfindən qətl edilən mərhum Fətəli xanın təhti-riyasətində təşəkkül etmişdi".[283] Yeni cümhuriyyət isə müsavatçılıq ideyasının əsasında quruldu. Bu dövlətin

---

[282] Ağayev M. Məhəmməd Əmin Rəsulzadə. Bakı: "Nurlan", 2006, s.28

[283] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, s.39

ictimai-siyasi quruluşu məhz müsavatçılığa (türkçülük, müasirlik və islamçılıq), milli demokratik dəyərlərə söykənirdi.

Rəsulzadənin sədri olduğu Milli Şura mühüm səlahiyyətlərə malik olmasına baxmayaraq, hökumətin işinə müdaxilə etməmiş, ən zəruri hallarda taleyüklü məsələləri öz boynuna götürmüşdü. Milli demokratik dəyərlərə həmişə hörmətlə yanaşan Rəsulzadənin rəhbərlik etdiyi Milli Şura və "Müsavat" Partiyası ölkənin parlament üsuli-idarəsi ilə idarə olunmasına şərait yaratmışdı: “Millət Məclisi, məmləkətin bütün sinif və millətlərini təmsil edib, dövlətin tamamən taleyinə hakim idi. Onsuz heç bir əmr keçməz, heç bir məsrəf yapılmaz, heç bir müharibə başlanmaz, heç bir barışıq bağlanmazdı. Hökumət məclisin etimadını qazananda qalır, itirəndə düşürdü. Ortada hakim olacaq vasitə-vəzifə də yox idi. Parlament hakimi-mütləq idi. Burada Avropada tətbiq olunmayan həqiqi bir xalq cümhuriyyəti qurulmuşdu”.[284]

O, müstəqil Azərbaycan respublikasının birinci ildönümü ilə bağlı deyirdi ki, Azərbaycan türkləri bu gün ilk dəfə olaraq böyük bir bayram saxlayırlar: İstiqlal bayramı! Rəsulzadə yazırdı: “Əvət, Zaqafqaziya millətləri bilməcburiyyə elani-istiqlal etmişlərdi. Bilməcburiyyə elani-istiqlal! İstiqlalımıza düşmən olanlar bu iki "məcburiyyət" və "istiqlal" sözlərinin bir araya toplanmasını "ictimai ziddin" qəbilindənədd etməklə, Zaqafqaziya cümhuriyyətlərinin qeyri-təbii olduqlarını isbat etmək istəyirlər. Fəqət, bu mülahizə zahirdə doğru görünsə də, batində elə deyildir. Bir növzadın məsəmməyi-madərdən xilas olub da, dünyaya gəlməsi heç şübhəsiz, bir vaqieyi-istiqlaldır. Qadının vəzi-həmlinə digər təbirlə bizdə "azad olmaq" deyirlər. Halbuki bu "azadlıq" eyni zamanda bir zərurəti-təbiiyyə, bir məcburiyyətdir". [285]

Azərbaycan Parlamentinin açılışında "bir kərə yüksələn bayraq bir daha enməz"- söyləyən Rəsulzadəyə görə həmin gün milli bayraqlara boyanmış Azərbaycan paytaxtı bəzi bədbinlərin

---

[284] Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991, s.41

[285] Hüseynov Ş. Müstəqilliyin çətin yolu... Bakı: Azərnəşr, 1996, s.33-34

qəlbinə də işıq salmışdır. O, yazırdı: "Cəmaət istiqlala, o qədər munis olmuş, hürriyyət və istiqlal fikri o qədər xalqın qanına sinmiş, ruhuna işləmişdir ki, indi artıq istiqlal fikri bir firqənin, bir kütlənin arzusu deyil, bütün cəmaət Vətəni istiqlalsız və dövləti hürriyyətsiz təsəvvür etmir. Ona görə demokratiya biltəbii qapısında şübhəli adamlar durmasına hər vəchlə razı olmaz və vahid vücud kimi hürriyyət və istiqlalının müdafiəsinə hazırdır".[286]

Rəsulzadə bəyan edirdi ki, yeni cümhuriyyət yalnız milli olmaqla kifayətlənmir, eyni zamanda müasir dövrün bütün müsbət tələblərinə cavab verən dövlət kimi fəaliyyət göstərir: "Azərbaycan müsəlman aləmində ilk respublika və Türk aləmində ilk dövlətdir. Mənim ilk baxışda qəribə görünən bəyanatımın ikinci hissəsi ola bilsin, sizi təəccübləndirir. Lakin əslində elə də var. Türk mənşəli bütün digər dövlətlər başlıca olaraq dini təməl üzərində qərar tutduqları halda Azərbaycan Respublikası müasir milli-mədəni müstəqillik təməlinə, türk milli demokratik dövlət qurumu zəmininə əsaslanır və bu baxımdan bizim respublikamız ilk türk dövlətidir". [287]

Onun fikrincə, müstəqilliyə qovuşmuş Azərbaycan Şərq ölkələri arasında ən inkişaf etmiş bir diyardır. Şərqdə bütün yeniliklər öncə bu ölkədə baş verir. Buna görə də Rəsulzadə bu hökumətin və onun vətəndaşlarının özəlliklərini göstərməyi də unutmurdu: "İnkişafa meylli olduqlarını göstərmək üçün bu kafi deyilmi ki, ilk türk dramaturqu azərbaycanlı, ilk türk bəstəkarı azərbaycanlı, Rusiya türkləri arasında ilk qəzet yaradıcısı azərbaycanlı, məzhəb uzlaşmadığını ilk olaraq ortadan qaldıran yenə azərbaycanlı, əlifba islahatını ilk düşünən azərbaycanlı, nəhayət, islam aləmində ilk dəfə cümhuriyyət elan edən də azərbaycanlıdır... Azərbaycan Cümhuriyyətinin əsas idarəsi bütün vətəndaşlarının bərabər hüquqla yaşaması üzərində qurulmuşdu.

[286] Yenə orada, s.44-45
[287] Yenə orada, s.77

Burada hər bir insan möhtərəm şəxs, Azərbaycan vətəndaşı olduğu üçün hüququ saxlanırdı”.[288]

Dinindən və millətindən asılı olmayaraq ölkənin bütün vətəndaşlarına eyni gözlə baxan Cümhuriyyətin qurulmasında müstəsna rol oynayan Rəsulzadə deyirdi ki, əgər Azərbaycanda milli hökumət möhkəmlənərsə, ölkədə istənilən müsbət ideyalar həyata keçəcək. Mütəfəkkirin fikrincə, bu zaman Rusiyadakı inqilabın Azərbaycana təsiri də azalmış olacaq. Yəni bu zaman Moskva bolşevikləri milli hökumətə təsir etmək gücündə olmayacaqlar: “Rusiya inqilabi-əzəmi, hər nə deyirlərsə desinlər, qətiyyən iflas etmədi. Rusiyada inqilab nə yapacaqdır? Bu sualla “Böyük Rusiya” fikri ilə məsum olan rus inqilabçıları nöqteyi-nəzərindən deyil, inqilabın kəndi təbiəti təhlil edərək cavab verməlidir... Biliyoram əfəndilər ki, Azərbaycan Rusiya inqilabının vəz etmiş olduğu müsbət nəzəriyyələrlə elan etdiyi əqanimi-hürriyyətdən son dərəcə istifadə edəcəkdir. İştə müstəqil bir Azərbaycan: siyasətin kəsbi-hürriyyət və istiqlal edəcək Azərbaycanda ictimai hürriyyətlər və hüquq-bəşərə aid düsturlar, hər halda, müstəbid Rusiya zamanından daha geniş, daha müsaid olacağına şübhə etməm. Hətta əfəndilər söyləmək istərəm ki, Azərbaycan Qafqasiyada ən hürriyyətpərvər və inqilabçı təsəvvür olunan Gürcüstandan daha məsuddur. Çünki burada bizim daxili hürriyyətlərimizə icrai-nüfuz edən və edəcəyi mütəsəvvir bulunan qüvvət yabançı bir qüvvət deyil, öz qüvvətimizdir”.[289]

Azərbaycan parlamentinin açılışında (7 dekabr 1918-ci il) Rəsulzadənin söylədiyi nitqdən bəzi məqamlara toxunmaq da yerinə düşərdi: “Rusiyada zühur edən inqilabi-kəbir (böyük inqilab) digər həqiqətlər arasında bir həqiqəti-bahirəyi (aydın həqiqəti) də elan etmiş idi. Bu həqiqət millətlərin hürriyyət haqqı və istiqlalları idi. Rusiya inqilabı təbiətində mövcud olan ruha sadiq qalaraq təbii yolu ilə inkişaf etsə idi, millətlərin hüququnu

---

[288] Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991, s.40

[289] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, s.41

təmin ilə muxtariyyətlərdən mütəşəkkil azad və demokratik bir Rusiyanı bir an əvvəl təsis edəcəkdi. O vaxt təbii idi ki, Rusiyada yaşayan müsəlmanların da siyasi həyatları digər məhkum millətlərlə bərabər, başqa bir təriqdə (yolda) cərəyan edəcəkdi. Millətlər öz müqəddəratının təyinini çox səmimi bir surətdə Rusiya Məclisi-Müəssisaınıdan gözlədilər. Ancaq Rusiyada inqilab və demokratiya namına (adına) zühur (ortaya çıxan) edən məkus (geri dönmüş) bir istibdadın nə kimi xarabalıqlar yaratdığını bilirsiniz. İnqilab namına hökmfərma (hakim) olan anarxiya və millətlərin hüquq elanından sonra verilən qatı mərkəziyyətçilik Zaqafqaziya millətlərini öz başlarının çarəsinə baxmağa sövq etdi".[290]

Rəsulzadə parlamentdəki çxışına davam edərək deyir: "Hər bir millət müstəqil və hürr olmalı, hürr olduqdan sonra digər millətlələ ürəyi istədiyi kimi ittifaq bağlamalıdır. Bütün dünya millətlərinin "Cəmiyyəti-Əqvam" (Millətlər Cəmiyyəti) vücuda gətirməsi bizim ən əziz fikirlərmizdəndir. Bu "federasyon"çılarla deyil, təbii bir meyil və arzu ilə hasil olmuşdur (Alqışlar)… Biz Rusiyanın sədaətini istəriz, Rusiya cəmaətini sevəriz, ancaq öz istiqlalımızı da əziz tutarız! (Alqışlar).Cəbr ilə qəbul edilən bir şeydə qətiyyən səadət olmaz, çünki səadət hürriyyət və istiqlaldadır! (Alqışlar). Bax bunun üçün əfəndilər, müstəqil Azərbaycanı təmsil edən üçboyalı bayrağı Milli Şura qaldırmış, türk hürriyyəti, islam mədəniyyəti və müasir Afropa iqtidarı-əhraranəsini (özgürlüksevərliyini) təmsil edən bu üçboyalı baryaq daima başımızın üstündə ehtizaz (dalğalancaqdır) edəcəkdir. Bir dəfə qaldırılmış bayraq bir daha enməyəcəkdir! Mən buna iman edirəm. Mənim bu imanımı millətləin qəlbində doğmuş olan əməl günəşi işıqlandırır. Bu günəş bir daha üful (batmayacaq) etməyəcək. Mən bəşəriyyətin vicadınına inanıram. Milyonlarla insan bahasına mal olan ümumi qırğından sonra bəşər vicdanı qazandıqları həqiqətləri asanlıqla əlindən verəməz. "Millətlər Cəmiyyəti" fikri

[290] Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası (məqalələr və sənədlər). Bakı: Elm, 1990, s.89

bu gün hər kəscə qəbul edilmiş bir fikirdir. Bu mənə ümid verir, qüvvətlə inanıram ki, artıq milləti öldürmək, millətin hüququnu tapdalamaq qətiyyən mümkün deyildir. Qaliblər də, məğlublar da millətlərin hüquqları təslim ediləməz deyirlər”. [291] Rəsulzadə daha sonra deyirdi: “Biz azərbaycanlılar bütün mövcudiyyətimizlə kəndi (öz) müqəddəratımızı, kəndi istiqlalımızı müdafiə və mühafizədə israr edər, səbat (dirəniş) və mətanət göstərəksə, heç şübhəsiz ki, Azərbaycan Cümhuriyyəti paydar (yaşayar) olar… Ancaq bu, təkrar edirəm, səbat və mətanət, fədəkarlıq istər. İstər ki, biz kəndimizin istiqlala layiq olduğumuzu isbat edək. Bu oldumu, sizi təmin edirəm ki, kimsə haqqımızı təslim etməmək cəsarətində bulunamaz. Hanki vicdandır ki, istiqlalı istəyən və ona ləyaqətini isbat edən bir milləti qəhr (peşman) etsin”.[292]

Nitqinin sonunu Rəsulzadə belə yekunlaşdırırdı: “Əfəndilər, mən buraya qədər sizə ümidli sözlər söylədim, buna iman edirəm. Ancaq nəzərinizi əhvalın ağırlığına da cəlb etməsəm, vəzifəmi hüsn (yaxşı) ifa etməmişəm deməkdir. Zaman ağır, gedəcəyimiz yol çox tikanlı və arizəlidir (gözlənilməz çətinliklərlə doldudur). İrəlidə bir çox müşkülat və maneələri də gözə almalıyız... Bu gün firqə ehtirasları, şəxsi qərəzləri və bütün bu kimi Vətən və millət qayəsi qarşısında qalan qərəzlər atılmalı, Vətən qayğısı və millət duyğusu hər şeydən yüksək tutulmalıdır (Sürəkli alqışlar). Əfəndilər, bu gün Azərbaycanın paytaxtında Məclisi-Məbusan açılışındayıq. Azərbaycan bir atəş mənbəyidir. Vətənimiz hər zaman kəndi sinəsində bir müqəddəs atəş bəsləməlidir. Bu atəş əski zamanlardan bəri həqiqətpərəstlərə rəhbər, bir şöləyi-ümid və iman təşkil eləmişdir. O atəş ki, bu gün də sərvət və saman (var-dövlət) səbəbi və mədəniyyət baisidir. Güclü bir atəş, Azərbaycan övladının sinələrinə düşən, milyonlarla bürkü yağan bu atəş əbədən sönməz, bir məşəl təşkil edib də hürriyyət və istiqlala doğru getdiyimiz maneəli yolları işıqlandırsın! (Sürəkli alqışlar).

[291] Yenə orada, s.90
[292] Yenə orada, s.91

Bu atəş sönməmək üçün əl-ələ verib müttəhidən çalışaq əfəndilər! Mən sizi belə bir ittihada dəfət edirəm! (Alqış)”.[293]

Türk birliyini sarsıtmaq, onun gerçəkləşməsinə əngəl olmaq istəyyənlər içimizdə və dışımızda həmişə olmuşdur. Hələ, 1918-ci ildə Osmanlı Türk əskəri öz vəzifəsini şərəflə yerinə yetirib, obyektiv səbəblərə geriyə-Türkiyəyə döndükdən sonra sapı özümüzdən olan bəzi “bolşevik”, “menşevik” (S.Ağamalıoğlu, Ə.Qarayev, Ruhulla Axundov və b.) azərbaycanlılar onlara qara yaxmağa çalışmışlar. Məsələn, menşevik S.Ağamalıoğlu deyirdi ki, türklərin zamanında qoyulan siyasət azadlığa və istiqalla ziddir, çünki bu siyasət fəhlə və kəndlini əzir və s.

Ancaq parlament kürsüsündən Azərbaycan tarixində Anadolu Türk əskərinin layiq olduğu şərəfli mövqeyini müdafiə edən M.Ə.Rəsulzadə onlara cavab olaraq bildirirdi ki, Türk əskərini Azərbaycana “Müsavat” tək deyil, sosialistlərlə bir yerdə çağırmışdı: ““Müsavat” türkləri çağırdı, çünki burada Azərbaycan türklərinin həyatı təhlükədə idi. Bu məsələdə ozamankı Azərbaycan Milli Şurası müttəfiq idi. Bu nöqteyi-nəzərdə sosialistlər peşman olsalar da, o gün bizimlə bərabər idilər. Ağamalıoğlu da türkləri çağırmışdı. Ancaq onlar indi bundan imtina etslər də, biz kamali-cəsarətlə deyiriz: türkləri çağırdıq və bununla da iftixar ediriz!. Çünki türklər gəlməsəydi, Bakıda baş verən mart hadisəsinin təsiri yalnız Bakıda qalmayıb, bütün Azərbaycanı istila edəcəkdi, millət də ümumi qətlə-qırğına məruz qalacaqdı».

Bu o deməkdir ki, Azərbaycan türklərinin, ümumiilkdə bütün azərbaycanlıların xilasına qoşan Osmanlı Türk əsgərləri Azərbaycanı özləri üçün, heç bir tərəddüd etmədən Vətən sanmış və Vətən uğrunda şəhid olmuşlar. Bunun eynisini Azərbaycan türkləri Çanaqqalada yapmışlar. Azərbaycan türk əskəri də Anadolu türkləri ilə bir yerdə Türkiyəni işğal etmək istəyən xarici qüvvələrə qarşı, Çanaqqalada birgə döyüşmüş və bir yerdə də şəhidlik zirvəsinə ucalmışlar. Çünki türklər üçün Türkiyə,

---

[293] Yenə orada, s.92

Azərbaycan, Türküstan (Orta Asiya), bir sözlə Turan vahid vətəndir, vahid bayraqdır, vahid dövlətdir, vahid mədəniyyətdir.

Gördüyümüz kimi, Rəsulzadənin milli demokratik dünyagörüşünün, müsavatçılıq təliminin mahiyyətin uyğun olaraq 1918-ci ilin 28 mayında qurulmuş Azərbaycan Cümhuriyyətinin mahiyyətində milli-demokrat prinsipləri mühüm yer tutmuşdu. Azərbaycan Cümhuriyyəti dövründə xalq Avropadakı demokratların, sosial-demokratların görmək istədiyi azadlıq ölkəsindən heç də geri qalmayan sosial ədalət, ictimai bərabərlik, insan haqları və azadlıqlarına malik idi. M.Ə.Rəsulzadə yazırdı: "Azərbaycan Cümhuriyyətində vətəndaşlar arasında siyasi bərabərlik bir qərar olmaqla, bərabər sosial ədalətsizliyin zərərli nəticələri də aydın tərzdə dəyişdirilirdi. Azərbaycan zehniyyətincə, dünyanın əvvəlindən bəri insanların yaşayış və iqtisadiyyatında qarşılaşdıqları ədalətsizliyi bir-birə ortadan qaldırmaq, inqilabçı bir zərbəylə mülkiyyəti və bununla bağlı insanlar arasında ortaya çıxan səfaləti ortadan qaldıraraq mümkün deyildi. Bundan anarxiya, daha çox səfalət çıxar və iç qarışıqlıqlarından başqa aydın bir nəticə allına bilməzdi. Onlara görə, bu bir kərə siyasi ədalət təmin olunduqdan sonra öz-özünə təkamül edəcək və yavaş-yavaş həll olunacaq bir məsələ idi". [294]

Sosial bərabərliyin, insan hürriyyətinin tərəfdarı olmaqla yanaşı, onun inqilabi yolla reallaşmasının fəsadlarını görən Rəsulzadə deyirdi ki, hələlik, xalq da buna hazır deyildir. Onun fikrincə, Azərbaycan türkləri-azərbaycanlılar sosial məsələləri inqilabsız, təkamüllə aradan qaldırmağın tərəfdarıdı: "Azərbaycanlılar düşünürdlər ki, mülkiyyəti tamamilə ortadan qaldırmaq, indiki durum içərisində şəxsi təşəbbüs qüvvəsini zorakı şəkildə aradan qaldırar. Sosial həyat irəliləmədən düşər, insanlar bəsit ibtidaiyə doğru dönərlər: aləmin nizamı pozular. Fəqət, bununla bərabər hər şeyin ifratından zərər gəldiyi kimi, mülkiyyətin də ifrat tərəflərini yox etmək sosial islahatın əsasını meydana

---

[294] Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu... Bakı, Gənclik, 1990, s.41

gətirməlidir. Mülkiyyət ancaq ümumi aləmə yayılıb təsirli oluncaya qədər müdafiə olunub – bu olmayanda ümumi zərər gətirən lüzumsuz bir artıqlıq kimi kəsilib atılmalıdır. Ərazi məsələsində misal kimi desək: hər əkinçi özü əkib-becərdiyi müəyyən miqdar torpağa sahibliyini qəbul etməklə bərabər, Azərbaycan islahatçıları geniş torpaqları ölü halında saxlayan torpaq sahiblərinin mülkiyyət hüququnu rədd edirdi. Millət Məclisində hazır olan qanun layihəsinə görə, xüsusi ərazi sahiblərindən alınıb dövlət malı olduqdan sonra əkin yeri, vətəndaşların mülkiyyətinə bölünür, dövlətin sərvət və gəlir qaynağını təşkil edən yeraltı mədənlər isə tamamilə dövlət xəzinəsinə qalırdı”. [295]

Şübhəsiz, torpaqların tədricən mülkədarların əlindən alınıb, kəndlilərə verilməsi prosesinin başlamamsı Rəsulzadənin, eyni zamanda Azərbaycan Cümhuriyyəti hökumətinin buraxdığı səhvlərdən biri idi. Çünki bolşeviklər müsavatçılara qarşı mübarizədə ən çox bu amildən yararlanırdılar. Bu baxımdan Rəsulzadənin sosial məsələdə inkişaf üçün zamana ehtiyac duyması doğru olsa da, müəyyən addımlaın atılması da gərəkirdi. Ən azı ona görə ki, bu dövrdə zaman fəhlə və kəndlilərin tərəfdarlarının lehinə işləyirdi. Həmin dövrdə xüsusi mülkiyyətin aradan qaldırılıb torpaqların kəndlilərə paylanmasının gecikdirilməsi Milli hökumət üçün problemlərə yol açırdı ki, bundan da bolşeviklər yetərincə istifadə etdilər.

Bütün hallarda Azərbaycan Cümhuriyyəti mahiyyətində milli xüsusiyyətlər dayanmaqla yanaşı, eyni zamanda sosial bərabərlik prinsiplərini yerli xüsusiyyətlərə uyğun olaraq həyata keçirən bir ölkə idi. Bütün bunlara baxmayaraq, yenə də ifrat sol və ifrat sağ qüvvələr tərəfindən qəbul olunmadıqlarını yazan M.Ə.Rəsulzadə qeyd edirdi ki, milli qüvvə olaraq sosial-demokrat prinsiplərini tətbiq edərkən sağların, sağların ideyalarını müdafiə edərkən solların təzyiqlərinə məruz qalırdılar. Rəsulzadənin

[295] Yenə orada, s.42

başçılıq etdiyi "Müsavat" Partiyası nə qədər milliyyətpərvər, türkçü olsa da, ictimai nəzəriyyəsinə görə də radikal-demokrat idi: "“Müsavat” firqəsi məfkurə etibarilə milliyyətpərvərlik doğma, türkçülük məsləkinə qail bir firqədir... Azərbaycan Cümhuriyyətinin ələmdarıdır. Bu şüarı ilk dəfə ortaya atmaq və onu yalnız əcnəbilərə deyil, bir qism azərbaycanlılara qarşı dəxi müdafiə etmək etibarilə Müsavat birinci Azərbaycan istiqlal firqəsidir. İctimai nəzəriyyəsinə görə, xalqçılıq, məsləkinə sadiq, radikal-demokrat bir proqrama malikdir”.[296]

O, özü də açıq şəkildə qeyd edirdi ki, “Türk milli demokratik” olan bu hökumət sırf milliyyətçi iqtidar deyil və özündə bütün cərəyanların müsbət tərəflərini ehtiva etməklə müasir özüllərə əsaslanır. Rəsulzadə Azərbaycan milli demokratiyasının əhəmiyyətini, digər cərəyanlardan, xüsusilə “sosialistlər”dən fərqini də doğru izah etmişdi: "“Sosialistlər”lə bizim fərqimiz bundadır ki, onlar beynəlmiləlçidirlər, biz isə demokratik millətçi. Millətçi demokratlığın nə qədər camaata faydalı, zamanın tələbinə müvafiq olduğunu Qafqaz təcrübəsilə göstərərək, isbat edərək göstərə bilərəm ki, məsələn, gürcü sosial-demokratiyası camaata nicat vermək üçün nasional-demokratlıq üsulundan başqa bir çarə tapmadı”.[297]

Cümhuriyyət dövründə Azərbaycanın müstəqilliyinin təhlükə altında olması isə Rəsulzadəni düşündürən əsas məsələlərdən idi. Azərbaycan Milli Şurasının iclaslarında Rəsulzadə deyirdi ki, Azərbaycan Cümhuriyyətinin gələcək varlığı hamını düşündürməlidir. Çox keçmədi ki, bu acı reallıq özünü göstərdi, istiqlalı qoruyub-saxlamaq mümkün olmadı. Rəsulzadə parlamentdəki son çıxışında deyirdi: “Əfəndilər, mötəcazir bir ultumatum qarşısında qalmışıq. Burada təslimdən bəhs edirlər. Fəqət, əfəndilər, təslim nə demək?... Kimə tərki mövqe edirik? Bizə deyirlər ki, hüdudunuz keçən ordunun başında Nicati adında bir türk

[296] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, s.53

[297] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) Parlament (stenoqrafik hesabatlar). I c. Bakı, «Azərbaycan» nəşriyyatı, 1998, s.260

komandanı durmuşdur. Rusiyadan gələn bu mötəcaviz ordu təmin edirlər ki, həyat və məmat mücadiləsində qalan Türkiyəni xilas üçün gedir. Əfəndilər, Türkiyə Azərbaycanın xilaskarıdır. Amali milliyyətimizin təbcil eylədiyi müqəddəs bir məmləkətdir. Onun xilasına gedən qüvvəti biz məmnuniyyətlə istiqbal və teşyi edərik. Fəqət bir şərtlə ki, bu qüvvət bizim hürriyyətimizi, istiqlalımızı çeynəməsin. Halbuki, əfəndilər, bizə sormadan hüdudumuzu keçən hər hansı bir qüvvət dostumuz deyil, düşmənimizdir... Biz buraya millətin iradə və arzusuyla gəldik, bizi buradan yalnız qüvvət və süngü çıxarmalıdır”. [298]

O, Azərbaycan Cümhuriyyətinin göz görə-görə məhvi ilə heç cürə razılaşa bilmirdi. Rəsulzadə parlament və hökumət üzvlərinin yadına salırdı ki, milli dövləti göz bəbəkləri kimi qoruyacaqları barədə and içiblər. Mütəfəkkir onları bu andlarını yerinə yetirməyi çağırır: “Bu kürsüdən çox kərə istiqlalımızı göz bəbəyi kimi saxlamağa, hürriyyətimiz yolunda canımızı sipər etməyə, “öldü var, döndü yoxdur”- deyə son damla qanımıza qədər dayanmağa and içmiş adamlar deyilikmi?.. Orada olan əhali bu nitqi ağlayan gözlərlə alqışladısa da, məclisin əksəriyyəti tarixin gedişatına təslim oldu, Səyavuşun öldürülməsinə razı oldu”.[299]

Rəsulzadənin burada parlament üzvlərinin bir qisminin “Səyavuşun öldürlməsinə razı” olmasını xüsusilə vurğulaması səbəbsiz deyil: “Türklərin Azərbaycan üzərində mənəvi nüfuzundan istifadə ilə bolşeviklər Yaxın Şərqdə özlərini o qədər sevdirə bildilər ki, bunlar müsəlmanların könlünü fəth edərək, Azərbaycanın istila deyil, əksinə, İstanbulu belə qurtaracaqlarına inandırdılar. Hər nə qədər Müsavat Partiyasına mənsub olan millətsevərlər xalqı bu yuxudan oyatmaq istəyir, “camaat aldanmayın”-deyir, bunlar dərhal Quranın buyurduğu, “İnnə Yəcücə və məcucə müfsidunə filərz”-edərlər. Eyni məxluqlərdir ki, Krım, Türküstan və Bakı faciələrini icad etdilər... Hətta iş o mərhələyə gəlmişdi ki,

[298] Yaqublu N. Məmməd Əmin Rəsulzadə. Bakı: Gənclik, 1991, s.146-147
[299] Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991, s.49

küçə baqqalları belə bolşevikin, artıq gördükləri "spekulyasion" düşməni olmadığına inanmışdılar, dargörüşlü ittihadçılar da Qarayevin qızıl yalanlarına qapılmışdılar. Düşünürdülər ki, Rusiya gələcək, Ermənistanı ortadan qaldıracaq və ordularını Mustafa Kamal Paşanın yardımına göndərəcəkdir. Yalanın ömrü az olur. Xalq hikmətincə açıq olan bu həqiqət bir daha isbat olundu. Bolşeviklərlə bolşevik təbliğatı aparanların yalanlarına aldanan xalq, Qızıl ordunun Ermənistana təcavüzünü gözlərkən Moskvanın, Ermənistanın istiqlalını tanıdığı xəbəri alındı". [300]

Həmin dövrdə aldanan yalnız Azərbaycanın daxilindəki bəzi qüvvələr deyil, Azərbaycanın özünə arxa bildiyi Osmanlı da bu məsələdə yanlışlığa yol verdi. Osmanlıda bəziləri hesab edirdilər ki, Azərbaycan sovetləşsə də müstəqil dövlət olaraq qalacaqdır. Rəsulzadə yazırdı: "Adı müstəqil Azərbaycan, özü Rusiyanın federativ bir hissəsi! Daha doğrusu, muxtar bir vilayəti! Millətsevər Azərbaycan türkçülərinin vaxtilə kimsəyə sözlə inandıra bilmədikləri həqiqətləri bolşeviklər işləri ilə isbat etdilər. Xalq həyəcana gəldi. Aldanmış adam qızğınlığı ilə dil və dodağını dişlədi: fəqət iş-işdən keçmiş, ox yaydan çıxmışdı".[301]

Bununla da Azərbaycanın qısamüddətli, ancaq şərəfli istiqlal tarixinə, müvəqqəti də olsa, son qoyuldu. Lakin bu mübarizə heç vaxt bitmədi. Əksinə, bu, daima Azərbaycan türkləri tərəfindən davam etdirildi. M.Ə.Rəsulzadə də türklərin heç vaxt mübarizədən geri çəkilməyəcəyini yaxşı bilirdi. Rəsulzadə inanırdı ki, bu istila uzun müddət davam etməyəcək: "Azərbaycanlılar türkdürlər: türklər də Ergenokon tilsimində iki yüz il qaldılar. Nə qədər çalışırdırlarsa da bir tərəfə çıxamadılar. Geniş dünyaya həsrət qaldılar. Fəqət bir dəmirçinin yaxşılığı kifayət idi ki, türklər dəmir dağları əridib geniş dünyaya çıxsınlar. Əsrimizin Səyavuşu ölmüşsə də onun doğurduğu istiqlal fikri ölməmişdir. Bu fikrin tərəfdarları indiki halda dağlarda, vətənlərindən uzaq məmləkətlərdə, həbsxanaların qaranlıq və

[300] Yenə orada, s.50-51

[301] Yenə orada, s.52

rütubətli guşələrində qaçaq, qaçqın, köməksiz, bir halda yaşayırlar. İstiqlal və hürriyyətimizin kövrək əlaməti- o üç rəngli istiqlal bayrağı zahirən yoxsa da, qorxudan bolşeviklik ifadə edən gözlərin önündə olub, ürəkdə onun eşqi çırpınmaqdadır”.[302]

**Mühacirət dövründə müsavatçılıq və milli istiqlalçılıq.** M.Ə.Rəsulzadə mühacirət həyatı dövründə də milli istiqlal və müsavatçılıq ideyalarını davam etdirib. Bu dövrdə əsas məsələ milli istiqlal davası idi ki, Rəsulzadə yalnız elmi-siyasi məqalələr yazmaqla kifayətlənmir, həm də əməli işlər görürdü. O, Azərbaycanın istiqlalı uğrunda mübarizə aparan təşkilata rəhbərlik edir, onun ölkə daxilində və xaricində təbliğatını təşkil edirdi. Rəsulzadə yazırdı: “Bulunduğumuz mühacirət şərtləri daxilində, Azərbaycan davası naminə birləşmək, milli davanı yaşatmış və yaşadan fikir sistem və nümayəndələrinə hörmət etməklə olur. Bunun üçün hər türlü kiçik hesablardan və hisslərdən sıyırlaraq fikrə önəm vermək lazımdır”.[303]

Rəsulzadə Türkiyədə “Yeni Qafqasiya”nın ilk nömrəsindəki “Atəş çalan Prometey” məqaləsində yazır: “Bəhri-Xəzər sahilindən başlayan ilk mənzərə qüvvətli bir aydınlıq təşkil edirdi. Bu, səmalara doğru yüksələn bir atəş idi. Azərbaycan isminin müsəmməsini təşkil edən atəş, o atəş ki, mədəniyyəti bəşəriyyət ilk əvvəl onun yaxdığı ocaq başında təsis edilmiş. O atəşi müqəddəs ki, “promotey” özünü çalaraq, yer üzünə qaçırdığı üçün hələ əzab çəkməkdə, cəsarət və üsyanının cəzasını görməkdədir”.[304] “Yeni Qafqasiya”da qələmə aldığı başqa bir “Böyük faciə” məqaləsində isə Rəsulzadə yazır: “Böyük faciə! İştə türk tarixçisinin bundan tam 7 sənə əvvəl Bakıda vüqu bulan hadisəyə verəcəyi ən müvafiq bir isim yüz sənəlik bir əsarət, bu dövrdə yaşanan tarixin həyat səhifələri, məhkumiyyət və əsarət!”.[305] [306]

---

[302] Yenə orada, s.54

[303] Aküzüm F.M. Emin Resulzadeyə göre çeşitli cebhelerile Azerbaycan istiklal mücadilesi. Ankara: 1977, s.14

[304] Resulzade M.E. Ateş çalan prometey // Yeni Kafkasya, İstanbul, 1923, №1, s.3

[305] Resulzade M.E. Büyük facia // Yeni Kafkasya, İstanbul, 1927, №10, s.5

Rəsulzadə 1920-ci illərin birinci yarısında Azərbaycanda bolşevik rejiminə qarşı baş qaldıran milli azadlıq hərəkatına diqqətlə yanaşırdı. M.Ə.Rəsulzadə bütün hallarda xalqın nicatını özündə axtarmağa üstünlük verirdi. M.Ə.Rəsulzadə yaxşı bilirdi ki, istər demokratik, istər qeyri-demokratik Rusiya Azərbaycana qarşı münasibətdə birmənalı mövqe tutacaq. Rəsulzadə azadlıq məsələsində Azərbaycanın yalnız özünə güvənməsini istəyirdi: "… bu yol çox müşkül və tikanlı olmaqla bərabər, gedilmiş şanlı bir yoldur. Bu həqq yolu və millət yoludur. Bir yol ki, Avropa XVIII, bilxassə XIX əsrdə getmişdir. Bir yol ki, müasir Şərq hal-hazırda o yola salik olmuşdur. Bir yol ki, sabiq Rusiya imperatorluğu daxilində yaşayan məhkum millətlər, dəxi o yola girmişlərdir. Bir yol ki, səvarisi milliyyət hədəfi istiqlaldır!".[307]

Rəsulzadə bolşeviklərin Azərbaycan və onun xaricində aparılan azadlıq mübarizəsinin qarşısında aciz olduğunu bildirirdi. "Odlu yurd" jurnalının ilk sayında baş məqalənin müəllifi M.Ə.Rəsulzadə "Çöhrəmiz" adlı məqaləsində yazır: ""Odlu yurd"! bu iki söz türkcə kəlmənin "Azərbaycan"ın müqabil olduğunu söylərsək, məsələn, yarı-yarıya anlaşılmış olur. Yarı-yarıya deyirik, çünki hal-hazırda bir deyil, iki Azərbaycan vardır. Rus istilasına pərdəlik rolunu oynayan "qızıl Azərbaycan" ilə, qəlbində hürriyyət və istiqlalın sönməz odunu daşıyan milli Azərbaycan! "Odlu yurd" milli Azərbaycan fikrinin mürəvvici olaraq intişar edir… Qəzetimizin başında Azərbaycanın əski, yeni maddi çox bulunan işıq və odlarını göstərən lövhədə bu hər tərəfə nur saçan, bir ulduz şəklində göstərilmişdir. Səkkizguşəli ulduz Milli Azərbaycan ulduzudur. Bu ulduz hilalı ilə birlikdə mavi, qırmızı və yaşıl rənglərin üzərinə gəlincə Milli Azərbaycan bayrağını təşkil edər. Milli Azərbaycan bayrağı- iştə bizim çöhrəmiz! ...İstiqlal iştə Azərbaycan milliyyətçilərini məşğul edən ən aktual bir məsələ! ...İstiqlal milli hakimiyyət xaricində var

---

[306] Resulzade M.E. Yeni Kafkasiya yazıları (1923-1927). Ankara, Türk tarih kurumu yayınları, 2017, s.41

[307] Resulzade M.E. Tutacağımız yol // Azeri Türk, İstanbul, 1928, №1, s.4.

deyildir. ...Müstəqil millət demək, xalq hakimiyyətinə dayanan milli dövlət deməkdir. ...Taktikamızda daha real və metodik olmaq istərik! ...Milli hakimiyyəti uğrunda çarpışan çalınmış istiqlalını geriyə almaq üçün çalışan bir millət çöhrəsi!”.[308]

“Odlu yurd” jurnalının başqa bir sayında, Rəsulzadə yazırdı ki, ermənilərin köləliyinin Azərbaycan türklərinə heç bir aidiyyəti yoxdur: “Biz, istiqlalçılar davamızı əsrin ən qüvvətli şüarına istinad etdiriyoruz; Rusiya imperalizminin, qəsb və istila nəticəsində təəssüs edən hüdudlarını müdafiə bizim üçün bir qayə olamazdı. Bizi bu qayəyə sədaqətsizlikdə ittiham edəcək Rusiya imperatorluğu tarixə keçdiyi halda hondkaryanların bufuzuli davada israrları kölə ruhlu olduqlarını isbat üçün nə parlaq bir dəlildir! Papadan ziyadə katolik buna dəyərlər iştə!”.[309]

Rəsulzadə deyirdi ki, ruslara qarşı heç bir ədavət bəslənilmir, onların mübarizəsi imperiyaya, köləliyə qarşıdır: “Biləks ona bu xüsusda hər cür yaxşı təmənnilərdə bulunuruz. Fəqət bununla bərabər bizi istədiyimiz şəkildə həyatımızı qorumaqdan və mədəni həyatımıza istədiyimiz istiqaməti verməkdən ibarət, öz gərdunəsinə taxaraq, istismar və istila əməlində bulunan hər hansı rus imperalizminə bütün varlığımızla düşməniz”.[310]

Rəsulzadə Türk birliyindən əndişələnənlərə də cavab verməyi unutmurdu: “Türk millətlərinin birər dövlət və cümhuriyyət halında istiqlal qazanmaq yolundakı hərəkətlərini şübhə altına alanlar ancaq rus imperalizminin könüllüləri və yaxud kölələri ola bilirlər! Azərbaycan istiqlalçılığının Türk birliyi fikrindən əzəmi surətdə mülhəm olduğunu inkar etməməklə bərabər, siyasətdə realizm mütəqidi olan Azərbaycan milliyyətçiləri üçün bu fikrin sadə hars sahəsində qəbulu tətbiq olacağı aşkardır. Buna görə də biz müstəqil Qafqasiya Konfedarasiyonu fikrini zamanın ən aktual bir tezisi olaraq müdafiə ediyoruz».[311]

---

[308] Resulzade M.E. Çöhremiz // Odlu yurt, İstanbul, 1929, №1, s.3-4

[309] Resulzade M.E. Milli tesanüd. Ankara: Kardeş matbaası, 1978, s.34-36

[310] Yenə orada, s.36

[311] Yenə orada, s.36-37

1932-ci ildə Berlində "İstiqlal" qəzetində yazdığı "Kəsilməyən bir səs" məqaləsində Rəsulzadə deyirdi ki, bu qəzet müqəddəs bir mübarizənin müdafiəçisi üçün yüksələn bir səsi mədəniyyət dünyasına çatdırmaq üçün nəşr olunur: "Milli Azərbaycan istiqlal mübarizəsinin səsi! - budur bizi həyəcanlandıran səs!». [312] Rəsulzadə indiyə qədər milli istiqlal səsinin Türkiyədən gəlməsinə də işarə vururdu: "Bu gün Berlindən eşitdiyimiz bu səs on ilə yaxın idi ki, İstanbuldan gəlirdi və nə qədər təbii idi. Gənc bir türk vətənin, istilaya uğramış bir türk millətinin qəsb edilmiş haqqını və haqlı istiqlalını müdafiə etmək üçün türkcə çap olunan mətbuat orqanına qardaş Türkiyədən daha münasib sığınacaq yeri təsəvvür etmək olarmı?! Yabançı rus istilacının qırmızı terroru altında boğucu bir qəmginliklə oxunacaq bu məqalənin azərbaycanlı münəvvərlərdə yaradacağı təsir bu sətirləri yazarkən bizi xüsusən düşündürür".[313]

M.Ə.Rəsulzadə qardaş Türkiyənin hökumət adamlarının atdığı bu addıma təəssüfünü açıq şəkildə bildirirdi: "Bizi heyrətlər içərisində buraxan bu həqiqətə indi düşmən sevinir. On ildən bəri İstanbuldan yüksələn Azərbaycan səsini kəsmək üçün əllərindən gələn hər şeyi müzayaka etməyən, qəzetəçiləri, mitinqləri, nümayişləri, iftiraları, hiylə və intiriqaları, ilə heç durmadan çalışan bolşeviklər-ruslar nə qədər məmnun!.. Milli, müasir, xalqçı Türk Cümhuriyyətində, milli, müasir, xalqçı Azərbaycan istiqlalçılıq məfkurəsinin səsi qısılmışdır!.. İştə yaşadığımız dövrün acı təsəllisi. Tarixin istehzası. Bu başayaq görüntü qarşısında insan hərb sonu siyasi əxlaqda görünən siyasi eqoizmə açıyır! Yazıq dövrə, beynəlmiləl münasibətə yazıq!..".[314]

Rəsulzadə ümid edirdi ki, milliyyətçi və cümhuriyyətçi Azərbaycan türkləri yenidən Türkiyə Cümhuriyyətində bir gün milli mücadilələrinə davam edəcəklər: "Hələ gəncik, ümid edirik. Ümid edirik ki, tapacaqlar. Düşünürük ki, özündən açı bir

[312] Resulzade M.E. Kısılmayan bir ses. «İstiklal» gaz., Berlin, 1932, 10 yanvar, sayı 1
[313] Yenə orada.
[314] Yenə orada

təəssüratla bəhs etdiyimiz bu hadisə Türkiyə Cümhuriyyəti başçılarının təqib etdikləri proqramdan deyil, tətbiq etdikləri taktikadan irəli gəlir. Əslində bu qənaətdəyik ki, çox irəlilədilən bu taktikadan şəxsən proqram və ideal da zərər görür. Türkiyə də daxil olmaqla bütün cahan tarixi istiqlal mücadiləsinin nə çətin yollardan keçmək zərurətində olduğunu göstərməkdədir. Bu çox qanlı, tikanlı və enişli-yoxuşlu bir yoldur. Azərbaycan istiqlalçılarının yolu isə özəlliklə daşlı-kəsəklidir. Düşmənlər onları türkiyəçilik və panturanizmlə ittiham edərkən, onlar Türkiyədə nələrə məruz qalırlar, səsləri qısılır. Tarixi düşmən rus imperializmini Qafqaz dağlarının ötəsində tutmaq üçün bütün Qafqaz millətlərilə birlikdə şanlı cidala can atır, fəqət bu proqramın hökmü ilə ən çox əlaqədar olan cənubdakı qonşu və qardaşlarından qəlbi rahatladacaq bir davranış bir yana, bir təbəssüm belə görmürlər!...”. [315] O bu məsələyə görə türklərin düşmənlərini sevinməyə tələsməməyə çağırırdı: “Bununla bərabər Azərbaycan mücadiləsini, bir an durmadan, bütün cahana əks etdirmək ehtiyacındayız. Türkiyə taktikinin dəyişəcəyinə intizar-ən, Azərbaycan hərəkəti, pək təbii olaraq, səsi kəsik qalamaz!”.[316]

Rəsulzadəyə görə kommunizmin hürriyyət, milliyyət və mülk-iyyət əsaslarını rədd edən, hər cür müstəbid tədbir və təcrübələrə qarşı üsyan edən xalq kütlələri, vətənimizin düşmənləri tərəfindən müsavatçılığın təbii ardıcılları kimi qəbul olunurlar. O, yazırdı: “Bir sözlə, bu günkü işğalçı rusluğun təmsilçisi– kommunistlik, Azərbaycançılığın təmsilçisi isə -müsavatçılıqdır. Müsavatçılıq– işdə milli Azərbaycan hərəkatının bayrağıdır! Bu bayraq müqəd-dəratları vətənimiz Azərbaycana sıx bağlı olan, Qafqaz konfederasiyası şüarı altında birləşən qonşu millətlərin bayraqları ilə yanaşı yürüyür. Eyni zamanda, bu bayraq Sovetlər İttifaqında əksəriyyət təşkil edən qeyri-rus millətlərin istiqlal üçün yüksəltdikləri bayraqlarla birlikdə dalğalanır. Sonra müsavatçılıq – türkçülük bayrağıdır. Bütün türk ellərinin kültür birliyini

[315] Yenə orada
[316] Resulzade M.E. Milli tesanüd. Ankara: Kardeş matbaası, 1978, s.42

mühafizə etməyi öz qayəsi hesab edən bir cərəyanı təmsil edir. Bütün bu bayraqları endirməyə can atan böyük düşmənin Azərbaycanda məhv etməyə qərar verdiyi qüvvə - “Müsavat” qüvvəsidir. Bu qüvvənin bayraqdarları uzun müddətdən bəri mühacirətdə bulunaraq, mətbuat və siyasi fəaliyyətlərilə Azərbaycan davasını dəstəkləyən insanlardır.” [317]

Bir tərəfdən mühacirətdə müsavatçılıq, milli istiqlalçılıq ideyalarını təbliğ edən Rəsulzadə, o biri tərəfdən Sovet Rusiyasının Azərbaycanda apardığı müstəmləkəçilik siyasətini də tənqid edirdi. Rəsulzadə yazırdı ki, Azərbaycandakı rus bolşevik hakimiyyətini ruslaşdırmaq siyasəti iki şəkildə təzahür edir: “İqtisadiyyatda mərkəzləşdirmə, mədəniyyət sahəsində ruslaşdırma. İqtisadi mərkəzçilik məmləkəti Moskvanın nəzərdə tutduğu iqtisadi planlara tabe etməkdən ibarətdir. Bu məqsədlə Azərbaycanın neft sənayesi bilavasitə Moskvadan idarə olunur… Mədəniyyətin ruslaşdırılması – bu, Azərbaycanın həqiqi bir faciəsidir. Sovetləşdirmənin ilk dövrlərində bu siyasət mədəniyyəti “formaca milli, məzmunca kommunist” olmasından bəhs edən bolşevik formulu ilə maskalanırdı”. [318]

Rəsulzadəyə görə, Sovetlər Birliyində çoxdilli mədəniyyətlərin getdikcə ruslaşdırılması rus bolşevizminin əsas ideallarından biridir: “Bu idealı gerçəkləşdirmək istəyən Moskvanın himayəsindən qüvvət alan və siyasi müdaxilənin qaba təzyiqindən faydalanan “Sovetçilik” həyata keçirilir. “Sovetizm” ilə “nasyonalizm” arasında sərt bir savaş alovlanır. Məmləkətdəki mədəni ənənələri himayə etmək istəyən ən kiçik bir hərəkət sovet rejiminə qarşı edilən bir sui-qəsd hesab edilir. Milliləşdirmək niyyətində xalqın bütün mənəvi dəyərlərini tək bir varlıq halına gətirmək məqsədi güdülür. Halbuki, ortodoksal kommunizm dili bir millətin müxtəlif təbəqə və siniflərini birləşdirən ünsiyyət yaradan bir vasitə deyil, sadəcə, sinfi mübarizənin silahı sayır. Bunun üçün də xalq

---

[317] Rəsulzadə M.Ə. Məktublar. Şəfibəyçilik. Bakı, KitabKlubu, 2017, s.193

[318] Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991, s.98

kütlələrinin ədəbi dili anlaya bilmək səviyyəsinə yüksəlməsinə deyil, ədəbi dilin işçi xalqın anlayacağı bir səviyyəyə enməsi gərəkdir. Və bu qaydanın yalnız türk dillərinə və rus dillərindən başqa bütün dillərə tətbiq olunmacı da diqqətə layiqdir. Lenin və Stalinin dili isə bu qaydaya tabe deyildir".[319]

Milli ədəbiyyatla sovet ədəbiyyatını, buna uyğun olaraq milli əxlaqla "sovet əxlaqı"nı müqayisə edən Rəsulzadə yazırdı ki, sovet istilası ədəbiyyatın maneəsiz irəliləməsi üçün əngəllər törətdi: "Milli ruha yabançı olan kommunist hökuməti formaca milli olan ədəbiyyata əvvəlcə səbrlə yanaşdısa da, məlum olduğu kimi, ona beynəlmiləl proletar məzmunu verməyə çalışdı. Lakin sovet işğal hökuməti Milli Azərbaycan ruhunu çürütmək və burada "proletkult" deyilən bir mədəniyyət yaratmaq sahəsində sərf etdiyi əməklərinə müvəffəq ola bilmir, bu iş üçün özünə lazım olan vasitələrə malik deyildi. Ədəbiyyat əski ustaların əlində idi. Görünüşdə mövcud vəziyyətə uyğun olaraq, yeni hökumətin bəzən sərtliyini, bəzən də diplomatca yumşaqlığını dadan bu yazıçılar öz çətin və ağır işləri ilə məşğul idilər".[320]

O, milli əxlaqa söykənən Azərbaycan ədəbiyyatının uzun müddət Sovet-Rus ədəbiyyatına qarşı uğurla mübarizə apardığını yazırdı. Rəsulzadə sübut etməyə çalışırdı ki, milli kültür, milli əxlaq bolşevizm kültüründən və əxlaqından qat-qat yüksəkdə dayanır, bu zirvəni fəth etmək qətiyyən mümkün deyil. Ona görə, təkcə Hüseyn Cavidin Azərbaycanın "sovetləşdirilmə"sindən sonra yazdığı bir çox milli əsərlər, xüsusilə "Topal Teymur" ilə mənzum "Peyğəmbər" "sovetizmə" ciddi zərbə olmuşdur: "Şairin bu iki əsəri oxucularda olduqca dərin təsir buraxır. Oynanmasına icazə verilən "Topal Teymur" tamaşaçıları həyəcana gətirir. Dövlət teatrında bu pyes bir neçə dəfə oynanır. Əhali türklüyün ümumi qəhrəman tipi Teymurləngdən fövqəladə dərəcədə məmun qalır. Məsələni sonradan başa düşən bolşeviklər pyesin göstərilməsini qadağan edirlər. "Sovet çörəyini yediyi halda tarixi panturanist

[319] Yenə orada, s.99
[320]Yenə orada, s.61

tiplərini realizə etməyə cəsarət edən" şairə qarşı sovet tənqidçiləri atəş püskürürdülər... Şairin ikinci əsəri nisbətən daha yaxşı qarşılanır. Lakin "Peyğəmbər" mənzuməsində də bolşevik məzhəbli marksizm əqidəçiliyi burada da az "küfr" tapmamışdır".[321]

Rəsulzadə bütün hallarda bolşeviklərin güclü təsiri altında olmasına baxmayaraq, milli ədəbiyyatımıza yüksək qiymət verir. Onun fikrincə, bolşeviklərin ədəbiyyatımız üzərində əsasən qələbə çala bilməməsinə səbəb milli ruhun, milli əxlaqın əzilməzliyi olub. Bütün bunlarla yanaşı, o, tədricən Azərbaycan xalqının dünyagörüşündə "sovetləşmə" meyillərinin də olduğunu yazırdı. Ona görə, son illərdə Azərbaycandakı yeni nəsildə dinə qarşı laqeydlik yaranmış, dini mərasim və ibadətlərdən xeyli dərəcədə uzaq düşmüşlər: "Nə Ramazan, nə də Qurban bayramı sovet gənclərinə məlum deyildi. Azərbaycanda əskidən çox böyük əhəmiyyətə malik olan bahar, xalq bayramı Novruz da dəbdən düşmüşdür. Azərbaycan bütün Sovetlər Birliyi ilə bərabər yalnız oktyabr inqilabının siyasi bayramlarını və bir də Azərbaycanın sovetləşdirildiyi günü qeyd edir. Yeni nəsil heç bir dua və namaz bilməz".[322]

Milli kültürə, milli əxlaqa qarşı olan bu zorakılıqla razılaşmayan Rəsulzadə daha yaşlı nəslin bu xüsusda müəyyən bir faciə yaşadığını və əzab çəkdiyini bildirirdi. Onun fikrincə, yaşlı nəsildən fərqli olaraq yetişməkdə olan gənc nəsil bunu çox hiss etmirdi: "Mümkündür ki, sovet rejimi aradan götürüləndən sonra dindarlıq sözün fəlsəfi, mücərrəd mənasında mənəvi həyatın bir təzahürü kimi cəmiyyətin müəyyən sahələrində əksini tapır. Lakin burada dini, ictimai həyatı tənzim edən siyasi və idari bir müəssisə ola biləcəyini təsəvvür etmək mümkün deyil. Gələcəkdə din yalnız yurddaşın şəxsi həyatına xas olaraq qalacaqdır. Bu, Mirzə Fətəli Axundzadədən başlayaraq Sabirin həcvlərinə qədər dinin təhqir edilməsi ənənlərinə yiyələnən çağdaş Azərbaycan ədəbiyyatının bir nəticəsidir. Dinin təqibindən çox az mütəəssir olan indiki Azərbaycan nəsli milli mədəniyyət məsələlərinə böyük bir həssas-

[321]Yenə orada, s.62

[322] Yenə orada, s.104

lıqla yanaşır. Mədəniyyət adamları yəni ədəbiyyatçılar, sənətkarlar, müəlliflər, humanitar sahələrə mənsub olanlar- tarixçilər və başqaları milli mədəniyyətlərinə atəşin bir eşqlə bağlıdırlar. Onlar bu mədəniyyətin ümumtürk dəyərləri və bağlarına çox böyük əhəmiyyət verirlər. Onlar milli mədəniyyəti məzmunca da, formaca da yüksək tuturlar...”. [323]

Görünür, bunu yaxşı dərk etdiyi üçün də Moskva ilk dövrlərdə ortaya atdığı “formaca milli, məzmunca sosialist” şüarından əl çəkərək, daha sonralar “formaca da sosialisr, məzmunca da sosialist” şüarını irəli sürmüşdür. Rəsulzadə yazırdı ki, özlərinə xas ikiüzlü taktika ilə Rusiyada iqtidara gələn bolşeviklər ən sonda bütün dünyanı ruslaşdırmağa yönəlmiş siyasətlərini milliyyət məsələsində ortaya atdıqları məşhur formulla pərdələmək istədilər: “Sovetlər Birliyində kültürün “formaca milli, məzmunca sosialist” olması üzərində israr etdilər. Sovetlər Birliyinə daxil olub, sayları 40 milyonu haqlayan türk ellərində bu formulun tətbiqində nə kimi bir nəticəyə vardığını bilirik: öncə şəkil [forma] ruslaşdırıldı. 1939-dan etibarən Rusiyadakı bütün türk cümhuriyyətlərində Latın hərflərilə yazılmağa başlanmış yazılar rus hərflərilə yazdırılmağa məcbur edildi. Bununla ilgili olaraq türk dillərindəki termin sistemi də islam və Avropa əsaslarından uzaqlaşdırılaraq rus sisteminə tabe tutuldu. Şəklin ruslaşdırılmasından sonra möhtəvaya [məzmuna] əl atıldı. Bu məzmun sosialist olacaq, kosmopolit bir mahiyyət daşıyacaqdı. “Millət yeni insan, vətən də yer üzü” təsəvvür olunurdu. Lenin “Rusiyanın mənfəətləri cahan inqilabının mənfəətlərinə fəda olsun” – deyirdi. Bu surətlə Sovet hakimiyyətinə düşən millətlər sosialist kosmopolitizmi ilə aldadılırdı. Milliyyətçiliyin şovinizm, vətənsevərliyin də kapitalistcə bir aldatma olduğu hər tərəfə və hər kəsə israrla təlqin olunurdu. Fəqət bütün bunlar Sovet hökumətinin nisbətən zəif olduğu zamanlara məxsus bir hərəkət xəttinin ifadəsi idi. Bolşeviklər mövqelərində yerləşdikcə, bu

---

[323] Yenə orada, s.105

ifadə də yeni bir ruh bildirir, "sosialistlik"dən məqsədin "rusçuluq" olduğu aşikara vurulurdu". [324]

Rəsulzadə yazırdı ki, İkinci Dünya hərbi əsnasında, özəlliklə bu hərbdən sonra velikorus qüruru sovet siyasətinin bütün aksiyalarına sirayət etdi. Bu qürur özünü özəlliklə kültür və təhsil sahəsində göstərdi. Rəsulzadə yazırdı ki, bununla da rusluq "cahan inqilabına fəda ediləcək" ikinci dərəcəli bir qiymət deyil, bütün dünyaya örnək olacaq bir dəyər kimi qələmə verilirdi. Guya, digər adı "sovet milləti" olan rus millətini öymək Sovet hakimiyyətini "qəbul etmiş" bütün millətlərə börcdur, çünki rus milləti millətlərin ən şərəflisidir. Rəsulzadə yazırdı: "Son zamanlarda siyasi Sovet məqamları Sovetlər Birliyindəki millətlərin vücuda gətirdikləri tarix və kültür müəssisələrini sıx bir nəzarətə tabe tuturlar. İndi, tək yaşanan dövr deyil, yaşanmış dövrlər də təftişə tabedir. Çarlıq istilasına qarşı göstərilən mücadilə və müqavimət hadisələrilə şəxsiyyətləri idealizə edən mühərirlər şiddətlə tənqid və təzyiqlərə uğrayırlar. Çünki, onların əsərlərində böyük rus millətinin bu yerlərə gətirdiyi qabaqcıl müəssisələrə qarşı gələn "mürtəce"lər idealizə olunurmuş!." [325]

Rəsulzadə imperiya daxilindəki mədəni-kültürəl və ictimai-siyasi durumu dəyərləndirərkən inanırdı ki, bu quruluş gec-tez dağılacaq: "Sözdə hər nə qədər bir "Sovet Azərbaycan Cümhuriyyəti" varsa da, həqiqətdə bu cümhuriyyət sovet imperatorluğunun hər haqq və səlahiyyətdən məhrum bir vilayətindən başqa bir şey deyildir. Sovet Azərbaycanındakı bütün idarələr Moskvadan gələn əmrlərə və oradan göndərilən amirlərə tabedir... Lakin dünyadakı bütün azad insanlar və millətlərlə bərabər haqq və səlahiyyətə sahib olmaqdan siz qətiyyən məyus olmayın. Azadlıq və insanlıq haqları bütün dünyada qalib olacaq və o zaman siz də 1918-ci ildə olduğu kimi yenidən azad olacaqsınız. O gün uzaqda deyildir!". [326]

---

[324] «Azərbaycan», il 1, sayı 5, avqust 1952 Ankara.
[325] «Azərbaycan», il 1, sayı 5, avqust 1952 Ankara.
[326] Yaqublu N. Məmməd Əmin Rəsulzadə. Bakı: Gənclik, 1991, s.255-256

Rəsulzadə, yeni nəsilin – Azərbaycan Türk gəncliyinin əski nəslin (Rəsulzadələrin, Hüseynzadələrin, Ağaoğluların, Məmmədzadələrin və başqalarının) onlara miras buraxdığı bu mədəni-fəlsəfi, siyasi-hüquqi irsi layiqli şəkildə davam etdirəcəyinə inanmışdır. O, "Əski və yeni nəsil" məqaləsində yazırdı ki, insan övladı yavru olaraq dünyaya doğular, ata və anasının himayəsi altında böyüyüb yetişərək gənclik olğunluq, yaşlılıq və ixtiyarlıq mərhələlərini aşdıqdan sonra yerini və qazandığı təcrübələri yeni nəslə qoyaraq sonsuzluğa gedər: "Bu ilahi bir xidmət və təbiətin dəyişməz qanunudur. Beləcə hər nəsil özündən əvvəlki nəslin məhsulu və özündən sonra gələcək nəsillərin başlanğıcıdır. Kültür və mədəniyyət də bir tək nəslə məxsus olmayıb tarixin gedişi boyunca gəlib keçən saysız və sonsuz nəsillərin müştərək əsəridir. Hər nəsil özündən sonra gələn nəslin müəllimi və tərbiyəçisidir. Əski nəslə düşən vəzifə yaxşı öyrətmən və eyitmən olmaq, yeni nəslin borcu isə yaxşı yetişməkdir. Beləcə, əski və yeni nəsil arasında prinsip etibarı ilə hər hansı bir ayrılıq, ixtilaf, keçimsizlik təsəvvür edilə bilməz. Ata ilə övlad arasında olmayacağı kimi! Çünki hər ikisi də eyni milli özülün bir canlı üzvü dəyərindədir. Nəsillər arasındakı fərq yalnız milli camiyaya etdikləri xidmətin dərəcəsilə ölçülə bilir".[327] [328]

Rəsulzadə hesab edirdi ki, gənclik yaş, quruluş və ruh etibarı ilə daha həssas, daha həyəcanlı və daha atılqan olur: "Hər millətin həyatında elə anlar ola bilir ki, bu kimi şeylər qəti bir rol oynayır. Fəqət ümumiyyətlə istisna hallarıdır və hərb, inqilab, gerçək mücadilə kimi dövrlərə inhisar edər. Normal hallarda isə, əsil olan tədbirli və olğunca hərəkətlərdir ki, bu da ancaq əski və yeni nəsillərin bir-birini tamamlaması və yardımlaşması surətilə əldə edilə bilir. Əski nəslin təcrübəsi və tədbiri yeni nəslin enercisi ilə birləşdiyi təqdirdə milli dava vüqar və təmkinlə və böyük müvəffəqiyyət şansı ilə yeridilə bilir. Gənclik özündən əvvəlki nəslin bütün müsbət təcrübələrini sürətlə mənimsəməlidir. Bu,

[327] Rəsulzadə M.Ə. Milli birlik. Bakı, «Çıraq» nəşriyyatı, 2009, s.41

[328] «Azərbaycan», il 1, sayı 12, mart 1953, Ankara.

onun ala biləcəyi ən zəngin və ən davamlı bir mirasdır. Yeni nəsil əskisindən daha bilgili, daha kültürlü və daha olğun olaraq yetişmək zorundadır. Çünki onu daha böyük və daha çətin vəzifələr gözləməkdədir. Bu isə yalnız təvazö və tükənməz bilgi və öyrənmək eşqilə təmin edilə bilər. Bir millətin yeni nəsli əskisinə nəzərən daha az kültürlü və daha az təcrübəli olursa, o millətin varlığı və gələcəyi təhlükəyə məruz qala bilir. Əlbəttə, yeni nəsil əskilərin kötü ehtiraslarını heç bir surətlə almamalı və bunları dəyərsiz görmə fəzilətini öz ruhunda daim qüvvətləndirməlidir. Gəncliyin tək şüarı millətə fədakarlıqla və təmiz bir qəlblə xidmət olmalıdır. Belə bir gəncliyi olan millət halından və gələcəyindən tamamilə əmin ola bilir”. [329] [330]

Ümumiyyətlə, mühacirət dövründə Rəsulzadə milli məsələ ilə (milli demokratiya, müsavatçılıq, milli istiqlalçılıq), sosial məəslə (liberalizm, sosial-demokratizm, demokratizm, liberal-demokratizm) arasında ideya oxşarlığı tapmağa çalışmışdı. Başqa sözlə, Rəsulzadə əsas fikrini milli məsələ baxımından Azərbaycan türkçülüyünün, ya da azərbaycançılığın bəşəri dəyərlərə, o cümlədən də sosial məsələlərə zidd olmamasına, əksinə bir-birini tamamlamasına yönəltmişdi.

---

[329] Rəsulzadə M.Ə. Milli birlik. Bakı, «Çıraq» nəşriyyatı, 2009, s.41-42

[330] «Azərbaycan», il 1, sayı 12, mart 1953, Ankara.

*Elmsiz heç bir nöqsanımız aradan götürülməyəcəkdir!*
**M.Ə.Rəsulzadə**

## 2.3. M. Ə. Rəsulzadənin baxışlar sistemində maarifçilik ideyaları

Məhəmməd Əmin Rəsulzadənin yaradıcılığında maarifçilik, maarifçi-demokratiya məsələləri Azərbaycan türklərinin milli oyanışına, milli azadlığına və milli bütövlüyünə hesablanmışdır. Gənc yaşlarından Qafqaz-müsəlman türklərinin maariflənməsinin zəruriliyindən yazan Rəsulzadə bir qayda olaraq maariflənməyi, savadlanmağı, məktəblərdə elm və təhsil öyrənməyi, azad mətbuatın olmasını xalqının ən başlıca məsələlərindən hesab etmişdir. Rəsulzadə özü şəxsən bu proseslərdə publisist, maarifçi, ziyalı, jurnailst, pedaqoq kimi birbaşa iştirak etmiş, biliyini, savadını millətindən, xalqından əsirgəməmişdir.

**Milli maarifçilik və qiraətxanalar.** Elmin, maarifin xalq arasında yayılması üçün mücadilə verən Rəsulzadə ilk növbədə çalışırdı ki, türk-müsəlman əhali maariflənsin. Onun fikrincə, camaatın ziyalı olması, yəni elmlə, bilik nuru ilə ziyalanması, onun azad olması və hürriyyətidir. Bilik isə bir fövqəladə qüvvə olub, heç bir vaxt məğlub olamaz. Bu əsaslar cəmaatın mərifətli və tərbiyəli olmasının qədr-qiymətin bəyan edib bildirir. Rəsulzadə hesab edirdi ki, insanlar arasında zəhmət bölgüsü və birlikdə zəhmət çəkmək nə dərəcə vüsətli isə, o dərəcədə tərəqqi və mədəniyyətləri vüsətlidir. Bu baxımdan onun fikrincə, imperiya daxilində bir millətin tərəqqisi digər millətlərin də tərəqqisi ilə bağlıdır: "Məntiq diyor ki, bir ölkənin, bir əyalətin tərəqqi və təməddünü bağlıdır o əyalətdə olan müxtəlifülcins millətlərin təvafüq qədəm ilə tərəqqi etmələrinə".[331]

Rəsulzadə o dövrdə maariflənmək və savadlanmaq üçün ən mühüm vasitələrdən biri kimi mətbuatı və qiraətxanaları görürdü.

[331] Rəsulzadə M.Ə. Realnı məktəbində müsəlman əlifba sinfi. «Tərəqqi» qəz., Bakı, 1908, 23 sentyabr

Bu anlamda o, çar Rusiyasının qadağası ilə Türk dilində nəşr olunan qəzetlərinin bağlanması ilə, uzun bir fasilədən sonra 1903-cü ildə Tiflisdə türkcə nəşr olunmağa başlayan "Şərqi-Rus" qəzetinin yaranmasına çox sevinmişdi: "Şükür və min dəfə şükür ki, biz Qafqaz müsəlmanları da bir qəzet sahibi olduq. Allah millətimiz arasında himmətli şəxsləri çoxaltsın, tainki bu cürə nöqsanlarımız ki, həddən ziyadədir, yavaş-yavaş düzələ. Həmddən (şükrdən) sonra həmdən ki, çox gec də olsa, amma yenə müsəlmanların da asari-tərəqqiləri görünür. Bu şərif qəzetənin səbəbilə Allah bilir ki, gələcəkdə biz Qafqaz müsəlman əhalisinin nə qədər nöqsanları aradan qalxacaqdır".[332]

Qiraətxana məsələsinə gəlincə o, tanınmış mütəfəkkir Nəriman Nərimanovun vaxtilə qiraətxana açdığını, ancaq xalqın biganələyi nəticəsində bu işin yarımçıq qaldığını yazırdı: "On bir il bundan əqdəm millətimiz uğrunda şayani-təhsini-təşəbbüsdə bulunan ədəbiyyat xadimi Nəriman bəy Nərimanov Rusiya istibdadının qüvvətli bir dövründə çalışaraq bir qiraətxana güşadına izn alıb hər bir tərəfdə nəşr olunan islam qəzetlərini havi bir qiraətxana açmışdı. Lakin millət bağçasında yeni açmış bu qızılgül millətimizə ariz olan xəzan vasitəsi ilə tez soluxub bağlanması güşadinə müqabil olaraq millət dostlarının yaralı ürəyini xəraş etdi". [333]

Rəsulzadə artıq qiraətxanaların nəinki bağlanacağına, əksinə saylarının artacağına inanırdı. Çünki qiraətxanalar vasitəsilə daha çox insan maariflənə və öz milləti üçün xeyirli işlər görə bilərdi. Millətimizin müdrik oğlu, sözün həqiqi mənasında böyük vətəndaş, böyük şəxsiyyət adını daşmağa layiq olan Məhəmməd Əmin Azərbaycan türklərinin maariflənməsi, mədəniyyətini inkişaf etdirməsi üçün, maddi imkanı olanları qiraətxanalara yardım etməyə çağırırdı: "Cümlə millətlər tərəqqiyə üz çevirdilər. İstibdad və zülmün inhidaminə qəsd etdilər. Mədəniyyət yolları açıldı. Aralıqda tərəqqiyə sədd çəkən

---

[332] Rəsulzadə M.Ə. Əsərləri (1903-1909). I cild, Bakı: Azərnəşr, 1992, s.14

[333] Rəsulzadə M.Ə. Qiraətxanə. "İrşad" qəz., Bakı, 1906, 14 mart

bəzi müaminat götürüldü. Hamısı götürülmədisə də bir cüzi rəf edildi… Bu münasibətilə islam qəzetləri dəxi bollandı, çox şəhərlərdə birər qəzetə, jurnal nəşrinə iqdam edildi. Qəzetlərin artması oxucuların artmasına dəlil olmazmı? Oxucularımız varsa qəzetə muştaqları bol isə bir "oxu" yeri, qiraətxana açılması təbii olmazmı? Odur ki, şəhərimizin himmətli və qeyrətli cavanlarından bir firqəsi himmət və qeyrət kəmərini bağlayıb Bakıda "Nicat" adında bir qiraətxana açdılar… Ey camaət, ey millət, ürəfalarla birləşməlisiniz, onlar bir xeyir işə iqdam edərlərsə, siz də onlara maddən yardım etməlisiniz! Hər kəs təkliyində hər dürlü qəzetlərin hamısını alıb oxumağa, hər qism kitabları pul verib mütaliəyə qüdrəti olamaz. Amma qiratəxana vasitəsilə iki qəpikdən keçərək nə qədəri oxumalı olsa mümkündür… Yaşasın maarif! Var olsun əhli-maarif!". [334] Ancaq bütün bu çağırışlara baxmayaraq Rəsulzadə çox təəssüflə yazırdı ki, Bakıda iki qiraətxana açılsa da, ona yardım edənlərin sayı çox azdır: "Heyhat! heyhat! İllər ilə arzulayıb 80 min müsəlman əhalisi olan bir şəhərdə iki ufacıq islam qiraətxanası icadına müvəffəq olduq, onu da görünür saxlaya bilməyəcəyiz. Camaət! Himmət edəlim! Qeyrət edəlim! Ürəfalarımız qiraətxana açdılar, biz də pişvazlarına çıxalım! Maddən yardım etməklə davamlarına bais olalım! Və qeyri xeyir işlərə iqdam etmələrinə kömək edəlim!".[335]

Azərbaycan Türkünün qeyrətli oğlunun Vətən yanğısını, millət sevgisini görməmək, dərk etməmək və ən azı hiss etməmək mümkün deyil. Hər bir məqaləsində hansı vasitə ilə olursa-olsun əhalini maariflənməyə, elm öyrənməyə çağıran Rəsulzadə bütün ömrü boyu bu əqidəsinə, inancına sadiq qalmışdır. Rəsulzadə sosial-demokrat, milli demokrat olmasından asılı olmayaraq, böyük bir insan, humanist vətəndaşdır. O, türk-müsəlman olmayan xalqların elm, mədəniyyət baxımından inkişaf etdiyini, irəlilədiyini görür və belə bir şəraitdə müsəlmanların elmə, təhsilə biganəliyinə dözə bilmirdi: "İlahi, havaxtacan bizlər gecə-gündüz

---

[334] Rəsulzadə M.Ə. Əsərləri (1903-1909). I cild, Bakı: Azərnəşr, 1992, s.33
[335] Yenə orada, s.34

fikrə qərq və millətimizin dərdini və dalda qalmağını özümüzə vəzifə biləcəyik? Məgər bizlərə tərəqqi etməyə mane vardır? Bəli vardır! Nə şeydi bizə mane olub? Himmətsizlik, kübr və qürur, mədəniyyətə ədəmi-meyl”.[336]

**Maarifçilik və milli məktəblər.** Qafqazın türk-müsəlman xalqının maariflənməsi üçün bütün mümkün vasitələrə əl atan Rəsulzadə məktəb məsələsinə də xüsusi diqqət yetirmişdir. O, Qafqaz türk-müsəlman əhalisindən, o cümlədən ümumi və Bakı əhalisindən xüsusi xahiş edirdi ki, öz uşaqlarını balaca olan vaxtda elm və tərbiyə kəsb eləməkdən başqa bir şey məqsəd tutmasınlar: “Məsələn, hər kəsin ki, qüvvəsi çatır uşağını məktəbə qoymağa məbada-məbada palçıxçı, dükan şagirdi və qeyrə və qeyrəyə razı olsun”.[337]

Rəsulzadə uşaqlaırn məktəbə getməsinin vacibliyini əsaslandırmaq üçün islam dinindən də misallar gətirmişdi: "Qardaşlar! Gəlin hamımız birdən himmət edək, məktəbxanələr açaq, cəmiyyəti-xeyriyyələr təsis edək, füqərayə əl tutaq. Ta Allah da bizim əlimizdən tutsun. Hədis-şərifi-nəbəvi varid olubdur ki, füqərayə əl tutmaq insanın ömrünü uzun eylər. Budur, axirət səvabı isə daha artıq. Bu vaxta bizə lazım və vacibdir ki, himmət edib, elm öyrənməyə və öyrətməyə və öyrətdirməyə səy və kuşiş qılaq. Elmsiz heç bir nöqsanımız aradan götürülməyəcəkdir". [338]

Ona görə də, islam dinində buyurulduğu kimi, iki elm, - din və tibb elmləri mütləq öyrənilməlidir. Ancaq riyazi elmləri də öyrənmək vacibdir. Rəsulzadə yazırdı: “Amma elmi-əbdan (bədənə aid, bədən elmi, yəni tibb elmi), hansı ki, məişət və mədəniyyətə məxsusdur, onun təhsili üçün minlərcə məktəb vardır. Amma din elmini öyrənməyə demək ki, cəmi Rusiyada bir mədrəsə tapılmayan kimidir. Pəs himmət və qeyrət vaxtıdır. İttifaq edib, bir məktəbxana bina eləyin ki, ona da ümum ruhani deyilə, hansı ki, o məktəbdən çıxan üləmadan molla və axundlar

[336] Yenə orada, s.15
[337] Yenə orada, s.14
[338] Yenə orada, s.15

təyini lazım olacaqdır. Məlumdur ki, bizim üləmalarımızın əksərinin ümumi riyazidən bilmərrə xəbərləri yoxdur. Hər ayinə üsuli-cədld ilə ruhani mədrəsəmiz olsa, mollalarımız da fünuni-hazirəyə aşina olub, həm özləri doğrudan alim olarlar, həm də millət övladlarını faydalandırmış olarlar. Bu səadət qapısının açılmasını Qafqaz dövlətlərindən, ələlxüsus Bakı milyonçularından gözləyirik".[339] Rəsulzadə fikirlərini davam etdirərək yazırdı ki, artıq dayanmaq zamanı deyildir, bir an əvvəl nəinki şəhər, eyni zamanda kənd məktəblərini də çoxaltmağa çalışmalı, məktəbsiz bir kənd buraxılmamalıdr!.[340]

1900-cü illərdə şagirdlərin az olmasından, məktəbə getməməsindən, valideynlərin bu məsələyə biganə yanaşmasından şikayətlənən Rəsulzadə, 1910-cu illərdə əksinə, şagirdlərin çoxluğundan fərhələ danışır, əvəzində isə müəllimlərin çatışmazlığından bəhs edirdi. Artıq bu dövrdə əsas problem müəllimlərin sayının azlığı və kifayət qədər pedaqoji təcrübəyə malik olmamaları idi. [341]

Şübhəsiz, şagirdlərin məktəblərə axınında Rəsulzadənin özü çox böyük rol oynamışdı. O, uşaqların məktəblərə getməsi, təhsil alması, savad, bilik əldə etməsi üçün yüzlərlə məqalə yazmış, təmsil olunduğu xeyriyyə cəmiyyətlərində müvafiq işlər görmüşdü. İndi isə onu müəllimsizlik problemi düşündürür. Daim xalq üçün işləyən, bir an olsun belə vaxtını boşa verməyən M.Əmin millətinin ən kiçik problemindən tutmuş, ən böyük probleminə qədər hər bir məsələ də can-başla iş görür. Bir çoxlarından fərqli olaraq Rəsulzadə heç vaxt düşünməmişdir ki, hansısa bir məsələnin həllinə kimsə başlasın və o, həmin insanın arxasınca getsin. Əksinə, həmişə, bir qayda olaraq Rəsulzadəni ilk təşəbbüskar Vətən xadimi, böyük bir ziyalı kimi görürük.

---

[339] Yenə orada, s.16

[340] Rəsulzadə M.Ə. Diyanət, milliyyət və məişət nöqteyi-nəzərindən kənd məktəbləri. «İqbal» qəz., Bakı, 1914, 11 dekabr

[341] Rəsulzadə M.Ə. Əsərləri (1909-1914). II cild. Bakı: Şirvannəşr, 2001, s.252

Rəsulzadə əhalinin maariflənməsində müəllimlərin mühüm rolunu dərk edir və onların Gəncədə toplantı keçirmək istəməsini alqışlayır, buna mane olanları sərt şəkildə tənqid edirdi. Qeyd edək ki, müəllimlərin 1907-ci ildə Gəncədə reallaşması nəzərdə tutulan ikinci qurultayının mollaların, müftilərin və bəzi varlıların təxribatı nəticəsində baş tutmamış və yenidən Bakıda keçirilməsinə səbəb olmuşdu. Rəsulzadə fitnəkarların camaatın ayılmasından qorxduğunu və bu səbəbdən "müəllimlərin syezdə dair proqramdan Türk əlifbasına və müəllimlərə dair bir-iki fəsli götürüb, cəmaət arasında fitnəbazlığa" başladıqlarını yazır. Müəllimlərin toplantı keçirməsindən əndişəyə düşənləri Rəsulzadə sərt şəkildə tənqid edir və onları Gəncədə baş verən hadisələrə görə sevinməməyə çağırırdı: ""Müəllimlər ictimai öldü"-deyə müftilər sevinirlər, bayram ediyorlar!... "Nicat" cəmiyyəti-xeyriyyəsi çalışıb, ikinci müəllimlər ictimainin Bakıda keçirilməsinə izn alıyor... Qoy mütərrəqi müəllimlər millətin təmini-istiqbalına binaye-əsl olan ünas məsələsini müzakirə edib, arvadların əsrlər boyu kənara çıxa bilmədiyi məişətdən qurtarıb, insanlıq cərgəsinə daxil olmaq yoluna əvvəlincə yol olan təlimi - nisvanə bir sərancam qoysunlar, bu xüsusda müttəhidül-qövl olub, taifeyi-nisvanın hürriyyəti və mərifəti uğrunda fədakarlığa girişib, ictimain qətnaməsi ilə hər bir müəllimin mənəvi borcu olsun ki, bu fikri təslim və nəşr eləsin. Müsəlman qızlarına məxsus məktəblərin açılmasına çalışsın".[342]

Rəsulzadənin belə bir məsələni, yəni oğlanlardan sonra, qızların məişət çərçivəsindən kənara çıxıb, onların da məktəbdə təhsil almasını gündəmə gətirməsi, o dövrün şəraitincə qəhrəmanlığa bərabər idi. Çünki belə əqidəli insanları qatı dindarlar daşa basır, edamına fitva verir, qoçular isə muzdla onların qətlini həyata keçirirdilər. Bunu, bilə-bilə Rəsulzadənin müəllimlərin 2-ci qurultayı ərəfəsində belə bir məsələ ilə bağlı məqalə yazması qəhrəmanlıq idi: "Haydı müəllim qardaşlar! Himmət ediniz,

[342] Rəsulzadə M.Ə. Əsərləri (1903-1909). I cild, Bakı: Azərnəşr, 1992, s.142

burası camaat işidir, səmimiyyət istər, qeyrət tələb edər. Camaatımızın ehtiyacı çoxdur. Bir çox ehtiyacın da fəqət neçə illətin rəf olması ilə izaləsi mühəqqəqdir. Hər bir camaat, taifə və millət üçün mədəni bir əhəmiyyəti olan milli ibtidai məktəblərin idarəsi və tədrisini öylə bir surətə qoymağa çalışın ki, oralardan çıxan mütəəlimin haman kəsb elədiyi elmlər bərəkətindən zəmanəmizdə mövcud üsuli-məişətdən bəhrədar ola bilsin. Çalışın ki, camaat məktəblərini aldığı ada layiq edəsiniz. Çalışın ki, camaatı təhlükəyə salan bəzi hissiyyat, onu qəflətdə saxlayan mövhumat və bunlara meydan açan üsuli-tədris və təlim bilmərrə məktəblərdən qovulsun!".[343]

Bir tərəfdən müəllimləri himmətə çağıran Rəsulzadə, digər tərəfdən isə üzünü varlılara, ağalara tutaraq onlardan xahiş deyil, tələb edirdi ki, evlərində işlətdikləri quluqçuları, nökərləri bir gün azad buraxsınlar, onlar da gəlib "Cümə məktəbi"ndə elm, təhsil öyrənsinlər: "Ey sahibi qüdrət olan sərmayədar, ağalar! Haqqınız olmasın ki, islamiyyət üzrə qərar qoyulan həftə tətili cümə günündə öz əlaltılarınızı elm təhsil etmək kimi nəticəsi xüsusi deyil, ümumi olan təşəbbüsatadan məhrum edəsiniz. Himmətə gəlin, ey cümə günü bir-iki saat ilə cümə məktəbinə kömək eləməyə imkanı olan ərbabi-elm və mərifət!". [344]

Bu baxımdan mütəfəkkir "Ehtiyac nəyədir?" məqaləsini gecə kurslarının açılmasına və onun əhəmiyyətinə həsr etmişdir. Rəsulzadə hər vasitə ilə yanlız uşaqların, yeniyetmələrin deyil, yaşlı türk-müsəlman əhalinin də maariflənməsinə çalışır, bunun üçün, mümkün olan nə varsa edirdi: "Cəmaətimiz, xüsusilə avam dediyimiz fəhlə və işçi əhalimizin nə dərəcədə böyük bir fanatik olub bilümum tazə elmlərə, xüsusən rus dili təliminə düşmən olduğu, rus dərsinə gedən və rusca oxuyanları tən (vurma) və lən (lənət) daşı ilə daşqalaq etdiyi hamımıza məlumdur! Madam ki, cəmaətimiz əsl həyat və məişət keçirməyin nədən ibarət olduğunu bilmiyor, nə də ki, dövrəsini almış olan elm, mədəniyyət və

---

[343] Yenə orada, s.143
[344] Yenə orada, s.176

mafihasından xəbərsiz idi, bu təəssüb, bu cəhlində qaim durub həmişə "küfr-süvar" idi. İndi isə övzayi-aləm dəyişib, müsəlman aləminin "təkfir" dövrünün məhvi yaxınlaşıb, o təəssübü – cahilanə, o kor-koranə təqlid günləri meydandan çəkilib, guşeyi-nisyanə atılmağa başlamışdır”. [345]

Rəsulzadə indiyə qədər dünyanı fani bilərək yuxulu kimi hərəkət edən müsəlmanın ayılıb özünü, ətrafında baş verənləri, real dünyanı dərk etməsini vacib saymışdı. Müsəlman ayılanda görüb ki, dünya təkcə fani deyil, həm də baqidir. O, yazırdı: “Bu həqiqəti görər-görməz, keçmişdə onu iğfal edənlərə lənətxan olduğu bir hal ilə meydana atılar və bu meydanda mübarizə etməyə əvvəlinci dərəcə lazım olan elm əsləhəsinə daraq olmaq istəyir… İndi böyük ehtiyac, uşaqlıqda təlim vaxtı ötüb müxtəlif cəhətlərlə "əsləhəsiz" qalmış olanları elmi əvvəliyyə və ibtidaiyyə ilə müsəlləh etməyədir. Burasını nəzərə alaraq “Nicat” maarif cəmiyyəti hüququnu və nə edəcəyini qanmış olan avam camaatimizə bir mənəvi kömək olmaq üzrə, gecə dərsləri açmağa qərar vermişdi”.[346]

Bir müddət sonra gecə kurslarına baş çəkən Rəsulzadə gəldiyi nəticələri oxucuları ilə də bölüşmüşdü. O, yazırdı ki, müəllimlərdə olan həvəs, iqtidar, səy fərəhini artırmış, onların ortaya qoyduqları himməti şükranına səbəb olmuşdu: “Bir ayın ərzində türkcədə bir kəlmə bilməyən bisavadlar, indi rəvan-rəvan oxuyub gediyor, yazıyorlar. Ruscadan on altı hərf keçmiş və keçdiklərini tam qanmışlardır. Hesabdan əmali-ərbəədən üçüncüsü olan zərb də edilir... Xülasə, müəllimlərin səyi, qulaq asanları öyrətməkdə ibraz etdikləri diqqətləri layiqi-təhsindir. İnsana gözəl bir əsər bəxş ediyor… Millətini sevən ərbabi-həmiyyətdən bu gözəl binaya maddən və mənən yardım etməklə davamına səbəb olmaları rica olunur. Böylə bir dərslərin verə biləcək mənfəətlərini ayrı-ayrı saymaq nəzərimizcə bicadır».[347]

---

[345] Yenə orada, s.268-269
[346] Yenə orada, s.269-270
[347] Yenə orada, s.290-291

Rəsulzadə "Yerli məktəblər" məqaləsində isə Qafqazın nahiyyə maarif müdirinin göstərişinə diqqəti çəkirdi. Həmin göstərişə görə dövlətin xəzinəsi hesabına oxuyan uşaqlara məktəblərdə məhəlli dillərdən biri öyrədilməlidir, əks təqdirdə həmin uşaq xəzinə pulundan məhrum olacaqdı. Yerli məktəblərdə rəsmi şəkildə ana dilinin tədrisinin tərəfdarı kimi çıxış edən Rəsulzadə çarizmin indi belə bir addım atmasını səbəbsiz hesab etməsə də, bütün hallarda bunu müsbət dəyərləndirmişdi: "Bunun səbəbi nədir? Bu qədər qeydsizliyə məzhər olan "ana dili" birdən nə oldu ki, bu dərəcədə əziz oldu? İştə sual. Maraqlı olan bu sualın cavabını axırıncı vaxtlarda yerli əhalisi arasında oyanmış həvasi-tərəqqiyyi-milliyyədə aramalıdır. Axırkı vaxtlarda bütün Qafqaz pişrovlarını (qabaqcıllarının)-erməni olsun, müsəlman olsun, gürcü və digəri olsun, hamının istədikləri əhalinin milli ehtiyaclarına etina olunmaq tələbləri deyilmidir? Həmişə "bizə dilimizi qanan hakimilər verin", "bizi bizim dilimizi, adətimizi, rəftar və kirdarımızı bilən amirlər vasitəsi ilə idarə edin", "camaat üçün açılan mərizxanə, əczəxana və qeyri bu kimi müəssisələrdə camaatin dərdini, çox dəfə bisavad olan mütərcimlər vasitəsilə deyil, vasitəsiz anlayıb bilən məmurlar təyin edək" kimi tələblər virdi-zəmanımız olmuyubmu?.. Hökumət bir xeyli zaman bu tələblərə, bu həqiqi arzuya qulaq vermədi. Daima özünü eşitməzliyə qoydu. Əyalət məsələsində, milliyyət bəhsində menşikovlar təhti-nüfuz və məsləkində olan bürokratlar "təmamiyyəti-mülkiyyə" nöqteyi-nəzərindən olaraq, idarəni cahil mütərcimlərə tapşırmağı aqil və qadir yerliyə verməkdən daha əfzəl hesab etdilər".[348]

Bütün hallarda Rəsulzadə bu hadisəni maarifçi kimi müsbət dəyərləndirmiş və qeyd etmişdir ki, ancaq bu göstəriş bütün ehtiyacları ödəmir: "Bizə qalırsa yerli dillərinə maarif nahiyyə müdirinin verdiyi əhəmiyyət ehtiyacı rəf etmiyor. Daha artıq nafi və lüzumlu olardı ki, yerli dillərindən biri məktəbin olduğu yerin

[348] Yenə orada, s.226

əhalisinin miqdarına nisbətilə bütün şagirdlər üçün hər kəs olursa-olsun məcburi dərslərdən olub, rus dili dərəcəsində olaydı».[349]

Müəllimsizlik probleminin aradan qaldırılması, pedaqoji təcrübəyə malik müəllimlərin yetişməsində də Rəsulzadənin əməyi misilsizdir. O, hansı yolla olursa-olsun buna çarə tapmağa çalışırdı. M.Əmin təkcə mətbuatda bu məsələni qaldırmaqla kifayətlənmir, mütərəqqi pedaqoji kadrların hazırlanması üçün təkliflər verir, bir sıra xeyriyyə təşkilatlarında işlər aparırdı. Məqsədi şəhər və kəndlərdə çoxalan məktəbləri müəllimlərlə, özü də milli məfkurəli, pedaqoji təcrübəyə malik müəllimlərlə təmin etmək idi. Belə ki, məktəblərdə mütərəqqi, təcrübəli müəllimlər dərs keçməli və onlar şagirdlərə rus dili ilə yanaşı, ana dili olan Türk dilini də öyrətməlidirlər. Bunun üçün isə həmin müəllimlərin özü türk dilini mükkəməl bilməlidir. M.Əmin yazırdı: "Rus-müsəlman məktəbləri tipindəki məktəblərə təyin olunan müəllimlərin rusca ilə bərabər türkcə də bilmələri vacibdir. Böylələri də ələl-məlum Qori darülmüəllimin yetişdirdiyi müəllimlərdən alıyorlar. Fəqət təcrübə ilə görülimüşdür ki, xaricdə öz dilini öyrənməyib də Qori darülmüəllimininə girmiş olan tələbə türkcəni öyrənməyərək çıxıyorlar. Və ibtidai məktəblərdə ana dili öyrətmək iqtidarına haiz olmuyorlar. Ona görə də bu nöqteyi-nəzərdən rus-müsəlman məktəbi-idarəsi böyük bir böhran keçirir".[350]

Rəsulzadə uzaqgörənliklə yazırdı ki, əgər şagird vaxtında öz ana dili olan Türk dilində tədris almasa, sonra onun üçün problemlər yarancaq: "Rus-müsəlman məktəbində yaxşı və əsaslı bir surətdə türkcə öyrənilməyəcək olursa, artıq heç bir tərəfdə öyrənmək imkanı qalmıyor kimidir. Ana dilini öyrənməyib də təhsili-ali görən cavanlarımızın sonradan nə kimi bir xiffət və məhrumiyyət içində qaldıqları və nə kimi bir həsrət və məyusiyyət mənəviyyə ilə sıxıldıqlarını təxmin etmək isə çox da müşkül deyildir".[351]

[349] Yenə orada, s.226
[350] Yenə orada, s.252
[351] Yenə orada, s.253

Bu baxımdan Türk dilini öyrənməyin vacibliyini qeyd edən mütəfəkkir yazırdı ki, Bakıda bununla bağlı bir müəllimlər məktəbi açılmalıdır. Artıq türk müəllimlər Qoridə deyil Bakıda ali təhsil almalı, ibtidai məktəblərdə dərs deməyə tamamilə hazır olmalıdırlar. M.Əmin yazırdı: "Nədən Bakıda bir darülmüəllimin olmasın, nə üçün müsəlman kəndlərində, müsəlman məktəblərində türk uşaqlarına türkcə dərs vermək üçün hazırlanan müəllimlər, hər bir cəhətlə bu xüsusata yaxın və müvafiq olan bir mərkəzdə hazırlaşmasınlar ki, öyrəndiklərinin məhəlli tətbiqindən uzaq bir nöqtədə olsunlar… Bakıda müsəlmanlara məxsus bir darülmüəllimin açılmasını vacib görüyorum". [352]

Onun fikrincə, Avropa bu gün göz qamaşdıracaq qədər tərəqqi etmiş, parlamışsa, ancaq müəllimləri, sənətkarları, mütəxəssisləri sayəsində parlaya bilmişdir: "Avropada hər kəs edadi dərəcəsində ümumi məlumatlara olduqdan sonra özünə müəyyən bir bilik xətti seçir və o yolda ixtisas peyda edər. Avropalı yalnız bir şey öyrənər. Fəqət öyrənmək kimi öyrənər. Onu tamamilə təkmil edər. Halbuki Şərqdə, ələlxüsus biz müsəlmanlarda bu böylə deyildir. Biz Krılovun ördəyi kimi dənizdə üzmək, yerdə gəzmək və havada süzmək istəriz. Çox peşə ediriz. Fəqət bilgimiz pis olur. Halbuki avropalılarca "çox peşə, pis bilik nə hacətdir, birini yaxşı bil kifayətdir"". [353]

Maarifçiliyi yaymaqdan qətiyyən usanmayan Rəsulzadə yalnız Quzey Azərbaycanda deyil, Qafqazın istənilən yerində açılan hər bir ali, texniki-peşə məktəbini bayram kimi qəbul edirdi. Tiflisdə açılan politexniki peşə məktəbinə də Rəsulzadə bu cür yanaşmış, bunun, Bakıda baş verməməsinə isə təəssüf etmişdi: "Qafqasiya politexnikumunun harada tikilməsi haqqında Tiflisin iki məhəlləsindən ziyadə Tiflislə Bakı bəhsə girişsə idi daha təbii ədd olunardı. "Kaspi" qəzetəsinin sərmühərriri yazdığı kimi Qafqaziya politexnikumunun ən təbii bir məhəlli sənaye və texnika

[352] Yenə orada, s.322
[353] Yenə orada, s.341

mərkəzi olan Bakı idi”.[354] Bütövlükdə isə Qafqazda belə bir ali məktəbin açılmasını Rəsulzadə ciddi bir tərəqqi kimi dəyərləndirir: “Çoxdan gözlənilən arzu indi bir həqiqət şəklinə girməkdədir. Avropanın bir neçə dövlətlərindən daha böyük bir ölkə təşkil edən Qafqasiya artıq ali məktəb yoxluğunun xəcalətindən bir dərəcə olsun özünü qurtarmış saya bilər… Artıq Qafqasiyada təhsili-ali sərih addımlarla irəliləyəcəkdir. Ümid edək ki, bu yeni məbəd elm və fəndən, müsəlman tələbələr daha çox faydalanmış olacaqlar”.[355]

Rəsulzadə hər kəsi bu ali məktəbin varlığından faydalanmağa çağırır və dərhal iş başına keçməyi təvəqqə edir. Onun fikrinə görə, hər bir kəs politexnikumun millətə gətirəcək faydasını anlamalıdır: “Bunu hər kəs indidən anlamalıdır. Hər kəsdən ziyadə biz anlamalıyıq. Əlimizə fürsət keçmişkən evimizin içində böyük sənaye məktəbi vücuda gəlmişkən, ondan kafi dərəcədə istifadə etməzsək sabahımız o qədər parlaq ola bilməz. Əgər ondan lazımi qədər istifadə edəcək olursaq, inanmalıyıq ki, ondan gələcək fayda başqalarından bizim hissəmizə daha çox düşəcəkdir. Çünki fününi məxsusə ilə müsəlləh olduqdan sonra qafqasiyalı bir türk və bir müsəlman əlbəttə Azərbaycanda açılacaq saheyi-rəqabətdə başqalarına faiq (üstün–F.Ə.) gələr”. [356]

**Maarifçilik və milli-maarif cəmiyyətləri.** Rəsulzadə başqa məsələlərdə olduğu kimi, müsəlman maarif cəmiyyətlərinin birləşə bilməməsinə də təəssüf edirdi. Başqa millətlərin Quzey Azərbaycanın mərkəzi şəhəri Bakıda birləşib müxtəlif ictimai, siyasi və milli cəmiyyətlər yaratdığı halda, türk-müsəlmanların bundan uzaq qalması ilə razılaşa bilməyən Rəsulzadə onları heç olmazsa milli mədəni-maarif cəmiyyətləri ətrafında birləşməyə çağırırdı: “Səbəb nə isə bu işləri bir yerə mərkəzləşdirib bunlarda parça-parça olunan qüvayi-maddiyə və mənəviyyələri bir yerə bitişdirmək əvəzində xırda-xırda olunur və bu cəhətdən də

[354] Yenə orada, s.347
[355] Yenə orada, s.347
[356] Yenə orada, s.349

qonşularımızın bütün, böyük və görkəmli əsərlərinə müqabil bizim işlərimiz hamısı xırda-xırda kimi nəzərə gəlinir. Həqiqətən də xırda-mırdadır. Çünki bir çox xırda və kiçik qüvvələr madam ki, cəmləşməyib, madam ki, nəşri-maarif və mədəniyyəti-əvam və imrani-vətən kimi böyük işləri görməyə bizdə koperasiyonluq əlbirliyi ilə iş görmək yox, ancaq tərəf-tərəfə çəkilib parçalanmaq vardır, madam ki, Krılovun hekayəsində olduğu timsal kimi hərəmiz bir yana çəkəcəyik, o halda-dövrün-çərxeyi mədəniyyətimiz haman yerində qalacaq, hərəkətə gəlməyəcəkdir… Bütün müsəlman xeyriyyə və maarif cəmiyyətlərinə ümummillət maarifi və tərəqqisi naminə lazımdır ki, saheyi-ittifaqa qəməndaz olub, ayrı-ayrı işləməyi buraxıb birləşsinlər”. [357]

Rəsulzadə müsəlmanları birləşdirəcək mədəni maarif cəmiyyətinin əsas prinsiplərini də məqaləsində vermişdi: “Mənim nəzərimcə atidə başa gəlməsi möhtəməl olan “İslam mədəni cəmiyyəti”nin əsası gərək aşağıdakı əsas üzərində qurulusun:

1. Ümumbəşəriyyət nöqteyi-nəzərindən nəşət edən və mümənnəyi-haliyə, əsri-mədəniyyəyə mühtəməl olan tərəqqiyə müvafiqət;

2. Bir idarə və ya bir kassa olduğu ilə bərabər cəmiyyətin müxtəlif şöbələri olmalı və bu şöbələr gördükləri işlərinə imtiyaz verməkdə ədəmi-mərkəziyyəti əsas ittixaz etməli;

3. Ol karda “nəqdiyyə”, “məkatib”, “mətbuat”, “sənaeyi-nəfisə” (teatro, rəssamlıq və qeyrə) şüubuatının təşkili vücübatdan ədd edilməlidir”.[358]

Məhəmməd Əmin yaxşı anlayırdı ki, siyasi partiyaların fəaliyyətinin qadağan edildiyi bir dövrdə yalnız vahid milli-mədəni maarif cəmiyyəti ilə xalqı hürriyyət və azadlığa doğru aparmaq mümkündür. Bu baxımdan o, “Nicat” maarif cəmiyətinin sədri olaraq digər maarif cəmiyyətlərini (“Nəşri-maarif”, “Səadət” və b.) vahid “İslam mədəni cəmiyyəti” adı altında daha güclü şəkildə ittifaq etməyə dəvət edirdi.

---

[357] Yenə orada, s.235

[358] Yenə orada, s.235

Milli mətbuatımızın banisi, tanınmış mütəfəkkir Həsən bəy Zərdabinin dəfn mərasimində "Nicat" maarif cəmiyyətinin sədri olaraq işirak edən Rəsulzadənin mərhumun qəbirüstü nitqi də, daha çox milli-mədəni birlik üzərində köklənmişdir. Hər halda Zərdabinin şəxsində böyük bir maarifçini, ustadı itirdiklərini deyən Rəsulzadənin burada da maarifçilik məsələsinin üzərindən xalqın birliyindən, milli azadlığından bəhs etməsi təsadüfi deyildi: "Cəmaət özü öz azadlığına gərək çalışsın, rəislərə yalvarmaq, onlardan mərhəmət istəməklə onun halına heç bir fayda olmaz… Cəmaəti ayıltmaq, onu dərrakəli etmək üçün nə lazımdır? -maarif, maarif, maarif! Ancaq elm və bilik ilə cəmaət özünün nə olduğunu və nə edə biləcəyini qana bilər. İştə bu qoca ədib də haman camaatın hər dərdinə dərman olan irfan toxumlarını səpmişdir. Həmin bu maarif mücahidi olan piri-rövşənzəmizə xitabən cəmaətin maarifmənd və mütərəqqi olduğunu özünə məslək tutan "Nicat» maarif cəmiyyəti tərəfindən deyirəm ki, yat, Allah sənə rəhmət eləsin!!!". [359]

Bütövlükdə isə vicdan, humanizm, həyatın mənası, mənəvi zənginlik, ideallıq, namus, ləyaqət, borc, ədalət hisslərini insana, cəmiyyətə aid maarifçilik məsələləri kimi irəli sürən Rəsulzadənin əsərlərində bununla bağlı dəyərli fikirlər kifayət qədərdir. [360] Başqa sözlə, M.Əmin sosial-fəlsəfi xarakterli maarifçi fikirlərində insanın savadlanması, zəngin mənəviyyata sahib olması mühüm yer tutmuşdur. Bunu nəzərə alaraq Elçin Əfəndiyev yazırdı ki, Rəsulzadə maarifçi-publisist və şair Rəsulzadədən başlayır: "Onun milli ideyaları, siyasi dünyagörüşü əvvəlcə şeirdə, sənətdə formalaşmışdı. Təsadüfi deyil ki, Azərbaycan Cümhuriyyətinin millilik təlimini, milli simvolikasının əlamətlərini onun həmin dövr poeziyasından toplamaq olar. Gənc Məhəmməd Əmin hələ sırf maarifçi kimi düşünsə də, böyük tarixi-siyasi mübarizələr yoluna onu məhz belə şair narahatlığı və nigarançılığı gətirmişdi".[361]

---

[359] Yenə orada, s.151

[360] Ağayev M. Məhəmməd Əmin Rəsulzadə. Bakı: "Nurlan", 2006, s.111

[361] Əfəndiyev E. Məmməd Əmin Rəsulzadə (oçerk). Bakı: Şərq-Qərb, 1994, s.19

M.Əmin gənclik illərində maarifpərvər onlarla məqalələr, şeirlər, kiçik həcmli dramlar ("Qaranlıqda işıqlar", "Nagahan bəla" və s.) qələmə almış, eyni zamanda ədəbiyyatıın, mədəniyyətin tarixinə, mövcud kitabların, tamaşaların, operaların tənqidinə dair məqalələr, əsərlər yazmışdır. Prof. Vaqif Sultanlıya görə "tənqidsiz heç bir sənət, heç bir millət tərəqqi etməmişdir" fikri Rəsulzadənin yaradıcılığında sadəcə tezis olaraq qalmamış, əksinə fəaliyyətinin bu zəmində köklənməsində təkanverici amil rolunu oynamışdır.[362]

[362]Sultanlı Vaqif. İstiqlal sevgisi. Bakı, Elm və təhsil, 2014, s.137

*Din məsələsi vicdani bir məsələdir.*
**M.Ə.Rəsulzadə**

## 2.4. M. Ə. Rəsulzadənin görüşlərində din məsələsi

Rəsulzadənin islama, ümumilikdə, dinə münasibəti yaradıcılığında mühüm yer tutmuşdur. Dinin cəmiyyətin mənəvi həyatındakı rolunu yüksək qiymətləndirən mütəfəkkir, ondan sui-istifadə edilməsinin isə əleyhinə olmuşdur. Dini siyasətdən kənarda görmək istəyən Rəsulzadə islamın intibahında, müasirliklə ayaqlaşmasında maraqlı olduğunu da ortaya qoymuşdur.

**Rəsulzadənin baxışlarında islamlığın dünyəviliyi.** Sosial-fəlsəfi və publisistik yaradıcılığının ilk dövrlərindən başlayaraq dinlə bağlı fikirlərini ifadə edən Rəsulzadənin islama bağlılığı ilk növbədə ailədən irəli gəlmişdir. Tanınmış din alimi, Qurani-Kərimin təfsirçisi Axund Molla Ələkbərin ailəsində dunyaya gələn Rəsulzadənin islam dininə həssas yanaşması təbii idi. Ruhani ailəsində dünyaya göz açdığı üçün uşaq vaxtlarından islama böyük maraq göstərən Rəsulzadə sonralar bunu, dinin ecazkarlığına heyranlığı ilə də izah etmişdir. [363]

O, gənc olarkən başqa müsəlmanlar kimi hesab edirmiş ki, bir mömінin həyatı ancaq göz yaşı ilə inciləşir. Bu baxımdan mömin olmaq fikrinə düşən gənc Rəsulzadə, ancaq həyati imanının incisiz, yəni göz yaşısız olmasına təəssif edirmiş: “Bu məni o vaxt bəlkə də izah etmədiyim bir vicdan təzyiqi altında bulunduruyordu. Fəqət sonra ağlar vaxtlarım oldu. Nadir olsa da ağladım. Zənn edirəm ki, çox səmimi olaraq ağladım. İnsanın darğınlığında, müsibət və matəmlərində yeganə müdari-təsəllisi olan acı giriyələrə nail oldum. Yalnız dini bir təsirlə deyil, bəşəri bir təsirlə də ağladım.” [364] Dinlə yanaşı, bəşəri təsirlə də ağlayan Rəsulzadə bu zaman milli və bəşəri dəyərlərin ümumiliyindən çıxış etmişdir. Çünki onu ağladan islami, insani və milli

---

[363] Rəsulzadə M.Ə. Əsərləri (1909-1914). II cild. Bakı: Şirvannəşr, 2001, s.272
[364] Yenə orada, s.273

dəyərlərin insanlar arasında yetərincə başa düşülməməsi və orada hökm sürən haqsızlıqlar idi. Ona görə də əvvəllər mömin olmaq üçün zorla ağlamaq istəyi baş tutmasa da, sonralar M.Əmin həyatda gördükləri vəhşiliklərin, ədalətsizliklərin müqabilində həm dini, həm də bəşəri bir təsirlə ağlamışdır.

Rəsulzadə dahiyanə uzaqgörənliklə islamın türklərin-müsəlmanların həyatında, daha dəqiq desək, Azərbaycan türklərinin gələcək taleyində mühüm rolunu görüb onu qiymətləndirməyə çalışmışdır. Bu zaman mütəfəkkir Azərbaycan türklərinin İslam-Türk aləmində hansı mövqeyə, yerə malik olmasını doğru təyin edərək onların milli xüsusiyyətləri ilə yanaşı, dini və məzhəbi təssübkeşllik amillərini də nəzərə almışdır. Xüsusilə, bu, islam dininin qurucusu Məhəmməd peyğəmbərə (s.), onun islamlıq uğrunda verdiyi mübarizəsinə və əxlaqi keyfiyyətinə münasibətdə özünü büruzə vermişdir.

Rəsulzadə bir çox məqalələrində Məhəmməd peyğəmbərin (s) əxlaqından, müdrik kəlamlarından nümunələr gətirmiş, mövlud günü ilə bağlı fikrini bölüşmüşdür. Bu baxımdan Rəsulzadənin Peyğəmbərimizin (s) mövlud bayramı ilə bağlı “İrşad”, “İqbal”, “Açıq söz” və digər qəzetlərdə yazdığı məqalələr diqqətəlayiqdir.

“Bu gün” adlı məqaləsində Rəsulzadə ilk növbədə, Allahın Rəsulunun dünyaya gəlməsi ilə bəşər tarixində yeni bir səhifənin açılmasını qeyd etmişdir: “Bu gün haman gündür ki, onda dəryayi-cəhl və vəhşətdə qərq olan ərəblərə mərhəməti-ilahi izal olub, tarixi bəşəriyyətdə parlaq bir səhifə ittixaz etməklərinə səbəb olan Məhəmməd ibn Abdullah əleyhissəlam həzrətləri cümlə insanları vadiyi-cəhalətdən qurtarıb, elm və mərifət irişdirmək üçün məbus oldu. Bu yövmi-mübarək haman gündür ki, bunda cəhalət və səfalət ucundan illər müddəti ilə gizlin olub, təcəli etməkdən məhrum qalan nuri-həqqaniyyət cilvələnib, zülmətpərəst olan yarasa təbiətlilərə dünyanı daraltdı. Bu gündən əsasi-islam olan hüquqpərəstlik "lailahəillələh" cümlə həqiqətkəranəsi ilə işar edilib cəhalət məhz və küfran olan

bütpərəstlik fəsxinə hökmü ilahi sadir oldu. İslamiyyət nöqteyi-nəzərindən bu günün nə qədər heysiyyəti varsa, insaniyyət nöqteyi-nəzərindən də bir o qədər var və bəlkə də artıqdır.

İslam dininin vəzi ilə bir çox insanlar təriqi-zəlal və əsəbiyyətdən qurtarıb rahi-nicat və fəlahə düşdüyünü heç kəs dana bilməz, zənn ediyorum. Bu gün aləmi-insaniyyətdə öylə bir müəzzəm günlərdəndir ki, onun misli tarixlərdə az-az tapılır, bəlkə də heç tapılmaz. Başdan-ayağa qərqi-istibdad və cəhalət olub güzəranlarını qətl və qarət ilə keçirdən, təəssüb ucundan öz doğma balasını diri-diri yerə basdıran bədəvi ərəblər arasında dini-islam kimi insaniyyətpərvər, ədalət və müsavatküstər, maarif və həqqaniyyətamiz bir məslək icad edən nadir vücudun bu gün yovmi-məbusidir, yəni öz risaləti-insaniyyətkaranəsinin təbliğ etməyə başladığı gündür. Lakin heyhat! O gündən başlanıb təbliğ edilən o əmr və nəhyi-müqəddəsəni çıxardığımız kimi, bu yovmi-müqəddəs və müəzzəzi də fəramuş etmişiz!."[365]

Ancaq Rəsulzadə onu da yazırdı ki, artıq müsəlmanlardan bir qismi özlərini müsəlman adlandırsalar da, ancaq peyğəmbərin əxlaqından, ədalətliliyindən, bir sözlə onun məsləkindən sözün həqiqi mənasında xəbərləri yoxdur. Çünki müsəlmanlardan bir qismi peyğəmbərmizin təbliğ etdiyi ideyaları unutmuş, onun müqəddəs əmrlərini əməl etməməyə başlamış, bununla da islamın ilkin mahiyyətindən çox uzaq düşmüşlər. Onun fikrincə, halbuki peyğəmbərimizin biz müsəlmanlara göstərdiyi yol müsavat yolu, bərabərlik yoludur ki, bizlər bu yolu yarımçıq qoya bilmərik: "Həm həqiqətən də vəhdaniyyəti-islamiyyə zühur edincə Kəbəyi-illəllah vaizlərindən təmizləndi. İslamiyyətdəki fikri-müsavat və hökuməti-əvam düsturu ilə Şərq və Qərbə gedən ordular müqabilində nə Bizans sürüləri, nə də İran orduları davam etdi! Şübhəsiz ki, Bizansın zəlzələyə tutulması, Taqi-Kəsranın uçması bu iki məmləkətdəki ağaları və ağalıq edən sinifləri ağlatıyordu. Fəqət bu məğlubiyyət acısı ilə ağlayanların zülm və istibdadı

---

[365] Rəsulzadə M.Ə. Əsərləri. I cild (1903-1909). Bakı, "Təhsil", 2014, s.70-71

altında illərlə ağlamış olan xəlq o zamankı ərəb ordusunu xilaskar bir qüvvət kimi istiqbal ediyordu. Millətlərin bu surətlə istiqbal etdikləri iş bugünkü böyük mövludun vəz elədiyi "müsavat" idi. İslamiyyət əsasını qəbul etdikdən sonra Bizansda və İranda mövcud olan bilcümlə sinif, silk və təbəqə imtiyazları aradan götürülüyor, dəhati-dehqanlıq qalmıyordu. İnnəma əl möminun əxva, bütün möminlər qardaş oluyordu." [366]

Rəsulzadəyə görə ilk dövrlərdə bugünkü mövludi-müəzzimənin qurduğu da əsas bərabərlik, bir əmirlik və milli hökumət üzərində yürümüşdür. Ancaq zaman keçdikcə, digər ideyalarda olduğu kimi islamlığa da əlavələr olunmuş, bununla da əvvəlki mahiyyətindən uzaqlaşmışdır. O, yazırdı: "Fəqət hər bir yeni din, hər bir yeni məslək mənbeyi-zühurundan uzaqlaşdıqca təhrif olunub, sakinləri tərəfindən başqa bir şəklə gətriilmiş, safiyətini itirmiş, ona görə də kəskinliyindən, əvvəlki təsirindən uzaq qalmışdır. Bu ümumi qaidədən ictimai bir din əsasını vəz edən islamiyyət dəxi bir istisna təşkil etmədi. Araya bir çox xürafat və mövhumat daxil oldu. Din əsl çığırından çıxıb tanınmaz bir şəklə girdi. Bugünkü islamiyyət aləmi hər nə qədər özünü o mövhumatdan paka çıxrıb əsl islamiyyətə doğru getmək niyyətini göstəriyorsa da hələ bir növ müvəffəq olamıyor. Fəqət bu birdən-birə əmələ gəlməyən müvəffəqiyyət tamamilə ələ gəlməmək ehtimalından xaric degildir. İslamiyyət aləmində görünən intibah, üləmayi-islamiyyə arasında yavaş-yavaş görünməkdə aşlayan islah əndişələrə yeni bir "tövlid"in vaqe olacağını və bu vasitə ilə islamın həqiqətlərini dərk ilə aləmi-islamın yenidən doğulub da ruh və əxlaqca tazələnəcəgini təbşir ediyorlar. İştə, Böyük Peyğəmbərimizin səadətli mövlud günündə biri-birimizi təbrik edərkən böylə bir təvəllüd təmannasında bulunalım! Çünki istiqbalımız, istiqlalımız bu yeni əxlaqi-diniyyə tövlidinə az bağlı degildir". [367]

---

[366] Rəsulzadə M.Ə. Əsərləri. III cild (1915-1916). Bakı, "Təhsil", 2014, s.293-294
[367] Yenə orada, s.294

1917-ci ilin yanvarında "Açıq söz" qəzetində qələmə aldığı "Mövlud bayramı xüsusunda" məqaləsində isə M.Ə.Rəsulzadə yazırdı ki, mövlud müsəlmanlar arasında milli bayram kimi keyfiyyətli şəkildə qeyd olunmalıdır. Başqa sözlə, orucluq, qurbanlıq bayramları islam aləmində hansı şəkildə qeyd olunursa, mövlud bayramı da həmin mənada həyata keçirilməlidir. Rəsulzadə yazırdı: "Hər şeydən əvvəl mövlud rəsmiyyətdən ziyadə səmimi və mənəvi simaya malik bütün xüsusiyyatı ilə ruhlu və tam milli bir gün olmalıdır. Buna "reut" (tamaşa) rəngi vermək, bu gün başqa millətlərin, rəsmi hökumət adamlarının, bələdiyyə və sair müəssisat rəisinin də məclisimizə gəlib bizi təbrik etmələrini gözləmək bicadır. Bərabər yaşadığımız ruslar, ermənilər dəxi milad bayramında böylə rəsmi bir "reut" düzəltdikləri yoxdur. Bu "reut" ancaq tazə ildə oluyor ki, buna müqabil bizim əskidən novruz "reut"imiz vardır. Orucluq, qurbanlıq bayramları nə kibi milli və dini bir mənada isə, mövlud da öylə olmalıdır. Eydi-fətr ədasında, bayram namazı qıldıqda və yainki aşura matəmi saxladıqda, necə ki, rəsmiyyət gözləmiyor, kimsədən təvəqqi etmiyoruz ki, məclisimizdə bulunsun, mövludda da böylə yapılmalıdır. Hətta demək istiyorum ki, mövlud mərasimi xüsusi binalarda yapılacağına məsciddə, məscidi-camedə ixra olunursa, daha münasib və daha müvafiq olur".[368]

Rəsulzadə o fikirlə razılaşırdı ki, hər bir millət bayram saxlamağı ilə də dünya millətlər sırasında yaşamağa qadir olduğunu ifadə edir. Bu mənada azərbaycanlılar-türklər də "ən böyük, ən işıqlı" bayram hesab etdikləri mövlud gününü layiqincə qeyd etməlidirlər. Onun fikrincə, bu baxımdan Azərbaycan türkləri mövlud bayramını rəsmi və quru bir şəkildə deyil, əsl xalq bayramı kimi keçirməli, həmin gündə peyğəmbərin şəninə musiqilər səslənməli, milli şeirlər oxunmalı, mənalı nitqlər söylənməli, bir sözlə bayram əhval-ruhiyyəsində keçirilməlidir. Əks təqdirdə belə anlaşılar ki, azərbaycanlılar hələ, milli bir həyat

---

[368] Rəsulzadə M.Ə. Əsərləri. IV cild (1917-aprel,1918). Bakı,"Qanun", 2013, s.25

yaşamağa hazır deyildir. M.Əmin yazırdı: ""Ən böyük bayramımız"ın gününü təyinenində, mənasını dərkdə, keyfiyyəti-icrasını anlamaqda bu qədər cahillik, qalınlıq göstərdiyimizi görüncə insan mili bir həyatla "yaşamağa daha hazırlaşmadığımıza" hökm vermək istiyor: istəmək deyil, böylə bir hökm vermək məcburiyyətində qalıyor». [369]

Rəsulzadə Məhəmməd peyğəmbərmizin (s.) mövlud günü ilə yanaşı, Allahın sonuncu rəsulunun müdrik kəlamlarına, əxlaqi nəsihətlərinə, dəyərli mülahizələrinə də yeri gəldikcə, müraciət etmişdir. Bunlardan biri də peyğəmbərimizin dini elmlərlə yanaşı, dünyəvi elmlərin də öyrənilməsinin vacibliyi ilə irədi sürdüyü mülahizələrdir. Rəsulzadə də dünyəvi elmlərin öyrənilməsini zəruriliyini əsaslandırmaq üçün dəfələrlə peyğəmbərlə bağlı hədislərə müraciət etmişdir. Rəsuzadə yazırdı: "Bu vaxta bizə lazım və vacibdir ki, himmət edib, elm öyrənməyə və öyrətməyə və öyrətdirməyə səy və kuşiş qılaq. Elmsiz heç bir nöqsanımız götürülməyəcəkdir. Elmin fəzlətində bu bəs edir ki, peyğəmbərimiz əleyhissəlam hədisi-mütəəddidədə elə bizlərə tapşırıblar ki, əzon bu cümlə aşağıdakılardır ki, nəzmə çəkmişəm. Peyğəmbərimiz həzrətləri tərəfindən yetişən hədislərdən:

*Söylədi peyğəmbər ol xətmi rüsul*
*Bu hədisi ol vəliyyü-cüzvü-küll:*
*Öyrən elmi məhdidən ta ləhdəcən,*
*Ta ki, hər dünyadə ol sən mümtəhən.*

*Elmi qismi ikidir, ey bül-vəfa,*
*Bu hədisi söyləyib çünki Müstəfa:*
*Klmi əbdan əvvəli sən eylə yad,*
*Elmi ədyandır biri ey xoş nəjad.* [370]

Bunu, islam şəriəti haqqında da söyləyən Rəsulzadəyə görə, Qurana təkcə müqəddəs bir kitab deyil, həm də elm mənbəyi, elmə yönələn bir ümid işığı kimi baxmaq lazımdır:

---

[369] Yenə orada, s.26

[370] Rəsulzadə M.Ə. Əsərləri. I cild (1903-1909). Bakı, "Təhsil", 2014, s.22

*Aç qulağın bir eşit bu sözləri ey bilfüzul,*
*Elmə rağib olgilən, qafildilər küllən cühul.*
*Hər nə var dünyadə bil ki, elmilən olmuş hüsul.*
*Fəzli-elmi bilgilən şər ilə olmuşdur qəbul,*
*Olmasın qafil xəlayiq eyləyib Quran nüzul.*[371]

Onun islamın mütərəqqi, dünyəvi din olmasını göstərmək üçün peyğəmbərdən hədislərdən gətirdiyi sitatlar da maraq doğurur: "Sizdən xeyrlisi dünyasını axirətinə və ya axirətini dünyasına fəda edən deyildir, bəlkə hər ikisi üçün çalışandır». Burada açıq şəkildə insanların tərkdünyalığının əleyhinə bir çağırış var. Məhəmməd Əminin fikrincə, peyğəmbərlə bağlı hədislərdə həyata bağlılıq hisisi güclüdür. Ancaq bu bağlılıq maddi deyil, daha çox mənəvi mahiyyət daşıyır. Belə ki, insan nahaq dünyada halal və haramı bir-birindən ayırmağı bacarmalıdır: "Halal mal tələbində olmaq cihaddır (Hədis)", "Cənab Allah öz bəndəsinə himmət və tələbinə görə verər (Hədis)" və s. Rəsulzadə "Həyatı sevməli" məqaləsində yazırdı ki, bu kimi bizim az eşitdiyimiz və ona görə eşidərkən inanmaq istəmədiyimiz hədislər çoxdur: "Bunların arasında hətta öylələri vardır ki, başqalarına möhtac olmamaq üçün dünya qazananlar qiyamət günü üzü ağ gələcəklər və onların üzü on dörd gecəlik ay kimi parlayacaqdır-deyir. Və yenə hədisi nəbəvidir ki,… "ümmətim öylə bir zaman görəcək ki, həm dinini, həm dünyasını təmin üçün insan pula möhtac olacaq». İştə indi o zamandır. Yəni pul zəmanəsi. Pul məlumdur ki, dünyadarlıqla hasil olur. Bu da ancaq dünyanı və onun həyatını sevməklə qabildir. Ona görə də: həyatı sevəlim!".[372]

Bütövlükdə, Rəsulzadə islam dininin qurucusu Məhəmməd peyğəmbərin yalnız müsəlmanların həyatında deyil, bəşər cəmiyyətinin tərəqqisində son dərəcədə böyük rol oynadığını yazmışdır. Rəsulzadə islamda peyğəmbər əxlaqına, peyğəmbər

---

[371] Yenə orada, s.24
[372] Rəsulzadə M.Ə. Həyatı sevməli. «İqbal» qəz., Bakı, 1913, 1 iyul

əqidəsinə mühum yer verir və müsəlmanları onu kimi əqidəli olmağa çağırırdı.

Ümumiyyətlə, Rəsulzadəyə görə əhli-islam islam əqidəsini özündə təzahür etdirən insandır və belə insanlardan biri də Həzrət Əli(ə.)dir. Rəsulzadənin dinlə bağlı yazılarını şərh edən bəzi müəlliflər də hesab edirlər ki, o, islamın əsas simalarından biri olan Həzrət Əliyə (ə) də yüksək qiymət verərək onun əməllərini və fikirlərini nəinki bir cəmiyyət, ümumilikdə bəşəriyyət üçün fövqəladə vacib olduğunu ön plana çəkmişdir. Belə müəlliflərdən biri olan Soltan Əlizadə yazır: "M.Ə.Rəsulzadə Həzrət Əliyə (ə) yüksək qiymət verərək onun bir hədisinin nəinki bir cəmiyyət, ümumilikdə bütün bəşər üçün fövqəladə vacib olduğunu ön plana çəkir. Və dövründəki parçalanmış qüvvələrin birliyini təmin etməyə cəhd göstərir... Həzrət Əli (ə) şəxsiyyətini ideal insan kimi səciyyələndirən Rəsulzadə cəmiyyəti əqidədə, etiqadda, elmdə, əxlaqda, mərdlikdə, səxavət və sədaqətdə Həzrət Əli (ə) kimi olmağa, ondan bəhrələnməyə çağırır: Həzrət Əlidən (ə) buyurulan hədisləri nəzmə çəkərək kamilliyin əsaslarını təqlid edir". [373]

Doğrudan da, Həzrət Əlinin islamdakı mövqeyini xüsusilə qeyd edən Rəsulzadə peyğəmbər ailəsinə, onun əhli-beytinə olan rəğbətini gizlətmirdi. Ona görə Həzrət Əli (ə) təkcə islam dininin sərkərdəsi, mücahidi deyil, həm də alimdir. Rəsulzadə Həzrət Əli haqqında ona yetişən hədislərdən tez-tez sitatlar da gətirirdi/[374]

Həzrət Əli ilə yanaşı, Həzrət Hüseynə də (ə) din mücahidi kimi yüksək qiymət verən Rəsulzadə Həzrət Hüseynin islam dünyasında tutduğu yeri və rolu doğru görürdü. Aşura günü müsəlmanların fanatikliyə yol verməsinə dözməyən Rəsulzadə müsəlmanları həmin günün mahiyyətini başa düşüb, ondan düzgün nəticə çıxarmağı tövsiyə edir: "Hüseyni məzlum bilib də halına ağladığımız halda hər qism bəla və müsibətləri ancaq ağlamaq və yalnız ağlamaq təriqi ilə istiqbal etmək məzlumiyyətinə öyrənən bizlər, imamın bu böyük ruhu ilə aşina olub ona

---

[373] Əlizadə S. Məhəmməd Əmin Rəsulzadə və islam. Bakı, 2003, s.16-17

[374] Rəsulzadə M.Ə. Əsərləri. I cild (1903-1909). Bakı, "Təhsil", 2014, s.23

imtisal etmək xəyalında heç olmuyoruz. Bəlkə də bu hal Kərbəla şəhidini qəbrində də rahatsız etməkdədir. Din, fikir, elm və millət naminə şəhid və məzlum olanlar bəşəriyyət tarixi ilə, islamiyyət tarixində çoxdur. Bunlar həmişə və hər bir millət arasında təqdim olunar və adları ehtiramla anılar. Bu kimilər haqqında göstərilən ən böyük ehtiram, onların böyüklüklərinə imtisal etməkdən ibarətdir. Əqidə, amal və məsləki yolunda ölümünə razı olub da nəfsini fəda edən kim olursa-olsun böyükdür. Və bu böyüklük təqlidəşayan və təhsinə müstəhəqqdir! Aşura günü bizə böylə bir əxlaq tərbiyəsi vermək iqtidar və səlahiyyətində ikən, eyvah ki, biz onu başqa dürlü qandıq, hər şeydə olduğu kimi burada da narəftə bir yola düşdük”. [375] O, daha sonra yazırdı: “Hüseyn əleyhissəlam inandığı və etiqad elədiyi fikri üstündə ölməyincə, özünün əbədi bir rəhmətə nail ola bilməyəcəyini göstərmiş ikən, biz “mən - mənə, o - ona, o - o yana” timsalından dörd əlli yapışıb səadətdarini üç-dörd qətrə göz yaşı müqabilində veriləcək qədər ucuz bir şey sandıq”. [376]

Ağlamaqla heç bir nəticə əldə olunmayacağına inanan Rəzulzadəyə görə, təbiət olduqca qəddar və rəhmsizdir və o, göz yaşlarına zərrə qədər əhəmiyyət verməz: “Çünki ağlamaq dini vaqelərdə, ruh və imanın nəzahət və istirahəti üçün lazımi bir şey isə də, dünya işlərində fayda gətirməz. Təbiət olduqca qəddar və birhəmdir. O, göz yaşlarına zərrə qədəri əhəmiyyət verməz. O, gülməyə, ağlamağa qarşı laqeyddir. Hələ ağlamaqdan bir az da zəhləsi gedər. Çünki ağlamaq acizlik əlamətidir. Acizlərin isə təbiət ən birinci düşəmnidir. Qüvvətli olanları saxlar, zəif olanları əzər-budur onun rəftarı. Siz gəlin də bu xasiyyətindən ötrü ona kəcmədar deyiniz. Fəqət bu onun getdiyi bir doğru yoldur. Tazə ilimizdə köhnəsindəki itirdiklərimizi təlafi etmək istəyirsək, gələn məhərrəmə qədər ağlanacaq hallardan bir az olsun, özümüzü xilas etmək amalında isək, fələyin “kəcmədar” olduğunu anlayalım və böylə bir zalimə qələbə çala bilmək üçün insani boşaldan göz

---

[375] Rəsulzadə M.Ə. Əsərləri. II cild (1909-1914). Bakı, “Təhsil”, 2014, s.433-434

[376] Yenə orada, s.434

yaşından deyil, fikir istiqaməti və əqidə səbati ilə əməlpərvərlikdən kömək gözləyəlim. Böyük Aşuranın müəzzəm şəhidinə imtisal eədrək ruhi-qəhrəmanlığını dərk edəlim ki, ən böyük əcri də ancaq bundan ala bilərik!”.[377]

O, çağdaş dövrün tələblərinə uyğun olaraq islamın mahiyyətini və əsasını təşkil edən Quranın türkcəyə çevrilməsini istəyirdi. Onun fikrincə, dini daha yaxşı başa düşmək dildən asılıdır. Bunun üçün də o təklif edirdi ki, Quran türkcəyə çevrilsin və Türk dilində oxunsun. Ona görə əvvəl Quran, sonra da ayin və dualar türkcəyə (eyni zamanda farscaya və başqa dillərə də) tərcümə edilməlidir ki, ruha və qəlbə lazım gələn hərarət və nuru bəxş edə bilsin: “Yoxsa ayini-diniyyə quru bir hərf və cansız bir kəlmədən ibarət olub qalar ki, faydasız olan hər şey əbəsdir. “Türk yurdu” cərəyanı intibahi-dini cərəyanları arasında ən mühüm və ən qüvvətli bir cərəyandır. Hətta “İttihad və tərəqqi” firqəsi belə özünün axırıncı ictimaində “Türk yurdu”nun bu nəzəriyyəsini qəbul və bu xüsusi daxili politikasının əsaslarından biri ittixaz eləmişdir”.[378]

O, fikrini inkişaf etdirərək deyirdi ki, Quranın islamı qəbul edən millətlərin dillərinə çevrilməməsi, onları bir qədər milli istiqlaldan da məhrum edib. Ona görə islamın təsiri altında bir sıra millətlər ərəbləşmiş və öz kimliklərini az qala unutmuşdular: “Qurani-Kərimin müxtəlif islam qövmlərinin dillərinə tərcümə edilməməsi, xüsusi ilə ayni-diniyyənin ərəbcə təkəllüm olunması islamiyyəti bir azca milli istiqlala, bilxassə milli dil istiqlalına yardım etmək xassəsindən məhrum eləmişdir. Tədəyyününü ibtidai bir hal ilə yaşamaqda olan bir türk ilə fars bittəb öz dilindən ziyadə ərəbcəyə əhəmiyyət vermişdir. Ərəbcəni müqəddəs sanmış, ona ehtiram etmiş, ona görə öz dilini, yazısını unutmuş, tam ərəbləşmişdir».[379] Bu halın Türk millətinə də təsir göstərdiyinə inanan Rəsulzadə şübhə etmirdi ki, Quran türkcəyə

---

[377] Yenə orada, s.434

[378] Rəsulzadə M.Ə. Əsərləri (1909-1914). II cild. Bakı: Şirvannəşr, 2001, s.291-292

[379] Yenə orada, s.480

tərcümə olunacağı təqdirdə millətin inkişafına xidmət edəcək. Onun fikrincə, Quranın milli dilə tərcümə edilməsi həm də islamın əhali arasında düzgün başa düşülməsinə səbəb ola bilər.

Ancaq dindən öz maraqları üçün istifadə edən bəzi dindarlar Rəsulzadənin islamla bağlı millətin gələcəyinə hesablanmış bu cür ideyaları qəbul etmirdilər. Belə bir şəraitdə xürafatçı, mövhumatçı müsəlmanları qəflət yuxusundan oyatmağa çalışan Rəsulzadə onları kəskin şəkildə tənqid edərək yazırdı: "Müsəlmanam-deyib, oturub baxmaq. Bəli, bir para əhli-maariflərimiz yeri düşəndə köhnə islam mədəniyyəti ilə təfaxür (fəxr) edirlər ki, bu hal alim babası ilə fəxr edən cahil nəvənin gülünc halına bənzər. Zamanımızda millətimizin fəxr eləməli nəyi vardır?.. Bu vaxta bizə lazım və vacibdir ki, himmət edib, elm öyrənməyə və öyrətməyə və öyrətdirməyə səy və kuşiş qılaq. Elmsiz heç bir nöqsanımız götürülməyəcəkdir". [380]

Rəsulzadə müsəlmanın bir yerdə "oturub" qalmasının qatı əleyhinə idi. O, hər bir müsəlmanın Quranın mahiyyətini yaxşı anlamasını, bilməsini, bununlada inkişaf etməsini və cəhalətdən ayılıb öz haqlarını qorumasını vacib sayırdı: "Başqa millətdən olan vətəndaşlarımız kluba bir saat gəlib qumar, şahmat və digər oyunlarla məşğul olursalar da, bir neçə saat dəxi tapıb da öz ana dilində və ya rus dilində olan qəzetlər, jurnallar ilə məğul oulrlar. Öz rəfiqələri ilə millətin, dövlətin, camaatın əhval və məişətindən və zəmanənin başqa mühüm məsələlərindən danışır, mübahisə edirlər. Bu söhbətdən, bu danışıqdan da siniflərinə, cinslərinə xidmət edəcək bir fikir, təsəvvür, aşkar ediyor-əfkarın qovuşmasından həqiqət təvəllüd ediyor. Amma müsəlmanlar isə axşamdan qumara otururlar və sübhi göz ilə görürlər… Millət dərdi bilməz, camaat fikri çəkməz, zəmanə məsələsi qanmaz, klubu fəqət qumarxana fəhm edib, işrət eviədd edirlər".[381]

Məhəmməd Əmin müsəlmanların bu biganəliyinə dözmür, onların başqa xalqların nümayəndələri kimi inkişaf etmələrini,

[380] Rəsulzadə M.Ə. Əsərləri. I cild (1903-1909). Bakı, "Təhsil", 2014, s.22

[381] Yenə orada, s.34

millət üçün çalışmalarını vacib sayırdı. Onun fikrincə, bu işdə dindarlar müsəlman qardaşlarına yardım etmək əvəzinə üstəlik, buna əngəl olurlar. Ona görə də Rəsulzadə bəzi ruhanilərin islama münasibətindən narazı idi. Mollaların camaatın məscid əvəzinə teatra getməsindən şikayətlənməsinə cavab olaraq Rəsulzadə yazırdı: “Mollalar şikayət ediyorlar ki, məscidlərin ağzı bağlanıb teatrolar dolur. Bunun təqsirini yıxırlar teatroçuların üstünə... Məscidlərin boş qalmasının səbəbi teatro deyil, məscidlərdir. Yəni məscid rəisi olan mollalardır”. [382]

Məscidlərin boş qalmasında mollaları ittiham etməkdən çəkinməyən Rəsulzadə islamdan sui-istifadə edilməsinin qəti əleyhinə idi. O, mollaların əməllərinin islamın adına çıxılmasına qəti etirazını bildirir. Bu zaman gözdən düşən yalnız mollalar yox, həm də islam dini olurdu. Çünki, bir çox mollalar məhz islamın adından müxtəlif əməllərdən çıxırdılar. Bu cür dini "oyun"ları Məhəmməd Əmin özünəməxsus şəkildə qələmə alır. Bu baxımdan mütəfəkkirin "Şeytan bağlıdır" məqaləsi çox maraqlıdır. Burada Rəsulzadə dindarların, müsəlmanların islama münasibəti ilə mövcud reallığı göstərməyə çalışırdı. [383] O, böyük bir ustalıqla, incəliklə şeytanın ramazan ayı müddətində əl-qolunun bağlanıb zəncirlənməsinin bir xürafat olduğunu ortaya qoymaq istəyirdi. Ona görə də xüsusi bir diqqətlə fikirlərinə davam edən mütəfəkkir şeytanın bağlandığı yeri axtardığını, çox axtarışdan sonra da məharətlə şeytanın bağlandığı yerin Bakı olduğunu yazırdı. [384]

Rəsulzadə ilkin islamla, dövründəki islam dini arasındakı ziddiyyətlərə də aydınlıq gətirməyə çalışırdı. Belə ki, mütəfəkkir ilkin islamla, dövründə təbliğ edilən islam dini arasında müəyyən fərqlərin olduğunu yazırdı: “Müştərək mərəzin illəti də müştərək olmalıdır. Məntiq böylə hökm edər. Müsəlman qövmləri arasında müştərək illət olan nədir? Bunu fövqəlzikr məqaləmdə qismən tərif etmək sədədiə gəlmiş və yaxın bir təbirlə: “mədəniyyət-

---

[382] Rəsulzadə M.Ə. Əsərləri (1903-1909). I cild, Bakı: Azərnəşr, 1992, s.157
[383] Yenə orada, s.214
[384] Yenə orada, s.215

islamiyyənin şəkli-haziri"-demişdim. İndi bunu izah edəcəyəm: Məlumdur ki, əqvali-islamiyyə miyanında hər şeydən ziyadə müştərək olan tərbiyeyi-diniyyədir. Əcəba, əsbabi-tədənni də bumudur? Bunu təfsir və izah etmədən sabit bir cavab verirsək həm məsələni doğru bir surətdə həll etməmiş, həm də nahaq yerə mütədəyyinlərin hiddətlərinin və əhli-dinin təfkirlərini üzərimizə cəlb etmiş olacağız. Ona görə bir az ətrafınca bəhs etməklə məxsusi bir müqəddimənin təmhiddinə lüzum vardır. Şəkk yoxdur ki, dini-islam bizzat tədənnini mövcib bir din deyildir. Fəqət yenə şəkk yoxdur ki, bu gün dini-islam-deyə tərvic olunan əxlaqi-diniyyə və adati-məzhəbiyyə sədri-islamda mövcud olan təlimatın eyni deyildir. Hər bir dində olduğu kimi islamda da müriri-əyyam ilə bir çox təbəddülat əmələ gəlmiş. İslam ruh və mənəviyyatı ilə tamam-tamamına zidd olan bir çox şeylər vardır ki, islam piruləri tərəfindən dinin birər möhkəm əqanimi kimi qəbula keçmişdir".[385]

Rəsulzadə açıq şəkildə işarə edirdi ki, islamı heç də bütün dindarlar eynilə xalqa çatdırmırlar: "İslamiyyətin içərisinə xaricdən gərək bu kimi yabançı və yad ünsürlərlə nə surətlə ixtilat etdiyini və nə surətlə pozulduğunu iddia və isbat edən fühul-üləma az deyildir. Bu xüsusda xidmətləri səbqət edənlərdən Şeyx Məhəmməd Əbdüh ilə Şeyx Cəmaləddin Əfqani həzrətlərini bir az biliyoram. Şeyx Cəmaləddin Əfqani müsəlmanların tədənnəsini ehkami-islamın düçar olduğu inhitatdan görür və müsəlmanların tərəqqisini isə ancaq bir intibahi-diniyyədə arar. Həm həqiqətən də böylə olmalıdır. Avropa tərəqqiyyatına protestantlığın böyük bir təsiri olmuşdur. Hətta bəzi mütəfəkkirincə ki, Şeyx cənabları da bu zümrəyə ittihad ediyor, Avropa mədəniyyəti-cədidəsinin yeganə müəssiri protetstantlıqdır".[386]

Bununla da, xristianlqıda olduğu kimi, islamlıqda da islahatlar aparılıb islamın ona olunmuş əlavələrdən qurtulmasını vacib hesab edən Rəsulzadə yazırdı ki, Mərakeşdən tutub Buxaraya qədər hər bir islam məmləkətində müsəlmanlar dünyanın "beş gü-

[385] Rəsulzadə M.Ə. Əsərləri (1909-1914). II cild. Bakı: Şirvannəşr, 2001, s.248-249
[386] Yenə orada, s.249

nü"nü də "beş qara gün" kimi verib deyir nə çalışmağa dəyər, nə də zəhmətə: "Məzkur tərbiyə o qədər müfrət bir surət almışdır ki, insan heyrət etməyə bilməz. Necə olmuş ki, tək-tək şəxslərə rəhbaniyyət və tərkidünyalığı rəva görməyən bir dinin sakinləri bu qədər dünya düşməni oluyorlar və həyatı bu dərəcədə təqbih ediyorlar. Biz müsəlmanlar, bizə öyrədilən "müsəlman tərbiyəsin"ə sadiq qaldıqca dünya işlərində müvəffəq ola bilməmiz mümkün deyil. Çünki dünyanı və onun həyatını sevmiyoruz, onda bir gözəllik görmüyoruz. Dünya bizcə bir cifədir, içərisi pisliklə dolu zərrin bir sandıqdır. Biz böylə düşünəcək, bittəb, sevmədiyimiz bir şeyi mənimsəmirik də, mənimsəmədikcə onun abadlığına, tərəqqisinə də xidmət etmərik. Çünki xidmətimiz öz fikrimiz və etiqadımızla bir təzad təşkil edər. Bir millətin əksəriyyəti dünyanın bir "cifteyi-napakdan" ibarət olduğuna qane olur isə, öylə bir millətin dünya üstündə vaqe olan mübarizələri də məğlub düşəcəkləri mühəqqəq deyilmidir?".[387]

Rəsulzadəyə görə əgər dində bu cür cahillik olarsa, bu həmin dini qəbul etmiş millətə də öz təsirini göstərəcək. Mütəfəkkir bu cür "müsəlman tərbiyəsin"dən uzaqlaşmağı tövsiyə edir. Onun fikrincə, əgər hər hansı bir millət dünyanı beş günlük sayıb, bu cür "tərbiyədən" uzaq olmayacaqsa məğlubiyyətə uğrayacaq: "Əlbəttə böylədir: təsəvvür ediniz, bir tərəfdən həyata əhəmiyyət verməyən və dünyanı beş qəpiyə almaq istəməyən bir camaatı ki, gözəl bir yerdə sakindir. Fəqət öz həyatlarına əhəmiyyət vermədiklərindən aralarında müxtəlif azarlar tövlid olunuyor, ölüyorlar və gündən-günə azalıyorlar, yerlərinə də heyfləri gəlmiyor. Ona görə o da bərbad və xaraba bayır və batil bir halda qalıyor. Halbuki digər tərəfdə dünyaya dörd əli ilə sarılan və həyatdan, onun gözəlliyindən zövq alan digər bir millət vardır ki, gündən- günə təvəllüd və tənasül ediyor, artır, məişətini, həyatını gözəlləndiryor, oturduğu yeri abad ediyor. Ehtiyacat o qədər artıyor ki, artıq özü oturduğu yer ona kifayət etmiyor. Bu

[387] Yenə orada, s.250

iki qonşunu halı necə ola bilər? Əgər ikincisi gələr də birincinə deyərsə ki, qalx burdan mən oturacağam, o ona nə cavab verər? Ehtimal ki, bəşərə məxsus bir hisslə məzkur təklifə razı olmaz, müqabilə edər. Fəqət tərbiyəsi icabi məğul olar gedər. Çünki insan sevmədiyi bir şey üçün fədakar olmaz. Fədəkar olmayınca müvəffəqiyyət və qələbəyə də nail olmaz. Necə ki, görülüyor, böylə də olmaqdadır".[388]

Ona görə, islam heç vaxt insanlara tərkidünyalıq, dünya düşmənliyi aşılamadığı halda, riyakar ruhanilərin din adından əhaliyə öyrətdikləri bu kimi yanlış əməllər vardır. O, yazırdı: "Din naminə bizə öyrədilən və mövcibi-tədənni olan əsaslar çoxdur. Onlardan biri, bəlkə də birincisi də bu dünya düşmənliyidir. Halbuki əsl dini-islam heç bir zaman dünyanı düşmən tutun -deyə əmr etmiyor. Əksinə, islamiyyəti ciddi surətdə tədqiq edən mühərrirlər dünyanın və dünyardarlığın ləhində bir çox əvamir tapıyor və yazıyorlar ki, insan bu qədər həqiqətlərin vücudu ilə dinimizin bizə ancaq dünya düşməni şəklində öyrədilməsinə heyrət edər, heyrət!".[389]

**İslami sosializm və dini intibah məsələləri.** İslama özünməxsus bir münasibət bəsləyən Rəsulzadəni həmyaşıdlarından, başqa insanlardan fərqləndirən əsas cəhət bu dinə fanatikcəsinə deyil, mövcud gerçəkliklərə, şəraitə uyğun şəkildə yanaşması idi. Gənc yaşlarında sosial-demokrat olmasına baxmayaraq, M.Ə.Rəsulzadə nəinki islam dinini rədd edir, hətta islamiyyət üzrə birliyi vacib saymış və islami sosializminin tərəfdarı kimi çıxış edir. "Hümmət" qəzeti üçün şüar kimi götürdüyü "Hümmətür-rical təqləül-cibal" ("kişilərin himməti dağları qoparar") atalar sözünün izahına həsr etdiyi eyni adlı məqalədə Rəsulzadə yazırdı: "Hər bir şeyin qüvvəti birlikdədir. Birlik isə yalnız "mən sənə yoldaşam" - deyib təsəlli verməklə olmaz. Bu, dildə deyilən sözü əməl ilə də göstərməlidir. Bir neçə şəxsin arasında ittihad həmfikirlilik, həmməsləklik ilə olur...

[388] Yenə orada, s.250
[389] Yenə orada, s.250-251

Məsələn biz cavanların biri millətpərəst, o biri demokrat, üçüncüsü ətiqpərəst, dördüncüsü cədidpərəst olub da, bu cür dəstə-dəstə olmaqda, hərəmiz özünə məxsus bir yol götürüb, müəyyən bir məslək ilə getməkdən hamımız tək-tək tələf olarıq və heç birimizin əli öz muradına çatmaz…. İndi yoldaşlar! Hərəmiz bir güncdə bir xüsusi cəmiyyət qayırıb da müxtəlif yollar ilə getməkdənsə birləşməli, öz fikir və fellərimizdən bir-birimizi hali etməliyik. Millətpərəstlik bizə yararsa, hamımız millətpərəst, demokratlıq yararsa, hamımız demokrat və qeyri bir yarar məslək üzrə olub, sözü və işi bir olan iş görək. Bəndəyə qalır isə hər bir dəstədən olursa olar, ancaq islamiyyət üzrə olaq. İslamiyyətdən kənara çıxsaq fəlakət bizi gözləyir. İslam bizə rahi-nicatdır - desəm eyni savabdayam. Nə sosializmin, nə də demokratizmin ümdə əqidələri islam ilə müxalif deyil. Bəlkə şarəyei-müqəddəsi-islam qoyduğu qəvaidlə eyni mütabiqətdə və müvafiqətdədir. Zəkat, fitrə və qeyrə sədəqlər vacibi-sünnəti materializm deyil də nədir? Bərəkət cəmaətlikdədir. Ümur cümhuri-şura ilə görülməlidir - kəlamları demokratizmi icab etməzmi? Xülasə, yenə də təkrar edirəm, hər nə olmalıyız, olaq. Fəqət islamiyyət üzrə olaq ki, bu eyni insaniyyətdir”. [390]

Millətin mənafeyinə zidd olmadan hər hansı bir cərəyanla əməkdaşlığı mümkün sayan Rəsulzadə, bu baxımdan islami dəyərlərlə marksizm arasında oxşarlıqlar olduğunu sübut etmək istəyirdi. O, ətrafındakıları inandırmağa çalışırdı ki, İslam müxtəlif əqidəli insanları bir-birindən ayırmır, əksinə birləşdirir. Bir sözlə, o, sosial-demokratizm kimi, İslamın da mərkəzində ictimaiyyətin, yəni ictimai bərabərliyin, sosial ədalətin öndə olduğunu yazırdı.

Onun fikrincə, müsəlmanların cəhalətinin kökündə dini yaxşı bilməməyimiz və onun ictimaiyyətlə bağlığndan düzgün nəticə çıxarmamağımız dayanır: "Adımızı müsəlman qoyuruz, lakin islamiyyətin tarixindən, nə üsulundan, nə füruindən və nə də müəhəssənatından xəbərimiz yoxdur. İslamiyyət, hürriyyət - məhz

[390] Rəsulzadə M.Ə. Əsərləri. I cild (1903-1909). Bakı, “Təhsil”, 2014, s.25-26

bir olub, hər bir əsası ictimaiyyət üzrə bina olunduğu bir zamanda biz istibdadpərəst oluruz. Quran bizə "və şavirhum fi-l-əmri" (hər iş barəsində onlarla məsləhətləşin) buyurduqda, biz üsuli keyfəma yəşau dalınca gediriz".[391]

O, islamı insanların azadlığına, hürriyyətə qovuşmasına səbəb olan mühüm bir amil kimi qeyd etmişdir. M.Ə.Rəsulzadə islamın hürriyyətə zidd deyil, əksinə onun fövqündə dayandığını göstərmişdir: "Cəmi taifələr dinimizin üsullarından olan hürriyyət və ittihad-beynəlmiləli ararkən bizlər istibdad və nifaqı axtarıyoruz. Müsəlmanlar! Bəsdir bu qədər özümüzdən bixəbər qaldığımız! Bəsdir dinimizə olan kəmetiqadlığımız, dinimizə diyoram-dinimizə, o dinə ki, onun cümlə üsulu və ərkani ictimaiyyət, məhz və məhz ictimaiyyətdir".[392]

Ona görə də Rəsulzadənin islamın mərkəzində ictimaiyyətin dayandığını önə çəkməsi təsadüfi deyil. Sosial məsələnin mərkəzində də məhz ictimaiyyət, yəni ictimai bərabərlik, sosial sosial ədalət dayanır. Eynilə islam dinində də cəmiyyətin bərabər yaşamaq hüququ, bir nəfərin digəri üzərində ağalığının olmaması qeyd edilir. Bu baxımdan Rəsulzadə islama fanatcasına yanaşanları tənqid edərək ona olduğu kimi dəyər verilməsini tələb edirdi. O, bu prinsiplərdən birinin başqasına nisbətdə nə şişirdilməsinin, nə də rolunu azaldılmasının tərfdarıdır. Rəsulzadənin məqsədi birdir: hər iki ideyanın bir-biri ilə uzlaşan tərəflərini ortaya qoymaq və bundan cəmiyyətin mənafeyi üçün istifadə etmək.

Onun fikrincə, sadəcə burada əsas məsələ Avropada olduğu kimi, islam dünyasında da intibaha ehtiyacın olduğunu ortaya qoymaqdır. Yalnız bu halda islam dininin daha da inkişaf edəcəyinə inanan Rəsulzadə C.Əfqani kimi buna misal olaraq orta əsrlər Avropası ilə, müasir Avropanı göstərir: "Mərhum Şeyx Cəmaləddin Əfqani həzrətlərindən müsəlmanların fəlahı nəylə bağlıdır-deyə sormuşlar. O, "bir intibahi-diniyyəyə"- deyə cavab vermişdir. İntibahi-dini lüzumuna qail olan bu böyük siyasi

---

[391] Rəsulzadə M.Ə. Əsərləri (1903-1909). I cild, Bakı: Azərnəşr, 1992, s.62

[392] Yenə orada, s.62

avropalının məbədi-tərəqqisini "Lüter"in zühurunda görüyor və islam aləmini tədənnindən qurtarmaq üçün də mütləq islahi-dini yolunda bir hərəkətə lüzum vardır- diyormuş. Şeyxin bu mütaliəsini keçən sənə Misirdə nəşr olunan ərəbcə qəzetlərdən birində görmüş, mərhumun nüfuzu-nəzərinə heyran qalmışdım. Həqiqətən böylədir. "Lüter"dən qabaqkı, Avropa nə idi? Papaların bütün xristianlıq aləminə hökmran olan dəmləri xatirə gətiriniz, inkivizision məhkəmələri insanın ağlını heçə endiriyor, onun üçün bir növ hürriyyət təsəvvür etmiyordu. Din əsaslarına istinad etməyin ağlın, bilcümlə ixtiraları "küfr" idi. Bizim mollalar təəqqül edənləri yaxşıdır ki, cəhənnəmdə yandırıyorlar. Roma papaları bu əzabi-ələmi heç də nisyə qoymazlardı, onların cəhənnəmləri nağd idi. Nisyə satdıqları şey yalnız behşit idi". [393]

Vaxtilə dini məsələlərdə Avropanın Şərqdən daha ağır durumda olduğunu önə çəkən Rəsulzadə yazırdı ki, bu səbəbdən də müsəlman olan türklər ən böyük xristian dövləti olan Bizansı yıxmağı bacarmışlar.[394] Onun fikrincə, bütün bunlara baxmayaraq çox keçmədən xristianlıqda baş verən intibahlar Avropanın tərəqqisinə səbəb olub: "Xristianlığın ağıl üzərinə necə hakim olduğunu bir az düşünə bilmək üçün hər coğrafiya oxumuş və hər tarix görmüş şəxsən bildiyi Qaliley vəqəəsini zikr etmək kafirdir. Qaliley kimi cəsur və fədakar alimlərin səbat və qəhrəmanlıqları sayəsində katoliklik əleyhinə əfkarı-ümumiyyədə bir cərəyan hasil oldu. Bu cərəyan nəticəsində təəssübdən uzaqlaşaraq ağıla öz mövqe və iqtidarını təmin edən prostentantlıq müəssisəsi "Lüter" meydana çıxdı. Bir çox xunrizliklərdən sonra katolikliyin soleti sındı. Avropanın dövri-tərəqqi və təkamülü başladı".[395]

Bu intibahın islam dinində baş verməsini zəruri hesab edən M.Ə.Rəsulzadə deyir ki, müsəlmanların da "Lüter"ə ehtiyacı var: "İslamda ağlın mühüm bir mövqeyi vardır. Fəqət bugünkü dini tələqqiyatımızda isə məətəəssüf o mövqe bir çox alçaqlanmış,

---

[393] Rəsulzadə M.Ə. Əsərləri. II cild (1909-1914). Bakı, "Təhsil", 2014, s.286-287

[394] Yenə orada, s.287

[395] Yenə orada, s.287

köçülmüş, dairəsi məhdud olmuşdur. Doğru, bizdəkilər Roma papaları qədər təhəkkümə çıxmamışlarsa da hər halda məaşə aid olan hər bir məsələni şərə tətbiq etmək istəməkdən də geri qalmamışlardır. İslamiyyətin indiki hali islah olunmaq üçün bir "Lüter"ə ehtiyac varmıdır? Buna Bahadır müsbət bir cavab veriyor. Nəriman bəyin qəhrəmanınca - demək ki, Nərimanbəyin də fikrincə - islam aləmi indi öz Lüterini gözlləməkdədir və bu Lüter gəlməyincə də müsəlmanlar tədənnində qalacaqlar". [396]

Rəsulzadəyə görə, xristianlıq İstanbulu itirərkən Qərbdə dini islahatlar qovğaları hazırlandığı kimi, indi də İstanbulun müsəlmanlar əlindəki mövqeyi sarsıldığı zaman Şərqdə eyni islahatların başlaması yaxşı haldır. "Allah eləsin ki, süquti xristian aləminin məbədi-tərəqqisinə müsadif olan İstanbulun bu dəfəki tənəzzülü də müsəlman aləminin məbədi-tərəqqi və intibahi olmaqla təlafi olsun…"-[397] deyən, Rəsulzadənin fikrincə, dinin əsas iki cəbhəsi var ki, biri dəyişməz, digəri isə dəyişəndir: "Məlumdur ki, dinimizin iki cəbhəsi vardır: ibadət və müamilat. Birinci qism bəndə ilə bəndələrə məxsusdur. Birinci qism sabitdir. La yövm əl-qiyamə baqidir. Təğiriyyata uğrayamaz. İkinci qism isə biləks bir şəkil halda qala bilməz. Təfsir və zamanın iqtizasına görə təfyir və təbdil oluna bilər". [398]

Rəsulzadə təəssüflə yazırdı ki, müsəlman aləmini bərbad edən ən böyük illətlərdən biri də yeni fikirləri eşitməyə təhəmmül etməməsidir: "Bizdə təzə bir fikir meydana qoyuldumu, haman arı yuvasına çöp uzadılan kimi hamı yerindən qalxar, hay qoymayın-deyə küy qopar. Bu dinə xilaf oldu, o mövcud olan əsaslarla müqabil çıxdı. O biri kafir oldu, digəri bilməm nə oldu - deyə hücum olunar. Nəticədə isə zərər çıxaran həqiqət olar ki, bunun sonunda həqiqətdən məhrum qalan camaət cəzasını çəkər. Halbuki fikirlərin müsadiməsi həqiqət bariqəsini doğurar". [399] O, bu cür geriliyin

---

[396] Yenə orada, s.287
[397] Yenə orada, s.289
[398] Yenə orada, s.356
[399] Yenə orada, s.356

hər bir millətə zərər verdiyini deyirdi: "Xalqa qalanda budur ki, həqiqəti eşitmək və ehtiyaclarının həqiqi çarəsini öyrənə bilmək üçün bəyan olunan fikirləri mətanət və etidalla dinləsin. Fikir ərbabına hürriyyət-tamə təmin eləsin". [400]

Rəsulzadə islamda fikir azadlığının olmasını mühüm sayaraq islamdakı durğunluğun aradan qaldırılmasını vacibliyini yazırdı: "Cari vəsilələr ilə müdafiələrini mümkün görməyənlər həmişə qalibiyyəti möcüzələr və xarüqələrdən gözləmişlərdir. İslamda dəxi hikmət və elm etiqada mərbut qaldığından hərəkətsiz və atil qalmışdır. Fikir hürriyyəti ilə fikir fəaliyyəti lüzumsuz görünmüşdür. Bu səbəblə də islam aləmi ətalət və durğunluq keçirməyə məcbur olmuşdur".[401]

O, islamda hürriyyətin, azadlığın böyük yeri olduğu halda, dindən başqa məqsədlər üçün istifadə edənlərə etirazını bildirirdi. Rəsulzadə qeyd edirdi ki, bundan bütün müsəlman millətləri zərər çəkir: "Aydındır ki, din bir məslək sahibi olanlar arasında mənəvi, ruhi və əxlaqi birlik yaradır və xüsusən də islam dini ki, Qərb müsəlmanlarını Şərq müsəlmanlarına tapşırıb deyir: "Möminlər biri-birilə qardaşdırlar". Müsəlmanlar arasında olan birlik də yalnız İran müsəlmanlarına məxsus deyil. Dünyanın 300 milyon müsəlmanları arasında bu birlik var və olmalıdır. Əgər kimsə bütün müəslmanların hətərəfli birliyini, yəni siyasi, ictimai və iqtisdai birliyini yalnız din birliyi hesab edirsə, onun bu gümanı boş və mənasız deyilmi?". [402]

X.İbrahimli və R.Zeynalov yazırlar ki, bu zaman "Rəsulzadə mütləq bir dövlətdən yox, bir ittifaqdan danışır.[403] Rəsulzadə özü də yazırdı ki, "müsəlmanlar arasında bütün müsəlmanları bir məkanda birləşdirən "İttihadi-islam" ola bilməz. "İttihadi-islam" ("İslam birliyi") mümkün olmayacaq bir xəyal, utopiyadır".[404]

[400] Yenə orada, s.358
[401] Yenə orada, s.444
[402] Yenə orada, s.104
[403] İbrahimli X., Zeynalov R. Müsavat Partiyasının 1920-ci 27 aprel istilasından sonra fəaliyyəti tarixindən // Müsavat, Bakı, 1993, №1(5), s.8
[404] Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu... Bakı: Gənclik, 1991, s.8

Rəsulzadə dinin siyasətdə rolunu isə belə dəyərləndirir: "Din və məzhəbi tamamilə siyasətdən ayırırlar. Lakin dini siyasətdən ayırmaq dindarları təzyiq altında saxlamaq demək deyildir. Əksinə, onlar ciddi surtədə dinin və vicdan azadlığının tərəfdarıdırlar. Keşişlər və papalar daima dini kütələləri aldatmaq vasitəsinə və xristanlığı imtiyazlı siniflərin fikirlərinin icraçısına çevirdikləri üçün onlar ruhanilərlə xüsusi düşmənçilik edirlər". [405] Onun fikrincə, siyasətdə də dindən sui-istifadə edənlər var. Bu baxımdan din adı altında aldadıcı adlar daşıyan partiyalardan həmişə qoruxduğunu deyən Rəsulzadə yazırdı: "Hamıya aydın olduğu kimi İran və Osmanlı inqilablarında bu fırıldaqçılar öz məqsədlərini həyata keçirmək üçün müqəddəs islam fikirindən istifadə etmək istəyirdilər. Hər iki müsəlman ölkəsində təbiidir ki, əhalinin əsas diqqəti dinə yönəldilmiş və burada siyasi-ictimai inkişaf Avropada olduğu qədər hələ lazımi səviyyəyə çatmadığı üçün fırıldaqçılar Məhəmməd peyğəmbərin aydın qanununa yalançı maddə əlavə edib Təbrizdə "İslamiyyə" və İstanbulda "Məhəmmədiyyə" adları altında fəsad mərkəzləri təşkil etdilər".[406]

XX əsrin əvvəllərindən etibarən islamlığa münasibətdə iki əsas məsələ özünü qabarıq surətdə büruzə vermişdir. Bunlardan birincisi, "İslam biriliyi" ideyasını əxlaqi-mənəvi dəyər kimi qəbul edib, onu milliliklə paralel şəkildə aparmaqdır. Yəni millilik və islamlığı bir-birindən fərqləndirərək onlar arasındakı oxşar və fərqli cəhətləri görməyi bacarmaqla yanaşı, istənilən halda onların sintezindən çıxış etməkdir. Din ideyasına münasibətdə ikinci önəmli məsələ, ondan siyasi ideologiya kimi istifadə olunmasıdır. Yəni bəzi millətlər, xüsusilə İslam Şərqinə aid bir çox xalqlar (ərəblər, farslar və b.) var ki, müstəqil varlıqlarına görə, ilk növbədə din faktoruna borcludurlar. Ancaq bu o demək deyil ki, bu ölkələrdə millilik faktoru nəzərə alınmır. Sadəcə, müsəlman inanclı bəzi millətlər, o cümlədən ərəblər, farslar və başqaları bir çox səbəblərə görə "İslam birliyi" ideyasını dövlətin rəsmi ideyası

---

[405] Qurbanov Ş. Məmməd Əmin Rəsulzadə. Bakı: Nurlan, 2001, s.96
[406] Rəsulzadə M.Ə. Əsərləri. II cild (1909-1914). Bakı, "Təhsil", 2014, s.95

kimi qəbul etsələr də, faktiki olaraq millilikdən – panərəbizmdən, panfarsizmdən çıxış edirlər. Ona görə də bu xalqlarda din ideyasının millilikdən üstünlüyü nisbi xarakter daşıyır.

XX əsrin əvvəllərində Quzey Azərbaycanda da dinə münasibətdə hər iki hal özünü büruzə vermişdir. Əgər nəzərə alsaq ki, islamçılıq bir ideoloji təlim kimi XIX əsrin sonlarında bütün İslam-Türk dünyasında geniş yayılmışdı, bütün əksər türk xalqları kimi Azərbaycan türklərinin də həyatında onun əhəmiyyəti başa düşüləndir. Bu baxımdan Milli Azadlıq hərəkatının inkişafında yeni bir dönəmə daxil olan Azərbaycan türklərinin, onların aydınlarının əksəriyyətinin də, ilk olaraq "İslam birliyi" ideyasına müraciət etmələri təbii idi. M.Ə.Rəsulzadə doğru yazırdı ki, Quzey Azərbaycan türkləri arasında başlanğıcda milli oyanış dini çərçivədə olmuş, dinin elmə zidd olmaması kimi mülahizələr irəli sürülmüş, bu mənada, XIX əsrdə Qafqaz türkləri milli varlıq kimi özünü hələ göstərə bilməmiş, daha çox ümmətçilik mənasında din və məzhəbçiliyə meyil etmişdir.[407]

Belə olduğu təqdirdə də, milli ziyalılar belə "panislamist" adıyla tanınmışdır. M.Ə.Rəsulzadənin təbrincə desək, bu dövrdə "milliyyətpərvərliyin ən addı-sanlı mürşidləri, başda Ağaoğlu Əhməd bəy olmaqla, islamçılıqla türkçülüyü çox da ayırmır, türklük namına deyil, müsəlmanlıq namına mübarizə aparırdılar. Topşubaşovların, Rəşid Qazilərin və İsmayıl bəy Qaspıralıların iştirakı Rusiya türklüyündə vücud bulan siyasi təşəkkülün adı "İttifaqi-müslimin" idi. Rus mətbuatı 1918-ci ilə qədər rus türkçülüyündən deyil, daima rus müsəlmançılığından bəhs edərdi. Milli hərəkatımızın adı "panislamizm" idi. Bu yalnız rusların xətası deyildi. Özümüz də islamiyyəti milliyyət məfhumu yerində işlədirdik. Bizə verilən anket vərəqələrinin "miliyyət" cədvəlinə "müsəlman" yazırdıq".[408]

Fikrimizcə, "panislamistlər" kimi ümumi bir ad altında verilən milli və mütərəqqi ziyalıları, əsasən keçmişi ideallaşdıran, hər

---

[407] Rəsulzadə M.Ə. Qafqaz türkləri. Bakı, Təknur, 2012, s.42

[454] Rəsulzadə M.Ə. İstiqlal məfkurəsi və gənclik// «Azadlıq» qəz., 1990, 31 dekabr

cür yeniliyə qarşı olan mühafizəkarlardan, ya da "ittihadçılar"dan hökmən fərqləndirmək lazımdır. Bu baxımdan M.Ə.Rəsulzadənin vaxtilə islamçılıq daxilindəki həmin ikiləşməni görməsi və qeyd etməsi çox zəruridir: "İslam bilginlərinin çoxu müsəlman dünyasını son çöküşdən bir yandan dinin köklü doqmalarına qayıtmaqla, o biri yandan da müsəlmanların siyasi birləşməsilə qorumağı düşünürdülər. Ancaq islamçılıq ideologiyasının bu dini-siyasi ikiüzlülüyü sonralar panislamizmdə iki axının ayrılmasının başlanğıcı oldu. Bir axın, xarici güclərlə savaşan, ancaq o gücləri andıran hər bir yeniləşməyə də qarşı çıxıb, hər hansı avropaçılığa savaş deyən ortodoksal – tutucu axındır. Yenidənqurucu, ikinci axın isə Avropa saldırısı ilə siyasi savaşmaqla ideologiya alanında çağın liberalizmini şəriətə uyğun uyğulamaq istəyirdi". [409]

Göründüyü kimi, böyük mütəfəkkirimiz islam dininə baxışda çağdaş və sağlam bir mövqedə dayanmışdır. Şübhəsiz ki, onun islama olan bu münasibəti Azərbaycan xalqının mənəvi ideologiyasından irəli gəlir. Rəsulzadənin islam dininə bu cür münasibəti də məhz xalqımızın mənəvi ideologiyasından qaynaqlanır. Mütəfəkkir hər bir millətin taleyində dinin böyük rol oynadığını düzgün göstərir. Millətin, dövlətçiliyin formalaşmasında dinin mühüm mövqe tutduğunu Rəsulzadə əsərlərində dəfələrlə qeyd etmişdir. O, dini çox yüksək qiymətləndiərək dini satan şəxsi, vicdanını satan adam kimi dəyərləndirmişdir. İslamın mütərəqqi bir din olduğunu göstərən mütəfəkkiri zamanında nə sosial-demokratlar, nə milliyyətçilər, nə də ki, sol ideyaların müsbət cəhətlərini göstərdiyi üçün radikal islamçılar qəbul edirdilər.

Öncə islamı sosial-demokratik dəyərlərlə uzlaşdırmağa çalışan, sonralar bunu milli demokratiya çərçivəsində inkişaf etdirən mütəfəkkir hesab edirdi ki, demokratik, konstitusiyalı dövlətdə din siyasətdən kənarda olmalıdır. Nəzərə almalıyıq ki, Azərbaycan Respublikasının Konstitusiyasına görə də, din

[409] Rəsulzadə M.Ə. Panturanizm. Qafqaz sorunu. Bakı, Təknur, 2012, s.44

siyasətə, dövlətin işinə qarışmır. Bu baxımdan Rəsulzadənin dini siyasətindəki uzaqgörənliyi göz qabağındadır.

İslama münasibətdə həmişə dəyişməz və sabit mövqe nümayiş etdirən Rəsulzadənin dində intibahın tərəfdarı kimi çıxış etməsi də təbiidir. Çünki dində durğunluq olanda, cəhalətin təsiri altında qalanda, millətin xeyrinə deyil, zərərinə işləyir. Rəsulzadə həmişə islam dininin müsəlman xalqlarının həyatında oynadığı yeri və rolu düzgün qiymətləndirib. Ona görə də bu gün Azərbaycan Respublikasının əlamətlərindən biri olan üç rəngli bayrağımızda islamçılıq öz əksini tapır. Bu, məhz Rəsulzadə ideyalarının praktiki nəticəsidir. Rəsulzadənin banisi olduğu Azərbaycan Cümhuriyyətinin bayrağında özünə yer tapmış islamçılıq ideyası, bu günün özündə də aktuallığını qoruyub saxlayır. Bütün yaradıcılığı boyu islam dininin mütərəqqiliyini irəli sürən Rəsulzadə azərbaycanlıların-Azərbaycan türklərinin dini dəyərlərinin nəzərə alınmasını vacib saymaqla yanaşı, onun Türk aləmində tutduğu mövqeyi doğru təyin etmişdir.

*Nə mütləq liberalizm, nə də mütləq kollektivizm!*
*O halda: İkisini təlif edən solidarizm = təsanüd*
**M.Ə.Rəsulzadə**

# III FƏSİL

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ MİLLİ HƏMRƏYLİK TƏLİMİNİN BANİSİ KİMİ

## 3.1. Solidarizm cərəyanının yaranması səbəbləri, fəlsəfi mahiyyəti və istiqamətləri

XX əsrin əvvəllərindən, özəlliklə birinci Dünya müharibəsindən sonra əsasən, belə bir müddəa mövcuddur ki, ən yüksək sivilizasiya Avropa-Qərb mədəniyyəti, ya da Qərb sivilizasiyasıdır. Qərb sivilizasiyasının inkişafının başlıca amilləri kimi də: 1) liberal-demokratiya; 2) demokratiya göstərilir. Bizcə, Qərb sivilizasiyasının əsil mahiyyəti bu iki amildə olmasıyla yanaşı, marksizmi ya da sosial-demokratiyanı da göz ardı edə bilmərik. Əslində, özəlliklə son bir əsrdə Türk dünyasına da ciddi şəkildə təsir edən liberal-demokratiya və sosial-demokratiya Qərb sivilizasiyasının varlığının iki əsas təməl prinsipidir. Əgər bu gün liberal-demokratiya daha çox önə çəkilirsə, bu heç də sosial-demokratiyanın öz əhəmiyyətini itirməsi demək deyildir.

**Liberalizmin fərdiyyətçiliyi və sosial-demokratiyanın kollektivçiliyi.** Bizcə, liberalizm və sosial-demokratizmdə əsas məsələ maddiçilikdir. Sadəcə, liberal-demokratiyada fərdin maddiçiliyi və azadlığı, sosial-demokratizmdə isə ümuminin maddiçiliyi və sosial bərabərliyi ön plandadır. Şübhəsiz, istər fərdin, istərsə də ümuminin maddiyyatçı maraqlarının təmin edilməsi baxımından Qərbin hər iki ideyasının cəlbediciliyi danılmazdır. Bu anlamda həmin ideyaların ilk növbədə, Xristianlığın axirətdə vəd etdiyi "cənnət ideyası"nın aradan qalxmasına, bu dünyanın özündəki praqmatist, maddiyyatçı gerçək cənnətin

yaranmasına səbəb olması da başa düşüləndir. Çünki insanların əksəriyyəti bu dünyada zülmlərə qatılaşıb mənəvi anlamda axirətdəki cənnəti gözləmək, arzulamaq deyil, obyektiv aləmdə maddiyyatçı fəlsəfəylə gerçək cənnəti yaşamaq daha məntiqlidir. Deməli, burada önəmli olan fərdin-təkin ya da ümuminin-cəmiyyətin maddiyyatçı ya da mənəviyyatçı fəlsəfə ilə yaşamasıdır.

Demək olar ki, Avropa xalqları Xristian sxolastikasının təzyiqi altında təxminən min ildən bir qədər çox "mənəviyyatçı fəlsəfə" ilə yaşamağa məcbur edilmişdir. Orta çağ Avropasını idarə edən məmurlarla din xadimləri də "mənəviyyatçı fəlsəfə"ni, yəni Xristian sxolastikasını əldə rəhbər tutaraq digər istənilən ideyaya qarşı amansız olmuşlar. Ancaq onlar, yəni məmurlarla din xadimlərinin əksəriyyəti "mənəviyyatçı fəlsəfə"nin tərəfdarı, hətta əsas təbliğatçıları olmalarına baxmayaraq, reallıqda buna zahirən əməl edərək, özləri obyektiv aləmdə sözün həqiqi mənasında madiyyatçı fəlsəfə yolunu tutmuşlar. Bir çox hallarda əksər məmurlarla din xadimlərinin sözləri ilə əməllərinin üst-üstə düşməməsi üsyanlara, inqilablara yol açmışdır. Şübhəsiz, bu inqilablar mənəviyyatçı fəlsəfəylə madiyyatçı fəlsəfənin əsil mahiyyətinin bu və ya digər formada aşkara çıxarılmasında mühüm rol oynamışdır. Ən əsası odur ki, 15-16-cı əsrlərdən başlayaraq Orta çağ Xristian sxolastikasında mövcud olan mənəviyyatçı fəlsəfə ilə madiyyatçı fəlsəfə anlayışları yeni məna kəsb etmişdir.

Avropa aydınları "mənəviyyatçı fəlsəfə"yə qarşı "madiyyatçı fəlsəfə"ni irəli sürməyə başladılar. "Maddiyyatçı fəlsəfə"də iki önəmli məsələ öz əksini tapırdı: 1) liberal-demokratiya; 2) sosial-demokratiya.

Hələ, Yunan-Roma mədəniyyətindən bu məsələlərdə bəlli təcrübəsi olan Avropa ziyalıları onlar arasında üstünlüyü liberal-demokratiyaya verirdilər. Buna başlıca səbəb fərdin azadlığının təmin edilməsinin, ümumiylə müqayisədə daha əlverişli olması idi. Ona görə də, Qərb mədəniyyətinin yaranması və təşəkkülü dövründə onların açısından liberal-demokratiya uğurlu seçim idi.

Əlbəttə, biz də razılaşırıq ki, hər bir cəmiyyətin tənəzzülündə və inkişafında iki başlıca: maddi və mənəvi amillər mühüm rol oynayır. Bizcə, maddi problemlər cəmiyyətin tənəzzülündə mühüm yerə malik olsa da, ancaq həlledici deyildir. Maddi problemlər cəmiyyəti daha çox fiziki mənada sınağa çəkir. Zənnimizcə, cəmiyyət üzvləri hansı mənada razılaşmasından asılı olmayaraq, maddi problemlərlə aşağı-yuxarı baş edə bilirlər. Hətta, cəmiyyətin əksəriyyəti maddi durumdan dolayı inqilabi dəyişikliklər, sıçrayışlar etmək niyyətinə düşürsə istənlən halda nəticə müsbət olmayacaqdır. Çünki maddi durumunu yaxşılaşdırmaq naminə üsyan edənlər qalib gələcəkləri təqdirdə çox keçmədən məğlub etdiklərinin əməllərini təkrarlamalı olacaqlar.

Buna bariz örnək kimi çar Rusiyasının yerində yaranan sovet Rusiyasını göstərə bilərik. Rus-bolşevik inqilabında əsas yeri maddi nemətlərin bölüşdürülməsi, ictimai mülkiyyət tuturdu ki, son nəticədə bunun gerçəkləşməsi mexanizmi havadan asılı vəziyyətdə qaldı. Dünənki yoxsul bolşevik ağa bolşevik oldu. Bunun əsas səbəbi nə maddi sərvətlərin hansı formada insanlar arasında bərabər bölüşdürülməsi, yaxud da onların hansı formada ictimai mülkiyyət hesab olunması, nə də ictimai mülkiyyətlə xüsusi mülkiyyət arasında seçim etməklə bağlı olmamışdır. Burada əsas problem cəmiyyətin tənəzüllünün maddi köklərini düzgün göstərilməməsi və nicat yolunun da yalnız maddi problemlərin həllində axtarılması ilə bağlı idi. Bu mənada rus-bolşevik inqilabında rupor rolunu oynayan marksizm-leninizm ideolojisi özünü doğrultmadı. Ancaq onu da bilməliyik ki, marksizm Qərb ideyalarından irəli gələn iki sınaqdan biri idi.

Avropa ideoloqları cəmiyyətin tənəzzülü və yenidən dirçəlişi məsələsində mənəvi məsələləri ümuminin-cəmiyyətin həyatında ikinci yerə keçirməklə maddiyyat üzərində qurulmuş bir ideolojinin gerçək həyatda nə ilə nəticələnəcəyini maraq edirdilər. Bunun üçün ən yaxşı variant Rusiya idi. Birincisi, Rusiya Avropadan kənarda idi, hardasa Avropa sayılmırdı da. İkincisi, Rusiya çoxmillətli idi, bu mənada da çoxmədəniyyətli və

çoxdinli idi. Üçüncüsü, Rusiya feodalizmdən kapitalizmə keçməmişdir, ya da yarımçıq vəziyyətdə keçmişdi. Yəni cəmiyyət üçün önəmli olan maddi problemin xüsusi, yoxsa ictimai xarakterli olması məsələsində Rusiya iki yol ayrıcında idi. Avropa özü xüsusi mülkiyəti seçdiyi üçün, Rusiyanı da ikinciyə sövq etdi. Başqa sözlə, Avropanın böyük bir hissəsi liberal-demokratizm əsaslı xüsusi mülkiyyətə (kapitalizmə), Rusiya başda olmaqla Avropanın az bir hissəsi isə marksizm əsaslı ictimai mükiyyətə (kommunizmə) cəlb olundu. [410]

Beləliklə, Avropa ideoloqları cəmiyyətin problemlərinin həllində maddiçilik dayanan iki ideologiyadan (liberal-demokratiya, sosial-demokratiya) maksimum istifadə etməyə çalışdılar. Sadəcə birində, liberal-demokratizmdə dini və milli məsələlər daha çox önə çəkildiyi halda, marksizmdə isə tam əksinə oldu. Marksizmdə din və millət məsələsi ikinci və ondan da aşağı dərəcəli olmaqla yanaşı, maddi problemlərin yedəyi halına gətirilmişdi. Hər halda marksizmə aid təlimlər xüsusilə də, bolevizm ictimai mülkiyyəti çox önə çəkməklə millət, özəlliklə din məsələsini bir kənara qoydu.

Bizcə, Avropa ideolqlarının cəmiyyətin tənəzzülü və tərəqqi məsələsində marksizm təlimi özünü qismən doğrultdu. Belə ki, "kommunizm cəmiyyətində" ağa-qul məsələsi sözdə də olsa aradan qaldırıldığı, istimai mülkiyyət bərqərar olduğu halda, milli və dini dəyərlərin həddən artıq aşağılanması, az qala bütün keçmişin inkarı "kommunizm" dövründə baş verən müsbət dəyişiklikləri də kölgədə qoydu. Marksizm və onunla bağlı bütün cərəyanların uğursuzluğunun əsasında milli-mənəvi məsələlərin düzgün müəyyənləşdirilməməsi dayanmışdır. Bəlkə, marksizm millət və din məsələsində müəyyən qədər fərqli yol tutub, onlara loyal münasibət bəsləsəydi, sosial-demokratizmin "uğuru" daha uzun ömürlü ola bilərdi.

[410] Ələkbərli Faiq. Turan sivilizasiyasına giriş: Turan məfkurəsi və tanrıçılıq. Təkmiləşdirilmiş təkrarnəşr, "Elm və təhsil", 2021, s.397

Avropa ideoloqları xüsusən də, marksizmin "rus kommunizm"indən bir çox məsələlərdə ciddi nəticə çıxartdılar. Özəlliklə, marksizmin ən zəif cəhəti olan millət və din məsələsinə daha ehtiyatlı yanaşdılar. Fərdin azadlığını sonsuz etməklə yanaşı, Xristianlığı inkişaf etdirərək dünyada bir Avropa, Qərb xristianlığı yaratdılar. Ancaq onu bir Xristianlıqdan çox dünya dini halına gətirməyə çalışdılar. Bir növ Xristianlığı Qərb mədəniyyəti ilə eyniləşdirdilər. Qərb dedikdə, xristianılğı və millətçiliyi nəzərdə tutdular, amma daha çox maddiçiliyi və azadlığı önə çəkdilər. Görünür, Samuel Hantinqton bu mənada iddia edir ki, Qərb sivilizasiyası dini sivilizasiya deyil.[411] Amma o, özü də yaxşı anlayır ki, elə dünyadakı ən böyük dini və milli sivilizasya Qərb sivilizasiyasıdır. Sadəcə, dünənə qədər Qərb maddiçilik və demokratiya ideolojiləri ilə bunu çox gözəl ört-basdır edə bilmişdir. Ancaq onların başqasına quyu qazmaları, özlərinə daha çox zərər vermişdir. Artıq qeyri-qərblilərin əksəriyyəti Qərb sivilizasiyasının hansı anlamda bəşəri, hansı anlamda isə dini olduğunu dərk etməyə başlayıblar. Özəlliklə, Qərb sivilizasiyasının maddiçilik məzmunu liberal-demokratizmi cəlbedici etsə də, ancaq zaman-zaman ortaya çıxan dini və milli irqçilik hər şeyi ortaya qoyur.

Bütün hallarda Qərb sivilizasiyasının təməli olan maddiçilik özünü marksizmdən çox liberal-demokratizmdə doğrultdu. Çünki marksizm yalnız dini və milli məsələlərdə səhv yol tutmaqla deyil, həm də zorakı bərabərlik və azadlıq prinsipləri ilə yanlışlıqlar etdi. Halbuki liberal-demokratizm cəmiyyət üzvlərini tamamilə azad buraxır. Burada hər bir kəs hansı yolla olursa-olsun, maddi rifahını və təbii instinktlərini ödəməkdə azaddır. Bu səbəbdəndir ki, Qərb marksizmdən əsasən üz döndərərək liberal-demokratizm üzərində dayanmışdır. Çünki liberal-demokratizmdə maddiçiliyin üstünlüyü fonunda bütün Qərb ideyalarına yer var. Ancaq bu, qərblilərin tamamilə sosial-demokratizmdən imtina etmək anılamına gəlməməlidir.

---

[411] Huntington S. P. The Clash of Civilization? Foregn Affaris. New-Jork, 1993, May-June

Biz şübhə etmirik ki, bir vaxtlar insanları azad və bərabərlik iddiası ilə aldadan kommunuzm necə iflasa uğradısa, bu aqibət Qərb sivilizasiyasını, Qərb liberal-demokratizmini də gözləyir. Baxmayaraq Qərb liberal-demokratizmində azadlıq, bərabərlik və insanın öz-özünün sahibi olması önəmlidir, ancaq dərinliyə varsaq bu da nisbidir. Çünki bütün insanlar üçün həmin anlayışlar eyni məna və mahiyyət kəsb etmir. İnsan azadlığının dəyərini qadağalara görə dərk edir. Əgər insan üçün azadlığın bir dəyəri varsa, o da qadağalarla bağlıdır. Qadağalar insanı həmişə müəyyən çərçivədə saxlayır. Qadağalar iki tipdir :

1. İnsanın əxlaqını, davranışını, mənəviyyatını tənzimləyən müsbət qadağalar,
2. İnsanın yaşam həyatını əngəlləyən mənfi qadağalar.

Azadlıqlarda iki tipdir:

1. İnsanı insanlıqdan çıxaran hüdudsuz azadlıqlar
2. İnsanı insanlıqdan çıxmağa yol verməyən hüdudlu azadlıqlar.[412]

Bu anlamda, məncə Fukuyamanın o fikrinə qatılmaq yanlış olardı ki, liberal-demokratizmdə ağa və qul münasibətlərinin qaldırılması ilə hər şey həll olunmuşdur. Əksinə liberal-demokratizm ağa və qul münasibətlərinə sözdə azadlıq və bərabərlik gətirməklə bir sıra ciddi problemlərə də yol açmışdır. Əgər tarixin başlanğıcında ağa və qul olubsa, bu gün liberal-demokratizmlə bunlar aradan qaldırılırsa, bu tarixin sonu ola bilməz. Birincisi, ağa və qul münasibətləri “Qərb” ideolojisi anlamında, guya aradan qaldırılmışdır. Əslində bu münasibətlər aradan qaldırılmaqdan çox, şəkil və forma dəyişdirmişdir. Başqa sözlə, bu bir təbii haldır, və onu nə “liberal-demokratizm”, nə də başqa ideya dəyişə bilməz. Sadəcə, bu münasibətlərdə ədalətlilik gözlənilə bilər. İkincisi də, tarixin sonunun bu münasibətlərlə heç bir bağlılığı yoxdur. Bu anlamda Fukuyamanın liberal-demokratiyasının təməl prinsipləri kimi göstərdiyi azad, bərabər və öz-

[412] Ələkbərli Faiq. Turan sivilizasiyasına giriş: Turan məfkurəsi və tanrıçılıq. Təkmiləşdirilmiş təkrarnəşr, “Elm və təhsil”, 2021, s.411

özünün sahibi anlayışları mübahisəlidir.[413] O başqa məsələdir ki, Fukuyama "Qərb"in liberal-demokratiyasını madafiə və təbliğ etmək naminə bu fikirləri irəli sürür. Yəni "Qərb demokratiyası"nı həddən artıq şişirdir və onu alternativsiz ideya kimi təqdim etməyə çalışır.

Biz, "Qərb" aydınlarının bu fikirlərindən belə bir qənatə gəlirik ki, əslində onların əsas nigarançılıqları "tarixin, dünyanın və insanın sonu" ilə bağlı deyil, artıq ilk işartıları görünən "Qərb sivilizasiyası"nın tənəzzülü problemidir.

"Qərb sivilizasiyası"nın tənəzzülünün əsasında mənəvi dəyərlərin assimilyasiyası ilkin amildir. "Qərb" hər gün texnoloji və elm sahəsində irəlilədikcə, mənəviyyat sahəsində də bir o qədər geriləyir. Bu geriləmə texnolojinin və sosial rifahın gözqamaşdırıcı uğurları qarşısında bu gün az nəzərə çarpsa da, ancaq irəliki zamanlarda "Qərb"in ciddi mənəvi böhranla qarşılaşacağı birmənalıdır. "Qərb sivilizasiyası"nın tənəzzülünün ikinci amili texnologiyanın qeyri-sağlam yöndə irəliləməsi, bunun fonunda təbiətin amansız şəkildə istismarıdır. Bundan ən böyük zərbəni "Qərb sivilizasiyası"nın mərkəzi və aparıcı qüvvəsi olan ABŞ görmüş olacaq, bəlkə də 21-ci əsr onların tarix səhnəsindən silinməsi ilə yadda qalacaqdır.

Bu anlamda, "Qərb" aydınlarının "tarixin, dünyanın və insanın sonu" ilə bağlı fikirlərini önəmsəməklə yanaşı, onun şişirdilməsini yanlış görürük. Ona görə də Qərb aydınlarının iddia etdiyi kimi, bu gün dünya və insan üçün qorxulu olan nə atom bombaları, nə nüvə başlıqları, nə də başqa kimyəvi silahların mövcudluğudur. Əslində dünya və insan üçün, özəlliklə "Qərb" üçün qorxulu olan "Qərb"in dünya hökmranlığına və yüksək mədəniyyətə sahiblənmək üçün xeyiri bir kənara ataraq, şəri üstlənməsidir. Başqa sözlə, "tarixin, dünyanın və insanın sonu"nu gətirən atom bombaları, kimyəvi silahlar deyil, onları dünyaya hökmran olmaq üçün yaradan "qərblilər"dir. Deməli, "tarixin,

[413] Fukuyama F.Tarihin sonu ve son insan. İstanbul, Profil, 2014, s.44

dünyanın və insanın sonu"nu gətirən də "Qərb", "Qərb"in mürtəce ideoloqlarıdır. Ancaq "Qərb" aydınları inandırmağa çalışırlar ki, "tarixin, dünyanın və insanın sonu" bütün dünya üçün keçərlidir. Biz bu məntiqlə qətiyyən razılaşmırıq. Dogrudur, əgər qonşun səhv yoldadırsa bundan sənə də zərərə dəyəcəkdir. Ancaq bu zərər eyni səviyyədə ola bilməz. O başqa məsələdir ki, atalarımız demişkən, cəhənnəmə gedən özünə yoldaş axtarır.

Biz inanırıq ki, heç bir zaman tarixin və dünyanın sonu olmayacaqdır. Başqa sözlə, "tarixin, dünyanın və insanın sonu" anlayışı nisbi xarakter daşıyır. Səmavi dinlərdəki (İuddaizm, Xristian və İslam) "qiyamət günü" anlayışı belə "tarixin, dünyanın və insanın sonu" ilə deyil, dünyada yolunu azmış, xeyiri unudaraq şəri əlində bayraq etmiş "sivilizasiya"nın məhvi ilə bağlıdır. Hazırda bu "Qərb sivilizasiyası"dır. Artıq "Qərb sivilizasiyası"nın tənəzzülü prosesi başlamışdır ki, bu isə onun məhv olmasını qaçılmaz edir.

Digər tərəfdən, bütün millətlər üçün eyni tarix keçərli deyil. Hər bir millətin öz tarixi, bu tarixi baxımından da ümümdünya tarixi var. Bu gün və gələcəkdə baş verənlər də bir millət üçün keçərlidir. Əgər hər hansı bir millət tarix səhnəsindən tamamilə silinirsə, yaxud da arxa plana keçirsə həmin millət üçün dünyanın və tarixin sonudur.

Bir sivilizasiyanın tarix səhnəsindən tamamilə silinməsi, yaxud da arxa palana keçməsini şərtləndirən 3 başlıca amil var:

1. Texnologiyadan yanlış istifadə;
2. Təbiətin amansızcasına istismarı;
3. İnsanın maddi rifahının inkişafı fonunda onun mənəvi dəyərlərinin tənəzzülü.

Fukuyama fəxrlə yazır ki, təbiətə hökm etməyə avropalılar çatdı və modern təbiət elmi dünyaya Avropadan yayıldı. [414] Amma o, bu fəxarətlə yanaşı gizlətmir ki, modern və texnoloji üstünlüyə malik "Qərb"in yıxılması və barbarlığa dönməsi

[414] Fukuyama F.Tarihin sonu ve son insan. İstanbul, Profil, 2014, s.110

qorxusu var. [415] Çünki bu gün modern təbiət elminin mövcud toplumlar tərəfindən rədd edilməsi inandırıcı deyil. Halbuki, "Qərb"in modern təbiət elmi dünyanın sonunu yaxınlaşdırır. Doğrudur, bu gün bəzi millətlər modern təbiət elmindən vaz keçərək ETT-nin hansısa uğurlarından imtina edə bilərlər. Amma əksər millətlərin özəlliklə, "Qərb"in ETT-dən imtina etməsini gözləmək mənasızdır. Modern təbiət elminin "inkişafı" isə ona gətirib çıxaracaq ki, qlobal bir fəlakət baş verəcəkdir. Həmin qlobal fəlakətdə modern təbiət elminin məhvinə gətirib çıxaracaqdır. Fukuyama bunu sual kimi qoysa da, [416] bizcə bu gec-tez baş verəcəkdir. Çünki "Qərb" təbiəti yalnız ram etmədi, cəmiyyətin inkişafı və daha yaxşı yaşaması prinsipiylə həm də təbiəti insanın köləsi halına gətirdi. Yəni Qərb insanı özünün üst rifah səviyyəsinə, lüks həyata qovuşması üçün yalnız təbiəti vəhşicəsinə istismara başlamadı, eyni zamanda insanlığın, insan olmanın xarıcinə yuvarlandı. Fransız filisofu Jan Jak Russonun təbrincə desək, Qərb insanı irəlləmək üçün təbiətdən, təbiilikdən uzaqlaşıb ikiüzlülyə yol aldı, elm və texnologiyanı mənəvi insanlığın məhvi, amma maddiçi insanlığın yüksəlişi üzərində istifadə etdi. [417] Bu anlamda, Russo Avropanın bu cür rasionalizmini və irəliləməsini gerilik kimi qəbul etmişdir. Bizcə, Russo bu fikirlərində çox haqlı idi. Avropa Russo kimi düşünənlərdən nəticə çıxarmaq əvəzinə liberalizm ve demokratizm ideyalarını gerçəkləşdirmək naminə, mənəvi insana deyil maddi insana, inanclı insana deyil praqmatist insana üstünlük verdi. Cemil Meriçin təbrincə desək, bununla da maddiçilik Qərbin yüksəlməsinə xidmət etsə də, digər tərəfdən insanda Tanrı inancını və əxlaq dəyələrini yox etməyə başaladı: "Maddi üzərindəki fəthləri, Qərb insanını doyurmur artıq, fəqət istismar istəyindən də vaz

[415] Yenə orada, s.121
[416] Yenə orada, s.122
[417] Taşkın A., Becermen M., Rönesans, Yeniçağ ve XIX. Yüzyıl Felsefesi Tarihi. Ankara, Sentez, 2013, s.248-149

keçmir. Allahsız bir dünyanın qanma bilməyən ehtirası insanlığa çox bahalıya mal oldu”.[418]

Üstəlik, bu gün liberal-demokratik “milli dövlət”lə marksist “sosialist dövlət”də hansısa müəyyən problemlər, ifrata meyilliklər varsa, o zaman hər iksinin müsbət tərəflərini özündə əks etdirib ortaya çıxan “solidarist” dövlətlər də Avropa zehniyyətinin məhsuludur. Qərblilərə görə bu isə o deməkdir ki, hazırda dünyada hər hansı cəmiyyətin quruluşu, dövlət idarəçiliyi forması məsələsində ideal nəzəriyyələr və təcrübələr varsa, bütün bunlar yalnız Qərb təfəkkürünə məxsusdur və məxsus olmağa da davam etməkdədir.

Ancaq bir məsələ müəyyən mənada həqiqətdir ki, ən azı son 3-4 əsrdə cəmiyyətin quruluşu və dövlət idaərəçiliyi forması məsələlərində İslam-Türk dünyasına aid xalqlar tənəzüllə doğru getdilər. Üstəlik, bu tənəzzüldən çıxış yolu kimi, tamamilə yeni bir yol ortaya qoya bilmədikləri üçün ya Qərb-Avropa zehniyyətinin məhsulu olan liberal, demokratik “milli dövlət”, “sosialist dövlət” və “solidarist dövlət”dən hər hansı birinə üz tutmaqda, ya ənənəvi ideyalarıyla Qərb dəyərlərini uzlaşdırmaqda, ya da tamamilə ənənəvi dəyərlərə olduğu kimi əməl etməkdə tapmağa çalışdılar.

**Solidarizm təliminin mənşəyi: fransız liberal solidarizmi.** 20-ci əsrin ilk yarısında yuxarıda da bəhs etdiyimiz kimi, dünyada ən tanınmış cərəyanlar sosial-demokratizm, demokratizm, liberalizm idi ki, bu cərəyanların həm sinfi məsələyə, dövlətə, həm də milli-dini dəyərlərə münasibətdə ziddiyyətli, antoqonist mövqe tutması üçüncü bir nəzəriyyənin, yəni hər iki təlimə alternativ olan solidarizmin meydana çıxmasına səbəb oldu.

Solidarizm, ya da həmrəylik ideyası 19-cu əsrin ikinci yarısında meydana çıxıb, onun elmi-nəzəri əsaslarını cəmiyyətə bir bütöv kimi yanaşan fransız mütəfəkkiri Ouguste Kont ortaya

[418] Kont O. Pozitiv Felsefe Kursları. İstanbul, Sosyal Yayınları, 2001, s.32-33

qoymuşdur. Kont "Pozitiv fəlsəfə kursları" və digər əsərlərində cəmiyyəti siniflərə bölmədən bir bütün olaraq tədqiq etmişdir. [419]

Ancaq elm dünyasında solidarizmin banisi kimi daha çox fransız sosioloqu Emil Dürkheym hesab olunur. Siniflərarası rəqabəti rədd edən Dürkheymə görə Marksın cəmiyyətlər daxilindəki problemin səbəbini siniflərarası ziddiyyətlərdə görməsi doğru deyil. Ancaq o, kapitalistlərin israrla önə sürdüyü "siniflərarası rəqabət inkişafa aparır" mülahizəsi ilə də razılaşmırdı. Onun fikrincə, hər iki tərəf cəmiyyət daxilndəki problemləri tamamilə fərqli mənalara yozmaqla milli həmrəyliyi zədələyərək müxtəlif sosial könfliktlərə yol açmış olurlar. Dürkheym sübut etməyə çalışırdı ki, cəmiyyətin strukturu əməyin bölgüsü ilə şərtlənmişdir və bu anlamda siniflərin olmasına təbii yanaşmaq lazımdır. Başqa sözlə, proletariatlar və kapitalistlər bir yerdə varlığı təbiidir və onlar ictimai istehsal sistemində həmrəyliklə işləməlidirlər. O, yazırdı: "Toplumsal olguları yalnızca kollektifliği ve baskıcılığı temelinde değil, yayğınlığı temelinde de tanımlamak mümkündür. Ama bu yapılarken, önceki hatırlatmaları da dikkate alarak toplumsal olgunun yayğın olma özelliğinin yanında ikinci bir temel özellik olarak, topluluğa yayılma sürecinde aldığı tekel veya bireysel biçimlerden bağımsız olarak var olduğu bilgisini de eklemek gerekecektir. Bu ikinci özellik bir ölçüt olarak toplumsal olguları tanımlamada bazı durumlarda birincisinden daha kolaylıkla işletilebilir".[420]

Dürkheymə görə, Kontun insan toplumlarının irəliləyişini, "ayrı-ayrı toplumlarda" görülən və ardı ardına gələn bütün dəyişimləri fikrən qapsaya biləcək bir bütün irəliləmə olaraq görməsinin altında yatan şey onun bu toplum növləri fikrinin varlığını görməyi başaramamasıdır. O, yazırdı: "Aslında, sadece tek bir toplum türü olsaydı, toplumlar yalnızca, birbirlerinden bu tek türün özelliklerini ne kadar ifade etdiklerine göre, yani derece bakımından farklandırlabilerdi. Şayet, bunun tersine, birbirlerin-

---

[419] Meriç Cemil. Kültürden irfana. İstanbul, İletişim, 2013, s.478

[420] Dürkheym E. Sosyolojik Yöntemin Kuralları. İstanbul, Bordo-Siyah, 2010, s.63

den niteliksel olarak farklı toplum tiplerinin mevcut olduğunu kabul edersek, bunlar geometrik bir doğrunun birbirlerine nitelikçe özdeş parçaları gibi birleştirilemeyeceklerinden, bu toplum tiplerini birbirleriyle bitiştirmeye çalışmak anlamsızlaşcaktır. Bu noktada, tarihsel gelişim o yalın ve ideal bütünlüğünü yitirerek, her biri özgül özelliklere sahip ve kesintisiz bir şekilde birleştirilemeyen sayısız bölmelere ayrılır. Bu bağlamda, Pascalın ünlü metaforu, Comte (Kont) tarafından yeniden işlendiğinde artık hakikatle olan bağını yitirmişdir”.[421]

Yeri gəlmişkən, Kont və Dürkheymdən öncə hələ, Jan Jak Russo “İctimai müqavilə” (“Toplum sözləşməsi”) əsərində cəmiyyətin ortaq çıxarları ilə bağlı bəzi mülahizələr irəli sürmüşdür. Onun fikrincə, dövlət naminə heç bir fərd sinfi ayrı-seçkilik salıb yaxasını kənara çəkməməlidir. Başqa sözlə, fərdi və sinfi çıxarlar üçün dövləti təhlükədə qoymaq yolverilməzdir. Russo yazırdı: “Bir kimse devlet işleri için “neme gerek” dedi mi, devleti yok olmuş bilmeli. Yurt sevgisinin gevşemesi, özel çıkar oyunları, devlet sınırlarının aşırı genişliği, fetihler, yönetim işlerinin kötüye kullanılması gibi nedenler, millet meclislerinde milletvekilleri ya da temsilciler bulundurma yolunu esinlemiştir. Bazı memleketlerin tiers etat dedikleri bunlardır. Böylece iki sınıfın çıkarı birinci ve ikinci derecede önemli tutulmuş, genel yarar ise üçüncü dereceye düşümüştür”.[422]

Russo hesab edirdi ki, yalnız toplum sözləşməsi ilə cəmiyyəti bir bütün kimi ortaya qoyub dövləti də qanunlar çərçivəsində idarə etmək mümkündür. Onun fikrincə, sinif ayrı-seçkiliyi qoymadan toplum halında birləşmək dünyanın hər bir xalqının istəyidir. O, yazırdı: “Her insan özgür ve kendi kendisinin efendisi olarak dünyaya geldiği için, her ne behane olusa olsun, hiç kimse onu isteği dışında buyruk altına alamaz. Bir kölenin oğlu da kendisi gibi köle doğar demek, insan olarak doğmadığını ileri sürmektir. Öyleyse toplum sözleşmesi yapıldığı

[421] Yenə orada, s.165

[422] Russo J.J. Toplum Sözleşmesi. Ankara, Nilufer yayıncılık, 2011, s.126

zaman, ona karşı gelenler bulunursa, onlara karşı çıkmaları sözleşmeye girmelerine engel olur sadece: Bunlar yurttaşlar arasında yabancı durumuna düşerler. Devlet kurulduktan sonra orada oturan, sözleşmeyi onamış sayılır; devletin topraklarında oturmaksa, o devletin egemenliğine boyun eğmeyi gerektirir".[423]

Başqa bir fransız mütəfəkkiri L.Burjua 1897-ci ildə yazdığı "Həmrəylik" əsərində Kontun, Dürkheymin mütləq fərdiyyətçiliyin, mütləq kommunizminin əleyhinə olan solidarist mülahizələrini inkişaf etdirmişdir. Burjuaya görə real olaraq öz-özlüyündə nə fərdlər, nə də cəmiyyət mövcud deyil, ancaq insanların birgə yaşayış amili ilə bağlı assosasiyaları mövcuddur. Onun fikrincə, assosasiyanın hər bir iştirakçısı ümumi iş yerindən xeyir gördüyü üçün o digər insanlar, cəmiyyət, keçmiş və gələcək nəsillər qarşısında məsuliyyət daşıyır.

Doğrudan da, kapitalizmdə fərdiyyətçilik, sosializmdə isə cəmiyyətçilik mütləqləşdirilir. Kapitalizmdə fərd özünü cəmiyyətin bir parçası saymadığı kimi, sosializmdə isə fərd kommunanın içində görünməz olur və dövlətin inkişafı ləngiyir. Solidaristlər hesab edirdilər ki, bu baxımdan liberalizmin və sosializmin mütləqləşdirilmiş mənfi cəhətlərini bir kənara qoymaqla ondakı müsbət cəhətləri inkişaf etdirmək və "qızıl orta"nı tapmaq lazımdır. Solidaristlərə görə "qızıl orta" isə fərdin özünü ifadə etməsi ilə yanaşı, onda cəmiyyətin ya da dövlətin bir parçası olması hissini qoruyub saxlamaqdır.

Bir sözlə, fərdiyyətçiliyə və liberalizmə əks olaraq solidaristlər həddən artıq subyektiv hüquqlara və azadlıqlara malik olmağa şübhə ilə yanaşır, bunu təniqd edirdilər. Eyni zamanda, solidaristlər burjuaziyanı məhv edərək proletariat sinfini azad etməyə çağıran sosialistlərdən fərqli olaraq hesab edirdlər ki, əslində kapitalistlər və proletariatlar qarşılqılı münasibətlər içindədirlər, ictimai istehsal üçün eyni dərəcədə lazımdırlar.

---

[423] Yenə orada, s.141-142

Bir tərəfdən sosializmə, digər tərəfdən kapitalizmə alternativ nəzəriyyə olan həmrəylik təlimi ilə bağlı 1890-cı ildə Parisdə "Sosial tərbiyə konqresi" keçirldi və 1891-ci ildə isə Sosial elmlər nəzdində "Həmrəylik fəlsəfəsi" üzrə xüsusi kurslar təşkil olundu.

**Alman solidarizmi: milli solidarizm.** 19-cu əsrin ikinci yarısında, 20-ci əsrin əvvəllərində solidarizm təlimi Almaniyada Fridrix List, Ferdinand Lassal, Avgust Bebel, Eduard Bernşteyn, Karl Libknext və başqaları tərəfindən də geniş təbliğ olunmuşdur.

Hələ, 19-cu əsrin 40-cı illərində alman iqtisadçısı, siyasətçisi, alman burjuaziyasının görkəmli ideoloqi Frisdrix List marksizmdən fərqlənən yol tutmuşdur. Alman siyasi iqtisad tarixi məktəbinin əsasını qoyan List "Milliyyətçi iqtisad sistemi"ni irəlü sürmüşdü.

Ancaq Almaniyada solidarizmin tanınmış ilk siması hesab olunan Ferdinand Lassal "Qazanılmış haqlar sistemi", "İtaliyan savaşı və Prusiyanın vəzifələri: Demokratiyanın səsi", "Qanuni sistemlər üzərinə" və başqa əsərlərində Marksın inqilabçılığına qarşı çıxaraq mövcud dövləti dağıdıb yenidən proletariat dövləti yaratmaqdansa, Hegel kimi dövlətçiliyə sadiq qalmağa üstünlük vermişdi. Dövləti inkar deyil, qəbul edən Lassala görə dövlət bir sinfin digər siniflər üzərindəki ağalığından ibarət deyil, cəmiyyətin idarəçiliyinə yarayan, siniflər üstü bir qurumdur. Onun fikrincə, dövləti qorumaq və yaşatmaq sinfi mübarizədən daha çox önəmlidir. Onun marksistlərdən əsas fərqi ondan ibarətdir ki, Marks beynəlmiləlçi sosialist olub dini də bir kənara qoyduğu halda, Lassal isə milli sosialist idi. Lassala görə Avropa millətləri hələ sağlam bir şəkildə vardırlar, burada milliyyət fikirləri də çox önəmli bir amildir, eyni zamanda dində üzün müddət kimsənin gözardı edəməyəcəyi şəkildə öz təsirini qorumaqdadır.

Lassaldan sonra A.Bebel, E.Bernşteyn və K.Libknextin Almaniya vətənpərvərliyindən, alman milli hisslərindən bəhs etmələri sosial-patriotizmi və milli həmrəylik təlimini ortaya qoymağa başlamışdır. Onlar Marksın hər növ (milli, dini və b.)

xüsusiyyətləri məhv edən internasionalizminə müqabil reformizm və sosial-patrotizmdə insanın öz vətəninin istiqlalını müdafiə etmək lüzumundan bəhs edirdilər. Məsələn, Avgust Bebel “Qadın və sosializm”, “Nəzəriyyədə və praktikada” əsərlərində milli sosialist kimi çıxış etmiş, alman solidarizmini, alman patriotizmini müdafiə etmişdir. O, “Qadın və sosializm” əsərində ictimai mülkiyyətlə (kommunizm) xüsusi mülkiyyəti (kapitalizm) qadın (ananın) və kişinin (atanın) timsalında dəyərləndirmişdir. Bebelə görə analıq hüququnun keçərliliyi kommunizm anlamına, hər kəsin bərabərliyini anlamına gəldiyi halda. atalıq hüququnun doğuşu özəl mülkiyyətə daha çox uyğundur. [424] Onun fikrincə, indiyə qədər qadınları öz tabeliyində saxlayan kişilər, xüsusilə də işçi kişilər proletariatın kapitalistlərlə mübarizəsində qadın əməyinə ehtiyac duyduqları üçün onlara müəyyən güzəştlərə getmək məcburiyyətindədirlər. [425]

Reformizmin, sosialist revizionizmin qurucusu hesab olunan Eduard Bernşteyn marksizmi təftiş və modernizə etmək üçün çalışmalarda bulunmuşdur. O, sinifi mübarizənin mövcud olmadığını, sosializmə barışcıl bir şəkildə keçmənin mümkün olduğunu müdafiə etmişdir. Bernşteyn “Təkamülçü sosializm” adlı əsərində göstəriridi ki, sosyalizmə keçmək üçün gücdən istifadə etməkdənsə, bunu daha sağlam və təkamül içində gerçəkləşdirmək mümkündür.

Karl Libknext isə “sosalizmi ateizmə müstənid digər dinlər əleyhində bir din kimi tələqqi etməkdən” qurtarmaq lüzumundan bəhs və bu bəhsi ilə xalq kütləsi üzərində nüfuzları qüvvətli olan katolik partiyaları ilə mücadilə etməyi məqbul görmüşdür.

**Osmanlı təsanüdçülüyü: Yusif Akçura, Tekin Alp və Ziya Gökalp.** 19-cu əsrin sonu, 20-ci əsrin əvvəllərində Avropa ölkələrində, o cümlədən Osmanlıda, çar Rusiyasında və müəyyən qədər də Qacarlarda əhəmiyyətli dərəcədə genişlənən solidarizm

[424] Bebel A. Kadın ve Sosyalizm. İstanbul, İnter yayınları, 2011, s.65
[425] Yenə orada, s.139

kapitalizm və sosializm, ya da liberalizm və kommunizm arasında orta xətt tutmaqla üçüncü bir ideya xəttini təklif edirdi.

Osmanlıda solidarizm Milli iqtisad və Milli təsanüdçülük anlayışları altında yayılmış, onun buradakı tanınmış tərəfdarları Musa bey Akyiğitoğlu, Mehmet Şerif Efendi, Namık Kemal, Ahmet Midhat Efendi, Yusuf Akçura, Tekin Alp, Ziya Gökalp və başqaları olmuşdur.[426] Məsələn, Ahmet Midhat Efendi "Ekonomi politik" əsərində Milli iqtisadla bağlı olan "himayəcilik" düşüncəsindən bəhs etmişdir. Ona görə himayəcilik "daxili sənayenin mühafizəsi yoludur" ki, bu Midhat Efendinin sistemləşdirməyə çalışdığı iqtisad siyasətinin ana şüarıdır. O, həmin kitabında kapitülyasyonlarla xaricilərə verilən imtiyazların yerli sənayenin çökməsinin təməl səbəb olduğunu ifadə edir və "hürruyyət-i mübadilə" və ya "sərbəst rəqabət"in ancaq bərabər güclər arasında ola biləcəyini söyləyirdi. Onun fikrincə, Osmanlı kimi ölkələr üçün beynəlxalq sərbəst rəqabət yerli sənayeni tamamilə məhv edə bilərdi.[427]

Həmin dövrdə Osmanlıda yaşayan Yusif Akçura isə hesab edirdi ki, türklərin əsas çıxış yolu kimi orta sinifin, ya da Türk burjuaziyasının yaradılmasıdır. Şübhəsiz, onun orta sinif, ya da Türk burjuaziyası kimi gördüyü təbəqə daha çox milli həmrəyliyə, milli iqtisadçılığa uyğun gəlirdi. Akçuraya görə Tənzimatdan sonra Türk əsnaf və tacirləri Avropa kapitalistlərinin istilasına uğradığından, Osmanlı Türk İctimai heyəti Polşanın son zamanlarında olduğu kimi, yalnız əsnaf məmur, kəndlidən mürəkkəb ortaya çıxmış qüsurlu və axsaq bir üzvülük halına gəlmişdi. Akçura yazırdı: "Osmanlı dövlətinin 19-cu əsr burjuaziyası Qərb kapitalizminin komisyonçuluğunu və agentliyini edən yəhudi, erməni və rum kimi yerli qeyri-Türklərlə mənşe-i milliyyələrinin və təbiyyət-i harikalarının təfrik və temeyyüzü qeyri-qəbul Levantenlerden tərəkküb edirdi. Əgər, türklər öz içlərində,

[426] Sağlam Serdar. Ziya Gökalpta "Solidarizm" ve "Milli İktisat". Türkiyat Araştırmaları Dergisi. Payız, sayı 1.Ankara, 2004

[427] Midhat Ahmet. Ekomomi Politik. İstanbul, 1296 (Hicri tarixi), s. 106-128

Avropa sərmayəsindən də istifadə edərək bir sərmayədar burjua sinifi çxarmayacaq olursa, yalnız məmur və kəndlidən ibarət Osmanlı heyət-i ictimaiyyəsinin müasir bir dövlət halında yaşaya bilməsi zorlaşacaqdır”.[428]

Osmanlı mütəfəkkirlərindən Tekin Alp isə 1910-cu illərin ortalarından etibarən “təsanüdçülük” və “milli iqtisad”a aid məqalələr yazmışdır. O, 1916-cı ildən başlayaraq nəşr olunan “İqtisadiyyat məcmuəsi”ndə türkçülüyün iqtisadi cəbhəsi üzərində dayanmış, “Yeni Məcmuə”də isə “Təsanüdçülük” başlığı altına sislsilə məqalələrlə çıxış etmişdir. Alpa görə türklərdə milli iqisadçılar demək olar ki, yox vəziyyətindədir və ən böyük qayə milli iqtisad yaratmaq və milli iqtisadçılar yetişdirməkdir. Sərdar Sağlama görə Alpın bu məqalələrində “solidarizm” cərəyanı və “milli iqtisad” prinsipləri günün iqtisadi, sosial və mədəni şərtləri içərisində müzakirə olunurdu.[429] Alp solidarizm, yaxud təsanüdçülüyün sosializm və kapitalizmin ifratçılıqlarından sıyırılmış bir “qalxınma ideolojisi” olduğu üçün “sinif münaqişələrinə” qarşı bir tədbir olacağını düşünürdü”.[430]

Ziya Gökalpın “Milli itqisadi” görüşlərinin isə iki qaynağı: 1) “fransız solidarizmi”, 2) Friedrich Listin “Milliyyətçi iqtisadi sistemi”, var idi. Gökalpın “fransız solidarizmi”ni mənimsəməsində Emil Dürkheymin sosioloji görüşləri mühüm rol oynamışdır. O da, Dürkheym kimi hesab edirdi ki, cəmiyyət funksional açıdan biri-birinə bağlı parçalardan yaranan bir bütündür, parçalar bir-birlərilə uyumlu və təsanüd (həmrəylik) içindədirlər. Həmrəyliyin təməlində isə korporasiyalar və məslək qrupları dayanır. Əvvəlcə Fransa və Almaniyada aşırı kapitalizm və sosializmə qarşı meydana çıxan solidarizm 1-ci Dünya müharibəsinin sonları

---

[428] Akçura Yusuf. İktisadi Siyaset Hakkında. Türk Yurdu, Cilt 12, sayı 12. 1333 (Hicri tarihi), s. 179

[429] Sağlam Serdar. Ziya Gökalpta “Solidarizm” ve “Milli İktisat”. Türkiyat Araştırmaları Dergisi. Payız, sayı 1. Ankara, 2004

[430] Tekin Alp. Tesanütçülük-Tesanütçülüyün Gayesi. Yeni Mecmua, (9 mayıs 1918), 2, sayı 43: s. 335-337

və ondan sonrakı dövrdə digər Avropa ölkələrində və Türkiyədə də geniş yayılmışdır.[431]

Təsanüdçülüyün (həmrəyləyin) əsas amalı sinif münaqişəsinə son vermək, hər kəsə bərabər tərbiyə və iş imkanları saxlamaqdır ki, Gökalpa görə bu hədəfə çatmaq üçün, çağdaş millətlərin bölündüyü sinifləri ortadan qaldırmalı, onların yerinə məsləki təşəkküləri ortaya qoymaq lazımdır. Onun fikrincə, bu təşəkkülər xalq arasında həmrəyliyi saxlayacaqdır. Deməli, Gökalp milli təsanüdü gücləndirmək üçün "məslək"ləri önə çəkmişdir. Ona görə "məsləki təşkilatlar"ın faydası həm cəmiyyəti bir bütün halına gətirmək, həm də ortaq yardımlaşmanı, paylaşmanı ifadə etmək idi. [432]

Gökalp "Türkçülüyün əsasları" əsərinin ""İqtisadiyyatda türkçülük" bölümündə yazırdı ki, tüklər qədimdə nail olduqları paylaşma, yardımlaşma, dayanışma kimi iqtisadi fəlsəfəyə yenidən geri dönməlidirlər. O, yazırdı: "Türklər müstəqilliyi və azadlığı sevdikləri üçün iştirakçı (kommunist, sosialist) ola bilməzlər. Ancaq bərabərçiliyi sevdiklərinə görə fərdiyyətçi kimi də qala bilməzlər. Türk kültürünə ən uyğun solidarizm, yəni həmrəyçilikdir. Şəxsi mülkiyyət ictimai həmrəyliyə xidmət etdiyi halda qanunidir. Sosialistlərin və kommunistlərin şəxsi mülkiyyəti ortadan qaldırmağa çalışmaları doğru deyildir. Yalnız ictimai həmrəyliyə xidmət etməyən şəxsi mülkiyyətlər varsa, onlara izn verilməz (yəni onlar qanuni sayılmaz). Bundan başqa, mülkiyyətin yalnız şəxsi olması lazım deyil. Şəxsi mülkiyyət kimi, ictimai mülkiyyət də olmalıdır. Toplumun-cəmiyyətin fədakarlığı və zəhməti nəticəsində yaranan və fərdlərin heç bir əməyindən doğmayan artıq qazanclar cəmiyyətə aiddir". [433]

Gökalpa görə fərdlərin artıq qazanclara yiyələnmələri isə qanuni deyildir. O, yazırdı: "Fərdlərin bu qazancların – "plyus-

---

[431] Sağlam S."Ziya Gökalpın İktisadi Düşünceleri.Türk Yurdu,Cilt 16, № 103.1996, s. 87
[432] Gökalp Ziya. Makaleler I. Ankara, TC Kültür Bakanlığı Yayınları, 1976 (Hazırlayan Ş.Beysanoğlu). s. 150-151
[433] Gökalp Ziya. Türkçülüyün əsasları.Bakı:Maarif,1991, s.130

valyu"ların (izafi dəyər) cəmiyyət adına toplanması ilə ayaranacaq böyük məbləğlər toplum-cəmiyyət hesabına açılan fabrikaların, təşkil edilən kənd təsərrüfatlarının kapitalı olur. Bu ümumi təşəbbüslərdən əldə ediləcək qazanclar ilə yoxsullar, yetimlər, dullar, xəstələr, əlillər, korlar və karlar üçün xüsusi sığınacaq yerləri və məktəblər açılır, ümumi bağçalar, muzeylər, teatrlar, kitabxanalar yaradılır. Fəhlələr və kəndlilər üçün sağlamlıq evləri tikilir. Ölkə ümumi bir elektrik şəbəkəsi içinə alınar. Sözün qısası, hər cür yoxsulluğa son verərək hamının rifahını təmin etmək üçün nə lazımdırsa yerinə yetirilərdi. Hətta, bu ictimai sərvət kifayət miqdara çatdıqda, xalqdan vergi almağa da ehtiyac qalmayacaq. Heç olmasa, vergilərin növləri və miqdarı azaldıla bilər. Deməli, türklərin ictimai ülküsü (məfkurəsi) şəxsi mülkiyyəti ortadan qaldırmadan ictimai sərvətləri fərdlərə qəsb etdirməmək və bu sərvətləri ümuminin xeyrinə sərf etmək məqsədi ilə saxlamaq və artırmaqdan ibarətdir". [434]

Beləliklə, solidarizm bir tərəfdən milli-dini xüsusiyyətləri tamamilə aradan qaldırmağı qarşısına məqsəd kimi qoyan kommunizmə, digər tərəfdən isə cəmiyyətdəki sosial bərabərliyi hətta, nisbi şəkildə də belə olsa təmin edə bilməyən, bunun müqabilində fərdiyyətçiliyi ön planda tutan kapitalizmə qarşı yönəlmişdi. Solidarizmin burada üstün cəhəti həm sosial bərabərliyi təmin etmək üçün mümkün yollar axtarmaq, həm də milli və dini xüsusiyyətləri qoruyub saxlamaq idi. Hər halda milli və dini xüsusiyyətlərdən kənarda tamamilə kosmopolit bir cəmiyyət qurmaq nə qədər təhlükəlidirsə, eyni formada sosial bərabərliyi, sosial ədaləti gözləməməkdə hər hansı toplum üçün bir o qədər zərərlidir.

[434] Yenə orada, s.130-131

*Bizcə müdafiə ediləcək yeganə*
*sosial sistem milli təsanüd sistemidir!*
**M.Ə.Rəsulzadə**

## 3.2.M.Ə.Rəsulzadənin yaradıcılığında milli həmrəylik təliminin səciyyəvi xüsusiyyətləri

Azərbaycanda solidarizm cərəyanının tanınmış siması, milli həmrəylik təliminin banisi M.Ə.Rəsulzadə olmuşdur. Bizcə, Rəsulzadədə solidarizm cərəyanına ilk maraq 1910-cu illərdə yaranmış və müsavatçılıq təlimində öz əksini tapmışdır. Əsasən 20-ci əsrin ilk yarısında yaşamış Rəsulzadə sosial demokratiya, liberalizm/liberal-demokratiya cərəyanlarını və onların mahiyyətindən irəli gələn təlimləri (bolşevizm, menşevizm, faşizm, hitlerizm və b.) çox yaxşı bildiyi üçün, onlardan fərqlənən üçüncü yolu daha doğru görmüşdür. Belə ki, Rəsulzadə kommunizmə və liberalizmə və onlardan törəyən ifrat təlimlərə qarşı milli təsanüdçülük, ya da milli həmrəylik təlimini irəli sürmüşdür. Əslində Rəsulzadənin milli həmrəylik təliminə müraciət etməsi təsadüfi deyildi.

1920-ci illərin ortalarından etibarən solidarizmə daha əsaslı şəkildə müraciət edən Rəsulzadənin yaradıcılığında milli həmrəylik təlimi daha da önəmli ter tutmuşdur. Məsələn, o, 1926-ci ildə İstanbulda verdiyi iki konfransda inqilabi sosializmlə mütləqçi liberalizmin oxşar və fərqli cəhətlərini müqayisə etməyə çalışmışdır. Onun həmin məruzələrinin ("İxtilalçı sosializmin iflası" və "Demokrasinin gələcəyi"") əsasında inqilabi sosializmin nədən iflasa uğraması, eyni zamanda liberalizmdən çox demokratiyanın (milli demokratiyanın) vacibliyi və burada da milli həmrəylik təliminin əhəmiyyətini izah etmək dayanmışdır. "İxtilalçı sosializmin iflası" məruzəsində "Dünya cənnəti məfkurəsi"nə aydınlıq gətirməyə çalışan Rəsulzadə bu məsələyə öz əsərlərində

müəyyən yer vermiş Russo, Kant, Hegel, Kont, Spenser, Marksın və başqa mütəfəkkirlərin düşüncələrinə yer vermişdir.[435] [436]

Rəsulzadəyə görə xüsusilə də, Kant, Hegel, Kont, Spenser bəşəriyyətin yaxın gələcəkdə sosial bərabərlik içində xoşbəxt yaşayacağı mülahizəsinə daha nikbin yanaşmışlar. O, yazırdı: "Başqa əsaslar və ifadələrlə olsa da, Kont dəxi bəşəriyyətin istiqbalını eyni qətiyyət və nikbinliklə təbşir eləmişdir. Müsbət fəlsəfənin müəssisi "bəşəriyyətin mümtaz qiami təbiətə ən ziyadə uyan ictimai intizam dövrünün hüsuluna yanaşmaq üzrə bulunuyor" deyə müntəzirləri təsəlli etməkdədir. Bunun üçün filosof hər şeydən əvvəl, fikir və mühakimələrin fünuni-müsbətə əsası üzərinə tövhidini tələb ediyor; fikir və mühakimələrdəki anarşiyi bərtərəf etməyə lüzum görüyordu. Konta görə bəşəriyyət Russo, Kant və Hegeldə olduğu kimi hüququn mütəkamül şəkillərni tətbiq etməklə deyil, elm və fənnin sözgötürməz həqiqətlərinə tabe olmaqla nicat bulacaqdır".[437]

Daha sonra Marksla Engelsin elmi sosializmini, ya da kommunizm idealını təhlil edən Rəsulzadəyə görə onların birgə yazdıqları "Kommunist manifesti"ndə məzlumların zalımları devirməsi ilə dünyanın bir gün cənnətə çevriləcəyi ideyası ən qüvvətli, məntiqli səviyyədə ifadə olunmuşdur.[438] Ancaq marksizmə görə proletariatın kapitalizm üzərində qələbəsindən sonra yalnız ailə, milliyyət, din, sinfi məsələlər deyil, eyni zamanda vətən, dövlət və mülkiyyət anlayışları da aradan qalxacaqdır. Şübhəsiz, bu cür yanaşma Russonun, Hegelin baxışlarının tam tərsi idi. Rəsulzadə hesab edirdi ki, marksizmin bu cür tutumuna qarşı Russonun ("İctimai müqavilə"), Hegelin ("Dövlətin təntənəsi") ideyalarını Almaniyada ən yaxşı davam etdirən Ferdinand Lassal olmuşdur. O, yazırdı: "Almaniya sosial-

[435] Resulzade M.E. Yeni Kafkasiya yazıları (1923-1927). Ankara, Türk tarih kurumu yayınları, 2017, s.338
[436] Rəsulzadə M.Ə. Əsərləri (Mühacirət dövrü: Türkiyə, 1922-1929). I cild, Bakı, "OL" npkt, 2016, s.345
[437] Yenə orada, s.346
[438] Yenə orada, s.351

demokrat firqəsində əskidən bəri “lassalyanizm” namilə məruf bir cərəyan vardır; bu cərəyan marksizmlə daimi bir təsadüm halında idi. Marksın yuxarıda gördüyümüz vəchlə dövlət həqqindəki nəzəri mənfi idi. Halbuki Ferdinand Lassal bu xüsusda tamamilə Hegelə sadiq idi. Müsbət bir görüşü vardı. Dövləti inkar deyil, qəbul ediyordu. Lassala görə dövlət bir sinfin digər siniflər üzərindəki təğəllüb və hakimiyyətindən ibarət deyil, cəmiyyətin idarəsinə yarar, siniflər fövqündə bir makinadır. O, liberalizmin dövləti iqtisadi münasibətə müdaxilədən mən edən nəzəriyyəsini cərh ediyor, böylə bir müdaxilə demokratik dövlətin vəzifəsindən olduğunu iddia ediyordu. Lassala görə əsaslı qanunlar cəmiyyət içindəki ictimai siniflərin bilfeil haiz olduqları qüvvət və iqtidarın həqiqi təvazinini təsbit edən vəsiqələrdir”. [439]

Lassalın dövlətin missiyası ilə bağlı irəli sürdüyü mülahizələri qəbul edən Rəsulzadənin də fikrincə, dövlətin əsas vəzifəsi bir tərəfdən insanların azadlıqlarını təmin etmək, digər tərəfdən isə fərdlərin birləşdirilməsi, onların müsbət xassələrinin aşkar edilməsidir. Ən əsası da odur ki, dövlətləri yıxmaq deyil, onları təkamül əsasında inkişaf etdirmək və sosial ədalətli cəmiyyətlər təşkil etməkdir. Rəsulzadə hesab edirdi ki, marksizmin irəli sürdüyü sosial inqilabın (marksist iniqlabçılar) baş verməsi gününü gözləmək, bunun üçün də fəhlələrin qulaq-başını doldurmaq əvəzinə, ən yaxşısı dövlətin sosial islahatlar həyata keçirməsinə (Russoya, Hegelə əsaslanan Lassalyanizm- təkamülçülər) təkan vermək idi. Rəsulzadə yazırdı: “Lassal ruhunu idealizə edən alman sosialistləri, mövcud inqilab günü uzaqlaşdıqca “Manifest”in firqə proqramında tarixə və keçmişə hörmətən sadə bir bəyannamə rolu oynadığına qane olmuş “Manifest” ilə bərabər “Kapital”ın belə ortaya qoyduğu qəti üqnumları tədqiqi və təhqiqinə lüzum görmüşlərdir. Bernşteyn tərəfindən təmsil olunan bu təqlidçiliyə Almaniya sosializm tarixində “reviziyonizm” deyilir. Reviziyonizm sinif mücadiləsinin əhəmiyyətini idrak

[439] Yenə orada, s.353

etməklə bərabər, bunun Marksda olduğu kimi qəti və mütləq bir qiyməti haiz olmadığını iddia eləmiş, sinfi mənfəətlərini müdafiə etməklə bərabər əmələnin milli mənafe naminə dövlət daxilində digər siniflərlə təşriki-məsai edə biləcəyi ilə, sinif təsanüdünə dəxi mənfi bir nəzərlə baxmamaq lazım gəldiyini irəli sürmüş; eyni zamanda kapitalizm inkişafının Marksın iddia etdiyi vəchlə mütləqa sosializm inqilabına aid olacağı qəziyyəsini dəxi şübhə altına almışdır”. [440]

Beləliklə, alman sosialistlərin (Lassal, Bernşteyn, Bebel və b.) zamanla sinfi həmrəyliklə yanaşı milli həmrəylikdən bəhs etmələri marksizm üçün ciddi zərbə olmuşdur. Xüsusilə də, Lassaldan sonra Bernşteyn, Bebel və Libknextin Almaniya vətənpərvərliyindən, alman milli hisslərindən bəhs etmələri sosial-patriotizmi və milli həmrəylik təlimini ortaya qoymağa başlamışdır. Rəsulzadə hesab edirdi ki, onlar Marksın hər növ xüsusiyyətləri məhv edən internasionalizminə müqabil reformizm və sosial-patrotizmdə insanın öz vətəninin istiqlalını müdafiə etmək lüzumundan bəhs edirdilər. Rəsulzadə yazırdı: “Vətən nədir? Üzərində yaşadığımız torpaqmı? Bu, yalnız yaşadığımız torpaq deyil, Bebelin üsulətlə işarət etdiyi kimi bu, ana-babalarımızdan bizə keçən mənəvi qiymətlərin yekunudur. Bu, həm din, həm dil, həm ədəbiyyat, həm gözəl sənətlər, xülasə bir millətin həqiqi siyasi və mənəvi şəxsiyyətini təşkil edən bütün qiymətlərin məcmuidir!”. [441]

Alman sosioloqlarının bu fikirlərinin az sonra digər xalqlar arasında yayıldığını deyən, Rəsulzadəyə görə 1-ci Dünya müharibəsi dövründə və ondan sonrakı dövrdə də Rusiya təcrübəsi istisna olmaqla, Avropa ölkələrində inqilabçı sosializmdən daha çox sosial islahatçılıq, milli demokratiya fikirləri geniş yayılmışdı. O, yazırdı: “Milyonlarca cana, milyonlarca sərvətə mal olan rus təcrübəsi dəxi isbat ediyor ki, yer üzündə hər növ milli və tarixi əlaqə və rabitələrdən ari cahan cənnəti təsis etmək fikri xam

[440] Yenə orada, s.357-358
[441] Yenə orada, s.359

bir xəyaldır. Bu xam xəyal üçün cahan tarixinin müsbət bir həqiqət olaraq meydana gətirdiyi milli demokrasiyi fəda etmək olmaz. Sosializmin təsisi ilə zərurət dünyasına intəha verilərək hər növ qeyddən azadə bir hürriyyət dünyasına atılmaq xülyası ilə şəxsi hürriyyətimizi bizə ən əmin və ən təbii surətdə təmin edəcək milli istiqlal və milli demokrasi şüarından uzaqlaşmayalım! Biləlim ki, tarixi-ibtida və intəhası bəlli olmayıb daima yüksəklərə doğru gedən layətənahi bir yoldur. Bu yolun çata biləcəyi müxəyyül aqibət şəxsin mümkün olduğu qədər daha hürr, daha sərbəst, daha mütəkamil bir vücud olmasıdır. İnsandakı fərdi məziyyət və nöqsanların əksəriyyətlə mühit və cəmiyyətdən alınan xislətlər olduğunu nəzərə alırsaq, insan cəmiyyətlərinin milliyyət və demokrasi əsaslarında hürr və müstəqil olmalarının cahan tarixindəki rolunu həqqilə anlar, milli dövlət məfkurəsinin ülviyyət və xəllaqiyyətini bütün vücudumuzla hiss və əqlimizlə dərk edəriz!”. [442]

“İnqilabi sosializmin iflası” məqaləsinin davamı kimi az sonra məruzə etdiyi “Demokrasinin gələcəyi” mövzusunda isə, Rəsulzadə artıq milli həmrəyliyin əsil mahiyyətini aydınlaşdırmağa xeyli dərəcdə yaxınlaşmışdır. Bizcə, “Demokrasinin gələcəyi” məqaləsində o, bir tərəfdən müsavatçılığı, digər tərəfdən isə solidarizmi (həmrəylik fəlsəfəsini) təsadüfən izah etməyə çalışmamışdır.

Hər halda Rəsulzadənin 1910-cu illərdə müsavatçılıq ideyasını müdafiə etməsi və həmin müsavatçılıqda da milli-dini ideyalarla sosial-demokratizmin uzlaşdırılması məsələsi, ancaq onun uzaqgörənliyi ilə izah oluna bilər. Başqa sözlə, Rəsulzadənin 1910-cu illərdə ortaya ataraq əsaslandırmağa çalışdığı müsavatçılıq əslində bəzi qüsurlarına baxmayaraq, milli sosial dövlətçilik təlimi idi. Deməli, Rəsulzadənin 1920-ci illərin ortalarından etibarən müdafiə və təbliğ etdiyi Milli təsanüdçülüyün (solidariam-həmrəylik təlimi) kökü müsavatçılqla (milli

---

[442] Yenə orada, s.368

sosial bərabərliklə) bağlıdır. Hər halda Rəsulzadənin demokratiyanın əsas təməl prinsipləri ilə bağlı yazdıqları bunun bariz örnəyidir: "Məlum olduğu üzrə demokrasiyi təşkil edən üç mühüm əsas vardır. Bunlardan birincisi hürriyyət, ikincisi müsavat, üçüncüsü də hakimiyyəti-milliyyə əsaslarıdır. Demokrasi bu üç əsasın tərkibindən hasil olma mənzumədir. Bu əsasları birər-birər təhlil və onların demokrasidəki rollarını tədqiq edəlim. Əvvəla, hürriyyət prinsipini alalım: bu, şübhəsiz demokrasiyə tərkib edən ünsürlərdən ən mühümüdür. Fəqət böylə olmaqla bərabər öz-özünə demokratiyanı təşkil edəməz, hətta hürriyyət prinsipi ilk dəfə olaraq bu gün hamımızın alışqın olduğu kimi, hürrəndiş zəvat tərəfindən deyil, ingilis kəlisalarından müstəqil məzhəblər tərəfindən irəliyə sürülmüşdür. Müsavat fikri də ilk zühurunda bu gün bizim anladığımız mənada zühur etməmişdir. Müsavat fikrini ilk dəfə olaraq hökuməti-mütləqə tərəfdarları irəli çəkmişlərdir. Kralın hakimiyyətini təmin və krallığa mərkəziyyət verdirmək üçün hökuməti-mütləqə tərəfdarları müsavat prinsipini feodalizmə qarşı müdafiə etmişlərdir. Dövlət işlərinin yalnız feodallara xas bir iş olmayıb, qanun nəzərində bütün vətəndaşların müsavi bir həqqə malik olmasını tərvic eləmişlərdir. Sonra hüquqi-tərbiyə tərəfdarları bu fikri daha çox dərinləşdirmiş, insanların bitəb müsavi olmadı fikrini yapmışlardır". [443]

Rəsulzadə hesab edir ki, müsavat prinsipinin mütləq və mücərrəd surətdə tətbiqi də bizi əsil məqsədə çatdırmır. Belə ki, müsavatın mütləq surətdə tətbiqi hürriyyət məhfumu ilə təzad təşkil edir. O, yazırdı: "Siyasi hüquqda müsavat mümkün, iqtisadi fəaliyyət xüsusunda müsavat qabili-təsəvvür olsa da, şəxsiyyətlərdəki xüsusiyyətlərin mənən eyni dərəceyi-təsavidə görülməsi caiz deyildir. bütün xüsusiyyətləri eyni təzyiq altında əzən "müsavat" həqiqi hürriyyət və fərdi zəkayı əzən bir afət olur. Hakimiyyəti-milliyyə prinsipi dəxi surəti-mütləqədə tətbiq olunamaz. Surəti-mütləqədə tətbiq olunacaq hakimiyyəti-milliyyə

[443] Yenə orada, s.372

hürriyyəti-şəxsiyyə prinsipi ilə qatı bir təzad təşkil edər. Bu, kollektiv naminə icra olunan bir cəbr və istibdaddan ibarət olur ki, bir fərd naminə icra olunan istibdaddan çox da fərqli olmaz”. [444]

Rəsulzadəyə görə yeni dövrdə ingilislər arasında ortaya çıxıb fransızlarda inkişaf edən hürriyyət, müsavilik fikirləri çox keçmədən Avropada liberalizm (siyasi liberalizm, iqtisadi liberalizm və s.) cərəyanının yaranmasına səbəb olmuşdur. Rəsulzadə yazırdı: “Sənai inkişaf dövrünə girən Avropanın 19-cu əsrin ilk yarısında və əqllərə heyrət verəcək bir tərzdə zühur edən tərəqqiyyatında hürriyyət fikri ilə fərdiyyət məbdəinin heç şübhəsiz, çox böyük təsiri olmuşdur. Fəqət hürriyyət fikrinin iqtisadiyyata tətbiqi ilə səri surətdə inkişaf edən Avropa sənayesi kiçik sənaye dövrünü atlayaraq böyük sənaye dövrünə keçincə hürriyyət fikrinin iqtisadi və sənai fəaliyyətinin hər sahəsində faydalı olub olmayacağı düşünülməyə başlanılmış, gündən-günə şiddət kəsb edən sinif ixtilaflarının tənzimi üçün hökumətin iqtisadi fəaliyyət sahəsinə müdaxilə edərək ictimai müvazinəyi təminə məcbur olduğu qənaəti hasil olmuşdur. Daha ziyadə liberalizmin müqabili sosializm məsləki zühur eləmişdir”.[445]

Rəsulzadəyə görə sosializm meydana çıxana qədər əgər liberallar daha çox bütöv cəmiyyəti deyil ayrı-ayrı azad fərdləri müdafiə edirdilərsə də, sosialistlər isə tam əksinə azad fərdləri bir kənara qoyub sistematik cəmiyyəti, yəni kollektivçiliyi əsas kimi görüblər. Üstəlik, sosialistlər iddia ediblər ki, dünyada mövcud olab bütün ədalətsizliklərin, haqsızlıqların əsas səbəbkarı iqtisadi liberalizm və fərdiyyətçilikdir. O, yazırdı: ““Liberallar “cəmiyyətə qarşı fərd” şüarını müdafiə edərəkən bunlar münhəsirən cəmiyyəti iltizam və kollektivizmi tərvic ediyorlar. Hal-hazırda Rusiyadan başqa, kollektivizmi tətbiq təcrübəsini icra edən bir məmləkət yoxsa da, ictimai və iqtisadi münasibətləri tənzim üçün fərdi hürriyyəti təhdid edən hökumət tədbirlərinin Avropada və Amerika məmləkətlərinin çoxunda ittixaz olunduğunu iləridə

[444] Yenə orada, s.373
[445] Yenə orada, s.376

bütün təfsilatı ilə görəcəyiz. Bu gün hürriyyəti-şəxsiyyə və mülkiyyət prinsiplərinə qiymət verməklə bərabər, bilxassə iqtisadi fəaliyyətdə fərdiyyətçiliklə cəmiyyətçiliyi təlif və tərkib edən təsanüdüçülk nəzəriyyəsi xeyli dərəcədə qüvvətlənmişdir”. [446]

Onun fikrincə, sosialist cərəyanlarla liberalist məsləklər arasında qalan demokratiyanın bundan çıxış yolu kimi yeni bir təlim ortaya qoyması lazım gəlirdi. Çünki hər iki cərəyan arasında müsbət cəhətlərlə yanaşı neqativ xüsusiyyətlər olduğu üçün, yeni bir məsləkin ortaya çıxmasına inanların görüşü də var idi. O, yazırdı: “Bu görüş sayəsindədir ki, müasir cəmiyyətin ahəngini təmin edən əsas bulundu. Təsanüdçülük (solidarizm) məsləki rəvac buldu. Təsanüdçülük liberalizm kimi mülkiyyət əsasına hörmət edər, yalnız ona qüdsiyyət payəsini verməz. Cəmiyyətin mənafeyi iqtiza etdiyi zamanlarda mülkiyyət həqqinin təhdidini və dövlətcə şu həqqi kullanmaq tərzinin təyinini zəruri görür. O, fərdiyyətçiliklə cəmiyyətçiliyin arasına təlif edər. Bu gün demokrasi məsləkləri arasındakı hakim cərəyan da budur: təsanüdçülükdür. Demək ki, dünki liberalizm əsası üzərinə qaim olan demokrasi fikri bu gün solidarizm sisteminə doğru getməkdədir. Fransa inqilabı əsnasında hakim olan demokrasi fikri fərdin hökumətə qarşı hürriyyətini təmin etmək hədəfinə mütəvəcceh idi; müasir demokrasi zehniyyəti isə yalnız fərdi deyil, zümrəvi mənfəətlərin də təminini düşünmək məcburiyyətindədir”. [447]

Rəsulzadəyə görə, fərdi hürriyyətin mütləq şəkli ilə ictimai hakimiyyətin mütləqiyyəti arasında təsanüdüçülk-həmrəylik ən doğru yoldur, çünki solidarizmdə həm fərdin azadlıqları, həm də siniflərin istəkləri demokratiya, hüquq çərçivəsində nəzərə alınır. Bu baxımdan da, təsanüdçülük yalnız demokratik quruluşda, hüquqi dövlətdə gerçəkləşə bilər. Başqa sözlə, qeyri-demokratik, yəni avtoritar, totalitar, hərbi diktatura, teokratik kimi quruluşlarda həmrəylik-solidarizm mümkün deyildir. O, yazırdı: ““Siyasi relatizm”ə təhəmmül etməyən hər hansı sistemdə təsanüdçülüyün

[446] Yenə orada, s.376-377
[447] Yenə orada, s.377-378

bu xüsüusiyyətləri (yəni fərdin azadlığını və siniflərin istəklərini bərabər şəkildə gerçəkləşdirməsi – F.Ə.) bütün qüvvətilə inkiaf etməkdən məhrumdur. İqtisadiyyat sahəsindən siyasət sahəsinə keçərsək, hüquqi hürriyyətin də yalnız bu sayədə ahəngdar bir mənzumə təşkil edəcəyini həmən hiss edəriz. Şöylə ki, hər hansı cəbhədən baxarsaq, demokrasi ilə hüquq arasında sıx və çox səmimi bir əlaqə buluruz. Demokrasidən bəhs edən bir müəllif deyir ki: "İctimai təşəkküldə hüququn realizasyonunu təmin edən yeganə imkan sahəsi demokrasidir. Hüququn hakimiyyəti və istiqlalı demokrasi yolunun rəhbər yıldızıdır. Digər hökumət sitemlərindən demokrasi bununla ayrılıyor ki, onun üçün hüquq xaricində bir hökumət təşkili qeyri-qabil təsəvvürdür. Hökumətin təşkili ilə hüququn müdafiəsi – demokrasi üçün – iki ayrı ayrı şey deyil, yalnız bir şeydir". Demokrasi ilə hüquq – çox məruf bir təriqə görə - bir sikkənin iki üzüdür. Hüuqun gələcəyi olduğu kimi, demokrasinin də gələcəyi əmindir. Hüququn gələcəyi zavala məhkum olmadığı kimi, demokrasinin istiqbalı da məchul deyil-dir. Demokrasi məhkum zaval isə, hüquq fikrinin də inqirazını bəkləməliyiz. Bu isə süfla ünsürlərin zəfəri və hüquqi mədəniyyətin inqirazı deməkdir. İnsaniyyətin gələcəyinə və mədəniyyətin zəfərinə inananlar üçün demokrasinin də inkişafına inanmaq bir zərurətdir". [448]

Rəsulzadəyə görə demokratiya ilə yanaşı hüquq da solidar-izm üçün çox önəmlidir. Çünki millətə, cəmiyyətə aid hüquqla fərdin hüququ arasında uzlaşdırmanın olması təsanüdçülüyün əsas prinsiplərindən biridir. Onun fikrincə, hazırda nəinki zor gücünə qurulmuş sosialist cəmiyyətlərdə, heç liberal-demokratik toplum-larda da hüququn bu iki xüsusiyyəti arasında uzlaşdırmanı istənilən şəkildə reallaşdırmaq mümkün olmamışdı. O, yazırdı: "Fərzən dövlət idarəsindən hökmdarın hüquqi-xüsusiyyəyə müstənid istibdad və mütləqiyyətini tamamilə atan və onun yerinə arayi-ümumiyyə ilə müşəxxəs və hüquqi-ümumiyyəyi müməssil

---

448 Yenə orada, s.380-381

xalq müəssisəsini vəz edən demokrasi, iqtisadi və ictimai həyat sahəsində hala hökmran olan fərdi hüquq müməssillərini ictimai hüquqa tamamilə tabe edəməmişdir. Dövlətdə irsi hökmdarlığın əhəmiyyəti tammailə səlb edilmiş ikən, bir dövlət qədər əhəmiyyət kəsb edən böyük fabrikada bu prinsip hələ də hökmrandır. Hüququ tələqqisindəki bugünkü məxsus inkişafın gözə aldığı istiqamət iştə budur. Fərdi hüququn hər cəhətcə ictimai hüquqa tabe olmasıdır”.[449]

Rəsulzadəyə görə demokratiya hər şeydən əvvəl müəyyən bir fikri mənzuməsidir ki, burada fərdin hüquqları, azadlıqları nəzərə alınmaqla cəmiyyətin hüququ, onun milli varlığı da qorunmalıdır. Bu baxımdan demokratik dövlətlərdə yalnız fərdin hüquqları düşünülməməli, eyni zamanda ayrı-ayrı fərdlərdən təmsil olunan cəmiyyətin bütünlüyünü də nəzərə almaq lazımdır. Eyni zamanda, fərdiyyətçilik və liberalizm dövründən sonra ortaya çıxan zümrə təşəkkülləri, məslək təbəqələri məsələsinə hüquqi müstəvidə yanaşmaq vacibdir. Rəsulzadənin fikrincə, əslində 20-ci əsrin əvvəllərində yalnız ifrat cəmiyyətçiliyin deyil, eyni zamanda Avropada parlamentarizmin böhrana düşməsində də, liberalizmin doğurduğu zümrə təşəkkülləri, yəni sosial təbəqələşmə mühüm rol oynamışdır. O, yazırdı: “Müasir dünya iqtisadiyyatdakı fərdiyyət və liberalizm dövrünü atlayaraq zümrə təşəkkülləri və məslək təəzzüvləri dövrünə girincə məsələ dəyişdi. İctimai hüquq tələqqisi qüvvətləndikcə sadə fərdi hüquqi təmsil surətilə təşəkkül edən parlamentarizm, müasir demokrasi məzrufinin təbii bir zərfi olmaq xassəsini qaib etdi. İnkişaf tərəqqisi nisbətində artan iş bölümü nəticəsində mövcudiyyət peyda edən min cür iqtisadi və ictimai zümrə təşəkkülləri siyasi həyatda sadə bir fərd surətilə təmsil edilməyi kafi görmədilər. Fərdi təmsil ilə bərabər, ictimai təmsil əsası da tətbiq olunmalı idi. Yoxsa, sadəcə fərdi təmsil ilə təşəkkül edən parlamanlar müasir cəmiyyətin çox müəzzil və kərfət ehtiyacatını anlamaqdan və tətmin etməkdən

---

[449] Yenə orada, s.383

aciz qalacaqlardı. Hərbi-umumidən sonra şahidi olduğumuz ictimai böhranların yeganə mənası budur. Sırf fərdi təmsil üzərinə müəssəs olan rəsmi demokrasinin zərfini təşkil edən "parlamentarizm" ilə həqiqi demokrasiyi təşkil edən ictimai zümrələr və bunlara məxsus iqtisadi mənfəətlə\r arasında dərin bir uyğunsuzluq vardır. Demokrasi məzrufi böyümüş, genişləmiş, məfhumi təkamül etmiş və bu təkamül kəndi ifadəsini hüquq məfhumunun yeni tələqqisində bulmuşdur; demək ki, demokrasi məzrufi həm maddətən, həm də mənən böyümüşdür; halbuki zərf o nisbətdə böyüməmiş, əski şəklində qalmışdır. Bundan dolayıdır ki, biz böyük bir "böhran"a şahid oluyoruz. Fəqət bu böhran demokrasinin deyil, parlamentarizmin, mənanın deyil, şəklindir".[450]

Rəsulzadə belə nəticəyə gəlirdi ki, indivudalizm (fərdiyyətçilik) və universalizm (külliyyət) arasındakı məsələdə ən doğru yol təsanüdçülüklə bağlıdır. Çünki yalnız solidarizmdə həm fərdin, həm də ümuminin maraqlarına cavab vermək mümkün olur. Eyni zamanda, milli təsanüdüçülkdə sosial məsələ ilə milli məsələ arasında uzlaşdırma da mümkündür. Rəsulzadəyə görə məmləkəti əcnəbi düşmənin qanlı istilası altında inləyən millətin fərdi heç bir zaman inqilabi sosializmin arxasınca getməz. O, yazırdı: "Bizcə hər cür islahatı rədd edən əski qafalı mürtəcelər milli vəhdət, milli inkişaf və milli istiqlal üçün müzürr olduqları kimi, milli vəhdət və bu vəhdəti təşkil edən siniflər arasında təsanüd və müsahiləyi inkar ilə sinif mücadiləsini atəşləyən kommunistlər də eyni dərəcədə müzürrdürlər. Biz hər cür sinif diktatorluğunun əleyhindəyiz. Hədəfimiz millətin vəhdəti, istiqlalı və hürriyyətidir. Bizi bu hədəfə doğru götürən vasitə isə gələcəyi heç də şübhə doğurmayan təsanüdçü demokrasi məfkurəsidir!". [451]

1950-ci illərin başlarında qələmə aldığı "Milli təsanüd" məqaləsində Rəsulzadə yazırdı ki, dövlətin formalaşması bir neçə mərhələdən keçib: "Hürriyyət prinsipi ilə mülkiyyət əsasının mədəniyyət tarixində oynadıqları böyük rol məlumdur. XVIII

[450] Yenə orada, s.395-396
[451] Yenə orada, s.404

əsrin sonları ilə XIX əsrin əvvəllərində elm, fənn, fəlsəfə və estetika sahəsində görülən parlaq müvəffəqiyyətlərin anası "hürriyyət"; onlarla birlikdə yürüyən sənaye inqilabi nəticəsindəki maddi tərəqqilər ilə iqtisadi gəlişmeyi doğuran da "mülkiyyət" olmuşdur".[452] Onun fikrincə, bunun ardınca bir sıra ölkələrdə baş verən mühüm ictimai-siyasi hadisələr liberal düşüncə tərzini ortaya qoymuşdur: "Siyasət sahəsində fransız inqilabının elan etdiyi "insan haqları" bəyannaməsində, iqtisad sahəsində də Mançestr məktəbinə mənsub iqtisadçıların "burax keçsin, burax yapsın" şəklindəki formullarıyla əsaslandırlan bu prinsiplər burjua inqilablarında qəhrəmanlıqlar yaradan liberal düşünüş sisteminin əsasını təşkil etmişdir. İnsanı, orta əsr gerliyinin siyasi, dini və iqtisadi üç qatlı zərurət və əsarət məhkumiyyətindən qurtaran və fərdə cəmiyyət içində layiq olduğu vətəndaş mövqeyini verən qüvvət liberalizmin zəfəri olmuşdur".[453]

Liberal dövlətin mahiyyətinə gəlincə, Rəsulzadə yazırdı: "Liberalizm, dövlətin vətəndaş üzərindəki hakimiyyətini ən az dərəcəyə endirib, onu yalnız daxili asayiş ilə xarici əmniyyət təmin edən cəmiyyət xidmətində və nəzarətində bir müəssisə görmək istəmiş; dinin dünya işlərindən ayrılığını tələb edərək, vicdanların hər cür təzyiqdən azadlığını gözə almış; iqtisadi sahədə dəxi satış təşəbbüsünün istiqlalına hörmətlə mülkiyyətin qutsallığını elan etmişdir. Liberalizmdə əsas ideal, fərdin ən çox hürriyyəti və dövlətin vətəndaşlar arasındakı qarşılıqlı münasibətə ən az müdaxiləsidir. Şəxsi təşəbbüslərlə mülkiyyət haqqını tapdayan və təhdid edən hər hansı dövlət müdaxiləsi bu sistemin klassik baxışına qətiyyən uyğun deyildir."[454]

Rəsulzadəyə görə liberal dövlət müəyyən bir zamana qədər tarixi vəzifəsini uğurla görmüş, feodalizm sisteminə bağlı qalan cəmiyyət qüvvələrinin hər sahədə açılaraq irəliləməsini təmin etmişdir. Ancaq hər tarixi cəmiyyət növü kimi zəncirlərini qıraraq

---

[452] Resulzade M.E. Milli tesanüd. Ankara: Kardeş matbaası, 1978, s.13
[453] Yenə orada, s.13
[454] Yenə orada, s.13

böyük bir süratlə irəliləyən liberal cəmiyyət də içindəki əks qüvvələrin böyüməsilə yeni ictimai təzadlar qarşısında qalmışdır. O, yazırdı: "Başıboş (azad) rəqabət əsasına dayanan liberal istehsal sistemi təşəbbüslü və eqoist fərdlər arasında hüdud və ölçübilməz bir mücadiləyə meydan vermişdir. Bu isə bildiyimiz kapitalizmi doğurmuş və ona bağlı bütün sosial təzadları qanadlandırmışdır. Sözdə siyasi hürr, mənən hürr və iqtisadi hürr olan vətəndaşlar, budur yarını məchul, bir dilim çörək qazancının əsiri bir hala gəlmişlər. Zahirdə hakimiyyət "ümumun rəyinə" dayanan parlament içindən yaradılmış "məsul hökumətlər"də isə də, həqiqətdə əsil hakimiyyət yeni para aristokratiyası deyilən bankirlərlə fabrikaçıların əlində. Bir tərəfdə gözqamaşdırıcı əfsanəvi zənginlik, o biri tərəfdə isə ürək yaxan bir fərqli səfalət. Sinfə qarşı sinif. Daxili mücadilə. Vətəndaşlar bıçaq-bıçağa". [455]

Liberal cəmiyyətdə yeni qüvvələrin meydana çıxdığını qeyd edən Rəsulzadə bunlardan birinin də kommunizm olduğunu yazır: "Liberal dövlət bizzat kəndi sisteminin məhsulu olan kapitalizmin doğurduğu böhranla mücadilədən acizdir. Bu təzada yenə cəmiyyət içərisində doğan yeni qüvvətlər qarşı gəlirlər. Kapitalizmin doğurduğu proletar sinfinə dayanan inqilabçı sosializm ideolojisi doğur. Digər adı kommunizm olan bu ideolojiyə görə, burjua cəmiyyətini iztirablar içində tutan şey liberalizmin istehsal sahəsindəki anarxiyaya izn verən fərdiyyətçiliyidir. İstehsal alətləri üzərindəki şəxs mülkiyyəti haqqı baqi qaldıqca-kommunistlərə görə-insan cəmiyyətinin iztirabına son gəlməz. Cəmiyyətlərin bir millət və dövlət içində vəhdətləri onlarca bəhs mövzusu olamaz… Hökumət demək, Leninin təbrincə, həddi zatında bir sinfin digər sinifləri əzmək və kəndinə tabe etmək üçün qurmuş olduğu cəbr makinasından başqa bir şey deyildir. Bunun üçün də Marksa görə, əmələnin nə vətəni, nə də milləti var. Vətən və millət hissindən məhrum olan bu insanlar zümrəsi - proletariat burjua "diktatorluqlarını" devirərək, kəndi hakimiy-

[455] Rəsulzadə M.Ə. Milli birlik. Bakı, «Çıraq» nəşriyyatı, 2009, s.25

yətini quracaq və tədricilə bütün sinifləri ortadan qaldıraraq sinifsiz və təzadsız bir cəmiyyət yaradacaqmış. Hürriyyət və mülkiyyət prinsipləri üzərində qurulan mədəniyyəti bütün əsərləri ilə inkara qalxışan bu müfrit cərəyan, yeni bir mütləqiyyət idealı doğuryor ki, onun ən kamil və ən amansız müməssili kommunizm və Rusiyadakı misalı isə bolşevizmdir… Nə fərdi hürriyyətlə şəxsi mülkiyyətin mütləqiyyətindən doğan kapitalist anarxiya ilə sərmayə istibdadı, nə də insanları mənliyindən çıxararaq, bir kölə və makina halına gətirən kommunizm əsarəti! Nə mütləq liberalizm, nə də mütləq kollektivizm! O halda: İkisini təlif edən solidarizm = təsanüd”. [456]

Dövlət sistemində mütləq liberalizmi və kommunizmi rədd edərək solidarizmə üstünlük verən M.Əmin yazırdı: “Təsanüdçülükdə əsri mədəniyyətin əsasını təşkil edən- hürriyyət, şəxsi təşəbbüs və mülkiyyət əsasları baqidir. Fəqət, eyni zamanda dövlət, mütləq liberalizmdə olduğu kimi, fərdlər, siniflər və zümrələr arasındakı münasibət və mücadilələrə laqeyid, sırf zabitə vəzifəsiylə mükəlləf bir müəssisə deyildir. Bu sistemdə hürriyyət də, mülkiyyət də mütləq deyil, məşrutdur, şərt isə ümumun mənfəəti və dövlətlə millətin səlamətidir. Şəxsin olsun, zümrə və ya sinfin olsun – hürriyyəti, topluluğun yüksək mənfəətləri və hürriyyətini pozmamaq şərtləri ilə çərçivələnmişdir. Liberalizm bu hüdudu bir şəxsin hürriyyəti ilə digər şəxsin hürriyyəti arasında ancaq etibar edir; bunun üçün də dövlətin vəzifəsini sadə bir zabitə və məhkəmə dərəcəsinə endirmək istəyirdi. Solidarizmdə isə dövlət millətin müməssil və cəmiyyətdəki münasibətlərin nəzimidir. Bu surətlə, solidarizm hürriyyət və mülkiyyət müəssisələrində qoyulmuş təbii təşəbbüs və irəlləmə həmlələrini zədələmədən, kapitalizmin liberal sistemdə ümumi mənfəət zərərinə işləyən ifratlarının önünə keçmək vəzifəsini dövlətə verir”. [457]

Rəsulzadə daha sonra yazırdı ki, sinifləri əsas olaraq alan kommunizm kimi, fərdləri nəzəri-etibara alan liberalizm də daha

[456] Yenə orada, s.25-26
[457] Yenə orada, s.27

kosmopolit və internasyonaldır. Ona görə, yalnız solidarizm millidir. O, yazırdı: "Çünki sadə şəxslərin və siniflərin maddi mənfəətə bağlı xüsusiyyətlərinə deyil, siniflər və fərdləri bir cəmiyyət halına gətirən mənəvi qüvvətlərə böyük qiymət verir. Bu mənəvi qüvvətlər isə millət və dövlətlərin gerçəkləşməsində birləşdirici amil olaraq təsir edən dil, din, tarix və ümumiyyətlə, kültür və ortaq ideal kimi mənəvi qüvvətlərdir".[458] Bununla da o, həmrəylikdəki bu milliliyin mənəvi dayaqlarının birləşdirici amilini "dil, din, tarix və ümumiyyətlə, kültür və ortaq ideal kimi mənəvi qüvvətlərdə" görürdü.

Rəsulzadəyə görə, liberalizm mədəniyyətin ruhunu fərdin yaradıcı eqoizmində, kommunizm sinfi eqoizmdə görür ki, hər ikisi ifrata varanda cəmiyyət üçün zərərli olur. Bu baxımda sinfi və fərdi eqoizmi qəbul etməyən Rəsulzadə bütün bunlardan çıxış yolu olaraq solidarizmi göstəriridi: "Liberalizm mədəniyyətin ruhunu fərdin yaradıcı eqoizmində görür. Kommunizm isə bunu sinfi eqoizm ilə təbdil edir; solidarizm isə mədəniyyəti fərdi eqoizmlə cəmiyyət mənfəətləri arasındakı ahəngdən ibarət bilir. Liberal cəmiyyətdə başqasını düşünmək (alturizm) qəhrəmanlıqdır. Solidarizmdə isə bu bir vəzifədir. Kültür və tarix bağlarıyla mənəvi birlik təşkil edən bir millətin fərdləri, topluluğun ortaq mənfəətlərini qorumaq üçün öz şəxsi istək və mənfəətlərini hüdudlandırmaq məcburiyyətindədirlər. Topluluğun mənfəətlərini təmsil edən müəssisə dövlətdir. Fərdin mənəvi mənliyini təşkil edən ortaqlı bütün qiymətlərin qaynağı milli camiə, onu təmsil edən də dövlətdir".[459]

Rəsulzadəyə görə fərdin mənəvi mənliyini təşkil edən ortaqlı bütün qiymətlərin qaynağı milli cəmiyyət, onu təmsil edən də dövlətdir. O, yazırdı: "Fərd digər fərdlərlə ortaq olduğu bu mənəvi mənliklə özünə məxsus mənfəətlərdən ibarət maddi mənlik arasında ixtilaf çıxınca, maddiliyini mənəviliyinə fəda etmək məcburiyyətindədir. Hürr və kamil insan olmaq fəzilətinin

---

[458] Yenə orada, s.28
[459] Yenə orada, s.27-28

hökmü bundan başqa ola bilməz. Dövlətlər, millətlər və cəmiyyətlər ancaq "canlarını cananlarına fəda edə bilən" bu kimi üzvlərə malik olduqları zaman uzunömürlü ola bilirlər". [460]

Rəsulzadə dünyada hakim olan iki əsas sistemdən fərqli olaraq belə bir müddəa irəli sürür: "Madam ki, millətçiyiz, diyoruz; madam ki, milli dövlət istiqlalını müdafiə ediyoruz, o halda bizim üçün nə kosmopolit liberalizmə və nə də kommunizmə təhəmmül caiz olamaz. Bizcə müdafiə ediləcək yeganə sosial sistem milli təsanüd sistemidir".[461]

Rəsulzadə inanırdı ki, milli-dini dəyərlərlə sosial-demokrat və liberal dəyərlərin uzlaşmış nöqtəsinə çatmaq olar. Rəsulzadə bolşeviklərdən fərqli olaraq sosial məsələyə, onların milli məsələyə yanaşdıqları kimi baxmadığını ortaya qoyurdu. Rəsulzadə sosial məsələlərə milli yöndə baxmaqla, bolşeviklərin proletar "millətçilik" baxışlarını heçə endirmiş oldu. Rəsulzadə bolşeviklərin güya, millətçilik məsələsinə hörmətlə yanaşması fikrinin yanlış olduğunu isbat etdi. O, əsl milli təsanüdün necə olmasını göstərməklə həqiqətin ortaya çıxmasına nail oldu. O, "Milli mücadilədə sosial şüarlar" məqaləsində yazırdı: "Milli dava və sosial məsələ. Bu iki anlamı bir-birindən ayırmaq qəbul olsa idi, yuxarıdakı ilk suala mənfi cavab verər, "milli hərəkat adamlarına sosial məsələlərlə məşğul olmaq caiz deyildir!" deyərdik. Halbuki, həqiqət öylə deyildir: Bir kərə "millət"in özü ictimai, yəni sosial bir anlamdır. Milli dava dəxi, əhatəli və ötkün bir baxışla, sosial bir davadır. Bir millət nə zaman müstəqil olur və bu istiqlalı nə üçün istər? Bu suallara cavab aradığımız zaman milli istiqlal davası ilə sosial məsələlər arasında ayrılıq deyil, dərin bir bağlılıq olduğunu görürüz. Bir millətin dışarıya qarşı həqiqi istiqlalı, içəridəki milli hakimiyyətinin həqiqiliyi ilə mütənasibdir. Dövlətlər arasındakı "milli istiqlal" anlamının bir dövlət içindəki qarşılığı, "milli hakimiyyət" sözündəki mənadır".[462]

---

[460] Yenə orada, s.28
[461] Yenə orada, s.28
[462] Resulzade M.E. Milli tesanüd. Ankara: Kardeş matbaası, 1978, s.43-44

O, fikirlərinə davam edərək yazırdı: "Azlığın çoxluq üzərindəki cəbrinə, qolçomaqların əməkçiləri zorlamalarına, qüvvətlilərin zəifləri istifadə etmələrinə, çalışdıranların çalışanları əzdiklərinə təhəmmül edən cəmiyyətlərdə milli hakimiyyətin kökləşdiyinə qane olmaq qeyri-mümkündür. İctimai bünyəsi, bu və ya digər şəkildə həll edilməmiş sosial məsələlər üzündən, biri birinə zidd mənfəətlər daşıyan düşmən zümrə və siniflərin amansız çəkişmələr ilə didilən bir cəmiyyətin nə içəridə milli hakimiyyəti, nə də dışarıda milli istiqlalı qətiyyən təmin ediləməz. Dışarıdan gələn bir təhlükəni bütün millətin eyni həvəs, həyəcan və fədakarlıqla qarşılaya bilməsi üçün o milləti təşkil edən siniflərin o təhlükəni eyni dərəcədə hiss etməsi lazımdır və yaxud başdan atılması istənilən bir istilaya qarşı bütün bir millətin ayağa qalxması üçün ayaqlandırılacaq bu millət kütləsini təşkil edən sosial təbəqələrin ümumi zəfərdən əldə edəcəkləri maddi-mənəvi bütün mənfəətlər əvvəlcədən bilinməlidir." [463]

Onun fikrincə, hürriyyət, milliyyət və istiqlal kimi mücərrəd siyasi şüarlar, münəvvər kütləyə xitab edən və onları inqilablaşdıran anlamlardır: "Geniş xalq təbəqələrini ayaqlandırmaq üçün, sadə şüarlar kafi deyildir. Onlar hərəkətə keçmək üçün, daha maddi və daha sərih şüarlar istər. Sosial şüarların xalq kütlələrini ayaqlandırmaqda siyasi şüarlardan daha mühüm rol oynadığı hərb sonu hadisələrində bilxassə görülmüşdür. Kütlənin sadə sosial şüarlar və ancaq maddi mənfəətlər sövqi ilə hərəkətə gətirilərək inqilablaşdırıla biləcəyini xeylicə hesaba alan inqilabçı marksizm taktikasına əsas olaraq, sinif mücadiləsini və internasyonal sosializm almışdır. Eyni məktəbin məhsulu və məmləkətimizin bugünkü müstəvisi bulunan bolşevizm dəxi-məlum olduğu üzrə-eyni məktəbin şagirdi və eyni taktikanın sahibidir. Onunca əsas, siniflər və onlar arasındakı mücadilədir. Bu isə milli deyil, beynəlmiləl bir işdir."Millətlər isə – onun gözündə – tarixin keçici və epizodik bir hadisə və müəssisələridir. Bəşəriyyətin atlatdığı

[463] Yenə orada, s.44

gerilik mərhələlərindən milliyyət bəlkə də həzmi (yox olması) çox uzun sürəcək birisidir”. Bunun üçün də bu məsələ, yəni milliyyət məsələsi, bolşeviklər üçün ikinci dərəcədə, sosial məsələyə – sinif mücadiləsi mənfəətlərinə tabe bir məsələdir[Stalinin formulu]”.[464]

**Milli həmrəylik təlimi faşizm və hitlerizmə qarşı.** Rəsulzadəyə görə, həyat və təcrübə bu baxışın getdikcə daha çox ruslaşan bolşevizmin yalnız işinə gəldiyini, yəni Rusiya çarlığı daxilindəki məhkum millətləri təkrar Moskva hakimiyyəti altına almaqdakı qızıl imperializmin hiyləsinə yaradığını göstərdisə də, bunun xaricində ümümi cahan ölçüsündə tamamilə əks bir qaziyəni isbat etdi: sosial məsələlərin milli mənfəət naminə və milli dövlət çərçivəsində həlli parlaq misallarla görünmüş oldu! Buna örnək kimi İtaliya və Almaniyanı göstərən Rəsulzadə yazırdı: “Mussolininin internasional sosializm və sinif qovğası nəzəriyyəsinə verilmiş inqilabçı italyan sosialistləri içindən gəldiyi məlumdur. Bunun kimi Hitlerin təsis və idarə etdiyi partiyanın rəsmi adı “Milli Sosialist Alman Fəhlə Partiyası”dır. Burjua rejiminin məhsulu saydığı milli hüdud və dövlətlər daxilində ediləcək sosial islahat təcrübələrindən radikal fayda ummayan marksizm, cahan hərbi sonunda Rusiyada partlayan kommunizm inqilabı növündən beynəlmiləl inqilablar nəticəsində “internasional sosializmin” bütün dünyaya yoluxacağını gözləmişdi. Halbuki nəticə əksinə çıxdı: sosial inqilablar bir millət və dövlət hüdudu içində vaqeə gəldilər. Hətta Rusiya inqilabçıları belə – Stalinin şəxsində – “bir dövlət içində sosializm nəzəriyyəsini dəstəkləsək” zərurətində qaldılar. Milliyyət məsələsinin ikinci deyil, ali, təbii deyil, ictimai bir məsələ olduğu – İtaliya və Almaniya kimi klassik iki misal ilə qafaya danq edər bir surətdə isbat edildi”. [465]

Rəsulzadəyə görə, bolşeviklərdən fərqli olaraq Mussolin İtaliyası və Hitler Almaniyasında isə sosial şüarlardan radikal anlamda milli mənfəətlər üçün istifadə edilməyə çalışılmışdır. Bu

---

[464] Yenə orada, s.44

[465] Yenə orada, s.44-45

zamanda italiyan və alman nasonal-sosialistləri irqçilik nəzəriyyəsini əsas tutaraq, ancaq bir xalqın üstünlüyünə əsaslanmışlar. O, yazırdı: "İtaliyada Mussolinin, Almaniyada Hitlerin bolşevizm və marksizm demaqojisinə qapılmış fəhlə və kəndli siniflərinə xitab edən sosial proqramlar və işə gəldikdən sonra bu proqramların həmən, müəyyən bir plan və sistem daxilində tətbiqi xüsusunda göstərdikləri əzim və iradələri olmasa idi, nə ötəkisinin yeni Roma yapacaq qədər iqtidara, nə də bərikisinin Almaniyaya milli heysiyyət və istiqlalını qaytaracaq qədər müvəffəqiyyəti olurdu. Münəvvərlərin milli heysiyyət, milli qürur və vətənçilik xislətinə xitab ilə bərabər, geniş xalq kütlələrinin eyni hissiyyatla bərabər həyati mənfəət və ehtiyaclarına da cavab verə bilmələrilərir ki, bu iki hərəkat qeyd etdiyimiz bu parlaq nəticəni əldə etmişlər."[466]

Rəsulzadə yazırdı ki, bu məsələ tək zamanımızın Avropa səhnəsində cərəyan edən bu iki mühüm hadisə ilə dəlilləndirilə bilməz. Əski – yeni milli bütün hərəkatlar diqqətli tədqiq olunursa, milli davaların sosial məsələlərlə sıx surətdə əlaqədar olduqları meydana çıxar. O, yazırdı: "Amerika istiqlalı oradakı kəndlilərin İngiltərəyə qarşı öz məhsullarını sərbəstcə sata bilmək haqqını qazanmaq üçün başlanan mücadilənin məhsuludur. Vaşinqton bir istiqlal qəhrəmanı olduğu qədər, bir kəndli üsyanının da başçısıdır. Monreonun "Amerika amerikalılar üçündür!..." – deyə meydana atdığı şüar da milliyyət davası ilə sosial şüarların birbirinə bağlı şeylər olduğunu ifadə edir. Yaponiyanın siyasi oyanışı onu ticarət və istismar məqsədilə zora salan əcnəbilərə qarşı sosial bir reaksiya ilə başlamışdır. Milli Çin istiqlalının başçısı Sun Yat Senin bəlli proqramı çox əsaslı sosial məsələləri ehtiva etməkdədir. Hindistandakı Svarac [İstiqlal] hərəkatının liderləri ingilis hakimiyyətinə qarşı siyasi mücadilə etdikləri halda öz içərilərini gəmirən kast ayrılıqları kimi, sosial məsələlərlə də məşğuldurlar. Hindistan kimi, Misirdəki istiqlal hərəkatı da bu ehtiyacdan vaz kesmiş deyildir. Nil vadisindəki milli hakimiyyət

---

[466] Yenə orada, s.45

və həqiqi istiqlalın təmini məsələsinin fəllahlara rifah gətirəcək sosial islahatlara bağlı olduğu bəhs mövzusudur”.[467]

Rəsulzadə yazırdı ki, Türkiyə ilə “İran” milli hərəkatları da əcnəbi imperializminin təzyiqi altında kəskinləşən sosial məsələlərin təsirilə meydana gəlmişdir. Onun fikrincə, özəlliklə də, Atatürkün bəlli təbirilə “əfəndisi kəndli olan” yeni Türkiyənin tətbiq etdiyi iqtisadi dövlətçilik də bax bu zərurətdən doğan sosial tədbirdir. Məruz qaldığı qanlı müxalifətlərə baxmayaraq eyni Türkiyənin orta zaman feodalizminin geri müəssisələrini qaldıraraq, əsri demokratiya müəssisələrini yerləşdirməkdəki israrı da bunun üçündür. O, yazırdı: “Öz yaxınlarımıza gəlmişkən, zaman etibarı ilə bir az əski olsa da, mahiyyəti və müvəffəqiyyəti etibarı ilə şöhrəti hələ dillərdə dastan olan Qafqaz qəhrəmanı böyük Şamilin ortaqlı düşmən çarlıq Rusiyasına qarşı etmiş olduğu şanlı mücadilədə islamiyyətdə mövcud dini demokratiyadan faydalanaraq baş qaldıran aristokratiyasını milli mücadilə iradəsinə tabe qılmaq məqsədilə sosial tədbirlərə əl ataraq, böyük feodal torpaqlarını mücahid – müridlər arasında böldüyünü də xatırladırıq”. [468]

Deməli, rus bolşevizmindən ancaq İtaliyada Mussolin, Almaniyada isə Hitler sosial şüarlardan milli mənfəətlər üçün istifadə etməmişdilər. Sadəcə, bu məsələdə ən ifrata varanlar faşizm və hitlerizm olmuşdur. Hər halda bolşeviklər sosial şüarlarını beynəlmiləl proletar sinfi uğrunda mübarizə adı ilə təqdim etdikləri halda, Mussolin və Hitler isə, bütün bunları italiyan və alman xalqlarının mənafeyi adına milli şüarlar kimi qələmə verirdilər. Bunun da nəticəsində İtaliyada nasonal-sosializm adlandırılan “faşizm” (“ittifaq”, “birlik”), Almaniyada isə hitlerizm meydana çıxmışdır. İtaliyan nasional-sosialistləri “faşizm” adı altında qədim Roma imperiyasının bərpasını hədəflədikləri halda, alman hitlerçilər də “üstün alman xalqı” irqçiliyi ilə Almaniyanı dünya imperiyasına çevirmək niyyətində idilər. İtaliyan faşistləri ilə alman hitlerçi-

[467] Yenə orada, s.46-47
[468] Yenə orada, s.47

lərin öz xalqlarının geniş kütlələri arasında uğur qazanmalarında rus bolşevizminin "beynəlmiləlçiliy"i mühüm rol oynamışdır.[469]

Bu baxımdan Rəsulzadə hesab edirdi ki, rus bolşevizm olmasaydı, İtaliya və Almaniyada faşizm bu dərəcədə uğur qazanmazdı. Çünki marksizmə əsaslanan rus bolşevizminin ifrat "beynəlmiləlçiliy"i İtaliya və Almaniyada uyğun olaraq faşizmlə hitlerizmin ortaya çıxmasına gətirib çıxarmışdır. Rəsulzadə rus bolşevizmi kimi, sosial şüarları milli şüarlar adı altında dəyişdirən faşizmlə hitlerizmi də qəbul etmirdi. Ona görə millətçilik və milli istiqlal incə bir məsələdir ki, faşizmlə hitlerizmin ona başqa yerə sürükləməsi qəbul edilməzdir. Rəsulzadə yazırdı: "Milli istiqlal-bu bir zərfdir, məzruf isə – milli hakimiyyətdir. Kəndini təşkil edən təbəqələr arasında nisbi olsun ictimai müvazinət və yenə nisbi olsun iqtisadi rifah təmin edəmiyən bir cəmiyyətdə isə, milli hakimiyyət təsisi qeyri mümkündür. Tək siyasi deyil, həyatın bütün sahələrini əhatə edərək həyatın sosial məsələlərini də məşğuliyyət və icraatı daxilində görən əsri milliyyətçiliyin hərəkət fəlsəfəsi də budur".[470]

2. Dünya müharibəsi başlamamışdan öncə Rəsulzadə yazırdı ki, hitlerçilik hər şeydən əvvəl kommunizm "demokratiya"sına qarşı çıxış etmək üçün yaranmışdır. Hitlerçilik faşizm kimi öz müxaliflərindən diktatorluq fikrini götürmüş, lakin aradakı beynəlmiləlçiliyi radikal millətçiliklə əvəz etmişdir. O, yazırdı: "Milli istiqlal qayəsini və milli mənlik fikrini şiddətlə mənimsəyən faşizmlə istiqlal və milli mənlik adına vuruşan millətlər üçün, sözün beynəlmiləl mənası ilə, zəmin və zamana görə bir anlaşma imkanı qeyri varid deyildir; fəqət milli istiqlal davası ilə hürriyyət və demokrasi sistemi arasında yaxın artıq mərbutiyyət duyan Rusiya əleyhdarı milli istiqlal hərəkətləri üçün, sosialist ideologiyasını

---

[469] Xəlilli Xəlyəddin. Sosializm ideologiyasının mənbələri, inkişafı və faciələrinin tarixinə giriş. Bakı, Xan nəşriyyatı, 2022, s. 127

[470] Resulzade M.E. Milli tesanüd. Ankara: Kardeş matbaası, 1978, s.47

daşısalar belə, Moskva diktatorluğu ilə birləşənlərə qarşı hüsnü təvəccühlə baxmaq imkanı heç bir vəchlə varid olamaz”.[471]

Əslində isə Rəsulzadənin rus imperiyası əvəzinə alman imperiyası ilə müstəmləkəçilik anlamında razılaşması mümkün deyildi: “Daxildə və xaricdəki düşmənlərinin qənaətincə, Hitlerizm demokrasi rejiminin müxalifi olaraq iş başına gəlmiş; təsisinə başladığı idarə İtaliyada olduğu kimi, faşist diktatorluğu imiş; müxaliflərinin tələqqisinə görə, təhlükə sadə hürriyyət və demokrasi prinsiplərinə deyil, eyni zamanda beynəlmiləl sülh dəxi qorxu altındadır. Avropa sosialist partiyaları ittifaqından ibarət olan İkinci İnternasional icraiyyəsi nəşr etdiyi bir bəyannamədə bütün cahan fəhləsini bu təhlükəyə qarşı çıxmağa dəvət edir, bu xüsusda Üçüncü İnternasional ilə birləşməyi təklif edir. Hürriyyət və demokratiya prinsiplərini Hitlerə qarşı müdafiədə Stalindən yardım istəyir, qəribə bir müraciət deyilmi?!...Fəqət günün qəribəlikləri bu qədərlə qalmır. Kommunistlərin özləri belə indi hürriyyət və demokratiya müdafiəçiləridirlər. Təbii, Sovetlərdə deyil, Almaniyada.”[472]

Rəsulzadə yazırdı ki, SSRİ hökuməti cahan sülhünü təmin işində nə dərəcədə əmniyyətsiz bir müttəfiq isə, hitlerizm də hürriyyət və demokratiya rejimini himayədə o dərəcədə mənfi bir qüvvədir: “Hitlerizm, hər şeydən əvvəl kommunizm demaqogiyasına qarşı çıxmaq üzərə doğmuş bir ideyadır. O, faşizm kimi öz müxaliflərindən diktatorluq fikrini almış, fəqət ondakı internasyonalizmi nasyonalizmə dəyişdirmişdir”. [473]

Rəsulzadə hesab edirdi ki, əgər milli davalarını fəlakətlərinin səbəbi olaraq gördükləri demokratiya sistemli dövlətlərə qarşı müdafiə etmək zərurətilə demokratiyanı inkar vadisinə sapmaqda olan alman kimi millətlər üçün psixoloji bir anlayış, düşüncə varsa, qızıl rusluğa və diktatorluq sisteminə qarşı mücadilə edən bizim kimi millətlərə demokratiya ideologiyasına

[471] Yenə orada, s.69
[472] Resulzade M.E. Demokrasi ve sovetler. «İstiklal» gaz., Berlin, 1933, 20 mart
[473] Resulzade M.E. Milli təsanüd. Ankara: Kardeş matbaası, 1978, s.67

sarılmaq qədər təbii bir şey ola bilməz. O, yazırdı: "Milli istiqlal qayəsini və milli mənlik fikrini şiddətlə mənimsəyən faşizmlə istiqlal və milli mənlik naminə vuruşan millətlər üçün sözün beynəlmiləl mənası ilə zəmin və zamana görə bir anlaşma imkanı qeyri varid deyildir, fəqət milli istiqlal davası ilə hürriyyət və demokratiya sistemi arasında sıx bağlılıq duyan Rusiya əleyhdarı milli istiqlal hərəkatları üçün sosialist ideologiyasını daşısalar belə, Moskva diktatorluğu ilə birləşənlərə qarşı hüsnü rəğbətlə baxmaq imkanı heç bir vəchlə varid ola bilməz!" [474]

Bizcə, hitlerizm haqqında dərin bilgisi olan Rəsulzadənin 2-ci Dünya müharibəsi dövründə Almaniyanın "Şərq nazirliyi" bölməsi tərəfindən Berlinə dəvət olunması təsadüfi olmamışdır. "Şərq nazirliyi"nin Qafqaz şöbəsinə başçılıq edən Fon Mend keçmiş Qafqaz liderləri ilə Sovet Rusiyasına qarşı mübarizədə işbirliyi qurmaqda maraqlı idi. Bu məsələ ilə bağlı N.Yaqublu yazır: "Məmməd Əmin Rəsulzadə o zaman legionların təşkilindən sonra Berlindəki Milli Azərbaycan Komitəsində çalışırdı. Bu komitənin başlıca vəzifəsi milli Azərbaycan davasını alman hökumətinə qəbul etdirmək idi. Çünki Hitlerin Azərbaycan haqqındakı planını M.Ə.Rəsulzadə qəbul etmirdi. Hitlerin planı belə idi ki, müharibədən sonra Bakı birbaşa Berlinə tabe olunacaq, Azərbaycan xanlıqlar dövründə olduğu kimi əyalətlərə bölünəcək, başda isə almanlar oturacaq. M.Ə.Rəsulzadə Hitlerin bu fikri ilə razılaşmır, ona görə də ciddi mübarizə aparıb Azərbaycana müstəqil bir dövlət hüququ qazandırmaq istəyirdi".[475]

Rəsulzadə Almaniya hökumət nümayəndələri ilə aparılan danışıqlarda Azərbaycan tərəfinin mövqeyini 12 maddədən ibarət xüsusi memorondumda ifadə etmişdi. Burada azərbaycanlıların alman hərbi düşərgələrindən azad edilməsi, onların mülki işlərdə işlədilməsi, Milli Azərbaycan ordusunun yaradılması, ordu komandirlərinin azərbaycanlılardan təyin edilməsi, alman qoşunlarının Azərbaycanı tutduğu zaman milli ordunun oraya daxil olması-

[474] Resulzade M.E. Demokrasi ve sovetler. «İstiklal» gaz., Berlin, 1933, 20 mart
[475] Yaqublu N. Məmməd Əmin Rəsulzadə. Bakı: Gənclik, 1991, s.224

na təminat verilməsi, rus işğalının alman işğalı ilə əvəzlənməsinə qətiyyən yol verilməməsi, Azərbaycanın müstəqilliyinin toxunulmaz olması və bu kimi şərtlər irəli sürülmüşdü. M.Ə.Rəsulzadə tərəfindən irəli sürülən bu milli prinsipləri Hitler qəbul etməmiş və nəticədə anlaşma əldə olunmamışdır. Deməli, Rəsulzadə Azərbaycanın milli istiqlal davasını hər şeydən üstün tutmuş, heç vaxt bir köləliyin başqa bir köləliklə əvəz olunmasına razı olmamışdır. Üstəlik, Rəsulzadənin bu cür antifaşist mövqeyi 1943-cü ilin payızında onun Almaniyanı tərk etməsi ilə nəticələnmişdi.

Bu baxımdan Sovetlər Birliyi işğalının, hitlerçi Almaniya işğalı ilə əvəz edilməsinə razılaşmayan Rəsulzadəni Berlinlə danışıqlar aparmasına görə ittiham etməyin heç bir əsası yoxdur. Əgər o, Hitlerin Azərbaycanla bağlı fikirlərini qəbul etsəydi, o zaman ona münasibət də fərqli ola bilərdi. Ancaq Rəsulzadədən istədiklərini ala bilməyən hitlerçilərin onun ölkədən çıxardılması ilə bağlı qərarı hər şeyi ortaya qoyur. Bu məsələ ilə bağlı Rəsulzadənin silahdaşı M.B.Məmmədzadənin yazdıqları da çox önəmlidir: "İkinci Dünya müharibəsi əsnasında Hitlerin "həyat sahəsi" nəzəriyyəsinə dayanan istila və hakim olma siyasətinə və totalitar rejiminə qarşı Rəsulzadənin tutduğu mövqe, istiqlal məfkurəsinə və demokratiya əsaslarına sadiq məfkurəçi bir liderin tuta biləcəyi yeganə bir yol idi. Berlinə dəvət olunan və o zamankı alman hökuməti ilə aylarla müzakirə aparan Rəsulzadə istiqlal xaricində heç bir anlaşmaya tərəfdar olmamışdı". [476]

[476] Məhəmmədzadə M.B. Məhəmməd Əmin Rəsulzadə. "Azərbaycan" dərgisi, Ankara, 1955, sayı 12 (36)

## 3.3. M. Ə. Rəsulzadənin milli həmrəylik təlimində milli sosial dövlət anlayışı

M.Ə.Rəsulzadənin milli həmrəylik təliminin əsasında milli sosial dövlət anlayışı dayanmışdır. O, milli sosial dövlətə əsaslanan həmrəylik təlimini "Müsavat" partiyasının 1938-ci ildə keçirilən qurultayında irəli sürülən "Yeni Proqram əsasları"nda açıqlamışdır. "Yeni Proqram əsasları"nda Azərbaycan müstəilliyini bərpa etdikdən sonra, milli həmrəylik təlimi əsasında onun necə bir milli sosial dövlət olacağının başlıca prinsipləri açıqlanmışdı. Xüsusilə, "Yeni Proqram əsasları"na görə, milli sosial dövlətdə milliyyət məsələsi öz qüvvəsində qalmaqla yanaşı, orada sosial bərabərliyin, sosial ədalətin öz əksini tapması vacib hesab edilirdi. Şübhəsiz, "Yeni Proqram əsasları"nın əsas müəllifi M.Ə.Rəsulzadə olduğu üçün, orada öz əksini tapan milli sosial dövlət anlayışını da o, irəli sürmüşdü. Rəsulzadənin "Yeni Proqram əsasları"nda milli həmrəyliyə əsaslanan milli sosial dövlət prinsini irəli sürməsi, daha dəqiqi desək milli məsələylə sosial məsələni bu şəkildə bərabər götürməsi heç də bütün mühacir milli aydınlar arasında birmənalı qarşılanmamışdır. Millətçilik məsələsində radikal mövqe tutan milli ziyalılar hesab edirdilər ki, "Müsavat"ın "Yeni Proqram əsasları"nda milli məsələdən uzaqlaşılaraq sosial məsələyə doğru yön alınmışdır. Bu cür düşünənlərə görə, Azərbaycanın müstəqilliyinin bərpası uğrunda mübarizə dövründə milli məsələ ilə yanaşı, sosial məsələlərə bu qədər önəm vermək, onu radikal formada ifadə etmək milli istiqlal davasına zərər verməkdədir. Onların fikrincə, milli istiqlal uğrinda mübarizə aparıldığı bir dövrdə sosial məsələnin bu cür qoyuluşu milli qüvvələr arasında ikitirəlik yaradır və bu da, qəbuledilməzdir.

Rəsulzadə "Yeni Proqram əsasları"nda yer alan milli sosial dövlət prinsipinə, ümumiyyətlə orada öz əksini tapan milli həmrəylik mülahizələrinə qarşı çıxan radikal millətçilərə tutarlı cavablar vermişdi. O, yazırdı ki, birincisi, hazırda milli həmrəyliyə əsaslanan

“Yeni proqram əsasları”nı radikal sayan bəzi mühacir demaqoqlar “Müsavat” Firqəsinin Rusiya Məclisi-Müəssisan seçkilərində və 1917-ci ildə Bakıda yerli sovetlərə seçkilər əsnasında qəti müvəffəqiyyətinin sirrini unudublar. Filosof-mütəfəkkirmizə görə, o zamankı “Müsavat” proqramı da, indiki əsaslar kimi, milli davanı ön sırada tutmaqla bərabər, sosial məsələni də unutmamış, fəhlə və kəndli məsələlərinə son dərəcə əhəmiyyət vermiş və onları sosialist internasionalistlərin ayaqlarını havada başayaq tutacaq qədər radikal bir şəkildə həll etmişdir. O, yazırdı: “Bu sosial məsələləri unutmayan milliyyətçi proqramı ilə idi ki, “Müsavat” Bakı kimi inqilab yuvası “internasional bir fəhlə şəhərində” türk fəhləsinin tək bir səsini türk sosialistlərinə belə qapdırmamış və Qızıl ordunun siyasi hiylə və üstün qüvvə ilə edilən istilasına qədər bolşevik olan müsəlman fəhlə və qeyri fəhləsi sayının bütün Azərbaycanda üş yüzü (300) keçməməsinə səbəb olmuşdu”.[477]

Rəsulzadəyə görə ikincisi, “Əsasları”ı milli məsələdən çox sosial məsələlərə üstünlük verməkdə ittiham edənlərin görüş xətası vardır. Belə ki, Azərbaycanın istila altında olması, heç də onun milli və siyasi istiqlal gələcəyi ilə yanaşı, sosial bərabərliyə aid gələcəyini də düşünməyə əngəl ola bilməz. Başqa sözlə, burada dar düşüncədən deyil, daha geniş və bütünləşdirici dünyagörüşdən çıxış etmək lazımdır. O, yazırdı: “Məmləkət istila altındadır – deyirlər: hamımız vətəndən ayrı və mühacirətdəyik. Bizi burada ancaq bir qayə, bir ideal birləşdirir – təkrar vətənə dönmək və istiqlalımızı geri almaq. Toplayıcı bu milli və siyasi şüar yanına hansı sosial maddəni əlavə edərsiniz, istiqlalçılar cəbhəsinə ikilik gətirərsiniz ki, bu da milli qurtuluş hərəkatını işğal edər. Bu şəkildə düşünənlərin – düşüncələrində səmimi isələr – başlıca bir xətaları vardır: bir görüş xətası. Milli qurtuluş hərəkatını təkcə vətən ayrısı mühacirlərə aid etmək və milli istiqlal mücadiləsinin taktika və strategiyalarını ancaq bu

[477] Rəsulzadə M.Ə. Milli birlik. Bakı, «Çıraq» nəşriyyatı, 2009, s.64

mühitdəki münasibət və əlaqələrlə ölçmək – böyük davanın geniş dairəsini çox kiçiltmək deməkdir”. [478]

Filosof-mütəfəkkir çox doğru qeyd edirdi ki, sadəcə mühacirət orada başlanan bir davanın buradakı təmsilçiləridir. Əsas odur ki, bu dava Azərbaycanda başlamış, orada davam edir və orada da həll olunacaqdır. O, yazırdı: “Təmsilçilik rolunu həqiqi surətdə edə bilmək üçün siyasi mühacirət [istilaha diqqət edilsin: siyasi mühacirət deyirik və bunu sıradan mühacirətdən ayırırıq] orada cərəyan edən hadisələri, dəyişən reallıqları və doğan yeni münasibət və şərtləri daim təqib və tədqiq etməli və buna görə nəbzini əlində tutmaq vəzifəsində olduğu potensial milli hərəkatın həqiqi ehtiyaclarına görə mücadilə taktika və proqramlarını tənzim etməlidir. Bu mühacirət, özəlliklə bu mühacirətin ön sırasında gedən milli Azərbaycan davasının tarixi rəhbərliyini içəridən aldığı bir borc kimi üzərində daşıyan “Müsavat mühacirəti” bütün dünyadakı hərb sonu ruhu ilə bu zamandakı şərtlər arasındakı fərqi və o zamankı real şəraitlə bu zamandakı şərtlər arasındakı başqalığı öz vəzifəsinə sadiq və missiyasına layiq qaldıqca nəzərə almaya bilməz! O zaman dünya çətin bir hərb yaşamış, millətlər öz aralarındakı qanlı döyüşlərdən bizar olaraq çıxmışdılar, bir az nəfəs almaq üçün özlərini Vilsonun ağzı ilə xülasə edilən 14 maddəyə, sonra da Rusiyada partlayan kommunist inqilabının aldadıcı şüarlarına qapdırmışdılar. O zamankı “Müsavat” proqramı əsasda milliyyətçi, istiqlalçı bir proqram olmaqla bərabər sosial məsələlərdə bəzən hətta firqənin əsil qayəsini təşkil edən milli prinsiplərlə təzad təşkil edən ifratlara belə qapılmışdır. Zamanın ruhuna bac verilmişdir. Milləti siniflərdən ibarət olaraq almaq, ordunu deyil, əsas olaraq milis təşkilatını idealizə etmək, zəruri ehtiyacların ucuzlanması üçün gömruklərin ən yüksək dərəcəyə endirilməsini istəmək, milli sənayenin təşkilində əngəllər törədəcək mütərəqqi gəlir vergisini qəbul etmək kimi maddələrin o zamankı proqramda yer alması bax bu ruhiyyət

[478] Yenə orada, s.64

durumunun və o dövrün havasını dolduran ideyaların məhsuludur. O zaman hələ sahiblərinin əlində və mülkündə olan torpaqların dövlət tərəfindən müsadirə olunaraq kəndlilər arasında əvəzsiz bölüşdürülməsi tələb olunurdu. Hadisələrin üzə çıxardığı torpaq islahatından sonra təbiidir ki, bu tələbin şəkli dəyişəcək, artıq xüsusi malikanələrin deyil, bolşevik kolxozlarının nə ediləcəyinə cavab veriləcəkdi. Torpaqların altındakı dəfinə və mədənlərin dövlətə aid olduğunu vaxtilə qəbul və mütərəqqi gəlir vergisilə böyük sərmayə məhsulu sənaye müəssisələrinin dövlət əlinə keçməsini ideal olaraq arzu edən bir firqənin, indi sənayenin dövlətləşdirilmiş bir vaqeəsi qarşısında və milli dövlət mənafeyi naminə milli totalitar rejimlərdə misalı varkən, hadisələrə göz yumub, bu məsələnin üstündən keçməsi necə qəbul oluna bilir?...”. [479]

Rəsulzadə sosial məsələlərdən cümhuriyyət dövründə yetərli səviyyədə istifadə olunmadığını özü də etiraf edirdi. O qeyd edirdi ki, sosial məsələlərdən o zaman lazımi şəkildə istifadə olunmamağın isə bir sıra səbəbləri olub: “O zaman bir tərəfdən liberalizm, digər tərəfdən də internasyonal sosializm cərəyanlarının zamana hakim təsirlərinə rəğmən, milliyyətçi qalmağı bacaran “Müsavat” üçün indiki ümumi ruhdan mülhəm olaraq, daha milli bir siyasət də daha təsanüdçü sosial bir sistem təsbit etmək qeyri-mümkün idi!”[480]

Bununla da yeni dövrdə “Müsavat”ın proqramına sosial məsələlərdə bir sıra dəyişikliklərin edildiyini önə çəkən Rəsulzadə yazırdı ki, bu da milli həmrəylik anlayışıdır. Ona görə yalnız milli təsanüdçülük (solidarizm) demokratik dövlətin əsas ideologiyası ola bilər. Bu zaman nə liberalizmə, nə də bolşevizmə ehtiyac qalacaq. Bu, sosial məsələlərlə milli məsələnin uzlaşdığı ən mühüm nöqtə idi. Rəsulzadənin ortaya atdığı bu ideya sosial-fəlsəfi və siyasi baxımdan yeni idi. Burada əsas məsələ milli çərçivə daxilində sosial məsələləri həll etmək cəhdidir. Şübhəsiz

---

[479] Yenəorada, s.65-66
[480] Yenə orada, s.66

ki, bu zaman kommunizmin doğurduğu bolşevizm kimi bəlaları özündən uzaq tutmaqla yanaşı, milli təsanüdçülük kapitalizmin də mənfi tərəflərini rədd edirdi. Rəsulzadə yazırdı: "Milli istiqlal mücadiləsinin müvəffəqiyyəti və onun bir kütlə hərəkəti olaraq, şumulluluğu üçün milliyyətçilərə sosial məsələlərlə məşğul olmaq zərurət və bu məsələləri milli davanın faydası namına həll etmək isə borcdur! Tək istiqlal şüarı məmləkətin geniş xalq kütlələrini toplayaraq mücadiləyə çəkmək üçün kafi deyildir. Uğrunda mücadilə edilən "istiqlalın" daşıdığı sosial mənanı da açmalıdır ki, milli hərəkət düşmənlərinə kütləyi şaşırtmaq üçün demaqogiyasına imkan qalmasın!…

Məmləkətimizi istilası altında tutan bolşevizm, "Müsavatizm"ə qarşı etdiyi demaqogik təbliğatda "milli istiqlal demənin əski bəy, xan və ağalar dövrünün qaytarılması demək olduğunu" deyib durmaqdadır. Bu demaqogiya qarşısında milli hərəkat proqramında geniş xalq kütlələrilə əməkçi təbəqələrin haqları açıq deyilməz və özəlliklə kəndli və fəhlə məsələlərində bütün düyünlər açılmazsa, düşmənin işini qolaylaşdırır, hər türlü yalan və demaqogiyaya meydan verilmiş olur. Buna meydan verməmək və tək bu deyil, öz tərəfdarlarına təsəvvür etdiyi milli dövlət rejiminin sosial əsaslarını indidən bildirmək və onları içinə hər türlü sosial məna soxulan mücərərd bir məfhum deyil, tarixin bu çətin ideologiyalar mücadiləsi dövrü deyiləcək zamanında hər türlü yabançı və düşmən təsirlərə dayana biləcək mətin bir ideya sistemi verə bilmək üçün, milli mücadilə partiyası müdafiə etdiyi milli istiqlal davasının sosial proqramını da mütləq verməlidir!...".[481]

Rəsulzadə hesab edirdi ki, yalnız sosial məsələni milli məsələnin bir hissəsinə çevirməklə bolşevikləri sıradan çıxarmaq mümkün olar. Bu baxımdan onun əsas məqsədi o idi ki, sosial məsələnin millətçiliyə zidd olmadığını ortaya qoysun: "Doğrudur-milliyyət şüarı toplar. Fəqət, sosial şüarların da toplayıcıları yox deyildir. Ayırıcı sosial şüarlar sinif mücadiləsini tərvic edən

[481] Yenə orada, s.66-67

kosmopolit, internasyonal marksist sistemindən doğan şüarlardır. Yoxsa, sinifləri vuruşdurmağa deyil, barışdırmağa baxan təsanüdçü (solidarist) sosial sistemindən gələn şüarlar ayırmaz, toplar və bu surətlə də milli istiqlal anlamı ilə təzad deyil, tam bir ahəng təşkil edərlər!... Düşmənimiz bolşevizm üçün milliyyət, keçici bir taktika məsələsi isə, bizim üçün sosial islahat heç də öylə deyildir. Bu, öz başına təsanüdlü və məsud bir varlıq təsəvvür etdiyimiz ahəngdar milli cəmiyyətin həm davamı, həm də istiqlalının təmini üçün zəruri və daimi bir qayədir!...". [482]

Milli təsanüd, ya da milli həmrəylik (solidarizm) fikirləri ilə ortaya atılan Rəsulzadə artıq cəmiyyətin problemlərinin həllində əsas nöqtəni tapmışdı. O, bütün varlığı ilə milli bir insan olsa da, sosial bərabərlik məsələsinə də xüsusi önəm vermişdir. Uzun müddətli siyasi-ideoloji axtarışlardan sonra Rəsulzadə sosial məsələnin milli məsələ ilə necə uzlaşa bilməsini tapa bilmişdir. Bununla da o, milli dava ilə sosial davanı bir yerdə, tam şəkildə götürüdü.

Milli təsanüd (solidarizm) ideyası dünyagörüşünün yekun və son mərhələsi olan Rəsulzadə yazırdı ki, Cümhuriyyət dövründə bu məsələlər arasında tam uzlaşmanın olmaması səbəbsiz deyildir. Belə ki, sosial məsələlərdən o zaman lazımi şəkildə istifadə olunmamasının bir sıra səbəbləri olub. M.Ə.Rəsulzadənin milli təsanüd sistemi ideyası, milli məsələ ilə sosial məsələnin kəsişdiyi bir nöqtə idi. O, bu ideyanı irəli sürməklə sübut etmək istəyirdi ki, sosial məsələləri milli məsələlərə qarşı qoymağın heç bir mənası yoxdur. Rəsulzadə sosial məsələlərin milli məsələlərə zidd olmadığını, əksinə, onunla bağlı olduğuna inanırdı. Beləliklə, milli ideoloq əsas fikirlərini milli məsələ ilə sosial məsələnin təsanüdünə, yəni onların həmrəyliyinə yönəltmişdir.

O, sosial məsələlərdən sui-istifadə edən bolşevikləri və milli məsələdən eyni şəkildə yararlanan kapitalistləri, ya da faşistlərə bir-birindən fərqləndirmirdi. Onun əsas qayəsi onların iç üzünü

[482] Yenə orada, s.67

açıb göstərmək və əsil milli həmrəyliyə nail olmaq idi. Bu baxımdan Rəsulzadənin milli təsanüd sistemini gündəmə gətirməsi uzun elmi-fəlsəfi, siyasi-ideoloji axtarışların nəticəsi idi.

Rəsulzadənin milli həmrəylik (solidarizm) təlimini müdafiə edən M.B.Məmmədzadə də yazırdı ki, "Müsavat"ın "Yeni proqram əsasları"na görə, müstəqil türk dövlətində nə ifrat liberalizmə, nə də kommunizmə yer olmayacaqdı: "Bu qənaətlə o, fərdi azadlıq və şəxsi mülkiyyət əsasını siyasət və iqtisad prinsipi olaraq qəbul etməklə bərabər, əsrimizin gündən-günə qüvvətlənən bir sintezi halında olan həmrəylik (solidarizm) sistemi gərəyincə dövlətlə cəmiyyətin haqlarını tanıyır və onların çarpışan zümrə mənfəətləri üzərində nizamlayıcı rolunu oynamağa mükəlləf müəssisələr olduğunu qədul edir. Bu surətlə müsavatçılıq milli birlik və həmrəyliyi əsas olaraq qəbul edir, hər cür sinif və zümrə hakimiyyətini rədd edir".[483]

"Yeni proqram əsasları"na görə, Türk mədəniyyətinin inkişafı və təkamülü, Azərbaycan türkünün səadəti və rifahı belə bir milli həmərylik sistemi daxilində mümkündür. Artıq burada fərdi azadlıq və fərdi mülkiyyət ilə yanaşı, ümüminin mənfəəti də vardır. Məmmədzadə yazırdı: "Bu tezisdə cəmiyyət də (bütün) var, fərd də (tək). Fərdi hürriyyət və mülkiyyət, ümumun, bütünün, dövlətin – millətin ali mənafelərinə zərər vurmamalıdır. Ona görə millət-dövlət fərdi hürriyyət və mülkiyyətləri kontrol etmək haqqına malikdir".[484]

Mühacirət dövründə Rəsulzadənin milli həmrəylik təliminə son dərəcədə inanması bir daha göstərir ki, o bir milli ideoloq kimi Azərbaycan Cümhuriyyətinin yalnız siyasi-hüquqi deyil, sosial-fəlsəfi anlamda da memarıdır. O, elə bir memardır ki, Rəsulzadə ideyaları əldə əsas tutularsa, milli dövlətimiz əbədiyyən yaşamaq gücünə malikdir.

---

[483] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992, s.211
[484] Yenə orada, s.212

**Milli sosial dövlət fəlsəfəsinin "Azərbaycan şairi Nizami" əsərində əksi.** Bizcə, Rəsulzadə 2-ci Dünya müharibəsi illərində yazdığı "Azərbaycan şairi Nizami" adlı əsərində də milli təsanüd ideyasını inkişaf etdirmişdir. Belə ki, Türk mütəfəkkiri Nizami Gəncəlini təkrarolunmaz bir şəkildə tədqiq etməklə yanaşı, Rəsulzadə millilik və dünyəvilik, millilik və dinilik məsələlərinə də aydınlıq gətirməyə çalışmışdır. Başqa sözlə, o, bir tərəfdən Nizaminin Türk mənsubiyyətinə, Türk dini-fəlsəfi düşüncəsinə, türk ruhuna, türk fəlsəfəsinə bağlılığını elmi-fəlsəfi şəkildə ortaya qoymuş, [485] digər tərəfdən dövrünün ictimai-fəlsəfi, sosial-siyasi problemləri kontekstində milli ideya ilə, dünyəvi ideyaları uzlaşdırmağa çalışmışdır.

Beləliklə, bu əsərində türkün dövlətçilik anlayışının geniş şərhini verən M.Ə.Rəsulzadə böyük mütəfəkkir N.Gəncəvinin də bir türk mütəfəkkiri olaraq uyğun baxışlarına müraciət etmişdir. O yazırdı: "Nizamiyə görə, dövlət başçısı "sürüyə cavabdeh bir çobandır". Hətta bundan da məsuliyyətli bir mövqedədir. Başdakı beyin bədənin bütün üzvlərini idarə etməkdə hansı mövqedədirsə, dövlət başçısı da onun kimidir. "Əl ayağın fəaliyyətindən razı deyilsə, cavabdeh başdır". Fərd dövlətə münasibətdə müəyyən vəzifələri icra etməyə borcludur. Amma fərd hər hansı dövlətdə yalnız vəzifə daşımağa borclu deyil, həm də bir sıra hüquqlara malikdir".[486] Məsələn,"Qarı ilə Sultan Səncərin hekayəti"ndə Nizami Gəncəvi türk hökmdarını ədalətli və vicandlı olmağa çağırır. Nizamiyə görə, türk hökmdarları heç bir zaman zalım və ədalətsiz olmamışlar, Sultan Səncərin buna uyğun olmayan davranışı isə türk adına şərəf gətirmir.[487]

Fikrimizcə, burada N.Gəncəvi bir tərəfdən Sultan Səncərin timsalında türk hökmdarlarını türk düşüncəsinə, türk adət-ənənələrinə əməl etməyə çağırmaqla yanaşı, onları pis əməllərdən

---

[485] Rəsulzadə M.Ə. Azərbaycan şairi Nizami. Bakı, «Çıraq» 2008, s.40, 164, 173,
[486] Rəsulzadə M.Ə. Azərbaycan şairi Nizami. Bakı: Azərnəşr, 1991, s.213
[487]Gəncəvi N. Sirlər xəzinəsi. Bakı: «Lider», 2004, s.111

çəkindirməyə çalışmış və başqa tərəfdən Azərbaycanda bir Türk dövlətinin hakim olduğuna işarə etmişdir.

Rəsulzadə dövlətdə fərdin rolunu xüsusilə dəyərləndirməklə yanaşı, onun vəzifələrini də göstərir. Dövlət başçısı dövləti idarə edən bir şəxs kimi fərdə nisbətən daha məsuliyyətli olmalıdır. Ancaq bu o demək deyil ki, fərd məsuliyyəti dövlət başçısının, və yaxud vəzifə sahiblərinin üstünə ataraq tamamilə geri çəkilməlidir. Ona görə də, Rəsulzadə Nizami kimi, dövlətin idarə olunmasında məsləhətləşmələri önəmli sayır: "Nizamiyə görə, iqtidar ilə təmkin bir-birini tamamlayan şeylərdir: "Güclü ol, amma təmkinini əldən vermə". Dövlətin idarə olunmasında şair məsləhətləşmə tərəfdarıdır". [488] Ona görə, dövlət başçılarından başqa ölkə üçün dost və düşmən təsəvvür etmək olmaz. Millət əgər öz vəzifəsini yerinə yetirsə, düşmənlər də dost olacaqlar. Əgər öz vəzifəsini yerinə yetirə bilməzsə, dostlar da düşmən olarlar.

Nizaminin baxışlarına uyğun dövlət idarəsini reallaşdıran hökmdar İskəndərdir və Rəsulzadənin də Nizaminin İskəndərinə, onun işlərinə xüsusi yer verməsi təsadüfi deyil. O, Nizaminin "İskəndərnamə"də yaratdığı ideal cəmiyyəti özü də görür: "İskəndərin şəxsində Nizami biliyə, hikmətə və sənətə bağlı olan ziyalı bir hökmdar görür. Filosoflar, alimlər və ədiblər tərəfindən əhatə olunmuş bu hökmdarın özü də xarakter (səciyyə), cəsarət və qəhrəmanlığı ilə bərabər, alim, filosof və tədbirli bir insan kimi tanınır. Ona müavinlik edən vəzir Yunanıstanın ən məşhur filosofu Ərəstundur (Aristotel). Sarayında Yunanıstanın bütün tanınmış filosof və alimlərindən təşkil olunmuş Dövlət Şurası tipli yüksək bir məclis vardır". [489]

Fikrimizcə, N.Gəncəvinin "İskəndərnamə"ni yazmaqda məqsədi yalnız Makedoniyalı İskəndərin timsalında adil hökmdarı, ədalətli cəmiyyəti təsvir etmək deyil, eyni zamanda türk millətinin qədimliyini, türk inanclarını, adət-ənənələrini dünyaya tanıtdırmaq olmuşdu. Bu baxımdan N.Gəncəvinin

---

[488] Rəsulzadə M.Ə. Azərbaycan şairi Nizami. Bakı: Azərnəşr, 1991, s.215

[489] Yenə orada, s.216

Makedoniyalı İskəndəri türk dünyasının bir hissəsi olan Azərbaycana, daha sonra Qıpçaq elinə aparması təsadüfi ola bilməzdi. N.Gəncəvinin burada başlıca məqsədi Azərbaycanda, Qafqazda, Orta Asiyada və başqa yerlərdə yaşayan türklərin adət-ənənələrini, mədəniyyətini, düşüncələrini açıqlamaq olmuşdu. Məsələn, İskəndəri Qıpçaq ellərinə aparan N.Gəncəvi yazırdı ki, Qıpçaq türklərinin adət-ənənələri böyük fatehi mat qoymuşdur. Xüsusilə qadınların üzlərini örtməməsi və kişilərdən qaçmaması İskəndəri təəccübləndirir. İskəndər qıpçaqların ağsaqqallarını başına yığaraq bu adətlərindən əl çəkməyə çağırır: "Örtülü dedi çöl qıpçaqlarına: "Üzünü gizləmək xoşdur qadına"". [490] Qıpçaq türkləri isə İskəndəri başa salırlar ki, onlar adətlərini dəyişməyəcəklər, makdeoniyalı fateh isə hiylə işlətməklə istəyinə çatır.

Rəsulzadəyə görə, ideal cəmiyyətdə zor heç nəyi həll etməməlidir. Demokratik cəmiyyət Rəsulzadənin dövlət siyasətinin tərkib hissəsi idi. Bu onun düşüncələrinə hakim kəsilib və sosial-fəlsəfi dünyagörüşünə mühüm təsir edib. O, Nizaminin də axtarıb tapdığı bu ideal dövlət fəlsəfəsini fikirlərində inkişaf etdirir: "Hər böyük və həqiqi sənətkar kimi Nizami də millilik və vətənsevərlik xüsusiyyəti daşımaqla bərabər, yaratdığı obrazlarla təlqin etdiyi fikir meydanında milli çərçivədən kənara çıxımış, bütün bəşəriyyətə şamil olan duyğularla həyacanlanmış, millətlər və ölkələrin fövqündə olduğu kimi, dövrlər və əsrləri yarıb keçən yüksək və dünyaya şamil bir qayğıya cavab verə biləcək "söz"ü tapmağa çalışmışdır. Bizim qənaətimiz ilə bu "söz" İskəndərin möcüzəsində tapılmışdır. Bu möcüzə bugünkü bəşəriyyətlə birlikdə bizim də gerçəkləşməsini görmək istədiyimiz idealdır. Millətlərə yalnız mənəvi avtoritetlə nüfuz etmək, ruhlarını anlayaraq varlıqlarına qarşı ehtiram etmək". [491]

M.Ə.Rəsulzadə Nizaminin yaratdığı həmin ideal cəmiyyətin Sovet dövründə kommunizm quruluşuna oxşadılmasına etiraz edirdi. O, Nizaminin ideal cəmiyyəti ilə bolşeviklərin kommu-

---

[490]Gəncəvi N. İskəndərnamə. Bakı: «Lider»,2004, s.314
[491] Yenə orada, s.29-30

nizm ideologiyası arasında heç bir oxşarlığın olmadığını ortaya qoyurdu: “Nizaminin “Cənnət şəhər”i dindardır, sovet cənnəti isə dinsizdir. Birincisi Allahı tanıyır, o birisi isə rədd edir. Birincidə yalan söylənməz, ikincidə isə yalan ən böyük təbliğat silahıdır. Birincidə sevgi əsas ikən, ikincidə sinif qovğası əsasdır. Birincidə heyvanlar belə təhlükəsiz yaşadığı halda, ikincidə insanlar daim ölüm qorxusu altındadır. Birincidə qan tökmək haram ikən, ikincidə qanlılıq əsasdır. Birinci oğurluq nədir bilmir, ikincidə isə oğurluq ən qanlı polis rejimidir. Birinci casusluq bilməz, ikincidə hamı casusdur. Birinci silahsız və dindar, ikinci, təpədən-dırnağa qədər silahlıdır. Birinci, fitnə nədir bilməz, ikinci, bütün dünyanı bürüyəcək bir fitnə yuvasıdır. Sözün qısası: dini əxlaqa və ictimai anlayışa əsaslanan “Nizami sosializmi” ilə dini rədd edən və siniflər qovğasını əsas tutan qanlı “rus sosializmin” bir-birinə bənzər heç bir tərəfi yoxdur!.. Fəqət, bizim fikrimizcə, sevgi ilə nifrət, rəhmət ilə lənət nə qədər bir araya sığa bilərsə, Nizami ilə bolşeviklər də o qədər birgə ola bilərlər!”.[492] Bolşeviklərin öz aləmlərində Nizaminin ideal cəmiyyətinə bənzətdiyi kommunizmin əsassız olduğunu yazan milli ideoloqa görə, onun ideal cəmiyyəti yalnız Azərbaycan Cümhuriyyəti ilə bərabər tutula bilər.

Bu baxımdan M.Ə.Rəsulzadənin tarix qarşısında ən faydalı xidmətlərindən biri də Azərbaycanın dövlətçilik məsələsini irəli sürməsidir. Onun baxışlarında demokratik respublika ideyası birdən-birə meydana gəlməmişdir. Özünün dediyi kimi, “misli” Avropda olmayan» Azərbaycan Cümhuriyyəti, demokratik əsaslara söykənən sosial sistemli bir dövlət idi. Yeni milli dövlət xalqı bu acınacaqlı vəziyyətdən qurtarmalı, xalqın öz dövləti olmalı idi. Bolşevizm bunu, Rusiyadakı bütün xalqlara vəd eləsə də, M.Ə.Rəsulzadə onlara bel bağlamır, onun “yaxıcı və yıxıcı” təbiətini hiss edirdi. O deyirdi ki, rus kommunizminin yıxıcı və yaxıcı tətbiqatı yanında türk demokratizminin yapıcı və yaradıcı

---

[492] Yenə orada, s.211-212

icratı vardır. Yıxıcılıq keçər, yapıcılıq qalar. Azərbaycan Cümhuriyyəti məhz belə bir "yapıcı" dövlət sistemi olmalı idi.

**Ümumiyyətlə,** milli həmrəylik təlimini, solidarizm sistemini ortaya qoymaqla Rəsulzadə mili sosial dövlət anlayışı baxımından mükəmməl bir nəticəyə gəlmişdir. Bu, artıq milli məsələ ilə sosial məsələnin bir-birilə uzlaşması demək idi. Bu, M.Ə.Rəsulzadənin mühacirət dövründə düşüncələrində yaratdığı milli sosial dövlətçiliyin ən yeni və son forması idi. Buna milli həmrəylik (milli təsanüdçülük) adı verən Rəsulzadə hesab edirdi ki, belə bir dövlətdə həm milli-dini dəyərləri, həm də sosial-demokrat, çağdaşlıq prinsiplərini tətbiq etmək olar. O, artıq sırf solçuluqla yanaşı, radikal millətçiliyi də qəbul etmirdi. Özünün də qeyd etdiyi kimi, o, millətçiliyi nasionalizm yox, mütərəqqilik, patriotluq mənasında kəsb edilməsini önəmli sayırdı.

Rəsulzadənin millətçilik məsələsinə daha təmkinlə yaxınlaşması təbii idi. O, hər zaman mütərəqqi millətçiliyin tərəfdarı kimi çıxış etmişdir. Xüsusilə də, onun müdafiə etdiyi mütərəqqi milliyyətçilik Azərbaycan türklüyünü yenidən ayağa qaldırmaq, azərbaycançılığı ortaya qoymaq üçün lazım idi. Çünki həmin dövrdə Azərbaycan türklərinin çox qismi öz milli kimliyini və mənliyini yaxşı tanmıır, müsəlmançılıq adı altında assimilyasiyaya uğrayırdı. Milli kimliyini, milli mənini bilmədiyi üçün də milli haqlarını müdafiə edə bilmir və müstəmləkə vəziyyətindən qurtula bilmirdi. Belə bir məqamda millətin öz milli kimliyini, milli varlığını ortaya qoyması üçün mütərəqqi milliyyətçiliyə, vətənpərvərliyə ehtiyac yaranırdı. Bu zaman da sosial-demokratizm, liberalizm nə qədər önə çıxsa da, ancaq millətin oyanışı və milli istiqlal anlamında əsas ideya ola bilmirdi.

Digər tərəfdən, ilk dönəmlərdə sosial-demokrat, liberal-demokrat ideyalarının tərəfdarı kimi çıxış edən Rəsulzadə sonralar anlayacaqdı ki, mücərrəd sinfi mübarizə ilə də nəyisə əldə etmək mümkün deyil. Əgər sinfi mübarizə olacaqsa, bundan öncə bir millət olaraq türklər özlərini tanımalıdır. Millət olaraq özünü tanıyıb sinfi mübarizə aparan xalqla, milli kimliyindən xəbərsiz

sinfi mübarizə aparaq xalq arasında böyük fərq var. Birinci halda öz milli kimliyini tanımayan millətin uğursuzuluğa uğrayacğı göz önündədir. Ona görə ki, onun haqlarını "proletar sinfi" adı altında başqa millətlər mənimsəyəcəklər. Necə ki, Sovetlər imperiyasında "sovet milləti" adı altında qeyri-rus millətlərin əksəriyyəti məhz belə bir bəlaya düçar olmuşdular.

Bu baxımdan Rəsulzadənin "sosial məsələ-islam, türkçülük-islam" və sonda "türkçülük-sosial məsələ-islam" düsturunu başa düşmək çətin deyil: "Əski nəslə mənsub milli mühacirətin şüurlu qismi tərəfindən təmsil olunan siyasi proqramın milli həmrəylik, ictimai ədalət və siyasi istiqlaldan bəhs edən üç əsası yeni nəslin ictimai və siyasi şüurunu müəyyən edir. Yeni mühacirətin siyasi düşüncəli qismi siyasi etiqadımızın yuxarıdakı "üçlü" ümdəsini böyük bir sevinc və vicdan rahatlığı ilə xəbər alırdı. Onlar qırmızıların siyasətinin milli mühacirətin ictimai irtica ilə siyasi təhqir nümunəsi kimi tanıtdığını, yalan və böhtanlardan ibarət olduğunu görürdülər. Milli Azərbaycan Respublikasının yaşadığı istiqlal dövrü Azərbaycan tarixinin ən parlaq bir dövrüdür. Əski və yeni mühacirətin ilham qaynağı, 1918-ci ildə elan olunan istiqlal bəyannaməsindəki demokratik əsaslardır. Əldə edilmiş milli istiqlalı yenidən qazanmaq əvvəlki kimi yeni nəslin də idealıdır: lakin bir şərtlə: yenidən qurulacaq Azərbaycanda əski ictimai uyğunsuzluğa, siyasi haqsızlıqlara meydan verilməyəcək, sosial həmrəylik və ədalətin təmininə xüsusi əhəmiyyət veriləcəkdir". [493] O, milli həmrəyliklə ictimai ədaləti bərabər götürür və deyirdi ki, yeni dövlətdə "ictimai uyğunsuzluğa, siyasi haqsızlıqlara meydan verilməyəcək, sosial həmrəylik və ədalətin təmininə xüsusi əhəmiyyət veriləcəkdir". Bu, Rəsulzadənin son olaraq ortaya qoyduğu elə bir milli sosial sistemidir ki, onun da mahiyyətində məhz milli sosial dövlət bütünlüyünü özündə əks etdirən milli həmrəylik təlimi dayanır.

---

[493] Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991, s.110

*Diriliklərin ən qiymətlisi - Milli dirilikdir!*
**M.Ə.Rəsulzadə**

# IV FƏSİL

# M.Ə.Rəsulzadənin yaradıcılığında milli fəlsəfi ideyalar: azərbaycançılıq, türkçülük, qafqazçılıq

## 4.1.M.Ə.Rəsulzadənin dünyagörüşündə etnos, xalq, millət və milliyyət anlayışlarının fəlsəfi şərhi

M.Ə.Rəsulzadənin sosial-fəlsəfi görüşlərində etnos, milliyyət, millət, xalq anlayışlarının təfsiri mühüm yer tutmuşdur. O, bu anlayışlarla bağlı mövcud tərifləri və mülahizələri analiz etməklə yanaşı, bu gün öz əhəmiyyətini itirməyən dəyrli fikirlər də irəli sürmüşdür. Şübhəsiz, həmin dövrdə bu anlayışlarla bağlı məsələlər önə çıxdığı üçün Rəsulzadənin də diqqətindən kənarda qala bilməzdi. Xüsusilə də, Azərbaycan türklərinin yenidən milli dirlişi baxımından bu anlayışların təfsirinə ciddi ehtiyac yaranmışdı. Azərbaycan Türk aydınları arasında Rəsulzadəyə qədər bu məsələlər üzərində dayanan, bəlli mülahizələr irəli sürənlər C.Əfqani, M.F.Axundzadə, H.Zərdabi, Ə.Hüseynzadə, Ə.Ağaoğlu və başqaları olmuşdur. Ancaq onların arasında daha çox fərqlənən C.Əfqani olmuşdur ki, onun bu məsələlərdə Rəsulzadənin düşüncələrinin formalaşmasında böyük təsiri olmuşdur.

**Milliyyət anlayışı və türk dili milliyyətin ilk əsası kimi.** Rəsulzadəni ilk növbədə, daha çox maraqlandıran və izah etməyə çalışdığı milliyyət istilahı olmuşdur. “Açıq söz” qəzetinin ilk sayındakı “Tutacağımız yol” adlı məqaləsində, Rəsulzadə göstərirdi ki, milli ideyanın əsas idealı milliyyətdir ki, XX əsr milliyyət əsri olduğuna görə, Azərbaycan türkləri də milliyyət mərhələsini keçib millət olaraq meydana çıxmalıdır. I Dünya müharibəsi nəticəsində dünyanın xəritəsinin dəyişməsinin labüdlüyünə inanan Rəsulzadəyə görə, dünya xəritəsinin alacağı yeni şəklə vətəndaşların fəda-

karlığı, dövlətlərin təşkilatı və orduların əzəməti ilə bərabər, aşkar və qətiyyətlə peyda olmuş milliyyət məfkurələrinin də böyük təsiri vardır: "Özünü lüzumunca bilib də istiqbal üçün müəyyən bir ideal bəsləyən millət şübhəsiz ki, böyük bir qüvvət təşkil edər. Şübhəsiz ki, sözün tam mənası ilə deyiləcək qədər dağ dağıdan topların hakim olduğu hərb meydanlarında təsirsiz qalmayan bu qüvvət yaşıl mahudlu barışıq masası üzərində əsaslıca bir əsir yapacaq. Hər hansı qalib tərəf az-çox sorunclu bir dinclik vücuda gətirmək istərsə, əsrin vicdanları üzərində ən çox təsir icra edən qüvvətli milliyyət məfkurəsini ehmal edəməz! Bunun böylə olacağı arabir gələcəyin sülhü haqqında söz söyləyən Avropa mütəfəkkirlərincə də təsdiq olunmaqdadır. Sülhsunə mənsub siyasilərcə, milliyyət əsasına riayət etməyəcək, millətlərin hüququnu gözətməyəcək bir sülh əqdnaməsi çox çəkməz yırtılar və sorunlu bir dinclik təmin edəməz... Müəyyən bir məfkurəyə və əksər fərdlərcə tanınmış amala, qayəyə malik olan millətlər, dövlətlər arasındakı münasibətdə əhəmiyyət qazandıqları kimi, dövlətlərin daxili siyasətləri üzərinə də böyük təsirlər icra edəcəklərdir. Bu surətdə ayrı-ayrı millətlər bir millət olaraq yaşaya bilmək üçün hər şeydən əvvəl özlərini bilməli, müəyyən fikir və amallar ətrafında birləşərək bütün bir məfkurəyə, xəyal qayəsinə hədəf olacaq o işıqlı yıldıza sahib olmalıdırlar". [494]

Rəsulzadəyə görə hər bir milliyyət azad yaşayıb tərəqqi edə bilmək üçün də üç əsasa: 1) dil; 2) din; 3) zaman-müasirliyə istinad etmək məcburiyyətindədir. Ona görə milliyyətin birinci əsası dildir ki, dili Türk olan bu Azərbaycan xalqının etnik mənsubiyyəti də türkdür. O, yazırdı: "Dilcə – biz türküz, türklük milliyyətimizdir. Ona görə də müstəqil türk ədəbiyyatı, türk sənəti, türk tarixi və türk mədəniyyətinə malikiyyətimiz - məqsədimizdir. Parlaq bir türk mədəniyyəti isə ən müqəddəs qayeyi-amalımız, işıqlı yıldızımızdır".[495]

---

[494] Rəsulzadə M.Ə. Əsərləri. III cild (1915-1916). Bakı, "Təhsil", 2014, s.180-181

[495] Yenə orada, s.181

Onun fikrincə, hər dilin bir milliyyəti, bir də beynəlmilliyyəti vardır ki, milliyyət cəhəti hissiyyata, beynəlmilliyyət cəhəti isə fənniyyata aiddir: "Bir millət özünə məxsus olan hissiyyatını ifadə etmək üçün mütləq öz ana dilində istədiyi qədər lüğətlər tapa bilər, bu şərtlə ki, bu hisslər milli və təbii olsun, əcnəbi bir təsirlə peyvənd olunmuş özgə hisslər olmasın. Halbuki elmi və fənni mənaları ifadə üçün ana dili lüğətləri kifayət etmir. Çünki elm və fənn bir millətin deyildir, millətlərindir. Çünki fənniyyat təbii deyil: sünidir ixtiraidir! Sonradan icad olunan məfhumun bittəb ixtirai bir olmaq da icabatdandır. Dil milliyyət, din isə beynəlmilləliyyət təşkil edir. Biz türk olmaq hesabilə dilimizin milliyyəti türkcədir. Müsəlman olduğumuz üçün beynəlmilliyyətimiz islamdır". **[496]**

Ümumiyyətlə, Rəsulzadəyə görə insanlar arasında toplumu vücuda gətirən iki mühüm amil vardır ki, bunlardan biri din, digəri dildir. O, yazırdı: "Məlum olduğu üzrə din müxtəlif dillərlə mütəkəllim və müxtəlif cinsdən olanları birləşdirdiyi halda, dil ancaq bir növdən və bir cinsdən olan insanları birləşdiriyor... Əvət, dil təbiidir, ona görə əsildir, millətlə bərabər hasil olur. Dilsiz bir millət olmadığı kimi, millətsiz də bir dil olmaz. Dil bir milliyyətin yeganə rüknü deyildir. Bir millət vücuda gəlmək üçün dili ilə bərabər digər iştiraklı şeylər də vardır. Fəqət dil bunların ən mühümüdür. Dil milliyyət həyatının ən mütəkamil bir şəklidir. Dil bir millətin ən qiymətli sərvəti, həyatının ən fəyyaz mənbəyini təşkil edir. Bir milləti dildən yaxşı təmsil edən olmaz. Bugünkü milliyyət məfhumuna dillə bərabər din, tarix və ənənat da daxildir. Qədimdə isə "dil" demək "millət" demək hökmündə idi… Milliyyət naminə vaqe olan mübarizələr bir kərə tədqiq olunarsa, görünər ki, ən çox müdafiə olunan dildir. Milliyyət və mədəniyyəti-milliyyə naminə icra olunan mübarizələrin dil və dilə mərbut olan məktəb, ədəbiyyat, mətbuat uğrunda olduğu aşkardır. Həqiqətən, dil milləti hər şeydən daha gözəl təmsil edir. Millət dil vasitəsilə bü-

[496] Yenə orada, s.284

tün məziyyət və mövcudiyyətini ərz edə bilir. Adəm oğlunun sözü bəzi riyazi və fənni məfhumları andıran əlcəbr və ya kimya əlamətləri kimi ölü hərflər deyildir. Onun qanı, canı vardır. Millətlə bərabər doğar, onunla bərabər yaşar, tərəqqi edər”.[497]

Rəsulzadəyə görə, dil milyonlarla insanların, bir çox nəsillərin müştərək vücuda gətirdikləri bir anlayışdır. O, yazırdı: “Dil qanlı və canlı, adətən üzvi və zihayət bir vücuddur. Dil millətin canıdır. Dil millətin məntiqi, ruhu və onun şəxsiyyəti-müştərəkəsidir. İştə bunun üçündür ki, bir dili öldürmək, bir milləti öldürmək deməkdir. Və yenə buna görədir ki, hər bir təmsil həmən dili təzyiq etməklə başlar. Dil durduqca, millət də durar, öldümü, millət də canını bağışlar... O, dindən daha bir qüvvətli - ittihad və millətin ən doğru bir müməssili oluduğu kimi, millətlərin yeganə vəsileyi-tərəqqisidir də. Millətləri maddətən etila etdirmək, mədəni və mütərəqqi qılmaq üçün dinlərdən deyil, dillərindən istifadə edilir. Hətta dinin tərvici üçün belə dilə ehtiyac vardır”.[498]

Rəsulzadə dil məsələsinə biganə yanaşılmasının faciə ilə nəticələnə biləcəyini istisna etmirdi. Ona görə, bir millətin həyatında maddətən və mənən bu qədər bir əhəmiyyətə malik olan dili biz Azərbaycan türkləri vaxtilə unutmaq üzrə olmuşuq. O, yazırdı: “Tamamilə farslaşdığımız bir zamanlar vardı. Türk ədəbiyyatı bilməzdik. Türkcə əvama məxsus bir dil ədd olunur, xass farsı və ərəbi bilməsilə iftixar edərdi. Sonra Füzuli əleyhirrəhmənin təsiri-fəyyazı təxtində yetişən bir çox azərbaycanlı türk şairləri bu təhlükəli nisyanın önünü aldılar, “yaman-yaxşı” bir ədəbiyyat vücudə gətirdilər”. [499] Bu baxımdan Rəsulzadə hesab edirdi ki, dilin möhkəmliyi üçün danışıq dili ilə yanaşı ədəbi yazı dilinə diqqət yetirmək və ikisi arasında tarazlığı qorumaq çox vacibdir: “…. Dilimizi həqiqətən də millətimizin ruhu və onun vasiteyi-bəqası məqamında görmək istəyiriksə və onu cameiyyəti-milliyyəmizdə

[497] Yenə orada, s.231-232
[498] Yenə orada, s.232
[499]Yenə orada, s.232

ən mühüm bir ittihad və tərəqqi amiliədd edirsək, yazımız ilə danışığımız arasında olan fərqi azaltmalıyız”.[500]

Rəsulzadə yazırdı ki, vaxtilə Osmanlı və Azərbaycan türkcəsi bir olub “ortadakı ayrılığı yaradan şey isə Azərbaycan danışığının daha çox Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər kimi Türk dövlətlərinin yönətimi altında Osmanlılardan ayrı, məzhəb baxımından onlara kəskin qarşı olan başqa bir siyasi yönətimin özəyini oluşdurmasıdır”. [501] Dil məsələsində “osmançılarla” (Ə.Hüseynzadə, M.Hadi və b.) “azərbaycançılar” (C.Məmmədquluzadə, Ö.Faiq, A.Şaiq və b.) arasında orta mövqedən çıxış edən Rəsulzadə bir tərəfdən Türk ədəbi dilinin xalqın dili ilə bağlı olmasının vacibliyini qeyd etmiş, digər tərəfdən isə ortaq türkcənin yaranması təklifi ilə çıxış etmişdi. O, birinci məsələ ilə bağlı yazırdı: “Dilimiz türkcədir. Əlbəttə, türkcə də qalmalıdır. Ədəbi dil, xalqın anlayacağı dildir. Yazı dili xalqın danışdığı dildən çox uzaq olmamalıdır. Yazı dilinin anlaşılmaz bir halda olduğunu ədəbi hesab eyləyən dövr çoxdan keçmişdir. İndi bir əsrdəyik ki, hər bir şey ümumiləşdiyi kimi, ədəbiyyat da ümumiləşir. Böylə bir əsrdə məhdud şəxslərə məxsus bir dil ilə yazı yazmaq, əlbəttə, ədəbi hesab olunmaz”.[502]

Osmanlı türkcəsi ilə müqayisədə Azərbaycan türkcəsinin ərəb-fars dillərinin təsirinə az qalması müddəası ilə çıxış edən Rəsulzadə Türk dilinin məhəlli şivələrinin inkişafı ilə yanaşı, ortaq türkcənin formalaşmasına da çalışmışdır. Məhz bunun nəticəsidir ki, Rəsulzadənin təşəbbüsü ilə Azərbaycan Cümhuriyyəti dövründə natamam ali və ali məktəblərdə Türkiyə türkcəsinin qrammatikası əsasında, ancaq Azərbaycan türkcəsinin də qayda-qanunları nəzərə alınmaqla ortaq türk dili keçilmişdi.[503] Hətta, “Müsavat”ın ikinci qurultayında (1919) qəbul edilmiş proqramında da, Rəzulzadənin təklifi ilə ortaq Türk birliyindən və ortaq türk dilindən çı-

[500] Yenə orada, s.233
[501] Rəsulzadə M.Ə. Qafqaz türkləri. Bakı, Təknur, 2012, s.41
[502] Rəsulzadə M.Ə. Əsərləri. II cild (1909-1914). Bakı, “Təhsil”, 2014, s.283
[503] Rəsulzadə M.Ə. Qafqaz türkləri. Bakı, Təknur, 2012, s.78-79

xış edilmişdir: "Oxuma proqramında İstanbul danışığının orta məktəblərdə keçilməsilə ali məktəblərdəki dərslərin ortaq ədəbi danışıq saydığı İstanbul türkcəsilə oxudulmasını istər".[504] Beləliklə, milli ideoloq vahid türk dili, türk tarixi, türk ədəbiyyatı ilə bağlı nəzəri ideyalarının xeyli bir qismini Azərbaycan Cümhuriyyətində reallaşdırmışdır.

**Din milliyyətin ikinci əsası kimi.** Rəsulzadənin fikrincə, milliyyətin ikinci əsası dindir, çünki din hər nə qədər dildən sonra gələn bir amil olsa da bəzi şərait daxilində ondan da təsirli qüvvət şəklini ala bilir. O, yazırdı: "...Üümumi bir dil nə qədər dil əhlində ümumi bəzi xislətlər və ideallar tövlid ediyorsa, ümumi bir dinə malik olmaq dəxi o dərəcədə böyük bir təsir icra edə bilər. Müxtəlif din və məzhəblərə malik olan bir dil sahiblərinin "milliyyət" olaraq vahid mədəni bir kütlə vücuda gətirmələri müşkül olduğu halda, bir din və bir dilə malik olanlarca bu müşkülat mütəssəvir deyildir. Dil bir millətin əsliyyətini mühafizə edə bilər. Fəqət çox kərə də din bir millətin dilinin baqi qalmasına və bu münasibətilə milliyyət fikri və amalının inkişafına səbəb oluyor".[505]

O, daha sonra yazırdı ki, dincə müsəlmanız və hər bir din öz inananları arasında məxsusi bir yeniləşmə vücuda gətirmişdir ki, bu mədəniyyət də bir beynəlmiləliyyət səbəbi təşkil edir: "Müsəlman olduğumuz üçün biz türklər beynəlmiləliyyəti-islamiyyəyə daxiliz. Bütün islam millətlərilə şərikli bir əxlaqa, dini bir tarixə, müştərək bir yazıya, xülasə ortaq bir mədəniyyətə malikiz… Bu şəriklik islamiyyətə daxil olan zərərli təsirlərdən bizi mütəzərrir etdiyi kimi, bu yolda olacaq islahat feyzlərindən də bizi nəsibsiz qoymaz".[506] O, din ilə milliyyətin öncə fərqlərini və oxşarlıqlarını göstərir, daha sonra onların hansı anlamda uzlaşa biləcəyini, ya da bilməyəcəyini ortaya qoyurdu. [507] Millətin formalaşmasında islama mühüm yer verməklə yanaşı, o bildirmişdir ki, millətlə din

---

[504] Yenə orada, s.74

[505] Rəsulzadə M.Ə. Əsərləri. II cild (1909-1914). Bakı, "Təhsil", 2014, s.479

[506] Rəsulzadə M.Ə. Əsərləri. III cild (1915-1916). Bakı, "Təhsil", 2014, s.181

[507] Rəsulzadə M.Ə. Əsərləri. II cild (1909-1914). Bakı, "Təhsil", 2014, s.480-481

arasındakı fərqlər nəzərə alınmalı, din ilə millət qarışdırılmamalıdır: “Bizdə daima din ilə milliyyəti qarışdırıyorlar. Saçlı-saqqalı alimlərimiz, başı şapkalı intelligentlərimizdən soruşsanız sən hansı millətdənsən? - deyər ki, müsəlman dinindən. Bu sualın çox az eşidilən səhih cavabını mən böyük bir məmnuniyyətlə, hüzurlə müftəxir olduğum, rus-müsəlman ünas məktəblərinin imtahan məclisində eşitdim. Bir qızdan soruşdular ki, sən hansı millətdənsən? - türkəm-dedi. Nə dindənsən – deyincə müsəlmanam cavabını verdi. İmtahanlar qurtardı. Ürəklərimiz qürur və sürur ilə dolmuş idi. Artıq biz də istiqbaldan əmin ola bilərik. Çünki milli işlərimiz doğru yolunu tapır. Əvət, doğru yol. Millətlər ailələrdən təşkil edilir. Ailələrin fərdi qiymətləri sıfır olursa, onların məcmui olan millətlərin qiyməti-məcmui də sıfırdır”. [508]

Hələ, milli istiqladan öncə “Müsavat”ın 1-ci qurultayındakı çıxışında (1917) Rəsulzadə dünyəvi dövlətin tərəfdarı kimi dini mənəvi məsələ sayaraq, onun siyasətə qarışmasının əleyhinə çıxış etmişdir. Onun fikrincə, məscidə daxil olan şəxs siyasəti, partiyanı, ideyanı unutmalı və ancaq Allaha dua etməlidir. Ümumiyyətlə, ruhanilər siyasətlə məşğul olmamalı və siyasi mübarizədə məscid bitərəf qalmalıdır. Dinin dövlətdən ayrı olması öz əksini, Rəsulzadənin təkidi ilə partiyanın yeni proqramında da tapdı: “Hökumət din və məzhbələrdən heç birini digərilərindən üstün tutub, onu himayə və mühafizə edə bilməz”.[509]

Cümhuriyyət dövründə də din məsələsində dünyəvilik modelindən çıxış edən Rəsulzadə üzünü islamçılara, xüsusilə onların siyasi təşkilatı olan “ittihadçılar”a tutaraq deyirdi: “Din və məscid öz müqqədəsliyini qoruyub saxlamaq istəyirsə, siyasətdən kənarda qalmalıdır. ruhanilər siyasi ehtiraslar burulğanında sülh və anlaşmanın daşıyıcıları olaraq qalmalıdırlar. Bizə deyirlər ki, qaradovoy, polis ağac ilə, qamçı ilə, ruhanilər isə vəz ilə gələcəklər. Fəqət, siz məni təmin edərmisiniz ki, qardovoyçular qamçı ilə gəl-

[508] Yenə orada, s.181

[509] Балаев А. Азербайджанское национальное-демократическое движение в 1917-1920 гг., Баку: Элм, 1990, s.77

dikdə bəzi ruhanilər lənətlər və küfrlərlə gəlməyəcklər? Qaradovoyun əlində ağac varsa, ruhanilərin də küfrü, lənəti vardır. Əgər istəyirsiniz ki, məscid möhtərəm bir vasitə, sülh və səlah olsun, qoyunuz o bitərəf və müqəddəs qalsın".[510]

Ümumiyyətlə, o, milliyyətin əsasında dilinmi, yoxsa dininmi mühüm əhəmiyyət daşımasını geniş izah etmişdir. Bununla bağlı, yəni din və dil məsələsində Rəsulzadənin fikirləri, daha çox C.Əfqaninin fikirləri ilə üst-üstə düşmüşdür. Hələ, Rəsulzadədən öncə Əfqani dinlə müqayisədə üstünlüyü dilə vermişdir. Əfqaniyə göörə din dil qədər mətin və möhkəm ola bilməz, çünki dil daimidir, başdır: "Dil tərəqqi və təkamül edərsə də, əsaslı bir etirafa, təğyirə uğramaz. Halbuki tarixdə bir çox din dəyişmiş olan millətlər mövcuddur."[511] Rəsulzadə də Əfqani kimi hesab edirdi ki, milləti təşkil edən, formalaşdıran bu komponentlərdən ən böyük üstünlük dildədir: "Dil millətin böyük hissəsidir. O, onun zahiri və beynidir. Millətləri bir-birindən ayıran ən böyük əlamət iştə bu dil damğasıdır".[512] Dili milliyyətin əsas amili kimi qələmə verməkdə yanılmayan Rəsulzadə haqlı olaraq dili milliyyətin varlığının əsas meyarı sayırdı: "Dil milliyyətin hamısını təşkil etməsə də, yüzdə doxsanını vücuda gətirən böyük bir amildir. Bir milliyyəti məhv edib aradan götürmək qəsdində olan siyasilərdə əsl bunun üçündür ki, təmsil (assimilyasiyon) əməliyyatı icra edərkən ən birinci fikirlərini dilə verər və ən əvvəl bir millətin dilini yaddan çıxarmağa səy edərlər".[513]

Rəsulzadə dilin milliyyətin formalaşmasında əsas rol oynadığını göstərməklə yanaşı, dinin mühüm təsirini də etiraf edirdi. M.Əmin milliyyətin formalaşmasında islam dininə mühüm yer verməklə yanaşı, dəfələrlə bildirmişdir ki, müsəlmanlar milli kimliklərini, milli varlıqlarını da bilməlidirlər. Rəsulzadə yazırdı:

---

[510] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) Parlament (stenoqrafik hesabatlar). I c. Bakı, «Azərbaycan» nəşriyyatı, 1998, s.731-732
[511] Qurbanov Ş. Məmməd Əmin Rəsulzadə. Bakı: Nurlan, 2001, s.61-62
[512] Qurbanov Ş. Məmməd Əmin Rəsulzadə. Bakı: Nurlan, 2001, s.61-62
[513] Rəsulzadə M.Ə. Əsərləri. II cild (1909-1914). Bakı, "Təhsil", 2014, s.475

"Din və onun ehkamı mütədəyyinlərincə anlaşılmaz bir hala gəlirsə, verəcəyi faydanı təmin edə bilməz, ruhsuz olar, məişətdən uzaqlaşar, öylə də islam, bir məişət və həyati-dini olaraq təsis elədiyi halda mütədəyyinləri ilə öz arasına bir məchuliyyət girdi. Bunun nəticəsində islam həyatından və həyati-islamla yaşamaq gümanında olanlar isə əsil islamdan uzaqlaşdılar. Bunun üçün də müxtəlif islam millətlərindən olan islam mütəfəkkirləri arasında islam deyə tanınan şeyin möhtaci-islah olduğunu düşünənlər gündən-günə çoxalıyorlar. Şübhəsiz, bu yolda bir islah lazımdır. Böylə bir islah vücuda gəlməyincə, islam millətləri düçar olduqları ətalətdən müşkül ki çıxsınlar. Bu islah həm islamın ümumi mənfəətini, həm də İslam millətlərinin xüsusi faydasına mütəzəmmindir». [514] Ümumiyyətlə, Rəsulzadə dil və din məsələsində üstünlüyü dilə versə də, milliyyətin formalaşmasında dinin də rolunu etiraf etmişdir: "Dinlərin millətlərin həyatı üzərinə təsirləri vardır. Heç bir millət bu qədər çətin ki, dinsiz yaşaya bilsin. Hələ ammeyi-nas heç bir zaman dinsiz yaşayamaz".[515]

**Çağdaşlıq ya da müasirləşmək milliyyətin varlığının üçüncü əsası kimi**. Onun fikrincə, milliyyətin varlığının üçüncü əsası isə zamandır-müasirləşməkdir: "Zamanca da – biz texnikanın, elm və fənnin möcüzələr yaradan bir dövründəyiz. Türk və müsəlman qalaraq müstəqilən yaşamaq istərsək mütləq əsrimizdəki elmlər, fənnlər, hikmət və fəlsəfələrlə silahlanmalı, sözün bütün mənası ilə zamanə adamı olmalıyız".[516] O sonda belə bir nəticəyə gəlir: "Demək ki, sağlam, mətin və oyanıq məfkurəli bir milliyyət vücuduna çalışmaq istərsək ki, zaman bunu tələb ediyor – mütləqə üç əsasa sarılmalıyız: türkləşmək, islamlaşmaq və müasirləşmək. İştə millətimizin ictimai həyatının islahı üçün üzərinə dayandığımız üçayaqlı mədəniyyət!". [517]

---

[514] Yenə orada, s.480-481
[515] Yenə orada, s.249
[516] Rəsulzadə M.Ə. Əsərləri. III cild (1915-1916). Bakı, "Təhsil", 2014, s.182
[517] Yenə orada.

Rəsulzadə “Getdiyimiz yol” məqaləsində “müasirləşmək” anlayışını daha ətraflı təhlil edərək onu bütün millətləri xilas edəcək yollardan biri olaraq göstərmişdir. O, yazırdı: “Müasirləşmək – iştə bütün millətləri səlah və nicat yoluna çıxaran böyük vasitə. Müasirləşməyən, yəni zaman və əsrindəki maddi və mənəvi vasiteyi-mədəniyyə ilə silahlanmayan bir camiyyət - gərək qan, irq və dilcə birləşmiş milliyyət və ya din, ruh və vicdanca tanınmış, beynəlmilliyyət olsun - mümkün degil. Müdhiş və qanlı bir rəzmgah təşkil edən bu dünyada kəndi bənliği, öz mənəvi ruhu və təbii qəlbi ilə yaşayamaz. Dünyanın həyatından, bu həyatın ən böyük feyz və nemətini təşkil edən istiqlaldan, mədəni iqtidar və hürriyyətdən məhrum olub qalar”.**[518]**

Ona görə hazırda “müasirləşməy”i iki cür anlayanlar vardır ki, buna səbəb də hər bir siyasi qüvvənin ondan öz maraqları üçün istifadə etməsidir. O, yazırdı: “Müasirləşmək şüarını iki dürlü anlamaq mümkündür və iki dürlü anlayanlar da vardır. Bu anlayışlardan birisi sözün doğru və təfsirindən çıxan mənadır. Bu mənaya görə müasirləşmək – məlum bir keçmişlə xüsusi bir mövcudiyyətə malik ikən bu xüsusiyyatı saxlamaqla bərabər müasir olmaq, yəni əsrdəki alət və ədəvatı qəbul etməkdir. İkinci anlayışa görə isə müasirləşmək keçmişə, ayrı bir mövcudiyyət və bu mövcudiyyətdəki xüsusiyyətə beş qəpik əhəmiyyət verməyib tamamilə fəna füləsr olmaq və qeyd-şərtsiz Avropa mədəniyyəti denilən “sıyığ”a qarışıb qaynamaqdan, yalnız surətən degil, seyrətən dəxi təqlibi-mahiyyət etməkdən ibarətdir”.**[519]**

Rəsulzadə hesab edirdi ki, müasirləşməklə bağlı bu iki fərqli anlayışda iki növ siyasət: 1) demokratizm, 2) imperializm, əsas təşkil etmişdir. O, yazırdı: “Demokratizm, bütün millətləri kəndi ruh və mənəviyyatı dairəsində qalmaq şərtilə müasir mədəniyyət sərgisinin tamam hüquqlu bir şəriki olma sifətilə görmək istər. Çünki müəyyən bir mədəniyyətə malik bulunan məlum bir camiənin digər qüvvətli bir camiə tərəfindən udulması,

---

[518] Yenə orada, s.530
[519] Yenə orada, s.531

yəni təmsil edilməsilə xüsusi bir "bənlig"in aradan itib getdiginə, bununla dəxi məədniyyəti-bəşəriyyə sərgisinin naqis qalaraq böyük zərərlər çəkəcəyinə qənaət edər. Halbuki daha ibtidai və ya inhitatı bir dövrdə bulunan millətləri zor bazu və ya tarixən rast gətirməsi ilə (şövqi-tarixlə) kəndi əsarət və tabeliyinə keçirmiş olan imperializm böylə yapmaz. O dərində bir vəhşi kimi parçalayıb boğduğu millətləri gövşəyən heyvan kimi təkrar-təkrar çeynər, tainki təbiri-mərufla həzmirabedən ötürər. Daima "həll min məzid" çağırmaqda olan imperializm qələmrovundakı millətləri sortən kəndisi kimi "müasir" olmaya təşviq edər; yalnız hökm və cəbri altında bulunan millətlərin bu müasirləşməsini ikinci mənada anlar; yəni onları bütün xüsusiyyətlərindən ayırıb mahiyyətlərini dəyişdirər".[520]

Böyük mütəfəkkirə görə, əgər hər hansı millət, cəmiyyət köklü milli mənliyə, milli xüsusiyyətlərə, milli mədəniyyətə malikdirsə, o zaman imperializmin bu cür assimilyyasiyasına qarşı dayanıb hətta, ona təsir də göstərə bilər. Ancaq milli mənliyi, milli xüsusiyyətləri zəif olan xalqlar isə imperializmin "müasirləşmək" siyasətinin qurbanı olurlar. Rəsulzadənin fikrincə, bu anlamda bir millətə gərəkən "müasirləşmək" anlayışından düzgün nəticə çıxarıb onu məqsəd kimi deyil, vasitə olaraq görməyi bacarmaqdır. Onun fikrincə, bu anlamda müasirləşməyi bir millətin məqsədi kimi görüb onu ifrat şəkildə ideallaşdıranlar kimi, onu tamamilə rədd edən mühafizəkarlar da yanlış yolda olublar. O, yazırdı: "Müasirliyə qeyd-şərtsiz məftun olan qism minurla, qeyd-şərtsiz müasirlikdən tənfir edən sünufun toqquşmalarından bir həqiqət doğdu. Bu həqiqətə görə "mənlliy"imizi itirməyərək müasir olmalıydıq. Fəqət "mənliy"imizi təmin edərkən yenə yanılmışdıq. Müasirliyi bizzat alqışlayan və bizzat rədd edən ifratla təfrit aradan qalxınca müasirliyin "bizei-islamı" mühafizə üçün lazım olduğu etiqadına gəlinmişdi. Daha sonra müasirlikdəki üsul və fünuna aşinalıq artdıqca "mənliy"imizi

[520] Yenə orada, s.531

təyin üçün qəbul olunan "islamiyyət" təbirinin həqiqətə uyğun olub-olmadığı mübahisəyə bais oldu. Tənfirlərindən sonra müasirliyi qəbul edənlər mədəniyyəti-hazıriyyənin "milliyyət" deyə tanıdığı camiənin cəhətini dində gördülər. Buna görə də "islamiyyət"in bir milliyyət əsası vəzh etdiyində israrla "milliyyəti-islam" deyib durdular. Müasirliyə məftunluqlarından ayrılaraq "islamiyyət"i bulan qism minur isə tədqiq və tətəbböh nəticəsində bunun bir milliyyət təşkil edəməyəcəyini iddia ilə milliyyət camiəsinin cəhətini dində deyil, dildə gördülər. Buna görə millət olaraq islamiyyətdən deyil, türklük, ərəblik, farslıq və sairədən bəhs etməyi daha doğru buldular. Yenə bir mübahisədir başladı. Bu dəfəki təsadüm aradan çıxan bariqeyi-həqiqət isə din camiəsinin bir milliyyət deyil, bir beynəlmilliyyət təşkil etdiyini isbat etdi. Yeni doğulan bir həqiqətin güruyudələri "dil"də bir "milliyyət", "din"də də bir "beynəlmilliyyət" xassəsi olduğuna iman gətirdilər. Demək ki, bu yeni qüvvətin təyin elədiyi istiqamət mücərrəd olaraq dil, din və zamandan müəyyən olaraq türkləşmək, islamlaşmaq və müasirləşməkdən ibarət oldu".[521]

Rəsulzadəyə görə, "müasirləşmək" anlayışının yeni fəlsəfi anlamını ilk dəfə Ə.Hüseynzadə görmüş ("türk hissiyyatlı, islam imanlı, firəng qiyafəli"), Z.Gökalp inkişaf etdirmiş ("türkləşmək, islamlaşmaq, müasirləşmək") və onun tərəfindən "Açıq söz" qəzetində açıq, dəqiq şəkildə təsbitlənmişdir. [522]

**Tarixi şüur, adət-ənənələr və milliyyət.** Rəsulzadə dil, din, çağdaşlıqla yanaşı milliyyətin formalaşmasında tarixi şüur və adət-ənənələrin də mühüm rolunu unutmurdu: "Milliyyət amillərindən birisi də tarix ilə adət və ənənədir. İləridə bir miknət və qüvvət tapa bilmək üçün millətlər həmən tarixlərindən istimdad edərlər. Zəif düşdükləri, əzilib, inqiraza tərəf çəkildikləri, hətta inqiraz bulub, hər bir iqtidar və qüvvətdən düşmüş olduqları zamanda belə keçmişin qüvvətli və parlaq dəmlərini xatirə salmaqla istiqbal üçün bir ümid bəslərlər. Keçmişini yaxşıcasına tədqiq etmiş

[521] Yenə orada, s.532
[522] Yenə orada, s.533

olan millətlər daima mazinin ölüb torpaqlar altında çürümüş olan qəhrəmanlarından birər ideal modeli yapıb da, onu gələcəyin bir nümuneyi-həmasəti kəsdirirlər”.[523]

Bir millətin öz tarixini bilməsi qədər qüvvətli birlik və amal ola bilməz deyən Rəsulzadəyə görə, mədəni millətlərdə tarix, vətən tarixi, millət tarixi ən mühüm dərslərdən biridir: “Vətənin keçmişdə keçirdiyi şanlı günləri və bəşəriyyət aləminə bəxş edə bildiyi səmərəli və faydalı xüsusları həmən tarix dərs kitablarından başlanaraq övladi-vətənin yadına nəqş etdirilir. Vətən və millət əfradı həmən müəyyən bir üsul ilə böyük və bəşəriyyətə, mədəniyyətə dəyərli xidmətlər yetişdirmiş olan bir nəsli-nəcibə mənsub olduğuna qənaət yetirərək böyüyür. Haradan gəldiyini, tarixdə nələr elədiyini və nə kimi qüvvələrə malik olduğunu bilib, izzəti-nəfsi ilə istiqbala qarşı bir ümid olaraq yaşayır”. [524] Rəsulzadə tarixin millətin həyatında rolunu ümumiləşdirərək belə bir nəticəyə gəlir: “Tarixi öyrənmək və millət arasında tarix dərsini təmin etmək ittihad və ittifaqı mövcib olduğu qədər, bəlkə ondan daha artıq, vüqüati-tarixiyyə özü də millətləri qaynadıb qarışdıran bir amildir. Bu xüsusda başqaları üzərinə hücumlar icra edən təcavüzkar tarixdən çox, başqalarının hücumunu dəf edib də müdafiədə olan tarix faydalıdır”. [525]

Millətin formalaşmasında adət-ənənələrin roluna gəlidikdə, Rəsulzadə bunu, milliyyətin birləşməsi və özünü qoruması səbəblərindən biri kimi dəyərləndirib. Ona görə, xalq arasında bəzilərinin adət və ənənələrə biganə yanaşması, onu “ne kulturnu” (qeyri-mədəni) adlandırıb dəyişdirmək istəməsi, xonça və şamları yolkalarla əvəz etməsi, uşağın anasıyla rusca danışması və anasının bundan fərəhlənməsi doğru deyil: “Təsəvvür ediniz dediyim uşağın halını: dil açıb anasıyla rusca danışmış. Atası mağazadan gələndə yenə onu rusca dindirmiş: həyətdə yoldaşlarını rus görmüş, onlarla o dildə söhbət etmiş, oyun oynarkən rus oyunlarını oyna-

---

[523] Rəsulzadə M.Ə. Əsərləri. II cild (1909-1914). Bakı, “Təhsil”, 2014, s.483
[524] Yenə orada.
[525] Yenə orada, s.485

mış, məktəbdə dəxi eyni tərbiyəyə tabe olmuş. Bayramlarda yolka bəzəyib ətrafına da dönüb-dolaşmış, ən axırı da məlumdur ki, daxili Rusiya şəhərlərinin birində ali tərbiyə alıb "obrozovannı" olacaq. Fəqət böylə bir "obrozovannı"dan bizim "neobrozovannı" millət nə gözləyə bilər və o özü istərsə "millətinə" nə kimi fayda yetirə bilər? Heç nə!". [526]

**Milli əxlaq və milliyyət.** Bu baxımdan Rəsulzadəyə görə milliyyətin inkişafında, mahiyyətində adət-ənənələrə əsaslanan milli əxlaq böyük rol oynayır: "Milli əxlaqa gəlincə, o da fərdlərdən mütəşəkkil böyük bir topluluğun toplu bir halda uyacağı və daima bağlı qalacağı bir taqım maşəri ümdə və qaidələridir. Millət hizblərin, zümrələrin və siniflərin fövqündə olduğu və bunların hamısını içində barındırdığı və qoyununda bəslədiyi üçün heç bir hizb, zümrə və sinif mənfəətlərinə və ya qayələrinə fəda ediləməz. Hələ milli varlığın şəxsi təmayüllərə və qərəzlərə alət və vasitə edilməsi xəyalə belə gətiriləməz".[527]

Rəsulzadə daha sonra yazırdı ki, hər şey millət uğrunda – budur, həqiqi vətənsevərlərin yeganə şüarı, bu da olmalıdır: "Millətin birliyini və bütünlüyünü qorumaq, milli əxlaqın başlıca ümdəsidir. Türklük və milli istiqlal prinsiplərinə mütləq sədaqət, milli əxlaqın ikinci böyük ümdəsidir. Bu ümdənin qəti və zəruri tələbi olaraq düşmən və işğalçı hər hansı bir qüvvə ilə milli istiqlal bəhsində açıq və ya qapalı heç bir bazarlıq edilə bilməz. Verilən sözə və yapılan sərbəst anlaşılmalara riayət milli əxlaqın üçüncü ümdəsidir. Haqqı, hürriyyəti, sülhü və demokratiyanı qoruma və müdafiə, zülmə və təcavüzə qarşı dönməz bir cəbhə alma milli əxlaqın dördüncü ümdəsidir. Milli səviyyəni daima yüksək tutma, geriliyə və cəhalətə qarşı savaşma milli əxlaqın beşinci ümdəsidir. Bütün bu ümdələrə riayət edən millətlərə insanlıq camiəsi, irəli, kültürlü, səciyyəli, zində və istiqbalı parlaq millətlər, deyə, qiymət verir. Əks yolu tutanlara bəşər topluluğu da, tarix də çökmüş, çürümüş və ölümə məhkum millətlər

---

[526] Yenə orada, s.486

[527] Resulzade M.E. Milli tesanüd. Ankara: Kardeş matbaası, 1978, s.26

damğasını vururlar. Tarix boyunca milli dövlət qurmağa və yaşatmağa müvəffəq olmuş və ün salmış millətlər həm əxlaq və səciyyələri etibarı ilə sağlam olan və sağlam qalmış millətlərdir. Əxlaq və fəzilət fərdləri yüksəltdiyi kimi, onu daşıyan millətə qarşı dünya ictimai fikrinin bəsləyəcəyi etibar və etimadı da get-gedə yüksəldə və artıra bilir və beləcə milli davanın gerçəkləşməsini bir xeyli qolaylaşdırır. Səciyyəsi düzgün və sağlam bir millət gələcəyindən əmin ola bilir. Çünki milli sahədəki hər müvəffəqiyyətin başı və əsas şərti milli fəzilətdir."[528]

M.Əmin milli əxlaqımızın çirkabdan təmizlənməsi üçün ilk növbədə, ruhumuzun təmizlənməsi lazımdır. O qeyd edirdi ki, millət olaraq öz kimliyimizi tanımalıyıq: "İşlərimizin düzəlməsi üçün məncə, hər şeydən əvvəl, ruhumuzu, ruhi-minkəsirimizi, xəstə ruhumuzu tədavi etməliyik. Bu yolda bəsirət qazanmalıyız. Hər şeydən əvvəl özümüzü öyrənməliyiz. Kimiz, nə millətiz, haradan gəlmişiz. Özümüz nə, mahiyyətimiz nə olduğunu bilməliyiz. Sonra da bilməliyiz ki, biz heç də həyatından qəti ümid etmiş bədbəxtlər deyiliz. Biləkəs anlamalıyız ki, böyük tarixə malikiz. Tarixdə parlaq günlərmiz olmuş. Qafalarımza soxmalıyız ki, "müsəlman adamdır. Müsəlman adam da olar və hər vaxtda adam olmaq istedadındadır". Allah bilir ki, hələ münəvvərlərimiz (intellgent-lərimiz) ağzından "canım müsəlmançılıqdır" cümləsini eşitdikdə ürəyim nə qədər ağrıyır". [529]

O, özümüzün özümüzə olan mənfi münasibətin aradan qaldırılmasını vacib sayırdı: "Bunun üçün də hər şeydən əvvəl münəvvər qismimiz birləşməli, bəsirətə gəlməli, öhdəsinə düşən böyük vəzifəni və onun ifasındakı qüsurun böyük məsuliyyətini xatirinə gətirməlidir".[530] O, daha sonra qeyd edirdi ki, əxlaqlı bir insan cəmiyyətə xeyir verəndir: "Fəqət bunu da unutmasınlar ki, münəvvər bir adam üçün hər nə qədər milyon güdən də olsa, bir

---

[528] Yenə orada, s.26-27
[529] Rəsulzadə M.Ə. Əsərləri (1909-1914). II cild. Bakı: Şirvannəşr, 2001, s.321
[530] Yenə orada, s.321

ehtiyaci-mənəvi də var ki, o da yaşadığı mühitə, az da olsa fayda vermək, onu işıqlandırmaqdır”. [531]

Rəsulzadə milli əxlaqdan, milli dəyərlərdən tamamilə kənara çıxıb müasirləşmək adı ilə avropalaşmağın da əleyhinədir. Onun fikrincə, bir millətin hansısa millətin bir surətinə çevrilmək istəyi düzgün deyil: “Bir zaman vardı ki, biz daima Qərbə bənzəmək istər, sənət ilə və musiqimizdə avropalıları kor-koranə təqlid edərdik. Fəqət bu təqlid məəttəəssüf tamamilə avropalılar içində münhəm olub da yox olmaqdan ibarət olardı. Hətta indi də bir çox hallarımız böylədir. Fəqət “Nicat”ın “Şərq gecəsi”ndə tərtib etdiyi proqram göstərdi ki, avropalıları təqlid etməni yavaş-yavaş öyrəniyoruz. Avropalılardan sənətə race olan xüsuslarda ancaq şəkil və tərtibi almalıyıq, yoxsa məna ilə ruh milli qalmalıdır. Vəilla vücuda gətirəcəyimiz ədəbiyyat, musiqi və sənət gülünc bir hal almış olar. Millilikdən çıxar, başqalarının natəmam bir kopiyası olar”.[532]

Bilgəmiz yazırdı ki, insanlara o ədəbiyyat öyrədilməlidir ki, onun insanlara, cəmiyyətə faydası olsun və milli mahiyyət daşısın: “Ədəbiyyatın bisəmərəliyi bu cəhətdən naşidir. Bizlərdə ədəbiyyat yoxdur - demək olmaz. Var, lakin cümləsinin vaxtı ötmüş, Nuh əyyamından qalmış, kif atmış ədəbiyyatdır… Onlarda füqərayi-kasibənin könlünü açacaq, onların dərdinə çarə edəcək bir yol göstərilməmişdir. Buna görə də bizim aramızda cihad edən fəhlə sinfinin ədəbiyyatı yoxdur». [533] O dövr üçün ədəbiyyatın milli ədəb-ərkan məsələlərini, milli əxlaqi dəyərləri mənimsəməkdə rolunun böyüklüyü danılmazdır. Bir çox milli əxlaqi dəyərləri, adət-ənənələri, tərbiyə üsullarını, norma və qaydaları məhz ədəbiyyat vasitəsilə mənimsəmək daha real, məqbul idi. Rəsulzadə isə Azərbaycanda bu cür ədəbiyyatın olmamasına təəssüfünü bildirirdi.

[531] Rəsulzadə M.Ə. Bəsirət gərək. «Bəsirət» qəz., Bakı, 1914, 12 aprel
[532] Rəsulzadə M.Ə. Əsərləri (1909-1914). II cild. Bakı: Şirvannəşr, 2001, s.314
[533] Rəsulzadə M.Ə. Əsərləri. I cild (1903-1909). Bakı, “Təhsil”, 2014, s.41-42

Hər millətin taleyində milli ədəbiyyatın mühüm rol oynadığını görüən Rəsulzadə yazırdı ki, ədəbiyyat millətin tərəqqisinə xidmət etməlidir: “Ədəbiyyat bir millətin rüşd və bulunduğunu göstərər və həyati-ictimaiyyəsini təsvir qılar bir ayinə olduğu kimi, eyni zamanda o millətin tərəqqisinə də xidmət eləməklə müvəzzəfdir. Yoxsa, ədəbiyyat deyildir. Sözü qısa kəsəlim ki; ədəbiyyat ictimai bir amil və həyati bir müəssirdir. Müəssir məyub olursa, əsər də naqis olur”.[534] O, daha sonra yazır: “Yazı ədəbiyyatından əvvəl hər bir millətin ümumi və milli bir ədəbiyyatı vardır ki, buna el ədəbiyyatı deyilir. El ədəbiyyatında uşaqların zövq və təbinə müvafiq sadə uşaq qəlbinə təsxir edəcək o qədər şairanə və o qədər təbii şeylər vardır ki, hədd və payanı yox”. [535] Onun fikrincə, “el ədəbiyyatı bir millətin səbavət dövrünün ədəbiyyatıdır. Bir uşaq necə dil açır və nə surətdə təkmil ediyor da ən nəhayəti qoca bir alim oluyorsa, bir millət də öylədir”. [536]

Rəsulzadəyə görə, ədəbiyyat millətin daxili dünyasının bir tərəfidir və millətin əxalqi inkişafının bir nümunəsidir. “Tənqidə ehtiyac var” məqaləsində Rəsulzadə ədəbiyyatla bağlı fikirlərini davam etdirərək yazır: “Biliriz ki, hər millətin ədəbiyyatı hissiyyat (sentimentalizmə) ilə başlamışdır. Hər hanki bir ədəbiyyat tarixini alsanız, orada əvvəlcə gələn ədiblərin əsərlərində yer üzündə qabil tətbiq olunan fikirlər və yol göstərmələrdən ziyadə hissiyyata həyacan verici nalələr, fəryadlar, dəvətlər və nidalar görərsiniz. Bunun məntiqi də var. Çünki yatmışlara xitab ediyorsunuz... Hissiyyat dövrəsində bir dərəcəyədək hər kəs məzurdur. Nə kimi bir lisan və biliklə olsa, məqsəd yatmışı oyatmaqdır. Yatmışı oyandırdıqdan sonra məsələ tamamilə dəyişiyor. İndi artıq yuxudan gec qalxıb da özünü karvandan geridə və məhləkədə görən adama yol göstərmək qabaqda gedənlərə nə surətlə çatmaq mümkün olduğunu

[534] Rəsulzadə M.Ə. Əsərləri (1909-1914). II cild. Bakı: Şirvannəşr, 2001, s.255
[535] Yenə orada, s.326
[536] Yenə orada, s.327

bildirmək dövrəsi gəlir ki, bu dövrəyə realizm (həqiqət) dövrəsi deyiliyor. Biz Azərbaycan müsəlmanlarının həyatı dəxi indi həqiqi bir dövrəyə giriyor. Tərəqqi və intəha hənuz hissiyyat dövrəsindən çıxmaq üzrədir. Artıq layla çalan ədəbiyyatdan qorxu qalmamış. Fəqət yuxu qaçırdan ədəbiyyat da dəngəsər etmək üzrədir. Layla çalan ədəbiyyatı öldürmək yolunda əda etmiş olduğu xidməti dərəcəsində şayani-təhsin olan hissiyyat ədəbiyyatı gözləri açılmaqda olan adamları düz yol ilə aparıb sərmənzilə çıxarmaq üçün kafi deyildir. Bunun üçün ədəbiyyatı-həqiqiyyə lazımdır. Bunun misalı isə bizdə kamali-cəsarətlə deyə bilərəm ki, hənuz yoxdur. Fəqət gəlməyəcək də deyildir”. [537]

Belləliklə, Rəsulzadə yazırdı ki, “tələsik bir surətdə maddətən tərəqqi edib də mənəviyyatca məhrum qalmaqdansa, maddətən gec tərəqqi edib, mənəviyyatca müstəqil qalmağı tərcih edərəm, çünki milliyyətin də, bəşəriyyətin də, faidəsi bundadır”. [538] O, bununla da sosial tərəqqini iki maddi və mənəvi hissələrə bölmüş olur. Onun fikrincə, əvvəlcə mənəvi tərəqqi gəlir. Bu baxımdan mütəfəkkir milli məfkurədə milli tərəqqini ön plana çəkir.

**Milli dirilik-milli varlıq fəlsəfəsi: etnos, xalq, millət.** “Dirilik nədir?” məqaləsində Rəsulzadə yazırdı ki, milli diriliyin, yəni milli varlığın əsasında millətin özünü tanıması, namusunu qoruması və bu gücdə olacaq bir qüvvənin olmasıdır. Milli diriliyin-milli varlığın sosial-fəlsəfi şərhini verməyə çalışan Rəsulzadə yazırdı ki, avropalılarda dirilik hər şeydən üstündür: “Dirilik üçün ölmək! Avropa diriliyi bu dərəcədə müəzziz tutuyor və ona bu qədər əhəmiyyət veriyor. Halbuki Şərqdə, ələlxüsus, Şərqi-islamda yalqız olmaq üçün diriliyorlar. Başqalarında məqsəd dirilik isə, bizim məqsədimiz ölümdür. İştə diriliyi və dirilik fikrini avropalılar kimi anlayıb və anlada bilmək diriliyin məqsədini təşkil ediyor”. [539] O, daha sonra yazırdı ki, hər hansı millət təbiətə qarşı icra olunan müharibədə daha bacarıqlı və daha

---

537 Rəsulzadə M.Ə. Tənqidə ehtiyac var. «İqbal» qəz., Bakı, 1913, 10 oktyabr
538 Cəfərov N. Milli ictimai fikir tariximizdən. Bakı: Azərnəşr, 1993, s.15
539 Rəsulzadə M.Ə. Əsərləri. II cild (1909-1914). Bakı, “Təhsil”, 2014, s.460

qüvvətlidirsə, o millət təbiətdən alınan qənimətdən də çox istifadə edir: "Hələ yalnız bununla qalmayıb, dünyanın nemətlərini təqsim edərkən, diri millətlər özlərinə hər kəsdən daha çox pay çıxarırlar". [540] Bu baxımdan "dirilik hər şeydən əvvəl bəşəriyyətə fayda vermək, ictimai inkişafa təkan vermək, dünya mədəniyyətini zənginləşdirməkdir".[541]

Rəsulzadə belə bir qənaətə gəlirdi ki, ümumi dirilkdən başqa, insanlar arasında bir də xüsusi, yəni diriliklərin ən qiymətlisi olan milli dirilik, milli varlıq vardır: "Millətlər qüvvətli və tərəqqi etmiş olmadıqca, diriliyi mənayi-həqiqi və maddisilə anlmadıqca, təbiətdən alınan qənimətlərdən hissələrinə ancaq bir qüvvəti-layəmut düşər. İştə bu qüvvəti-layəmutə qənaət edən millətlər kargahi-bəşəriyyədə ən sufli xidmətlər ifa edən səfil əmələlərdir. Neft mədənlərində çalışan "çorni raboçilər" kimi… Başqaları dirilik üçün öldükləri halda, biz ölmək üçün dirildiyimizdən bəhs etmiş idik… Belə dünyaya bir qələm çəkib də bütün diriliyi axirət diriliyindən ibarət bildiyini bir əmri-din bilmək, səlim düşünülürsə, böyük xətadır. Çünki bunun nəticəsi maddi və mənəvi fəlakətdir ki, dünyanı da, axirəti də bərbad edə bilər. "Əddünya məzrəətül-axirə" (dünya axirətin əkin yeridir). Məzrəəni abad etmək lazımdır. Bunu da ancaq dirilər yapar. Dirilik isə elmən, ruhən və cismən qüvvətli olmaqdan və diriliyi sevməkdən ibarətdir. Nəzərə bir az qərib gəlsə də, demək istəyirəm ki, dirilik - dünyanı sevməkdən ibarətdir, mənayi-xassi isə dünyapərəstlikdir. Diriliklərin ən qiymətlisi də - milli dirilikdir… Filosoflar və sufilər nə deyirlərsə desinlər: dirilik dünyanı sevməkdən və öz hüquq və namusunu mühafizə edə biləcək qədər qüvvətli olmaqdan ibarətdir".[542]

Rəsulzadə hesab edirdi ki, milli dirilik-milli varlıq üçün də milli özünüdərk vacibdir. Başqa sözlə, milli varlığın əsasında dayanan "millət" dedikdə, onu həm genetik-kimlik, həm də şüuri,

---

[540] Yenə orada, s.460

[541] Cəfərov N. Milli ictimai fikir tariximizdən. Bakı: Azərnəşr, 1993, s.18

[542] Rəsulzadə M.Ə. Əsərləri. II cild (1909-1914). Bakı, "Təhsil", 2014, s.461-462

dünyagörüş anlamında dərk etmək lazımdır. Rəsulzadə bu fikirlərini sübut etmək üçün yazırdı: "Millətpərəstliyin və milli diriliyin nə olduğunu yaxşı bilmək üçün əvvəlcə millətin nə olduğunu öyrənmək və nə kimi vasitələrlə rücü etmək lazım olduğunu anlamaq lazımdır".[543] O, milli varlığı dar, məhdud çərçivədə yox, geniş mənada götürür, bu zaman milliyyətlə qövmiyyətin (xalqın) fərqini də göstərməyə çalışırdı. Rəsulzadə yazırdı: "Öz-özlüyündən məlumdur ki, diriliyi dərk eləmək və onu arzu eləmək tarixi bir zəmində və insanların tədricən qövmiyyətdən milliyyət və milliyyətdən də millət dərəcəsinə çıxmaları ilə hasil oluyor… "Qövmiyyət"-narodnost – yalnız nəsil və dil birliyi, "milliyyət"-nasionalnost – dil və mədəniyyət və milli diriliyi dərk etməklə hasil olar. Yəni bir ata-babadan yetişmə və bir dildə danışan kiçik bir tayfa və ya qövmə-qövmiyyət sözü ilhaq olunar. Şahsevən kimi, Şahsevəndən bəhs edərkən bir qövmdən bəhs olunar. Artıq Şahsevənə milliyyət deyilməz. Bir çoxu bu kimi qövmiyyət və tayfalar cəm olub, bir dil ilə bərabər müəyyən bir mədəniyyətə malik olan azərbaycanlılardan bir milliyyət kimi bəhs etmək olar".[544]

O, təəssüflə yazırdı ki, dövründə "millət" kəlməsinin mənası çox yanlış ifadə edilir: "Nə qədər ali təhsil görmüş, mədəni həyat, mədəni ölkələr görmüş adamlarımıza təsadüf edərsiniz ki, "hansı millətdənsiz?" - deyə verəcəyiniz suala – "müsəlmanam" - deyə cavab verər və bu cavabının əsla düzgün olmadığını düşünməz. Halbuki həmin adam özü bir nəfər rusa "tı iz kakoy natsii?" - deyə verdiyi suala "xristianin" cavabını alsa, məzkur cavabı olduqca gülünc və cavab verən şəxsin cəhalətinə dəlil tutar. Əslində bizdə "ümmət" kəlməsilə "millət" kəlmələrinin fərqi ayrılmamışdır. Bəlkə də qədimdə "ümmət" ilə "millət" arasında fərq olmayıb, qövmiyyət və cinsiyyət camesini andıran "millət" kəlməsi həmkeş və həmdinlik camesinə "ümmət" kəlməsilə qarışmış və "milləti-islam" təbiri məşhur olmuşdur.

[543] Yenə orada, s.466
[544] Yenə orada, s.467

"Millət"i nasyon (natsiya) mənasına alacaq olursaq, bu heç də həmdinliyi bildirməz. Bu, dindaşlıqdan əlavə bir çox "daşlıqları" da came olduğu kimi, bilxassə dil birliyini lazım gətirər. Müasir mənası ilə "millət" kəlməsi iştə bu dil birliyindən hasil olan camiyyəti ifadə edər. Fəqət başlıca dil birliyindən ibarət olmaqla bərabər millət məfhumu başqa xüsuslara da şamildir".[545]

Qeyd edək ki, qövmiyyət (xalq) və milliyyət (millət) məsələsinə Rəsulzadə 1952-ci ildə yazdığı "Qövm və Millət" məqaləsində bir daha toxunmuşdur. Bu dəfə o, qövmiyyət (xalq) və milliyyət (millət) məsələsinə Ziya Gökalpın bununla bağlı fikirlərinin şərhini verməyə çalışmışdır. Rəsulzadə yazırdı: "Böyük türk filosofu, Ziya Göyalp mərhum bu mövzudan danışdığı bir yazısında ["Yeni məcmuə", № 33] deyir ki: "Millət [nation] şəxsiyyətini uzun müddət itirdikdən sonra təkrar oluşdurmağa çalışan qovm deməkdir». Bu oluş gəlişimini anladarkən ustad, "Milliyyət" təbirilə də ifadə olunan "qövm"ün keçirdiyi yeniləşmə şəklini izah edir ki, xülasəsi bundan ibarətdir: Qövmlər təbii olduqları müştərək bir din və ya səltənətin təsirilə özləşərək şəxsiyyətlərini itirərlər. Sonra daxil olduqları bu səltənət və ya ümmətin çözülməsi üzərinə yenidən özlərini tapırlar. Fəqət bu dəfə ortaya çıxan şəxsiyyət itirilmiş tayfa şəxsiyyətinin eyni deyildir. O, uzun zaman birlikdə yaşanan müştərək mədəniyyət və ümmət həyatının təsirilə yeniləşmiş bir şəxsiyyətdir. Qövm getmiş, yerini millət almışdır".[546]

Qeyd edək ki, qövm ilə millət arasındakı fərqi Ziya Gökalp bütövlükdə belə izah etmişdir: "…Qövm inhisarçıdır. Qövm dini özünə həsr (aid) edər, insanlığı özündən ibarət görür, hətta kosmoqoniyası vasitəsilə kainatın təşəkkülünü öz qövmünün təşəkkülü ilə izah edər. Bu etibarla ümmət şəkli qövm şəklindən daha ziyadə insanidir, çünki ümmət insanlığı və mədəniyyəti bir qövmə aid etməz, bir çox qövmləri içərisinə almağa çalışan bir din dairəsinə alar. Bununla belə, ümmət də çağdaş mədəniyyətə

[545] Rəsulzadə M.Ə. Əsərləri. II cild (1909-1914). Bakı, "Təhsil", 2014, s.466
[546] Rəsulzadə M.Ə. Milli birlik. Bakı, «Çıraq» nəşriyyatı, 2009, s.37

nisbətlə inhisarçıdır. Çağdaş mədəniyyət yalnız bir dinə bağlıların inhisarını qəbul etməz. Çünki elmə dayanan bu zümrə türlü dinlərə mənsub millətləri də dairəsinə ala bilir. Bundan dolayıdır ki, millətlər ümmətin deyil, çağdaş mədəniyyətin bir parçasından ibarətdir. Bir çox sultani [imperial] dövlətlər bir ümmətin bir parçası ola bilər. Fəqət millətlər yəni çağdaş dövlətlər [təbirə diqqət edin – idarə] bir ümmətin parçası ola bilməz. Millət nə qövm kimi, nə ümmət kimi inhisarçı deyildir. Millət çağdaş mədəniyyəti tam, özünü də onun parçası olaraq görür”.[547]

Qövm və millət anlayışlarının izahında Ziya Gökalpın fikrilərinə qatılan Rəsulzadə qeyd edirdi ki, milliyətin dövlət olmaq əzmini göstərdiyi və bunda israr etdiyi zaman ancaq millət olduğunu yazdığı vaxt bu fikri ifadə etmişdir: “Necə ki, Ziya Göyalp da “millət sözünü dövlət” sözünün qarşılığı olaraq qullanmışdır. Ustada görə: “Türklər Türkiyə Cümhuriyyətinin təşəkkülündən sonra millət həyatına başlamışlar». Cümhuriyyətdən əvvəl “türk milləti” və “millət həyatı” yokmu idi? – deyə soruşanlara sözü keçən məqalədən aşağıya köçürdüyümüz bu sətirləri oxumalarını tövsiyə edirik: “Türk qövmü islam ümmətindən, Səlcuq və Osmanlı səltənətlərindən əvvəl də mövcud idi. Müştərək İran mədəniyyətinə daxil olmadan özünə məxsus qövmi bir mədəniyyətə malik idi. İran mədəniyyəti ilə ümmət və səltənət təşkilatları türklərin bir çox qövmi müəssisələrini izalə etdi. Fəqət eyni zamanda türklərin millət halına gəlməsini təmin etdi”. İndi sözün bu məqalədə izah olunan mənası ilə milliyyətçilik deyil millətçilik, dünyanın irəliyə doğru addımlayan demokratik gedişinə uyğun bir hərəkatin adıdır. Sözün çağdaş mənası ilə patriotizmə uyğun gələn bu termin milliyyətçiliyi, yəni milli istiqlalçılığı ifadə edir”. [548]

Rəsulzadə özü millətə belə bir tərif verirdi: “Milli mədəniyyət və yaxud millət dil birliyi, adət və əxlaq birliyi, ənənati-tarixiyyə və nəhayət, etiqadati-diniyyə birliklərinin məcmuyundan

[547] Yenə orada, s.37
[548] Yenə orada, s.37

mütəşəkkil bir məhsuldur”.[549] Deməli, ona görə, millət dili, dini, adət-ənənələri, ədəbiyyatı və tarixi bir olan toplumdur: “Yalnız din birliyi müasir məna ilə bir millət təşkil edə bilməz. Milliyyəti təşxis edən müştərək əlamətlərin başlıcası dil, din, adət və ədəbiyyatdır. Bu nöqteyi-nəzərdən türklər bir millətdir... Milli istiqlala malik olmayan bir millət, hürriyyət və mədəniyyətini də hifz edə bilməz. İnsanlara hürriyyət, millətlərə istiqlal”.[550]

Onun millət anlayışına verdiyi bu tərif və şərh, bu gün də öz əhəmiyyətini saxlayır. Rəsulzadənin millətə verdiyi tərif, çoxsaylı təriflərdən yalnız biridir. Onun bu tərifi maraqlı olduğu qədər də, tənqidə də yer verir. Məsələn, millətin tərifi ilə bağlı Rəsulzadədə razılaşmadığımız məqamlardan biri din amilidir. Əslində din, milli məsələdən dah çox, bəşəri əxlaqi-mənəvi xarakter daşıyır. Din bir millətin həyatı ilə məhdudlaşa bilməz. Bu baxımdan bəzən, din hər hansı millətin bütövləşməsi, vahidləşməsi, milli dövlət yaratması kimi məsələlərdə mənfi rol oynayır. Rəsulzadə özü də dəfələrlə din faktorunun millətlə qarışdırılması problemini qeyd etmişdi. Mütəfəkkir “millət”, “Türk milləti” anlayışlarını şərh edərkən yazırdı: “Sairə yerlərin müsəlmanları kimi, biz Rusiya müsəlmanları milliyyətdən əvvəl din cəhətinə əhəmiyyət verdik. Bütün tərəqqipərvər hərəkatımızda din naminə dirilik göstərmək istədik. Türkcə qəzetə çıxartdıq - adına müsəlman qəzetəsi dedik. Türkcə teatrlar, operalar düzəltdik – ünvanlarını müsəlman teatrosu və müsəlman operası dedik. Məktəb açdıq - rus-müsəlman məktəbi adını verdik. Cəmiyyətlərimizin sifətləri yenə “müsəlman” kəlməsindən ibarət oldu. Halbuki elədiklərimizin hamısı türkcə olub və türk asari-mədəniyyəsini diriltmək üçün idi. Müsəlmanlığın ibtidai təsirindən gələrək biz özümüzü müsəlman adlandırdığımızdan əsl milliyyətimizin ünvanını təşkil edən türklüyə əhəmiyyət verməmiş, həmən “müsəlman” adına qənaət eləmişdik. Hələ də etməkdəyiz. Hələ bu qənaətlə də qalmamışıq, başqaları bizə “tatar” və “persiyan” demişlər, ona da

[549] Yenə orada, s.467

[550] Yaqublu. N. Müsavat Partiyasının tarixi. Bakı: Ay-ulduz, 1997, s.64

etiraz etməmişik. Bu, tamamilə ondan irəli gəlmiş ki, biz özümüzü necə ki lazımdır, tanımamışıq”.[551]

Milli varlığın fəlsəfəsini şərh edərkən M.Ə.Rəsulzadə öz konsepsiyasına iki anlayış da daxil etmişdi: milli vicdan və milli iman. Burada milli vicdan milli özünüdərk mənasındadır. O, millətin həyatını milli vicdanın inkişafına bağlayırdı. Milli vicdanın sayəsində milli iman əmələ gəlir. Milli imanın yaranması ilə millətlər özlərinə şanlı və şərəfli yol seçirlər. O yazırdı ki, milli varlığın yaranmasında milli vicdan və milli iman mühüm rol oynayır: “Milli vicdan və yaxud milli iman, milli dirilikdəki əməl və arzunun mövcudiyyətindən və onun surəti-hiss və bəyanatından hasil oluyor. Hər millət deyil, hətta hər bir şəxsin özünə görə əməli vardır. Buna başqa təbirlə meyl və arzu dəxi demək olar. Bunun firəngcəsi “ideal” gəlir. Osmanlıcada son zamanlar bunu, “məfkurə” deyə, tərcümə edənlər də vardır”.[552]

Rəsulzadə yazır ki, hər şəxsin arzu və əməli, onun bacarığı və məsləki ilə eynilik təşkil edir: “Bir şəxs öz iqtidar və bacarığı dairəsində müntəha nəyə malik olmaq istərsə, o şey onun əməlidir. Əməlsiz kimsə yoxdur. Onsuz yaşamaq naqabildir. Əməl fəaliyyətə, fəaliyyətdə tərəqqiyə mövcib oluyor. Şəxslər əməlsiz yaşaya bilmədikləri kimi, millətlər də əməlsiz yaşaya bilməzlər. İştə millətin ümumən də mövcud olan hakim bir əməl və arzu yolunda bəslənən gizli hisslər milli vicdan ilə imanı tövlid ediyorlar… Şəxsi əməllər hər nə qədər müşkül və istehsalı çətin də olsa, böyük ola bilməz. Yəni ona böyük və milli əməl deyilməz və o milli vicdanın tələb elədiyi də olmaz. Məsələn, bir hambal milyoner olmaq fikrinə düşər və bu çətin məqsədə nail olsa belə, bu əmələ böyüklük nami verilməz. Fəqət, bir fərd öz mühitinin faydasını düşünərək şəxsi üçün deyil, qövmi və yaxud milləti üçün bir əməl bəslərsə, buna böyük əməl demək olar, bu kimi adamlara da böyük əməlpərvərlər, yaxud məfkurəçi ismi

[551] Rəsulzadə M.Ə. Əsərləri. II cild (1909-1914). Bakı, “Təhsil”, 2014, s.468
[552] Yenə orada, s.469

verirlər».[553] Rəsulzadənin fikrincə, "millətlərin həyatı da ancaq bu milli vicdanın inkişafı sayəsində mümkün olub, ancaq bu vicdanın təsirləridir ki, milli ideal hasil olur. Milli idealın hökümilədir ki, millətlər özlərinə şanlı və şərəfli bir dirilik təmin edə bilirlər". [554]

**Milliyyət(çilik) və millət(çilik): oxşarlıqlar və fərliliklər.** Rəsulzadə milliyyət və millət məsələlərini araşdırarkən Qərb alimləri Madzi və Durkheymin fikirlərini təhlil etməyə çalışmışdır: "Millət anlamını ifadə üçün dilimizdə iki söz vardır: Milliyyət və Millət. Bunlardan birincisi lisani, dini, irqi, qövmi, tarixi, coğrafi, iqtisadi və siyasi amillərin təsiri ilə meydana gələn etnik bir topluluğu ifadə edir. İkincisi, isə bu topluluqdan doğan ümumi bir iradəni anladır. Madzinin məşhur tərifinə görə, millət "torpağın, mənşəyin, əxlaq ilə adətlərin və dilin birliyindən başqa, həyatında və ictimai vicdanında anlaşma və ortaqlıq yaratmış bir insan kütləsinə" deyilir. Durkheymin nəzərində isə "etnik amillər və yaxud tarixi səbəblərlə eyni qanunlar altında yaşamaq və tək bir dövlət qurmaq istəyən insan kütləsinə millət deyilir"... Madzinin tərifi ilə Durkheymin tərifi arasında ifadə fərqinə diqqət etmək lazımdır: Birincisində millət ünsüri və tarixi bir hadisədir. İkincisində millət ictimai və iradi bir hadisədir... O, rüşeymdir, bu uşaqdır. O ağacdır, bu meyvədir. O anadır, bu baladır. O milliyyətdir, bu millətdir".[555]

Rəsulzadənin fikrincə, milliyyətin millət halına keçməsi feodal sisteminin dağılması, burjuaziyanın zühuru ilə bağlı olub: "Dilləri, adətləri, tarixləri, dinləri, vətənləri və sairələri bir olan insanlar bir milliyyət təşkil edirlər; fəqət bir milliyyətin millət halına keçməsi ümumi şüur və kollektiv iradənin təəssüsünə bağlıdır. Bu isə yalnız "ictimai hafizə" vəzifəsini görən orqanın təşəkkülüylə vücuda gəlir. Bu orqan müxtəlif zamanlara görə dəyişir. Orta çağlarda bu vəzifəni feodal zümrə görür, milliyyətin sosial həyat və gələnəklərini qeyd və yaşadan "hafizə" xan

---

[553] Yenə orada, s.469

[554] Cəfərov N. Milli ictimai fikir tariximizdən. Bakı: Azərnəşr, 1993, s.16

[555] Resulzade M.E. Milli tesanüd. Ankara: Kardeş matbaası, 1978, s.17

sarayları ilə şuvaliyyə (aristokrat) qalalarından ibarət idi. Zamanın dəyişməsilə təbii olaraq bu orqan da dəyişdi. Burjuaziyanın zühuru ilə feodal sistem dağıldı. Mənəviyyat mərkəzi "qala"lardan şəhərlərə keçdi. Şəhərlərdə yetişən münəvvər (aydın, işıqlı, ziyalı) zümrə millətin şüurunu tərbiyə və iradəsini təmsil edən bir sinif halına gəldi. Bu sinif, qullandığı ən böyük vasitə – mətbuat yolu ilə milliyyətdəki kollektiv iradəni işlədi; öz arasından bu iradəni poladlaşdıran fikir adamları ilə sənətkarlar yetişdirdi. Bunların sayəsində mənliyini tərk edən milliyyət topluluğu bir millət olmaq əzminə gəldi."[556]

Rəsulzadə "Millətçilik-Patriotizm" məqaləsində isə milliyyətçiliklə millətçiliyi bir-birindən ayırır, milliyyət və millət anlamında vətən istilahına aydınlıq gətirməyə çalışırdı: "Milliyyət müəyyən şərtlər və hadisələr nəticəsində vücuda gəlmiş statik (mustakar) bir varlıqdır; millət isə bu statik varlığın şüurlaşan dinamik (fəal) bir şəklidir. Statik bir keyfiyyət ərz edən milliyyət baxımından vətən coğrafi bir anlamdır. Halbuki şüur və iradəyə malik bulunan millət baxımından vətən, siyasi bir məna ifadə edər. Etnik bir özəllik ərz edən milliyyət mənsublarının yaşadığı bir yerdən ibarət olan coğrafi vətən dinamizimdən məhrum passiv bir sevginin mövzusudur. Halbuki siyasi şüur və dövlət olmaq əzminə malik bulunan bir millət üçün vətən eşqi aktiv bir hərəkət amilidir".[557]

Rəsulzadəyə görə milliyyətçilik və coğrafi vətən sevgisi bir topluluğun yaşadığı yerlərə: dağlara, dərələrə, yayla və ovalıqlara, dəniz və çöllərə qarşı duyulan bir ilgidən ibarətdir. Onun fikrincə, halbuki bir millətçi üçün Vətən sadəcə, maddi ünsürlərlə hüdudlanmaz. O, yazırdı: "Milliyyətə siyasi şüur güdən millətçi, vətəndə də mənəvi bir öz, bir ruh arar. Onun üçün vətən maddi deyil, mənəvi bir varlıqdır. Maddi özəllikləri, mənəvi özəlliklərlə canlanmadıqca, coğrafi bir bölgənin, sözün əsl mənası ilə, zatən bir vətən olmasına imkan yoxdur. Maddi vətən ünsürlərindən

[556] Yenə orada, s.17-18
[557] Yenə orada, s.19

başqa hər aydın insanın bildiyi vəchiylə dil, din, ədəbiyyat, musiqi, fəlsəfə, sənət və tarix kimi mənəvi vətən ünsürləri vardır. Bu ünsürlər coğrafi vətən dışı içində yoğrulub mənəvi bir vətən vücuda gətirirlər. Cansız maddə canlı bir ideya halına gəlir.”.[558]

Onun fikrincə, millətin dövlət olmaq əzmində israr edən bir milliyyət olduğu bilgin sosioloqlar tərəfindən kəşf və tərif edilmişdir: “Bir millətçinin vətən anlayışı, coğrafi mənadakı vətəni müstəqil bir dövlət halına gətirmək istəməsidir. Bir millətçi, hər şeydən əvvəl istiqlal davasında bulunan bir vətənçi - bir patriotdur. Avropalıların patriot termini ilə ifadə etdikləri anlam, bizim millətçi sözü ilə anlatmaq istədiyimiz anlamın eynidir. Bu, avropalıların nasyonalizm sözü ilə kəsb etdikləri milliyyətçilikdən tamamilə başqa bir şeydir». [559]

Rəsulzadə yazırdı ki, nasionalizm isə Qərbi Avropa demokratiyası anlayışınca, təcavüzçü və ümumi tərəqqi yoluna girmək istəməyən, dünyanın gedişindən ayrılmış bir gerilik hərəkatıdır: “Halbuki patriotizm bir millətin öz müqəddəratına şəxsən özünün hakim olması və özünə məxsus milli bir dövlət qurması hərəkatıdır, bu isə bütün dünyanı bürüyən tərəqqi hərəkatının bir parçası, demokratik bir hərəkatdır. Tarixi müəyyən şərtlərin təsirilə milliyət halından millət halına gələn topluluqların müstəqil bir dövlət qurmaq və ya istilaya uğrayan vətənlərinin istiqlalını geri almaq uğrunda mücadilə edənlərə mütləq Avropa terminlərilə bir ad lazımsa, bunlara milliyyətçi [nasionalist] deyil, millətçi [patriot], hərəkatlarina da milliyyətçilik [nasionalizm] deyil, millətçilik [patriotizm] demək lazımdır!”. [560] Rəsulzadəyə görə millətçilik fikrinə inananların ilk vəzifəsi milli birliyi mühafizə etməkdir: “Bu, millətçilik fikrinin əsası və təməlidir. İnternasiyonalist və kosmopolit nəzəriyyələrlə ortaya atılan marksizm, kommunizm və anarxizm kimi doktrinaların əsl qayəsi, milli birlik və bütünlüyü sarsıtmaq, parçalamaq və pozmaqdır. İctimai,

[558] Yenə orada, s.19
[559] Yenə orada, s.20
[560] Yenə orada, s.20

sinif və zümrələr arasında ixtilaf və ziddiyyət təhriki və hüsusət ihdası bu məqsədilə yapılır. Halbuki, həqiqi millətçilərin üzərinə tərəttüb edən kutsal qayə uzun sürəkli tarixin məhsulu bulunan milli varlığı bütün fəzilətləri, gələnək və görənəkləri, kültür və ədəbiyyatı ilə qorumaq, yaşatmaq və gəlişdirməkdir”.[561]

Rəsulzadəyə görə yıxıcı və çökdürücü internasionalist və kosmopolit fikirlərin önünə ancaq milli özülü gücləndirmək və sağlamlaşdırmaq surətilə keçilə bilir. O, yazırdı: “Millətçilik fikri ən təbii, ən mədəni, ən irəli bir fikirdir. Elm və kültürün gəlişməsini və yayılmasını əngəlləmək bir yana dursun, bu gəlişmə və yayılmanın ən təsirli və qüvvətli bir amilidir. Həm də insanlıq kültürünün ən təbii və ən normal inkişaf yoludur. Bəşər kültürünün bu qədər çeşidli, zəngin və feyzli mənzərələr ərz etməsi, onun bir çox əski və yeni millətlərin davamlı və durmadan çalışmaları nəticəsində doğulmuş olmasındadır. Dünyada internasional, kosmopolit və ya qeyri-milli kültür deyə bir şey yoxdur. Müxtəlif millətlərin əməyi sayəsində yaranan və hələ hər millətin damğasını üzərində daşıyan bir dünya kültür mənzuməsi (dəyərləri) və ya məcmuəsi vardır. Nə yazıq ki, bu müştərək türk kültürü tarixin mərhəmətsiz gedişi nəticəsində bir-birindən uzaq, müxtəlif sahələrə dağılmışdır. Müştərək düşmən də bu ayrı-ayrı türk kültür parçalarını bir-birindən uzaqlaşdırmaq və bir-birinə yabançı qılmaq üçün əlindən gələn hər şeyi etmiş və hələ də durmadan etməkdədir. İndi bu durum qarşısında türk gəncliyinə düşən əsil vəzifə, bu ucsuz-bucaqsız türk kültürünü bütün özəllikləriIə tanımaq, öyrənmək, sevmək, mənimsəmək və tanıtmaqdır. Bu kültür mənzuməsində əski türklərin çox böyük və çox mühüm bir rolu olmuşdur. Bu rol gələcəkdə heç şübhəsiz daha böyük olacaqdır”. [562] Rəsulzadə milliyyətçilik haqqında onu da yazırdı ki: “Milliyyətçilik (millətçilik) deyilən hadisə bir insan birliyinin öz varlığını müdafiədən başqa bir şey deyildir. Fərdlərdə müdafieyi-

[561] Yenə orada, s.21

[562] Yenə orada, s.21-22

nəfs təbii və qanuni olduğu kimi, milli kollektivin öz özəlliklərini müdafiəsi də təbii bir hadisədir”.[563]

**Dövlət, hakimiyyət və millət.** Eyni zamanda, Rəsulzadə dövlət və millət anlayışlarını daha dəqiq izah edib, onların oxşar və fərqli tərəflərini göstərməyə çalışmışdır. M.Əmin hələ sosial-demokrat olarkən yazırdı ki, dövlət işlərində firqə, millət, məzhəb deyil, mülkiyyət, dövlət və padşahlıq cəhətləri nəzərə alınmalıdır: “Əyalətləri mərkəzə müttəsil etmək üçün, mənəvi və maddi ittisal üçün, ancaq ayırmağa, qaçırmağa və qeyri-məzun fikri-təşəbbüslərə sövq etməyə mövcib qüvvəyyi-qəhriyyə deyil, ittihada, birliyə, müvafiqətə səbəb olan qüvveyi-mənəviyyeyi hüquqiyyə gərək meydana gəlsin”. [564]

Onun fikrincə, dövlət və millət kəlmələrini daha çox qarşılıqlı anlamda işlədirik: “Çünki dövlət də millətin bir şəkli-digəridir. Millət-özək, dövlət qabıqdır. Fəqət bu tərif, şümuli bir millətə aid olan dövlətlər haqqında səhihdir. Digər təbirlə demək olar ki, bu tərifi təbii təşkilata malik olan dövlətlər haqqındadır. Çünki ən təbii dövlət - milli olan dövlətdir. Fəqət təhti-idarəsində bir çox millətlər olan dövlət də məlumdur ki, dövlət mənası ilə millət mənası bir olmaz”. [565] Deməli, əslində millət demək bir çox hallarda elə dövlət deməkdir. Ancaq bəzi dövlətlər də var ki, oradakı hakim qüvvə heç də xalqın dövlətini təmsil etmir. Rəsulzadə daha sonra göstərirdi ki, dövlətdən fərqli olaraq hakimiyyətdən məqsəd hökumət daxilində olan vətəndaşların hürriyyətlərini mümkün olduğu qədər qeydlərdən azad buraxmaq, hürriyyəti-şəxsiyyəti, hüquq demokratiyasını təmin etməkdir. Yəni yalnız demokratik bir quruluşda milli hökumət ola bilər ki, həmin hökumətdə mədəni dəyərlərə əsaslanmalıdır. O, yazırdı: “Mədəni dövlət böylə olmalıdır. Məşrutiyyət və cümhuriyyət idarələri bu əsası təmin üçündür. İndiki dövlətlər, bilxassə Rusiya kimi

---

[563] Rəsulzadə M.Ə. Mühacirət dövrü ədəbi-elmi irsindən seçmələr. I cild, Bakı, Elm, 2016, s.181

[564] Rəsulzadə M.Ə. Əsərləri. I cild (1903-1909). Bakı, “Təhsil”, 2014, s.189

[565] Ağayev M. Məhəmməd Əmin Rəsulzadə. Bakı: "Nurlan", 2006, s.52

dövlətlər bir çox millətlərdən ibarətdir. Buna görə də mədəni dövlət təsisi dövlət ilə millətlərin münasibətini hürriyyət və təbiətə müvafiq həll etməyə qaimdir”.[566] [567]

Rəsulzadə millət, millətçilik, milliyyət, milliyyətçilik, dil, etnos, xalq, patriotizm, milli istiqlalçılıq və digər analyışların hərtərəfli izahını vermişdir. Bu baxımdan onun yaradıcılığında dövlət, hakimiyyət, millət, milliyyət, dil, din, etnos, xalq və digər analyışlar sosial-fəlsəfi görüşlərinin mühüm hissəsini təşkil etmişdir. Bizcə, filosof-mütəfəkkirin bu məsələlərlə bağlı gəldiyi qənaətlər öz əhəmiyyətini qorumaqdadır və qoruyacaq da. Xüsusilə də, onun milliyyət(çilik) və millət(çilik), ümmət(çilik) və “millət”(çilik) anlayışlarına verdiyi təriflər olduqca önəmlidir və onlara yeni bir şeylər əlavə etmək çox da asan deyildir.

[566] “Açıq söz”, №575, 27 sentyabr 1917-ci il

[567] Ağayev M. Məhəmməd Əmin Rəsulzadə. Bakı: "Nurlan", 2006, s.60

*Azərbaycanlılar milliyyət etibarilə*
*Türk, din etibarilə İslam, mədəniyyəti-*
*əsasiyyə etibarilə Şərqlidirlər!*
**M.Ə.Rəsulzadə**

## 4.2. M. Ə. Rəsulzadə azərbaycançılıq təliminin banisi kimi

Milli-məhəlli türkçülük ideyasının ən bariz örnəklərindən biri Azərbaycan türkçülüyü, azərbaycançılıq ideyasıdır ki, bunu bəlli bir dövrə, xüsusilə də 1-ci Dünya müharibəsi dövrünə qədər bir çoxları Qafqaz türkçülüyü kimi başa düşmüşlər. Məsələn, həmin dövrdə Türk dünyasının dahi filosofu Əli bəy Hüseynzadənin də milli-fəlsəfi konsepsiyasında məhz əsas ideyalardan biri Azərbaycan türkçülüyü deyil, Qafqaz türkçülüyü idi.[568] Sadəcə, Hüseynzadənin milli fəlsəfəsində hər şey ümumidən xüsusiyə doğru hərəkət etdiyi üçün, türklük, islamlıq, insanlıq kimi Qafqazlılıq da bu ideyalardan biri olmuşdur. Onu da qeyd etməliyik ki, Hüseynzadənin burada nəzərdə tutduğu "Qafqazlıyız" anlayışı yalnız Quzey Azərbaycan türklərini deyil, bütün Qafqaz türklərini öz içinə alırdı. Rəsulzadə isə Hüseynzadədən fərqli olaraq, bir qədər də konkretliyə vararaq Qafqaz türklüyünü deyil, ümumtürklük içində Azərbaycan türklüyünü hədəf seçmişdir. Buradakı Azərbaycan türklüyü isə yalnız çar Rusiyasının işğalı altında olan Quzey Azərbaycan türklüyü ilə məhdudlaşmır və Qacarlar dövlətinin tərkibində olan Azərbaycan türklüyünü də özündə birləşdirirdi.

**Azərbaycan Türkçülüyü (azərbaycançılıq) ideyasının yaranması və milli-məhəlli muxtariyyət: M.Ə.Rəsulzadə və N.b.Yusifbəyli.** Rəsulzadə türkçülük, müasirlik və islamçılıq ideyaları əsasında yeni bir ideyanın – Azərbaycan türkçülüyünün (azərbaycançılıq) əsasını qoymuşdur. Rəsulzadə sonralar yazırdı ki, əslində Türk nüvəli "Azərbaycan" milli ideyası Nəsib bəy Yu-

[568] Hüseynzadə Ə. Türklər kimdir və kimlərdən ibarətdir? Bakı, Mütərcim, 1997,s.186

sifbəyli ilə tanışlığının ilk illərindən (1914-1915-ci illər) hər ikisində yaranmış, ortaq ruhla Gəncədə Nəsib bəy siyasi bir firqə maddəsini yazarkən, o da, həmin dövrdə, Bakıda "Açıq söz" qəzetidnə eyni tezisi müdafiə edən bir baş məqalə ("Tutacağımız yol") yazrmışdır: "Hərbi-ümumi sənələri idi. O, Gəncədə bələdiyyə idarəsi əzadarlığında, mən də Bakıda 1915-də təsis etdiyim "Açıq söz" qəzetinin başında bulunurduq. Nəsib bəy idarə işləri üçün Bakıya sız-sıx gəlirdi və hər gəlişində ilk ziyarətini "Açıq söz" idarəxanasına verirdi. Daha ilk görüşümüzdə rəhmətliklə aramızda 1920-ci ilin son may günlərnədək zərrə qədr xələldar olmayan bir səmimiyyətlə davam edən bir dostluq təəssüs etmişdi. Bu dostluğu bu qədər mətin bağlarla bir görüşmədə bağlayan şey, şübhəsiz, müştərək bir qayə, müştərək bir ruh daşıdığımızı mütəqabilən kəşf edişimiz idi. Bu ruhi-müştərək Gəncədə Nəsib bəyə siyasi bir firqə maddəsinin yazılmasını təlqin etdiyi bir zamanlarda, mənə də Bakıda "Açıq söz" qəzetəsinə eyni tezisi müdafiə edən bir baş məqalə yazdırmışdı".[569]

Bütün bunları nəzərə alaraq Rəsulzadə daha sonra yazırdı ki, Yusifbəylinin Azərbaycan istiqlalı hərəkatındakı rolu yalnız maarif naziri və baş nazir olmaqla kifayətlənməmişdir: "Onun hərəkatdakı həqiqi rolu sonra tutduğu bu rəsmi mövqelərdən çox əvvəl başlamışdır. Bu rol onun Gəncədə 1917-də "Türk Ədəmi Mərkəziyyət xalq firqəsi" namıyla təsis edilən siyasi Azərbaycan firqəsinin təşkilinə təşəbbüs etməsiylə başlayır. Azərbaycan ideyasını siyasi bir tələb maddəsi şəklində formulə etmək şərəfi mərhum Nəsib bəyindir".[570]

Qeyd edək ki, Nəsib bəy 1917-ci il aprelində Bakıda keçirilən Qafqaz Müsəlmanlarının 1-ci qurultayında "kim dava edə bilər ki, biz kəndini (özünü – F.Ə.) idarəyə səlahiyyətdar bir millət deyilik!" demişdir. Bu məsələ ilə bağlı M.B.Məmmədzadə yazırdə ki, qurultayın lap ilk günlərindən etibarən hakim mövqeyi iki firqə tutmuşdu: "Bunlardan biri "Müsavat" xalq firqəsi, digəri

---

[569] Rəsulzadə M.Ə. Nəsib bəy Yusifbəyli."Odlu Yurt" dərgisi, 1929, № 3, s.110-111
[570] Yenə orada, s.110

də "Türk Ədəmi-Mərkəziyyət firqəsi" idi. Birincinin fikirlərinə Məhəmməd Əmin Rəsulzadə, ikincininkinə isə Nəsib bəy Yusifbəyli tərcüman olurdu".[571]

Beləliklə, Rəsulzadənin də yazdığı kimi, o, bu qurultayda milliyyətçilik (Azərbaycan türkçülüyü), türkçülük, xalqçılıq və modernələşmə (yeniləşmə) prinsiplərini müdafiə etmişdi. Hətta, bununla kifayətlənməyərək eyni prinsiplərlə çıxış edən iki partiyanın birləşməsinə təşəbbüs göstərmiş və həmən bunun tətbiqini istəmişdi. Rəsulzadə yazırdı: "Nəsib bəyin zəkası yalnız bu çıxışı ilə bitməmiş, o qurultayda eyni prinsipləri müdafiə edən Müsavat xalq firqəsinin nümayəndələri və "Açıq söz" qəzetini təmsil edən cərəyanla sözləşərək, onlara yaxın axınların birləşmlərini təmin etmək zərüriyyətini görmüş və onu həyata keçirmək təşəbbüsünü irəli sürmüşdür. Bir tərəfdən Nəsib bəy, digər tərəfdən də M.Ə.Rəsulzadə ilə A.Kazımzadə tərəfindən təmsil olunan Gəncə və Bakı milliyyətçi Azərbaycan istiqlalçılıq hərkatında çox mühüm əsərləri sonradan meydana çıxan bu ittihadın hüsulunda Nəsib bəyin zəka və səmimiyyətinin qəti rol oynadığını burada təsbit etməliyəm. Bu ittihad üzərinə idi ki, Qafqaziya qurultayını mütəəqqib Türk Federalist Müsavat Xalq Firqəsinin ilk qurultayı Bakıda toplanmış və bu toplanış siyasi Azərbaycan həyatında pək mühüm bir hadisə təşkil eyləmişdir".[572]

M.B.Məmmədzadə və H.Baykara da hesab edirlər ki, Qafqaz türklərini "ümmətçilik"dən "millətçiliy"ə yönəldən, onları əvvəlcə türkçülük, daha sonra Azərbaycan türkçülüyü (Azərbaycan milli ideyası) ətrafında birləşdirən və "Açıq söz" qəzetində bunu təbliğ edən ilk növbədə, Rəsulzadə və Yusifbəyli olmuşdur. Bu məsələ ilə bağlı Məmmədzadə yazırdı: "Azərbaycana qayıtdıqdan sonra Nəsib bəy Əmin bəylə yaxın əlaqəyə girərək "Açıq söz" ailəsinə daxil olmuşdu. Onun qurduğu Ədəmi-Mərkəziyyət firqəsi "Açıq söz"ün yaydığı millət nəzəriyyəsinə əsaslanırdı və millət məsələsini "Müsavat" kimi həll edirdi. O, Rusiyanın milli varlıq-

[571] Məmmədzadə M. B. Milli Azərbaycan hərəkatı. Bakı, "Nicat", 1992, s.55

[572] Rəsulzadə M.Ə. Nəsib bəy Yusifbəyli. "Odlu Yurt" dərgisi, 1929, № 3, s.111

lara parçalanmasını, federalizm üzərində qurulmasını, bütün millətlərə, o cümlədən Azərbaycana, Türküstana, İdil-Urala və Krıma milli-məhəlli muxtariyyat verilməsini tələb edirdi”. [573]

Baykaranın fikrincə, ilk dövrlərdə sosial-demokratlarla eyni cəbhədə çalışmış Rəsulzadə də 1911-1913-cü illərdə C.Əfqaninin yazılarının və Z.Gökalpın ideyalarının təsiri altında türkçülük hərəkatına qoşulmuş və Azərbaycanda bu ideyanın əsas ideoloqu olmuşdur: “M.Ə.Rəsulzadənin Azərbaycan istiqlalının elanında və Azərbaycan dövlətinin yaradılmasında xidmətləri əvəzsizdir”.[574]

H.Baykara onu da əlavə edir ki, Rəsulzadənin lideri olduğu, “Müsavat” və Bitərəf demokratik qrup öncə milli ərazi və milli muxtariyyət tərəfdarı olsalar da, 1-ci və 2-ci rus inqilablarının gedişi, Qafqaz hadisələri onları özlərinin öncədən “uzaq məqsəd” olaraq planlaşdırdıqları Azərbaycan istiqlalı yoluna sürükləmişdi: “Azərbaycan istiqlal mübarizəsi tarixində “Azərbaycan istiqlalına” nə rast gəlinmiş, nə də baş verən siyasi hadisə olmuşdur. Azərbaycan xalqının ruhundan doğan bu istiqlal hadisəsi tarixin axarı içində öz yerini tapmışdır». [575]

Fikrimizcə, Baykara yuxardakı sözləri ifadə edərkən əsas vurğunu “Azərbaycan” anlayışına salmış, bu mənada tarixən “Azərbaycan istiqlalına” rast gəlinmədyini iddia etmişdir. Məlum olduğu kimi, 1918-ci ilə qədər “Azərbaycan” anlayışı coğrafi ərazi mənasında işlədilmiş, bu ərazidə təşəkkül tapmış dövlətlər isə müxtəlif adlarla (Manna, İskit, Atropatena, Albaniya-Aran, Şirvanşahlar, İldənizlər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər və b.) tarixə düşmüşdür. Dünya tarixində “Azərbaycan” adlı ilk müstəqil dövlət isə 1918-ci ildə yaranmışdır. Baykara da məhz bu faktordan çıxış etmişdir.

Tarixçi alim Aydın Balayevin də qeyd etdiyi kimi, Rəsulzadə XX əsrin əvvəllərində Türk nüvəli azərbaycançılıq konsepsiyasının bitkin, bütöv sistemini işləyib hazırlamış və bu

---

[573] Məmmədzadə M. B. Milli Azərbaycan hərəkatı. Bakı, “Nicat”, 1992, s.54
[574] Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992, s.192
[575] Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992, s.133

konsepsiya nəticəsində də dünyanın siyasi xəritəsində "Azərbaycan" adlı dövlətin yaranması mümkün olmuşdır. [576] A.Balayevə görə, Rəsulzadənin və "müsavatçılığ"ın ciddi opponentlərindən biri hesab olunan N.Nərimanov da etiraf edərək bildirmişdir ki, Azərbaycanın istiqlal ideyası M.Ə.Rəsulzadənin lideri olduğu "Müsavat" partiyası ilə assosiasiya olunur. [577] Yaşar Qarayevin təbrincə desək, bu isə o deməkdir ki, Məhəmməd Əmin Atatürklə yanaşı, Türk xalqlarının XX əsrdə dünyaya verdiyi iki müdrik ərindən, iki türk dahisindən biridir: "İki türk xalqının iki xilaskarı bu adlar oldular. Türk adını millətlərin və xalqların demokratiya, hüquqi dövlət və istiqlal xəritəsinə hətta Atatürkdən də əvvəl Rəsulzadə həkk etdi… Məncə, indi Atatürkün əsil məqbərəsi heç də Türkiyədəki ən möhtəşəm daş-divar, bədii abidə kompleksi deyildir, yox: azad, münəvvər, suveren Türkiyənin özüdür. Və Məhəmməd Əmin Rəsulzadə də Azərbaycanda yalnız belə bir möhtəşəm abidəyə, mənəvi mehraba, milli məbədə köç edə, əbədi qayıda bilər".[578]

Rəsulzadə irsinin araşdırmaçılarından Yavuz Akpınarın fikrincə də, o, Türklük üçün hər hansı bir siyasî fiqur deyil; əksinə Türk dünyasının öndə gələn fikir və siyasət adamlarından biri, bir dövlət qurucusudur. Akpınar yazırı: "Temelini attığı Müsavat Partisi ve çıkardığı "Açık Söz" gazetesiyle, Azerbaycan'da millî şuuru olgunlaştırmış; Türkçülük düşüncesini millî bir ideolojiye ve siyasî bir harekete dönüştürerek, 28 Nisan 1918'de Azerbaycan Cumhuriyeti'nin kurulmasında bir lider olarak önemli rol oynamış ve bu sebeple de ilk cumhurbaşkanı olarak seçilmiştir". [579]

Bütün bunları təsdiq etməklə yanaşı, biz isə hesab edirik ki, ümumilikdə XX əsrdə Azərbaycan ədəbiyyatına, tarixinə, mədəniyyətinə də M.Ə.Rəsulzadə qədər diqqət yetirən, bunları qələmə alan, qiymətləndirən ikinci bir azərbaycanlı mütəfəkkir yoxdur. Bu baxımdan Məhəmməd Əmin mədəniyyətimizin, adət-ənənələrimizin,

---

[576] Balayev Aydın. Məmməd Əmin Rəsulzadə (1884-1955). Bakı, Çıraq, 2012, s.8-9
[577] Yenə orada, s.66
[578] Qarayev Yaşar. Tarix: yaxından və uzaqdan. Bakı, «Sabah», 1996, s.126
[579] Resulzade M.E. Seçme Eserleri 1. Kitaplar.İstanbul, Ötüken, 2020, s.51

milli dövlətçiliyimizin unudulmaması və yaşadılması üçün əlindən gələni etmiş, yeni nəslin yaddaşında əbədi bir iz buraxmışdır.[580]

Beləliklə, Rəsulzadənin sayəsində, onun öz təbrincə desək, ictimai ideologiyanın bütün sisteminin öncə dini islamçılıq sistemindən ümumi türkçülüyə-turançılığa, daha sonra türkçülükdən milli türkçülüyə keçidi başlandı.[581] Rəsulzadə bu məsələ ilə bağlı qeyd edirdi ki, əvvəllər türk ziyalıları rus inqilabçıları və rus liberalistləri arasında gedən mübarizədə dolayısıyla iştirak etsələr də, sonralar Azərbaycan türkçülüyü ideyasını irəli sürdülər: “1910-cu ilə kimi rus liberalizmi ilə rus sosializmi arasında seçim qovğası ilə keçən siyasi yaşam bu çağdan etibarən Qafqaz türklərində yeni bir səhifəyə girir, üçüncü müstəqil bir siyasi düşüncə axını ilə yeni qurum çalışmaları başlayır, bu da milli demokratizm və milli devrim ideologiyasıdır. …Bu ideologiya birinci olaraq Qafqaz türklərinin siyasi gələcəyini Rusiyadan ayrı düşünmüşdür. Bu ün (şərəf – F.Ə.) isə türkçülüyündür”.[582]

Ümumiyyətlə, Mirzə Balanın fikrincə, çar Rusiyası əsarətindəki türklərin 19-cu əsrin ortalarına doğru milli-mədəni yüksəlişi şəklində başlayan milli qurtuluş hərəkatı bu günə qədər üç dövr keçmişdir: 1) Milli-mədəni oyanışın bir nəticəsi olmaq üzrə “Milli-mədəni muxtariyyət” üçün mücadilə dövrü; 2) Milli-siyasi dövlət şürünün bir nəticəsi olmaq üzrə, tam istiqlala gətirəcək “Milli-məhəlli (torpaq) müxtariyyəti” üçün mücadilə dövrü; 3) Rusiyadan tamamilə ayrılmağı ifadə edən tam istiqlal üçün mücadilə dövrü.[583] Məhəmmədzadəyə görə, milli-mədəni muxtariyyət Topçubaşov başda olmaqla, 1905-1907-ci illərdə “Rusiya Müsəlmanları İttifaqı” partiyası tərəfindən ortaya atıldığı halda,[584] milli-məhəlli muxtariyyət ideyasının başında isə 1917-1918-ci illərdə

---

[580] Ələkbərov Faiq (Qəzənfəroğlu). Məhəmməd Əmin Rəsulzadənin dünyagörüşü. Bakı «Elm», 2007, s.260

[581] Rəsulzadə M.Ə. Panturanizm. Qafqaz sorunu. Bakı, Təknur, 2012, s.51

[582] Rəsulzadə M.Ə. Qafqaz türkləri. Bakı, Təknur, 2012, s.55

[583] Mehmetzade M.B. Resulzade Mehmet Emin. “Dergi”, yıl: 1 Ocak-Mart, Minih, 1956, s.137

[584] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992, s.27

Rəsulzadə dayanmışdır: "Bəzi Türküstan şairlərinin nəzmə çəkmiş olduqları bu tarixi müdafiədən sonra qəbul edilən bu "Milli tezis"ə görə, böyük çoxluğunu rus olmayan millətlər təşkil edən Rusiya imperatorluğu milli vahidlərə, yəni millətlərin sayı qədər ayrı-ayrı müstəqil milli dövlətlərə parçalanacaq, o cümlədən olmaq üzrə, rus əsiri türklərin də özlərinə məxsus milli dövlətləri olacaqdır".[585]

Mirzə Balaya görə Rəsulzadənin milli-məhəlli muxtariyyət ideyasının arxasında bir tərəfdən Rusiya türklərinin birliyi, digər tərəfdən isə Rusiya əsarəti altında olan ayrı-ayrı türk millətlərinin – Azərbaycan, Türküstan, Volqa-Ural, Krım, Sibir və başaqlarının tam istiqlalları dayanırdı: "Artıq tam istiqlaldan başqa bir qurtuluş yolunun mövcud olmadığı anlaşılmışdı. İlk və müsbət örnəyi müstəqil və demokratik Milli Azərbaycan Cümhuriyyəti təşkil edən bu hərəkat və dava ətrafında Rəsulzadə Məhəmməd Əmin konqres, konfrans, qurultay, məclis və yığıncaqlarda söylədiyi nitqlər, oxuduğu məlumatlar, etdiyi mübahisə və müzakirələr, nəşr etdiyi bəyannamə və verdiyi bəyanatlar, çıxardığı qəzetə və jurnallar, yazdığı məqalə və çap etdirdiyi kitablar siyasi tariximizin qızıl səhifəsini təşkil etməkdədir".[586]

Məhz türkçülük nüvəsində Azərbaycan türklərinin Rusiyanın federativ dövlətə çevrilməsi nəticəsində milli-məhəlli muxtariyyətini (1917-ci ilin mayında Moskvada keçirilən Ümumrusiya Müsəlmanlarının I qurultayında),[587] az sonra da istiqlaliyyətini (N.Yusifbəyli ilə birlikdə) irəli sürən Rəsulzadə olmuşdur. Rəsulzadə 1919-cu ilin dekabrında "Müsavat"ın II qurultayı nümayəndələri üçün oxuduğu ""Azərbaycan təşəkkülündə "Müsavat"" mövzusundakı çıxışında həmin məsələ ilə bağlı deyirdi: "Əfəndilər, Azərbaycan Cümhuriyyəti böyük Rusiya imperatorluğunun inqazi üzərində qurulmuş siyasi bir binadır. Rusiyanın o böyük, onların fikrincə böyük Rusiya gərək zamanın hakim bir fikri olan milliyyətə istər-

---

[585] Rəsulzadə M.Ə. Əsərləri (1903-1909). I c., II clddə, Bakı: Azərnəşr, 1992, s.10
[586] Yenə orada, s.10
[587] İhsan İ. Rusyada birinci müslüman Kongresi tutanakları. Ankara: 1990, s.163

istəməz hesab verə idi. Milliyyət isə yalnız mədəni məsələlərin idarəsilə təmin olunamazdı. Lazım idi ki, milliyyət bir hökumət şəklində təzahür etsin. Bunun üçün də Rusiya milli-məhəlli muxtariyyətlərdən təşəkkül etməli idi. Rusiya türklügü dəxi bir parça degil, müxtəlif muxtariyyətlərdən ibarət olmalı idi. Azərbaycan, Türkistan, Başqırdıstan, Qırğızıstan, Krım və sairə birər muxtariyyət halında qurulmalı idi. Bu türk muxtariyyətləri daxili işlərində sərbəst qalmaqla bərabər, ümumi işlər üçün bütün Rusiya muxtariyyətləri ilə, milli və dini işlər üçün də türk və müsəlman muxtariyyətləri ilə federasyona girər və əqdi-ittifaq edərlər.

Şəkl etibarilə bir az fərqli olaraq bu fikir bütün türk ellərində az-çox mövcud olub, getdikcə kəsb-nüfuz etməkdə idi. Az zamanda bütün Rusiya türklügüni qazanmış olan bu fikir, ilk öncə Qafqasiyada təbəəllər etmişdi. Gəncədə yeni təşəkkül edən Türk Ədəmi-Mərkəziyyət firqəsi, Bakıda nəşr olunan "Açıq söz" qəzeti və o zamana qədər milli bir poqramla gizli olaraq icrayi-fəaliyyət etmiş bulunan "Müsavat" bir anda biri-birlərindən pək o qədər xəbərləri olmadığı halda bir dürlü düşünmüş: Qafqasiya qurultayında bənim məruzəmlə Gəncənin proqramı və müsavatın təklifi tamamilə bir mənada zühur eləmiş, Rusiya üçün federasyon, burası üçün də Azərbaycan muxtariyyəti tələb edilmişdi (alqışlar).

Qafqasiya qurultayı hər nə qədər Rusiyanın federasyon əsası üzərinə qurulmasına qərar vermişdisə də, qurultayda müxalif bir nəzər müdafiə edən digər cərəyanlarla bir etilaf yaparaq hərflərin nöqtəsini qoymaqdan özünü saxlamış; milli-məhəlli muxtariyyətlər və əzcümlə Azərbaycan muxtariyyəti həqqində sərih bir söz söyləməmişdi.

Bu xüsusdakı qəti sözü daha şümullı bir məclis olan Moskva qurultayı söyləmiş oldu. Moskva qurultayı həqiqətən də möhtəşəm və tarixi bir məclis idi. Minə qədər mürəxxəs vardı. Rusiya türklügünün bütün elləri, bütün sinifləri, bütün cinsləri burada təmsil olunuyordu. Qurultay kürsüsünə çıxınca hakim bir qələyə çıxmış da bütün türk aləmini eyni ilə seyr ediyor kibi bir mənzərə görürdünüz. İştə bu möhtəşəm məclisdə türk xəlqinin

idealı bulunan istiqlal qədəməsini təşkil edən milli-məhəlli muxtariyyət nəzəriyyəsinin müdafiəsi şərəfi – nə qədər məsudam ki, – bəndənizə nəsib olmuşdu (alqışlar).

Yeddi günlük mübarizədən sonra Türk federalizmi naminə müdafiə elədigim qərarnamənin, dan yeri sökülənə doğru, əzim bir əksəriyyət qazandığı zaman o zahiri qiyafələri, müxtəlif, fəqət batinləri böyük duyğu ilə möhtəd Türk elləri mürəxxəslərinin ətrafı alıb "bən təslim!" – deyə yapdıqları təqdirlərdən aldığım səmimi zövqü heç bir zaman unutmam! (alqışlar). Əvət, əfəndilər, Rusiya çarizminin yerində türklügi təmin edə biləcək idarənin mətlub bir şəklini Rusiya türklügi türk ellərinə məxsus milli-məhəlli muxtariyyətlər təmin edəcək bir federasyon şəklində görmüşdü. Bu cüzidən olaraq Azərbaycan ləvai cümhuriyyəti dəxi açılmış idi (alqışlar)."[588]

Rusiya daxilində milli-məhəlli muxtariyyət əsasında Azərbaycan, Dağıstan, Türküstan və başqa Türk millətlərinə muxtariyyət tələb edən M.Ə.Rəsulzadə yazırdı: "Hər bir millətin müstəqil olub da öz başına idarə olunması tərəqqiyati-tarixiyyəyə müvafiqdir, demokrasi ancaq bir millətdən mütəşəkkil olub da bir dildə danışan məmləkətlərdədir ki, gözəl tərəqqi edər və özünü göstərə bilər. Bu məmləkətdə mənəvi ixtilaflar insanlar arasında ki, tarixi və təbii hüdudlar nə qədər azalsa və nə qədər dil ittihadi qüvvətli olsa o qədər də məmləkətin iqtisadi, siyasi və əqli tərəqqiyyatı qüvvətli olar. Məmləkətin aşağı sinifləri dəxi böylə bir məmləkətdə məmləkətin mədəni və siyasi həyatında iştirak edərlər və bu hal məzkur məmləkətin qüvvətinə səbəb olar".[589]

Rəsulzadə həmin qurultayda onu da demişdir ki, Rusiyanın idarə forması da demokratik respublika olmalıdır: "Yer kürəsinin altıda birini tutan və Kamçatkadan Qara dənizə qədər və Arxan-gelskdən İranla sərhədə qədər uzanıb 170 milyon əhalisi olan bir

---

[588] Rəsulzadə M.Ə. Əsərləri. IV cild (1917-aprel, 1918). Bakı, «Təhsil», 2014, s.11-12

[589] Rəsulzadə M.Ə. Əsərləri (1909-1914). II cild. Bakı: Şirvannəşr, 2001, s.385

dövlət bir mərkəzdən idarə oluna bilməz. Ona görə də Rusiya dövlətinin idarə forması federasiya olmalıdır».[590]

Rəsulzadə artıq rəsmi şəkildə millətin azadlığı, Azərbaycanın milli-məhəlli muxtariyyəti məsələsini irəli sürürdü. Ş.Hüseynov yazırdı: "M.Ə.Rəsulzadənin Xalq Cümhuriyyəti yaratmaq ideyası fikrinə hələ 1917-ci il fevral burjua-demokratik inqilabının qələbəsindən, yəni mütləqiyyət rejiminin süqutundan sonrakı ilk həftələrdə gəldiyini söyləmək olar".[591]

Doğrudur ki, "Müsavat"ın 1-ci qurultayında da (1917, 25-31 oktyabr) milli istiqlalı müdafiə edən Rəsulzadə hesab edirdi ki, milli amal (milli ideya) və milli məfkurə (milli ideologiya) olmadan milli istiqlal mümkün deyildir. Beləliklə, istiqlaldan öncə "İnsanlara hürriyyət, Mmillətlərə istiqlal!" şüarı ilə çıxış edən Rəsulzadənin bu ideyaları "Müsavat"ın yeni proqramında da öz əksini tapmışdı: "… ən müvafiq və ən təbii dövlət milli dövlətdir, çünki milli istiqlal və ya muxtariyyətə malik olmayan bir millət hürriyyət və mədəniyyətini hifz edə bilməz". [592]

Rəsulzadə sonralar da yazırdı ki, Moskva qurultayından sonra "Azərbaycan muxtariyyəti" şüarı artıq artıq günün məsələsi halına gəlmişdi və bu, "Müsavat"ın ilk qurultayında bir daha öz təsbitini tapmışdı: "Azərbaycan muxtariyyət şüarını artıq günün məsələsi halına qoymuş olan "Müsavat" firqəsi hər vasitə ilə bu məqsədə doğru getməkdə idi. İlk dəfə toplanan "Müsavat" firqəsinin qurultayı kəndi qərarı ilə artıq Azərbaycan muxtariyyətinin əsasını vəz edəcək məclisi-müəssisan dəvəti üçün qərar çıxarıyor və bunu Qafqasiya müsəlman milli komitəsindən tələb ediyordu. Eyni zamanda müsəlman korpusu təşkili üçün o zamanki hökumətlər nəzdində təşəbbüs ediyordu".[593]

---

[590] İhsan İ. Rusyada birinci müslüman Kongreyi. Ankara: 1990, s.163-164

[591] Hüseynov Ş. Müstəqilliyin çətin yolu... Bakı: Azərnəşr, 1996, s.43

[592] Балаев А. Азербайджанское национальное-демократическое движение в 1917-1920 гг., Баку: Элм, 1990, s.74

[593] Rəsulzadə M.Ə. Əsərləri. IV cild (1917-aprel, 1918). Bakı, «Təhsil», 2014, s.13

Fevral burjua inqilabından sonra milli demokratizmə daha çox meyil göstərən Cəlil Məmmədquluzadə 1917-ci ildə yazdığı "Cümhuriyyət" məqaləsində xalq hakimiyyətinin, yəni demokratik respublikanın prinsiplərindən və azadlıqlarından (etiqad, yığıncaq, birləşmək, danışmaq, siyasi partiyalar yaratmaq və s.) bəhs etmişdir. Onun fikrincə, Cümhuriyyət qanun gücü ilə idarə olunur ki, o qanunları da xalq tərəfindən seçilən millət vəkilləri yazıb təsdiq edirlər. Burada prezident ya xalq, ya da parlament tərəfindən seçilir ki, Cümhuriyyət idarəsinin seçkisinin dörd: 1) ümumi seçki, 2) bərabərlik, 3) düzbədüzlük, 4) səsvermənin gizliliyi kimi şərtləri var.[594]

O, bu dövrdə Azərbaycan xalqının milli istiqlaliyyəti, o cümlədən Cümhuriyyət ideyası uğrunda mübarizə aparan milli lider, milli ideoloq M.Ə.Rəsulzadəyə üzünü tutaraq yazırdı: "İndi də Bakıda seçki məcəlləsi düşüb ortalığa və Məhəmməd Əmin Rəsulzadə həmişəki kimi çalış-vuruş, çalış-vuruş nə var, nə var, mən millətin əlindən yapışacağam. Çox əcəb, yapış, vuruş qəzet yaz, nitq söylə, o şəhərə get, yenə yaz, yenə yaz, yenə danış, amma, - bu işlərin iki nəticəsi var: biri budur ki, atalar demişkən "el üçün ağlayanın gözü kor olar", nə qədər çalışrsan çalış, yenə axırda sənə qalacaq haman yazmaq, yazmaq və hələ çox danışsan və ata və analarından xəbəri olmayan müsəlman qardaşların arzusu yerinə yetsə – bəlkə dustaqxanalarda millət yolunda çəkdiyin günləri yenə ziyarət etmək".[595] O, daha sonra yazırdı: "İkinci nəticəsi budur ki, indi sən, əzizim doğrudur ki, çalışırsan və bu çalışmaqdan da söz yox millətə də az-çox mənfəət gətirirsən və özünə də şöhrət qazanırsan, buna sözüm yox – amma burası var ki, sənin bu çalışmağın mənə xoş gəlmir, səbəb budur ki, əvvala mənim məsləkimə ziddir və ikincisi mənim fitrətim ilə düz gəlmir ki, sən millətçi olub şan və şöhrət qazanasan, mən də kənardan durub baxım".[596]

---

[594] Məmmədquluzadə C. Əsərləri. IV cilddə. IV cild.Bakı, «Öndər», 2004, s.191-192
[595] Hüseynov Ş. Mətbu irsimizdən səhifələr. Bakı, «Çənlibel» NPM, 2007, s.215
[596] Yenə orada, s.216

Məmmədquluzadə satirik anlamda da olsa, doğru yazırdı ki, sözün həqiqi mənasında millətin arasından M.Ə.Rəsulzadə kimi bir şəxsiyyət tapılıb milli ideoloqa çevrilirsə, gözü götürməyənlər müxtəlif yollarla onu ləkələməyə çalışacaqlar. C.Məmmədquluzadənin dili ilə desək: "Yox belə ola bilməz, mən səni qoymaram məqsədinə çatasan, mən səni peşman elərəm, mən səni sındıraram, mən səni yox elərəm və bundan da asan iş mənim üçün yoxdur, bir istəkan su içməkdən asandır. Məhz lazımdır saqqalımı qaraldıb daxil olum mollalar məclisinə və bir ovqat yalandan məsciddə görsənim və sonra orada-burada səs buraxım ki, Məhəmməd Əmin Rəsulzadə istəyir yeddi cüzini çıxardıb atsın".[597] Deməli, o, bu dövrdə anlamışdır ki, millətin nicatı onun öz əlindədir və bunu həyata keçirmək üçün millətin həqiqi rəhbərə ehtiyacı var. Dövründə belə bir rəhbərin Rəsulzadənin olmasına şübhə etməyən Məmmədquluzadə Azərbaycan türklərini onun ətrafında birləşməyə, onu müdafiə etməyə çağırmışdı.

**"Azərbaycan" adının coğrafi anlamdan məfkurəyə çevrilməsinin səbəbləri.** Milli ideoloqun istiqlal ərəfəsində "Azərbaycan" adına müraciət etməsi isə, türkçülüyün yaxın və uzaq milli hədəfi olan yeni bir Türk dövlətinin yaranması və Azərbaycan türklərinin bu dövlətin çatısı altında birləşməsi ilə birbaşa bağlı olmuşdur. M.Ə.Rəsulzadə Azərbaycan milli ideyasını – azərbaycançılığı nəzərdə tutaraq yazırdı: "Bu yolla qafqazlı türk yazarların və şairlərdən bir çoxunun ayrı-ayrı çağlarda gizli olsa da, söylədikləri "bağımsızlıq" ideyası I Dünya savaşı illərində bilginlərin başında yaranaraq devrim günlərində siyasi bir çağrış biçiminə girir, daha uyğun bir gündə "bütünlüklə bağımsızlıq" çağrışına keçmək yetənəyində bulunan siyasi bir prorqama çevrilirdi". [598] O hesab etmişdir ki, Azərbaycan milli ideyası – azərbaycançılıq yalnız türkçülük uğrunda savaş aparan müsavatçıları deyil, sosialistləri, islamçıları və başqalarını da öz ətrafında birləşdirə bilər. Əslində son hədəfi müstəqil Türk dövləti yaratmaq olan türkçülərin ölkənin "Azər-

[597] Yenə orada, s.216

[598] Rəsulzadə M.Ə. Qafqaz türkləri. Bakı, Təknur, 2012, s.56

baycan" adlandırılması bir tərəfdən türklüyün ifadəsi, digər tərəfdən isə siyasi-ideoloji gediş idi. Rəsulzadə yazır: "…Güney Doğu Qafqaz torpaqlarının bütünlüklə "Azərbaycan" adı altında yaranmış siyasi quruluşlarda olması tutalqasından başqa Azərbaycan türklərinin yaşadıqları bir ölkə olduğu üçün buraya "Azərbaycan" deməkdə heç bir sıxıntı görülməmişdir. Bu adın yeni Türk Cümhuriyyətinə verilməsində ən böyük səbəb sözsüz, bu türklük olmuşdur". [599]

Rəsulzadənin Azərbaycan milli ideyası ilə bağlı ən mühüm əsərlərdən biri "Əsrimizin Səyavuşu" (1920-ci il iyun-iyul, Lahıc) siyasi-fəlsəfi xarakterli olub, Azərbaycan türkçülüyüy manifestidir. Fars şairi Firdovsinin "Şahnamə" əsərini bir daha oxuyan və paralel müqayisə apararaq Firdovsinin qəhrəmanlarından biri olan Səyavuşun həyatını Azərbaycan Cümhuriyyətinə oxşadan Rəsulzadənin gəldiyi nəticəyə görə, İranla Turan arasında qalan Səyavuşun həyatı Azərbaycan Cümhuriyyətinə həyatına bənzəyir.

O, həmin əsərdə yazırdı ki, zaman zaman Azərbaycan türkləri öz türklüklərini və türk soyundan gəldiklərindən uzaqlaşaraq "iranlı" kimi özlərini hiss edib, "iranlı" kimi düşünüb yaşasalar da,[600] bu da çox uzun çəkməmiş, yenidən Turana dönüş baş qaldırmışdır. O qeyd edir ki, Turan bir türk ölkəsi olduğu halda, Midiya dövlətini yaradan midiyalıların kim olduğu (iranlı, yoxsa turanlı) indiyə kimi şübhəli qalmış, ancaq sonralar Assur mixi yazılarının oxunması midiyalıların dilinin turanlıların dilinə yaxın bir dil olduğunu, hətta "Şumerlərin turani olduqlarını" ortaya qoymuşdur: "Fransız şərqşünaslarından Le Norman əski Şərq tarixinə aid nəşr etdiyi əsərində Midiyaya "Turan Midiyası" deyir. Və digər arkadaşına təqdim edərək buradakı qövmlərin türk olduqlarını belə iddia edir".[601] Rəsulzadə qeyd edir ki, "İran" tarixinin Midiyada bulduğu Aryanlar isə yerli deyildir. Onlar buraya Şərqdən gəlmiş və yerli etnosları həmin ərazidən sıxışdırmışlar. Aryanilər-

---

599 Yenə orada, s.61

600 Rəsulzadə M.Ə. Əsrimizin Siyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı, Gənclik, 1990, s.33

601 Yenə orada, s.32

iranlılar buraya yerləşdikdən sonra həmin ərazilər təkrar Turanlıların hücumuna məruz qalmış, İran-Turan savaşlarının mühüm qismi Böyük Azərbaycanda cərəyan etmişdir. Bu dövrdən etibarən bu ərazilər iranlıların və turanlıların maddi və mənəvi nüfuzunda qalmışdır: "İndiki Azərbaycandan ibarət olan bura əhalisinin türkmü, yoxsa, farsmı olması çox zaman münaqişəli olub, insanlarına, xalq ədəbiyyatına, aşıq dastanları ilə çoban türklərinə, ənənə və adətlərinə baxanlara türk, rəsmi yazılarına baxanlara da fars demişlər. Kimisi bunları türkləşmiş fars, kimisi farslaşmış türk deyə qəbul etmişdir".[602]

"Azərbaycan" milli ideyasını "Azərbaycan Cümhuriyyəti" əsərində elmi dəlillərlə əsaslandırmağa çalışan M.Ə.Rəsulzadə onu da yazırdı ki, azərbaycanlılar milliyyət etibarilə türk, müxtəlif adlar daşıyan böyük Türk ağacının bir qoludur: "Azəri türklərinin hal-hazırda yaşadıqları yerlər min ilə qədim türk xalqı ilə məskun idi. Gərək Bakı, Gəncə, Şamaxı, İrəvan ilə Təbriz, Marağa, Ərdəbil və sairə kimi vilayətlər və gərək Muğan, Arran, Qarabağ və Qaradağ kimi məmləkətlər daim türk elinin məskəni və türk xanlarının ovlağı olmuşdur. Bu yerlər özlərində bir çox türk sülalələrinin irili-ufaqlı hökumətlər qurduqlarını və illərlə səltənət sürdüklərini görmüşlərdir".[603]

Bu əsərində M.Ə.Rəsulzadə bir çox məsələlərlə yanaşı, yeni dövlətə nədən "Azərbaycan" adının verilməsinə də aydınlıq gətirməyə çalışmışdır. Əslində bir türk dövlətinə "Azərbaycan" adı verilməsi Rəsulzadə və onun silahdaşları tərəfindən siyasi-ideoloji bir addım idi. Azərbaycan Cumhuriyyətinin ideoloqu Rəsulzadə başda olmaqla yeni dövlətə "Azərbaycan" adını verənlər bunu üç faktorla izah etmişlər: 1) Qacarlar dövlətinin şimal-qərbində məskunlaşmış türklərin yaşadıqları coğrafiya adı Azərbaycandır; 2) Cənubi-şərqi Qafqazda yaşayan türklərlə, Qacarlların şimal-qərbində yaşayan türklər (dil, din, etnik, mədəni və sosial baxımdan)

---

[602] Yenə orada, s.32
[603] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, s.12

eynidir; 3) Cənubi-şərqi Qafqazda türklərin yaşadıqları coğrafiya da Azərbaycan adını daşımışdır.[604]

Buradan belə bir nəticəyə gəlmək olur ki, Rəsulzadə yeni dövlətə "Azərbaycan" adı verməklə ilk növbədə "tarixi-coğrafi" və "siyasi-inzibati" amili göz önünə almışdır. Yeni Türk dövlətinə bu ad verilərkən, etnik-milli kimliyə deyil, qədim tarixi-coğrafi anlayışa və siyasi-inzibati coğrafiyaya üstünlük verilib. Ancaq bu, məsələnin görünən tərəfi idi. Şübhəsiz, əsas hədəflərdən biri, bəlkə də birincisi Qacarlar dövlətinin ən böyük siyasi-inzibati vilayətlərindən biri Azərbaycan olmuşdur. Cümhuriyyət ideoloqunun Güney Azərbaycan türkləri ilə Qafqaz türklərinin eyni kökə, dilə, mədəniyyətə bağlı olduqlarını da açıq şəkildə söyləməsi bunu bir daha ortaya qoyur. Deməli, yeni dövlətə "Azərbaycan" adının verilməsi, nə zamansa Güney Azərbaycan türkləri ilə Qafqaz türklərinin Azərbaycan adlı dövlətdə yenidən birləşməsi, bütövləşməsi ideyası ilə bağlı olmuşdur. Fikrimizcə, bu səbəbdən o vaxt, yeni dövlətə kiçik bir ərazini əks etdirən digər adların verilməsindən qəti şəkildə imtina olunmuşdur. Əsasən Rəsulzadənin sayəsində "Azərbaycan" adı qalib gəlmişdi. [605]

Fikrimizcə, yeni Türk dövlətinə "Azərbaycan" adının verilməsində ikinci hədəf dövlətçilik ənənələrinin bərpası ilə bağlı olmuşdur. Bir sözlə, "Azərbaycan" adı bu ərazilərdə vaxtilə mövcud olmuş dövlətlərlə (Atropatena, Albaniya, Sacilər, Atabəylər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər və b.) yeni dövlət arasında bir bağlılıq olmalı idi. Deməli, "Azərbaycan" adı qədim dövlətçilik ənənələrini ifadə etmək, eyni zamanda milli dövlətçilik ideologiyasını yaratmaq naminə yeni dövlətə verilmişdir. Bununla da, milli mənsubiyyəti ifadə edən "türkçülük" ideyası ilə yanaşı, milli dövlətçiliyi ifadə edən "Azərbaycan" ideyası yaranmışdır. Çox keçmədən "Azərbaycan" ideyası türkçülüyün rəsmi təbliğinin əsas hissəsinə çevrilmişdir. Rəsulzadə yazır ki, bu Cümhuriyyət Azər-

[604]Əmin Abid. «Müsavat» jurnalı, 1995, №: 8, səh. 81–82.
[605] Qarayev Y. «Azərbaycan ədəbiyyatı XIX və XX yüzillər». Bakı, 2002, s. 163

baycan adlansa da əslində bir türk hökuməti, başqa sözlə kiçik Türkiyədir. [606]

Deməli, "Azərbaycan" sözü dövlətçilik ideyası ilə bağlıdır, ölkənin adının nə cür adlanmasından asılı olmayaraq əslində bu dövlət Türk dövləti, Türk hökumətidir. Görünür, Rəsulzadə "Azərbaycan" sözünə sinonim kimi "kiçik Türkiyə" ifadəsini də bu mənada işlətmişdir. Hər halda açıq şəkildə hiss olunur ki, Cümhuriyyət ideoloqları milli mənsubiyyət, milli dili, milli mədəniyyəti "türkçülük", dövlətçiliyi, dövlət ənənələrini isə "Azərbaycan"-azərbaycançılıq ideyaları əsasında təbliğ ediblər. Məhz bu amildən çıxış edərək Rəsulzadə yazır ki, Rusiyada yaşayan Qafqaz müsəlmanlarını "türk", ölkələrini "Azərbaycan" kimi qəbul etdirmək qazanılmış bir dava idi. Ona görə, "Azərbaycan" sözü artıq xalqın düşüncəsində də coğrafi mənadan ideoloji mənaya çevrilmişdir: "Xalqın düşüncəsində AZƏRBAYCAN məfhumu coğrafi bir mənadan daha çox fikir və əməl şəklində təcəssüm edir".[607]

Yeni dövlətə "Azərbaycan" adının verilməsində üçüncü hədəf Azərbaycanın əsas nüvəsi olan türklərlə, Bütöv Azərbaycanda yaşayan bütün azsaylı etnik qrupları və etnosları bir ideya altında birləşdirmək, milli dövlətə xidmətçiliyə nail olmaq idi. "Azərbaycan" adı yalnız türklərin deyil, başqa azsaylı etnik qrupların və etnosların da qəbul etdiyi anlayış kimi Azərbaycan milli ideyasına xidmət etməli idi.

**Türk Cümhuriyyətinə "Azərbaycan" adının verilməsinin tarixi, mahiyyəti və Rəsulzadə.** Rəsulzadədə türklüklə bağlı "Azərbaycan" milli ideyası 1-ci Dünya müharibəsi dövründə (1914-1918) meydana çıxmışdır. "Azərbaycan"ın Turanla-Türkçülüklə bağlı olması fikrini M.Ə.Rəsulzadə ilk dəfə qismən 1916-cı ilin martından "Açıq söz" qəzetində qələmə aldığı "Məktəb və mədrəsə" silsilə yazılarında, əsasən də həmin ilin oktyabrında yazdığı "Nə Qafqasiya, nə də İran" məqalələrində ifadə etmişdir. O, həmin məqalələrində yazırdı ki, Qafqaz

---

606 Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, s.10

607 Yenə orada, s.95

türklərinin özlərini "qafqasiyalı", "Qafqaz türkü" adlandırıb da Azərbaycanı iki hissəyə bölən Araz çayının o biri tayında yaşayan türklərə "iranlı" kimi yuxarıdan aşağı bir nəzərlə baxmaq ruhumuza sirayət etmiş bir xəstəlikdir.[608] "Nə Qafqasiya, nə də İran" məqaləsində isə o, açıq şəkildə Şimali Azərbaycanda ya da Qafqazda yaşayan türklərin özlərini Qacarların Azərbaycan əyalətində yaşayan türklərdən ayrı müstəqil bir etnoqrafik vücud kimi görüb "Qafqaz türkü" adlandırmasını yanlışlıq hesab etmişdir. Türk şöbələri arasında "Qafqaz türkü" ismiylə tanınan etnoqrafik şöbə yoxdur, deyən Rəsulzadə yazırdı: "Azərbaycan türkü, Azərbaycan şivəsi, Azərbaycan ədəbiyyatı var. Ola da bilər. Fəqət Qafqasiya türkcəsi və Qafqasiya türkü olamaz. Bu gün nə "Xosrov Pərvizi" yazan Mirzə Abdullah iranlı, nə də Kazımoğlu qafqasiyaladır. Onların ikisi də azərbaycanlılardır... Çünki hamımız bir kütləninn (Azərbaycan Türkünün) parçası, bir məcmuin hissəsiyiz, xəlq təbrincə, "hamımız bir bezin qırağıyız", Araz çayının qismən bu, qismən də o tərəfində bulunan türklər, bir kərə bilməlidir ki, nə iranlı, nə də qafqasiyalı bəlkə: azərbaycanlılardır".[609]

Gördüyümüz kimi, Rəsulzadə "Azərbaycan" milli ideyasını hər şeydən öncə Qafqaz türkləri ilə Qacarlar, ya da "İran" türklərini birləşdirən, onların biri-birindən ayrı deyil vahid ulus olması anlamında gündəmə gətirmişdir. Başqa sözlə, Rəsulzadənin irəli sürdüyü "Azərbaycan" ideyasının əsasını Dərbəndən Kəngər korfəzinə, Bakıdan İrəvanadək eyni adət-ənənənyə, əxlaqa, məişətə, dilə, ədəbiyyata sahib olan türklərin vahidliyi, bütünlüyü təşkil etmişdir. Bu mənada Rəsulzadə yazılarında artıq "Azərbaycan türkləri", "Azərbaycan muxtariyyəti" anlayışlarına geniş yer verir,[610] Türk xalqları arasında Azərbaycan türklərinin öz dili, öz ədəbiyyatı, öz adəti olmasını müdafiə edirdi.[611]

---

608 Rəsulzadə M.Ə. Əsərləri. III cild (1915-1916). Bakı, "Elm", 2012, s.536-537
609 Rəsulzadə M.Ə. Əsərləri. III cild (1915-1916). Bakı, "Elm", 2012, s.537
610 Rəsulzadə M.Ə. Əsərləri. IV cild (1916-aprel, 1917), Bakı,"Qanun", 2013, s.204, 388
611 Yenə orada, s.186

1917-ci ilin mayında Moskvada keçirilən Birinci Rusiya müsəlmanları qurultayında digər türk xalqlarıyla yanaşı "Azərbaycan muxtariyəti" ideyasını da irəli sürən Rəsulzadə artıq həmin ilin sonunda "Azərbaycan muxtariyyəti haman bir əmri-vaqe halını almaldır"- deyə,[612] fikrini açıq şəkildə ifadə etmişidr. Bizcə, "Azərbaycan muxtariyyəti" ideyasını ortaya atan Rəsulzadə, bununla da yeni bir Türk dövlətinin adının bəlirlənməsi yolunda ciddi zəmin hazırlamış, eyni zamanda "Qafqaz" türkləri ilə "İran" türklərinin ortaq gerçək adını da dəqiqləşdirmişdir: Azərbaycan türklüyü!

"Azərbaycan"ın Turanla biri-birini tamamlaması məsələsinə gəlincə, M.Ə.Rəsulzadə 1-ci Dünya müharibəsi dövründə (1914-1918) anladı ki, türklərlə farslara istinadən "ortaq yurd" hesab etdiyi "İran", ortaq ideologiya saydığı "iranlılıq" üçün savaş türklərə fəlakətdən başqa heç nə verməmiş, bundan qazanan yalnız farsdillilər və onun havadarları olmuşdur. Ona görə də, Rəsulzadə 1915-1916-cı illərdən etibarən siyasi, mədəni, əxlaqi, etnik, adət-ənənə anlamlarda İran və Turan anlayışlarını biri-birindən ayırmağa başladı. Bizcə, İran və Turan anlayışlarının biri-birinə zidd olmasını daha dərindən anladıqdan sonra da o, türklər üçün "İran", "iranlılığ"ın deyil, Turan və Azərbaycanın önəmli olması qənaətinə gəlmişdi.

Bu anlamda Rəsulzadənin Novruz bayramı ilə bağlı yazdığı məqalələrdə İran və Turan məsələsini gündəmə gətirməsi, həmin bayramın əslində türklər, o cümlədən Azərbaycan türkləriylə bağlı olmasını müdafiə etməsi təsadüfi deyildi. Rəsulzadə yazırdı ki, türklərin tilsimlənmiş mühasirədən çıxdıqları gün (Ərgənəqon) martın 9-u imiş, moğollar da əski türklərdə martın 9-nu bayram saxlayarlarmış. Deməк, Novruz bayramı da əsla türklərə yabançı bir şey deyildir.[613] Rəsulzadəyə görə, Qurd ilə 9 rəqəminə türklərdə, türk asari-tarixiyyəsində böyük bir ehtiram görülür: "Uzun bir vəqt öylə düşünülüyordu ki, bu təsir İrandan keçmişdir.

---

[612] Yenə orada, s.408

[613] Rəsulzadə M.Ə. Əsərləri. III cild (1915-1916). Bakı, "Elm", 2012, s.169

Fəqət, İran ilə Turanın daima biri-birilə vuruşduğu halda, sırf İran ənənəsi olan Novruzun nədən dolayı turanlılar tərəfindən də böylə əzizlənməsi bir az şübhəli idi. Qədim türk və moğol ənənələri və əsatiri haqqında başlamaqda olan tədqiqat ortaya moğollarca məşhur olan "qurtuluş" əfsanəsini çıxarıyor ki, bu əfsanəcə dəmirdən yapılma bir "sədd" vasitəsilə "Ərgənəqon" da hasarlanıb qalmış olan türkləri bozqurd (Pörtəcnə) bu gün xilas etmişdir. Demək ki, bu gün turanlılardan ötrü qurtuluş bayramı olmuşdur".[614] Rəsulzadə hesab edirdi ki, bir çoxları 11-ci əsrdə Türk Səlcuqlardan Cəlaləddin Məlikşahın yeni təqvimlər düzəldərək "İran"da Novruz ənənəsini bərpa etməsini, Türk Qəznəlilərdən Sultan Mahmud Səbiktəkinin fars şairi Firdovsiyə məzmunu iranlıların turanlılar əleyhində icra elədikləri "pəhləvanlıqları" şeirləndirən bir "Şahnamə" yazdırtmaq qəbilindən xəta kimi görsələr də, bunu ancaq bu cür dəyərləndirmək doğru olmaya da bilər. [615]

Həmin dövrdə müstəqil Azərbaycan Türkçülüyünün ya da Azərbaycan Turançılığının əleyhinə olan əsas qüvvələr: 1) rusiyaçılar, 2) ittihadçılar, 3) irançılar idilər. Məsələn, "Azərbaycan türklüyü" ya da Azərbaycan milli ideyası ortaya atıldığı zaman Quzey Azərbaycanda İslam birliyindən çıxış edən ittihadçılarla "Böyük Rusiya" xülyasından qurtulmayan sosial-demokratlar (bolşeviklər, menşeviklər, sosialistlər) birmənalı şəkildə buna qarşı çıxırdılar. "Azərbaycan muxtariyyəti" ideyasını ittihadçılar İslam birliyinin parçalanması, sosialistlər isə Rusiya demokratiyasından ayrı düşmək kimi yozurdular. Rəsulzadə yazırdı ki, "Azərbaycan" adının əleyhinə təbliğatı öncə, Azərbaycan kommunistləri, sosialistləri və ittihadçıları başlamışlar. O, yazırdı: ""İttihad" liderlərindən Qənizadə Sultan Məcid daha iyirmi sənə əvvəl yazdığı lüğət kitabına "İstilahi-Azərbaycan" adını vermişkən, "Azərbaycan muxtariyyət və ya istiqlalı"nın bu yerlərdə bəhs mövzusu olmayacağını müdafiə

---

[614] Yenə orada, s.343
[615] Yenə orada, s.344

ediyordu. Onunca, Azərbaycandan və türklükdən deyil, "Rusiyada müsəlmanlıqdan" bəhs edilməlidi. Yalnız ittihadçılar və kommunistlər deyil, Azərbaycab sosialistlərincə də Azərbaycan Azərbaycan istiqlalı və muxtariyyəti bəhs mövzusu deyildi. Məvərayi-Qafqas seyminin ilk ictimaində siyasi firqələr namına oxunan bəyannamələrdə nə ittihadçılar, nə də sosialistlər Azərbaycan təəzzüvündən bəhs etməmişlərdir".[616]

"Azərbaycan" milli ideyasının əleyhdarları olan ittihadçılarla Rusiyayanlı sosial-demokratlar (bolşeviklər, sosialistlər) bu fikirlərini Azərbaycan Cümhuriyyəti yaranana qədər davam etdirdilər. Yalnız 1918-ci ilin 28 mayında Azərbaycan Cümhuriyyəti adlı yeni Türk dövlətinin bəyanından sonra azərbaycanlı ittihadçılarla sosial-demokratlar da qismən də olsa, "Azərbaycan" milli ideyasına sahiblənməyə başladılar.

Quzey Azərbaycan türkləri "Azərbaycan" milli ideyasıyla öz mövqeyini gücləndirdiyi dövrdə "Azərbaycan" isminə qarşı etirazlar sosial-demokrat adıyla pərdələnən rusiyaçılar və İslam biliyindən çıxış edən ittihadçılarla yanaşı Qacarlar dövlətindən, daha doğrusu bu dövlətdə "İran", "İranlı" adlarıyla pərdələnən irançılardan da gəlməyə başladı. Belə ki, Tehranda nəşr olunan "Novbahar" qəzeti 1918-ci ilin əvvəllərində yayımladığı saylarının birində Quzey Azərbaycan türklərinin "Azərbaycan" ideyası zəminində Azərbaycan muxtariyyəti uğrunda mübarizə aparmasını tənqid edirdi. "Novbahar" qəzetinin irançı ideoloqlarına görə, Azərbaycan muxtariyyəti ideyası "İran" dövlətinin istiqlalına qarşı olub "İran Azərbaycanı"nı da özünə birləşdirmək niyyəti güdür. [617] M.Ə.Rəsulzadə "Novbahar" qəzetinin bu iddiasına cavab olaraq yazırdı ki, onların əsas hədəfi "İran dövləti" ya da "İran Azərbaycanı" deyil, Bakı, Gəncə, İrəvan və qeyri əyalətlərdən ibarət olan Qafqaz Azərbaycanı türklərinin muxtariyyəti və istiqlalıdır. Milli ideoloqumuza görə, bu mənada

[616] Rəsulzadə M.Ə. Əsərləri (Mühacirət dövrü: Türkiyə, 1922-1929). I cild, Bakı, "OL" npkt, 2016, s.243
[617] Rəsulzadə M.Ə. Əsərləri. IV cild (1916-aprel,1917), Bakı, "Qanun", 2013, s.448

"“Novbahar” müdiri Azərbaycan adından nahaq xof və dəhşətə düşmüşdür: “Azərbaycan yüz on il bundan qabaq havayi-ruzigardan təqsim olundu və Araz çayının Quzey tərəfində olan qitələri rus aldıqdan sonra Azərbaycan adını götürüb Zaqafqasiya adlandırdılar ki, Məvarayi-Qafqaz olsun”. [618]

Rəsulzadə “Azərbaycan muxtariyyəti” məqaləsində də yazırdı ki, ariyançılarn “Azərbaycan” sözünə görə fəryad etmələri əsassızdır və məzələ olduqca aydındır: “Arazın cənubundakıları “millət-e Azərbaycan”, şimalındakıları “oğuz” bilən siyasilərə məlum olmasa da azərbaycanlıların – Arazın bu tayında olsun, o tayında olsun – həmin bir cinsdən, bir soydan olduqlarını bilənlər bunu da şübhəsiz bilirlər ki, Qafqaziya müsəlmanları öz türkcələrinə Azərbaycan türkcəsi, ədəbiyyatlarına Azərbaycan ədəbiyyatı, öz quberniyalarına da Rusiya Azərbaycaı deyirlər... Azərbaycan bir millət isə o millətin mədəni bir millətə yetişəcək dərəcədə mətbuata, müasir ədəbiyyata, müasir məktəblərə və az-çox tərbiye-ye-siyasiyeye malik olan qismi həmən Arazın şimalında sakindir. Bunlar özlərinin bir millət olduqlarını daha rus istibdadı altında əzilərkən dərk etdilər. Maarif və ədəbiyyatca uyğun olaraq İran Azərbaycanı kimi farslaşmışkən rus politikasının təzyiqi altında oyandılar. Danışdıqları dildə yazmağa, oxumağa başladılar. Nəhayət, türklüklərini dərk etdilər. Rusiya inqilabı ortaya gəlincə siyasətdə dirilmək meylinə düşdülər. Bu milliyyət məruci olmaq üzrə “Müsavat” firqəsi vücuda gəldi. “Müsavat” firqəsi Rusiyadakı bütün türk qövmləri üçün muxtariyyət istədiyi kimi Qafqaziya Azərbaycanına da muxtariyyət istyədi. Bu istəyini proqramına daxil etdi. Bu gün Azərbaycan muxtariyyətindən bəhs olunursa həmən İrəvan, Gəncə, Bakı quberniyaları ilə sair Zaqafqaziya uyezd və mahallardan bəhs olunur deməkdir”. [619]

---

[618] Yenə orada, s.448

[619] Rəsulzadə M.Ə. Azərbaycan muxtariyyəti. “Açıq söz” qəzeti, 22 dekabr 1917-ci il, sayı 635 // Rüstəmova-Tohidi Solmaz. Cümhuriyyətin “Azərbaycan” adlandırılması və onun tarixi əhəmiyyəti. Bakı, Təhsil, 2021, s.185-186

Gördüyümüz kimi, Cümhuriyyət qurulana qədər "Azərbaycan" ideyasının Türkçülük və Turançılıqla bağlı olması haqqında müəyyən müddəalar irəli sürülmüşdür ki, bunun da əsas müəllifi Rəsulzadə olmuşdur. Rəsulzadə də Azərbaycan türkçülüyünü ya da Azərbaycan turançılığını birmənalı şəkildə "Rusiya Azərbaycanı"na və "İran Azərbaycanı"na qarşı qoymuşdur. Yəni Rəsulzadənin ortaya atdığı "Azərbaycanizm"in mahiyyətində artıq Rusiya və "İran" mərkəzlilik deyil, məhz Türklük və Turanlılıq dayanırdı. Başqa sözlə, Quzey Azərbaycan türkləri bir tərəfdən 100 ilə yaxın Rusiyanın işğalı altında olduğu üçün ruslaşdırma siyasətinin qurbanı olmuşlara, digər tərəfdən Qacarlar dövlətinə son vermək niyyətində olan farsçılarla onların təsiri altına düşmüşlərə qarşı mübarizə apararaq Azərbaycan turançılığını müdafiə etmişlər. Üstəlik, Azərbaycan Türk aydınları, özəlliklə də Rəsulzadə "Turan Azərbaycanı", "Türk Azərbaycanı" ideyalarını müdafiə edərkən də bir tərəfdən türkçülük, turançılıq prinsiplərindən kənara çıxmamağa çalışmış, digər tərəfdən isə Türkçülük və Turançılıq içində onun müstəqil varlığını müdafiə etmişlərdir.

Ancaq ilk dövrlərdə Azərbaycan milli ideyasının yetərincə öz təsbitini tapmamasının nəticəsi idi ki, Azərbaycan Cümhuriyyəti gerçəkləşdikdən sonra da (28 may 1918-ci il) Azərbaycanla türklüyün biri-birinə zidd ya doğma olması məsələsində müzakirələr davam etmişdir. Çox maraqlıdır ki, ilk dövrlərdə türkçülərin bir qismi "Azərbaycan" adının Türk kimliyini ifadə etmədiyi üçün ondan imtina edilməsinin tərəfində olduğu halda rusiyaçılar, ittihadçılar və irançılar isə yuxarıda ifadə etdiyimiz mövqelərində qalmağa davam edirdilər. Bizcə, 1918-ci ildə qurulan dövlətə "Azərbaycan" deyil, başqa bir ad məsələn, Oğuz Cümhuriyyəti ya da Türküstan ismi verilsəydi, bu ərazidə yaşayan Türk xalqının SSRİ və SSRİ-dən sonrakı dönəmdə həyatı müsbət və mənfi anlamda xeyli dərəcədə fərqli olacaqdı. Yeni Türk dövlətinə "Oğuz Cümhuriyyəti" adı veriləcəyi halda, bu adı daşıyan ulusun tarixi taleyinin hansı istiqamətdə inkişaf edə biləcəyi haqqında fikir yürütmək çox çətindir. Amma bir şeyi

dəqiq bilirik ki, yeni Türk dövlətinin ismi məsələsinin müzakirəsində “Azərbaycan”la yanaşı Oğuz ya da Türküstan adı üzərində dayanılması da təsadüfi olmamışdır. Çünki bu bölgənin aborigen yaşayanları olan Türklər öz ölkələrini milli kimliklərinə uyğun olaraq Türkistan, Xəzəran-Azərbaycan, Oğuz, Turan kimi tarixə daha çox damğasını vuraraq Oğuzluğunu, Turanlığını, Xəzərliyini, Türklüyünü də XX əsrin əvvəllərinədək qoruyub saxlamışdır. Məhz bu vahidliyin, eyniliyin nəticəsi olaraq da yeni Türk dövlətinin ismi kimi əsasən “Oğuz”, “Türküstan”, “Xəzəristan” və “Azərbaycan” adları ön plana çıxmışdır. Bu anlayışlardakı vahidlik, eynilik də hərfi məna üzərindən deyil, tarixi gerçəklik və milli mənsubiyyət əsasında ifadə edilmişdir.

Bu adlardan hər birinin Türklüyü ifadə etdiyini yaxşı anlayan milli aydınlarımızın çoxunun sonda ən optimal variant olaraq “Azərbaycan” üzərində dayanmaları isə diqqətçəkicidir. Yeni yaranmış Türk dövlətinə konkret etnik kimliyi ifadə edən, bu anlamda heç kəsdə şübhə yeri qoymayan Oğuz, Türküstan, Xəzəristan deyil, artıq Türk ulusu mahiyyətindən kifayət dərəcədə uzaqlaşdırılaraq daha çox İrançı-Ariyançı coğrafiya ya da ölkə anlamında yayğın “Azərbaycan” adı üzərində dayanılması Türk aydınlar, o cümlədən Türk xalqı arasında istər-istəməz mübahisələrə yol açımışdır. Başqa sözlə, daha çox hərfi mənada, özü də fars dilində “odlar yurdu” ya da ona yaxın anlamda izah olunan “Azərbaycan” adının yeni Türk dövlətinə verilməsi birmənalı qarşılanmamışdır.[620]

Məsələn, Əmin Abidə görə, 1918-ci ildə Güney Qafqaz Seymində təmsil olunan türklərin gürcülər və ermənilərdən fərqli olaraq, ölkələrinə verdikləri “Azərbaycan Cümhuriyyəti” adı Türk xalqının adına uyğun olmamışdır: “Seymdə bulunmuş Türk üzvlər də hökümətimizə “Azərbaycan” adını verərək həman-həman “kəbirən-səğirən” üsulunda bir mühakimədə bulunmuşlardır”. **[621]** O, yazırdı ki, yeni Türk dövlətinə Azərbaycan adı verildikdən sonra,

---

[620] Əmin Abid. «Müsavat» jurnalı, 1995, №: 8

[621] Abid Əmin. Azərbaycan türklərinin ədəbiyyatı tarixi. Bakı, Elm və təhsil, 2016, s.32

"Azərbaycan", "Azərbaycanlı", "Azəri" anlayışları ətrafında qəribə təhlillər aparılmış, əsassız olaraq onların türkləşdirilməsi baş vermişdir. Abidə görə, bu baxımdan Y.V.Çəmənzəminlinin Zərdüştü türk zənn edib, azərbaycanlıları da atəşpərəst olaraq qələmə alması, üstəlik "azəri" sözünü türklüyə aid etməsi[622] kökündən yanlışdır: "Bu vaxta qədər yapılan tədqiqlər əsasında: birisi qədim qədim dövrlərdən zamanımıza; o biri zamanımızdan əski əsrlərə doğru yürüyən iki hərəkət xətti hiss edilməkdədir. Yalnız Azərbaycan kəliməsi ətrafında dönüb dolanan hər iki xəttin gəlib dayandığı bir nəticə nöqtəsi var: qurduğumuz dövlətin həqiqi adı "Azərbaycan" və bu dövlətin hakim olduğu yerlərdə oturan türklər (quzey-batı "İran"da yaşayan türklər kibi) "azəri"dir; azərilər də atəşpərəstlik sistemi ilə əlaqədardır". [623]

Beləliklə, Abidin fikrincə, "azəriçilik" məsələsinin dövriyyəyə buraxılması təsadüfi olmamış, "bu gün "azəri" kəlməsi Azərbaycanda yaşayan bir fərdə elm olmuşsa da, bu kəlmə ancaq son on sənə içində bu mənada kullanmağa başlamışdır; daha əvvəllər bir azərbaycanlıya azəri deyildiyi görülməmişdir".[624] Onun fikrincə, "Azərbaycan" adlanan bu coğrafiyanın adı əslində Dədə Qorqud boylarından da göründüyü kimi, Oğuz türklərinin adıyla bağlı Oğuz Eli olmuşdur. Sadəcə, iranlılıq və islamlılığın təsiri nəticəsində Oğuz türkləri özlərini, vətənlərini "müsəlman", "azəri", "Azərbaycan" adlandırıb, hətta uşaqlarının isimlərini də müsəlmanlaşdırıb, iranlılaşdırıblar. [625]

Şübhəsiz, həmin dövrdə Türk aydınlarından bir hissəsinin "Azərbaycan Cümhuriyyəti" adına olan etirazlarının kökündə də məhz "Azərbaycan" anlayışının Türklükdən xeyli dərəcədə uzaqlaşdırılmasıyla bağlı idi. Özəlliklə, "Azərbaycan" anlayışının tarixi-coğrafi və etnik anlamda iranlılaşdırılması ya da ariyanlaşdırılması (hind-avropa nəzəriyyəsincə) fonunda, Türk

[622] Çəmənzəminli Y.V.Əsərləri. Üç cilddə. III cild. Bakı, AVRASİYA-PRESS, 2005,s.315

[623] Abid Ə. Azərbaycan türklərinin ədəbiyyatı tarixi. Bakı, Elm və təhsil, 2016, s.29

[624] Abid Əmin (Gültəkin). Seçilmiş əsərləri. Bakı, «Şərq-Qərb», 2007, s.21

[625] Abid Ə. Azərbaycan türklərinin ədəbiyyatı tarixi. Bakı, Elm və təhsil, 2016, s.38-39

milliyyətçilərinə görə belə bir ismin Türk dövlətinə verilməsi məntiqəuyğun ola bilməzdi. Ancaq Türk düşməni ideoloqların "Azərbaycan" anlayışını türklükdən, oğuzluqdan, turanlılıqdan uzaq tutulub iranlılaşdırılması, ruslaşdırılması, avropalaşdırılması prosesini zamanında çox yaxşı dərk edən M.Ə.Rəsulzadənin Turanın mərkəzi olan Azərbaycanın bir hissəsində yaradılmış Türk dövlətinə "Azərbaycan Cümhuriyyəti" adının verilməsində əsas məqsədi quzeyli-güneyli Azərbaycanı, Azərbaycan türklərini Türklüyə, Oğuzluğa və Turanlığa yenidən qaytarmaq idi. Bu anlamda yeni yaranmış Türk dövlətinə "Oğuz" ya da "Türküstan", "Xəzəristan" deyil, məhz "Azərbaycan" adının verilməsi Türk kimliyinin ifadəsi baxımından uğurlu görünməsə də, ancaq burada əsas məsələ daha geniş çaplı milli hədəfin ortaya atılması idi. Belə ki, əgər yeni Türk dövlətinə "Oğuz Cümhuriyyəti" ismi verildiyi halda, 1828-ci ildə fiziki cəhətdən bölünmüş Azərbaycan türkləri mənəvi-ruhi cəhətdən də parçalanmış olacaqdırlar. Bununla da "Oğuz" türkləriylə Azərbaycan türkləri arasındakı bağ, indiki Türkiyə ya da Türkmənistan türkləriylə olan bağdan uzağa getməyəcəkdi. O zaman "Oğuz" türkləri də məcburən Qacarlar dövlətindəki Azərbaycan türklərinin dövlətçilik ənənələrindən tutmuş fəlsəfi, mədəni, ədəbi irsinə qədər hər bir şeydən uzaq durmaq məcburiyyətində qalacaqdırlar.

Ona görə də "Azərbaycan" milli ideyasının müəllifi olan M.Ə.Rəsulzadə Cümhuriyyət dövründə Türk dövlətinə belə bir adın verilməsini üç faktorla izah etmişdir: 1) "Qafqaz Azərbaycanı" və "İran Azərbaycanı"nda məskunlaşmış türklər tarixən milli kimlik anlamında "Azərbaycan"la bağlı olmuş, bu anlamda milli kimliyi "Azərbaycan türkü", milli dili "Türk dili" ya da Türk dilinin Azərbaycan şivəsi adlandırılmışdır; 2) Quzeyli-güneyli Azərbaycan türkləri dil, din, etnik, mədəni və sosial baxımdan tarixən vahidlik təşkil etmişdir; 3) Qafqaz türklərinin yaşadıqları coğrafiya da tarixən "Azərbaycan" adını daşımışdır.

Milli ideoloq "Azərbaycan" adının yalnız coğrafi ya da vətən anlamında başa düşülməsinin yanlış olduğunu, burada əsas

məsələnin "Azərbaycan" kəliməsinin milli kimlik olaraq (Azərbaycan türkləri) anlaşılmasının önəmini vurğulamışdır. Başqa sözlə, "Azərbaycan" kəliməsinin milli kimlikdən uzaqlaşaraq yalnız coğrafiya ya da vətən anlamında başa düşülməsini doğru qəbul etməyən Rəsulzadə hesab edirdi ki, türklüyün, o cümlədən Azərbaycan türklüyünün sinonimi olan "Azərbaycan" kəliməsi yenidən milli kimlik anlamında çar Rusiyasının işğalından sonra ortaya çıxmışdır. Belə ki, çar Rusiyasının "Azərbaycan" adına qoyduğu qadağalara baxmayaraq, 19-cu əsrin ikinci yarısından etibarən Gəncə, İrəvan və Bakı vilayətlərindən Sankt-Peterburqa, Moskvaya təhsil almağa gedən tələbələr "Azərbaycan cəmiyyəti" adlı təşkilatlar qurmuş, burada keçirdikləri tədbirlərinə "Azərbaycan gecəsi" ismini vermişlər. Eyni zamanda, Qafqaz türkcəsindən ruscaya lüğət tərtib edən milli aydınımız S.M.Qənizadə kitabını "Azərbaycan Türk dili-Rusca lüğət", ya da "İstilahi-Azərbaycan" adlandırmışdır. Rəsulzadə yazırdı: "Ola bilər düşünülsün ki, başqa bir isimlə olsa da məxsus bir qövm olmaq əsası və xüsusiyyəti uya bilər bir kütlə olduğu üçün mətlub degildir. Böylə bir düşüncənin, əlbəttə ki, ciddi mütəfəkkirlərcə beş para qiyməti olamaz. Çünki o zaman Cümhuriyyətimizi təşkil edən qövmin qövmiyyətini inkar etmək, ona kəndi müqəddəratını təyin həqqini verməmək icab edər. Böylə bir vəziyyətə ruslar, ingilislər, firəng və sair xristian millətlər durmadığı halda dindaş bir dövlətin duracağını qətiyyən təsəvvür etməyiz. Böylə olunca Azərbaycanın nə ismi, nə də cismi iranlı qardaşlarımızda şəkk və şübhə hissi oyatmamalı, yanı başlarında bir Ermənistan, bir Gürcüstan hökuməti təşəkkül etdigi bir zamanda, bir də həmkeş və əqraba bir Azərbaycan Cümhuriyyətinin təşəkkül edib kəsbi-qüvvət etməsini səmimanə bir surətdə arzu etməlidirlər".[626]

Quzey Azərbaycan türklərinin böyük çoxluğu siyasi əqidələrindən asılı olmayaraq "Azərbaycan" milli ideyasını qəbul

---

[626] Rəsulzadə M.Ə. Əsərləri. V cild (1918-1920, aprel). Bakı, "Təhsil", 2014, s.232

etdikləri bir dövrdə ruslardan sonra bundan ən çox narahatçılıq yaşayan irançı qılığına girmiş farslar olmuşlar. Həmin dövrdə "Azərbaycan" ismi üzərindən müzakirələrin mərkəzində isə Bakıdakı "Azərbaycan" qəzeti ilə Tehrandakı "İran" qəzeti dayanmışdır. Belə ki, Rəsulzadə 1919-ci ilin aprelində "Azərbaycan" qəzetində yayınlanan "İran və biz" məqaləsində Qacarlar dövlətindəki irançıların "Azərbaycan" adı üzərindən sui-istifadə etmələrinin doğru olmadığını yazmışdır. Milli ideoloqumuz Qacarların sülaləsinin Türk kimliyini, eyni zamanda türklərin, o cümlədən Azərbaycan türklərinin Qacarlar dövlətindəki ana varlığını nəzərdə tutaraq yazırdı ki, Cümhuriyyətlə Şahlıq arasında iqtisadi, ədəbi, tərbiyəvi, ən əsası böyük bir qohumluq vardır.[627] Bü baxımdan irançı aydınların Azərbaycanın quzeyində yaranan Türk Cümhiyyətinin isminə düşməncəsinə münasibət bəsləyərək bunu, "İran"a təhdid kimi görmələrini doğru qəbul etməyən Rəsulzadə hesab edirdi ki, "Azərbaycan" adını Qacarlar dövlətinin bir hissəsi olan Azərbaycana bağlayaraq başqa mənalara yozmağın bir anlamı yoxdur: "Azərbaycan derkən qəsdimiz Şimali Azərbaycan və yaxud Qafqasiya Azərbaycanıdır ki, əski Aran ilə Şirvan və Muğanı ehtiva edər. Azərbaycan ismi isə coğafi istilah olmaqdan ziyadə qövmi bir məna ilə işlənmişdir. Biz kəndimizi Azərbaycan dili ilə (ki türkcənin bir növüdür) mütəkəllim məxsus bir qövmədd edəriz. Bu qövmün ismi nə Aran, nə Şirvan, nə də Muğandır. Yalnız Azərbaycandır".[628]

Ancaq M.Ə.Rəsulzadənin "Azərbaycan" qayəsi ilə bağlı uzlaşdırıcı fikirlərinə baxmayaraq, Qacarlar dövlətini yıxmaqda qərarlı olan irançı ideoloqlar başda "İran" qəzeti olmaqla yazırdılar ki, Qafqazın bir qimindən ibarət olan Türk dövlətinə "Azərbaycan" isminin verilməsi doğru deyildir. Onlara görə, "Azərbaycan" adı yalnız "İran"ın qədim vilayəti kimi tanınan Azərbaycan əyalətinin haqqıdır. Rəsulzadə isə "Azərbaycan və

[627] Rəsulzadə M.Ə. Bakı və Azərbaycan tarixinə dair əsərlər (1918-1919). Bakı, Qanun nəşriyyatı, 2013, s.59-60
[628] Yenə orada, s.60

İran" adlı növbəti məqaləsində bir daha yazırdı ki, Qafqazdakı Azərbaycan Türk milləti, azərbaycanlılar "Azərbaycan" kəliməsini çoğrafi mənadan çox milli mənsubiyyət olaraq qəbul edirlər. Yəni dünyada "Azərbaycan" adlı bir coğrafiyayla yanaşı "Azərbaycan camaatı" da vardır. "Azərbaycan camaatı" da özünə məxsus bir ləhcə ilə danışan Türk xalqlarından bir millətdir ki, o, başqa adla Qafqaz türkləri də olaraq tanınır. Bu anlamda Qafqaz türklərinin ədəbiyyatı, teatrı, operası, dili də "Azərbaycan"la bağlıdır. Beləliklə, coğrafi anlayışlar üzərindən müzakirələr aparılmasını doğru saymayan Rəsulzadə "Azərbaycan" ideyasında əsas vurğunun milli kimlik üzərində qurulmasını vacib hesab etmişdir: ""Qafqaz müsəlman türkləri" ilə azərbaycanlı təbirinin eyni mənanı ifadə etdiklərini coğrafiya nöqteyi-nəzərindən cərh eləmək mümkün olsa da, qövmiyyət nöqteyi-nəzərindən bunu inkar etmək mümkün deyildir. Zira İrəvan, Gəncə və Bakı quberniyalarındakı türklər ilə Ərdəbil, Marağa, Xalxal, Təbriz və Qaracadağ mahallarındakı türklərin biri-birindən nə ilə ayrıldıqlarını mən yaxşı fərq edəmiyoram. Eyni dil, eyni adət, eyni məzhəb, eyni ənənələr burada da, orada da hökmfərma, ortada yalnız yüz illik digər bir siyasi həyat ilə yaşamanın təsiri mövcuddur. "Qafqaz müsəlman türkləri"nin "İran müsəlman türkləri" kimi tanınan bir ismi vardır: Azərbaycan türkü".[629]

Rəsulzadəyə görə qədim Şirvan, Muğan, Aran, Bərdə, Albaniya, Bəqrcan, nəhayət, Gəncə, Bakı, İrəvan vilayətləri ilə adlanan bugünki Azərbaycan Cümhuriyyətinin coğrafiya nöqteyi-nəzərindən bu ismə haqlı olduğu inkar olunsa da, burada böyük bir əksəriyyətlə yaşayan türklərin Azərbaycan türkcəsi ilə mütəkəllim bir millət olduqları da danılmaz bir gerçəklikdir. O, yazırdı: "Böyük müharibənin və misilsiz inqilabm nəticəsində zühura gələn növzad hökumətlərin istinad elədikləri ən qüvvətli və ən sağlam bir məbnaları vardır: qövmiyyət binası. Tarix, coğrafiya, strateji mülahizatı ikinci, üçüncü dərəcədə gəlir

[629]Yenə orada, s.63

mülahizələrdir. Yeni bir hökumətin təsis üçün ən əvvəlcə yekvücud bir milliyyət təşkil edən qövmin kəndisini tanımasıdır. İştə Azərbaycan Cümhuriyyəti Tehran qəzetələrinin düşündügü kibi bir takım "xəyalpərvər" cavanların uydurub "mülahizəsiz" qocalara qəbul etdirdikləri bir ism degildir. Azərbaycan Cümhuriyyəti müstəqil bir həyati-milliyyə ilə yaşamaq istəyən və milliyyətlərini dərk etmiş bulunan Azərbaycan Türk millətinin təsis elədigi bir hökumətdir."[630]

Hələ, Cümhuriyyət qurulmamışdan öncə Azərbaycan muxtariyyəti davasını apararkən də yalnız çar Rusiyasının işğalı altında olan Quzey Azərbaycanı nəzərdə tutduqlarını diqqətə çəkən Rəsulzadəyə görə indi Tehran hökumətinin "Azərbaycan" adına etiraz edib guya, azərbaycanlı türklərin Bütöv Azərbaycanın istiqlalını istədikləri kimi nahaqq şübhələrə, gümanlara düşməsi mənasızdır.[631] Mütəfəkkirin fikrincə, azərbaycanlı türklər məntiqli, təbii olaraq tarixi-coğrafi Azərbaycanın çar Rusiyasının işğalı altında olan bir hissəsində müstəqil dövlətini dünyaya bəyan edib. Yəni bu zaman heç də tarixi-çoğrafi Azərbaycanın bütününə, o cümlədən də indi "İran Azərbaycanı" adlanan böyük hissəsinə də iddia edərək rəsmi Tehran qarşısında belə bir məsələ qaldırmayıb. O, yazırdı: "Çünki biz azərbaycanlı türklərin hökumətini təşkil etmək mövqeində ikən İrana Azərbaycan ismindən fərağət et, desə idik, o zaman həqsiz olurduq. Müxtəlif millətlərdən təşəkkül elədigi halda İran Azərbaycana malik olduğu kibi, Avstriya da alman millətinə malik idi. Halbuki Avstriyanm almanlara malikiyyəti Almaniya hökumətinin təşkilinə mane olamaz və hələ bütün Almaniyaya hakimiyyət sövdasına düşmək üçün kəndisinə heç bir həqq verəməz idi. Bismark bu nöqteyi-nəzərdən pək həqli idi. Bitərəfanə icra olunan müxtəsər bir tədqiqlə görülür ki, Azərbaycan ismi cümhuriyyətimizə İran qəzetələrinin düşündügü kibi pək münasibətsiz bir "xarn xəyal" nəticəsi olaraq verilməmişdir. Burada İran ərazisi həqqində heç bir suyi-niyyət mövcud

[630]Yenə orada, s.64
[631]Yenə orada, s.66

olmayıb, yalnız bu gün kəndisini bir millət olaraq bilən sabiq rus təbəələri-Azərbaycan türklərinin müqəddəratı düşünülmüşdür".[632]

Beləliklə, "Azərbaycan" kəliməsini milli kimlik anlamında irəli sürənlər Azərbaycan Cümhuriyyətini milli həyat yaşamaq istəyən Azərbaycan Türk millətinin təsis etdiyi bir dövlət olaraq görürdülər. Azərbaycan Türk millətinin də "Azərbaycan Cümhuriyyəti" adından Qacarlardakı Azərbaycan türklərinə görə imtina etməsi məntiqli hesab olunmurdu. İrançıların Azərbaycan Cümhuriyyəti adı altında öncə Qafqaz Azərbaycanı türklərinin, daha sonra da Qacarlardakı Azərbaycan türklərinin istiqlalını istədikləri müddəasına gəlincə, Azərbaycan Türk aydınları bunu da əsassız hesab etmişlər. Hətta, Rəsulzadə İstanbulda olduğu zaman "Yeni Kafkasya" dərgisindəki "Zəruri bir izah" məqaləsində bununla bağlı yazırdı ki, Güney azərbaycanlıların türklüyü və onların Quzey azərbaycanlılarla eyni soyu, mədəniyyəti, coğrafiyasnı paylaşmaları irançıları narahat etsə də, etməsə də bu bir gerçəklikdir: "...İranlı dostlarımızın ən çox qızdıqları şey mənim azərbaycanlıların Türk olduqlarını iddia etməyimdir. "İran əleyhindəki iqdimatım" da qaliba bundan ibarət olacaq. Fəqət bu iddiaya qızmaqdan daha bayağı bir şey təsəvvür etmirəm. bir xalqın milliyyətini tədqiq edərkən danışdığı dilin əhəmiyyəti varsa, bu etibarla Azərilər Türkdür. Azərilərin Fars ikən dilləri cəbrən alınıb da yerinə Türkcə qoyulduğu iddiasının yalan olduğu aşkardır. "Miben" qəzetinin də zikr etdiyi vəchlə, nə Bakı ətrafındakı "Tat köyləri" nə də Suraxanıdakı atəşkədə Təbriz ilə ətrafının Türkcə danışdığını inkar etməzlər. Təbrizlilər bir çox saiqlər taxtında özlərini iranlı bilirlər. Sözün siyasi mənası ilə iranlıdırlar da. Fəqət, heş kimsə İran türklərinin dəxi mövcud olduğunu onkar edə bilməz. Bir İran türklüyü vardır. Azərbaycanlılar türkcə danışırlar. Təbriz ilə ətrafındakı xalq ədəbiyyatı (folklor), xalq dili, xalq adət və əxlaqı Bakı ilə Gəncə ətrafındakından başqa deyildir. Aşıq Kərəm ilə Koroğlu

---

[632]Yenə orada, s.68

dastanları, Qafqazya ilə Anadoluda olduğu kimi, İran Azərbaycanında da mütədavildir. "Dədə Qorqud"un dili bugün İrəvan ilə Təbrizdə söylənən dildən çox da fərqli deyildir". [633]

Hələ, Cümhuriyyət dövründə Rəsulzadənin bu izahlarının nəticəsi olaraq çox keçmədən milli sosialistlərin, milli ittihadçıların çoxu uyğun olaraq Rusiya yanlısı, ya da Osmanlı yanlısı olmaqdan əl çəkərək "Müstəqil Azərbaycan" ideyasını müdafiə etməyə başladılar. M.Ə.Rəsulzadə 1918-ci ilin 10 dekabrında parlamentin 2-ci iclasındakı çıxışında "Azərbaycan" milli ideyasının şüurlarda qazanılmış bu uğurunu nəzərdə tutaraq deyirdi: "Bizim yaxın məqsədlərmizdən biri olan Azərbaycan muxtariyyətini tələb edərkən həm sağdan, həm də soldan hücumlara düçar olurduq... Daima Azərbaycan məfkurəsinin müdafiəçisi olan firqəmiz üçün bu gün o böyük məqsəd hasil olmuşdur. Çünki artıq gərək sağlar, gərəksə sollar Azərbaycanı inkar deyil, var qənaətlərilə isbat edirlər. Çünki artıq Azərbaycan fikri üzərində müsəlman firqələri arasında ixtilafi-nəzər yoxdur. Çünki cəmiyyətimizin zehnində Azərbaycan istiqlalı fikri yer tutmuş, yerləşmişdir. Çünki üçrəngli o məğrur bayraq artıq siyasətən hamımızı birləşdirmişdir". [634]

**Milli bayraq fəlsəfəsi: türklük, çağdaşlıq və islamlıq.** M.Ə.Rəsulzadənin bu sözlərində inkarolunmaz elə bir həqiqət var idi ki, 70 illik SSRİ imperiyası belə milli bayraq fəlsəfəsini Azərbaycan Türk insanının şüurunda silə bilməmişdi. Əksinə, milli bayraqdakı üçboya və səkkizguşəli aypara onların ruhuna və mənəviyyatın əbədi həkk olunmuşdu. Hətta bu boyalar insanlar üçün o qədər doğmalaşmışdı ki, bəzən onlardan birinin digərini ifadə etməsi halları belə olmuşdu. Məsələn, 1919-cu ilin 28 mayında "Bir yaş" məqaləsində tanınmış ziyalımız Üzeyir Hacıbəyli qeyd edirdi ki, bayrağımızın mənəvi mənası olaraq al (qırmızı) boya türkçülüyə, yaşıl boya islamlığa, mavi boya isə

---

[633] Resulzade M.E. Yeni Kafkasiya yazıları (1923-1927). Ankara, Türk tarih kurumu yayınları, 2017, s.54

[634] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqraifk hesabatlar). I c. Bakı, «Azərbaycan» nəşriyyatı, 1998, s.50

mədəniyyətə işarədir. Deməli, Ü.Hacıbəyli qırmızı boyanı türkçülüyə aid edərək mavi rəngi mədəniyyət mənasında qəbul etmişdir. Biz burada Ü.Hacıbəylinin nədən bayrağmızın boyalarına fərqli şəkildə yozmasını geniş izah etmədən, burada mavi rəngin mədəniyyət kimi yozulmasına diqqəti cəlb etmək istərdik. Fikrimizcə, mədəniyyət və müasirlik anlayışları heç də bir-birinə tamamilə yaxın istilahlar deyildir. Əgər "müasirlik" dar məna daşıyıb özündə yalnız bu günün dəyərlərini və tələblərini əks etdirsirə, "mədəniyyət" anlayış daha geniş məna kəsb edərək nəinki bu günün, həm də keçmişin və gələcəyin nişanəsidir. Eyni zamanda "mədəniyyət" anlayışında milli və dini dəyrlərlə yanaşı, Qərb-Avropa mədəniyyətinin mütərəqqi cəhətlərinin də öz əksini tapması mümkündür: demokratiya və mədəniyyət.

Bizcə, bu baxımdan milli bayraqdakı boyaların fəlsəfi-ideoloji mənasını Rəsulzadə daha aydın ifadə etmişdi. Onun fikrincə, milli bayrağın məzmun və mənası "müasir bir türk və islam siyasi mövcudluğu" ilə bağlıdır. Burada qeyd edilən "müasir bir türk və islam" kəlməsi göstərir ki, "müasirlik" dedikdə, ilk növbədə milli və dini sahədə, yəni islamda və türklükdə yeniləşmə, milli və bəşəri mədəniyyətin bütövlüyü – dünyəvilik (layiqlik) nəzərdə tutulur. Ancaq bu "müasirlik" özün də keçmiş adət-ənənələri də əks etdirir. Çünki bu anlamdakı "müasirlik" demokratizmi ifadə edir. Bunu, M.Ə.Rəsulzadənin bayrağın mənası ilə bağlı, kitabda öz əksini tapmış xüsusi qeydi, açıqlaması da bir daha təsdiq edir. O, yazırdı: "Bayrağındakı məzmun, fikir surətilə müasir bir türk və islam siyasi mövcudluğuna qovuşmaq ümidilə… Azərbaycan bayrağındakı mavi rəng – türklüyü, yaşıl rəng – müsəlmanlığı, al rəng də – təcəddüd (yeniləşmə – F.Ə.) və inqilab rəmzi olmaq həsbilə əsrliyi tərmiz edər ki, möhtərəm Ziya Gökalp bəyin "türk millətindənəm, islam ümmətindənəm, qərb mədəniyyətindənəm" – düsturunu ifadə etmiş olur"."[635]

---

[635] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, s.97

Bizcə, bayrağımızdakı al boyanın "müasirlik" adı altında avropalaşmaq, qərbləşmək kimi deyil, milli və dini dəyərlərə zidd olmadan yeniləşmə və inqilab (islahatlar həyata keçirilməsi), yaxud da dünyəvilik (layiqlik) olaraq yozulması daha məqsədəuyğundur. Atatürkün təbrincə desək, dövlət daima güclü olmalıdır ki, din birliyi tərəfdarları "ümmətçilik" adı altında "qəza-cihad" ideyasına qapılmasınlar. Atatürkün fikrincə, bunu əvəzində toplumda və dövlətdə qəti şəkildə ağlın hakimiyyəti üstün olmalıdır.[636] Bu o deməkdir ki, milli və dini dəyərlər yaşatmaq üçün həmişə müasir ruhlu olmaq hər hansı millətin başlıca qayəsi olmalıdır. Yalnız müasir ruhlu milli və dini dəyərlərə sahib millət ayaq üstə durar və dünya durduqca var olar.

Bizcə, Azərbaycan Türk bayrağında öz əksini tapmış göy rəngin türklüyü ifadə etməsinin də böyük mənəvi-ideoloji anlamı var. Bu boya ilk növbədə, qədim türklərdə mövcud olmuş dini inanc – Tanrıçılıq dini ilə bağlıdır. Qədim türklər Tanrıya "Göy Tanrı" deyə müraciət edirdilər. Türklərdə "göy" səmanın rəngini bildirdiyi üçün müqəddəs sayılırdı. Buna görə də, göy boya müqəddəs göyün olduğu kimi, həm də Tanrının simvolu idi. Bir sözlə, mavi rəng əski türk inancları ilə bağlı olaraq türklüyün rəmzi, simvolu kimi Azərbaycan bayrağına daxil edilmiş, XX əsrin əvvəllərində milli tərəqqi və milli istiqlalın siyasi doktrinası olan "türkləşmək, müasirləşmək, islamlaşmaq" ideoloji modelinin bir istiqamətini simvollaşdırmışdır. Bu baxımdan türkçülüyün simvolu olan göy boya, eyni zamanda tanrıçılığın rəmzidir. Göy boya türkçülüyü əks etdirdiyi qədər də, tanrıçılığı – təkallahlılığı da ifadə edir. Bu anlamda türkçülük tanrıçılıq, yəni tək olan Allaha inam deməkdir. Deməli, islamda yaşıl boya, tanrıçılıqda isə göy boya tək olan Allahı əks etdirir və hər ikisində dini-fəlsəfi məna vardır. Bu baxımdan türklərin tanrıçılıqdan sonra islama tapınmalarını başa düşmək çətin deyildir.

Milli bayrağımızdakı boyaların mənəvi-ideoloji mənası ilə bağlı Əhməd Cavad, Cəfər Cabbarlı və digər şair-

[636] Bayar C. Atatürkün metodolojisi və günümüz.İstanbul, Kervan, 1978, s.69

mütəfəkkirlərmiz də dəyərli fikirlər irəli sürmüşdü. Bu baxımdan Əhməd Cavadın yazdığı "Azərbaycan bayrağına" şeiri dövrünün ən gözəl incilərindən biri hesab oluna bilər. O, bu şeirində Türküstandan, Turandan, üç boyalı türk bayrağından, türklərin soykökündən, türk ellərinin birliyindən bəhs edir:

*Gedərkən Turana çıxdın qarşıma,*
*Kölgən Dövlət quşu, qondu başıma!*
*İzn ver gözümdə coşan yaşıma –*
*Dinlətsin dərdini aha, bayrağım!*
*Qayi xan soyundan aldığın rəngi,*
*Qocalmış Elxanla müsəlman bəgi.*
*Elxanın övladı, dinin dirəgi,*
*Gətirdin könlümə səfa, bayrağım!*[637]

Cavadın Məhəmməd Əmin Rəsulzadəyə həsr etdiyi "Elin bayrağı"ı şeiri də maraq doğurur:

*Sən çıx bu minbərdən doğrunu söylə,*
*Yalvarma kimsəyə Tanrıdan başqa!*
*Küskünsə taleyin, sən ona küsmə,*
*Dinlə qədir səsin, çalış-çabala!*

*Bu bəxtsiz millətin daddığı acı,*
*Çalış əlac olsun, diriltsin onu!*
*Düşmən başındakı o zəfər tacı*
*Görsün ki, ər qəmin deyildir sonu!*[638]

Başqa tanınmış Azərbaycan Türk ziyalısı Cəfər Cabbarlı 1919-cu ildə "Azərbaycan" qəzetində nəşr olunan "Azərbaycan bayrağına" şeirində isə üç boyalı-üç mənalı Azərbaycan Türk bayrağının fəlsəfi-ideoloji izahını belə verir:

*Kölgəsində ay əyilib bir gözəli qucmada.*
*Qucaşaraq sevdiyilə yüksəklərə uçmada,*
*Şu görünüş bir ananın şəfqətinə oxşayor.*
*Düşündükcə zövqlərimi, vicdanımı oxşayor.*
*Bu ay, yıldız, boyaların qurultayı nə deмək?*

---

[637] Cavad Əhməd. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2005, s.127
[638] Cavad Əhməd. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2005, s.129

*Bizcə böylə söyləmək!*
*Bu göy boya Göy Moğoldan qalmış bir türk nişanı,*
*Bir Türk oğlu olmalı!*
*Yaşıl boya islamlığın sarsılmyan imanı,*
*Ürəklərə dolmalı!*
*Şu al boya azadlığın, təcəddüdün fərmanı,*
*Mədəniyyət bulmalı.*
*Səkkiz uclu şu yulduz da səkkiz hərli OD YURDU!*
*Əsarətin gecəsindən fürsət bulmuş quş kibi,*
*Səhərlərə uçmuşdur.*
*Şu hilal da türk bilgisi, düzgün sevgi nişanı,*
*Yurdumuzu qucmuşdur!*
*Allah, əməllərim edib şu bayrağı intiqal,*
*Birər-birər doğru olmuş, bir ad almış: İSTİQLAL!*
*Yürəyində bir dilək var, o da doğru kəsilsin,*
*O gün olsun bir göy bayraq Turan üstə açılsın.* [639]

Bizə elə gəlir ki, Azərbaycan təhsilində və tədrisində yuxarıda qeyd etdiyimiz bilgilər öz doğru əksini taparsa, Azərbaycan Türk insanı milli bayraq məfkurəsini daha yaxından mənimsəyər və ona mənən də sahib çıxar. Bunun üçün, bu gün yeni nəslə Hüseynzadələrin, Rəsulzadələrin, Cavadların, Cabbarlıların və başqalarının milli ruhlu ideyaları aşılanmalı və onlarda milli bayraq sevgisi yaradılmalıdır.

Beləliklə, Cümhuriyyət dövründə də "Azərbaycan" milli ideyasının varlığı üçün irançılığa qarşı Turançılıq fikri daima təbliğ olunmuşdur. Azərbaycan və Turan ideyalarının üst-üstə düşməsinə əsas səbəblərdən biri kimi də, Turanın mərkəzinin Azərbaycan olması ideyası irəli sürülmüşdür. Hətta, iranlılarla turanlılar arasında ilk müharibənin də Azərbaycanda olması geniş yayılmışdır. Türklər/turanlılar da iranlılardan/arilərdən çox öncə Turanın mərkəzi olan Azərbaycanın sakini olmuşlar. Bu kimi fikirlər o zaman Quzey Azərbaycanla yanaşı Qacarların tərkib hissəsi olan Azərbaycan əyalətində də müdafiə olunurdu.

---

[639] Cabbarlı Cəfər. Əsərləri. Dörd cilddə. I cild. Bakı, Şərq-Qərb, 2005, s.63

Rəsulzadə, İsmayıl Əfşar, A.Şaiq, C.Cabbarlı, Ə.Cavad kmi quzeyli-güneyli Azərbaycan türk aydınları Azərbaycanın əski Turanın mərkəzi və ən qədim sakinləri olmasını ortaya qoymaq üçün də əcnəbi alimlərdən örnəklər vermişlər.[640]

"Arazdan Turana" şeirində turançılıq məfkurəsini ifadə edən Abdulla Şaiqin fikrincə, Turan ellərinin arasına xainlər soxulmuş və onlar bu eli parçalamaq istəyirmişlər. Yüz milyonluq türk övladları xainlərə qarşı birləşməli və bütün Turanı xainlərdən azad etməlidirlər.[641] O, "Marş" şeirində də yazırdı ki, türklər Turan yolunda birləşməli, ünlə, zəfərlə, şanla tarixini doldurmalı və düşmənlərinə yerini göstərməlidirlər: "Dalğalanır üstümdə şanlı Turan bayrağı, Alovlanır qəlbimdə " Ərgənəkon" ocağı. Haydı, yola çıxalım, haqsızlığı yıxalım, Turanda gün doğunca zülmətlə çarpışalım!".[642] Cümhuriyət dövründə Əhməd Cavad ümumi türkçülüklə, Türk birliyi (turançılıqla) ilə yanaşı, konkret Azərbaycan türkçlüyünü də təbliğ etmişdir. O, "Azərbaycan bayrağına» şeirində Türküstandan, Turandan, üç boyalı türk bayrağından, türklərin soykökündən, türk ellərinin birliyindən söz açmışdır.[643] Cəfər Cabbarlı da "Azərbaycan bayrağına" adlı şeirində üç boyalı-üç mənalı Azərbaycan Türk bayrağının fəlsəfi-ideoloji izahını vermişdir".[644] Eyni zamanda Cabbarlı Azərbaycan türkçülüyünün Turanın bir hissəsi olmasını da heç vaxt yaddan çıxarmamışdır.[645]

Hər halda "Azərbaycan" ismi zahirən türklərin Turan idealını özündə əks etdirməsə də, ancaq tarixi-coğrafi və etnik, adət-ənənə anlamında onun ayrılmaz bir hissəsi, özü də ən vacib və mərkəzi bir hissəsi olmaqla bu haqqı qazanmışdır. Başqa sözlə, Türk Cümhuriyyəti qurulana qədər artıq "Azərbaycan"ın Farslıq və İranla ya da başqa yad bir millət və əraziylə deyil, məhz doğma Türklük və Turanla bağlılığının öz təsbitini tapmasının nəticəsi idi

---

[640] Rəsulzadə M.Ə. Əsərləri. V cild (1918-1920, aprel). Bakı, "Təhsil", 2014, s.239

[641] Şaiq Abdulla. Seçilmiş əsərləri. Üç cilddə. II cild. Bakı, 2005, s.61

[642] Yenə orada, s.52

[643] Cavad Əhməd. Seçilmiş əsərləri. Bakı, «Şərq-Qərb», 2005, s.127

[644] Cabbarlı Cəfər. Əsərləri. Dörd cilddə. I cild. Bakı, Şərq-Qərb, 2005, s.63

[645] Yenə orada, s.63-64

ki, qəti bir qərar verilmişdir. Bizcə, Rəsulzadə "Azərbaycan" adında israr edərkən də silahdaşlarına onun qövmiyyət, adət-ənənələr, həyat tərzi, dövlətçilik məsələlərindən tutmuş tarixi-coğrafi anlamınadək ilk növbədə, Türklük və Turanla bağlı olmasını inandırmağı bacarmışdır. Milli ideoloq inanırdı ki, özünü turanlı kimliyində görənlər Azərbaycan ideyasına da sahib çıxacaqlar. Bu anlamda Rəsulzadənin düşüncəsində Turan və Azərbaycan ideyaları vahidlik, eynilik təşkil edirdi. Onun qurucusu olduğu "Müsavat"ın proqramı da ideal olaraq böyük bir Turan ideyasına hesasablanmışdır. Rəsulzadə Turanın müstəqil Türk müttəfiq hökumətlərinin birliyi şəkilində meydana gələcəyinə inanırdı.[646] Bu anlamda Cümhuriyyətin qurulmasında Nuri Paşa başda olmaqla, Osmanlı türklərinin yardımını "Turan toxumunun əkilməsi" [647] kimi dəyərləndirən Rəsulzadəyə görə, Turan idealanın gerçəklşəməsi yolunda artıq ilk addımlar atılmışdır. Rəsulzadə yazırdı: "Turan bu gün maddətən qazanılmamışsa da, mənən hasil olmuş; Turan fikri doğmuşdur. Bir kərə doğan fikir bir daha ölməz, bir daha sönməz!". [648] Azərbaycan fikriylə Turan fikrini biri-birinin tamamlayıcısı kimi görən Rəsulzadə "biz məfkurəmizdə böyük Türk millətinin bir gün gəlib də bir Türk federasyonu qurmaqla bütün görmək istəriz",[649] - deyirdi.

Beləliklə, Azərbaycanın, Azərbaycan türklərinin ana ülkülərindən birinin də Turançılıq, Turan vətəninin olmasına qətiyyən şübhə etmirik. Bu anlamda Rəsulzadənin liderliyi ilə 1918-ci ilin mayın 28-də qurulan Azərbaycan Cümhuriyyətinin varlığının Türklük və Turançılıq məfkurəsiylə birbaşa bağlılığı vardır. Şübhəsiz, yeni qurulan Türk Cümhuriyyətinə məhz "Azərbaycan" adı verilərkən də əsas hədəflərdən biri olaraq Türklük və Turançılıq məfkurəsindən çıxış edilməsidir. Çünki ən əski

[646] Rəsulzadə M.Ə. Əsərləri. V cild (1918-1920, aprel). Bakı, "Təhsil", 2014, s.45
[647] Yenə orada, s.62
[648] Yenə orada, s.63
[649] Yenə orada, s.106

dönəmlərdən "Azərbaycan" istər tarixi-coğrafi anlamda, istərsə də etnik, adət-ənənə, əxlaqi dəyərlər baxımdan Turan vətəninin ya da Türk (Turanlı) kimliyinin tərkib hissəsi olmuş, onun başlıca qalalarından biri olmuşdur. Hesab edirik ki, Rəsulzadə ilə onun fikirdaşları, silahdaşları da Türkçülük və Turançılıq məfkurəsini yetərincə dərk etdikləri üçün yeni qurulan Türk Cümhuriyyətinə "Azərbaycan" ismini vermək qərarına gəlmişlər.

Deməli, yeni Türk dövlətinə "Azərbaycan Cümhuriyyəti" adını verən Rəzulzadənin nə keçmişə yönəlik türksüz "Azərbaycan tarixi" yaratmaq, nə də gələcəyə yönəlik türksüz "Azərbaycan dili" anlayışnı ortaya atmaq fikri olmamışdır. Rəsulzadə açıq şəkildə yazırdı ki, Azərbaycan Cümhuriyyətini, bir sözlə "Azərbaycan" anlayışını Türklükdən, Türk-Turan mədəniyyətindən, Türk dövlətçiliyindən, Türk-Turan tarixindən ayrıca hesab etmək mümkün deyildir. Rəsulzadə yazırdı: "Azərbaycanlılar milliyyət etibarilə türk, din etibarilə islam, mədəniyyəti-əsasiyyə etibarilə şərqlidirlər".[650] Hər halda açıq şəkildə hiss olunur ki, Cümhuriyyət ideoloqu milli mənsubiyyət, milli dili, milli mədəniyyəti, dövlətçiliyi, dövlət ənənələrini həm "Azərbaycan"-azərbaycançılıq, həm də türkçülük-turançılıq ideyaları əsasında təbliğ edibl. Fikrimizcə, bundan çıxış edərək Rəsulzadə yazırdı ki, Rusiyada yaşayan Qafqaz müsəlmanlarını "türk", ölkələrini "Azərbaycan" kimi qəbul etdirmək qazanılmış bir davadır.[651]

Deməli, "Azərbaycan", "azərbaycanlılar" anlayışları yalnız birinci Dünya müharibəsi dövründə, xüsusilə 1918-ci ildə Azərbaycan Cümhuriyyətinin yaranması ilə "tarixi-coğrafi" yaxud da coğrafi məkan, vilayət, əyalət anlamlarından kənara çıxaraq siyasi-ideoloji mənada milli ideologiya səviyyəsinə qədər yüksəlmişdir. "Azərbaycan" anlayışının milli ideyalardan birinə çevrilməsi nəticəsində də "Azərbaycan milləti", "Azərbaycan Türk milləti", "azərbaycanlı", "Azərbaycan xalqı", "Azərbaycan

[650] Rəsulzadə M.Ə. Əsərləri (Mühacirət dövrü: Türkiyə, 1922-1929). I cild, Bakı, "OL" npkt, 2016, s.40
[651] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, s.95

Türk dili", "Azərbaycan Türk dövləti" kimi istilahlar ölkə daxilində və onun xaricində status qazanmağa başlamışdır. Ancaq burada "Azərbaycan milləti", "azərbaycanlı", "Azərbaycan dili" kimi anlayışlar Türk milləti, Türk, Turan vətəni, Türk dili eyniliyindən başqa heç bir anlam kəsb etməmişdir. Çünki Rəsuzladənin təbrincə desək, "Azərbaycan" coğrafiyadan çox milli kimliyi ifadə edir ki, bu ulusun da bir adı var: Azərbaycan türkü!!! Belə olduğu təqdirdə Türklüyün özü olan "Azərbaycan" anlayışından çoxmillətli, çoxmədəniyyətli, çoxdilli qavramlar ortaya qoymaq kökündən yanlışdır. Quzeyli-güneyli Azərbaycanda bir millət, bir mədəniyyət, bir dil, bir tarix var: Türk nüvəli Azərbaycan milləti!

Ona görə də, "Azərbaycan"nın etnik kimliyi ifadə etməməsiylə bağlı bir çox iradlar olsa da, bütövlükdə onun Türklüyə, Turanlılığa, Oğuzluğa zidd olmadığı göz önündədir. Bu amildən çıxış edərək "Azərbaycan" kəliməsini dövlət adı kimi təsbitlənməsinə çalışanlar, eyni zamanda türk olmayan etnik azlıqların da "Azərbaycan"a müsbət yanaşacaqlarnı yaxşı bilirdilər və haqlı idilər. Beləliklə, "Azərbaycan" dövlət adına çevrilməklə bir tərəfdən oğuzluğunu-türklüyünü yenidən ortaya qoyur, digər tərəfdən tarixdəki bütövləşdirici, birləşdirici funksiyasını da davam etdirirdi. Hər halda "Azərbaycan" adlı Oğuz-Türk dövləti dünyanın yeni tələblərinə əsasən yaradılmışdır ki, burada qurucu, əsas nüvə Azərbaycan türkləri olsa da, eyni zamanda milli demokratik prinsiplərə uyğun olaraq etnik azlıqların maraqları da nəzərə alınırdı.

Yeni yaranmış dövlətin ideoloqlarının bir tərəfdən "Azərbaycan Cümhuriyyəti" türk tarixi, türk ədəbiyyatı, türk mədəniyyəti anlamında onun bir parçası olması kimi varislik prinsiplərini gözləməsi, digər tərəfdən vətən və coğrafiya anlamındakı "Azərbaycan"dan uzaqlaşaraq onu millət və dövlət olaraq ifadə etmələri təsadüfi ola bilməzdi. Hər halda 1918-ci ilə qədər daha çox coğrafi və vətən anlamında qəbul edilən, ancaq Rəsulzadənin sayəsində milli mənsubiyyətinə dönən "Azərbaycan" kəliməsinin "Türk-Oğuz" etnik kimliklə eyniləşdirilməsi,

eyni zamanda dövlət kimi ifadəsi keçmişlə bağlılığı ortaya qoymuşdur. Bütün hallarda "Azərbaycan" kəliməsinin dövlət adı kimi seçilməsi, onun Türk milli kimliyi üzərində ifadəsi təsadüfdən çox, məntiqli bir "yol xəritəsi"dir. Çünki "Azərbaycan" sözü yunan, fars, suriyani mənbələrə görə zahirən coğrafi və ölkə-vətən anlamında Türklüyə yad kimi görünsə belə (halbuki "Azərbaycan" kəliməsi yerli mənbələrdə birmənalı olaraq türklük, oğuzluq, xəzərliklə ifadə olunur), onun xalqının mahiyyət etibarilə Türklüklə bağlı olması Azərbaycan Cümhuriyyəti meydana çıxana qədər əsasən heç kəsdə şübhə doğurmamışdır. Ancaq Azərbaycan Cümhuriyyətinin meydana çıxmasından sonra yeni dövlətin yaşayanlarının türksoylu, irandilli, qafqazdilli ya da digər xalqlardan biriylə bağlı olması barədə fikirlər ortaya çıxmışdır. Bir qədər də dəqiqləşdirsək deyə bilərik ki, əvvəllər tək-tük hallarda Azərbaycan türk xalqının kimliyilə bağlı səsləndirilən fikirlər Cümhuriyyətin quruluşundan sonra özünün kuluminasiya nöqtəsinə çatmış, bu günə qədər də həmin məsələ ətrafında müzakirələr davam etməkdədir.

Beləliklə, milli-məhəlli türklük ideyasının ən bariz örnəklərindən biri Azərbaycan türkçülüyü, azərbaycançılıq ideyasıdır ki, bunu bəlli bir dövrə qədər (xüsusilə də 1-ci Dünya müharibəsi dövrünə qədər) bir çoxları Qafqaz türklüyü kimi başa düşmüşlər. Təsadüfi deyil ki, Ə.Hüseynzadənin də milli konsepsiyasında məhz dörd ideyadan biri Azərbaycan türklüyü deyil, Qafqaz türklüyü idi: 1) Qafqazlıyız, 2) İslamız, 3) Türküz, 4) İnsanız.[652] Sadəcə, Hüseynzadənin milli fəlsəfəsində hər şey ümumidən xüsusiyə doğru hərəkət etdiyi üçün, türklük, islamlıq, insanlıq kimi Qafqazlılıq da bundan xali olmamışdır. Yəni Hüseynzadənin burada nəzərdə tutduğu "Qafqazlıyız" anlayışı yalnız Azərbaycan türklərini deyil, bütün Qafqaz türklərini öz içinə alırdı.

M.Ə.Rəsulzadə isə Ə.Hüseynzadədən fərqli olaraq, bir qədər də konkretliyə vararaq Qafqaz türklüyünü deyil, ümumtürklük

---

[652] Hüseynzadə Ə. Türklər kimdir və kimlərdən ibarətdir? Bakı, Mütərcim, 1997,s.186

içində Azərbaycan türklüyünü müdafiə etmişdir. Buradakı Azərbaycan türklüyü isə yalnız çar Rusiyasının işğalı altında olan Quzey Azərbaycan türklüyü ilə məhdudlaşmır və Qacarlar dövlətinin tərkibində olan Azərbaycan türklüyünü də özündə birləşdirirdi. Məhz Rəsulzadənin düşüncələrinin məhsulu olaraq da 1-ci Dünya müharibəsi dövründə Qafqaz türklüyünün yerini Azərbaycan türklüyü tutmağa başlayır. Bununla da bir tərəfdən milli-məhəlli türklüyün inkişafının vacibliyi, digər tərəfdən isə onun ən bariz örnəyi kimi Azərbaycan türklüyünün milli fəlsəfi dərki ortaya çıxırdı. Bizcə, buradakı milli-məhəlli türklüyün adının Azərbaycan türklüyü kimi ifadəsi, keçmişdəki (Kuti, Subar, Turukku, Manna, Midiya, Səlcuq, Ağqoyunlu, Qaraqoyunlu, Səfəvilər, Əfşarlar, Qacarlar və b.) eyniliyin yenidən canlanmasından başqa bir şey deyildir. Bunu dəfələrlə ifadə edən Rəsulzadənin fəlsəfəsində də dörd ideya bu cür şəkillənmişdir: 1) Türklük, 2) İnsanlıq, 3) İslamlıq, 4) Azərbaycanlıq. Bizcə, buradakı türklük əgər milli-məhəlli xarakter daşıyarsa Azərbaycan türklüyü, ancaq ümumi xarakter daşıyarsa Türk birliyi kimi ifadə olunmalıdır. Belə olduğu təqdirdə, milli konsepsiyamızın əsas mahiyyətini aşağıdakı dördlük təşkil etməlidir: 1) Türklük (Azərbaycan türklüyü), 2) Turançılıq-Türkçülük (Türk fəlsəfəsi), 3) İslamlıq, 4) İnsanlıq.

Beləliklə, biz türklüyü iki anlamda dərk etməliyik: **Birincisi, Türklük** milli-məhəlli xarakter daşıyır və Azərbaycan türklüyünü özündə ifadə edir. Bu halda da türklük və azərbaycanlılıq bir-birinin eyniliyidir. 1918-ci ildə qurulan Türk Cümhuriyyətinə "Azərbaycan" adı verilərkən də məhz bu eynilikdən çıxış edilmişdir. Doğrudur, o zaman "Azərbaycan" sözü hərfi mənada daha çox "odlar yurdu" kimi başa düşülmüşdür. Ancaq çox maraqlıdır ki, bu zaman türklüklə üst-üst düşən əsas məsələ kimi "tarixi-çoğrafi Azərbaycan"da əsasən Oğuz, qismən də Qıpçaq Türk boylarının vahid millət kimi eyni dilə, mədəniyyətə, ədəbiyyata, adət-ənənələrə, tarixə, fəlsəfəyə sahib olması mühüm rol oynamışdır. Bu baxımdan "Azərbaycan" anlayışının farsca "odlar yurdu" kimi uydurulmuş izahı belə, heç bir məna kəsb etməmişdir və bu gün də etmir. Çünki "Azərbaycan Cümhuriyyəti"

adıyla yanaşı ortaya çıxan Oğuzustan, Xəzəristan adları da əslində bir-birinin eynidir. Bu zaman Azərbaycan" sözü hərfi mənada da "odlar yurdu" deyil, elə Oğuzlar ölkəsi, Xəzərlər ölkəsi, Türklər ölkəsi deməkdir.

**İkincisi, Türklük** turançılıq anlamında ümum türklüyü (Türk fəlsəfəsini, Türk dünyagörüşünü) ifadə edir və Türk xalqlarının ortaq tarixə, fəlsəfəyə, ədəbiyyata, dünyagörüşə sahiblənməsinə əsaslanır. Bu halda isə türklük Azərbaycan türklüyü (azərbaycanlılıq) ilə yanaşı digər milli-məhəlli Türk ideyalarını (Türkiyə türklüyü, Qazaxıstan türklüyü, Tatarıstan türklüyü, Uyğurustan türklüyü, Krım türklüyü, Özbəkistan türklüyü, Başqırdıstan türklüyü və b.) özündə ifadə edir. Bu prizmadan yanaşsaq, Türk dünyagörüşünün, Türk fəlsəfəsinin son əsrdə yalnız Türkiyə türklərinin boyununa biçilməsi, buna uyğun olaraq da Türk mədəniyyəti, Türk dili, Türk fəlsəfəsi, Türk tarixi dedikdə, ancaq Türkiyə türklüyünü başa düşmək yanlışdır. Türkiyə türklüyü də milli-məhəlli türklük ideyalarından biri olub, ümum türklüyün sadəcə bir parçasıdır. Yəni Türkiyə türklüyü digər milli-məhəlli türklük ideyalarından (Azərbaycan türklüyü, Qırğızıstan türklüyü, Uyğurustan türklüyü, Tatarıstan türklüyü, Başqırdıstan türklüyü, Krım türklüyü və b.) biri olub, sadəcə son əsrdə, xüsusilə M.K.Atatürkün sayəsində öz müstəqilliyini qoruyub saxlaması və türklüyün ümid qalası kimi mövcudluğuna görə ön plana çıxmışdır.

Beləliklə, burada ifadə etmək istədiyimiz əsas məsələ odur ki, milli konsepsiyamızın təməl ideyalarını doğru-dürüst mənimsəmədikcə, daima problemlər içində yaşamalı olacağıq. Başqa sözlə, çar Rusiyası dövründə Azərbaycan türklərinin nədən "tatar", Sovet Rusiyası dövründə "azərbaycanlı", Pəhləvilərlə İran-Molla rejimlərində "iranlı" və buna uyğun olaraq dilinin də "tatar dili", "Azərbaycan dili", "azəri dili" adlandırılmasının əsil mahiyyətini ortaya qoymadan milli konsepsiyadan, milli fəlsəfədən, milli metodologiyadan danışmaq mənasızdır. Əslində fasiləsiz olaraq milli kimliyinin və milli dilinin "tatar", "azərbaycanlı", "iranlı", "azəri", "persiyalı" olmadığını müdafiə etməklə məşğul olmağın özü belə həmin milləti ölgünləşdirir, qut(ruh)suzlaşdırır, özgələşdirir.

Bu baxımdan bugünkü Azərbaycan Respublikasında dilimizin adının Azərbaycan dili deyil, Türk dili adlandırılması, siyasi anlamda

azərbaycanlı olmaqla yanaşı Türk kimliyimizin ifadə edilməsi tələblərinin irəli sürülməsinin milliyyətçilik, ya da millətçiliklə aşağı-yuxarı heç bir əlaqəsi yoxdur. Bu, ilk növbədə Türk dünyagörüşünə, Türk tarixinə, Türk fəlsəfəsinə, Türk ədəbiyyatına, Türk dövlətçiliyinə bağlılıqdan irəli gələn zərurətdir. Çünki dövlətimizin adı ilə (Azərbaycan) dilimizi, ədəbiyyatımızı, tariximizi, dövlətçiliyimizi məhdudlaşdırmaqla əslində özümüz öz əlimizlə düşmənlərimizə əsaslı bəhanələr vermiş oluruq. Hər halda dövlətin adı ilə bağlı olan anlayışlarla bir milləti, onun dilini, ədəbiyyatını ancaq müəyyən bir çərçivədə ifadə etmək mümkündürsə, ancaq hər hansı bir ideya, dünyagörüş əsasında isə onun sərhədləri daha da genişlənir. Bizcə, bu anlamda "Azərbaycan" ideyası daha çox tarixi-coğrafi Azərbaycanı, həmin tarixi-coğrafi Azərbaycanda yaşayan türk, qeyri-türk bütün etnosları vahid mədəniyyət, dövlətçilik çatısı altında bütünləşdirdiyi halda, ancaq onu Türk dünyagörüşündən, Türk dövlətçilik ənənələrindən uzaq tutmaq əsas nüvədən məhrum etmək deməkdir.

Türk dünyagörüşünə əsaslanmayan, yəni milli nüvəsi Türklükdən uzaq tutulan "Azərbaycan" ideyası isə o deməkdir ki, onun ən yaxşı halda varlığı təqribən 100 il civarındadır. Onsuz da, bunu anti Azərbaycan, anti Türk düşmənləri hər fürsətdə dilə gətirirlər, yazırlar. Belə olduğu təqdirdə, dilimizin Türk dili, ədəbiyyatımızın Türk ədəbiyyatı, fəlsəfi fikrimizin Türk fəlsəfi fikir tarixi adlandırılmasının qəti əleyhinə olub yeri gəldi gəlmədi, anlamı oldu, ya da olmadı hər şeyi yalnız "Azərbaycan" anlayışı çəçivəsində görmək doğru deyildir.

Bir şey unutmaq olmaz ki, 100 il öncə "Azərbaycan" ideyasını ortaya atıb onu bir Türk dövlətinin rəsmi adı halına gətirənlər üçün başlıca qayə Azərbaycan türklərini, o cümlədən də digər etnosları vahid bir çatı (mədəni, dil, adət-ənənə, iqtisadi, tarixi və s.) altında tutmaq olmuşdur. Ancaq bütün hallarda ilk dəfə siyasi məfkurə kimi ortaya atılan "Azərbaycan" ideyasının da əsas canı, qanı, ruhu bir sözlə, hər şeyi Türk dünyagörüşü, Türklük/Turançılıq fəlsəfəsi idi. Bu qətiyyən dəyişə bilməz, dəyişməməlidir də.

Hazırda əsasən, quzeyli-güneyli Azərbaycan Türk aydınları olaraq əsil həqiqətləri ortaya qoymaq, daha sonra da doğru olanları gerçək-

ləşdimək yerinə milli iradəsizliyimizdən, yarımçıq milli təfəkkürümüzdən dolayı ya müdafiə olunmaqla, ya da susmaqla kifayətlənirik. Halbuki milli konsepsiyamızın çox vacib olan ilk iki ideyasını, yəni türklüyümüzü və azərbaycanlığımızı heç olmasa müəyyən bir dərəcədə anlamış olsaq, o zaman daima müdafiə olunmağın millətin böyüməsi və inkişafı yolunda ciddi əngəl olduğunu daha dərindən dərk etmiş olarıq. Vaxtilə Rəsulzadə "Münəvvər mühacirin borcu" məqaləsində milli aydının, milli ziyalının tutacağı yolu dəqiqi ifadə etmişdi: "Münəvvər (aydın, işıqlı, ziyalı) mühacirlərdən və həm də onların milli vəzifəsindən bəhs etmək istəyirik. Məlum olduğu üzrə, müxtəlif dövrlərdə və müxtəlif səbəblər və amillər nəticəsində vətəni tərk edib mühacirliyi seçmiş bir çox münəvvərlərimiz və özəlliklə münəvvər gənclərimiz vardır. Bunlar Şərqin və Qərbin müxtəlif mərkəzlərinə yayılmış, qismən o və ya bu ali məktəbdə oxuyaraq təhsillərini bitirmiş, qismən də həyatlarını qazanmaq yolunu təmin edərək bir ixtisas əldə etmək üzrə təhsilə başlamışlar. Mühacirətdəki münəvvərlərimizin bir sahədə ixtisas alaraq sözün əsri mənası ilə elm və texnika adamı olmalarını görmək əziz arzularımızdan biridir. Fəqət vətəni istila altında inləyən bir mühacir münəvvərin tək mütəxəssis bir elm-texnika adamı olmaqdan başqa, bir də sırf mühacir münəvvərə məxsus bir borcu vardır ki, burada onu xatırlatmq istəyirik: Vətən borcu! Azərbaycan istiqlal qayəsini mənimsəmiş, vətənin gələcək istiqlalına iman etmiş və öz xüsusi həyat və səadətini millət və məmləkətin həyat və səadəti şərtilə təsəvvür edilə bilmək idealizminə vermiş bir gənc azərbaycanlı tək mühəndis, tək hüquqçu, tək memar, tək iqtisadçı, tarixçi və sairə olmaqla qala bilməz. O eyni zamanda vətənçi bir mühəndis, milliyyətçi bir hüquqçu, istiqlalçı bir iqtisadçı, tarixçi və sairə olmaq vəzifəsilə borcludur."[653] Bu anlamda bizcə də, milli konsepsiyanın fəlsəfi dərki dedikdə də, ilk növbədə türklüyün və azərbaycanlılığın bütünlüyü məsələsinin hansı şəkildə təqdim olunması başa düşülməlidir. Burada da önəmli olan dövrün şərtlərinə uyğun olaraq milli konsepsiya ilə bağlı olan ideyaları zor-xoş marginallaşdırmaq deyil, bəlkə də əksinə milli nüvə ətrafında daha da zənginləşdirməkdir.

---

[653] Rəsulzadə M.Ə. Milli birlik. Bakı, «Çıraq» nəşriyyatı, 2009, s.97-98

*Biz məfkurəmizdə böyük Türk millətinin*
*bir gün gəlib də, bir Türk federasyonu qurmaqla*
*bütün görmək istəriz!*
**M.Ə.Rəsulzadə**

## 4.3. M. Ə. Rəsulzadənin yaradıcılığında türkçülük/turançılıq, məfkurəsinə yeni baxış

**“Ümmətçilik”dən türkçülüyə, sosial-demokratiyadan millətçiliyə doğru.** Rəsulzadənin sosial-demokratiya və islamçılqıdan daha çox yə türkçülük cərəyanına üstünlük verməsi, daha sonra da azərbaycançılıq ideyasının, bütövlükdə milli məfkurənin formalaşmağa başlaması 1911-1913-cü ildə İstanbuldakı (Osmanlı dövləti) elmi-fəlsəfi, siaysi-ideoloji fəaliyyəti ilə başlamışdı. Şamil Qurbanov bununla bağlı yazırdı: ““Təlatümə düşmüş” gəminin sükanını saxlamaq yolunu və “sahil nicatın” hansı tərəfdə olduğunu Rəsulzadə 1911-ci ildən sonra özü üçün qəti şəkildə aydınlaşdırdı. Həmin il o, İrandan (Qacarlardan – F.Ə.) Türkiyəyə gəldi və burada məşhur türkçülərin əhatəsinə düşdü. Milli türk şairi azadlıq nəğməkarı Əmin Yurdaqulun başçılıq etdiyi “Türk yurdu” cəmiyyətinə daxil oldu”.[654]

Doğrudur ki, onun İstanbula gəlməsi ilə həyatında əsaslı dəyişiklik baş vermiş, artıq çox keçmədən sosial-demokrat, demokrat, hətta müəyyən qədər “ümmətçi” Rəsulzadəni türkçü, milliyyətçi məfkurəli Rəsulzadə kimi görməyə başlayırıq. Ş.Qurbanov yazırdı: ""Türk yurdu" jurnalında Rəsulzadənin bir neçə əsəri və tərcüməsi də dərc edilmişdir. Onlardan ən məşhuru Cəmaləddin Əfqaninin “Vəhdəti cinsiyyə fəlsəfəsi və dil birliyinin həqiqi mahiyyəti” adlanan əsərinin tərcüməsi və “İran türkləri” adlı məşhur məqaləsidir. Ancaq bundan sonra Rəsulzadənin fikirləri formalaşır, sanki o axtardığı idealını tapır".[655]

---

[654] Qurbanov Ş. Cəmaləddin Əfqani və türk dünyası. Bakı: 1996, s.110
[655] Yenə orada, s.147

Mirzə Bala Məmmədzadə də yazırdı ki, Rəsulzadənin ümmətçilikdən millətçiliyə, islamçılıqdan türkçülüyə keçməsində C.Əfqaninin böyük rolu olub: ""Ümmət" dövrünü yaşayan müsəlman Şərqində milliyyət şüurunun oyanmasında çox böyük rolu olan məşhur islam mütəfəkkiri Cəmaləddin Əfqaninin "milliyyət xaricində səadət yoxdur" - deyən "Vəhdəti cinsiyə fəlsəfəsi"ni (yəni "Milli birlik fəlsəfəsi") farscadan türkcəyə çevrib "Türk yurdu"nda dərc etməsi də bu zamana rast gəlir. Sonraları Bakıdakı nəşriyyatında milliyyət məsələsini işlədiyi zaman Cəmaləddin Əfqanidən çox faydalandığı görüləcəkdir".[656]

Beləliklə, 1910-cu illərdə xüsusilə də, tanınmış İslam-Türk mütəfəkkiri Cəmaləddin Əfqanin yolunu davam etdirən Rəsulzadə "İslam millətçiliyi"nin yerinə "Türk millətçiliyi"ni irəli sürmüşdür. Məhəmmədzadə yazırdı: "Şeyx Cəmaləddin Əfqani kimi Məhəmməd Əmin bəy də islamiyyətin və müsəlmanlığın milliyyət deyil, "ümmətçilik" ifadə etdiyini, milliyyətin isə din üzərində deyil, dil və mədəniyyət birliyi üzərində qurulduğunu və bu milli diriliyin təməlini təşkil edən milli mədəniyyətin ünsürlərini izah edərək milli hərəkatın ictimai fəlsəfəsini qurmuşdur". [657]

Doörudur ki, Bakıya döndükdən sonra Azərbaycan türklərinin milli özünüdərki uğrunda mübarizə apan Rəsulzadə islamlıqla türklüyü bir-birindən fərqləndirməyi qarşısına əsas məqsədlərdən biri kimi qoymuşdu. O, yazırdı ki, son əsrlərdə türklər islama o qədər uydular ki, az qala milli kimliklərini də unutdular: "Türklər xasiyyətcə olduqca mütəddəyyin bir millətdirlər. Bu tədəyyünləri sayəsində islamiyyəti qəbul etdikdən sonra o qədər etiqadati-diniyyəyə mərbut olmuşlardır ki, adətən türklüklərini belə itirmişlərdir". [658] Güney Azərbaycan türklərinin bundan daha çox əziyyət çəkdiyini deyən Rəsulzadəyə görə, onlar bir az da "irəli" gedərək "ümmətçilik"dən çox şiə məzhəbçiliyinin, bunun da

[656] Mehmetzade M.B. Mehmet Emin Resulzade. "Azerbaycan" mecmuesi, №12 (36). Ankara, 1955

[657] Məmmədzadə M. B. Milli Azərbaycan hərəkatı. Bakı: Nicat, 1992, s.52

[658] Rəsulzadə M.Ə. Əsərləri (1909-1914). II cild. Bakı: Şirvannəşr, 2001, s.477

nətizəsi olaraq farsçılığın qurbanına çevriliblər. O, yazırdı: "Şiəlik İran türklərini o qədər farslaşdırmışdır ki, indi onlar kəndlərini türkləşmiş fars, yəni iranlı tələqqi edərlər!…".[659]

Rəsulzadə hesab edirdi ki, Azərbaycan türklərinin gələcəyi, ilk növbədə ümmətçilik, ya da məzhəbçiliklə deyil, milli kimliyini dərki – Azərbaycan türklüyü ilə bağlıdır. Bu baxımdan o, bəyan edirdi ki, azərbaycanlılar müsəlman, ya da şiə təəsübkşeçisi olmadan öncə türk oğlu türkdülər, Ona görə də islam dininin, o cümlədən şiəliyin millətlə qarışıq salınmasının əleyhinə çıxış edən Rəsulzadə əsas diqqəti türkçülüyə yönəltmişdi. Hüseyn Baykara da yazırdı ki, 1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi münasibətilə çar tərəfindən elan edilən amnistiya nəticəsində Bakıya dönən Rəsulzadə burada türkçülüyü təbliğ etməyə başlamışdı: “1915-ci ildə “Açıq söz” adlı qəzət çıxarmağa başlayan M.Ə.Rəsulzadə bu qəzet vasitəsilə İstanbuldan gətirdiyi Ziya Gökalpın türkçülük fikirlərini yaymağa başladı”. [660]

Əslində burada Baykaranı ifadə etmək istədiyi odur ki, Rəsulzadə Gökalpdan bu ideyanı daha dərindən mənimsəmişdir. Çünki türkçülüyün beşiklərindən birinin də Azərbaycan xalqı, Azərbaycan türklərinin özünün olması şübhəsizdir. Yuxarıda apardığımız araşdırmalar da göstərir ki, türkçülüyün başlıca qaynağı Azərbaycan türklərinə məxsus milli mənəvi dəyərlərin özü olmuşdur. Bunu, Hüseyn Baykara özü də görərək daha sonra yazmışdır: “Azərbaycana milliyyətçilik fikrini Əhməd Ağaoğlu Fransadan, Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə İstanbuldan gətirdiyi düşüncəsi yanlış və əsassızdır. Şəraitin yetişmədiyi bir zamanda kənardan heç kim, heç bir fikir gətirib toplum həyatına yerləşdirə bilməz”.[661]

Məlum olduğu kimi, çarizmin müstəmləkə zülmünün bir cəhəti də xalqımızın etnik mənşəyini qəsdən dolaşdıraraq milliyyətimizi təhrif etmək olmuşdur. O zaman azərbaycanlıları

---

[659] Yenə orada, s.115

[660] Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992, s.186

[661] Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992, s.76

gah "tatar", gah "persian", gah da "müsəlman" adlandırırdılar. Məqsəd bu millətin özünü tanımasına əngəl olmaq idi. Rəsulzadə artıq öz yazılarında "müsəlman", "tatar" anlayışlarından birdəfəlik uzaq duraraq onların əvəzinə yalnız türk terminini işlədir, xalqın adını özünə qaytarmaq üçün açıq mübariz aparırdı. Bu baxımdan Rus idarəsi tərəfindən müsəlmanlara "türk" kəlməsinin işlədilməsinin icazə verilməsini qazanılmış böyük uğur adlandıran Rəsulzadə bu dövrdə yazdığı bütün məqalələrində cəhalətdən xilasın yolunu yalnız milli özünüdərkdə görürdü. 1915-ci ilin oktyabrında ilk sayı çıxan "Açıq söz" qəzetinin baş redaktoru kimi Rəsulzadə qəzetin əsas şüarını türkçülük, müasirlik, islamçılıq kimi müəyyənləşdirmişdi: ""Açıq söz" ilk dəfə olaraq o vaxta qədər Qafqaziya müsəlmanı və yaxud tatar deyilən xalqın türk olduğunu sərhaət və israrla meydana atmış və bu xüsusda hərb senzoru ilə mübarizə etmək zərurətində qalmışdı".[662]

Rəsulzadə artıq millətçiliyə sinfi mübarizənin əleyhinə olan bir ideya kimi yox, millətin dirilişi kimi baxırdı. Mütəfəkkir milli istiqlal olmadan hər hansı sosial bərabərliyin olacağına artıq inanmırdı: "Milli istiqlal, ələlxüsus, millətlərə xüsusiyyətlərinin mühafizəsini təmin edən istiqlal daima bəşəriyyətə saheyi-mədəniyyətdə yeni və əsil bir taqım ibdalar, ixtiralar nəvidindədir ki, mədəniyyəti-bəşəriyyə dediyimiz şey də bu bədaət və ixtiraların məcmuindən ibarət bir yekundur". [663]

Əvvəlki dönəmlərdən fərqli olaraq Rəsulzadə millətçiliyin, türkçülüyün bəşəri dəyərlərə zidd olmadığını, əksinə onun tərkib hissəsi olduğuna da inanırdı. Rəsulzadə yazırdı: "Ona görə, başqalarını təmsil üçün deyil, öz mənliyini mühafizə üçün çalışan millətpərəstlik mədəniyyəti-bəşəriyyə naminə təqdir və təsdiq olunmalı zəruri və faydalı böyük bir fikirdir".[664]

Rəsulzadəyə görə Avropada da hətta, sosial-demokratların belə tamamilə gözarda bilmədikləri, ancaq demokratların əsas

[662] Resulzade M.E. Azerbaycan Cümhuriyeti. İstanbul: 1990, s.17
[663] Rəsulzadə M.Ə. Əsərləri. II cild (1909-1914). Bakı, "Təhsil", 2014, s.465
[664] Yenə orada, s.465

prinsipi olan milliyyət nəzəriyyəsi üstün gələcəkdir: “Avropa üsul məmləkətdarları başdan-başa dəyişəcək və milliyyət nəzəriyyəsi sair nəzəriyyələrə faiq (üstün) gələcəkdir. Bütün aləmin mütəfəkkirlərincə indiki Avropa müharibəsi dövlətlərin deyil, millətlər və mədəniyyətlərin müharibəsidir. Madam ki, bu böylədir demək ki, müharibə nəticəsi dəxi dünya millətlərinin xəritəsi dəyişdiyi kimi, dövlət təşkilatlarına olan nəzəriyyələrdə dəyişəcək və bilaşübhə sosalistlərin də təbii gördükləri milliyyət əsası qəbul olunacaqdır. İştə böylə bir zaman üçün hazırlanmağı millətlər özlərinə vəzifə biliyorlar. Çünki özünü bilməyən, vicdani-milliyyəsi inkişaf və amali-həyatiyyəsi təmin etməyən insan heyətlərini bir millət kimi qəbul etmiyorlar. Və irəlidə də etməyəcəklərdir”.[665]

Bu baxımdan Azərbaycan türklərinin milli azadlıq əldə etməsinə çalışan Rəsulzadə Rusiyada yaşayan türklərin “müsəlman” kimliklərini bir kənara qoyub Türk olaraq mübarizə aparmalarını vacib hesab etmişdir. O, yazırdı: “Rusiyada yaşayan müsəlmanlar: Volqa boyundakı tatarlar, krımlılar, qafqaziyalılar, türküstanlılar hamısı bir din ilə mütəəddid olduqları kimi, bir böyük suyun ayrı-ayrı bulaqları, bir böyük kötüyün dürlü şaxələridir. Hənbəli, şafi, hənəfi, maliki şiə kimi müxtəlif məzhəblər haman bir dinin fəriə aid cüzi təfavütlərlə - şöbələr olduğu kimi, tatar, azərbaycanlı, özbək, qırğız və türküstanlılar da böyük türk ailəsinin doğma uşaqlarıdır. Biz Rusiyada yaşayan müsəlmanlar eyni zamanda da bir türk, biz Rusiya türkləri eyni zamanda da müsəlmanız, hər nə qədər sayımız da 20 milyon ilə 30 milyon arasında gəzər. Aramızda böyük bir ixtilaf varsa, hamımızın bir din və bir cinsə mənsub olduğumuza da əslən şübhə yoxdur. Belə iki böyük mənəvi rabitlə ilə bir-birinə bağlı olan Rusiya müsəlmanları arasında az-çox bir təfavüt görünürsə bu, cinsiyyət və ya din təsiri ilə deyil, iqlim və şərait sayəsində irəli gəlmiş xüsusiyyətlərdir ki, hər halda əsli deyil, ərzidir. Bu ərzi (xaricdən

---

[665] Rəsulzadə M.Ə. Əsərləri (1909-1914). II cild. Bakı: Şirvannəşr, 2001, s.386

ariz olan) təsirlər sayəsində digər "bir kütlə" (kütleyi-vahid) olan "camiə"lərdə görüldüyü kimi türk-tatar "camiə"si də vaxtilə təsiratı-firqeyi tutlaraq ayrılıb dağılmışdır".[666]

Rusiya imperiyasında əsarət içində yaşamağa məhkum edilən Azərbaycan türklərinin isə milli istiqlalını önündə dayanan Rəsulzadə azərbaycanlıların millətcə turk olmalarını dərk etmələri üçün əlindən gələni edirdi. M.B.Məmmədzadə yazırdı: "O zamana qədər liberal və inqilabçı millətçilər də Türk mədəniyyəti, Türk dili və Türk birliyi prinsiplərinə xidmət etdikləri halda, özlərinə müsəlman, millətlərinə müsəlman milləti deyirdilər. Mürtəce mühafizəkarların nəzərində heç biz millət də deyildik. Rəsmi hökumət nəzərində isə biz tatardıq. Çoxdan başlamış Azərbaycan Milli hərəkatı öz adını almamışdı. Qəzetlərin başında "müsəlman qəzeti", məktəblərin lövhələrində "rus-tatar məktəbi" sözləri yazılmışdı. Bax, belə bir şəraitdə "Müsavat" firqəsinin ruporu şəklini alan "Açıq söz" ilk dəfə olaraq "müsəlman", "tatar" sözlərini "türk" sözü ilə dəyişməyə girişdi, millətə "sən türksən"", rus hökumətinə biz türkük" deyə xitab etdi. Bu surətlə Məhəmməd Əmin Rəsulzadə "ümmət" və "ümmətçilik" dövrünü rəsmən qapamış, "millət" və ""türk millətçiliyi" dövrünün başlandığını elan etmişdir". [667]

Türkoloq-alim Əhməd Cəfəroğlunun fikrincə də, milli istiqlal məfkurəsinin intişar tapmasında, "həqiqi milliyyətçiliyin geniş yayılmasında" Rəsulzadə və onun baş redaktoru olduğu "Açıq söz" qəzeti mühüm rol oynamışdır. [668] Belə ki, Rəsulzadənin öndərliyi ilə ilk dəfə, həmin qəzetdə öz əksini tapan ideyalar get-gedə bütün Azərbaycan türklüyünü əhatə etmişdir. Cəfəroğlu yazırdı: "Onun "Açıq söz" qəzeti ilk dəfə milli cərəyanı ardıcıl və şüurlu sistem halına saldı, milli mövzunun geniş oxucu kütləsi arasında bir ilham mənbəyinə çevrilməsinə imkan yaratdı".[669]

---

[666] Hüseynov Ş. Müstəqilliyin çətin yolu... Biz hara gedirik. Bakı: Azərnəşr, 1996, s.258
[667] Məmmədzadə M. B. Milli Azərbaycan hərəkatı. Bakı: Nicat, 1992, s.52
[668] Cəfəroğlu Əhməd. Seçilmiş əsərləri. Bakı, Mütərcim, 2008, s.151
[669] Yenə orada, s.235

**Türkçülük məfkurəsi: Ə.Hüseynzadə, Z.Gökalp, M.Ə. Rəsulzadə.** Ümumiyyətlə, türkçülük məfkurəsi bütün Türk ölkələrində, o cümlədən Azərbaycan və Türkiyədə eyni zamanda yaranmış və inkişaf etmişdir. Üstəlik, Əli bəy Hüseynzadənin türkçülük məsələsində milli ideoloq kimi öncüllüyünü sonralar M.Ə.Rəsulzadə, Z.Gökalp, Y.Akçura, M.B.Məmmədzadə və başqa mütəfəkkirlər də dəfələrlə yazmışlar. Məsələn, Y.Akçuraya görə, Hüseynzadə müsəlman türkləri arasında ilk turançı, ilk panturançı hesab olunurdu.[670] Rəsulzadə isə bu məsələni bir qədər də dəqiqləşdirərək yazırdı: ""Füyuzat" jurnalı "Türk Yurdu"nda olduğu kimi aydın, ardıcıllıqla olmasa da türkçülük mövzusunu daha öncə işə salmış, hətta mərhum Ziya bəyin son çağlarda "Türk millətindənəm, İslam ümmətindənəm, Qərb mədəniyyətindənəm" çağırışı ilə göstərdiyi anlamı Əli bəy Hüseynzadə "Türk qanlı, islam imanlı və firəng geyimli olaq" formulu ilə açıqlamışdı. Azərbaycan mətbuatının, eləcə də Azərbaycan ədəbiyyatının şüurlu metodik bir biçimdə milli türk ideologiyasını işə salmaq düşüncəsi isə I Dünya savaşı öncəsində, illərində daha çox gəlişmişdir".[671] Onun fikrincə, beləliklə, balkan və dünya müharibələri dövrü türk milli ideyasının inkişafında dönüş nöqtəsi olmuşdu.[672]

M.B.Məmmədzadə də yazırdı ki, Azərbaycan milli hərəkatının kamilləşməsində, onun ictimaiyyətinin şüurlanmasında "Füyuzat" jurnalı və onun əsas yazarı Ə.Hüseynzadə müstəsna rol oynamışdı.[673] Belə ki, mədəni millətçiliyin sonrakı forması Hüseynzadə tərəfindən "türk hissiyyatı, islam inamlı və Avropa qiyafəli" kimi bir prinsip halına gətirilmiş, daha sonra "Müsavat"-ın başlıca şüarı və milli Azərbaycan bayrağının əsasını təşkil etmişdir: "Beləliklə, türk milli hərəkatı gərək geniş mənası ilə, gərəksə də Azərbaycan ölçüsündə XX əsrin əvvəllərinə doğru

---

[670] Akçura Yusif. Türkçülüyün tarixi. Bakı, Qanun, 2010, s.174, 205
[671] Rəsulzadə M.Ə. Qafqaz türkləri. Bakı, Təknur, 2012, s.48
[672] Rəsulzadə M.Əmin. Panturanizm. Qafqaz sorunu. Bakı, "Təknur", 2012, s.49
[673] Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992, s.47

şəkillənməyə başlamışdır. XX əsrin əvvəlləri türklüyün milliyyət dövründən millət dövrünə keçdiyi bir dövrdür”.[674]

Yeni dövr tədqiqatçılarından Yaşar Qarayev, Aydın Balayev, Rasim Mirzə və başqaları da yazırlar ki, türkçülük şüuru öncə çar Rusiyasının Türk xalqları arasında yaranmış, siyasi türkçülüyün əsasların isə “Həyat” və “Füyuzat”da Azərbaycan türklərindən Ə.Hüseynzadə işləyib hazırlamışdır.[675] [676] Y.Qarayev yazırdı: “Azərbaycanda milli bir ideologiya səviyyəsində türkçülüyün ilk dəfə hərəkətə gəldiyi qatarın sükanı arxasında hamıdan əvvəl Əli bəyi görürük”. [677] Türkiyə tədqiqatçılarından M.Ertuğrul Düzdağ da hesab edir ki, Osmanlı dönəmində türkçülük cərəyanının yaranmasında “çar Rusiyası idarəsindəki Türk diyarlarından gəlmiş fikir və hərəkat adamlarının təsiri olmuşdu”.[678]

Əli bəy Hüseynzadənin “İslam imanlı, Türk hissiyyatlı və Avropa qiyafəli” şüarını mənimsəməsinin nəticəsi olaraq Ziya Gökalp da Osmanlıda Türk millətindənəm, İslam ümmətindənəm devizləri ilə yanaşı, Avropa qiyafəlinin yerinə “Qərb mədəniyyətindənəm” yazırdı[679]. Amma “Qərb mədəniyyətindənəm” devizi türklüyü və islamlığı əsasən tamamlaya bilməzdi. Əgər söhbət yeniləşməkdən gedirdisə, bu o demək deyildi ki, “Qərb mədəniyyətindənəm” şüarını hökmən türk və islam mədəniyyəti ilə bir sırada tutmaq lazım idi. Bizcə, bu, ilk dövrlərdə müasirləşməklə bağlı Türk aydınlarının etdiyi yalnış bir addım idi. Eyni zamanda, bu, “Qərb mədəniyyəti isə, yeryüzündə heç bir topluluğun ilgisiz və dışında qalmayacağı bir böyük dünya gerçəkliyidir”[680], kimi qəbul etmək, yalnız yeni ideya yarada bilməməyin çarəsizliydir.

---

[674] Məmmədzadə Mirzə Bala. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992, s.22
[675] Balayev Aydın. Məmməd Əmin Rəsulzadə (1884-1955).Bakı,Çıraq,2012,s.17-18
[676] Mirzə Rasim. Türkçülüyün babası (Əlibəy Hüseynzadənin fikir dünyası). Bakı: Elm, 2000, s.33
[677] Qarayev Yaşar. Tarix: yaxından və uzaqdan. Bakı, «Sabah», 1996, s.276
[678] Düzdağ Ertuğrul. Türkiyede islam ve irkçılık meselesi. İstanbul, Cihad,1976, s.18
[679] Gökalp Ziya. Türkçülüyün əsasları.Bakı, Maarif, 1991, səh.63
[680] Gökdemir Ayvaz. Düşüncə tarihimizden portreler. İstanbul, «Bayrak», 2005, səh.218

Dogrudur, sonralar Türk aydınlarımız "Avropa qiyafəli", "Qərb mədəniyyətindənəm" yanlışlığını düzəltməyə çalışmış, onun yerinə "müasirləşmək", "çağdaşlaşmaq", "yeniləşmək" anlayışlarını istifadə etmişlər. "Müasirləşmək", "çağdaşlaşmaq", "yeniləşmək" dedikdə isə, çağdaş ruhlu İslam-Türk ruhunu nəzərdə tutduqlarını bəyan etmişlər. Məsələn, 1912-1913-cü illərdə "Türk yurdu" jurnalında dərc etdirdiyi "Türkləşmək, islamlaşmaq və müasirləşmək" başlıqlı silsilə məqalələrində Z.Gökalp yazırdı ki, Türkiyədə üç fikir cərəyanı var: müasirləşmək, islamlaşmaq və türkləşmək: "Türkləşmək və islamlaşmaq ülküləri arasında bir çatışma olmadığı kimi, bunlarla çağdaşlaşmaq ehtiyacı arasında da çatışma mövcud deyildir… Sonucda, hər birinin təsir çərçivələrini bəlirləyərək bu üç amacın üçünü də qəbul etməliyiz; yaxud, daha doğrusu, bunların bir ehtiyacın üç müxtəlif nöqtədən görülmüş çevrələr olduğunu anlayaraq "çağdaş bir İslam Türklüyü" yaratmalıyız"[681]. Gökalpın bu üç kəliməsi Türk sosial fəlsəfəsinin ən geniş anlamını verirdi. Bu, yeni bir dönəmin başlangıcı demək idi.

Bu məsələdə Hüseynzadə və Gökalpın ən uğurlu davamçısı olan Rəsulzadə də "Qərb mədəniyyətindənəm" anlayışını yeniləşmə və inqilab kimi başa düşmüşdür.[682] Çünki hər zaman yalnız müasirləşməyə meyilli millətlər mədəniyyət yarada bilirlər. Bu mənada, "müasirlik" ilk baxışda zəmanənin dəyərlərini və tələblərini əks etdirirsə, "mədəniyyət" anlayışı daha geniş məna kəsb edərək nəinki bu günün, həm də keçmişin və gələcəyin nişanəsidir. Eyni zamanda "mədəniyyət" anlayışında milli və dini dəyərlərlə yanaşı, Qərb-Avropa mədəniyyətinin mütərəqqi cəhətlərinin də öz əksini tapması mümkündür.

Ümumiyyətlə, Əli bəy Hüseynzadədən sonra Ziya Göyalpın dərin təhlil edib təkmilləşdirdiyi üçlü düsturun Rəsulzadəyə böyük təsiri olmuşdu. Rəsulzadə özü bu məsələ haqqında sonralar

[681] Gökalp Z.Türkleşmek, islamlaşmak, muasirleşmek. İstanbul, Akvaryum, 2005,s.19-20
[682] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, s.97

belə yazıdı: "...Mərhumun (Ziya Gökalpın) "Türk yurdu"nda dərc olunan "Türkləşmək, islamlaşmaq və müasirləşmək" məqalələri məni adətən, vəcdə gətirdi. Bakıya geri döndüm. Mətbuat dil məsələsi ilə məşğul idi. Bu məsələdə Ziya nəzəriyyəsinin müdafiəçisi oldum. Türkçülüyə rəvac vermək üçün dünya müharibəsi əsnasında təsis etdiyimiz "Açıq söz" qəzetinin başına Ziyanın müqəddəs düsturunu bir şüar olaraq qoyduq. Daha sonra Ziyanın son zamanlarda "Türk millətindənəm, islam ümmətindənəm, Qərb mədəniyyətindənəm" şəklində dediyi bu "şüar" türkçülük, xalqçılıq ümdələri, vəzifələri üzərində təşəkkül edən millətpərvər "Müsavat" firqəsinin proqram müqəddiməsində yer tutdu. Rus istibdadı pənəcəsindən dağılmış xanlıqlar şəklində deyil, müttəhid və milli bir kütlə surətində nicat arayan Azərbaycan türklüyü bu istiqlalını tərtəmiz edəcək bayrağa əsri məfkurəsi ilə mütənasib bir məna vermək istəyirdi. Bu mənanı da "türkləşmək, islamlaşmaq və müasirləşmək" məfhumlarında tapdı: bayrağı mavi, al (qırmızı) və yaşıl rəngli qumaşlardan düzəldildi".[683]

Yeri gəlmişkən, yaşının kamil çağında (1950-ci illərin başlarında) "Qərb mədəniyyətindənəm", "müasirləşmək", avropalaşmaq anlayışlarına yenidən qayıdan Rəsulzadə yazırdı ki, çağdaşlamağın ancaq həmin istilahlarla ifadə olunub, geriliyin isə Şərq mədəniyyəti kimi göstərilməsi doğru deyildir: "Çağdaş mədəniyyətlə ayaqlaşmağa yönəlmiş islahat hərəkətinə bizdə qərbliləşmək və avropalılaşmaq adı verilməkdədir. Geri qalmış Şərq məmləkətlərini "Qərb mədəniyyətinə" ulaşdırmaq yolunda radikal üsullara baş vuran milli türk inqilabının ideologiyasını işləyənlər Şərq mədəniyyəti və Qərb mədəniyyəti deyə ikiyə ayrılan mədəniyyət anlamlarını qarşılaşdırarkən əsaslı bir xətaya düşür, yanlış termin qullanırlar. Milli türk devrimi Şərqi atır, Qərbi tuturmuş, Şərq mədəniyyət dəyişdirirmiş, Qərb mədəniyyətini almaq tarixi zərurətmiş və sairə…".[684]

---

683 Yaqublu N. Məmməd Əmin Rəsulzadə. Bakı: Gənclik, 1991, s.45
684 Rəsulzadə M.Ə. Milli birlik. Bakı, «Çıraq» nəşriyyatı, 2009, s.35

Rəsulzadə hesab edirdi ki, mədəniyyətin coğrafi sahələrə mal kimi bölünməsi və bir mədəniyyətdən digər mədəniyyətə keçmək düşüncəsi doğru bir görüş məhsulu deyildir. o, bunun səsəbini belə izah edirdi: "Dünya mədəniyyəti bir bütündür. Türlü sahələrdə gördüyümüz ayrılıqlar türlü zamanlarda türlü-türlü məmləkətlərdə görünən ayrılıqlardan başqa bir şey deyildir. Bu gun Avropa və ya Qərb deyə özlədiyimiz irəli örnək, aləmin vaxtı ilə Şərq və ya Asiya dediyimiz qitələrin düşdükləri bugünkü "geri" duruma bənzər bir dünya təşkil etdiyi məlumdur. Dünya mədəniyyətinin gedişini izləsək, onun yüksələn istiqamətdə gəlişən mərhələlərindən bəhs etmək daha doğru olar. Bu baxımdan Şərq mədəniyyəti ilə Qərb mədəniyyətindən deyil, Ortaçağ mədəniyyəti ilə Çağdaş mədəniyyətdən bəhs etmək lazımdır. Bizim "dəyişdirdiyimiz" mədəniyyət Avropanın da vaxtilə "dəyişdirmiş" olduğu Ortaçağ mədəniyyətidir. "Almaqda" olduğumuz mədəniyyət də bir Qərb mədəniyyəti deyil, çağdaş bir mədəniyyətdir". [685]

O, yazırdı ki, mədəniyyət anlamında heç vaxt Şərqi atıb, Qərbi tutmayıblar. Sadəcə, Qərbin vaxtı ilə etdiyi kimi, Şərq də Orta çağ düşüncə və şərtlərindən, çağdaş düşüncə və şərtlərinə doğru yüksəlir. Başqa sözlə, bugunkü Şərqdə görünən devrimlər bir kaymanın, bir uymanın deyil, bir yüksəlmə, bir qalxınmanın əsəridir. Rəsulzadə yazırdı: "Şərqli bir millətçi türlü tarixi səbəblərlə geri qalmış vətənini çağdaş mədəniyyət səviyyəsinə ulaşdırmaq xüsusundakı əzminə "şərqliliyi atır, qərbliliyi alırıq" deyə bilməz. Deyərsə, yanlış bir termin qullanmış olar. Bu yanlışlığı o, özlüyündə millətçi bir iş görərkən millətə aid özəlliklərə arxa çevirmiş bir insan durumuna düşməklə ittiham oluna bilir. Tərəqqi düşməni mürtəcelərin bu ittihamı qarşısında min bir dərədən su gətirib öz hərəkətini izah etmək zorunda qalır. Məsələn, Şərq deyirik, Yaponiyanı qəsd etmirik deyir, Qərb dedikdə İspaniyanı düşünmürük kimi, dinləyənlərin zor anlaya-

---

[685] Rəsulzadə M.Ə. Milli birlik. Bakı, «Çıraq» nəşriyyatı, 2009, s.35

caqları bir sıra təfsirlərdə olmaması lazım gəlir. Halbuki sui təfsirlərə məhəl vermədən bir bütün olaraq ələ alınan dünya mədəniyyətini Şərqə və Qərbə ayırmadan üfqi deyil şaquli ayrılıqlarından bəhs etmək daha doğru və daha ağlabatandır. Millətçi Türkiyə bugunkü gənc şərqlilərə örnək olaraq etdiyi devrim həmləsilə Şərqdən sıyrılıb Qərbə qatılmır, geri ortaçağ səviyyədən çıxaraq irəli çağdaş səviyyəyə yüksəlir”. [686]

Beləliklə, 20-ci əsrin əvvəllərində qabaqcıl Türk aydınları Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ziya Gökalp, M.Ə.Yurdaqul, Y.Akçura və başqa ziyalıların milli-dini düşüncələrini dərindən mənimsəyən Rəsulzadə, ancaq sosial-demokrat ideyasını da tamamilə bir kənara qoymamışdır. Sadəcə, Rəsulzadə təmsilçisi olduğu cəmiyyətin bu günü və gələcəyi üçün yalnız islamlıq, sosial-demokrat ideyalarının yetərli olmadığını görmüş, milli məsələni-türkçülüyü də bu ideyalar sırasına daxil etmişdir.

Ümumiyyətlə, burada türklüyü və türkçülüyü də bir-birindən fərqləndirmək lazımdır. Türklük daha çox sadəcə şəxsi kimliyini, danışdığı dili, tapındığı adət-ənənələri türk olaraq qəbul edib bununla kifayətlənməkdirsə (türk kimliyi), türkçülük millətdə milli ruh, mili düşüncə, milli özünüdərk uğrunda mübarizə aparmaq, bir sözlə onu yenidən bir təlim, sistemli məfkurə (türkçülük fəlsəfəsi, türk dünyagörüşü) halına gətirməkdir. Bunu, vaxtilə M.Ə.Rəsulzadə belə ifadə etmişdi: “Türklüklə türkçülük arasında böyük fərq vardır. O fərq nədir? …Millətdə milli ruh, milli düşüncə, milli özünütanıma, milli şəxsiyyət lazımdır. Biz millətə bunu verməyə çalışırız”.[687] Rəsulzadənin ifadə etdiyi türkçülük birmənalı olaraq Türk fəlsəfəsi, Türk dünyagörüşü idi.

Rəsulzadənin nəzərində Azərbaycan milli məfkurəsi üç amilə əsaslanırdı: milli varlıq (türklük), dini reallıq (islamlıq) və yenilik (çağdaşlıq). Başqa sözlə, onun dünyagörüşüncə cəmiyyətin toparlanması və inkişafı yolunda əsas hədəfdə öncə

[686] Rəsulzadə M.Ə. Milli birlik. Bakı, «Çıraq» nəşriyyatı, 2009, s.36
[687] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). I c. Bakı, «Azərbaycan» nəşriyyatı, 1998, s.260

milli məsələ, yəni türkçülük, daha sonra islam, çağdaşlıq gəlməli idi. O, yazırdı: "Mədəni yaşayış üçün 3 əsas amil lazımdır: Milliyyət, beynəlmiləliyyət və əsriyyət. Millətin rüknü ana dili, beynəlmiləliyyətin əsası din və əsriyyətin binası əsrə hakim olan ülum və finun ilə məhəllinə görə onun vasitəsi olan dillərin öyrənməsidir". [688] Bu məsələ ilə bağlı prof. Şamil Qurbanov yazırdı ki, tələb olunan yeni inkişaf səviyyəsinə çatmaq üçün xalq hər şeydən əvvəl özünü tanımalı, dinini, etiqadını qorumalı və dünya mədəniyyətinə yiyələnməli, daha doğrusu, bunlar xalqa öyrədilməli idi: "Rəsulzadənin türkçülərdən və onların ideoloqu Əfqanidən əxz etdiyi bu amillər onun nəzərində Azərbaycanda milli şüurun, milli mənliyin oyanmasına, milli birliyin yaranmasında nicat yolunun tapılmasına kömək etməlidir".[689]

Rəsulzadə bir tərəfdən, Azərbaycan milli ideyasını müdafiə etsə də, digər tərəfdən, azərbaycançılığı ümumi türkçülüyün, turançılığın ayrılmaz bir hissəsi olduğunu da daim vurğulamışdır. Hələ, Azərbaycan Cümhuriyyəti qurulmamışdan öncə (1917), Rusiya tərkibindəki türk-tatar millətlərinin, o cümlədən Azərbaycan türklərinin ayrı-ayrılıqda milli-ərazi muxtariyyətini tələb etməklə yanaşı, Rəsulzadə gələcək muxtar türk dövlətlərinin nümayəndələrindən ibarət Milli Şuranın formalaşdırılmasını təklif etmişdi.[690]

**Mühacirət dövründə türkçülük və turançılıq.** Mühacirət dövründə bu ideyanı inkişaf etdirən Rəsulzadə xatırladırdı ki, Cümhuriyyət dövründə (1918-1920) də "Müsavat"ın 1919-cu ildə Bakıda keçirilən 2-ci qurultayında qəbul etdiyi proqramının girişində "bugünkü durumu ilə dağınıq olan geniş Türk dünyasının bir gün gəlib də əlbir və dost bir türk aləmi oluşduracağına inanırıq və bu imanla getdiyimiz əməl yolunun çatacağı son yeri belə bir bağlılığın gerçəkləşməsində görürük", deyilmişdir. [691]

[688] Azərbaycanın türkçülük və azərbaycançılıq problemləri. Bakı: Ay-Ulduz, 1998, s.122
[689] Qurbanov Ş. Cəmaləddin Əfqani və türk dünyası. Bakı: 1996, s.149
[690] Balayev Aydın. Məmməd Əmin Rəsulzadə (1884-1955). Bakı, Çıraq, 2012, s.61
[691] Rəsulzadə M.Ə. Qafqaz türkləri. Bakı, Təknur, 2012, s.74

27 Aprel işğalından sonra da "Yeni Turançılıq" ideyası Rusiya əsarətində yaşayan bütün Türk xalqlarının, o cümlədən Azərbaycan türklərinin əsas hədəflərindən biri olmalı idi. Yeni Turançılıq ideyasına görə, bütün müsəlmanları "İslam birliyi" altında birləşdirmək mümkün deyilsə, ancaq bütün türklər öz aralarında böyük dünya federasiyasına nümunə olmaq üzrə Türk federasiya yarada bilərdi. Rəsulzadə yazırdı: "Yeni Turan, mədəni birlik üzərində təsis edilib ancaq gələcək birər Türk hökumətlərinin federasyonu şəklində təsəvvür oluna bilər. Azərbaycan da bu gələcək Turan silsiləsinin mühüm bir halqasıdır".[692] Deməli, Rəsulzadə 27 aprel işğalından az sonra Azərbaycan milli ideyasının yaşaması üçün, mədəni ruhlu "Yeni Turançılıq" ideyasını müdafiə etmişdi. "Yeni Turançılıq" ideyası isə Rusiya əsarətində yaşayan bütün türklərin, o cümlədən Azərbaycan türklərinin əsas hədəflərindən biri olmalı, Z.Gökalpın təbrincə, Rusiyanın dağılıb viran, Türkiyənin böyüyüb Turan olmasına yönəlməli idi.[693] Z.Gökalpın və M.Ə.Rəsulzadənin bu fikirləri, yəni Turanın Türk hökumətlərinin federasiyası şəklində gerçəkləşə bilməsi, o dövr üçün bir qədər utopik xarakter daşısa da, hazırda Türk Dövlətləri Təşkilatı (2021) nümunəsində, belə bir federasiyaya çox yaxındır.

Bu baxımdan, hələ o zaman Rəsulzadə doğru yazırdı ki, müstəqil Türk dövlətlərinin yaranması turançılıq, türkçülük məfkurəsinə kölgə salmamış, bir sözlə Türk birliyini parçalamamışdır: "Turançılıq, türkçülük ədəbi məsləki Türkiyə ilə Azərbaycanı bir-birinə bağlayan ən davamlı bir bağ, mətanətli bir ip idi. Turançılıq məfkurəsi doğulunca millət beynəlmiləl islamiyyətçilik və federasiyon formullarını çıxarmış, sosiologiyada da "Türkləşmək, İslamlaşmaq və Müasirləşmək" kimi üçayaqlı bir şüar ortaya atmışdı. İstanbul yurdçuları bu şüarları nəzəri şəkildə yaymaqda

[692] Rəsulzadə M.Ə. Əsrimizin Siyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı, Gənclik, 1990, s.36
[693] Yenə orada, s.37

ikən, Azərbaycan turançıları bunu siyasi bir fəlsəfə kimi qəbul edərək qurduqları milli siyasi partiyanın prinsipi elan etdilər”.[694]

Şübhəsiz, indi olduğu kimi, həmin dönəmdə də türkçü-turançı mütəfəkkirlərin bu mülahizələri rus, erməni və başqa millətlərin ideoloqları tərəfindən birmənalı qarşılana bilməzdi. Bu baxımdan 1920-1930-cu illərdə bəzi əcnəbi müəlliflər, o cümlədən Hondkaryan, A.Kerenski, Zarevand, Mandelştam və başqaları panturanizm, panturkizm təhlükəsindən bəhs edən əsərlər (“Türkiyənin qulluğunda”, “Rus milləti üzərində diktatura”, “Türkiyə. Panturanizm”) yazırdılar. Onların fikrincə, SSRİ-ni dağıtmaq istəyən panturançılar Turan imperiyası yaratmaq niyyəti güdürdülər. Rafail Əhmədli bu məsələ ilə bağlı doğru qeyd edir ki, “əzilməyə məhkum edilmiş Türk xalqlarını əsarətdən xilas etmək məqsədi ilə ortaya çıxan türkçülük ideologiyası türk düşmənləri tərəifndən “pantürkizm” və “panturanizm” kimi qələmə verilmiş, türklərin yenidən tarix səhnəsində söz sahibi olmasının qarşısı alınmağa çalışılmışdı”. [695]

Rəsulzadə həmin dövrdə bununla bağlı bir sıra məqalələrində antitürkçülərə cavab olaraq yazırdı ki, bu məsələdən bəhs edənlər türkçülüyün, turançılığın tarixini, o cümlədən bu ideyaların müəlliflərinin fikirlərini təhrif edirlər. Belə ki, “pantürkizm”, “panturanizm” panslavyanizm kimi ideologiyalardan fərqli olaraq xalqın içindən yaranan bir məfkurə olmuşdur. O yazırdı: “Pantürkizm məsələsinə gəlincə, fürsətdən istifadə edən yanıltmaçıların aldatmaq istədikləri zümrəyə birdəfəlik anladaq ki, slavyan millətlərində olduğu kimi, türk irqinə mənsub millətlərdə dəxi, bir birlik məfkurəsi doğmuş və bu doğuş müəyyən bir zaman romantik bir dövr yaşayaraq, o vaxta qədər, İslam dini düşünüş alışqanlığında olan siyasi türk-tatar fikri üzərində daha əsri və tərəqqi sevərcəsinə bir təsir yapmışdır. Fəqət panslavyanizmdən daha az real şərait və imkana malik olan panturanizm panslavyanizmin çatdığı nəti-

---

[694] Yenə orada, s.35-36

[695] Əhmədli Rafail. Azərbaycan milli-demokratik dövlətçilik məfkurəsi: türkçülük, müasirlik, islamçılıq. Bakı, «Elm», 2007, s.195

cəyə nisbətən daha az bir zamanda gəlmiş və bu gün ən qatı pan-turanistlər belə sadə bir kültür birliyini mümkün mərtəbə mühafizəyə qeyrət etməklə kifayətlənmişlər”.[696]

Bununla da, Rəsulzadə demək istəmişdir ki, turançılıq millətin özünün yaratdığı ideyadır, bu ideya ilk dövrlərdə romantik xarakter daşısa da, artıq öz yerini gerçəkçi, müasir məsələlərə tərk etmişdir. Çağdaş dövrdə yeni türkçülük və yaxud da yeni turançılıq ideologiyası ondan ibarətdir ki, vahid Türk milləti deyil, ayrı-ayrı Türk millətləri, bu anlamda da vahid Türk irqi vardır. Türk irqinə aid hər bir millətin də ayrı-ayrı müstəqil Türk dövlətləri yaratması məntiqə uyğundur. Bu baxımdan “panrusizm” vahid “slavyan” dövlətinin yaranmasına çalışdığı halda, yeni turançılıq ideologiyası ayrı-ayrı türk dövlətlərinin yaranmasını müdafiə edir. Bunu nəzərə alaraq Rəsulzadə yazır: “Varlığı ilə Sovet İttifaqında türk ellərinin ulusal, doğal axınlarını yaxşı yöndə etkiləyən çağdaş, gerçəkçi “türkizm”, sözsüz “panrusizmin” yağısıdır”. [697]

Bu mənada 1930-cu illərin əvvəllərində M.Ə.Rəsulzadə hətta, vaxtilə irəli sürdüyü Türk hökumətlərinin federativ Turan birliyi ideyasının özünə belə ehtiyatla yanaşmışdır. Onun fikrincə, XX əsrin əvvəllərindəki siyasi türkçülərdən fərqli olaraq, çağdaş türkçülər vahid Turan dövləti ideyası ilə yaşamırlar. Ona görə də yeni türkçülər Türkiyənin-Osmanlının timsalında türklərin böyük imperatorluğunu yaratmaq deyil, hər bir türk millətinin ayrıca istiqlalı uğrunda mücadilə edirlər. Bu baxımdan slavyan birliyi fikri Çexoslovakiya dövlətinin təşəkkülünə mane olmadığı kimi, türk-turan birliyi fikri də Azərbaycanın müstəqil bir türk dövləti kimi Qafqaz Konfederasiyasına girməsinə əngəl ola bilməz. Rəsulzadə yazır: “Eyni irqə yaxınlıq nəticəsində bir-birinə yaxın mədəniyyət məhsullarına malik olan Türk ellərindəki müştərək qiymətləri mühafizə etməklə bərabər, ayrı-ayrı Türk millətlərinin ayrıca bir dövlət və cümhuriyyət halında istiqlal qazanmaq yolundakı hərəkatlarını şübhə altına alanlar ancaq rus imperalizminin könüllüləri və

---

[696] Rəsulzadə M.Ə. Milli birlik. Bakı, «Çıraq» nəşriyyatı, 2009, s.50-51

[697] Rəsulzadə M.Əmin. Panturanizm. Qafqaz sorunu. Bakı, Təknur, 2012, s.27

yaxud kölələri ola bilirlər! Azərbaycan istiqlalçılığının Türk birliyi fikrindən əzəmi surətdə mülhəm olduğunu inkar etməməklə bərabər, siyasətdə realizm tərəfdarı olan Azərbaycan milliyyətçiləri üçün bu fikrin sadə mədəniyyət sahəsində qəbulu tətbiq olacağı aşkardır".[698] Ona görə, panturanizm ideyası adı altında Azərbaycanın Türkiyə ilə vahid dövlət halında birləşmək niyyəti yoxdur. Çünki mədəniyyət birliyi sahəsinə çəkilən siyasi panturanistlər artıq mövqeyini müstəqil Türk millətləri reallığına tərk etmişdir.[699]

Rəsulzadə yazırdı ki, artıq yeni türkçülüklə, yeni turançılıqla "pantürkizm", "panturanizm"in eyni anlamı daşımadığı ortada olduğu halda, özəlliklə, Zarevandın "Türkiyə. Panturanizm" əsərində irəli sürdüyü antitürkçü, antiturançı müddəaları qəbul etmək mümkün deyildir. Belə ki, Zarevand və onun kitabına ön söz yazan Mandelştam bilərəkdən türkçülüyün tarixini və mahiyyətini saxtalaşdırmış, ona tamam başqa siyasi rəng verməyə çalışmışlar. Məsələn, Zarevand ən çox Z.Gökalp, Y.Akçura, eləcə də Atatürkü tənqid hədəfi götürmüş və onları panutrançılıqda, pantürkizmdə ittiham etmişdir. Zarevanda görə guya, "panturanizm" ideyasını türkçülüyün ideoloqları Z.Gökalp, "panturançıların Marksı" Y.Akçura irəli sürmüşdür ki, çağımızın "panturanizm"ini isə Mustafa Kamal (Atatürk) həyata keçirir, çünki kamalçıların da əsas bayrağı pantürkizm, panturanizmdir.

Rəsulzadə öncə antitürkçü ideoloqların diqqətinə çatdırırdı ki, Gökalp turançılıq məfkurəsindən bəhs etsə də, bunu Leninin kommunizmi kimi utopiya adlandırmışdır.[700] Deməli, Gökalpın turançılıq məfkurəsi daha çox romantik və mədəni mahiyyətli olmuşdur. Bu mənada Gökalpın ideyalarına söykənən Atatürkün "panturanizm"i də ondan çox fərqlənmir. Belə ki, Atatürk bu dövrdəki (1920-1930-cu illər) çıxışlarında panislamizm və panturanizm ideyalarının indiyə qədər heç bir uğur əldə etməməsindən bəhs etmişdir. Atatürkün fikrincə, tək gerçək siyasət milli-ulusal

---

[698] Rəsulzadə M.Ə. Milli birlik. Bakı, «Çıraq» nəşriyyatı, 2009, s.52
[699] Yenə orada, s.53
[700] Gökalp Ziya. Türkçülüyün əsasları.Bakı:Maarif,1991, s.38

siyasətdir ki, bu mənada "dünyanın bütün türklərini içinə alacaq bir dövlət yaratmaq amacı da gerçəkləşməz düşüncədir". [701]Atatürkün turançılığa ehtiyatlı mövqeyinin nəticəsi idi ki, həmin dövrdə bəzi türk ideoloqlar (X.Müşkrim və b.) ilk türkçülərdən və turançılardan fərqli olaraq, milləti ancaq soy, dil göstəricilərilə bəlirləməyib, ona ayrı-ayrı tarixi, sosial, mədəni təsirlərinin qarşılıqlı məhsulu kimi baxırdılar. Onlar təklif edirdilər ki, "türk millətçiliyi"ndən "türk ulusalçılığı"na, yəni "türk beynəlmiləlçiliyi"nə keçilsin: "Bu ulusal sistemin yolçuları başda tanımış tarixçi Xəlil bəy Müşkrim olmaqla, türk anlayışının ulus yox, irq göstərdiyini deyən "anadoluçular" adlı məktəb də yaratmışdılar. "Anadoluçular" tək bir türk ulusunun yox, ayrı-ayrı türk uluslarının olduğunu deyirlər. Onlar bu düşüncələrini gəlişdirərək Türkiyəni Anadolu adlandırmağı da irəli sürdülər. Onlara görə, "anadolu" sözü ulusal kimliyinə "türk" sözündən daha uyğundur". [702]

Bizcə, Türk aydınlarının və liderlərinin turançılığa münasibətdə ehtiyatlı mövqe tutmasına əsas səbəblərdən biri həmin dövrdə türk ismiylə tanınan millətlərin, o cümlədən Türkiyə türklərinin dünya müstəvisində istənilən gücə sahib olmamaları idi. Belə ki, türklərin sahib olduğu ən böyük imperiya – Osmanlı İmperiyası dağılmış, digər türk dövlətləri isə Sovet Rusiyası tərəfindən işğal olunmuşdur. Belə bir vəziyyətdə Z.Gökalpın, M.Ə.Rəsulzadənin, Atatürkün və başqa türk böyüklərinin turançılığı daha çox mənəvi bir ülkü-məfkurə kimi qəbul etmələri təbii idi. Bu, onların turançılıqdan imtina etmələri deyil, Atatürkün də qeyd etdiyi kimi, zamanın tələblərinə və Türk millətinin gücünə görə siyasət yürütmək idi. Bu baxımdan çağdaş Türkiyə alimi A.Gökdəmirin aşağıdakı fikirlərinə tamamilə qatılırıq ki, Z.Gökalp, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Y.Akçuraoğlu kimi türk milliyətçiliyinə, turançılığa öncüllük və xidmət verən aydınların Türkiyənin sərhədlərinin xaricində qalan türk elləri ilə bağlı heç bir tələbdə bulunmamaları ağlabatan deyildir: "Burada əsəf ediləcək şey, aydınların turançı

---

[701] Rəsulzadə M.Ə. Panturanizm. Qafqaz sorunu. Bakı, Təknur, 2012, s.40

[702] Yenə orada, s.19

olması deyil, Türkiyənin də, Türk dünyasının da yetəri qədər güclü olmaması və qalib gələməməsidir”.[703]

Bu baxımdan 1920-1930-cu illərdə Rəsulzadənin turançılığa yeni bir açıdan baxması, bu mənada Şərqdəki milli axınlardan olan panturanizmlə Qərbdəki şovinist cərəyanları bir-birindən fərqləndirməsi başa düşüləndir. Çünki Rəsulzadənin fikrincə, Qərbdəki şovinizm-nasionalizm siyasi saldırıcı, sosial tutucu ideologiya olduğu halda, Şərqdəki millətçilik isə siyasi qoruyucu, sosial yenilikçi olaydır.[704] Başqa sözlə, ilk dövrlərdə romantik vahid Turan birliyinə qapılan türkçülər, artıq türk irqindən ayrı-ayrı millətlərin və onların da öz müstəqil dövlətlərinin yaranmasına inanırlar. Rəsulzadə yazır: “Daha romantik, siyasi panturanizm yoxdur, ancaq ulus istəklərini güdən türkçülük vardır… Türk ellərinin özünüanlaması, irq ideologiyasından ulus ideologiyasına keçir, bu da saldırıcılığı ideoloji-qurama baxımından da aradan qaldırır”. [705]

Rəsulzadə 1930-cu illərdə yazdığı “Pantürkizm haqqında” məqaləsində isə həm islamçılıq, həm də türkçülük ideyası haqqında çox düzgün nəticəyə gəlmişdir. Onun fikrincə, islam ideyasında dini-siyasi tərəflərin olması sonralar panislamizmdə iki cərəyanın yaranmasına səbəb olmuşdur. Birinci cərəyan ortodoksal-mühafizəkar xarakter daşıyaraq bir tərəfdən xarici hücumlara, başqa tərəfdən isə hər cür yeniliyə qarşı mübarizə aparır, hər cürə “avropalaşmağa” müharibə elan edirdi. İkinci cərəyan islahatçı olub, siyasi yolla Avropa işğallarına qarşı mübarizə apararaq ideologiya sahəsində liberalizmi şəraitin tələbləri ilə uyğunlaşdırmağa çalışırdı. Rəsulzadə həmin məqaləsində göstərirdi ki, “panturançıların Marksı” (yəni Y.Akçura) 1928-ci ildə “Türk ili” illik məcmuəsində əvvəlki baxışlarını təhlil edərək yazırdı: “... əgər mən “türk siyasətini” “panturanizm”dən və ya “islam siyasətini” “panislamizm”dən ayıra bilsəydim, onda,

---

[703] Gökdemir A. Düşüncə tarihimizden portreler. İstanbul, «Bayrak», 2005, s.245
[704] Rəsulzadə M. Ə. Panturanizm. Qafqaz sorunu. Bakı, Təknur, 2012, s.42
[705] Yenə orada, s.62

əlbəttə, məlum olardı ki, Türkiyə daxilində türk və ya islam siyasəti yeritmək ondan kənarda pantürkist və ya panislamist olmaq demək deyil".[706]

Türkçülüyün ideoloqlarından olan Z.Göyalp yazırdı ki, bir vaxtlar panislamizm ideyasının müsəlman xalqlarının müstəqilliklərini təmin edəcəyi, müstəmləkə vəziyyətindən xilas olacaqları düşünülürdü. [707] Təcrübə isə göstərdi ki, islamçılıq İslam dünyasında milli ideyanın meydana gəlməsinə əngəl törədir. Milli özünüdərk prosesinin ləngiməsi isə xalqların öz müstəqil dövlətlərinin yaratması fikrinə sipər çəkmək demək idi. Məhz belə bir dövrdə də türkçülük ön plana keçdi.

Rəsulzadənin yolunu davam etdirən M.B.Məmmədzadə isə "Milli Azərbaycan hərəkatı" (1938) əsərində Azərbaycan türkçülüyü ideyasının yaranması və təkamülü ilə yanaşı, mühacirət dövründə türkçülük və turançılığın türk xalqları üçün hansı: siyasi, yoxsa mədəni birlik mənası daşıması ilə bağlı mövcud olan fikirləri dəyərləndirməyə və bu məsələdə tutduğu mövqeyi ifadə etməyə çalışmışdı. O yazırdı ki, hələ çar Rusiyasının dağılması ərəfəsində türkçulər və turançılar vahid türk dövlətinin qurulması istəyində bulunsalar da, bunun imkansız olduğunu anlamışdılar: "Rusiyanın xarabalıqları üzərində vahid deyil, ayrı-ayrı türk dövlətləri qurulur və yaxud qurulmaq istənir. Dünya türklərinin geopolitik vəziyyəti, coğrafi vəziyyət etibarilə dağınıq və birbirilərindən uzaq olmaları, onları ayrı-ayrı dövlətlər qurmağa sövq etmişdi. Doğrudur, "Müsavat" firqəsi bu vəziyyəti nəzərə almış və bu milli dövlət prinsipini dilə gətirərkən bir gün bu dövlətlərin federasiya yaradacaqlarını təsəvvür etmişdi. Fəqət o «bir gün» uzaq, bu gün isə yaxın idi. Türk dünyasının geopolitik vəziyyəti, mədəniyyət və kültür xüsusunda eyni məfkurə, qayə və taktikaya sahib müxtəlif türk ellərini siyasi-dövlətçilik sahəsində məhəlli yurdçuluq-vətənçilik yoluna sövq etmişdi".[708] Onun fikrincə, bir

---

[706] Rəsulzadə M.Ə. Pantürkizm haqqında // Türk dünyası, Bakı, 1991, №1, s.15
[707] Gökalp Ziya. Türkçülüyün əsasları.Bakı:Maarif,1991, s.38
[708] Məmmədzadə M. B. Milli Azərbaycan hərəkatı. Bakı: Nicat, 1992, s.201-202

bütün halda başlayan türk milli hərəkatının ayrı-ayrı yurdçuluq və milli dövlətçilik halına gəlməsində siyasi, coğrafi, iqtisadi və strateji səbəblər mühüm rol oynamışdı.

Məhz bunun nəticəsidir ki, Türkiyədə milli hərəkata başlayanlar yalnız Anadolu türklərini düşünmüş, onların proqramında Türkiyə xaricindəki türklərdən bəhs olunmamış, hətta Türkiyə Misaqi-Millini gerçəkləşdirmək üçün Qərbi Avropa imperialistləri ilə döyüşdə Türküstan, Krım, İdil-Ural və Azərbaycan türklərinin mübarizə apardıqları Rusiya ilə müttəfiq olmaq məcburiyyətində qalmışdı. Türkiyə Cümhuriyyəti qurulduqdan sonra da bu proses davam etmiş və türk birliyi uğrunda mübarizə aparan "Türk ocağı" əvvəlcə fəaliyyətini Türkiyə ilə məhdudlaşdırmış, daha sonra isə bir müddət qapanmışdır: Məmmədzadə yazırdı: "Artıq Türkiyədə bir Türkiyə türkçülüyü doğmuşdu və bu halın cığırından sapmış bir xətası olmaq üzrə "Anadolu millətçiliyi" epizodu da müşahidə edilmişdi. "Anadolu" məcmuəsi ətrafında toplanan bir qrup ziyalılardan ibarət zümrənin irəli sürdyü iddiaya görə türklük bir millət deyil, bir irqdir və bu irqə Anadolu, Azərbaycan, Türküstan və i.a. kimi millətlər daxildir". [709] Doğrudan da, bu dövrdə türkçülüyün ideoloqu sayılan Z.Gökalp belə türkçülüyün və turançılığın real siyasi-ideoloji hədəfi kimi türkiyəçiliyi götürmüşdü. Onun fikrincə, uzaq gələcəkdə oğuzçuluq və daha sonra turançılıq mümkündür ki, bu isə daha çox siyasi deyil, mədəni birlik mahiyyətli idi. [710] Gökalpın bu fikirlərini əsas tutaraq M.B.Məmmədzadə qeyd edirdi ki, bu mənada artıq türkçülük-türk birliyi kimi romantik turançılıq da əski mənasını tamamilə dəyişdirmişdi.

O yazırdı ki, türkçülük və turançılıq məsələsində "Müsavat"ın 1938-ci ildə qəbul etdiyi "Yeni proqram əsasları"na görə, ümumi türkçülüklə Azərbaycan türkçülüyünü ideal bir surətdə birləşdirməyə nail olmaqdan ibarətdir. Yəni müsavatçılar da türk mədəni birliyinə sadiq və bağlı qalmaqla yanaşı, müstəqil

---

[709] Yenə orada, s.206

[710] Göyalp Z. Türkçülüyün əsasları. Bakı: Maarif, 1991, s.38

Azərbaycan türkçülüyü ideyasını müdafiə edirlər: "Müsavatçılıq böyük türk kültürünə bağlı, milli, mədəni və insani dəyərləri mənimsəyən, hürriyyət, cümhuriyyət və istiqlal idealına sadiq Azərbaycan vətənsevərliyidir. Böyük türklüyə mənsub bir məmləkət olması səbəbilə Azərbaycan digər türk elləri ilə kültürəl surətdə bağlıdır. Bu bağlılığın bundan əvvəl olduğu kimi, bundan sonra da qorunmasını müsavatçılıq ciddiyyətlə müdafiə edər".[711]

Bununla da, Azərbaycan Milli İdeyasını müdafiə edən Məmmədzadə və başqa müsavatçılar hesab etmişdilər ki, azərbaycançılığın tarixi bir missiyası vardır. Həmin missiya "Müsavat"ın "Yeni proqram əsasları"ında öz əksini belə tapmışdı: "Azərbaycan qədim zamanlardan bəri tarixin müxtəlif dövrlərində özünəməxsus siyasi varlıq göstərərək müstəqil dövlət halında yaşamışdır. Azərbaycan xalqı isə müasir millət olmaq üzrə zəngin bir kültür həyatına malik bulunmuş və bunun məntiqi nəticəsi olaraq siyasi bir ideal daşımışdır. Bu ideala tərcüman olan milli Azərbaycan "Müsavat" xalq firqəsi 1918-ci ildə milli Azərbaycan Cümhuriyyəti istiqlalının elanındakı təşəbbüsü, bu təşəbbüsün fikirdən işə keçirilməsi yolundakı fəaliyyəti və nəhayət, qızıl rus istilasına qarşı milli mücadilə işində göstərdiyi yol göstərənliyi ilə bütün azərbaycanlıların biricik siyasi təşəkkülüdür»[712].

Mirzə Balanın fikrincə, istiqlal və milli dövlət ən yüksək, ən qüdsi və ən insani bir məfkurəni milli sərhədlər daxilində gerçəkləşdirmək üçün bir vasitədir: "Zatən siyasi türkçülük, milli dövlət qurmaq hərəkatı milli varlığı qorumaq əndişəsindən və mədəni millətçiliyi gerçəkləşdirə bilmək arzusundan doğmamışdırmı? Müstəqil və azad bir milli dövlət həyatı türk mədəni birliyini tətbiq etməkdən və gerçəkləşdirə bilməkdən əlavə millətin fərdlərini səadətə və rifaha qovuşdurmaq, ictimai bir ədalət və bərabərlik qura bilmək üçün də lazımdır".[713] Beləliklə, o, belə bir doğru nəticəyə gəlir ki, "Müsavat"ın liderliyi ilə Azərbaycan xalqı

---

[711] Məmmədzadə M. B. Milli Azərbaycan hərəkatı. Bakı: Nicat, 1992, s.209
[712] Yenə orada, s.209
[713] Yenə orada, s.211

ümmətçilikdən-islamçılıqdan türkçülüyə, ümumi türkçülükdən Azərbaycan türkçülüyünə-Azərbaycan milli dövlətçiliyinə doğru böyük bir yol keçmişdir: "Əgər o ("Müsavat"-F.Ə.), "islamçılıq" dövründən "ümumi türkçülüyə", oradan da türk kültür birliyinə əsaslanan "Azərbaycan milli dövlətçiliyinə" keçməmiş olsaydı, yerini başqa ifrat və qeyri-milli firqələrə verəcəkdi".[714]

Biz də, hesab edirik ki, hazırda Turan adı altında vahid Türk dövləti yaratmaq mümkün deyil. Amma bu o demək deyil ki, biz turançılıq ideyamızdan əl çəkməliyik. Turan bizim mənəvi-mədəni anlamda birliyimizi ifadə edir. Bu, siyasi deyil, daha çox kütürəl bir birlikdir. Bu baxımdan Rəsulzadənin də irəli sürdüyü kimi, Türk xalqlarının birliyi yalnız müstəqil Türk dövlətlərinin birliyi şəklində olmalıdır. Yenə də, Rəsulzadənin təbrincə desək, Türk xalqları əvvəlcə azadlıqlarını əldə edib müstəqil olmalı, daha sonra hər hansı ittifaq, federasiya halında birləşməlidirlər.

Çünki Rəsulzadənin fikrincə, 28 Mayda "Turanın mərkəzində Azərbaycan" adlı bir ölkə yaranmışdır ki, "yeni Turanın açarı" ondadır. Yeni Azərbaycan Türk ocağı, əski Türk yurdudur.[715] Ona görə, Türkiyə türkçüləri başda Gökalp olmaqla turançılığı nəzəri şəkildə yaymaqda ikən, Azərbaycan turançıları bunu siyasi bir fəlsəfə kimi qəbul edərək qurduqları milli siyasi partiyanın prinsipi elan etmişdilər. Bu siyasi fəlsəfəyə görə, bütün müsəlmanları "İslam birliyi" altında birləşdirmək mümkün deyilsə, ancaq bütün türklər öz aralarında böyük dünya federasiyasına nümunə olmaq üzrə bir Türk federasiyası yarada bilərlər.

Milli aydınımız onu da qeyd edirdi ki, Azərbaycan türkləri yalnız türkçü və demokrat deyil, həm də Türk birliyi tərəfdarıdırlar – gələcəkdə Türk Federasiyasının yaranmasını istəyirlər: "Bizim federalist, türkçü və demokratizm məsləkimiz milli-demokrat məsələsidir. Demokratlığımız radikalizm dərəcəsinə qədər vardır. Millətin qüvvətli bir birləşdirici ümumi cəhətini yalnız dinə deyil, xalqın "dili dilimdən, dini dinimdən» deyə özünəməxsus sağlam

[714] Yenə orada, s.234
[715] Yenə orada, s.35

hisslə dərk elədiyi düsturda görürüz. Bu mülahizə ilə biz məfkurəmizdə böyük bir türk millətinin bir gün gəlib də bir Türk Federasyonu qurmaqla bütün görmək istəriz! Bu ittihadın bəşər mədəniyyəti sərgisinə qiymətli bir milli kültür bəxş edəcəyinə əminiz!”.[716] Beləliklə, Azərbaycan Cümhuriyyət dövründə M.Ə.Rəsulzadə milli-demokratik cərəyanın əsasını təşkil edən türkçülük, islamçılıq, müasirləşmək ideyalarına sadiq qalmaqla yanaşı, gələcəkdə türk millətlərinin Türk Federasiyası yarada bilməsinin mümkünlüyünü də irəli sürürdü. Bu gün biz də bir Azərbaycan türkü olaraq hesab edirik ki, Türk-İslam birliyi adı altında müsəlman olmayan digər türklərin, yəni xristian türklərin, buddist türklərin, şamanist türklərin Türk Birliyindən kənarda tutulması da qətiyyən doğru deyildir. [717]

Hazırda hər türk dövlətinin öz müstəqilliyini qoruyub saxlaması, özünəməxsus ideoloji-siyasi sistemində sərbəst olması və türk xalqlarının özünə inamının bərpa olunması vacibdir. Bizim türk xalqları olaraq yenidən dirilişə ehtiyacımız var. 44 günlük Azərbaycan Vətən Müharibəsi, bu müharibədə qardaş Türkiyənin Azərbaycana verdiyi siyasi-dplomatik və mənəvi dəstək həmin inama, dirilişə və birliyə xidmət etməkdədir.

Biz antitürk dairələrin Azərbaycanda, Türkiyədə, Türküstanda zaman-zaman yaradılmasına cəhd göstərdiyi saxta tarixdən, qeyri-milli ideyadan deyil, millətin min illər boyu qoruyub saxladığı və yaşatdığı milli tarixdən, milli fəlsəfi fikirdən, milli ədəbiyyatdan, milli ideyadan çıxış etməliyik. Çünki vahid türk fəlsəfəsini, türk tarixini, türk dini-fəlsəfi düşüncə sistemini, türk ədəbiyyatını və s. mənimsəmədən, onun tarixi-fəlsəfi mahiyyətinə varmadan heç vaxt türkçülüyün bütün türklər üçün hansı önəmi daşıdığını da, dərk edə bilmərik. Başqa sözlə, ayrıca götürülmüş bir ölkənin (Azərbaycan, Qazaxıstan,

---

[716] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqraifk hesabatlar). I c. Bakı, «Azərbaycan» nəşriyyatı, 1998, səh.51

[717] Ələkbərli F.Q. Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər). II hissə. Bakı, “Elm və təhsil”, 2020, s.255-267

Qırğızıstan, Özbəkistan, Türkiyə, Türkmənistan) fəlsəfəsi, tarixi, ədəbiyyatı, mədəniyyəti və s. ilə yanaşı, ümumi türk fəlsəfəsi, türk dini-fəlsəfi dünyagörüşü, türk mədəniyyəti, türk ədəbiy-yatı, türk tarixindən də bəhs olunmalı, tədris edilməlidir. Türk Akademiyasının "Ortaq türk tarixi" dərsliyi, o dərsliyin pilot layihə olaraq, bir çox məktəblərimizdə tətbiqi bu sahədə olumlu addımlardandır. Ancaq bu halda türk dövlətlərində, o cümlədən ötən yüzilin sonlarında keçmiş SSRİ-nin tərkibindən çıxaraq müstəqillik əldə edən ölkələrin gənc nəsilləri, sözün həqiqi anlamında türk kimliyini, türk mədəniyyətini, türk fəlsəfəsini, türk tarixini daha dərindən və yaxından anlamış olacaq. Bütün bunların gerçəkləşəcəyi təqdirdə Türk birliyi ideyası daha real müstəvi üzərində maddiləşmiş olacaq.

*Biz müstəqil Qafqasiya Konfedarasiyası fikrini zamanın ən aktual bir tezisi olaraq müdafiə edirik!*
**M.Ə.Rəsulzadə**

## 4.4. M. Ə. Rəsulzadə qafqazçılıq ideyası və Qafqaz Konfederasiyası haqqında

XX əsrdə Qafqaz birliyi, qafqazçılıq ideyasının gerçəkləşməsi iki dəfə baş vermişdi. Ancaq onlardan biri könüllük şəkildə baş vermişdirsə, ikinci halda Sovet Rusiyasının istəyilə baş tutmuşdur.

Hələ, 1915-ci ildə Türkiyədə yaşayan Qafqaz xalqlarından (azərbaycanlı türklər, gürcülər, çərkəzlər, və b.) bir qrupu "Qafqaz Komitəsi" adlı təşkilat yaratmışlar. Həmin ilin dekabrında "Qafqaz Komitəsi"nin İsa Paşa, Əziz Məkər və Fuad Paşa, Səlim bəy Behbudov, knyaz Maçabeli və Kamil bəy Toqiridzedən ibarət bir heyəti Avropa dövlətlərinə memorandum təqdim etmək üçün Berlin və Vyanaya getmişdi. Memorandumda Qafqazın xilas edilməsi və Qafqaz xalqlarından ibarət bir konfederasiyanın qurulması üçün "Qafqaz Komitəsi"nə kömək göstərilməsi xahiş olunurdu."[718] X.İbrahimli yazır ki, sədri Şimali Qafqaz mühaciri Marşal Fuad Paşa olan "Qafqaz Komitəsi" Qafqazın istiqlaliyyətinə çalışır və Rusiyadan ayrıldıqdan sonra onun konfederativ bir siyasi qurum kimi formalaşacağının nəzəri əsaslarını hazırlayırdı: "Avropada ictimai rəy formalaşdırmaq üçün komitə üzvləri bu istiqamətdə güclü təbliğat aparırdı: əsərlər, müxtəlif mətbuat orqanlarında məqalələr dərc edilir, dövlətlərə rəsmi müraciətnamələr imzalanır, mühazirələr oxunurdu". [719]

"Qafqaz Komitəsi"nin Türkiyə, Almaniya, Avstriya-Macarıstan və İsveçrədə fəaliyyət göstərdiyi dövrdə İstanbulda Yusif Akçura tərəfindən "Rusiya məhkumu müsəlman Türk-Tatarların haqqını Müdafiə Komitəsi" adlı böyük bir siyasi təşkil-

---

[718] Məmmədzadə M. B. Milli Azərbaycan hərəkatı. Bakı: Nicat, 1992, s.172-173
[719] İbrahimli X. Azərbaycan mühacirət tarixi. Bakı, ADPU nəşriyyatı, 2012, s.28

at yaradıldı. Əli bəy Huseynzadənin də fəal üzvü olduğu bu təşkilata çox vaxt "Akçura-Huseynzadə" komitəsi deyirdilər.[720]

1915-ci ildə "Akçura-Huseynzadə" komitəsinin "Pester Lloyd" qəzetində dərc etdirdiyi memorandum Rusiya türkləri üçün istiqlaliyyət məsələsini gündəliyə gətirən ilk sənədlərdən sayıla bilər. Avropa ictimai fikrini cəlb edən bu sənəddə deyilirdi: "Rusiya öz təbəsi olan türk və digər müsəlman xalqlarının ən təbii, məşru və müqəddəs haqlarını cəbrən əllərindən almışdır, onlara öz irqdaşları ilə hər türlü təmas yasaq edilmişdir. ...Rusiyadakı müsəlmanlar ən müqəddəs dini vəzifələrini belə icradan məhrum buraxılarlar, hər türlü hırsı və milli tərbiyə imkanı onların əllərindən alınmışdır... Əllərimizi göylərə qaldıraraq istirham edirik: bizi rus zəncirindən xilas ediniz".[721] "Qafqaz Komitəsi" və "Akçura-Huseynzadə" komitəsi nümayəndələri mühüm fürsətdən faydalanaraq Lozanna konfransında Rusiya məhkumu millətlərin istiqlaliyyəti məsələsi ilə bağlı çıxışlar ediblər.

Qafqaz xalqlarının vahid dövlət ətrafında birləşməsi ilk dəfə çar Rusiyasının faktiki olaraq süqutundan, yəni 1917-ci il fevral burjua inqilabından sonra üç xalqın – türklərin, gürcülərin və ermənilərin təmsilçiliyilə Güney Qafqazın idarəçiliyi üçün, Tiflisdə ortaq bir dövlət qurumunun yaranmasııyla gerçəkləşməyə başlamışdır. Belə ki, çarizmin yerində Petroqrada qurulmuş Rusiya Müvəqqəti hökumətinin qərarı ilə martın 9-da Güney Qafqazda hakimiyyət yeni yaradılmış orqana - Xüsusi Güney Qafqaz Komitəsinə verildi.[722] Ancaq həmin ilin oktyabrın 25-də bolşeviklərin Rusiyada çevrilişi nəticəsində ikihakimiyyətlilik yarandı ki, noyabrın 11-də RSFSR-ə tabe olmaq istəməyən gürcülərin Sosial-Demokrpat (menşeviklər), azərbaycanlı türklərin "Müsavat", ermənilərin "Daşnaksutyun" partiyaları və sağ eserlərin nümayəndələri Tiflisdə keçirdikləri müşavirədə Rusiya

---

[720] Yenə orada, s.29

[721] Həşimova A. XX əsrin birinci yarısında Azərbaycan mühacirəti. Bakı, 1992, s.66

[722] Azərbaycan tarixi. Yeddi cilddə, V cild. Bakı: Elm, 2008, s.293

bolşevik hökumətinin hakimiyyətini tanımaqdan imtina edərək "Müstəqil Zaqafqaziya hökuməti" yaratmaq haqqında qərar qəbul etdilər. Bununla da Xüsusi Güney Qafqaz Komitəsinin yerinə, Güney Qafqazı idarə etmək üçün noyabrın 15-də Tiflisdə Y.P.Gegeçkorinin sədrlik etdiyi Zaqafqaziya Komissarlığı yaradıldı.[723]

1918-ci ilin fevralın əvvəllərində Tiflisdə, Güney Qafqazdan Ümumrusiya Müəssisələr Məclisinə seçilmiş deputatların yığıncağında Zaqafqaziyanın ali hakimiyyəti orqanı olan Zaqafqaziya Seymi (parlamenti) açıldı və bu bölgədə əsas güc mərkəzinə çevrildi. Fevralın 23-də öz işinə başlayan Seymdə əsasən üç partiyanın - "Müsavat" (Azərbaycan türkləri), "Daşnaksutyun" (ermənilər) və Sosial-Demokrat-Menşeviklərin (Gürcülər) nümayəndələri təmsil olunurdular. Ancaq Seymdə eserlər, menşevik-hümmətçilər, sosialistlər, ittihadçılar və başqa siyasi təşkilatlar da iştirak edirdilər. Müsəlman-Türk fraksiyasının təkidilə Zaqafqaziya Seymi aprel ayının 22-də Zaqafqaziyanın suverenliyini elan etsə də,[724] onun varlığı mayın 26-da Gürcüstanın öz müstəqilliyini elan etməsiylə sona çatmış oldu.

Rəsulzadənin rəhbərlik etdiyi müsəlman-türk fraksiyası Qafqaz seyminin güclənməsindən, hətta Quzey Qafqaz Dağlılarının da buraya cəlb olunmasından yana idilər. Müsəlman-Türk fraksiyasının 1918-ci il martın 25-də M.Y.Cəfərovun sədrliyi ilə keçən iclasında fraksiyanın 13 üzvü ilə yanaşı, Quzey Qafqaz Dağlılarının nümayəndələri də iştirak etmişlər. Gündəlikdə duran əsas məsələ isə Quzey Qafqazın Zaqafqaziya hökumətinə birləşdirilməsi məsələsi olmuşdur. Müsəlman fraksiyasının rəhbərləri bildiriblər ki, onlar bu məsələ barədə Seymin gürcü və erməni nümayəndələri ilə də danışıblar, gürcülərin bu məsələni tam dəstəklədiklərini ermənilərin isə bu işə razı olmadıqlarını bildiriblər. Müsəlman fraksiyası adından çıxış

---

[723] Yenə orada, s.319

[724] Балаев А. Азербайджанское национальное движение в 1917-1918 гг., Баку: Элм, s.184-185

edən Nəsib bəy Yusifbəyli bu təklifi tamamilə bəyəndiklərini bildirərək dağlılarla Zaqafqaziya türkləri arasındakı münasibət məsələlərini müəyyənləşdirməyi təklif edib. Bunun müqabilində Topa Çermoyev Dağlıların federativ və ya konfederativ bufer dövlət kimi Zaqafqaziya ilə birləşdirməyi təklif etmişdir. Bununla da həmin məsələnin həlli üçün Dağlılardan və Zaqafqaziya türklərindən ibarət bir komissiya yaradılmışdı.[725]

Müsəlman fraksiyasının aprelin 6-da keçirilən iclası bütünlüklə müsəlman sosial-demokrat “Hümmət” partiyasının gürcü menşeviklərinin Zaqafqaziyanın müstəilliyi məsləsində ikili münasibətinə həsr olunmuşdur. Seymin üzvü Əlixan Qantəmirov iclasda bildirib ki, mürəkkəb siyasi bir şəraitdə Bakıda müsəlman demokratiyası bolşevik-erməni bandasının əli ilə məhv edildiyi bir vaxtda “Hümmət” partiyasının Rusiya demokratlarına müraciət edərək onlardan kömək xahiş etmək cəhdi Zaqafqaziyanı da bolşeviklərin qan dəryasında boğdurmaq deməkdir. "Hümmət"çilər adından çıxış edən Səməd Ağamalıoğlu Ə.Qantəmirovun sualına birbaşa cavab verməkdən yayınaraq ümumi sözlərlə "Hümmət" partiyasının demokratikliyini nəzərə çatdırmağa cəhd edir. Həmin partiyanın digər üzvü Ç.Axundov isə bu suala birmənalı cavab verərək bildirir ki, "Biz müstəqil Zaqafqaziyanın nə Çimala, nə də cənuba meylinin tərəfdarı deyilik. Bolşeviklərə münasibətdə isə "Hümmət"çilər onlarla amansızcasına mübarizə aparmağa hazırdı. Eyni zamanda isə, bütün qüvvələrini başqa xalqların mötədil demokratları ilə əl-ələ getməyə hazırdı".

N.Yusifbəyov və H.Ağayev ona bildirirlər ki, gürcü menÇevikləri gürcü millətçiliyi siyasəti yeridir, siz isə onların quyruğunda sürünürsünüz. S.Ağamalıoğlu cavab verir ki, "Demokratiyanın mənafeyi üçün biz Zaqafqaziyanın müstəqilliyi tərəfində dururuq. Bizim başlıca məqsədimiz müstəqillikdir". Seymin "Hümmət" partiyasından olan digər üzvü N.Camalbəyov

---

[725] Zaqafqaziya seyminin müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları 1918-ci il. Bakı, Adiloğlu nəşr., 2006, s. 5-6

bildirir ki, "əgər müstəqillik olmayacaq və Şimaldan buraya bolşeviklər gələcəksə, onda biz bolşeviklərin əleyhinə olub, bu halda Türkiyəyə meyl edəcəyik, əgər Şimaldan həqiqi demokratiya gələrsə, biz onlarla birlikdə türklərin əleyhinə olacağıq". Onlara cavab verən M.Ə.Rəsulzadə bildirib ki, "biz əldə silah mübarizə aparacağıq ki, necə olursa-olsun Zaqafqaziya bir də Rusiyaya geri qayıtmasın". [726]

Cümhuriyyət dövründə də M.Ə.Rəsulzadə Azərbaycan milli ideyası ilə Qafqaz Birliyi ideyası arasında uzlaşmanın olması ilə bağlı da ciddi siyasi-nəzəri müddəalar ortaya atmışdır. O, 1919-cu ilin noyabrında "Azərbaycan" qəzetində yazırdı: "Mən Azərbaycanı Qafqaz İttifaq dövlətinin konfederativ tərkib hissəsi kimi təsəvvür edirəm. Həmin ittifaq dövlətinin tərkibinə Azərbaycan, Gürcüstan, Ermənistan və Şimali Qafqaz daxil olmalıdır".[727]

Qafqaz Birliyi məsələsi 1919-cu il noyabrında keçirilən Müsavat partiyasının 2-ci qurultayında da müzakirə edilmişdi. Bu ideyanı müdafiə edən Rəsulzadənin təşəbbüsü ilə qurultay iştirakçıları Qafqaz respublikalarının Qafqaz Konfederasiyası azad ittifaqında birləşməsi ilə bağlı qətnamə də qəbul etmişdi.[728]

Bu dövrdə Rəsulzadə ilə yanaşı tanınmış Azərbaycan Türk mütəfəkkirləri Əli bəy Hüseynzadə, Əli Mərdan Topçubaşov və başqaları da Qafqaz birliyi ideyasını müdafiə etmişlər. Topçubaşov 1918-ci ildə qələmə aldığı "Azərbaycan Cümhuriyyətinin yaradılması" əsərində yazırdı ki, Güney Qafqazın üç ulusu (türklər, gürcülər və ermənilər) İsveçrə Respublikasında olduğu kimi konfederasiya əsasına dayanan ortaq bir siyasi yaşama iqlim, təbiət özü yönəldir: "Konfederasiya quruluşu düşüncəsi Güney Qafqazda olduqca geniş yayılmışdır. Bu düşüncə bu il (1918) aprelin 9-da bütün Güney Qafqazın bağımsızlığının bildirilməsi, ölkədə bir yönətim yaratmış Ağalığın yaradılması ilə sözdən işə keçdi. Bu baxış indi də yaşamaqda olub, istəyənləri arasında

[726] Yenə oraad, s.8-9
[727] Balayev Aydın. Məmməd Əmin Rəsulzadə (1884-1955). Bakı, Çıraq, 2012, s.184
[728] Yenə orada.

ermənilərin, gürcülərin, azərbaycanlıların liberalları, ulusalçı partiyaları ilə yanaşı Güney Qafqazın bütün ellərinin birləşmək istəyən sosial-demokrat partiyaları da bulunmaqdadır.” [729]

Hətta, həmin dövrdə Turançılığın ideoloqu Əli bəy Hüseynzadənin belə Qafqaz Federasiyasının yaranmasını mümkün variantlardan biri saymışdır. Hər halda Tadeuş Svyatoçovski yazır ki, həmin dövrdə Ə.Hüseynzadə Cənubi Qafqaz bölgəsi üçün üç seçənəkdən: 1) Qafqaz Federasiyasından; 2) müstəqil türk, gürcü və erməni dövlətlərindən; və 3) Qafqaz türklərinin Türkiyəyə birləşməsindən bəhs etmişdir.[730]

1920-ci il aprelin 7-də Qafqaz respublikalarının Tiflis konfransında Həsən bəy Ağayevin başçılıq etdiyi Azərbaycan nümayəndə heyətinin təşəbbüsü ilə Qafqaz Cumhuriyyətləri Şurası yaratmaq barədə razılaşma əldə olunmuşdu. Bu şuranın yaradılması haqqında Azərbaycan Ədliyyə nazirinin müavini O. Nayman Mirzə Kriçinski tərəfindən 24 maddədən ibarət bir layihə hazırlandısa, aprelin 27-də Azərbaycanı XI Ordunun işğalı ilə məsələ öz-özünə dayanmalı oldu.[731]

Çox maraqlıdır ki, Sovetlər Birliyi ya da Sovet Sosialist Respublikalar İttifaqı (SSRİ) dövründə də Zaqafqaziya Federasiyası yaradılmışdı. Ancaq bu dəfəki birlik Sovet Rusiyasının diktəsi altında məcburi olaraq gerçəkləşdirilmişdir. Hələ, 1921-ci il noyabrın 3-də RK (b)P MK Qafqaz bürosu, noyabrın 29-da isə RK (b)P MK-nin Siyasi bürosu Zaqafqaziya Federasiyasının yaradılması haqqında qərar qəbul etmişdir. Zaqafqaziya kommunistlərinin 1922-ci il fevralın 18-22-də Tiflisdə keçirilən I qurultayında Zaqafqaziya kommunist təşkilatlarının vahid partiya rəhbərliyində birləşdirilməsi "bütün Zaqafqaziyanın idarə olunmasının Mərkəzin əlində cəmləşdirilməsi" məqsədini güdürdü."[732]

---

[729] Topçubaşı. Ə.M. Azərbaycan Cümhuriyyətinin yaradılması. Bakı, «Təknur», 2013, s.54-55

[730] Свйатоховский Т. Руский Азярбайджан 1905-1920 гг. «Хазар», 1990, №1

[731] İbrahimli X. Azərbaycan mühacirət tarixi. Bakı, ADPU nəşriyyatı, 2012, s.139

[732] Azərbaycan tarixi. Yeddi cilddə. VI cild (1920-1941).Bakı: Elm, 2001, s.161

1922-ci il dekabrın 10-da Zaqafqaziya Sovetlərinin 1-ci qurultayında ali orqan olan Zaqafqaziya Mərkəzi İcraiyə Komitəsi seçildi. Beləliklə, Zaqafqaziya Sovet Respublikalarının Federativ Respublikası (ZSRFR) yarandı. 1922-ci il dekabrın 30-da Moskvada SSRİ-nin birinci Sovetlər qurultayı keçirildi. Qurultay 4 respublika - RSFSR, Ukrayna, Belorusiya və ZSFSR əsasında SSRİ-nin yaradıldığını elan etdi. Ancaq Sovetlər Birliyi dövründə yaradılmış ZSFSR-in də ömürü uzun çəkməmiş, 1936-cı ildə hər bir Cənubi Qafqaz ölkəsi, o cümlədən Azərbaycan SSR müstəqil şəkildə Sovetlər Birliyinin üzvü olmuşdur.

Sovetlər Birliyi qurulduqdan sonra Azərbaycanı Cümhuriyyətini tərk etməyə məcbur olub mühacirət həyatı yaşayan mütəfəkkirlər arasında da ən geniş yayılmış ideyalardan biri Qafqazçılıq olmuşdur. Belə ki, Əlimərdan bəy Topçubaşovun təşəbbüsü ilə 1921-ci il mayın 8-də qafqazlı mühacirlər Azərbaycan Cümhuriyyətinin Paris nümayəndəliyinə yığışaraq "Qafqaz konfederasiyası"nı müzakirə etmişlər. Müzakirənin nəticəsi olaraq Azərbaycan, Şimali Qafqaz, Gürcüstan və Ermənistan nümayəndə heyətləri arasında müştərək saziş imzalanmışdı. Daha sonra 1927-ci ildə Polşada Müstəqil Qafqaz İstiqlal Komitəsi yaradılmış, orada Azərbaycandan M.Ə.Rəsulzadə və M.Ə.Mehdiyev, Gürcüstandan N.Jordaniya, A.Çxenkeli, A.Asantnani, S.Mdivani Simali Qafqaz adından isə M.Sunşev və İ.Xumşov təmsil olunmuşdu.

1934-cü ilin 14 iyulunda Bürüsseldə ortaq bir Pakta imza atan gürcülər, şimalı qafqazlılar və azərbaycanlılar Qafqaz Cümhuriyyətləri Konfederasiyasını yaratmaqla doğru yol tutmuşdular. 1934-cü ildə Qafqaz Konfederasiyası aktını Azərbaycan adından Ə.Topçubaşı və Rəsulzadə qol atmışdı.

Tarixdə həm də Qafqaz Konfederasiyası Paktı adlanan 14 iyul andlaşmasında:

- "Bir millətin tam inkişafının ancaq tam bir istiqlal şərtilə mümkün ola biləcəyini;

- Təkmil Qafqaz qüvvələrinin tək və müştərək bir hüdud daxilində birləşmədən, bu məqsədə nail olmanın son dərəcə müşkül olacağını;

- Qafqaz millətlərinin xarici siyasət və milli müraciətlərinin müştərək bir tərzdə ifadə edilməsinin zəruriliyini;

- Qafqaz Cümhuriyyətləri Konfederasyonunun məmləkətin siyasi və iqtisadi vəhdətindən irəli gələn siyasi bir şəkil olduğunu" nəzərə alan Azərbaycan, Gürcüstan və Şimali Qafqaz Milli Mərkəzləri Qafqaz Konfederasiyasının aşağıdakı əsaslarını elan etdilər:

1. Qafqaz Konfederasiyası xaricdə tərkibinə aldığı cümhuriyyətlər adına hərəkət edəcək və müştərək siyasi gömrük hüduduna malik olacaq.

2. Konfederasiyaya daxil olan Cümhuriyyətlərin xarici siyasəti qurumun səlahiyyətli nümayəndələri tərəfindən idarə ediləcək.

3. Konfederasiyanın hüdudları Cümhuriyyətlərin ordularından təşkil olunan və vahid komandanlıq altına alınan Konfederasiya Ordusu tərəfindən müdafiə olunacaq.

4. Konfederasiyadaxili mübahisəli məsələ Yüksək Konfederasiya Məhkəməsinə veriləcək. [733]

14 iyul Paktının məqsədləri ilə bağlı Qafqaz İstiqlal Komitəsi yaydığı bəyannamədə- "yaxında bir konfrans çağırılacağını və QİK-in istefasını qəbul edəcək olan bu konfransın müştərək bir Qafqaz orqanı yaradacağını bildirmişdir". Nəhayət, 1935-ci il fevralın 14-də nəzərdə tutulan konfrans çağırıldı. Konfrans Qafqaz Konfederasiyası ideyasının gerçəkləşməsi və öz mıllətlərinin hürriyyəti uğrunda son nəfəsinə qədər mübarizə aparan Ə. M. Topçubaşov, İ. Ramişvili və Əhməd bəy Solikattinin xatirəsini yad edərək, 8 illik mücadilənin yekunu kimi Qafqaz Konfederasiyası Şurasının yaradılmasını bəyan etdi. [734]

---

[733] İbrahimli X. Azərbaycan mühacirət tarixi. Bakı, ADPU nəşriyyatı, 2012, s.141.

[734] Yenə orada, s.142

QKŞ Azərbaycan, Gürcüstan və Şimali Qafqaz Milli təşkilatlarının nümayəndələrindən ibarət olub, paritet əsaslarla qurulmuşdu. Şura nizamnaməyə uyğun olaraq mütəmadi toplanır, Qafqaza aid bütün siyasi məsələlərlə məşğul olur və rəyasət Divanının tətbiq edəcəyi siyasətin əsas xətlərini müəyyənləşdirirdi. Azərbaycanı Şurada təmsil edən səlahiyyətli nümayəndə Milli Mərkəzin sədri M. Ə. Rəsulzadə idi.

Gördüyümüz kimi, qafqazçılıq, Qafqaz birliyi məsəlsində əsas ideoloqlardan biri Rəsulzadə idi. Onun fikrincə, bir müddət - turançılığın inqilabçı ideyalarından ilhamlanaraq milli varlığını qorumaq ideyasına çatan Azərbaycan xalqı hazırda daha çox müstəqil Qafqaz Konfederasiyası siyasi birliyindən qıraqda qurtuluş olmadığını anlamışdı. [735] Bununla da, Rəsulzadə gələcəkdə gerçəkləşməsini mümkün saydığı Türk dövlətlərinin Türk Federasiyası ideyası ilə yanaşı, Qafqaz Konfederasiyasını da müdafiə etmişdir. Rəsulzadə yazırdı: "Biz müstəqil Qafqasiya Konfedarasiyası fikrini zamanın ən aktual bir tezisi olaraq müdafiə edirik". [736]

Bu isə o demək idi ki, Rəsulzadə Azərbaycan milli ideyası ilə Qafqaz Birliyi ideyası arasında uzlaşmanın olması ilə bağlı da ciddi siyasi-nəzəri müəddəalar irəli sürmüşdür. Rəsulzadəyə görə slavyan birliyi fikri Çexoslovakiya dövlətinin təşəkkülünə mane olmadığı kimi, Türk birliyi fikri də Azərbaycanın müstəqil bir türk dövləti kimi Qafqaz Konfederasiyasına girməsinə əngəl ola bilməz. Bu baxımdan Rəsulzadənin fikrincə, Qafqaz Konfederasiyasını qurmaq üçün çalışan təşkilatların ancaq Rusiya imperializminə qarşı qüvvələrdən ibarət olaraq vücuda gəlməsi haqqındakı deyilənləri Türkiyə ilə birləşmək niyyəti kimi anlamaq üçün ancaq Hondkaryan qədər Rusiya düşgünü və Türkiyə düşməni olmaq lazımdır: ""Rusofilliyini", yəni rus imperializminin dostu olduğunu etiraf edən Hondkaryan bu "prestijin" istiqlalçılığa toxunmadığını dava edir və gülünc olmaq qorxusunu

---

[735] Rəsulzadə Məhəmməd Əmin. Panturanizm. Qafqaz sorunu. Bakı, Təknur, 2012, s.63
[736] Rəsulzadə M.Ə. Milli birlik. Bakı, «Çıraq» nəşriyyatı, 2009, s.52

gizlətmədən "rus işğalı Polşaya istiqlal verdi" – deyir. Söyləmək lazımmıdır ki, Polşa istiqlalçılığının rus düşmənçiliyi üzərində qurulduğunu bilməyən beynəlmiləl hərəkatlar tarixinə az-çox aşina tək bir münəvvər tapılmaz!... Bəli, Hondkaryan əfəndi! Panturanizmin dünənki təmsilçilərinə Qafqaz Konfedeasiyasının türk fikri üçün mane təşkil etmədiyini söylədiyiniz kimi, sizə də ruspərəstliyin Qafqaz istiqlalçılığı ilə uzlaşdırılmasının qəbul olmadığını söyləməliyik, və sizin bir "günah" kimi göstərdiyiniz türk dostluğu isə buna qətiyyən bənzəməz! Rus imperializmilə mücadilə halında ikən siz də qəbul edin ki, qafqazlılar üçün "rus-ofillik" çox da müsbət bir dəstək olmasa gərək! Halbuki Rusiya-nın öz milli hüdudu daxilində qalmasına candan tərəfdar olmaları lazım gələn qonşu dövlətlərə, Türkiyə ilə İrana qarşı qafqazlılar tərəfindən göstəriləcək yaxınlıq duyğusunun mənası tamamilə başqa və müsbətdir. Hondkaryanların istədiyi kimi, Türkiyə düşmənliyi üzərində qurulan Qafqaz birliyinin bugünkü Sovetlər İttifaqına daxil Cənubi Qafqaz Federasiyasından başqa bir mənası ola bilməz. Bu məna Hondkaryan düşünüşündəki bəzi erməni siyasilərini təmin və onun rus əfəndilərini məmnun edərsə də, zənn etmirik ki, qafqazlı digər millətlərə mənsub siyasi təşkil-atları, hətta erməni millətinin həqiqi və həyati mənfəətlərini dərk edən ağlı başında (erməni) mütəfəkkirləri belə məmnun etsin?!".[737]

Rəsulzadənin və onun mühacirətdəki dostlarının fəallığı ilə 1952-ci il dekabrın 11-16-da Almaniyanın Münhen şəhərində Ümumqafqaz konfransı keçirildi. Konfrans, "Qafqaz İstiqlal Komitəsi" adı altında "Ümumqafqaz Mərkəzi yaradaraq ona aşağıdakı vəzifələri həvalə etdi: "a) Qafqaz millətlərinin milli qurtuluş mücadiləsini xaricdə təmsil və idarə etmək; b) ABŞ və Batı dövlətləri başda olmaq üzrə... bolşevizmə qarşı savaşda məhkum millətlərin yardımlarına ümid bağladıqları dövlətlərlə, millətlərarası təşkilatlarla QİK-nin fəaliyyətini uzlaşdırmaq; v)

---

[737] Yenə orada, s.52-53

Dogu Avropa, Türküstan və b. millətlərin apardıqları azadlıq mübarizəsi ilə iş birliyi yaratmaq". Sonuncu bənddə isə Qafqaz millətlərinin çökməsi ilə rusların da xilas olacağı bildirilirdi.

Bəyannaməni, Azərbaycan Milli Mərkəzinin sədri M. Ə. Rəsulzadə, Gürcüstan Milli Siyasi Mərkəzinin sədri N. Jordaniya və Şimali Qafqaz Milli Komitəsinin sədri prof. Əhməd Maqoma imzalamışlar. QİK qafqazlıların mühacirətdə yaratdıqları sonuncu müştərək təşkilat oldu. [738]

1952-ci ildə Münhendəki "Qafqaz" dərgisində nəşr olunan "Qafqaz məsələsi" məqaləsində Qafqaz Konfederasiyasının gerçəkləşməsi yollarını daha dərindən incələyən Rəsulzadə hesab edirdi ki, belə bir birliyin yaranmasını vacib edən amillər aşağıdakılardır: birincisi, "Qafqazın nə qövm, nə kültür, nə də irq baxımından Rusiya ilə heç bir ilgisi yoxdur" [739] İkincisi, "ekonomi baxımından Qafqaz, kəndinə yetər müstəqil bir vəhdətdir"; Üçüncüsü, "strateji baxımından da, Qafqaz bir bütündür".[740] Dördüncüsü, "aralarındakı milli və kültürəl özəlliklərə baxmayaraq, Qafqaz millətləri ortaq bir ruh və xarakterə malikdirlər ki, bu Qafqaz deyilən psixolojik bir tipin yaranmasını dəstəkləyən ictimai bir çox müəssisələrdə görükməkdədir".[741] Beşincisi, ən əsası "çarizmin və bolşevizmin hər şeyi bir səviyyəyə gətirən ruslaşdırma, müstəmləkəçilik siyasətinə qarşı mücadilədə bütün Qafqaz millətləri birləşməlidilər". [742] Çünki çar Rusiyasından sonra Sovet Rusiyasının da Qafqaz millətlərinə qarşı yürütdyü işğalçı siyasət bir daha göstərdi ki, "geopolitik bir vəhdət təşkil edən Qafqaz daxilində yaşayan millətlər eyni müqəddərata malikdirlər". [743] Bütün bunlardan sonra Rəsulzadə yazırdı: "Türkiyə Cümhuriyyəti və İran kimi güneydəki müsəlman dövlətləri ilə qüzeydəki xristian Rusiya arasında bir Eta tampon (hail hökumət) halində qurulacaq Qafqaz Konfe-

---

[738] İbrahimli X. Azərbaycan mühacirət tarixi. Bakı, ADPU nəşriyyatı, 2012, s.150
[739] Resulzade M.E.Hatıralar ve Kafkasya. İstanbul, 2011, s.173
[740] Yenə orada, s.173
[741] Yenə orada, s.174
[742] Yenə orada, s.174
[743] Yenə orada, s.175

derasyonu isə məsələni məqbul bir tərzdə həll edə bilir. Gürcülərlə ermənilər Türk-Müsəlman dünyasında boğulmaq təhlükəsindən özlərini məsum görür, azərbaycanlılarla, Şimali Qafqaz müsəlmanları da quzeydən gələcək təhlükəyə qarşı öz qonşularıyla yapmış olduqları ittifaq sayəsində təmin edilmiş olurlar”. [744]

Rəsulzadənin fikrincə, belə bir ittifaqın varlığının Qafqazdakı Türk ünsürünə xələl gətirə bilərmi sualına, azərbaycanlı mütəfəkkirlərin cavabı budur: “Ekonomi baxımından qüvvətli, kültür baxımından qüdrətli olan Azərbaycan böylə bir kombinezonda öz önəmini itirmək riskinə heç bir zaman məruz deyildir. Əksinə, Qafqaz millətləri ailəsində Türk ünsürünə özünə layiq bir rol oynamaq müqəddərdir”.[745] Rəsulzadə inanırdı ki, Qafqaz Birliyi məsələsində Türkiyə Cümhuriyyəti Sovet Rusiyasından fərqli olaraq imperalist yol tutmamışdır. Artıq böyük Atatürkün sayəsində, Türkiyə demokratik bir xətt seçmiş və onu davam etdirməkdədir. Onun fikrincə, Türkiyənin bu xətti isə Qafqaz Birliyini nəinki inkar edir, əksinə onun yaranmasının tərəfdarıdır: “Türkiyə Cümhuriyyətinin müqəddəratını idarə edənlər hər fırsatta bugünkü milli hüdudlar xaricində heçbir əməl daşımadıqlarını israr və önəmlə elan etməkdədirlər. Patriotizm mənasında anlaşılan türk milliyyətçiliyi ilə, Qafqazya Konfederasiyon fikri arasında qətiyyən bir təzad yoxdur”. [746]

O yazırdı ki, Azərbaycan mütəfəkkirləri və dövlət adamları Qafqaz Birliyi ideyasını 1918-1920-ci illərdə irəli sürüb müdafiə etdikləri kimi, bu gun də onun arxasında dayanırlar: “1918-ci ildə bu məsələ nə qədər aktual idisə, bu gün də o qədər önəmli və aktualdır. Otuz iki ildən bəri davam edən müştərək fəlakət otuz dörd il əvvəl duyulan bu zərurətin ikna qüvvətini şübhəsiz daha ziyadə artırmışdır. Mühacirətdəki konfderasiyonçuluq hərəkatı da ancaq bu iddiayı isbat edər”. [747]

[744] Yenə orada, s.175
[745] Yenə orada, s.176
[746] Yenə orada, s.177
[747] Yenə orada, s.178

O, böyük uzaqgörənliklə onu da əlavə edirdi ki, çürük əsaslara söykənən SSRİ dağıldıqdan sonra qurutlacaq Qafqazın alacağı siyasi idarə şəkli haqqında indidən qərara gəlmənin həyati önəmi vardı: "Gələcək Qafqaz rejimi haqqında indidən dəqiq bir fikir və qənaət birliyi təmin etməlidir. Bu təmin edilmədən Qafqaz millətlərinin ən az qüvvət və fədəkarlıq sərfiylə ən çox hürriyyət və istiqlal imkanlarına qovuşmaq imkansızdır… Buna məhəl buraxmayacaq biricik tədbir isə, Qafqaz Konfederasiyası ideyasının bütün əlaqədarlarca indidən ciddiyyət və önəmlə ələ alınmasıdır!". [748] Beləliklə, o, təklif edirdi ki, "Qafqaz Mərkəzi" yaradılsın və SSRİ imperiyasına qarşı mübarizə Birləşmiş Konfederativ Qafqasiya formuləsində davam etdirilsin.

Göründüyü kimi, Rəsulzadə Azərbaycan milli ideyasını müdafiə etməklə yanaşı, yeni turançılıq-yeni türkçülk və qafqazçılıq ideyalarının onunla hansı yönlərdən uzlaşdırıla biləcəyi ilə bağlı siyasi-ideoloji təkliflərlə çıxış etmişdir. Bununla da, Rəsulzadə bir tərəfdən, azərbaycançılığın türkçülüklə, eyni zamanda müəyyən qədər islamçılıqla bağlılığını daima qoruyub salxamış, digər tərəfdən, bu ideyanın demokratiyaya zidd olmadığını ifadə etmək üçün Azərbaycanın Qafqaz Birliyi ideyasının əsas tərəfdarı olduğunu göstərmişdir.

Bizcə, Qafqaz birliyi ideyasının gerçəklik və utopiya arasında qalmasında bir neçə məsələ mühüm yer tutmuşdur. Bunlardan biri dini inanc məsələsidir ki, həm müxtəlif dinlərə inam, həm də din arasındakı müxtəlif məzhəblərin olması nəinki ayrı-ayrı millətləri, hətta eyni mənşəyə malik olan etnosları da üzüzə qoymuşdur. Yaxud da tamamilə əksinə müxtəlif etnik mənşəyə malik xalqlar hər hansı dini inanc ya da dini məzhəbə görə bir yerdə yer almışlar. Sözün açığı, Qafqaz xalqlarının taleyində, o cümlədən qafqazçılıq ideyası baxımından dini inanc ya da dini məzhəblərin müsbət rol oynamasından bəhs etmək bir az çətindir. Ancaq Qafqaz xalqları arasında geniş yayılmış

[748] Yenə orada, s.179

Xristianlıq və İslam dinlərinin bu birliyə tamamilə zidd kimi görünməsi fikri də doğru deyildir. Çünki tarixən nə eyni dində olmaq işğalçılığın qarşısını almış, nə də milli istiqlal uğrunda mücadilə etməyə əngəl olmuşdur.

Ola bilsin ki, Qafqaz xalqlarından xristian gürcülər müsəlman-türk dövlətlərinin (Osmanlı, Səfəvilər, Əfşarlar vəb.) yarımvassallığından çıxaraq xristian çar Rusiyasının vassalığını qəbul edərkən din məsələsi müəyyən rol oynamışdır. Ancaq bildiyimiz kimi, birincisi, gürcülərin bütün hamısı çar Rusiyasının vassalığını qəbul etməyərək işğala qarşı dirənmiş, işğaldan sonra isə zaman-zaman üsyan bayraqlarını qaldırmışlar və bu gün də çox şey dəyişməmişdir. Digər tərəfdən hətta, vassallığı könüllü qəbul edən gürcü başçıları belə sonralar anladılar ki, türk-müsəlman dövlətlərinin yarımvassallığıyla xristian-Rusiya vassallığının, müstəmləkəçiliyinin çox böyük fərqi yoxdur. Hətta, bir çox halalrda nüsəlman-türk dövlətlərinin yarımvasallığı daha yaxşı olmuşdur, nəinki xristian Rusiyasının vasallığı.

İmperiyanın mahiyyətində önəmli olan milli kimliyin assimilyasiyası, milli dövlətçiliyin tarixdən silinməsi, milli ərazilərin yadlaşdırılmasıdır. Yəni geniş anlamda xristian bir dövlətin digər xristian imperiya tərəfindən işğalı zahirdə "din qardaşlığı" adı altında pərdələyirsə, mahiyyət etibarilə onun milli ruhunu zərbə altına qoymuş olur. Bu baxımdan türk-müsəlman Qarabağ xanlığıyla ya da Quba xanlığıyla gürcü-xristian Kartl-Kaxeti çarlığının çar Rusiyası tərəfindən işğalı əsasən eyni mahiyyətli olmuşdur. Üstəlik, çar Rusiyası zahirən xristian din qardaşları gürcülərlə erməniləri türk-müsəlman azərbaycanlılara qarşı qoymaqla daha çox öz mənafeyini güdmüşdür. Ancaq çar Rusiyası bu mənfur işi yalnız xristian ermənilərlə müsəlman azərbaycanlılara qarşı etməmiş, xristian gürcülərlə xristian erməniləri, müsəlman ləzgilərlə müsəlman türkləri də zaman-zaman üz-üzə qoymuşlar.

Ancaq o başqa məsələdir ki, çar Rusiyası "din qardaşlarıyla", o cümlədən xristian ermənilərlə müqayisədə müsəlman-

ları, o cümlədən azərbaycanlı türkləri daha çox assimilyasiya məruz qoymuşdur. Hər halda Qafqaz müsəlmanları, o cümlədən Quzey Azərbaycanın türk-müsəlman əhalisi bir çox sahələrdə (mətbuat, teatr, məktəb vəs.) Qafqaz xristianlarından fərqli olaraq daha çox təzyiqə məruz qalmış, haqsızlıqlarla üzləşmişdir. Burada Quzey Azərbaycanın müsəlman əhalisinin Türk kimliyi də mühüm rol oynamış, onların Qacarlar və Osmanlıyla əlaqələrinin kəsilməsi üçün daha çox çalışmışlar. Başqa sözlə, son iki əsrdə, yəni əsasən çar Rusiyası və Sovet Rusiyası dövründə Qafqazın müsəlman əhalisi arasında ən çox müsəlman türklərin zərər çəkməsi, bunun tam əksinə olaraq Qafqazın xristian əhalisi arasında isə ermənilərin faydalanamsı təsadüfi deyildir. Bu o deməkdir ki, son iki əsrdə Quzey Azərbaycan türklərinin daha çox itirməsində müsəlman kimliyi ilə yanaşı tarixi milli üstünlükləri və Osmanlıyla Qacarlara olan doğmalığı mühüm rol oynadığı halda, ermənilərin daha çox qazanmasında isə “din qardaşlığı”yla yanaşı, çar Rusiyasının və Sovet Rusiyasınbın mənafeyinə uyğun olaraq türklər tərəfindən zaman-zaman sözdə “soyqırıma” məruz qalması əhəmiyyətli olmuşdur.

Demək istədiyimiz odur ki, ən azı son iki əsrdə Qafqaz xalqlarının bir araya gəlib qafqazçılıq ideyası ətrafında birləşməkdənsə, din ayrı-seçkiliyi məsələsi və digər amillərə görə bir-birinə düşmən kəsilməsində Rusiya, Böyük Britaniya, Fransa və digər dövlətlər mühüm rol oynamışlar. Bütövlükdə din ayrı-seçkiliyi məsələsi aşağı-yuxarı günümüzdə də davam etməkdədir. Bu baxımdan Qafqaz xalqları arasındakı günümüzdəki münaqişələrdə də din məsələsi əsas faktor olaraq qalmaqdadır. Bir sözlə, daima din faktorundan Qafqaz xalqlarının əleyhinə xarici qüvvələr faydalanmışlar, bu gün də faydalanmağa davam edirlər.

Qafqaz birliyi ideyasının gerçəklik və utopiya arasında qalmasında Qafqaz xalqlarının tarixən bir-birlərinə əsasən, milli kimlik açısından da düşmən yoxsa dost kimi yanaşmaları məsələsidir. Hər halda son iki əsrdə Qafqaz xalqları arasındakı münasibətlərin yalnız din deyil, milli-tarixi düşmənçilik üzərində

qurulması məlumdur. Bu məsələdə haqlı məqamlarla yanaşı, ideoloji baxımdan şişirtmələrə də yol verilir. Məsələn, Azərbaycan türklərinin ermənilərlə az qla iki-üç minillik tarixi düşmən obrazı yaradılması son əsrlərin məhsuludur ki, bunda da çar Rusiyası, Sovet Rusiyası, Fransa və digər bəzi Avropa dövlətləri, onların ideoloqları mühüm rol oynamışdır. Əslində ermənilərlə Azərbaycan türklərinin düşmənçiliyi həmin dövlətlərin, xüsusilə Rusiyanın, Böyük Britaniyanın, Fransanın "Böyük Ermənistan" oynuyla, 1828-ci il Qacarlar-Rusiya arasındakı Türkmənçay andlaşmasından sonra hayların kütləvi şəkildə buraya köşürülməsindən sonra, yəni 19-cu əsrin ortalarından ortaya çıxmış, hələ də davam etməkdədir.

Ona görə də, Qafqaz xalqlarının arasında "milli-tarixi düşmənçilik" məsələsini son dərəcə həssas problem hesab edirik. Bunun üzərində oynanan böyük oyunlara diqqət yetirilməlidir. Əgər millətlər daima milli-tarixi düşmənçilik üzərinə köklənib hətta uydurmaları, nağılları belə tarix kimi qələmə versələr, o zaman nəinki Qafqazçılıq ideyası baxımından bir çatı altında olmaq heç qonşular kimi əmin-amanlıq şəraitində yaşamaq belə mümkün olmayacaqdır. Bu anlamda Ermənistan rəhbərliyinin, onun radikal millətçi, irqçi dairələrinin (Daşnaksütyun vəb.) Azərbaycan türklərinə, gürcülərə qarşı torpaq iddilarından, mədəniyyət abidələri iddilarından, ən asası da "Böyük Ermənistan" uydurmasından təcili olaraq əl çəkmələri lazımdır. Özəlliklə, son iki əsrdə Rusiyanın, Böyük Britaniyanın, Fransanın və digər Qərb dövlətlərinin havadarlığıyla Qafqazadakı əmin-amanlığı pozan radikal millətçi, irqçi ermənilər-haylar bir şeyi anlamalıdırlar ki, bu daima belə sürə bilməz və sürməyəcək də. O zaman havadarlarından məhrum qalan ermənilərin qonşu xalqlarla artıq dinc şəkildə birgə yaşamaları da heç cür mümkün olmayacaqdır. Ona görə də, Ermənistanın tək çıxış yolu Türkiyəyə və

Azərbaycana qarşı yönəlmiş radikal millətçi, irqçi ideologiyadan əl çəkmələridir. [749]

Hesab edirik ki, ermənilər artıq faşist, nasist siyasətindən əl çəkərək türklər, o cümlədən Azərbaycan türklərini tarixi düşmən obrazında görməkdən əl çəkməlidirlər. Üstəlik, Ermənistan rəhbərliyi bu günə qədər bəzi Qərb dövlətlərinin, o cümlədən Rusiyanın oyununa gətirilərək azərbaycanlı türklərə qarşı etdiklərinə görə (1918-ci il mart soyqırımı, 1992-ci il 26 fevral Xocalı soyqırımı və b.) rəsmi şəkildə üzr istəməlidir.

Ümumiyyətlə, bu gün bütün Qafqaz xalqları bir-birlərinə qarşı irəli sürdükləri torpaq və mədəniyyət abidələri iddialarını soyuqanlı və intellektual şəkildə dəyərləndirməlidir. Bunun üçün ortaq komissiyyalar yaradılmalıdır. Bu prosesdə isə yalnız Güney Qafqazın üç çoxsaylı xalqları (gürcülər, azərbaycanlılar, ermənilər) deyil, bütün Qafqaz xalqları cəlb olunmalıdır. Çünki Qafqazda əmin-amanlığın və birliyin yaranması üçün bütün Qafqaz xalqların ərazi və mədəniyyət abidələri məsələsində anlaşması gərəkdir. Bizcə, bütün bunlar öz həllini tapmadıqca ya da ortaq məxrəcə gəlmək mümkün olmadıqca Qafqaz birliyi ideyası gerçəkilklə utopiya arasında tərəddüd içində qalmağa davam edəcəkdir.

Sovetlər Birliyi dağılması ərəfəsində, yəni 1989-cu ildə Qafqaz xalqları birlik üçün yenidən cəhdlər etməyə başladılar. Bu istiqamətdə ilk addım olaraq 1989-cu ildə Qafqaz Dağlı Xalqları Assambleyası quruldu və 1991-ci ildə bu təşkilat çeçenləri, kabardinleri, adıgeyləri, abazinləri, abazaları və Qafqazın digər xalqlarını birləşdirən bir Konfederasiyaya çevrildi. 1992-ci ilin sentyabr ayında Çeçenistanın ilk prezidenti Cövhər Dudayev Qroznıda "Ümumi Qafqaz Evi" təşkilatının üzvləri üçün dəyirmi masanın təşəbbüskarı oldu. "Ümumi Qafqaz Evi" forum kimi qeydiyyata alındı və onun başçısı prezident Cövhər Dudayev təyin edildi. Qafqaz evinin ümumi forumunun yaradılması ideyası

---

[749] Çaxmaqlı Qafar. Erməni ideologiyasında irqçi motivlər.Bakı, 2021, s.59

Çeçenistanda müharibənin başlanması ilə dayandı. Sonralar bu missiyanı Gürcüstan və Azərbaycan qəbul etmişdir və bu, Bakıda keçirilən konfransda öz əksini tapmışdır. Konfransda Qafqaz xalqlarına regionda etnik konfliktlərin baş verməməsi üçün Ümumi Qafqaz Evinin yaradılması ilə bağlı çağırış səslənmişdir. Artıq mətbuatda "Qafqaz Evi", "Qafqaz Xalqları Federasiyası", "Qafqaz Konfederasiyası" kimi ideyalar ortaya atılırdı ki, Tiflis, Bakı, Nalçik, Mahaçqala, Qroznı kimi iri şəhərlərdə bir sıra qurultaylar da keçirildi.[750]

Hazırda istər Azərbaycanda, istərsə ondan kənarda bəzi politoloqlar, tədqiqatçı alimlər, ictimai-siyasi xadimlər və başqaları qafqazçılıq ideyası ilə bağlı müxtəlif mülahizələr irəli sürürlər. Bəziləri hesab edirlər ki, Qafqazçılıq ideyası və identikliyi artıq əsrlərin sücgəcindən gəlib keçən və müəyyən bir psixoloji fenomen kimi formalaşan tarixi hadisədir.[751] Akademik Əfrand Daşdəmirov da güman edir ki, artıq neçə əsrlərdən bəri Qafqazda yaşayan ayrı-ayrı etnoslar (türk, kvartel, slavyan, dağıstan və b.) eyni tarixi hadisələri yaşamaları, ortaq mədəniyyəti paylaşmaları, eyni zamanda zaman-zaman bir-birlərinə yaxınlaşaraq qohumlaşmaları baxımından Qafqaz mədəniyyəti, Qafqaz tarixi, Qafqaz adət-ənənələri, Qafqaz mentaliteti adı altında birləşiblər. [752]

Çox yazıqlar olsun ki, ötən əsrdə Azərbaycan xalqıyla Ermənistan xalqı arasında baş verən münaqişələr, o cümlədən 1905-1906-cı illlərdə erməni-müsəlman münaqişəsi, 30-31 mart 1918-ci ildə Azərbaycan türklərinin soyqırımı, 1920-ci illərdə Zəngəzurun Ermənistana verilməsi və DQMV-nin yaradılması, 1948-1953-cü illərdə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli torpaqlarından deportasiyası, 26

---

[750] Əliyev Zaur. Qafqaz Evi ideyası: tarixi və bu günü. http://www.publika.az/p/111462

[751] Исаев М.И. Современная концепция Кавказа: Этнокультурный аспект// Московское Эхо Кавказа.Москва. 1997, s.4

[752] Дашдамиров А. Идеологические проблемы, межкавказские отношения. Баку: ИОПИИ. 2001, s.16

fevral Xocalı soyqırımı, Dağlıq Qarabağın və onun ətrafındakı digər 7 rayonun işğal olunması Qafqaz Birliyi ideyasını xeyli dərəcədə zədələmişdir.

Doğrudur, 2020-ci ilin payızında Azərbaycan-Ermənistan arasında gerçəkləşmiş 44 günlük Qarabağ-Vətən müharibəsi nəticəsində torpaqlarımızın böyük qismi tam şəkildə işğaldan azad olunmuşdur. Ancaq Yuxarı Qarabağda Rusiya "sülhməramlıları"nın nəzarəti altında belə olsa da, erməni separatçıların öz varlıqlarını sürdürmələri Qafqaz birliyi ideyasına ciddi zərbədir. Hər halda bir tərəfdən Ermənistanda faşizm siyasətinin, nasizm ideologiyasının hökm sürməyə davam etməsi, digər tərəfdən həmin irqçilik ideyalarına əsaslanan Yuxarı Qarabağdakı bir qrup erməni separtçıların mövcudluğu qafqazçılığın gerçəkləşməsinə ciddi əngəl törədir.

Yeri gəlmişkən, Azərbaycan xalqına qarşı törədilmiş soyqırımlarda və işğallarda erməni şovinistləri qədər Rusiyanın imperialist qüvvələri də mühüm rol oynamışlar. Hər halda, heç vaxt unutmamalıyıq ki, Rusiya və rus əsgəri olmadan ermənilər Azərbaycan-Türk xalqına qarşı soyqırımları təkbaşına həyata keçirə bilməzdi. Deməli, bu soyqırımların mahiyyətini dərindən anlayıb doğru nəticə çıxarmalayıq. Bu o deməkdir ki, biz bu soyqırımlarda yalnız ermənilərin və Ermənistanın deyil, eyni zamanda Rusiyanın, hətta Fransanın da pay sahibi olmasını yaddan çıxartmamalıyıq. Bu bir faktdır ki, vaxtilə Azərbaycan torpaqlarının müəyyən bir hissəsində Ermənistan dövlətini yaradan Rusiya yaxın tariximizdə torpaqlarımızın digər bir hissəsinin işğal olunmasında fəal oynamaqla yanaşı ikinci bir saxta, qondarma "erməni rejimi"nin qurulması məsələsində də ikiüzlü siyasətini davam etdirməkdədir.

Üstəlik, Rusiya tərəfindən daima təmənasız silahlandırılan Ermənistanın Qafqaz birliyinə "isti" münasibət bəsləməsini gözləmək çətindir. Bütün bunlar isə həmin Güney Qafqaz xalqlarının birlikdə Qafqaz Birliyi ideyasının gerçəkləşdirilməsini mümkünsüz edir. O başqa məsələdir ki, Rusiya məhz onun

nəzarəti altında bir "Qafqaz birliyi" istəyir. Başqa sözlə, Ermənistanda hər cür haqlara malik olan Rusiya Gürcüstan və Azərbaycan üzərində də eyni haqlara sahib olacağı təqdirdə bir "Qafqaz birliyi" arzulayır ki, bu da faktiki olaraq russayağı "qafqazçılıq"dır. Şübhəsiz, belə bir "Qafqaz birliyi"ni isə nə Azərbaycan, nə də Gürcüstan qətiyyən qəbul etmir və etməyəcək də.

Bizcə, bu baxımdan Qafqaz birliyi ideyasının gerçəkləşməsi üçün, ilk növbədə Ermənistan rəhbərliyi, Ermənistan millətçiləri Azərbaycana və Gürcüstana olan ərazi iddialarından, mədəniyyət abidələri iddialarından əl çəkməlidir. Əgər ermənilər bu iddialarına davam edəcəksə o zaman Azərbaycan və Gürcüstan xalqları da eyni iddiaları Ermənistana qarşı irəli sürəcəklər. Bu isə Qafqaz Birliyi ideyasının nəinkli gerçəkləşməsi ümidini, eyni zamanda ideyanın özünün birdəfəlik aradan qaldırılmasına səbəb olacaqdır. Şübhəsiz, Ermənistan rəhbərliyinin və onun radikal millətçi, irqçi dairələrinin bu iddialardan əl çəkməsi üçün, ilk növbədə Rusiyanın və digər super dövlətlərin oyuncağı olmaqdan qurtulması da lazımdır. Əks təqdirdə xarici qüvvələrin diktəsiylə oturub-duran bir dövlət müstəqil qərar verə bilməyəcək, bunun nəticəsi olaraq da qonşu dövlətlərlə nəinki hər hansı konfederativ dövlətdə birləşə biləcək, üstəlik daima düşmənçilik münasibəti içində olacaqdır.

Qafqaz Konfederasiyasının gerçəkləşməsi üçün, ilk növbədə Azərbaycan və Gürcüstan bir araya gəlməlidir. Əgər Azərbaycan və Gürcüstan konfederativ dövlət olmaq uğrunda real addımlar atarsa, ən azından Quzey Qafqaz respublikalarının buna cəlb olunması mümkündür. Bildiyimiz kimi, bu istiqamətdə 1996-cı il martın 8-də həmin dövrdə Azərbaycan Prezidenti Heydər Əliyevin Gürcüstana rəsmi səfəri zamanı 2 dövlət başçısının imzaladığı birgə Bəyannamə "Ümumi Qafqaz Evi" ideyasının əməli olaraq həyata keçirilməsinin başlanğıcı oldu. Lakin Ermənistanın təcavüzkar, şovinist siyasəti və regiondakı konfliktlərin həllinin uzanması "Ümumi Qafqaz Evi" ideyasının həllini xeyli çətinləşdirdi.

Ancaq istənilən halda Azərbaycan və Gürcüstanın konfederativ dövlət olmaq yolunda atacağı istənilən addımı bölgədəki durumu müsbət anlamda xeyli dəyişdirə bilər. Çünki dini açıdan bir xristian dövlətlə digər müsəlman dövlətin vahid çatı altında Qafqazın idarəçiliyi məsələsinə qol qoyması, bölgənin digər müsəlman və xristian dövlətləri üçün yaxşı bir örnək ola bilər. Bu anlamda Gürcüstan və Azərbaycanın konfederativ dövlət qurması hər iki ölkənin siyasi, hərbi, iqtisadi, mədəniyyət, təhsil və digər sahələrdə ciddi uğurlar əldə etməsinə səbəb olacaqdır. Bizcə, Gürcüstan və Azərbaycanın konfederativ dövlətdə bir araya gəlməsi digər Quzey Qafqaz xalqları üçün də bir stimul olacaqdır. Hətta, Türkiyənin də Azərbaycan və Gürcüstanla birgə belə bir birlikdə yer alması mümkündür. Bizcə, Azərbaycanla Türkiyə arasında 2021-ci ildə bağlanmış Şuşa bəyannaməsi də konfedersiya yolunda ciddi bir həmlədir. Əgər Gücüstanda bu bəyannaməyə qol qoyarsa, o zaman "üçlü" bir konfederasiya mümkün ola bilər. Bir sözlə, Qafqaz Konfederasiyasının gerçəkləşməsi üçün ilk addımı Azərbaycan və Gürcüstan atmalıdır. Əlbəttə, Azərbaycan və Türkiyə arasındakı yaxınlaşmalar da əslində Qafqaz Konfederasiyası üçün çox önəmlidir. Hər halda bu üç dövlətin bir çox mühüm məsələlərdə bir araya gəlməsi reallığı daha yüksəkdir.

*Biz həm türklüyü qüvvətləndirir, həm də*
*müsəlmanlığa və insanlığa xidmət ediriz!*
**M.Ə.Rəsulzadə**

# NƏTİCƏ

Bütöv Azərbaycan xalqının, o cümlədən Türk dünyasının böyük filosof-mütəfəkkiri, sosioloqu, politoloqu, tanınmış dövlət xadimi M.Ə.Rəsulzadə özəlliklə də, türkçülük, islamçılıq və müasirlik düsturuna əsaslanan azərbaycançılığın və milli həmrəylik təlimlərinin banisi kimi dünya tarixinə adını yazdıra bilmişdir. Bu baxımdan çağdaş dövrdə Azərbaycan Türk dövlətçiliyinin bərpa olunmasında, milli istiqlal ideyasının qorunub saxlanılmasında müstəsna əməyi olan Rəsulzadə 20-ci əsrdə yalnız Azərbaycan Türk tarixinin deyil, İslam-Türk dünyasının və bəşəriyyətin yetişdirdiyi filosof-mütəfəkkirlərdən biridir. Böyük azərbaycanlının, Azərbaycan türkünün özünündə dediyi kimi, o, insanlara azadlıq, millətlərə istiqlal yolundakı mübarizədə yalnız türklüyə deyil, eləcə də islamlığa və insanlığa xidmət etmişdir! [753]

Bu anlamda tanınmış yazıçı Elçin Əfəndiyev çox doğru yazır ki, Rəsulzadə adı ilk növbədə, Azərbaycan xalqı, Azərbaycan Cümhuriyyəti ilə bağlı olsa da, eyni zamanda bəşəri dəyəri olan bir şəxsiyyətdir: "Azərbaycan xalqının taleyinin bir parçası olan Rəsulzadənin mənalı həyatına, dolğun yaradıcılığına bu gün ani bir nəzər salmaqla biz Vətənə, müstəqil Azərbaycana sədaqət timsallı böyük bir şəxsiyyətin canlı obrazı ilə görüşürük. Sözsüz ki, bu sədaqət, bu sevgisi ilə o, Azərbaycan xalqının məhəbbətini qazanmış və qəlblərdə əbədi məskən salmışdır. Rəsulzadə prinsipə sədaqətin, məfkurəyə bağlılığın, səbr və fədakarlığın, əzm və qüdrətin timsalı idi. 20 yaşında "İnsanlara hürriyyət, millətlərə istiqlal!" arzusu ilə siyasi həyata atılmış Rəsulzadə "İnsanlara hürriy-

[753] Rəsulzadə M.Ə. Əsərləri. V cild (1918-1920, aprel). Bakı, "Təhsil", 2014, s.317

yət, millətlərə istiqlal!" fikri ilə də 72 yaşında həyatla vidalaşdı. Lakin ömrünün sonuna qədər bu inam onu tərk etmədi".[754]

İlk dövrlərdə sosial-demokratizmlə islamı, milliyyəti uzlaşdırmağa çalışan, sonralar onların hər üçünü "Azərbaycan" milli ideyası çərçivəsində inkişaf etdirən Rəsulzadə, sözün həqiqi mənasında dahi bir şəxsiyyətdir. Bu gün Azərbaycan Respublikasının mühüm atibutlarından biri olan bayrağımızda türkçülük, çağdaşlıq və islamçılığın bir yerdə öz əksini tapması Məhəmməd Əmin ideyalarının praktiki nəticəsidir. Türkləşmək, islamlaşmaq və müasirləşmək kimi "üçlü" düsturu milli-məhəlli Azərbaycan türkçülüyü şəklində formulə edən M.Ə.Rəsulzadə, bununla da bir tərəfdən azərbaycançılığın əsasını qoymuş, digər tərəfdən Azərbaycanda milli demokratiyanın yenidən təşəkkülündə əvəsiz rol oynamışdır. Filosof-mütəfəkkir azərbaycançılıq təlimini çox dəqiq ifadə etmişdir: "Azərbaycançılıq demək, istiqlalçılıq deməkdir. Bir istiqlalçılıq ki, tarixin ən böyük müəssəsi (qurucusu) olan milliyyətin dövlət olmaq üzrə müzəffər yürüşü deməkdir. Azərbaycançılıq demək, böyük Türk irqinə mənsub bir millətin istiqlalını qazanmaq üzrə başlanmış şanlı bir mücadilədir. Azərbaycançılıq eyni zamanda, bir hürriyyət və mədəniyyət hərəkatıdır ki, onun ən bariz sifəti xalqçılıq və milli hakimiyyət əsasına bağlılıqdır".[755]

Rəsulzadə "Azərbaycan" milli ideyasını, azərbaycançılığı ciddi elmi-fəlsəfi dəlillərlə əsaslandırmaqla yanaşı, türkçülük, yeni turançılıq və qafqazçılıq ideyalarının onunla hansı yönlərdən uzlaşdırıla biləcəyi ilə bağlı da siyasi-ideoloji mülahizələr irəli sürmüşdür. Bununla da, Rəsulzadə bir tərəfdən, azərbaycançılığın türkçülüklə, islamçılıqla bağlılığını daima qoryub salxamış, digər tərəfdən Qafqaz Birliyi və Türk Federasiyası ideyalarının əsas tərəfdarı olduğunu göstərmişdir.

Bizcə, Rəsulzadə çağdaş Azərbaycan dövlətinin də başlıca ideyalarını təşkil edən türkçülük, islamçılıq, çağdaşlıq və azərbaycançılıqdan ibarət milli ideologiyanın yaradıcısıdır. Bu gün Azər-

---

[754] Əfəndiyev E. Məmməd Əmin Rəsulzadə (oçerk). Bakı: Şərq-Qərb, 1994, s.20

[755] Rəsulzadə M.Ə. Məktublar. Şəfibəyçilik. Bakı, KitabKlubu,2017, s.192

baycan dövlətinin əsas atributlarından olan bayrağımızın simvolları olan - türkçülük, çağdaşlıq və islamçılığn bir bayraq da öz ifadəsini tapması da Məhəmməd Əminin ideyalarının nəticəsidir. Rəsulzadənin yaradıcılığında türkçülüyün çox böyük fəlsəfi-siyasi anlamı var. Onun dünyagörüşündəki türkçülük, yalnız Azərbaycan türklərinin azadlığı uğrunda mübarizəsi ilə məhdudlaşmayıb, bütün azərbaycanlılar üçün böyük əhəmiyyət kəsb etmişdir. Eyni zamanda, Rəsulzadə bütün yaradıcılığı boyu digər Türk xalqlarının da milli azadlıq ideyalarını müdafiə etmişdir.

Əvvəlcə millətinin azadlığını yalnız sosial-demokratiyanın bütün dünyada qələbəsi ilə bağlayan, sonralar sosial məsələyə milli məsələ ilə nisbətdə sosial bərabərlik, sosial ədalət baxımından önəm verən Rəsulzadə başqa sosial-demokratlardan fərqli olaraq cəmiyyətdəki bərabərsizliyin aradan qaldırılmasının əsaslarını yalnız sinfi mübarizədə görməyib. Eyni zamanda, o, marksizmə əsaslanan rus bolşevizminin əsil simasının açılmasında da böyük rol oynamışdır. Sosial məsələni daha çox hər hansı cəmiyyətin milli məsələsinə uyğun həllini vacib sayan Rəsulzadə son nəticədə də bunu, milli demokrat olaraq milli həmrəylik təlimi əsasında təfsir etmişdir.

Bu baxımdan Rəsulzadənin sosial-fəlsəfi görüşlərində sosial-demokratizm, liberalizm, demokratizm, milli demokratizm, solidarizm, milli təsanüdüçülük təlimlərinin təfsiri xüsusi yer tutmuşdur. Rəsulzadənin banisi olduğu milli həmrəylik təlimi milli məsələ ilə sosial məsələnin kəsişdiyi bir nöqtə idi. O, bu təlimi irəli sürməklə sosial məsələ ilə milli məsələnin qarşı qarşıya qoymağın heç bir mənasınln olmadığını sübut etmək istəmişdir. Rəsulzadə sosial məsələnin milli məsələyə zidd olmadığını, əksinə, onunla bağlı olduğuna inanırdı. Beləliklə, filosof-mütəfəkkir əsas fikirlərini milli məsələ ilə sosial məsələnin həmrəyliyinə yönəltmişdir. Bununla da milli sosial dövlətin təməl prinsiplərini göstərmişdir.

Bu baxımdan Məhəmməd Əminin XX əsrdə gördüyü ən böyük işlərdən biri, Azərbaycan türklərinin milli dövlətçilik ənənələrini bərpa edərək ona yeni bir axar (milli sosial dövlət anlamında)

verməsidir. O, özünün ictimai-siyasi və sosial-fəlsəfi görüşləri ilə tariximizdə çağdaş milli sosial dövlətçiliyin təməl prinsiplərini ortaya qoymuşdur. Belə ki, milli həmrəylik təliminin banisi kimi Rəsulzadə ifrat solçuluqla yanaşı, radikal millətçiliyi də qəbul etməyərək onların arasında ən doğru yol kimi milli sosial dövləti-milli həmrəyliyi görmüşdür. Millətçiliyin, milliyyətçiliyin ifrat nasionalizm yox, mütərəqqilik və patriotluq mənasında qəbul edilməsinin tərəfdarı olan Rəsulzadə milli dövlətçiliyi sosial məsələlərlə uzlaşdırararq ona bəşəri mahiyyət də qazandırmışdır.

Rəsulzadə maarifçi demokrat bir şəxsiyyət kimi də, bütün yaradıcılığı boyu, fasiləsiz şəkildə xalqına xidtmət etmişdir. Gənc yaşlarından etibarən xalqının maariflənməsinə mühüm diqqət göstərən Məhəmməd Əminin elm, maarif və təhsillə bağlı sahələrdə gördüyü işləri sadalamaqla bitməz. 1919-cu ildə Bakı Dövlət Universitetinin təməlinin qoyulmasında müstəsna rol oynayan Rəsulzadə yazdığı yüzlərlə məqalə, onlarla əsərlərində Azərbaycan Türk gəncliyinin yetişməsinə mühüm təkan vermişdi. Bu gün də həmin məqalələr elmi-fəlsəfi, ictimai-siyasi, dini, sosial-fəlsəfi, tarixi, ədəbi-mədəni sahələrdə öz aktuallığını qoruyub saxlamaqda, Bütöv Azərbaycan xalqı üçün mühüm əhəmiyyət kəsb etməkdədir.

Həm öz dövründə, həm də sonralar Azərbaycan xalqının siyasiləşmiş və siyasətdən uzaq olan bir çox təbəqələri tərəfindən qəbul edilən Rəsulzadə, yeganə ictimai-siyasi xadimlərdən, şəxsiyyətlərdən biridir ki, ictimai-siyasi qüvvələrin əksəriyyəti onun cəmiyyətdəki mövqeyini, nüfuzunu, öndərliyini qəbul ediblər. Bu baxımdan o, bu gün də azərbaycanlılar, Azərbaycan türklərinin şüurunda, ürəklərində milli demokrat, milli lider, xalqın öndəri və filosof-mütəfəkkirdir. Böyük bilgəmizin fəlsəfəsinin əsaslarını da azərbaycançılıq, qafqazçılıq, türkçülük, xalqçılıq, insanlıq və milli həmrəylik təşkil etmişdi.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

### Azərbaycan türkcəsində

1. Abid Əmin (Gültəkin). Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007
2. Abid Əmin (Gültəkin). Azərbaycan türklərinin ədəbiyyatı tarixi. Bakı, "Elm və təhsil", 2016
3. Abbasov Əbülhəsən. Müasir elmi paradiqma və idarəetmə: ümumnəzəri sinergetik təhlil. Bakı, 1998,
4. Abbasov Əbülhəsən.İctimai inkişaf: qnoseologiya və metodologiya problemləri. Bakı, 2003.
5. Abbasov Əbülhəsən. İnsan haqları və ictimai rəy. Bakı, 2014
6. Abbasov Əbülhəsən. Geosiyasi və sosial fəlsəfə: ədalətli nizam və tərəqqi naminə. Bakı, 2017.
7. Abasov Əli. Müasir dövrün sosiomədəni problemləri. Bakı, "Səda", 2006
8. ADR-İran diplomatik münasibətləri Qafqaz Fövqəladə Komissiyasının sənədləri işığında (1919-1920-ci illər). Bakı, Şərq-Qərb, 2017.
9. Axundov M.F. Bədii və fəlsəfi əsərləri. Bakı: Yazıçı, 1987
10. Albayraq, Rəcəb. Türklərin İranı. Yaxın gələcək. 2 cilddə. 1-ci cild. Bakı, Elm və təhsil , 2016
11. Albayraq, Rəcəb. Türklərin İranı. Yaxın gələcək. 2 cilddə. 2-ci cild. Bakı, Elm və təhsil , 2016
12. Ağaoğlu Əhməd bəy. Seçilmiş əsərləri.Bakı,"Şərq-Qərb", 2007
13. Ağaoğlu Əhməd bəy. Üç mədəniyyət. Bakı, Mütərcim, 2006
14. Ağaoğlu Əhməd bəy. Qafqazda milli məsələ. Bakı, Mütərcim, 2019
15. Ağaoğlu Əhməd bəy. Atəşkəs və sürgün xatirələri. Bakı, "Kitab Klubu", 2018
16. Ağayev Müstəqil. Məhəmməd Əmin Rəsulzadə. Bakı, Nurlan, 2006.

17. Ağayev Müstəqil. XX əsr Azərbaycan ictimai və fəlsəfi fikrində din problem. Bakı: Nurlan, 2008
18. Ağayev Müstəqil. Azərbaycan demokratik fikrində insan konsepsiyası. Bakı, "Nurlan", 2009
19. Ağayev Müstəqil. Azərbaycanın müasir fəlsəfə tədqiqatçıları. Bakı, "Elm və təhsil", 2021
20. Ağayev Müstəqil. Hüseyn Cavidin dünyagörüşü. Bakı, Təknur, 2005
21. Azərbaycan tarixi: Ali məktəblər üçün dərslik// Z.M.Bünyadovun və Y.B.Yusifovun redaktəsi ilə. Bakı: Azərnəşr, 1994
22. Azərbaycan tarixi. 7 cilddə, V cild (1900-1920). Bakı, Elm, 2001
23. Azərbaycan tarixi. 7 cilddə. VI cild (1920-1941).Bakı: Elm, 2001
24. Azərbaycanın türkçülük və azərbaycançılıq problemləri. Bakı: Ay-Ulduz, 1998
25. Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti (1918-1920). Bakı: Gənclik, 1990
26. Azərbaycan Kommunist Partiyasının oçerkləri. Bakı: Azərnəşr, 1964
27. Azərbaycan Respublikası DSPİHA: f.276, s.7, iş. 168, v.1
28. Azərbaycan Respublikası DSPİHA: f.277, s.2, iş.1, v.37
29. Azərbaycan Respublikası DSPİHA: f.894, s.10, iş.39, v.2
30. Azərbaycan Respublikası DSPİHA: f.895,s.3,iş.187,v.1-2
31. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I- II cildlər. Bakı, Lider nəşriyyatı, 2004
32. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqraifk hesabatlar). II cilddə, I- II cildlər. Bakı, "Azərbaycan" nəşriyyatı, 1998
33. Azərbaycan: Tarixi, siyasi və kulturoloji müstəvidə (Məqalələr toplusu). Bakı, Azərnəşr, 2010
34. Baykara Hüseyn. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı: Azərnəşr, 1992
35. Balayev Aydın. Məmməd Əmin Rəsulzadə (1884-1955). Bakı, "Çıraq", 2012

36. Bon Lev Qustav. Sosializm psixologiyası. Bakı, 2011
37. Bünyadov Ziya. Qırmızı terror. Bakı: Azərnəşr, 1993
38. Cavad Əhməd. Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, 2005
39. Cavid Hüseyn. Əsərləri. I-V cildlər. Bakı, “Lider”, 2005
40. Cabbarlı Cəfər. Əsərləri. I-IV cildlər. Bakı, Şərq-Qərb, 2005
41. Cabbarlı Nikpur. Azərbaycan mühacirət nəsri. Bakı, “Elm və təhsil”, 2011
42. Cəfərov Nazim. Milli ictimai fikir tariximizdən. Bakı: Azərnəşr, 1993
43. Cəfəroğlu Əhməd. Seçilmiş əsərləri. Bakı: Mütərcim, 2008
44. Çaxmaqlı Qafar. Erməni ideologiyasında irqçi motivlər. Bakı, 2021
45. Çəmənzəminli Yusif Vəzir. Əsərləri. Üç cilddə. I-III cildlər. Bakı, AVRASİYA-PRESS, 2005
46. Elçibəy Əbülfəz. Bütöv Azərbaycan yolunda. Bakı, Nurlar, 2004
47. Elçibəy Əbülfəz. Deyirdim ki, bu quruluş dağılacaq. Bakı, Gənclik, 1992
48. Ədilli Şirvani. Milli ideologiyamız: Türklük, Çağdaşlıq, İslamlıq. Bakı, Elm və təhsil, 2013
49. Ələkbərov Faiq. Məhəmməd Əmin Rəsulzadənin dünyagörüşü, Bakı, “Təknur”, 2007, 269 s.
50. Ələkbərov Faiq. Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış (I cild). Bakı, “Təknur”, 2011
51. Ələkbərov Faiq. Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış (II cild). Bakı, “Elm və Təhsil”, 2014
52. Ələkbərli Faiq. Turan sivilizasiyasına giriş: Turan məfkurəsi və tanrıçılıq. Bakı, “Xan” nəşriyyatı, 2017
53. Ələkbərli Faiq. Turan sivilizasiyasına giriş: Turan məfkurəsi və tanrıçılıq. Təkmiləşdirilmiş təkrarnəşr, “Elm və təhsil”, 2021
54. Ələkbərli Faiq. Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər). I cild. Bakı, Elm və təhsil, 2018.
55. Ələkbərli Faiq. Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər). II cild. Bakı, Elm və təhsil, 2020.

56. Ələkbərli Faiq. Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər). III cild. Bakı, Elm və təhsil, 2021.
57. Əhmədov H. M. XIX əsr Azərbaycan məktəbi. Bakı: ABU, 2005
58. Əhmədli Rafail. Azərbaycan milli-demokratik dövlətçilik məfkurəsi: türkçülük, müasirlik, islamçılıq. Bakı, Elm, 2007
59. Əhmədli Cəmil. Cəmiyyət. Siyasi ideologiya. Bakı: “Bakı Universiteti Nəşriyyatı”. 1997
60. Həsənov Rəfail. Siyasi sosiologiya (Ali məktəblər üçün dərs vəsaiti). Bakı, 2010
61. Əliyev H.Ə. Müstəqillik yollarında. IV cilddə. I-IV cildlər. Bakı: Azərbaycan, 1997.
62. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. 1-2-ci kitablar. Bakı: Azərnəşr, 1997
63. Əliyev Mövsüm. Məmməd Əmin Rəsulzadə. “Odlar yurdu” qəz., Bakı, 1988, №17
64. Əlizadə Soltan. Məhəmməd Əmin Rəsulzadə və islam (mülahizələr, şərhlər). Bakı, 2003
65. Əhməd Vüqar. Son nəfəsədək Azərbaycan (Məhəmməd Əmin Rəsulzadə). Təkrarnəşr. Bakı, “Ecoprint” 2020
66. Əfəndiyev Elçin. Məmməd Əmin Rəsulzadə. Bakı, “Şərq-Qərb”, 1994
67. Əfəndiyev S.M. Azərbaycan proletariatının inqilabi hərəkatı tarixindən. Bakı, Azərnəşr, 1957
68. Əfqani Cəmaləddin. Seçilmiş əsərləri. Bakı, Azərnəşr, 1998
69. Əfqani Cəmaləddin. Təfsirçinin təfsiri. //Fəlsəfə və sosial-siyasi elmlər. № 2(30), Bakı, “Azərbaycan Universiteti”, 2010 (C.Əfqaninin bu məqaləsini ingilis dilindən Azərbaycan türkcəsinə çevrib nəşrə hazırlayan dos., dr. Qəmər Mürşüdlüdür)
70. Əfəndiyev Sultan Məcid. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı, Azərnəşr, 1988
71. Əfəndiyev S.M.Seçilmiş əsərləri. İki cilddə. 2-ci cild. Bakı. Azərnəşr, 1990

72. Fətəli Xan Xoyski. Həyat və fəaliyyəti (sənəd və materiallar), Bakı, "Azərbaycan", 1998
73. Füyuzat (1906-1907). Bakı: Çaşıoğlu,2006
74. Göyalp Ziya. Türkçülüyün əsasları. Bakı, Maarif, 1991
75. Göyüşov Ziyəddin. Azərbaycan maarifçilərinin etik görüşləri. Bakı: Elm, 1993
76. Göyüşov Altay. Azərbaycanda ittihadçılıq. Bakı, "İrşad", 1997
77. Göygöl Çingiz. Mühafizəsi lazım gələn milli ruh// Ankara, "Mücahit" dərgisi, №9, 1957-ci il, iyun
78. Hadi Məhəmməd. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2005
79. Hacıbəyli Üzeyir. Seçilmiş əsərləri. İki cilddə. I-II cildlər. Bakı, "Şərq-Qərb", 2005
80. Hacıbəyli Üzeyir. Nəşrlərdə kənara qoyulmuş, ixtisar və "redaktə" edilmiş əsərləri. Bakı, "Elm", 2010
81. Hacıbəyli Üzeyir. "Bir yaş"."Azərbaycan" qəz., 1919, 28 may, №190
82. Hacıbəyli Ceyhun. Azərbaycan davam edir. "Azərbaycan" Münhen, 1951, №1
83. Hacıbəyli Ceyhun. Visbadendən – Ştarnberqə "Azərbaycan" Münhen, 1952, №5
84. Hacıbəyli Ceyhun. Bir millətin namusu. "Azərbaycan" yur., Münhen, 1953, №8
85. Hacıbəyli Ceyhun. Seçilmiş əsərləri. Bakı, Elm, 2017
86. Hacıyeva Arzu Əşrəf qızı. N.Nərimanovun din haqqında fəlsəfi düşüncələri. Bakı: Az. Ensiklopediyası NPB,1998
87. Həsənov Cəmil. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920). Bakı: Azərnəşr, 1993
88. Həsənli Cəmil. Azərbaycanda milli məsələ: siyasi rəhbərlik və ziyalılar (1954-1959). Bakı, Adiloğlu, 2008
89. Həsənli Cəmil. Tarixi şəxsiyyətin tarixi: Əlimərdanbəy Topçubaşov. Azərbaycan Diplomatik Akademiyası, Bakı, 2013
90. Həsənli Cəmil. Sovet dövründə Azərbaycanın xarici siyasəti (1920-1939). Bakı, "Adiloğlu", 2012

91. Həsənov Həsən. Nəriman Nərimanov–milli təmayüllü kommunist. Bakı, Pedaqogika,2004
92. Həsənov Həsən. Nəriman Nərimanov: Milli ruh və siyasi təfəkkürün vəhdəti. Fəlsəfə və sosial-siyasi elmlər. Sayı 2. Bakı, 2010
93. Həsənov Ağasəlim. Milli ideologiya və milli-mənəvi dəyərlər. Bakı, 2012
94. Hüseynzadə Əli bəy. Siyasəti-Fürusət. Bakı, Elm, 1994
95. Hüseynzadə Əli bəy. Qırımızı qaranlıqlar içində yaşıl işıqlar. Bakı: Azərnəşr, 1996
96. Hüseynzadə Əli bəy. Türklər kimdir və kimlərdən ibarətdir?. Bakı, "Mütərcim", 1997
97. Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2007
98. Hüseynov Şirməmməd. Müstəqilliyin çətin yolu... Biz hara gedirik? Bakı: Azərnəşr, 1996, 326 s.
99. Hüseynov Şirməmməd. Mətbu irsimizdən səhifələr. Bakı, "Çənlibel" NPM, 2007
100. Xudiyev R. Türk Ədəmi-Mərkəziyyət Firqəsi-Müsavat // Elm və Həyat, Bakı, 1990, №5, s.12-15
101. Xəlilli Xəliyəddin. Sosializm ideologiyasının mənbələri, inkişafı və faciələrinin tarixinə giriş. Bakı, Xan nəşriyyatı, 2022
102. İbrahimli Xaləddin. Azərbaycan mühacirət tarixi. Bakı, ADPU nəşriyyatı, 2012
103. İbrahimli X., Zeynalov R. Müsavat Partiyasının 1920-ci 27 aprel istilasından sonra fəaliyyəti tarixindən // Müsavat, Bakı, 1993, №1(5)
104. Kəngərli Məhəmməd. Xaincəsinə boğulan bir səs.// Azərbaycan mühacirət irsi. Bakı, "Elm və Təhsil", 2011
105. Kərimi Səadət. Azərbaycan milli və siyasi ideologiyası haqqında. Bakı, Elm və təhsil, 2017
106. Köçərli F.Q. M.F.Axundovun dünyagörüşü.Bakı: Elm, 1999
107. Köçərli F.Q. "Molla Nəsrəddin"çi Ömər Faiq. Bakı: Elm, 1996

108. Köçərli Firudin Qasım oğlu. Üzeyir Hacıbəyovun ictimai-siyasi görüşləri. Bakı, Azərb. SSR EA nəşriyyatı, 1965
109. Köçərli F.Q. Nəriman Nərimanov. Həyatı, fəaliyyəti və dünyagörüşü. Bakı, Azərnəşr, 1965
110. Köçərli F.Q. Marksizm-leninizm və Azərbaycanda demokratik ictimai fikir. Bakı, Azərnşər, 1976
111. Qarayev Yaşar. Azərbaycan ədəbiyyatı XIX və XX yüzillər. Bakı, 2002
112. Qasımlı M., Muradova B., Qafarov V. Azərbaycan parlamentarizmi tarixi.2 cilddə. 1-2 cildlər. Bakı, Mütərcim, 2018
113. Quliyev C. Lenin və Azərbaycanda sovet hakimiyyətinin qələbəsi və möhkəmlənməsi uğrunda mübarizə. Bakı:Azərnəşr, 1957
114. Qurbanov Şamil. Məmməd Əmin Rəsulzadə. Bakı: Nurlan, 2001.
115. Qurbanov Şamil. Nəriman Nərimanov dünyası. Bakı, Azərnəşr, 2001
116. Qurbanov Şamil. Cəmaləddin Əfqani və türk dünyası. Bakı, 1996.
117. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992
118. Məmmədzadə M.B. Qafqaz İstiqlal elanının 40-cı ildönümü münasibəti ilə. "Dərgi", yıl: №12, Münih 1958
119. Məmmədzadə M.B. Köylü hərəkatı. Lenin milli siyasəti. Bakı, 2007
120. Məmmədzadə M.B. Qafqaz İslam Ordusu. Azərbaycan mühacirət irsi. Bakı, "Elm və Təhsil", 2011
121. Məmmədzadə M.B. Azərbaycanda azadlıq yoxdur. Azərbaycan mühacirət irsi. Bakı, "Elm və Təhsil", 2011
122. Məmmədzadə M.B.Mart günləri. "İstiqlal"q., 31 mart, 1920, №12
123. Məmmədzadə M.B. Azərbaycan çağırıyor, "Açıq söz" qəz., 1918-ci il 4 yanvar

124. Məmmədzadə M. B. Azərbaycan Milli Xartiyası. 28 Mayıs İstiqlal bəyannaməsinin təhlili. "Azərbaycan" jurnalı, №4, Bakı, 1991
125. Mərdanov M.C; Quliyev Ə.Q. Azərbaycan Respublikasının dövlət rəmzləri. Bakı, Çaşıoğlu, 2001
126. Məmmədquluzadə Cəlil. Əsərləri. III c., VI clddə. Bakı: Azərnəşr, 1984
127. Məmmədquluzadə Cəlil. Əsərləri. IV cilddə, I - IV cildlər. Bakı, "Öndər", 2004
128. Mədətli Eynulla. Azərbaycan tarixi məsələləri İran tarixşünaslığında (XX əsrin əvvəlləri). Bakı, "Turxan NPB", 2017;
129. Mədətli Eynulla. İranda Azərbaycan tarixi məsələləri. Bakı, "Turxan NPB", 2020;
130. Mustafayev Qədim. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı: Maarif, 1973
131. Marks K., Engels F. Kommunist Partiyasının Manifesti. Seçilmiş əsərləri, 1-ci cild. Bakı, Azərnəşr, 1953
132. Marksizm-Leninizm fəlsəfəsinin əsasları. Bakı, Azərnəşr, 1980
133. Mürşüdlü Qəmər. Cəmaləddin Əfqaninin sosial-siyasi fəlsəfəsi. Bakı, "ULU", 2019
134. Mürşüdlü Qəmər. C.Əfqaniyə görə dinin fəlsəfəsi// İlahiyyat fakültəsinin Elmi Məcmuəsi. №09, aprel, Bakı, 2008
135. Müznib Əlabbas. Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, 2006
136. Müşfiq Mikayıl. Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, 2004
137. Nemanzadə Ömər Faiq. Seçilmiş əsərləri.Bakı, Şərq-Qərb, 2006
138. Nəsibzadə Nəsib. Azərbaycan Demokratik Respublikası (məqalələr və sənədlər). Bakı: Elm, 1990
139. Nəsibli Nəsib. Azərbaycan Demokrat Respublikasının xarici siyasəti. Bakı, Qanun, 2011
140. Nəsibli Nəsib. Şeyx Cəmaləddin Əfqani (Fikir və əməl böyüklərimiz). Bakı, "Nurlar" NPM, 2014
141. Nəsib bəy Yusifbəyli – milli istiqlal və dövlətçilik mücahidi. Bakı, "Ziya", 2013

142. Nərimanov Nəriman. Məqalələr və nitqlər. I c., II cilddə, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1977
143. Nərimanov Nəriman. Məqalələr və nitqlər. II cilddə, I cild, Bakı, Azərnəşr, 1971
144. Nərimanov Nəriman. Seçilmiş əsərləri. Bakı,“Lider nəşr.”, 2004
145. Nitsşe F. Külliyyatından qızıl seçmələr. Bakı, 2014
146. Razumovski V.İ. Bakı şəhərində universitetin əsasının qoyulması. Bakı: Bakı Dövlət Universitetinin xəbərləri, 1922.
147. Rəsulzadə M.Ə.Əsərləri (1903-1909). I cild. Bakı, Azərnəşr, 1992
148. Rəsulzadə M.Ə. Əsərləri (1909-1914). II cild. Bakı: Şirvannəşr, 2001
149. Rəsulzadə M.Ə. Əsərləri (1915-1916). III cild, Bakı, Elm, 2012
150. Rəsulzadə M.Ə. Əsərləri (1916-aprel,1917). IV cild. Bakı, “Qanun nəşriyyatı”, 2013
151. Rəsulzadə M.Ə. Əsərləri. V cilddə. I-V cildlər. Bakı, “Təhsil”, 2014
152. Rəsulzadə M.Ə. Əsərləri (Mühacirət dövrü: Türkiyə, 1922-1929). I cild, Bakı, “OL” npkt, 2016
153. Rəsulzadə M.Ə. Əsərləri (Mühacirət dövrü: Türkiyə, 1923-1931). II cild, Bakı, “Qanun” nəşriyyatı, 2021
154. Rəsulzadə M.Ə. Mühacirət dövrü ədəbi-elmi irsindən seçmələr. I cild, Bakı, Elm, 2016
155. Rəsulzadə M.Ə. Stalinlə ixtilal xatirələri. Bakı: Elm, 1991.
156. Rəsulzadə M.Ə.Stalinlə ixtilal xatirələri.Bakı:Elm və təhsil, 2011
157. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm,1990
158. Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991
159. Rəsulzadə M.Ə. Azərbaycan şairi Nizami. Bakı, Azərnəşr, 1991

160. Rəsulzadə M.Ə. Azərbaycan şairi Nizami. Bakı, "Çıraq", 2008
161. Rəsulzadə M.Ə. Azərbaycanda Milli Hərəkat. Bakı, Elm, 2009
162. Rəsulzadə M.Ə. Qafqaz türkləri. Bakı, Təknur, 2012
163. Rəsulzadə M.Ə. Milli birlik. Bakı, "Çıraq" nəşriyyatı, 2009
164. Rəsulzadə M.Ə. Panturanizm. Qafqaz sorunu. Bakı, Təknur, 2012
165. Rəsulzadə M.Ə. Bolşeviklərin Şərq siyasəti. Bakı, Sabah, 1994
166. Rəsulzadə M.Ə. Bakı və Azərbaycan tarixinə dair əsərlər (1918-1919). Bakı, Qanun nəşriyyatı, 2013
167. Rəsulzadə M.Ə. Məktublar.Şəfibəyçilik. Bakı, KitabKlubu, 2017
168. Rəsulzadə M.Ə.Bəsirət gərək. "Bəsirət" qəz.,Bakı,1914, 12 aprel
169. Rəsulzadə M.Ə. Dirilik nədir? // "Dirilik", Bakı, 1914, №1
170. Rəsulzadə M.Ə. Bəlayi əzim. "Dəvət" qəz., Bakı, 1906, 20 iyul
171. Rəsulzadə M.Ə. Qiraətxanə. "İrşad" qəz., Bakı, 1906, 14 mart
172. Rəsulzadə M.Ə.Kənddə müsibət."İrşad" qəz., Bakı, 1906, 5 yan.
173. Rəsulzadə M.Ə. İki nüktə. "İrşad" qəz., Bakı, 1906, 4 iyul
174. Rəsulzadə M.Ə. Daşnaksutyunçuya rədiyyə. "İrşad" qəz., Bakı, 1906, 21 iyul
175. Rəsulzadə M.Ə. Bu gün. "İrşad" qəz.,Bakı,1906, 4 sentyabr
176. Rəsulzadə M.Ə. Keşişlər dövranı."İrşad" qəz.,Bakı,1908,22 yan.
177. Rəsulzadə M.Ə.Qafqazı unutmayın."İrşad" q., Bakı, 1908, 15 mart
178. Rəsulzadə M.Ə. Nə böyük təhqir."İrşad" qəz.,Bakı,1908,8 aprel
179. Rəsulzadə M.Ə. Din bazarı. "İrşad" qəz., Bakı, 1909, 6 iyul
180. Rəsulzadə M.Ə. Tənqidə ehtiyac var."İqbal" qəz., Bakı, 1913,10 oktyabr

181. Rəsulzadə M.Ə. Həyatı sevməli. "İqbal" qəz., Bakı, 1913, 1 iyul
182. Rəsulzadə M.Ə. Diyanət, milliyyət və məişət nöqteyi-nəzərindən kənd məktəbləri. "İqbal" qəz., Bakı, 1914, 11 dekabr
183. Rəsulzadə M.Ə.Novruz münasibətilə. "İqbal" qəz., Bakı, 1914, 13 mart
184. Rəsulzadə M.Ə. Pantürkizm haqqında//Türk dünyası, Bakı, 1991, №1
185. Rəsulzadə M.Ə. Xeyriyyə və maarif cəmiyyətlərimiz. "Tərəqqi" qəz., Bakı, 1908, 17 oktyabr
186. Rəsulzadə M.Ə. Realnı məktəbində müsəlman əlifba sinfi. "Tərəqqi" qəz., Bakı, 1908, 23 sentyabr
187. Rəsulzadə M.Ə. İbtidai yerli məktəblər. "Tərəqqi" qəz., Bakı, 1908, 20 noyabr
188. Rəsulzadə M.Ə. Qafqaz barəsində. "Tərəqqi" qəz., Bakı, 1908, 14 dekabr
189. Rəsulzadə M.Ə.Qəribə bir boykot. "Tərəqqi" qəz., Bakı, 1909, 29 iyun
190. Rəsulzadə M.Ə. Yol təəssüratı."Tərəqqi" qəz., Bakı, 1909, 19 iyun
191. Rəsulzadə M.Ə. Milliyyət və ticarət. "Təkamül" qəz., Bakı, 1906, 30 dekabr
192. Rəsulzadə M.Ə. Rus mətbuatı. "Təkamül" q., Bakı,1907,3 fevral
193. Rəhimoğlu Arif. İdeologiya. Bakı, Elm və təhsil, 2017
194. Rüstəmov Y.İ. Fəlsəfənin əsasları. Bakı, "Azərbaycan Universiteti" nəşriyyatı, 2004.
195. Rüstəmov Y.İ. Siyasi-Hüquqi təlimlər tarixi (mühazirə kursu). Bakı: "Azərbaycan Universiteti" nəşriyyatı, 2000
196. Rüstəmov Y.İ. Türk fikir tarixi haqqında mülahizələr. Bakı: "Çaşıoğlu", 2005
197. Rüstəmov İ.Ə. XX əsrin əvvəllərində Azərbaycanda təbii-elmi və fəlsəfi fikrin vəhdəti. Bakı: Azərnəşr, 1992
198. Rüstəmov İ.Ə. Həsənbəy Zərdabi. Bakı: Gənclik,1969.

199. Rüstəmov İzzət. Həsən bəy Zərdabi. Bakı, “Turan”, 2012
200. Rüstəmov İ.Ə. Azərbaycanda təbii-elmi biliyin inkişafının fəlsəfi problemləri (XIX əsr-XX əsrin əvvəli). Bakı: Diplomat, 2001
201. Rüstəmova-Tohidi Solmaz. Cümhuriyyətin “Azərbaycan” adlandırılması və onun tarixi əhəmiyyəti. Bakı, Təhsil, 2021
202. Sabir M.Ə. Hophopnamə. İki cildə. I-II cildlər. Bakı, 2004
203. Sultanlı Vaqif. Məmməd Əmin Rəsulzadənin ədəbi dünyası. Bakı: Universitetin nəşriyyatı, 1993
204. Sultanlı Vaqif. İstiqlal sevgisi. Bakı, Elm və təhsil, 2014
205. Süleymanlı Mübariz. Əhməd Ağaoğlunun ilk elmi əsəri: Şiə dinində məzdəki inancları. Bakı: “Litterpress”, 2007
206. Süleymanlı M.A. Əhməd Ağaoğlunun “İslama görə və islamiyyətdə qadın” əsərinə elmi-tənqidi yanaşmalar. Bakı: “Litterpress”, 2008
207. Süleymanlı M.A. Azərbaycan kulturoloji fikir tarixindən (XX əsrin əvvəlləri). Bakı: “Nafta-Press”, 2011
208. Süleymanova Sevda. Azərbaycanda ictimai-siyasi hərəkat (XIX əsrin sonu, XX əsrin əvvəlləri). Bakı, 1999
209. Svyatoxovski Tadeuş. Rus Azerbaycanı. Ankara, 1988
210. Şahtaxtlı Məhəmmədağa.Seçilmiş əsərləri. Bakı, Çaşıoğlu, 2006
211. Şaiq Abdulla. Seçilmiş əsərləri. Üç cilddə. I-III cildlər. Bakı, AVRASİYA PRESS, 2005
212. Şeyxzamanlı Nağı. Azərbaycan istiqlal mücadiləsi xatirələri. Bakı, “Azərbaycan” nəşr., 1997
213. Şeyxzamanlı Nağı. Xatirələrim. Bakı, “Vətən”, 2004
214. Şəmsizadə Nizaməddin. Azərbaycan ideologiyası. Bakı: “Sabah”, 1996
215. Şıxlınski Əliağa. Xatirələrim. Bakı, Azərnəşr, 1984
216. Talıbzadə Y.Z. Cəmiyyəti-əqvam. Bakı, “Azərbaycan” qəzeti, 1919-cu il, №348
217. Tağıyev Ə., Mustafayev A.X, Balayev M.A. Azərbaycanda milli hərəkat ideyalarının yaranması və təkamülü. (XIX əsrin sonu - XX əsrin əvvəlləri). Bakı: ADPU-nun nəşriyyatı, 1994

218. Təkinər Süleyman. Tarix boyunca kommunistvari fikir və hərəkatlar// Ankara, "Birləşik Qafqasiya" məcmuəsi, 1963, №6 (23)
219. Turan Refik. Azerbaycanda Okutulan Tarih Ders Kitablarında Stalin və Uyğulamalarına Yaklaşım. Ankara, Bilig, payız 2013, sayı 67
220. Türkel Yadigar. Politologiya (açıqlamalarla sözlük və ya milli kimlik dərsləri). Bakı: "Təknur", 2008
221. Türkəqul M.H. Azərbaycan Türk şairi Hüseyn Cavid. Bakı, 2002
222. Topçubaşov Əlimərdan. Paris məktubları, Bakı, Azərnəşr, 1998
223. Topçubaşi Ə.M. Azərbaycan Cümhuriyyətinin yaradılması. Bakı, Təknur, 2013
224. Topçubaşovun C.Hacıbəyliyə məktubu. 15.07.1920.// S.Mümtaz adına ADƏİA, f.648, s.6, i.2.v.2
225. Ubeydullin Əziz. Əsərləri. Bakı, Şərq-Qərb, 2010
226. Vəliyev (Baharlı) Məhəmməd Həsən. "Azərbaycan" (Fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk).Bakı, "Azərbaycan" nəşr., 1993
227. Vəkilov R. Azərbaycan Respublikasının yaranma tarixi. Bakı, Elm, 1998
228. Vəzirov Nəcəf bəy. Əsərləri. Bakı, Şərq-Qərb, 2005
229. Vurğun Səməd. Əsərləri. 6 clddə. 1 cild. Bakı, Azərnəşr, 1960
230. Vurğun Səməd. Əsərləri. 6 cilddə. 3 cild. Bakı, Azərnəşr, 1961
231. Yaqublu N. Məmməd Əmin Rəsulzadə. Bakı:Gənclik, 1991
232. Yaqublu N. Müsavat Partiyasının tarixi. Bakı: Ay-ulduz, 1997
233. Yaqublu Nəsiman. Azərbaycan milli istiqlal mübarizəsi və M.Ə.Rəsulzadə. Bakı: 2001
234. Yaqublu Nəsiman. Azərbaycan Milli Azadlıq Hərəkatı Ensiklopediyası, Bakı, Qanun nəşr. 2018

235. Yaqublu Nəsiman. Əbdürrəhman Fətəlibəyli-Düdənginski. Bakı. "Abşeron-Nəşr", 2009
236. Yusifbəyli Nəsib bəy. Azərbaycan vətəndaşlarına hökumətin müraciəti. "Azərbaycan" qəzeti, №190, 28 may 1919-cu il
237. Yusifbəyli N.Bizim mətbuat."Tərcüman" qəz.,1906,2 aprel, №37
238. Yusifbəyli N.Bizim mətbuat."Tərcüman" q. 1906,26 aprel, №43
239. Zaqafqaziya seyminin müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları 1918-ci il. Bakı, Adiloğlu nəşr., 2006
240. Zərdabi Həsən bəy. Əkinçi. 1875-1877. Tam mətni. Bakı, Avrasiya Press, 2005
241. Zərdabi H.B. "Dil birliyi", Azərbaycan publisistikası antologiyası. Bakı, "Şərq-Qərb", 2007

**Türkiyə türkcəsində**

1. Aküzüm F.M. Emin Resulzadeyə göre çeşitli cebhelerile Azerbaycan istiklal mücadilesi. Ankara: 1977.
2. Akçura Yusif. Üç terzi siyasət. Ankara, 1987
3. Akçura Yusif. Türkçülük. İstanbul, 1990
4. Akpınar Yavuz.Azeri Türklerinin Orta Doğunun Siyasi ve Kültürel Hayatındaki Rölü.// Jeopolitik-Strateji-Terör-Araştıırmaları Dizsi. 21. Yüzyılda Türk Dünyası Jeopolitiği. Muzaffer Özdağa Armağan. İstanbul, ASAM yayınları, 2014
5. Akpınar Yavuz. Türkiye-Azerbaycan-İran ilişkilerinin geleceği hakkinda bazi düşünceler// "Kardaş Edebiyatlar" dergisi, Türkiye, İstanbul. Sayı 23. 1992
6. Ağayev Ahmet.Türk alem-i.Türk Yurdu,sayı1,yıl1,30 kasım 1911
7. Arran K. 1918 yılı, 28 mayıs. İstanbul: 1936
8. Azerbaycan Kültür Derneginin Nizamnamesi. Ankara: 1949
9. Bayar C.Atatürkün metodolojisi və günümüz. İstanbul, Kervan,1978

10. Baykara Hüseyin. Azerbaycanda yenileşme hareketlerı. XIX yüzil. Ankara, Türk Kültürünü Araştırma Enstitüsü, 1966
11. Baykara Hüseyin. İran inkılabı ve Azatlık Hareketleri. İstanbul, 1978
12. Başbuğ Alparslan Türkeş doğumunun 100.Yılında. Konya, 2017
13. Caferoğlu Ahmed. Azeri edebiyatında istiklal mücadilesi izleri// Azərbaycan Yurt Bilgisi,Yıl:1,sayı:8-9, 1932, agustos-eylül, İstanbul
14. Caferoğlu Ahmed. Azeri edebiyatında istiklal mücadilesi iszleri // Azərbaycan Yurt Bilgisi,Yıl: 1, sayı: 10, 1932, teşrin-1, İstanbul
15. Caferoğlu A. Azeri edebiyatında istiklal mücadilesi iszleri // Azərbaycan Yurt Bilgisi,Yıl: 1, sayı: 11, 1932, teşrin-2, İstanbul
16. Caferoğlu Ahmed. Azerbaycan Cümhuriyyəti// Ankara, “Mücahit” dərgisi, №31-32, 1960-cı il, temmuz-agustos
17. Coske Q. 28 mayısın manası // İlham kaynağı, 1938, №1
18. Duda H. Azerbaycanlı arkadaşlarıma // İlham kaynağı, 1938, №1
19. Dürkheym Emil. Sosyolojik Yöntemin Kuralları. İstanbul, Bordo-Siyah, 2010
20. Elekberov Faiq. Muhammed Emin Resulzadenin Dünya Görüşü. Konya, Buğra, 2014
21. Elekberli Faik. Turan Uyğarlığına Giriş: Turan Mefkuresi ve Tanrıcılık. Ankara, Astana yayınları, 2020, 356 s.
22. Elekberıi Faik. Azerbaycan Türk Felsefesi ve İçtimai Fikir Tarihi (XIX-XX. Yüzyıllar). I Cilt. Ankara, Astana yayınları, 2021, 393 s.
23. Erişirgil Mehmet Emin. Türkçülük devri, milletçilik devri, insanlık devri. Ankara, 1958
24. Fukuyama Frencis. Tarihin sonu ve son insan. İstanbul, Profil, 2014
25. Freud Sigmund. Musa ve Tektanrılı din (üç inceleme). İstanbul, Say yayınları, 2012

26. Güngör Erol. Kültür Değişmesi ve Milliyetçilik. İstanbul. Ötüken. 2007
27. Güngör Erol. Sosyal meseleler ve aydınlar. İstanbul. Ötüken. 2003
28. Gaspıralı İsmail. Seçilmiş eserleri: II. Fikri eserler. İstanbul, Ötüken, 2008
29. Gökalp Ziya. Türkleşmek, islamlaşmak, muasirleşmek. İstanbul, Akvaryum, 2005
30. Gökdemir Ayvaz. Düşüncə tarihimizden portreler. İstanbul, Bayrak, 2005
31. İhsan İ. Rusyada birinci müslüman Kongreyi. Ankara:1990
32. Karaca E. Kafkasya Federasyonu Kafkasya Cümhuriyetinin emniyet kalkanı ola biler mi? // Azerbaycan, Ankara, 1995, №305
33. Kont Ocuest. Pozitiv Felsefe Kursları.İstanbul,Sosyal Yayınları, 2001
34. Laizlo Rasionyi. Tarihte türkçülük. Ankara, 1971. 475s.\
35. Mehmetzade M.B. İstiklalın diplomatik cebhesi // Azerbaycan, Ankara, 1955, №12 (36)
36. Mehmetzade M.B. Mehmet Emin Resulzade. "Azerbaycan" dergisi, Ankara, 1955, sayı 12 (36)
37. Mehmetzade M.B. Resulzade Mehmet Emin. "Dergi", yıl: 1 Ocak-Mart, Minih, 1956
38. Mehmetzade M.B. Türklük ve Komunizm. "Azerbaycan" dergisi, yıl:19, sayı 201, Ankara 1970
39. Mehmetzade M.B. "Maverayi – Kafkasya Federasiyonu neden dağıldı?", "Kurtuluş" dergisi, yıl:3, sayı: 21. Berlin, 1936
40. Mehmetzade M.B. Sovyet Azerbaycanda Türk dilinin ruslaşdırma ve imha siyaseti hakkında. Kurtuluş, Berlin, 1936, №20
41. Mehmetzade M. B. Azerbaycan Misagi-Millisi. Ankara, 2002
42. Mende F.28 mayıs ülkesi yaşamaktadır//İlham kaynağı,1938, №1
43. Mehmet Niyazi. Millet ve milliyyetçilik. İstanbul, 1975

44. Patrik fon Z.M. Camali Haç ile Kızıl yıldız arasında. Ankara: 1984
45. Nesibli Nesib. Azerbaycan tarihi: Millet-Devlet-Siyaset. Ankara, Altınordu yayınları, 2019
46. Resulzade M.E. Yeni Kafkasiya yazıları (1923-1927). Haz., Yavuz Akpınar, Selçuk Türkyılmaz, Yılmaz Özkaya. Ankara, Türk Tarih Kurumu yayınları, 2017
47. Resulzade M.E. Milli tesanüd.Ankara: Kardeş matbaası, 1978
48. Resulzade M.E.Hatıralar ve Kafkasya. İstanbul, 2011
49. Resulzade M.E. Azerbaycan Cümhuriyeti: keyfiyəti-teşekkülü ve şimdiki vaziyeti. İstanbul: 1990.
50. Resulzade M.E. Şefibeycilik. İstanbul: 1934
51. Resulzade M.E. Seçme Eserleri 1. Kitaplar. Haz., Yavuz Akpınar vb. İstanbul, Ötüken, 2020
52. Resulzade M.E. İran Türkleri. Haz., Yavuz Akpınar,İ.M. Yıldırım, S. Çağın, İstanbul, Türk Dünyası Araştırmaları Vakfı, 1993
53. Resulzade M.E. Nesib bey Yusifbeyli.“Odlu Yurt” der.,1929, №3
54. Resulzade M.E. Azerbaycan davası // Azerbaycan, Ankara, 1954, №2-3(26-27)
55. Resulzade M.E. Azerbaycan devletinin büyük devletler tarafından tanınması // Azerbaycan, Ankara, 1995, №10-11(34-35)
56. Resulzade M.E. Tutacağımız yol // Azeri Türk, İstanbul, 1928, №1
57. Resulzade M.E. Milli Azerbaycan hareketinin karakteri // Azerbaycan Yurt Bilgisi, İstanbul, 1934, №29.
58. Resulzade M.E. Kısılmayan bir ses. “İstiklal” gaz., Berlin, 1932, 10 ocak
59. Resulzade M.E. Demokrasi ve sovetler. “İstiklal” gaz., Berlin, 1933, 20 mart
60. Resulzade M.E. Ateş çalan prometey // Yeni Kafkasya, İstanbul, 1923, №1

61. Resulzade M.E. Büyük facia//Yeni Kafkasya,İstanbul,1927, №10
62. Resulzade M.E. Çöhremiz //Odlu yurt, İstanbul, 1929, №1
63. Resuloğlu M.E. Müsavat Partisinin kuruluşu // Müsavat, Münhen, 1962, №4
64. Russo J.J. Toplum Sözleşmesi. Ankara, Nilefer yayıncılık, 2011
65. Saray Mehmet. Kuzey ve Güney Azerbaycan türklerinin tarihi. Bakı, "Şərq-Qərb", 2010
66. Saray Mehmet.Azerbaycan türk tarihi. İstanbul:1993
67. Şeyhzamanlı Nagi. Biz ve Onlar. İstanbul: 1934
68. Şimşir Sebahattin. Mehmet Emin Resulzadenin Türkiyedeki Hayatı, Faaliyetleri ve Düşünceleri. Ankara, Türk Kültürünü Araştırma Enstütüsü Yayınları, 1995
69. Şimşir Sebahattin. Mehmet Emin Resulzade. Hayatı ve Şahsiyeti. İstanbul, Doğu Kütüphanesi, 2012
70. Toynbee Arnold J. Uygarlık yarğılanıyor. İstanbul, Örgün, 201
71. Türkdoğan O. Milli kültür, modernleşme ve islam. İstanbul, 1996
72. Yurdsever Abdülvahab. Sabirin Azerbaycan Edebiyatındakı Yeri. Ankara, 1951
73. Yurdsever A. Sovet istismarçılığı// Ankara, "Azerbaycan" dergisi, №10-11, 1956-cı il ocak-şubat
74. Ünal Cemil. Yeniden doğuş// "Azerbaycan" kültür dergisi, №271, 1990 yıl, ocak-şubat
75. Ülken Hilmi Ziya. Türk tefekkür tarihi. İstanbul, Yapı Kredi Yayınları, 2013
76. Ülken Hilmi Ziya. Türkiyede Çağdaş Düşünce Tarihi. İstanbul,Yapı Kredi Yayınları, 2013

**Rus dilində**

1. Адрес-календарь Азербайджанской Республики за 1920-й год., ред. А.И.Ставроского, Баку: 1920, 283 с.

2. Агайев А. Панисламизм, его характер и направление. “Каспий” газ., 1900 гг. 14 апрел №81, 22 апрел №87
3. Агайев А. Положенийе мусулманских народов // “Каспий”, 1903 гг. 14 нойабр №246, 21 нойабр №251, 29 нойабр №256, 10 декабр №264, 13 декабр №267, 17 декабр №272
4. Алекперли Ферид. Азербайджанские тюрки - история и современность. «Зеркало», 15.08.2009.
5. «Азербайджан» газ., Баку, 1918, декабр, №54.
6. «Азербайджан» газ., Баку, 1919, май, №111.
7. Балаев А. Азербайджанские тюрки: процессы формиоравния нации и национальной идентичности на рубеже XIX-XX вв. Баку, Ганун, 2010
8. Балаев А. Азербайджанское национальное движение в 1917-1918 гг., Баку: Элм, 1990, 280 с.
9. Беленький А., Манвелов А. Революция 1917 в Азербайджане (хроника событий). Баку: 1927, 256 с.
10. Большевики в борьбе за победу социалистической революции в Азербайджане. Документы и материалы 1917-1918 гг., Баку: Азернешр, 1957, 702 с.
11. Геюшев З.Б. Философская мысль в советском Азербайджане. Баку, Элм, 1979
12. Дашдамиров А. Идеологические проблемы, межкавказские отношения. Баку: ИОПИИ. 2001,
13. История международных отношений и внешний политики СССР. Т.1. Москва, 1986, 142 с.
14. Исаев М.И. Современная концепция Кавказа: Этнокультурный аспект//Московское Эхо Кавказа. Москва. 1997
15. Пчелин Н. Крестьянский вопрос при Мусавате (1917-1920). Баку: АЗГНИИ, 1931
16. Маркс К., Энгельс Ф. Сочинение. Т.3. Москва, Наука, 1975
17. Мамедов Ш. Мировоззрение М.Ф.Ахундзаде. Баку, Издательство БГУ, 1962.

18. Международние отношение на Дальном Востоке. Москва: Мысль, 1973.
19. Насиров Т. Борьба за власть в Азербайджане (1917-1920). Баку: Азербайджан, 1993
20. Нариманов Н. Избранные произведения. Т.2, Баку, Елм, 1989
21. Нариманов Н. Ответ некоторым товарищам. "Бакинский рабочий", 15 ийун, 1922 год.
22. Ратгаузер А. Революция и гражданская война и Баку, Ч.1. 1917-1918 г., Баку: Красный Восток, 1927
23. Рзакулизаде С. Дж. Из истории философской мысли Азербайджана. Баку, Текнур, 2010
24. Садыхлы М. Трагедия семи Расулзаде // Литературный Азербайджан, Баку, 1994, №11-12
25. Свйатоховский Т. Руский Азярбайджан 1905-1920 гг. "Хазар" жур., 1990,№1.
26. Сумбатзаде А.С. Азербайджанцы – этногенез и фомирование народа. Баку, Элм, 1990
27. Шаумян С. Ответ гражданину Расулзаде. Газ., «Бакинский Рабочий», Баку, 1918, 17 феврал.
28. Топчибашев Е.М. Меморандум. Баку: Азербайджан,1993
29. Топчибашев Е.М. Дипломатические беседы в Стамбуле (1918-1919). Баку: Эргюн, 1994
30. Токаржевский Е.А. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане. Баку: 1957
31. Тойнви А. Постижение истории.Москва, Айрис-Прессо, 2003
32. Тойнби А.Дж. Исследование истории. Москва, АСТ, 2010
33. Заманова Э. Эстетическая мысль в Азербайджане в XIX – начале XX века. Баку, «Текнур», 2011
34. Заманова Э. Эстетика азербайджанского романтизма XX века. Баку, Текнур, 2007

## Digər dillərdə


1. Axworthy M. The Sword of Persia: Nader Shah form tribal warrior to conquering turant. London, 2006
2. Agaeff A. “Les Croyances mazdeennes dans la religion chiıte”, Transactions of the Ninth İnternational Congress of Orientalists (London 1892), Vol. II, Kraus Reprint, 1968, s. 505-514.
3. Jacob M.L. Pan-Turkism. From Irredentism to Cooperation. Indiana University Press, Paperback, 1995, 275 s.
4. Lewis B. Islam: From the Prophet Muhammad to the capture of Constantinople. Londra, 1974, 312 s.
5. Shissler A.H. Between Two Empires: Ahmet Agaoglu and the New Turkey. I.B.Tauris Co Ltd, London, 2005
6. Swietochowski T. Russian Azerbaijan, 1905-1920: The Shaping of National Identity in Moslem Community. Cambrige University, Press, 1985, 296 s.
7. Weissbach F.H. Die Keilinschriften der Achameniden. Leipzig,1911
8. Georgeon F. “Les debuts dun İntellectüel Azerbaidjanais: Ahmed Ağaoğlu en France 1888-1894”, Passe Turco-Tatar present Sovietique etudes offertes a Aleksandre Bennigsen, Paris 1986, s. 376-388.
9. Georgeon F. La Montee du Nationalisme Turk Dans Letat Ottoman (1908-1914). Revue du Monde Musulman et de la Mediterranee (“Turguie, la Croisee des chemins”), № 50, 1988

**Müəllifin Məhəmməd Əmin Rəsulzadəyə həsr etdiyi dissertasiya işləri, kitablar və məqalələrin siyahısı:**

**Dissertasiya işləri:**

**1.** Ələkbərov Faiq. **XX əsrdə Azərbaycanın xalqının fəlsəfi fikir tarixində Məhəmməd Əmin Rəsulzadənin rolu**. Magistr işi (fəlsəfə tarixi istiqaməti üzrə). BDU-nun Sosial elmlər və psixologiya fakültəsi, "Fəlsəfə tarixi və mədəniyyətşünaslıq" kafedrası, Bakı, 2001

**2.** Ələkbərov Faiq. **XX əsrdə Azərbaycanın ictimai-siyasi və fəlsəfi fikir tarixində Məhəmməd Əmin Rəsulzadənin yeri və rolu.** Fəlsəfə üzrə fəlsəfə doktorluğu dissertasiya işi (fəlsəfə tarixi istiqaməti üzrə). AMEA Fəlsəfə və Hüquq İnstitutu "Fəlsəfə və ictimai fikir tarixi" şöbəsi. Bakı, 2005

**Kitablar:**

1. Ələkbərov Faiq. **Məhəmməd Əmin Rəsulzadənin dünyagörüşü.** Bakı, "Təknur", 2007, 269 s.
2. Elekberov Faiq. **Muhammed Emin Resulzadenin Dünya Görüşü.** Konya, Buğra, 2014, 256 s.
3. Ələkbərli Faiq. **Məhəmməd Əmin Rəsulzadənin sosial-fəlsəfi görüşləri: milli həmrəylik və azərbaycançılıq.** "Elm və təhsil", Bakı, 2022

**Məqalələr:**

1. Ələkbərov Faiq. **Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasında Məhəmməd Əmin Rəsulzadənin yeri və rolu** // AXC-nin 85 illiyinə həsr olunmuş elmi-nəzəri konfransın MATERİALLARI (26 may 2003). AMEA

Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, Bakı, Təknur, 2003, s.17-32

2. Ələkbərov Faiq. **XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi, ideoloji mühit və Məhəmməd Əmin Rəsulzadə** // «Sosial-siyasi problemlər»-XII, Bakı, "MBM" MMC, 2004, s.215-217
3. Ələkbərov Faiq. **Məhəmməd Əmin Rəsulzadənin etik və estetik görüşləri** //«Qanun» ictimai-siyasi, elmi hüquq jurnalı. №7 (123), Bakı, «Qanun» Nəşrlər Evi, 2004, s.36-38
4. Ələkbərov Faiq. **Məhəmməd Əmin Rəsulzadənin yaradıcılığında islam və sosial-demokratizm** // «Elm və Həyat» №1-2, Bakı, Elm, 2004, s.19-21
5. Ələkbərov Faiq. **Məhəmməd Əmin Rəsulzadə və müsavatçılıq (türkçülük) ideologiyası** // "Sosial-siyasi problemlər" №11, Bakı, ADPU-nun mətbəəsi, 2004, s. 191-200
6. Ələkbərov Faiq. **XX əsrdə Azərbaycan xalqının ictimai-siyasi və fəlsəfi fikir tarixində M.Ə.Rəsulzadənin yeri və rolu** // AMEA Aspirantlarının elmi konfransının Materialları (12 iyul 2004). Bakı, Elm, 2004, s.276-278
7. Ələkbərov Faiq. **Məhəmməd Əmin Rəsulzadənin görüşlərində Şərq-Qərb məsələsi** // "Şərq-Qərb: sivilizasiyaların dialoqu» №1 (1). Bakı, AMEA Fəlsəfə və Siyasi Hüquqi Tədqiqatlar institutunun mətbəəsi, 2005, s.200-212
8. Ələkbərov Faiq. **Məhəmməd Əmin Rəsulzadənin ictimai-siyasi görüşlərində dinlərə münasibət** // «Şərq-Qərb: sivilizasiyaların dialoqu» №2 (3). Bakı, AMEA Fəlsəfə və Siyasi Hüquqi Tədqiqatlar institutunun mətbəəsi, 2006, s.80-93
9. Ələkbərov Faiq. **Məhəmməd Əmin Rəsulzadənin bədii-estetik görüşləri** // Humanitar elmlər seriyası. Xəbərlər, №3, Bakı, ADPU mətbəəsi, 2006, s.243-248
10. Ələkbərov Faiq. **Məhəmməd Əmin Rəsulzadənin görüşlərində qadına münasibət**//"Azərbaycanda qadın məsələsi" №12, Bakı, Təknur, 2006, s.201-205

11. Ələkbərov Faiq. **Məhəmməd Əmin Rəsulzadə AXC-nin yaradıcılarından biri kimi** // «Mədəniyyət dünyası» jurnalı, №12, Bakı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin mətbəəsi, 2006, s.271-276
12. Ələkbərov Faiq. **Məhəmməd Əmin Rəsulzadənin ictimai-siyasi görüşlərində dinə münasibət**// «Elmi Axtarışlar», №19, Bakı, Səda, 2006, s.230-235
13. Ələkbərov Faiq. **XX əsrin əvvəllərində ictimai-siyasi, ideoloji mühit və Məhəmməd Əmin Rəsulzadə**// Humanitar elmlər seriyası. Xəbərlər, №2, Bakı, ADPU mətbəəsi, 2006, s.233-241
14. Ələkbərov Faiq. **Məhəmməd Əmin Rəsulzadənin sosial-fəlsəfi görüşləri**// «Şah İsmayıl Xətai» VII Ümumrespublika elmi-praktik konfransının müzakirəyə təqdim olunmuş MATERİALLARI (17 iyul 2007). Bakı, Təknur, 2007, s.16-21
15. Ələkbərov Faiq. **Məhəmməd Əmin Rəsulzadənin fəlsəfi-siyasi görüşləri** //«Dirçəliş» XXI əsr, №120-121, Bakı, Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutunun mətbəəsi, 2008, s.224-235
16. Ələkbərov Faiq. **Məhəmməd Əmin Rəsulzadənin fəlsəfi görüşləri.**// Renesans. №6 (6), Bakı, Təknur, 2008, s. 44-49
17. Ələkbərov Faiq. **Məhəmməd Əmin Rəsulzadənin yaradıcılığında «erməni məsələsi»nə münasibət**// «Fəlsəfə» beynəlxalq elmi-nəzəri jurnal, № 1 (14). Bakı, AMEA FSHİ mətbəəsi, 2010, s.98-105
18. Ələkbərov Faiq. **Türk Cümhuriyyətinə «Azərbaycan» adının verilməsinin üç səbəbi və üç hədəfi.**// Türk Eli. Elmi-ictimai-ideoloji jurnal №12, Bakı, Qismət, 2012, s. 17-20
19. Ələkbərov Faiq. **Nizami Gəncəvinin irsində türklük və M.Ə.Rəsulzadənin "Azərbaycan şairi Nizami" əsəri**// Nizami Gəncəvi irsinin tədqiqi və təbliği məsələləri. Bakı, Təknur, 2013, s. 77-85
20. Ələkbərov Faiq. **Azərbaycanda və Şərqi Anadoluda ermənilərin Türk-Müsəlman əhaliyə qarşı soyqırımının**

**M.Ə.Rəsulzadənın əsərlərində əksi (1905-1920-ci illlər)//** Azərbaycanda və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı 1918-1920-ci illər soyqırımı. 2-ci Beynəlxalq konfransın materialları. (Quba, Azərbaycan. 8-12 aprel 2015-ci il). Bakı, Elm və təhsil, 2015, s.206-211

21. Ələkbərli Faiq. **Azərbaycan türkçülüyü məfkurəsi və Məhəmməd Əmin Rəsulzadə** // VII Beynəlxalq Türk incəsənəti, tarixi və folkloru Konqresi. Bakı, Azərbaycan. 11-15 aprel 2017-ci il, Konya, 2017, s. 263-268
22. Ələkbərli Faiq. **Azərbaycan Cümhuriyyətinin yaranmasına və inkişafına tarixi-fəlsəfi baxış** // II. Milletlerararası Azerbaycan–Turkiye munasebetleri sempozyumunun MATERİALLARI. (Azerbaycan, Bakı, 12-14 Ekim 2017). Kastamonu, Kastamonu Universitesi yayınları, 2018, s.79-86
23. Ələkbərli Faiq. **Azərbaycan Cümhuriyyətinin yaranması və inkişafında M.Ə.Rəsulzadə fenomeni//** Azərbaycan Cümhuriyyəti: Tarixi, siyasi və ədəbi-kulturoloji müstəvidə (elmi məqalələr toplusu). Bakı, Nurlar NPM, 2018, s. 269-290
24. Ələkbərli Faiq. **M.Ə.Rəsulzadənin yaradıcılığında fəlsəfi və sosial-siyasi problemlər (mühacirət dövrü)//** Əmək və sosial münasibətlər. Elmi-praktiki jurnal. №1 (09) Bakı, "MSV NƏŞR" MMC, 2018, s.15-24.
25. Ələkbərli Faiq. **"Azərbaycan", "Azərbaycançılıq", "Azərbaycan Cümhuriyyəti" ideyalarının milli fəlsəfi-elmi dərki//** Müsəlman Şərqində ilk parlamentli respublika. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş Beynəlxalq elmi konfransın MATERİALLARI. Bakı, 21-23 may 2018, BDU. Bakı, Elm və təhsil, 2018, səh. 276-284
26. Ələkbərli Faiq. **"Məhəmməd Əmin Rəsulzadə"** // Azərbaycan Türk fəlsəfəsi və ictimai fikir tarixi (XIX-XX əsrlər). II cild. Bakı, Elm və təhsil, 2020, s.241-302

27. Ələkbərli Faiq. **Nizami Gəncəvinin irsində islamlıq məsələsi və M.Ə.Rəsulzadənin “Azərbaycan şairi Nizami” əsəri** // Azərbaycan İlahiyyat İnstitutunun təşkilatçılığı ilə “Dini-irfani və fəlsəfi kontekstdə Nizami Gəncəvi yaradıcılığı” mövzusunda Respublika elmi konfrasının Materialları. Bakı, 2021, s. 39-50
28. Ələkbərli Faiq. **Məhəmməd Əmin Rəsulzadənin sosial-siyasi görüşlərində Azərbaycan türkçülüyü (azərbaycançılıq) ideyası** // 1-ci Beynəlxalq Rəsulzadə Qiraətləri. Məhəmməd Əmin Rəsulzadənin irsi Müstəqillik, Demokratiya və Dövlətçilik dəyərləri sistemində. **“**Rəsulzadə Ev Muzeyi” İctimai Qrupu. Məqalələr toplusu. Bakı, “Təhsil”, 2022, səh. 62-85

**FAİQ ƏLƏKBƏRLİ**

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN SOSİAL-FƏLSƏFİ GÖRÜŞLƏRİ: MİLLİ HƏMRƏYLİK VƏ AZƏRBAYCANÇILIQ

***«Elm və təhsil»* nəşriyyatının direktoru:**
***professor* Nadir MƏMMƏDLİ**

**Üz qabığının dizayneri: Kamran İbrahimov**
**Tekniki redaktor: Rövşanə Nizamiqızı**

Çapa imzalanmış **31.01.2022**
Şərti çap vərəqi **26.** Sifariş **№ 138**
Kağız formatı **60x84 1/16.** Tiraj **300**

*Kitab **"Elm və təhsil"** nəşriyyat-poliqrafiya*
*müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*
***E-mail: nurlan1959@gmail.com***
*Тел: 497-16-32; 050-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*